AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

H.İ.MƏMMƏDOVA

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ

- 9517 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – ELM – 2009

63.3(5A)2016-6 +66.4(5)-201
M 51

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur.

**Elmi redaktor:** AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi **Y.M.Mahmudov**

**Rəyçilər:** **Q.Hacıyev** tarix elmləri doktoru

**N.Məmmədov** tarix elmləri namizədi

**İSBN 978-9952-453-37-9**

**H.İ.Məmmədova. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Bakı: Elm, 2009, 360 s.**

*Kitabda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, onun əsas mərhələləri, xüsusilə müstəqillik dövründəki vəziyyəti nəzərdən keçirilir. Problemin Azərbaycan Respublikasının xarici siyasətində yeri və rolu tədqiq edilir, bu məsələ üzrə beynəlxalq təşkilatlarda aparılan işlər, regional güc mərkəzlərinin mövqeləri hərtərəfli və yeni faktik materiallar əsasında təhlil olunur. Mövzu ilk dəfədir ki, kompleks və sistemli şəkildə araşdırılır.*

*Kitabdan diplomatlar, beynəlxalq münasibətlər üzrə mütəxəssislər, tarixçilər, eləcə də geniş oxucu kütləsi istifadə edə bilər.*

H $\frac{0503020907}{655(07)-2009}$ **Qrifli nəşr**

**©. H.İ.Məmmədova, 2009**



## GİRİŞ

Müasir Azərbaycan tarixşünaslığı qarşısında duran ən aktual problemlərdən biri Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranmasının tarixi səbəbləri, mahiyyəti, xarakteri və məqsədini araşdırmaqdan ibarətdir. Bu məsələlər Azərbaycan Respublikasının 20 ilə yaxın bir müddət ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində pozulmuş ərazi bütövlüyünün bərpası probleminin həlli sahəsində mühüm rola malik olub, tədqiqatın kifayət qədər aktual olduğunu təsdiq edir. Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə əsassız ərazi iddiaları ilə başlanan təcavüzkarlıq hərəkətləri Ermənistan SSR-dən bütün azərbaycanlıların tarixi etnik torpaqlarından deportasiya edilməsilə nəticələndi. Bununla bərabər Ermənistan rəhbərliyi Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) separatçı qüvvələri ilə birgə, bölgəni Ermənistana birləşdirmək ideyasını reallaşdırmağa cəhd etdi. Ermənistandan idarə olunan separatçı qüvvələr qeyri-qanuni fəaliyyətə başladılar. Müxtəlif yollarla DQMV-də ictimai vəziyyət gərginləşdirildi. Beləliklə, Dağlıq Qarabağ bölgəsi Ermənistanın Azərbaycana qarşı dövlət separatizminin yaratdığı münaqişə meydanına çevrildi: 1988-ci il fevralın 13-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbilə mitinqlər təşkil edildi. İyulda DQMV-nin Azərbaycanın tərkibindən çıxması, 1989-cu ildə isə onun Ermənistana birləşdirilməsinə dair qeyri konstitutsion qərarlar qəbul edildi.

Ermənistanın ərazi iddiaları və onunla birlikdə cərəyan edən separatizm işğalçılıq və soyqırımı siyasətinə çevrilərək SSRİ-nin dağılması və müstəqilliyin elan edilməsi dövründə Azərbaycanı ağır sınaqlarla üzləşdirdi.

Ermənilər tarixdə misli görünməmiş vəhşiliklər, XX əsrin ən dəhşətli faciəsini-Xocalı soyqırımını törətdilər.

Ermənistan Respublikası təcavüzkara dəstək verən ölkələrin də köməyi ilə apardığı işğalçı müharibə nəticəsində Azərbaycan Respublikası ərazisinin 20%-ni işğal etdi. Hərbi əməliyyatlar zamanı dinc əhali kütləvi surətdə məhv edildi, işğal olunmuş ərazilərdə etnik təmizləmə aparıldı, məqsədyönlü dağıntılar törədildi.

SSRİ-nin dağılması ilə Dağlıq Qarabağ problemi beynəlxalq məsələyə çevrildi. 1992-ci il mart ayının 24-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT; 1994-cü il Budapeşt sammitinədək Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) adlanmışdır) Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Türkiyə, Fransa, İsveç, Çexiya və Slovakiya Federativ Respublikasının (sonralar onun əvəzinə Avstriya, Finlandiya, Norveç) nümayəndələrinin iştirakı ilə Minsk qrupu yaradıldı.

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası (BMT TŞ) isə erməni silahlı qüvvələrinin zəbt edilmiş Azərbaycan torpaqlarından çıxarılmasına, torpaqların azad edilməsinə dair 4 qətnamə (822, 853, 874, 884) qəbul etdi.

Müstəqilliyin ilk dövründə Azərbaycanın xarici siyasət kursu yeni yaranmış situasiyaya kifayət qədər çevik reaksiya verə bilmədi və demək olar ki, hərbi sahədə olduğu kimi diplomatik mübarizədə də təşəbbüs Ermənistan və onu dəstəkləyən qüvvələrin tərəfinə keçdi.

Xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi, oktyabrda Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə Ermənistanın təcavüzkarlıq fəaliyyətinə qarşı mübarizə, dövlətin ərazi bütövlüyünün bərpası xarici siyasətin ən başlıca vəzifəsinə çevrildi.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin mahiyyətinin aydın və konkret ifadəsini müəyyənləşdirməsi oldu.





Heydər Əliyev 23 fevral 2001-ci ildə Dağlıq Qarabağ probleminə dair Milli Məclisdə keçirilən müzakirələr zamanı demişdir: «**Biz deyirik – bu formulu insanların beyninə mən yeritmişəm – Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi:** Amma qalanları nə deyir – Dağlıq Qarabağ münaqişəsi. Çünki hamısı hesab edir ki, bu münaqişə iki ölkə arasında deyil, Dağlıq Qarabağla Azərbaycan arasındadır. Mən dəfələrlə demişəm, əgər belədirsə, qoy Ermənistan kənara çəkilsin. Biz Dağlıq Qarabağla nə danışıqlar aparırıq, nə edə bilərik, öz işimizdir. Biz bunu çox tez müddətdə həll edə bilərik. Ancaq indi Dağlıq Qarabağ, Ermənistan bir ölkədir. Artıq 11 ildir bunlar bir ölkədir. Amma bu həqiqəti heç kəs tanımaq istəmir» (10, 24 fevral 2001-ci il).

Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların da roluna xüsusi diqət vermişdi.

1994-cü il Budapeşt Sammitinin sənədlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair xüsusi bölmə də verilmişdi.

Heydər Əliyev Dağlıq Qarabağ probleminin həllinə dair konseptual baxışını dünya ictimaiyyətinə və bütün beynəlxalq təşkilatlara bəyan etdi. ATƏT-in Lissabon zirvə görüşündə (1996, dekabr) Heydər Əliyev demişdir: "Dağlıq Qarabağın müstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayacaq, biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verməyəcəyik" (100)

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində qətiyyətli mövqeyi davam etdirməklə birgə, onu müasir dövrün tələblərinə uyğun addımlarla möhkəmləndirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan Respublikasının xarici siyasətinin prioritet məsələsi olaraq davam etdirildi. Respublikanın bütün potensialı onun həlli üçün səfərbər edildi.

Bu gün də həmin məqsədyönlü siyasət davam etdirilir. Beləliklə, Azərbaycanın xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yeri və rolunu öyrənmək, bü sahədə əldə edilən təcrübəni ümumiləşdirmək, tarixi perspektivlərini aşkar etmək zərurəti bir daha ortaya çıxır. Bu tarixi təcrübə yeni baxışlar sisteminin formalaşmasına da əhəmiyyətli dərəcədə yardım edə bilər.

«Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan Respublikasının xarici siyasətində» problemi xüsusi tədqiqat mövzusu olmasa da onun ayrı-ayrı aspektləri araşdırılmışdır. Təbii ki, burada ilk yerdə beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasətinə həsr edilmiş tədqiqatlar diqqəti cəlb edir. Bu qrup araşdırmalar içərisində Ə.M.Həsənovun əsərləri mühüm yer tutur. Müəllifin 1997-ci ildə nəşr edilmiş üç kitabında Azərbaycanın xarici siyasətinin bir sıra mühüm məsələləri öyrənilmişdir. Ə.Həsənov 1991-ci ilin oktyabrından 1997-ci ilin avqustunadək olan dövrdə Azərbaycan – ABŞ münasibətlərini tədqiq edərək onun anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru təkamül etməsi nəticəsinə gəlmişdir (114). Digər iki kitabda isə Azərbaycan – ATƏT münasibətlərində həlledici yer tutan Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminə dair məsələlər nəzərdən keçirilmişdir (115; 116). Ə.Həsənovun «Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)» adlı monoqrafiyasında (117) öyrənilən mövzu üzrə bir sıra problemlərə toxunulur. Dörd fəsildən ibarət olan kitabın birinci fəslində «Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifələri, prinsip və istiqamətləri» (117, 11-34) araşdırılır. Kitabda qeyd edilir ki, «müstəqil Azərbaycan dövlətinin





xarici siyasətinin məqsədi, prinsipləri və xüsusiyyətləri respublika Prezidenti Heydər Əliyevin ayrı-ayrı çıxışlarında və Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında öz əksini tapmışdır» (117, 12). Müəllif Azərbaycan dövlətinin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələri on bir qrupa bölür və haqlı olaraq ilk yerdə ölkənin müstəqilliyini, suverenliyini və beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün qorunmasını, onun təhlükəsizlik sistemi ilə sıx bağlanmasını göstərir (117, 12). Kitabın birinci fəslində araşdırılan ən mühüm məqamlardan biri müstəqil Azərbaycan dövlətinin xarici siyasət tarixi ilə bağlıdır. Ə.Həsənov yazır ki, «1991-ci ildə və 1992-ci ilin birinci yarısında Azərbaycan dövlətinin xarici siyasətinin əsasını Rusiya – Azərbaycan əlaqələri və bütövlükdə yalnız Rusiyaya meyllilik strategiyası təşkil edirdi... Azərbaycanın bəhs etdiyimiz dövrdə bütövlükdə Rusiya prizması və mövqeyi üzərində qurulan xarici siyasəti çətin ki, müstəqil dövlətin xarici siyasət kursu kimi qiymətləndirilsin» (117, 17-18). Müəllif 1992-ci ilin martından 1993-cü ilin iyun ayına qədərki müddəti də ayrı bir dövr kimi qeyd edir və onu belə səciyyələndirir: «yeni hakimiyyət xarici siyasət sahəsində dövlətin qarşısında duran strateji məqsədlərə nail olmaq baxımından A.Mütəllibov dövründən uzağa gedə bilmədi...» (117, 19). Yalnız «1993-cü ilin yayında Azərbaycanda baş verən hakimiyyət dəyişikliyi onun xarici siyasət fəaliyyətinin də yeniləşməsinə və ölkənin strateji maraqları əsasında yenidən qurulmasına şərait yaratdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilk növbədə keçmiş sələflərinin xarici siyasət sahəsində buraxdığı səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış son dərəcə kəskin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq, ölkənin strateji maraqlarını əks etdirən yetkin xarici siyasət konsepsiyası hazırlamaq zərurəti ilə üzləşdi» (117, 24). Bu xarici siyasət konsepsiya-

sında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli başlıca yer tuturdu. Kitabın ikinci fəslində Avropa dövlətləri (117, 35-138), üçüncü fəslində ABŞ-la münasibətlər (117, 139-196), sonuncu fəslində Azərbaycanın Qərb dövlətləri ilə əlaqələrində beynəlxalq təşkilatların rolu (117, 197-286) araşdırılır. Müəllif Azərbaycan Respublikasının xarici siyasət kursunun bütün istiqamətlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin əsas yer tutduğunu göstərir.

Ə.Həsənov «Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması»na həsr edilmiş məqaləsində də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin Heydər Əliyevin xarici siyasət xəttindəki rolunu qeyd etmişdir (118).

Ə.Həsənov «Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti» adlı iri həcmli dərsliyində «Azərbaycanın təhlükəsizlik problemləri və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi» adlı xüsusi fəsil ayırmış (119, 695-735), burada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, XX əsrin sonunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və sovet rəhbərliyinin Qafqaz siyasəti, BMT, ATƏT və digər beynəlxalq təşkilatların problemə dair fəaliyyətini göstərmişdir.

A.Abbasbəylinin «Azərbaycan müasir dövrdə» (1) və «Qafqaz geostrategiya məkanında» (2) əsərlərində Azərbaycanın müasir dövlətçilik tarixində yeri, onun mövqeyi və xarici siyasəti, problem və nailiyyətlərindən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən və onun həlli yollarından bəhs edilir.

A.Abbasbəyli və E.Abbasbəylinin «Heydər Əliyev və dünya siyasəti» adlı əsərində (296) Heydər Əliyevin Azərbaycanı beynəlxalq aləmdə tanıtması sahəsində fəaliyyətindən və qazanılan uğurlardan bəhs edilir.





M.Qasımovun «Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər)» əsəri (152) Azərbaycan Respublikasının dünya birliyində tutduğu mövqeyə və yeritdiyi siyasətə həsr edilmişdir. Azərbaycanın diplomatiya sahəsində siyasi və iqtisadi kursun formalaşmış prinsipləri təhlil edilərkən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin həlli ilə bağlı məsələnin beynəlxalq münasibətlərin formalaşmasında mühüm yeri və rolu önə çəkilmişdir.

M.Qasımov «Azərbaycanın xarici siyasəti» adlı digər bir əsərində (153) Azərbaycan dövlətinin həyata keçiridiyi xarici siyasəti ilə bağlı bir sıra problemlərin konseptual-nəzəri əsasları tədqiq olunmuş, o cümlədən respublikanın müstəqilliyini əldə etdiyi ilk vaxtlardan başlayaraq yürütdüyü xarici siyasəti səciyyələndirən müxtəlif amillər, onun prinsip, məqsəd və vəzifələri şərh edilmişdir. Əsərdə Azərbaycan diplomatiyasının mahiyyəti beynəlxalq təşkilatlar, hüquq normaları nöqteyi nəzərindən işıqlandırılmış, habelə beynəlxalq və dünya dövlətləri ilə Azərbaycan arasındakı qarşılıqlı münasibətlərin inkişaf ənənələri geniş formada təhlil edilmişdir.

V.Quluzadənin «Gələcəyin üfüqləri (Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər)» adlı kitabında (161) Azərbaycan Respublikası prezidentinin xüsusi nümayəndəsi kimi fəaliyyət göstərmiş diplomat-politoloqun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibəti öz əksini tapmış, problemin danışıqlar yolu ilə həlli məsələsinin müəyyən məqamları, bununla bağlı danışıqlar, mülahizələr, müsahibələr şərh edilmişdir. Burada Ermənistanın Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasətinə beynəlxalq aləmin münasibəti, münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində nizama salınmasında Rusiyanın və ABŞ-ın mövqeyi məsələlərinə toxunulmuş, ATƏT-in zirvə

toplantılarına hazırlıq mərhələləri, toplantı prosesləri, onların gedişi və nəticələri şərh edilmişdir.

E.Nəsirovun "Azərbaycan-ABŞ münasibətləri" kitabında (172) Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlərə, eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və bunun həlli məsələsinə toxunulmuşdur. Burada Dağlıq Qarabağ probleminin dinc nizama salınması prosesində ABŞ- ın tutduğu mövqe də əksini tapmışdır.

V.Abdullayev və M.Nəcəfovun tədqiqatlarında Azərbaycan diplomatiyasının müasir mərhələdəki vəziyyəti, əsas prioritetləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və b. xarici siyasət vəzifələrinin həllindəki rolu nəzərdən keçirilmişdir (4; 411). S.Qəndilov və E.Poluxanovun Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərinə həsr edilmiş məqalələrində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə fəaliyyət də mühüm yer tutur (155; 430).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin xarici siyasət tarixində yerini öyrənmək baxımından C.Həsənlinin 1918-1920-ci illərdə Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerinə (120) və N.Nəsibzadənin elə həmin dövrdə Azərbaycanın xarici siyasətinə (218) dair monoqrafiyalarını da qeyd etmək lazımdır.

Mövzuya dair əsərlər içərisində, bilavasitə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr edilmiş tədqiqatlar xüsusi qrup kimi ayrıla bilər. Bu tədqiqatlar da istiqamətlərinə görə fərqlənir. İ.Şükürov, F.İsmayılov, H.Hüseynov, A.Məmmədov və b. tədqiqatları məsələnin geosiyasi kökləri, səbəbləri və miqyasna həsr edilmişdir (478; 137; 344; 181; 59). E.Mehdiyevin məqaləsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə fəaliyyətdən bəhs edilir (400).





Bu qrup içərisində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq baxımından tədqiqinə dair əsərlər də xüsusi istiqamət kimi ayrıla bilər. Burada V.İbayevin iki monoqrafiyasını qeyd etmək olar.

V.İbayevin "Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüququn CUS COGENS prinsipləri prizmasında" adlı monoqrafiyasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun şəkildə nizama salınmasının zəruriliyi, beynəlxalq hüquq prinsiplərinin münaqişənin nizama salınmasına dair tələbləri şəhr edilmişdir. Bu beynəlxalq hüquq prinsiplərinin pozulmasından irəli gələn nəticələr barədə də ətraflı məlumat verilmişdir (134).

«Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsı insan hüquqları kontekstində" əsərində isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsı ilə bağlı məsələlərə toxunulmuş, tətbiq olunan hüquq və məsuliyyət məsələləri öyrənilmişdir (133).

T.F.Musayev də Dağlıq Qarabağ probleminin hüquqi aspektlərini öyrənmişdir (406).

Dağlıq Qarabağ probleminin hüquqi baxımdan araşdırılmasında E.Abdullayevin «Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində» kitabı xüsusi qeyd edilə bilər. Kitabın birinci bölməsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, ikinci bölmədə münaqişə beynəlxalq təşkilatlarda, üçüncü bölmədə beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər, dördüncü bölmədə ATƏT-in təklifləri tədqiq edilir (3). Kitabda istinad edilən bütün sənədlərin mətninin verilməsi onun əhəmiyyətini daha da artırır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair Ermənistanın mövqeyinin tənqidinə həsr edilmiş «Heç yerə yol: illüziyalar tələsində. Ermənistanın siyasəti populyar

day.az saytının materiallarında» kitabı da problem üzrə təhlili yazılarla və faktik bazası ilə diqqəti cəlb edir.

Mövzu üzrə əsərlərin digər bir qrupu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixilə bağlıdır. Azərbaycan tədqiqatçılarının əsərlərinin böyük bir hissəsində Azərbaycanın Qarabağ bölgəsinin tarixi kompleks şəkildə araşdırılmışdır. Bu baxımdan Q.Qeybullayevin, R.Göyüşovun, T.Köçərlinin, Y.Mahmudov və K.Şükürovun Qarabağ tarixinə, onun keçdiyi inkişaf yolunun mərhələlərinə, Qarabağın tarixinin saxtalaşdırılmasının tənqidinə həsr edilmiş əsərlərini qeyd etmək olar (154; 105; 145; 146; 164). «Qarabağ: Kürəkçay müqaviləsi – 200» kitabında Qarabağ tarixinin əsas mərhələləri, 1805-ci il 14 may Rusiya ilə Qarabağ xanlığı arasındakı Kürəkçay müqaviləsi, onun əsas müddəaları və nəticələrinə dair məqalələr çap edilmişdir (338).

Qarabağın ümumi tarixi inkişafı ilə birgə Dağlıq Qarabağın tarixi, ermənilərin Dağlıq Qarabağa iddiaları, ermənilərin separatçı fəaliyyətinin əsassızlığı və s. məsələlər də tədqiqat obyekti olmuşdur. V.Quliyeva ermənilərin Azərbaycana qarşı ərazi iddialarının ilkin tarixini, İ.Əliyev Dağlıq Qarabağın lap qədim zamanlardan Azərbaycan torpağı olmasını, R.İmanov və N.Məmmədov Dağlıq Qarabağ Muxtar Vilayətinin tarixini araşdırmışdır (387; 93; 136; 185). Z.Səmədzadənin «Dağlıq Qarabağ: naməlum həqiqətlər» əsərində sovet dövründə Azərbaycan SSR-in DQMV-nin sosial-iqtisadi həyatının inkişaf səviyyəsinə dair inkar edilməz faktlar təhlil olunmuşdur (242). K.T.Rzayevin kitabında isə Qarabağ müharibəsinə dair yalanlar və onların tənqidi verilmişdir (442). P.Darabadi və N.Əliyevin "Xəzər regionunun geotarixi və müasir geosiyasət" kitabında Dağlıq Qarabağ münaqişəsinin geosiyasi kökləri və regionda böyük dövlətlərin maraqları tədqiq edilmişdir. Bu kitabda Xəzər regionunda böyük dövlətlərin geosiyasi maraqları və rəqabəti, bu aləmdə Azərbaycanın mövqeyi əksini tapmış-





dır. Əsər Azərbaycanın da daxil olduğu Qafqaz bölgəsinin müəyyən tarixi zamanlarda münaqişə meydanına çevrilməsinin mahiyyətini dərk etmək baxımından əhəmiyyətə malikdir (351).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair əsərlər içərisində İ.Məmmədov və T.Musayevin kitabı problemin qoyuluşuna görə fərqləndiyindən onun üzərində xüsusi dayanmaq lazımdır. Kitabda münaqişə üç mühüm məsələ – tarix, hüquq və vasitəçilik baxışından nəzərdən keiçrilimişdir, yəni yuxarıda göstərilən tədqiqatlarda ayrı-ayrılıqda öyrənilən bu məsələlər bu kitabda bir araya gətirilmiş, əlavə və geniş biblioqrafiya ilə təmin olunmuşdur. Kitabın birinci fəsli tarix məsələlərinə həsr edilmişdir. Bu fəsil Ermənistan və ermənilər anlayışına aydınlıq gətirilməsindən başlanır. Müəlliflər yazır ki, qədim mənbələrdə və müasir ədəbiyyatda Ermənistan Cənubi Qafqazın hüdudlarından kənarda yerləşən əraziyə münasibətdə işlənən coğrafi anlayış kimi nəzərdən keçirilir (394, 11). Haylar (ermənilər) isə nəinki Cənubi Qafqazın, eləcə də Anadolunun avtoxton əhalisi olmayıb, gəlmə xalq hesab edilir (394, 12). Kitabda Qarabağın XIX əsrədək tarixi, ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi də tarixi faktlarla aydınlaşdırılır. Münaqişənin başlanması Anadoluda erməni məsələsinin həllinin faktik olaraq süquta uğraması ilə əlaqələndirilir (394, 25). Dağlıq Qarabağın 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuryyəti tərkibindəki tarixi də ayrıca şərh olunur. Dağlıq Qarabağın sovet dövrü tarixinə nəzər yetirilir. Müəlliflər yazır ki, münaqişənin hazırkı mərhələsi 1987-ci ilin sonlarından başlanır (394, 37). Kitabın hüquqa həsr edilmiş ikinci fəslində Ermənistanın mövqeyi şərh edildikdən sonra, Dağlıq Qarabağın Azərbaycana məxsus olmasının hüquqi əsasları verilir (394, 41-122). Üçüncü fəsil vasitəçilik səylərindən bəhs edir (394, 123-128). Digər fəsillərlə müqayisədə üçüncü fəslə kifayət qədər yer ayrılma-

mışdır. Buna baxmayaraq, Minsk qrupunun vastəçilik missiyasının mühüm cəhətləri qeyd edilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi və mahiyyətinin müəyyənləşdirilməsi üçün ermənilərin, 1918-ci ildən isə Ermənistan dövlətinin azərbaycanlılara qarşı soyqırım, deportasiya və bir sözlə insanlığa qarşı yönəlmiş cinayətkar əməllərinə həsr edilmiş əsərləri də nəzərə almaq lazımdır. G.Nəcəfli XVIII əsrdə Azərbaycanda erməni dövləti yaradılması cəhdlərini tədqiq etmişdir (216). V.Qədirov XVIII əsrin 80-cı illəri – XIX əsrin əvvəllərində ermənilərin Qarabağa ərazi iddiaları haqqında namizədlik dissertasiyası müdafiə etmişdir (336). XIX-XX əsrin əvvəllərində, yəni Şimali Azərbaycanın Rusiya tərkibində olduğu dövrdə ermənilərin azərbaycanlılara qarşı düşmənçilik fəaliyyəti daha da güclənmiş, 1905-1906-cı illərdə azərbaycanlılara qarşı soyqırımı baş vermişdir. M.S.Ordubadi «Qanlı illər» əsərində 1905-1906-cı illər hadisələrini qələmə almışdır (226). Ermənilərin azərbaycanlılara qarşı cinayətləri və terror hərəkatı bir sıra əsərlərdə əksini tapmışdır (435; 49; 57; 239; 236). Ermənilərin azərbaycanlılara qarşı soyqırım və deportasiyalarının tarixinin öyrənilməsində A.Paşayevin (228; 229; 230), İ.Məmmədov və S.Əsədovun (58; 182; 183; 391; 316; 317), İ.Vəliyevin (253) tədqiqatları xüsusi qeyd edilə bilər.

Ermənilərin azərbaycanlılara qarşı soyqırımlarına dair xeyli ədəbiyyat vardır. Bunların içərisində A.Məmmədov və T.Musayevanın tədqiqatları və b. diqqəti cəlb edir (405; 249; 30; 99; 370).

Azərbaycan ərazilərinə erməni təcavüzünün əsl mahiyyətini açmaq, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və bu iddiaların köklərini müəyyən etmək üçün R.Mehdiyevin əsərləri xüsusi qeyd edilməlidir. Bu əsərlərdə «Böyük Ermənistan» iddiasında olan ermənilərin Rusiyanın Cənubi Qafqaza ayaq basdığı gündən Azərbaycan xalqına qarşı





həyata keçirilən bütün soyqırımlarına, o cümlədən 1905-1906-cı illər qırğınlarının, 1918-ci il Mart soyqırımının, sovet dövründəki bütün qanlı repressiyaların, 20 Yanvar qırğınının, Xocalı soyqırımının, bu gün də həll olunmamış qalan Dağlıq Qarabağ münaqişəsinin də əsasında məhz Rusiyanın imperiyapərəst, şovinist dairələri ilə erməni millətçilərinin ittifaqının durduğu siyasətdən bəhs edilir. R.Mehdiyev tarixi, həmçinin müasir planda, həm konkret faktlar, həm də elmi ümumiləşdirmələr əsasında Kreml rejiminin Dağlıq Qarabağın erməni separatçılarını açıq - aşkar himayə və müdafiə etməsini, Azərbaycana qarşı aparılan informasiya müharibəsini, Qərb dövlətləri və ABŞ-ın seyrçi mövqeyini, erməni diasporunun bu istiqamətdəki fəaliyyətini və s. bütün incəlikləri ilə açıb göstərir (174; 402).

Xocalı soyqırımına dair araşdırmalar da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir (151; 126; 103; 187). M.İsmayılov və İ.Zamanovun əsərlərində (362; 371) ermənilərin azərbaycanlılara qarşı təcavüzü, T.Həsənovun tədqiqatında (340) isə erməni işğalının ağır sosial-iqtisadi nəticələri öyrənilmişdir.

Mövzu üzrə əsas problemlərdən biri olan Azərbaycan Respublikasının digər dövlətlərlə, xüsusilə region dövlətləri ilə əlaqələrində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da müəyyən tədqiqatlar aparılmışdır. F.İsmayılov 2005-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ABŞ-ın mövqeyi mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (139).

Region dövlətləri kimi Rusiya Federasiyası, Türkiyə Respublikası və İran İslam Respublikası ilə münasibətlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də diqqət mərkəzində olmuşdur. H.Quliyev Rusiyanın Azərbaycan strategiyasından, A.Rzayev erməni-Azərbaycan münaqişəsinin Rusiya kütləvi informasiya vasitələrində ək-

sindən, N.Cəfərsoy Azərbaycan-Rusiya əlaqələrinin xarakterindən, V.Abdullayev bu əlaqələrin yeni mərhələyə qədəm qoymasından və s. bəhs etmişdir (160; 443; 263; 4). A.Hacıyev isə 2007-ci ildə nəşr olunan kitabında Rusiya və Azərbaycan arasındakı əlaqələrin kökləri və inkişafı məsələlərinə toxunmuşdur (337).

Azərbaycan-Türkiyə münasibətləri, bu münasibətlərdə mühüm yer tutan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli barədə də müəyyən araşdırmalar vardır. M.Sofiyev Türkiyə-Azərbaycan əlaqələrinin müstəqillikdən sonrakı vəziyyəti, E.Nəsibov ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası ilə münasibətlər haqqında tədqiqatlar (245; 220) aparmışdır. T.Atmaca XX əsrin axırlarında Azərbaycan-Türkiyə münasibətlərinə dair dissertasiya işi (2007-ci il) müdafiə etmişdir (9).

Azərbaycanın dövlət müstəqilliyinin on illiyi ilə (1991-2001) əlaqədar yazılmış «Azərbycan-Türkiyə əlaqələri və Heydər Əliyev» kitabında ulu öndərin Türkiyə ilə münasibətlərin genişləndirilməsi və möhkəmləndirilməsindəki rolu nəzərdən keçirilmişdir (23).

S.Ruintən 2005-ci ildə XX əsrin 90-cı illərində Azərbaycnın türk dövlətləri ilə siyasi əlaqələr sistemində yeri haqqında monoqrafiya çap etdirmiş (234), 2007-ci ildə isə eyni mövzuda namizədlik dissertasiyası müdafiə etmişdir. İşin birinci fəsli bilavasitə Azərbaycan-Türkiyə siyasi əlaqələri barəsindədir. Müəllifin Azərbaycan-Türkiyə münasibətlərinə dair bəzi fikirləri maraq doğurur. Onlardan biri 1991-ci il noyabrın 19-da Azərbaycanın müstəqilliyinin ilk dəfə Türkiyə tərəfindən tanınmasının yaratdığı əks-səda və Türkiyənin cavabı ilə bağlıdır. Onun fikrincə «Türkiyənin bu addımı dünya dövlətləri tərəfindən heç də birmənalı qarşılanmadı. Bundan dərhal sonra ABŞ dövləti Türkiyəyə bir qədər tələsməməyi məsləhət gördü, belə ki, dünyanın di-



- 9574 -



gər fövqəl dövləti olan Sovet İttifaqının mövcudluğu şəraitində Türkiyənin tələskənliyi dünyada gərginliyin artması ilə nəticələnə bilərdi». Türkiyənin bu məsələyə münasibəti Xarici İşlər nazirinin 1991-ci il 11 noyabr tarixli bəyanatında əksini tapmışdı. Digər fikir 1992-ci ilin mayından 1993-cü ilin iyununadək olan dövrdə Azərbaycan-Türkiyə münasibətlərinin qiymətləndirilməsi ilə bağlıdır. Müəllif belə hesab edir ki, həmin dövrdə Azərbaycanın Türkiyə ilə münasibətləri də «yalnız yüksələn xətt üzrə inkişaf etməmiş, mövcud narazılıq və ittihamlar Türkiyə ilə münasibətlərdə də özünü göstərmişdir» (234; həmçinin bax, avtoreferat, s.16-18).

A.Məhərrəmzadənin namizədlik işi isə bilavasitə Türkiyə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr edilmişdir (178). Qeyd olunan dissertasiya işi üç fəsildən ibarətdir. Birinci fəsil «Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geosiyasi kökləri», ikinci fəsil «Ermənistanın Azərbaycana təcavüzü Türkiyənin xarici siyasətində», üçüncü fəsil «Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Türkiyə-Ermənistan münasibətlərinə təsiri və Türkiyədə ictimai rəy» adlanır. İşdə bildirilir ki, «ilk dəfə Dağlıq Qarabağ münaqişəsi regional bir problem olaraq Azərbaycanın daxili bir məsələsi kimi yaransa da bir sıra obyektiv amillərin təsiri nəticəsində ermənilər onu əvvəlcə, SSRİ zamanı, Sovet dövləti səviyyəsinə, sonra isə beynəlxalq aləmə səs salaraq beynəlmiləlləşdirməyə nail oldular. Burada erməni ideoloqları, siyasətçiləri, xaricdəki erməni diasporu və lobbisi, habelə Rusiyada, ABŞ-da, Fransada və s. ölkələrdə mövcud olan tərəfdarları köməklik göstərdilər» (178, 14). Fikrimizcə, burada Dağlıq Qarabağ münaqişəsinin həllinin beynəlxalq məsələyə çevrilməsi mexanizmi dəqiq ifadə edilməyib. Digər tərəfdən isə aydın olmur ki, müəllif bu münaqişənin beynəlmiləlləşməsini necə qiymətləndirir və s.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Azərbaycanın İran İslam Respublikası ilə əlaqələri, bu əlaqələrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yeri məsələsinə dair tədqiqatlar aparılsa da (110), onların dairəsi elə də geniş olmamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq təşkilatlarla münasibətlərdə yeri də tarixi-politoloji ədəbiyyatda müəyyən dərəcədə öyrənilmişdir. Burada bir tərəfdən, ümumiyyətlə, beynəlxalq təşkilatlar və orada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair əsərləri, digər tərəfdən konkret beynəlxalq təşkilatlara (BMT, ATƏT, AŞ, İKT və b.) aid əsərləri ayırmaq olar. N.Axundov və M.Qasımovun kitabı Azərbaycanın beynəlxalq təşkilatları ilə əlaqələrinə, A.Abbasbəyli və Ə.Həsənovun tədqiqatı isə Azərbaycanın beynəlxalq və regional təşkilatlar sistemindəki yerinə həsr edilmişdir (7; 297). A.Abbasbəyli və Ə.Həsənovun kitabında Azərbaycan Respublikasının yürütdüyü xarici siyasət çərçivəsində BMT, ATƏT, NATO kimi beynəlxalq təşkilatlar və MDB, digər beynəlxalq və regional qurumlara bərabərhüquqlu üzv kimi inteqrasiya olunması və bu təşkilatlarla əməkdaşlığın müxtəlif cəhətləri işıqlandırılmışdır. Əsərdə regional və beynəlxalq təşkilatların işində Azərbaycan dövlətinin iştirakı və bu təşkilatlar çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair verilmiş təkliflər, aparılmış müzakirələr təhlil edilmişdir. Burada Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə dair dünyanın bir sıra dövlətlərinin münasibəti də araşdırılmışdır.

R.Mustafayevin “Azərbaycan və yeni dünya” (206) və “Azərbaycan dövlətçiliyi” (207) əsərləri Azərbaycan Respublikasının dövlətçiliyi məsələsinə həsr edilmişdir. Müəllif bu əsərlərində Azərbaycan Respublikasının beynəlxalq qurumlar və təşkilatlarla əlaqələrindən və bu əlaqələrin mühüm əhəmiyyət kəsb etməsindən bəhs etmiş, habelə Azərbaycanın dünya ölkələri və beynəlxalq təşkilatlarla perspektivli əməkdaşlığına dair bəzi təklif və tövsiyələr irəli sürmüşdür. Azərbaycan parlamentinin beynəlxalq təşkilatlarla əlaqələri də xüsusi araşdırılmışdır (25).





E.Əhmədovun iki kitabı isə bilavasitə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq təşkilatlarda müzakirəsinə və s. məsələlərə aiddir. Onun «Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar» adlanan kitabı (61) giriş və üç bölmədən ibarədir. Bu kitabda ATƏT-in Minsk qrupunun yaradılması və fəaliyyətindən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair BMT Təhlükəsizlik Şurasının işlərindən, münaqişənin Avropa Şurası, Avropa Birliyi və İslam Konfransı Təşkilatında müzakirəsindən bəhs edilir. Müəllif nədənsə öyrənilən məsələlər üzrə nəticə verməmişdir. E.Əhmədovun digər kitabı burada irəli sürülmüş məsələlərə – münaqişənin Avropa Şurası, Avropa Birliyi və İslam Konfransı Təşkilatında müzakirəsinə həsr edilmişdir (62).

Beynəlxalq təşkilatlar və bu təşkilatlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ümumi əsərlərlə birgə, BMT, ATƏT, Avropa Şurası və İKT kimi təşkilatların bu və ya digər məsələlərinə dair xüsusi əsərlər də vardır. F.Abbaszadə BMT mexanizmlərinin mübahisə və münaqişələrin aradan qaldırılması, idarəsi və həlli üzrə fəaliyyəti, H.Rəcəbli isə BMT-nin ixtisaslaşdırılmış qurumlarını öyrənmişdir (298; 232).

ATƏT-in və onun Minsk qrupunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə fəaliyyəti Ə.Həsənovun, E.Əmrahqızının, R.Əhərinin, F.İsmayılov və S.Həsənovun kitab və məqalələrində nəzərdən keçirilmişdir (115; 116; 100; 318; 140). A.Güləliyeva isə 2007-ci ildə Azərbaycan Respublikasının Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında iştirakına dair namizədlik dissertasiya müdafiə etmişdir (106). İ.Şükürov Budapeşt sammiti (475) və Sülh diplomatiyası (477) adlı əsərlərində Azərbaycan

Respublikası Prezidentinin müxtəlif görüşləri, danışıqları və tədbirlərinə geniş yer vermişdir.

H.Rəcəbli və V.İbayev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair müzakirələrdə iştirak edən digər bir beynəlxalq qurum-Avropa Şurası haqqında ayrıca kitab nəşr etdirmişdir (233). A.Əbilov, T.Əliyev, N.Kərimova, A.Vəliyev və b. əsərlərində Azərbaycanın Avropa Şurasına qəbul olunması, onunla əməkdaşlığı məsələləri tədqiq edilmişdir (60; 309; 381; 254). Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığına dair bir sıra kitabların müəllifi V.İbayev İslam Konfransı Təşkilatı haqqında da xüsusi kitab nəşr etdirmişdir (132).

Mövzu ilə əlaqədar olaraq xarici tarixşünaslıqda da müəyyən işlər görülmüşdür. Onların içərisində ilk yerdə Türkiyə tarixşünaslığı dayanır. İşdə Türkiyə müəlliflərindən K.Gürunun, M.Koçaşın, N.Sarıəhmədoğlunun, Y.Kalafatın, N.Gül, G.Ekici, İ.Özçelik, A.Demir, A.Attarin tədqiqatlarından və b. kitablardan istifadə edilmişdir (350; 277; 291; 275; 270; 271; 272; 288; 265; 259; 315; 266). İ.Özçeliyin "Karabağ tarihi ve Karabağda ermeni olayları" kitabında (288) Qarabağın qədim tarixinə ekskurs edilir, Qarabağın tarix boyu geostrateji və geopolitik mövqeyindən bəhs olunur, Ermənistanın Azərbaycanın bu bölgəsinə ərazi iddiaları və ermənilərin etnik təmizləmə siyasətinə toxunulur. Baş verən hadisələrə dünya ictimaiyyətinin və böyük dövlətlərin laqeyd münasibətlərinə narazılıq bildirilir.

N.Gül və G.Ekicinin «Azərbaycan və Türkiyə ilə bitməyən qan davası istiqamətində Ermənistanın xarici siyasəti» adlı məqaləsində (272) Rusiyanın Qafqaza dönmək, burada keçmiş nüfuzunu bərpa etmək üçün yürütdüyü fəaliyyətdən, eləcə də bu region dövlətinin «Dağlıq Qarabağ problemi»ndən hərtərəfli istifadə etməsindən bəhs edilir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli ilə birbaşa məşğul olan ATƏT-in fəaliyyətinə münasibət bil-





dirilir. N.Gülün «Azərbaycan vətandaşlığından Ermənistan dövlət başkanlığına: Robert Koçaryan» (270) və «Yüzyilin Başlangıcında Haydat (ermənilərin davası)» (271) əsərlərində Dağlıq Qarabağ problemini yaradan süni səbəblərə və Ermənistanın irticaçı siyasətinə toxunulur. Bu tədqiqatlar içərisində son dövrlərdə nəşr olunan «Karabağ savaşı: siyasi-hükuki-ekonomik analiz» kitabı (2008) problemlərin qoyuluşu, faktik bazası və nəticələrilə diqqəti cəlb edir (276). Dörd bölmədən ibarət olan bu kitabda Dağlıq Qarabağ münaqişəsinin tarixinə nəzər salınmış, münaqişənin siyasi və hüquqi tərəfləri, insan haqları baxımından təhlili, Qarabağın iqtisadiyyatı və müharibənin iqtisadi təsiri kimi problem araşdırılmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, Rusiyanın münaqişənin həllindəki rolu və b. məsələlər Rusiya tarixşünaslığında da əks olunmuşdur. Bu məsələlər üzrə S.Qlinka, V.Veliçko, N.Şavrov, V.Qurko-Kryajin, V.Kazimirov və b. müəlliflərin əsərlərindən istifadə edilmişdir (342; 330; 471; 349; 375).

Dissertasiya işində ABŞ müəlliflərindən T.Svietoxovski, C. və K.Makkartilər, S.Uimz və b. əsərlərinə də yer verilmişdir (453; 390; 243). Tanınmış Amerika alimi Z.Bjezinskinin kitabında böyük dövlətlərin region maraqları təhlil edilmiş, maraqlı mülahizələr söylənilmişdir (329).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, onun mərhələləri, müasir vəziyyətinə dair Ermənistanda və ounn sərhədlərindən kənarda erməni müəllifləri tərəfindən xeyli kitablar, məqalələr nəşr etdirilmişdir. Bu kitab və məqalələrdə münaqişənin tarixi təhrif edilmiş, əsas diqqət ermənilərin mənafelərinin təbliğinə yönəldilmişdir. İşdə erməni müəlliflərinin əsərləri də nəzərə alınmış (423; 378; 407; 403; 341; 466; 299; 495; 414; 418; 447) və tənqidi şəkildə istifadə olunmuşdur.

Beləliklə, mövzunun öyrənilməsi səviyyəsindən aydın olur ki, onun bəzi məsələlərinin tədqiqat obyekti olmasına baxmayaraq kompleks şəkildə araşdırılmamışdır.

Tədqiqat işində problemin hərtərəfli öyrənilməsi üçün geniş mənbə bazası yaradılmışdır. İşin mənbə bazası içərisində ilk yerdə ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının xarici siyasətinə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məktub, məruzə və b. Sənədləri tutur. Bütün bu sənədlər xronoloji ardıcıllıqla «Müstəqilliyimiz əbədidir» adlı fundamental çoxcildlikdə (buraxılışa məsul akademik R.Ə.Mehdiyevdir) nəşr edilmişdir. Hələlik bu nəşrin 1993-cü ilin iyun ayından 2000-ci ilin iyul ayına qədər olan dövrü əhatə edən iyirmi səkkiz kitabı işıq üzü görmüşdür. Heydər Əliyevin dissertasiya mövzusu üzrə hər bir çıxış, nitq və s. materialları xronoloji-problem istiqamətində sistemləşdirilmiş və tədqiqata cəlb edilmişdir. Bu materiallar içərisində Heydər Əliyevin 23-24 fevral 2001-ci ildə Dağlıq Qarabağ probleminə dair Milli Məclisdə keçirilən müzakirələrdə çıxışı xüsusi yer tutur. Heydər Əliyev böyük dövlət adamına və dahi şəxsiyyətə məxsus müdrikliklə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixini, mahiyyətini, onun həlli sahəsində görülən işləri ümumiləşdirmiş, perspektiv üçün böyük tarixi əhəmiyyətə malik olan baxışlarını ifadə etmişdir. Heydər Əliyev Milli Məclisdə yekun nitqinin sonunda demişdir: «Milli Məclis iki gün bu məsələni müzakirə etdi və gələcəkdə əldə olunan hansısa bir müsbət hadisə ilə əlaqədar Milli Məclisə məlumat verəcəyəm. Bir də deyirəm, danışıqlar aparmaq işin birinci hissəsidir. Amma nəyəsə nail olmaq əsas hissəsidir, ikinci hissəsidir. Əgər hansısa bir razılığa gəlsəm, hansısa mən başa düşdüyüm, mənim nöqteyi-nəzərimdən bizim üçün qəbul olunası varianta razı olsam, mütləq onu Milli Məclisin müzakirəsinə verəcəyəm. Əgər Milli Məclis razı olmasa, mən Milli Məclissiz heç bir şey etməyəcəm. Fikrim belədir ki, əgər Milli Məclis hansısa bir təkliflə razı olsa, ondan sonra bunu xalqın müzakirəsinə verməliyik. Xalqsız heç bir şey etməməliyik. Mən həyatımın, demək olar ki, çox böyük hissəsini bu işə həsr etmişəm və bundan sonra da mənim üçün Azərbaycan xalqının qarşısında xidmətlərim sahəsində bundan vacib heç bir vəzifə yoxdur» (10, 25 fevral 2001-ci il). Heydər Əliyevin xarici siyasət xəttinə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair sənəd və materiallar, onların tematik topluları da nəşr edilmişdir ki, tədqiqat zamanı onlar da nəzərə alınmışdır.





«Azərbaycan beynəlxalq aləmdə» nəşrində (14; 15; 16; 17; 18; 19) rəsmi dövlət agentliyi olan AzərTac-ın materiallarından istifadə edilərək Azərbaycanın beynəlxalq aləmdə təmsil olunmasına dair materiallar toplanmışdır.Bu materiallar, əsasən, Heydər Əliyevin 2001-ci ildəkı xarici səfərlərinə həsr edilmişdir. Kitabda Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün, dövlət müstəqilliyinin əbədi və dönməzliyinin təmin edilməsilə bağlı olan Dağlıq Qarabağ probleminin həlli yolunda gördüyü işlər işıqlandırılmışdır. Ümummilli liderin müxtəlif səviyyələrdə keçirilmiş ikitərəfli və çoxtərəfli danışıqlarında, ATƏT-in sədrləri, Minsk qrupuna daxil olan ABŞ, Fransa, Rusiyadan olan həmsədrləri, habelə bir çox başqa dövlət xadimləri ilə görüşlərində, digər rəsmi danışıqlarında Dağlıq Qarabağ probleminin prioritet məsələ kimi ön sırada durmasına dair materiallar toplanmışdır.

Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən və onu daha da zənginləşdirən İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasında, Baş nazir vəzifəsində və prezidentlik dövründə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsindəki gərgin fəaliyyətinə dair sənədlər də işin mənbə bazasında xüsusi yer tutur (11; 13; 94; 95; 96; 97; 98; 306).

Mənbə bazasının başlıca qruplarından biri nəşri Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən həyata keçirilən Azərbaycanın xarici siyasətinə dair sənədlər məcmuəsidir (37; 38; 39; 40; 41; 42; 43; 44; 45; 46). Sənədlər məcmuəsi illər üzrə çap olunduğundan hər bir ilə dair (2004; 2005; 2006; 2007 və 2008-ci illər) bütövlükdə xarici siyasət, o cümlədən xarici siyasət xəttində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mühüm sənəd və materiallarla tanış olmaq mümkündür. Hər bir ilə dair sənədlər məcmuəsinin müqəddiməsində görülən işlər qısa şəkildə təhlil edilmiş, nailiyyət və uğurlar müəyyənləşdirilmişdir. Bütün müqəddimələrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair sənəd və materialların təhlilinə xüsusi yer verilmişdir. 2004-cü ilə aid sənədlər məcmuəsinin müqəddiməsində deyilir: «İl ərzində Azərbaycan diplomatiyasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə yönəlmişdir. Bütün beynəlxalq toplantılarda ilk növbədə Ermənistanın Azərbaycana qarşı təcavüzünü önə çəkən Prezident İlham Əliyev 2004-cü il sentyabrın 23-də BMT Baş Məclisinin 59-cu sessiyasında çıxış edərək bu məsələni BMT-nin ali tribunasından bir daha dünyanın diqqətinə çatdırmışdır. 2004-cü il Azərbaycanın və Ermənistanın dövlət başçıları və xarici işlər nazirləri səviyyəsində görüşlərin fəallaşması ilə əlamətdar olmuşdur. 29 oktyabr 2004-cü il tarixində BMT Baş Məclisi «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı bəndi özünün 59-cu sessiyasının gündəliyinə salmağı qərara aldı...» (37, 3). Beləliklə, Azərbaycanın xarici siyasətinə dair fundamental sənədlər məcmuəsi problemin hərtərəfli öyrənilməsində, onun tarixi xronologiyasının müəyyənləşdirilməsində əvəzsiz rol oynayır. Bununla birgə işdə Azərbaycan Respublikası Xarici İşlər nazirliyinin cari arxiv materiallarından da istifadə edilmişdir (32; 33). Ermənistan-





Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müxtəlif aspektlərinin işıqlandırılması üçün Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nəşr etdirdiyi «Diplomatiya aləmi» jurnalında dərc olunmuş rəsmi sənədlər və arxiv materialları da elmi dövriyyəyə cəlb edilmişdir.

Beynəlxalq hüquqi sənədlər, hüquqi-normativ aktlar, ikitərəfli münasibətlərə dair sənəd və materiallar toplusu, beynəlxalq təşkilatların və eləcə də BMT-nin sənədləri (433), o cümlədən Baş Assambleyanın, Təhlükəsizlik Şurasının, beynəlxalq hüquq komissiyasının, insan hüquqları komissiyasının, insan hüquqları üzrə ümumdünya konfederasiyasının rəsmi sənədləri, həmçinin ATƏT-in sənədləri, Avropa İttifaqının sənədləri, Avropa Şurasının sənədləri, müqavilələr, saziş, deklarasiyalar, bir sıra dövlətlərin rəsmi şəxslərinin dövrü mətbuatda çap edilən məruzə, çıxış, müsahibələri və s. işin mənbələri içərisində mühüm yer tutur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və onun nizama salınması ilə birbaşa məşğul olan ATƏT-in Minsk qrupunun rəsmi sənədləri (bəyanat və s.) əsərin yazılmasında mühüm rol oynamışdır. Bu baxımdan, vaxtilə ATƏT-in Minsk qrupunun həmsədri olmuş Con Mareskanın müsahibələri (504) daha diqqətəlayiqdir.

Tədqiqat zamanı BMT-nin və AŞ-nin nizamnamələrindən (421), ATƏT-in «Helsinki aktı» (1975-ci il ), (363), «Paris xartiyası» (1990-cı il) (514), «Istanbul xartiyası» (1999-cu il) (461), NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı (214) kimi sənədlərdən də istifadə olunmuşdur.

Problemin tədqiq olunmasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında əsas rol oynayan beynəlxalq təşkilatlardan biri kimi ATƏT-in Lissabon sammitinə, sammitdə Azərbaycan diplomatiyasının qazandığı uğurlara həsr edilmiş «Lissabon sammiti-

96» adlı kitab (1625) da istifadə edilmiş mənbələr sırasına daxildir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, mərhələləri və s. bu kimi məsələləri əks etdirən sənəd və materiallar toplusu (301; 217; 382; 455; 408; 53; 314) da mənbə bazası içərisində xüsusi yer tutur.

Beynəlxalq münasibətlərə dair Azərbaycan Respublikasında və xarici ölkələrin mətbuat orqanlarında, internet səhifələrində işıq üzü görmüş siyasi, tarixi, nəzəri və hüquqi materiallardan əsərin yazılmasında geniş istifadə olunmuşdur.

Dövri mətbuatdakı rəsmi xəbərlər, informasiya agentliklərinin elektron poçtundakı materiallar və digər kütləvi informasiya vasitələrinin mühüm məlumatları əsərin mənbə bazasının tərkib hissələrindəndir. Azərbaycan Respublikasının «Azərbaycan», «Xalq» qəzeti, «Respublika», «Yeni Azərbaycan», «EXO», «Zerkalo», həmçinin Rusiyanın «Izvestiya», «Nezavisimaya qazeta», ABŞ-ın «Vaşinqton post», «Nyu-York tayms», Türkiyənin «Milliyyət», «Sabah» və s. dövri nəşrlərinə də müraciət edilmişdir.





# I FƏSİL

# ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN İLK DÖVRÜNDƏ

## 1.1. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri və mahiyyəti

Ermənilər xristian dininə mənsubiyyətlərindən istifadə edərək (163) "Böyük Ermənistan" yaratmaq xülyasını "reallaşdırmaq" fikrinə, əsasən, XVII əsrdən düşmüşlər (144). Bu məsələ ilk növbədə öz xristianlıq missiyasını Şərqə doğru genişləndirmək məqsədi güdən Roma papasının istəyinə, sonralar isə Şərq siyasəti yeridən Avropanın və Qafqazda möhkəmlənmək siyasəti yürüdən Rusiyanın istəyinə uyğun gəlirdi (150). Bu məsələlərdə xristian-erməni kartından istifadə etmək ən əlverişli üsul idi (163).

Yeri gəlmişkən, Rusiya imperiyası tərəfindən Cənubi Qafqaz istila olunana qədər Azərbaycan xanlıqlarının ərazisində yaşayan xristian əhali, əsasən ermənilər, bu ərazilərdə yaşayan sakinlərin az bir hissəsini təşkil edirdi (425). Qarabağ xanlığında yaşayan 12 min ailədən yalnız 2,5 mini xristian idi ki, onların da çoxu mənşəcə erməni deyil, alban idilər (164).

Erməni keşişi T.Geğemyans "Erməni hərəkatının tarixi" əsərində yazırdı: "Məhz Şərqə əl uzatmağa çalışan avropalılar, ilk növbədə Roma papasının katolik missionerləri XVI-XVII əsrlərdə Kilikiyadan Irana köçərək buradakı erməniləri də din atəşinə salmağa başladılar" (İqtibas götürülmüşdür: 230).

Dini missionerlər Avropadan göndərilən pullarla Şərq ölkələrində yaşayan ermənilər üçün xəstəxanalar, məktəblər açır, xəlvəti mətbəələr düzəldir, gizli təşkilatlar yaradır və

onların vasitəsi ilə avam camaatı və ruhanilərin bir çoxunu öz nüfuzları altına alırdılar "Məqsədləri isə Şərq xristianlarını, o cümlədən erməniləri papanın nüfuzuna tabe etdirmək, bundan istifadə edərək Avropa dövlətlərinin əllərini islam məmləkətlərinin qibləgahına uzatmaq idi" (230).

Məlum olduğu kimi, artıq XVII-XVIII əsrlərdən başlayaraq Yaxın Şərqin islam dövlətlərinin, xüsusilə də Iran və zəifləmiş Osmanlı imperiyasının torpaqlarını ələ keçirmək üçün fəal istilaçılıq siyasətinə başlayan qərb dövlətləri bu ərazilərə müdaxilələrinin reallaşdırılmasında burada yaşayan xristianların, ilk növbədə isə ermənilərin köməyinə arxalanırdılar (290). Bu məsələdə din qardaşlarının "problemlərini həll etmək", onlara "yardım etmək" məqsədilə fəaliyyətlərini genişləndirirdilər. Bu sahədə Ingiltərə, Fransa və çar Rusiyası daha çox fəallıq göstərirdi (294).

Qeyd etmək lazımdır ki, Rusiya hələ XVIII əsrdən Qafqazı öz təsiri altında saxlamaqla iqtisadi maraqlarını təmin etmək üçün daha böyük niyyətini müxtəlif üsullarla reallaşdırmağa çalışırdı (336). Bunun üçün Rusiya hökuməti öz nüfuz dairəsinə daxil etdiyi bölgələrdə imperiyanın siyasi təsir gücünü göstərirdi. Rus çarizminin "Isti dənizlər uğrunda" arzusunun reallaşdırılması onun planlarının uzaq nəticəsi kimi nəzərdə tutulmuşdu. Bu niyyətini həyata keçirmək üçün Rusiya ilk növbədə Qafqaza yiyələnməkdən başlamağı planlaşdırırdı. Bunun üçün imperiya siyasətinə "yararlı" olan "erməni kartı"nın mühüm rol oynayacağı nəzərə alınmışdı (101). Ermənilərdən Qafqaz siyasətində istifadə etməyə ilk maraq göstərən I Pyotr imperiyanın "Şərq məsələsini" "Erməni məsələsi" ilə bir məcraya yönəltdi. Bu isə birinci növbədə Rusiyanın Qafqazda geosiyasi maraqlarını həyata keçirmək, regionda müstəmləkəçilik siyasətinin real bazasını yaratmaq təşəbbüsü idi (143).





XVIII əsrdən Qafqazı, o cümlədən Cənubi Qafqazı ələ keçirmək üçün geniş hərbi fəaliyyətə başlayan Rusiya XIX əsrin birinci yarısında buna nail oldu (250).

Rusiyanın Qafqazdakı geosiyasi maraqlarının həyata keçirilməsi üçün ideoloji zəmin yaratmış I Pyortrun simasında Rusiya tərəfindən tanınmış və dəstəklənmiş "Qarabağ ermənilərinin qətiyyətli azadlıq hərəkatı" əsas rol oynadı (205).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geosiyasi köklərindən danışarkən onu da qeyd etmək lazımdır ki, XIX əsrin əvvəllərində Azərbaycanın çar Rusiyası tərəfindən işğalı zamanı erməni ideoloqlarının çarizmin müstəmləkəçilik siyasətini həyata keçirmək üçün hazırladığı planlar bu proseslərin kökündə durur, onun əsas istiqamətlərini müəyyənləşdirirdi (137; 314; 441).

Bu siyasi gediş məkrli millətçilik, milli münaqişə yaratmaq baxımından «yararlı olan» erməni ideologiyasının təbliğat silahına çevrildi. Ermənilər üçün düşünülmüş strategiyanın həyata keçirilməsinin üç istiqaməti müəyyənləşdirildi: tarixi "əsas" yaratmaq, dünya ictimaiyyətini inandırmaq, işğal etmək və işğala bəraət qazandırmaq (303).

Müsəlman Türkiyəsi və Iranının sərhəddində xristian səddi yaratmağı, Qafqazda möhkəmlənərək isti dənizlərə yol əldə etməyi ehtiva edən çar Rusiyasının Qafqaz siyasətində erməni amilinin əsas rolu olmuşdur (231).

XIX əsrin əvvəllərində Gürcüstanın Rusiya tərəfindən ələ keçirilməsi ilə Qafqazın işğalının başlanması Iran və Türkiyədə yaşayan ermənilərin də fəallaşmasına səbəb oldu (273). Gəncə xanlığının işğalından sonra Qarabağ xanı Ibrahim xan Rusiya ilə saziş imzaladı və onun təbəəliyini qəbul etdi. Rusiya çarının nümayəndəsi Sisianovla Qarabağ xanı Ibrahim xan arasında bağlanmış Kürəkçay anlaşması (1805-ci il) Qarabağın ilhaq edilməsinin başlanğıcı oldu (149. I k., 104-148; 338, 176; 354; 465; 479). Rusiya hökuməti Qarabağ xanlığının ərazisin-

də öz mövqelərini möhkəmlətmək məqsədilə yerli müsəlman hakim təbəqənin iqtisadi mövqelərini zəiflətməyə üstünlük verdi. Bölgədə ermənilərin hərtərəfli üstünlüyünü təmin etmək siyasəti yeridildi (339). Qarabağ xanlığı ləğv edildikdən sonra (1822-ci il) Şimali Azərbaycanın digər yerlərində olduğu kimi, burada da komendant idarə üsulu yaradıldı və Hərbi-müsəlman dairəsinin tərkibinə daxil edildi (267).

1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələri Azərbaycanı iki yerə böldü, Qarabağ da daxil olmaqla Azərbaycanın şimalı Rusiyanın hakimiyyəti altına düşdü. Türkmənçay müqaviləsinin XV maddəsi ilə ermənilərin Şimali Azərbaycana köçürülməsi təsdiq olundu.

Bununla əlaqədar 1829-cu il martın 30-da Q.Lazarev ermənilərə rus və erməni dillərində xüsusi müraciət etdi (342, 107-111; 231). Müraciətdə ermənilərin Irəvan, Naxçıvan və Qarabağ torpaqlarında istədikləri yerə köçmələrinə icazə verildiyi və onlar üçün gəldikləri yerdə hər cür şərait yaradılacağı və köçərkən onlara hərtərəfli köməklik göstəriləcəyi elan edilirdi (229).

1829-cu il dekabrın 24-də I.Paskeviçə ətraflı hesabat təqdim edən Q.Lazarev üç ay yarım ərzində 8000-dən yuxarı erməni ailəsinin (40 min nəfərin) Arazı keçərək Rusiyanın yeni tutduğu torpaqlarda – Irəvan, Naxçıvan və Qarabağda məskunlaşdırıldığını bildirirdi (342, 114).

Rəsmi və tarixi sənədlərdə (1828-1830-cu illərdə) Irandan 40 min nəfər, Osmanlı Türkiyəsi ərazisindən isə 84 min nəfər erməninin Azərbaycan ərazisinə köçürüldüyü bildirilir. Həmin dövrdə rus ordusunun köməyi ilə Qarabağın türk-müsəlman kəndləri boşaldılır, həmin kəndlərə erməni ailələri yerləşdirilirdi. Qafqaza köçürülmüş ermənilərin hesabına demoqrafik situasiya dəyişdirildi, süni surətdə ermənilərin sayının artırılması genişləndirildi (417).





Qarabağda 1832-ci ildə keçirilmiş kameral sayımının nəticələri göstərir ki, burada ermənilərin sayı 34,8 faizə çatdırılmış, türk-müsəlman əhalinin sayı isə 64,8 faizə enmişdir (450, 21).

Beləliklə, XIX əsrin əvvəllərində Rusiyanın Qafqazı ələ keçirmək üçün Osmanlı dövləti və Iranla apardığı müharibə nəticəsində Azərbaycan torpaqları iki hissəyə bölündü. Qarabağ Rusiya imperiyasının tərkibinə daxil edildi. Rus hökuməti Iran və Türkiyədən bu ərazilərə xeyli miqdarda erməni köçürdü. Bununla da Rusiya Cənubi Qafqazdakı müstəmləkə siyasətini həyata keçirmək üçün özünə dayaq yaratdı. Bu siyasətdən yararlanan ermənilər Qarabağda möhkəmlənməyə başladılar.

XIX əsrin sonlarında erməni millətçiləri Cənubi Qafqazda möhkəmlənmək üçün müxtəlif partiya və təşkilatlar yaradaraq geniş fəaliyyətə başladılar. «Armenakan», «Qnçak» və «Daşnaksütyun» partiyaları terror aktları, hərbi əməliyyatlar vasitəsilə etnik təmizləmə aparırdılar. Həmin partiyalar ilk növbədə Iran və Türkiyədən Cənubi Qafqaza köçürülmüş ermənilərin daimi məskunlaşması planının həyata keçirilməsinə şərait yaradırdılar.

Rusiya hökumətinin ermənilərə münasibətindən istifadə edən bu terrorçu partiya və təşkilatlar fəallaşdıqca çar hökuməti ondan istifadə edir, yeni siyasi addımlar atırdı. Rus hökumətinin 1840-cı il 10 aprel islahatı nəticəsində Qarabağ əyaləti mərkəzi Şamaxı olan Kaspi vilayətinə tabe edildi (473). Qarabağ ərazisinin inzibati-ərazi baxımdan parçalanması sonralar da davam etdirilirdi (164).

Rusiyanın geosiyasi maraqlarına uyğun olan bu proseslər ermənilər üçün çox məqsədəuyğun idi. Bununla yanaşı, ermənilərin Qarabağda möhkəmləndirilməsi üçün həyata keçirilən etnik təmizləmə siyasətinin XX əsrin əvvəllərində geniş vüsət alması bu proseslərin əsl mahiyyətindən xəbər verir. Ermənilərin davam edən etnik təmizləmə siyasəti 1905-1906-cı illərdə türk-müsəlmanların silahlandırılmış ermənilər tərəfindən qır-

ğını ilə nəticələnmişdi (226). Həmin dövrdə silahlanmış erməni quldur dəstələri Qarabağda dinc azərbaycanlı əhaliyə divan tutmuş, yüzlərlə kənd və qəsəbə dağıdılmış, yandırılmışdı.

Qanlı aksiyalar təhdid xarakteri daşıyırdı və məqsəd yerli əhalini Şuşanı və Qarabağın dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi. «Ermənistanın siyasi ərazisi» proqramını həyata keçirməyə başlayan erməni terrorunun ideoloqları belə bir faktdan açıq-aşkar narazı idilər ki, ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi belə, demoqrafik vəziyyəti dəyişə bilməmişdir. A.M.Skibitskinin tədqiqatlarına görə XX əsrin əvvəllərində Qarabağın dağlıq hissəsində ermənilərlə azərbaycanlıların nisbəti müvafiq surətdə 1:4 təşkil edirdi. Başqa sözlə azərbaycanlılar 72,6 % təşkil edirdilər (164). Dinc kəndliləri xüsusi qəddarlıqla qətlə yetirdiyi üçün «Daşnaksütyun» beynəlxalq terror təşkilatının komitəsi 1905-ci il oktyabrın 3-də erməni terror və quldur birləşmələrinin süvari və piyada dəstələrinin rəhbəri Amazaspa general rütbəsi vermişdi (435).

Azəbaycanlıların soyqırımı haqqında fərmanda deyildiyi kimi: «Böyük Ermənistan» yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indi Ermənistan adlandırılan ərazilərdəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişdir» (78; 10, 27 mart 1998-ci il).

Yelizavetpol qubernatoru olmuş A.Kaçalov 1907-ci il avqustun 9-da «Daş-naksütyun» partiyasının fəaliyyəti ilə bağlı olaraq, Qafqaz canişini I.Vorontsov-Daşkovun əmri ilə əlaqədar, hazırladığı geniş məruzədə bu partiyanın ermənilər arasın-





da millətçilik təbliğatı apardığını qeyd edərək yazırdı: «Millətçilik erməni etnosunun çox qədimlərdən başlıca xüsusiyyətidir. Hər bir erməni özünü hər kəsdən – rusdan, gürcüdən, tatardan (Azərbaycan türkləri – H.M.) yüksək, ağıllı,... comərd və bacarıqlı bilir... Millətçilik, öz dininə, dilinə bağlılıq, acgözlülük, ehtiyatlılıq, hər şeyi edən pula inam, zənginlik və sərmayə qarşısında müqəddəs bir şey kimi səcdə qılmaq – işdə ermənilərin yarandığı gündən bəri xüsusiyyətləri bunlardır» (344).

Rusiyanın himayəsindən istifadə edən ermənilər Birinci Dünya müharibəsindən sonra bəzi Avropa dövlətlərinin siyasətindən də yararlanmağa çalışırdılar. Bu zaman ermənilər Azərbaycana qarşı ərazi iddiaları ilə daha fəal çıxış edirdilər (387). Azərbaycanın bir çox əraziləri ilə birlikdə Qarabağın dağlıq hissəsinin ermənilərin tarixi torpaqları kimi qələmə verilməsinə başladılar. Həmin ərazilərin ermənilərə məxsus olmasını sübut etməyə yönəldilmiş təbliğat maşınını işə saldılar. Ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti 1918-ci ildə yeni soyqırımına səbəb oldu. Daşnak Şaumyanın göstərişi və rəhbərliyi ilə Azərbaycanın müxtəlif ərazilərində türk-müsəlmanlar vəhşiliklə qətlə yetirildilər (230; 259).

Belə bir şəraitdə Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyəti meydana gəldi və çox çətin şəraitdə fəaliyyət göstərdi.

1918-ci il may ayının axırlarında Zaqafqaziya seyminin buraxılmasından sonra «Daşnaksütyun» partiyası tərəfindən Ermənistanın müstəqilliyinin elan edilməsi ilə vəziyyət daha da gərginləşdi (446, 19). Gürcü tarixçisi Qaribi 1919-cu ildə yazmışdı: «Daşnaklar gəldilər milli ədavət gətirdilər, erməni-müsəlman ziddiyyətini daha da kəskinləşdirdilər» (377).

Daşnaklar əzəli Azərbaycan torpaqları olan Qarabağ və Naxçıvan ərazilərini ələ keçirmək üçün müxtəlif əsassız iddialar irəli sürərək qəzalarda azərbaycanlılara qarşı hücumları gücləndirdilər (109). Bu hücumlar Irəvanda, öz ata-baba torpaqla-

rında yaşayan azərbaycanlılara qarşı keçirildi (391). Bununla da azərbaycanlıların yaşadığı Eçmiədzin, Sürməli, Irəvan, Şərur qəzalarının ərazisi ermənilər tərəfindən zəbt olundu (179, 319).

Osmanlı imperiyasında Amerika qüvvələrinin komandanı admiral Mark Bristol öz gündəliyində yazırdı: «Mən Dro ilə birlikdə xidmət etmiş öz zabitlərimin məlumatlarına əsasən bilirəm ki, müdafiəsiz kəndlər əvvəlcə bombalanır, sonra zəbt edilir, qaçıb gedə bilməmiş sakinlər vəhşiliklə öldürülür, kənd talan edilir, bütün mal-qara aparılır və sonra isə kənd yandırılırdı. Müsəlmanlardan yaxa qurtarmaq üçün bütün bunlar sistematik şəkildə həyata keçirilirdi» (492).

Erməni tarixçisinə görə «nəticə etibarı ilə Ermənistanın bir ölkə kimi yaşaması ağlabatan görünmürdü. O heç də tarixi Ermənistanın uğrunda əsas mübarizə getmiş böyük yaylasında deyil, bütün mahiyyətində rus möhürü olan ucqar əyalətdə mövcud idi. Gərək Qafqazdakı yarım milyon Türkiyə ermənisi üçün hökumət və azad edilmiş Ermənistan paytaxtı Irəvanda deyil, ya Karində (Ərzurum), ya Vanda, ya da hətta Kilikiyanın əsas şəhərində yerləşəydi (390). Onlar sonsuz səbirsizliklə indi qərb tərəfdəki üfüqün arxasında qalmış evlərinə qayıtmaq üçün imkan gözləyirdilər» (495, vol. 2, p. 450).

1918-ci il iyulun ortalarında Tiflisdən Irəvana köçən və orada yerləşən Daşnak partiyasının rəhbərliyinin fəaliyyəti barədə Lalayan yazırdı: «Əksinqilabi daşnak hökumətinin daxili siyasətinin mahiyyəti ölkə zəhmətkeşləri arasında milli nifrəti qızışdırmaqdan, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalini fiziki cəhətdən məhv etməkdən ibarət idi» (373, 79-107).

Daşnakların ələ keçirdikləri tarixi Azərbaycan torpaqlarında «erməni dövlətinin» «qayda-qanunları hökm sürür, erməni olmayan, erməni qayda-qanunlarına böyun əyməyən müsəlmanlara divan tutulurdu» (179, 319).

Erməni tarixçisinin də etirafına görə «1918-ci ilin əvvəllərindən avqustun 1-dək 300 müsəlman kəndinin dağıdılması





haqqında məlumat vardır... aşkara çıxmışdı ki, altı kəndin kişiləri öldürülmüş, onların qadınları isə erməni döyüşçülərinə hədiyyə edilmişdir. Azərbaycan öz torpaqlarının bir hissəsinin və adamlarının itkisi hesabına başa gələn belə vəhşiliklərə daha dözə bilməz». Ermənistanın paytaxtında daha 13000 nəfər, paytaxt ətrafındakı kəndlərdə isə 50000 müsəlman qaçqını erməni xristianlarının nəzarəti altında idi. Erməni xristianlarının paytaxtının cənubundakı ərazidə heç bir yaşayış vasitəsi olmayan (179, 319) 70000-dən 80000 nəfərədək müsəlman qaçqını var idi və erməni rəhbərliyi onlara hər hansı bir yardım göstərməkdən imtina edirdi (495, vol. 2, p. 180).

1919-cu ildə ermənilər təkcə Azərbaycana deyil, eyni zamanda Türkiyənin şərq əyalətlərinə də ərazi iddiaları ilə çıxış edirdilər. Buna görə də «yaşadıqları ərazilərin hamısında ermənilər azlıqda qaldığı və əhalinin 30 və ya 35 faizindən artıq olmadığı üçün erməni problemi həmişə «sadəcə çətin» olmuşdur» (495, vol. 2, p. 265).

Erməni publisisti A.Melikyanın «Daşnak hökuməti qonşularla dinc yanaşı yaşamaq əvəzinə yumruğunu düyünlədi, aləmə meydan oxumağa başladı, millətçilik azarından əl çəkmək istəmədi» məlumatı (179, 320) ermənilərin separatizmlə dövlət səviyyəsində məşğul olduqlarından xəbər verirdi.

Yenə onun fikrinə görə «Daşnak hökuməti qonşularla ümumi dil tapmağa, onlarla yanaşı əmin-amanlıqla yaşayıbyaratmaq yolunu tutmağa qadir olmadı. ...cılız millətçilik psixologiyasından əsla əl çəkmək istəmirdi» (179, 320).

Ermənilər «Böyük Ermənistan» yaratmaq planlarını reallaşdırmaqdan ötrü Qafqazın bütün ərazisində müsəlman əhalisinin qırğınlarını törətdilər. Erməni generalı Andronik Ozanyan 1918-ci ildə demişdi ki, «Rusiya bizim üçün böyük miqdarda döyüş sursatı və silah, ərzaq məhsulları və geyim formaları qoyub getmişdir» (299, 57).

Daşnakların Rusiyaya meyl göstərməsi sonda onların faciəsi ilə nəticələndi. Erməni ideoloqlarından biri Ruben Darbinyan yazırdı: «Son iki onillik ərzində bizim bütün siyasi səhvlərimiz, büdrəmələrimiz rusporəstliyimizdən, Rusiyaya güclü meyl göstərməyimizdən irəli gəldi» (55, 36).

Erməni separatizmi Qafqaz siyasətində Rusiyaya, sonradan Sovet hökumətinin yaradılmasına xidmət üçün yararlı idi. Moskvaya Qafqaz barəsində hər cür separatçı məlumatı da ermənilər çatdırırdı. Azərbaycanın müstəqilliyinə qarşı çıxan bolşeviklər, Azərbaycan əhalisini məhv edən Andronikı, Şaumyanı və başqa daşnakları müdafiə edirdilər. 1918-ci il iyulun 26-da Moskva qəzetlərindən biri yazırdı: «Erməni xalq sərkərdəsi Andronikin sovetlərə meyli Sovet hakimiyyətinin ən iri qələbəsidir» (179, 322 ).

Lalayan «Əksinqilabçı «Daşnaksütun» və 1918-ci illərin imperialist müharibəsi» adlı əsərində yazırdı: «Qaniçən xınbapetlərin (Andronik, Amazasp və b.) başçılıq etdikləri daşnak dəstələri türk qadın və uşaqlarının, qoca və xəstələrin məhv edilməsində maksimum «igidlik» göstərirdilər. Daşnak dəstələri tərəfindən ələ keçirilən türk kəndləri canlı insanlardan «azad edilir» və eybəcər hala salınmış qurbanlarla dolu xarabalıqlara çevrilirdilər» (179, 323).

Arxiv sənədlərindən birində deyilir: «Daşnak diktaturası dövründə bütün qeyri-erməni əhalisi qanundankənar hesab olunurdu. Ermənistan ərazisində yaşayan azərbaycanlı və kürd əhalisinin qırılması yolu ilə ölkənin «erməniləşdirilməsi» haqqında daşnaksütyunun «ideyası» və digər milli azlıqların təqib olunması ölkədə milli nifaqı qızışdırdı» (179, 323)

Ermənilərin və Azərbaycan dövlətinin düşmənləri olan erməniporəstlərin təxribatlarının və separatçılığının ardı-arası kəsilmirdi. Onların əsas məqsədi Azərbaycan Cümhuriyyətini məhv etmək idi. Daşnakların hakimiyyəti dövründə azərbaycanlılara qarşı silahlı basqınlar müntəzəm və planlı şəkildə aparılmışdır. Erməni Daşnak hökuməti 1918-1919-cu illərdə «dövlət tələblərinin yerinə yetirilməsi» bəhanəsi altında Azərbaycan kəndlərinin dinc əhalisini ucdantutma məhv etmişdi (188).





Ingiltərənin Cənubi Qafqazda Baş komissarı Con Oliver Uardrop qeyd edirdi ki, erməni dövləti «ordu birləşməsini yanvarın 24-də iyirmi dörd müsəlman yaşayış məntəqəsinə hücuma göndərmişdir» (495, vol. 2, p. 520).

Ermənilər Azərbaycanın tarixi əraziləri olan Zəngəzur və Qarabağ bölgələrinə ərazi iddialarından əl çəkmək istəmirdilər. O zaman Mikoyan RK(b)P MK-ya, Leninə ünvanladığı 22 may 1919-cu il tarixli məruzəsində xəbər verirdi: «Erməni hökumətinin casusları olan daşnaklar Qarabağın Ermənistana birləşdirilməsinə çalışırlar. Lakin bu, Qarabağın əhalisi üçün Bakıda öz yaşayış mənbələrindən məhrum olmaq və heç bir zaman və heç nə ilə bağlı olmadıqları Irəvanla talelərini bağlamaq demək olardı» (179).

Erməni daşnak ordusu 1920-ci ilin martında qəflətən Azərbaycan Respublikası ərazilərinə hücuma keçdi (248).

Amerikalı müəllif Səmyuel haqlı olaraq soruşurdu: «Bunu necə «qiyam» adlandırmaq olar ki, hər şey qabaqcadan erməni liderləri tərəfindən onların paytaxtında planlaşdırılmış və həyata keçirilmişdi? Bu, «qiyam» deyil, təcavüz idi!» (243, 283).

Belə bir şəraitdə yaranmış vəziyyəti düzgün qiymətləndirən Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi öz Milli Ordusunun bölmələrini düşməni dəf etmək üçün Qarabağ bölgəsinə göndərdi. Qərb ölkələrindən alınma silahlarla (179, 328) təpədən dırnağadək silahlanmış təcavüzkar Ermənistanın nizami silahlı birləşmələri darmadağın edilərək qaçmağa üz qoydular.

Bununla belə, erməni müəllifinin yazdığı kimi, «1918-1920-ci illərdə daşnak mauzerçiləri Ermənistanda yaşayan 575 min azərbaycanlıdan 565 min nəfərini qanına qəltan etmiş və yaxud silah gücünə didərgin salmışdı» (179, 333). Bütövlükdə

isə daşnaк mauzerçiləri 1905-1906 və 1918-1920-ci illər ərzində 500 mindən artıq azərbaycanlını indiкi Ermənistan ərazisində qətlə yetirmişdilər.

Qeyd etməк lazımdır кi, I Dünya müharibəsindən sonra ermənilərin «gələcəк taleyinin müəyyənləşdirilməsi» məsələsi ilə əlaqədar Ingiltərə Qafqazda öz protекtoratlığı altında bufer dövlət yaratmağı və onu «Cənub-Qərbi Zaqafqaziya» adlandırmağı nəzərdə tutmuşdu (179, 333)

Ermənistan daşnak hökumətinin yaranması ilə İrəvanın təbliği, təhriкi və təzyiqi ilə Qarabağın dağlıq hissəsindəкi erməni əhalisinin müəyyən təbəqələri Azərbaycan Respubliкasının haкimiyyətini tanımaqdan imtina etdi. Dağlıq Qarabağ ermənilərinin 1918-ci ilin iyulunda кeçirilən I qurultayı (Şuşa) bölgəni müstəqil elan etdi. Ermənistan höкuməti isə işğalçılıq planlarını həyata кeçirməк üçün oraya silahlı qüvvələr yeritdi (152). Bu faкtlar göstərir кi, Ermənistan Dağlıq Qarabağ problemini hərbi yolla həll etməк istəyirdi. Ona görə də 1918-ci ildə Androniкin silahlı quldur dəstələri Qarabağa yeridilmişdi (184). Qarabağ torpağını ələ кeçirməyə can atan daşnaкlar nə кütləvi qırğınlardan, nə də onlarca yaşayış məntəqəsini yer üzündən silməкdən çəкinirdi. Hələ 1919-cu ilin yanvarında daşnaк höкuməti Qarabağ ərazisi ilə əlaqədar iddialar irəli sürmüşdü. Laкin Azərbaycan höкuməti bu iddiaları qəti şəкildə rədd etmişdi. Azərbaycan hökuməti əvvəlcə bu məsələni dinc yolla həll etməк üçün Ermənistan höкuməti ilə bir neçə dəfə danışıqlar aparsa da danışıqların nəticəsi olmamışdı. Azərbaycan höкuməti əzəli Azərbaycan torpaqları olan Zəngəzurda və Dağlıq Qarabağda erməni təcavüzкarlığını dəf etməк üçün qəti tədbirlərə əl atdı (48). Höкumət Qarabağın müdafiəsini gücləndirməк üçün oraya hərbi qüvvələr göndərməli oldu və nəhayət, X.P.Sultanovun rəhbərliyi ilə mərкəzi Şuşa şəhəri olan Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğu yaradıldı (189). Həmin qubernatorluq





Dağlıq Qarabağda və Zəngəzurda erməni separatçılığının aradan qaldırılmasında son dərəcə mühüm rol oynadı. Azərbaycan parlamenti Dağlıq Qarabağda törədilən milli toqquşmaların səbəbini araşdırmaq üçün ora xüsusi кomissiya göndərdi. Sonra məsələni 1919-cu il 8 iyulda кeçirilən iclasda müzaкirə etdi (25).

Cümhuriyyətin Xarici Işlər Nazirliyi Gəncə quberniyasının Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarının erməni talanlarından zərər çəкmiş Azərbaycan кəndlərində baş verənləri geniş təhqiqata cəlb etdi. Azərbaycan Fövqəladə Istintaq кomissiyası isə ermənilərin Qarabağdaкı separatçı hərəкətlərini dəqiq faкtlarla araşdırmış və öz hesabatlarında bunu göstərmişdir. Həmin faкtların təhlili əsasında belə nəticəyə gəlməк olur кi, özlərini həmişə «əzabкeş», «məzlum» xalq кimi qələmə verən ermənilər Qarabağın dinc əhalisinə qarşı necə qəddarlıqlar törətmişdilər (34, f.970, siy.1, iş 161, v.1).

Şuşada erməni zənginlərinin bir qədər çoxluğu və separatçılıq hərəкətlərinə başçılıq edən Erməni Milli Şurasının burada yerləşməsi məqsədli xaraкter daşımış, onların ermənilərə təsir imкanlarını bir qədər artırmışdı. Buna görə də Şuşa qəzasında ermənilərin törətdiyi qırğınlar daha кütləvi, mütəşəккil xaraкter almış və bu hadisələr Qarabağın dağlıq hissəsində millətçi-separatçı meylləri artırmışdı. Belə bir şəraitdə Azərbaycan dövləti özünün ərazi bütövlüyünü qorumaq və Qarabağdaкı erməni separatizminin qarşısını almaq üçün daha ciddi əməli tədbirlər görməyə məcbur olmuşdu.

Azərbaycan höкuməti fəaliyyətə başladığı ilк günlərdən qonşulara müraciət edərəк sərhəd məsələlərində razılığa gəlməyi təкlif etmişdi. Meydana çıxa biləcəк sərhəd münaqişələrinin qarşısını almaq və mehriban qonşuluq münasibətlərini bərqərar etməк məqsədilə Cənubi Qafqaz respubliкalarının üçtərəfli danışıqlarında bu məsələni müzaкirə edərəк razılaşmaya gəlməк ideyasını irəli sürmüşdü.

Laкin Ermənistan höкuməti Azərbaycan Dövlətinin irəli sürdüyü təкlifləri nəinкi qəbul etmədi, əкsinə, onun təhriкi ilə Dağlıq Qarabağda erməni millətçiləri daha da fəallaşdılar. Buna baxmayaraq, Ermənistan höкuməti Qarabağ problemini silahlı qüvvə tətbiq etməкlə öz xeyrinə həll edə bilmədiyindən sülh danışıqlarına razılıq verməyə məcbur oldu. Əslində, bu razılıq, bir tərəfdən, məcburiyyətdən irəli gəlirdisə, digər tərəfdən, böyüк dövlətlərin bölgədəкi nümayəndələri qarşısında «sülhsevərliк» görüntüsü yaratmaq «arzusu» ilə bağlı idi.

1919-cu il fevralın sonlarında dünya ermənilərinin Parisdə кeçirilmiş qurultayında Hindistan, Misir, Italiya, ABŞ, Fransa və Ingiltərədən olan ermənilər və həmçinin daşnaк höкumətinin nümayəndə heyəti də iştiraк edirdi. Daşnaкlar eyni zamanda Irəvanda qərb ermənilərinin qurultayını çağırdılar. Onların məqsədi öz dövlətlərini qurultayda dünya ermənilərinin ümummilli dövləti elan etməк idi. Ancaq nümayəndələr «Azad və vahid Ermənistan» uğrunda çıxış edirdilər. Belə bir vəziyyətdə daşnaк hökməti 1919-cu il fevralın 25-də qərb ermənilərinin Icraiyyə Komitəsinin təкlifini qəbul etməyə məcbur oldu və «Vahid Ermənistan» yaradılması üzrə tədbirləri işləyib hazırlamaq üçün кomissiya yaratdı.

İкinci Zaqafqaziya кonfransı 1919-cu il aprelin 25-də açıldı. Bu dövrdə Qarabağda və Naxçıvanda ermənilərlə azərbaycanlılar arasında qanlı toqquşmalar baş verirdi.

Ermənilər Naxçıvana da iddialarından əl çəкmirdilər. Onlar böyüк dövlətlər, xüsusilə ABŞ və Böyüк Britaniya vasitəsilə bölgəni ələ кeçirməк istəyirdilər. Zaqafqaziya кonfransında Azərbaycan nümayəndələri ermənilərin bu məsələdə əsassız olduğunu faкtlarla ortaya qoydular. Artıq əhəmiyyətini itirmiş Zaqafqaziya кonfransı Ermənistanın Deniкin əleyhinə yaranmış Gürcüstan-Azərbaycan ittifaqına qoşulmaqdan imtinası ilə başa çatdı (453, 46).





Beləliкlə, daşnaк höкuməti 1919-cu il 28 may bəyannaməsi ilə özünü «Vahid Ermənistan höкuməti» elan etdi (299, 62.)

Ameriкa müəllifi Səmyuel yazırdı: «Parisdə «dənizdən dənizə torpaq» tələb edən Ermənistanın iddialarını öyrənən müttəfiqlər belə bir nəticəyə gəldilər кi, hətta həmin torpaqlar onlara verilsə belə, Ermənistan o cür geniş torpaqları nə tuta, nə də idarə edə bilər» (243, 178).

Fransa nümayəndə heyətinin кatibi Filipp Bertelot ermənilərin iddialarını belə dəyərləndirirdi: «Ermənistan yaratmağın ən böyüк çətinliyi orasındadır кi, ermənilər əslində heç yerdə əкsəriyyət təşкil etmirlər. Onları Kiliкiya кimi millətin güclü nüvəsi yaşayan ölкəyə yerləşdirməк də böyüк etiraz doğurur, çünкi həmin torpaqlar Ermənistandan 400 кilometrdən artıq bir məsafədə yerləşir və belə genişliкdə ermənilərin yerləşdirilməsi onların müəyyən azlıq halında Ştatlarda da yerləşdirilməsi ilə nəticələnəcəкdir. Əgər əhalinin yerləşdirilməsi haqqında belə bir dahiyanə məsləhət baş tutarsa, onlar ermənilərə düşmən olan çoxluğun nümayəndələrini seçməli olacaqlar... Trabzondan tutmuş Aleкsandrettaya qədər torpaqlarda «Böyüк Ermənistan» yaratmaq xülyasına qarşı reallıq və məntiq eyni dərəcədə müxalifətdədir» (495, vol. 2, p. 454) .

Danışıqlar başa çatdıqdan sonra Ermənistan höкuməti yenidən Zəngəzur və Qarabağda silahlı müdaxiləyə əl atdı. Laкin Azərbaycan höкumətinin yaratdığı Qarabağ general-qubernatorluğu, xüsusilə onun başçısı X.P.Sultanovun gördüyü qəti tədbirlər nəticəsində 1919-cu ilin oкtyabrında ermənilər Zəngəzurda hərbi məğlubiyyətə uğradılar. Bundan sonra Ermənistan tərəfi Müttəfiq Dövlətlərin nümayəndələrinə müraciət etdilər кi, Azərbaycan tərəfini sülh danışıqlarına başlamağa razı salsınlar. 1919-cu il noyabrın 23-də Tiflisdə кeçirilən Azərbaycan – Ermənistan danışıqlarında iкi tərəf razılığa gəldi кi, mübahisəli məsələləri həll etməк üçün Baкıda azərbaycanlı-erməni кonfransı çağırsınlar (210, 207). Nəhayət, 23 noyabrda Ameri-

ka və Gürcüstan nümayəndələrinin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında saziş bağlandı (210, 207). Qeyd etmək lazımdır ki, saziş müvəqqəti xarakter daşıyırdı. Çox keçmədi ki, ermənilər yaranmış fasilədən istifadə edərək vəziyyəti öz xeyirlərinə dəyişməyi qərara aldılar və dərhal Zəngəzura qoşun yeritdilər.

Məcburiyyət qarşısında qalan Azərbaycan hökuməti Zəngəzurda qayda-qanun yaratmaq və sakitliyi bərpa etmək üçün Qarabağ general-qubernatorluğunun ixtiyarına əlavə qüvvələr göndərdi. Bu hadisələr erməni-azərbaycanlı konfransının çağırılması ərəfəsində baş verirdi. Ermənistan hökuməti Qarabağda olduğu kimi Zəngəzurda da vəziyyətin onun xeyirinə dəyişilməyəcəyini görərək Tiflisdə oturan ingilis ali komssarı Uordropdan və ABŞ-ın Qafqazdakı nümayəndəsi polkovnik Haskelin müavini Ceyms Reydən xahiş etdilər ki, hərbi əməliyyatların dayandırılmasına kömək etsinlər. Azərbaycan hökuməti yaranmış vəziyyəti müzakirə edərək və münasibətləri kəskinləşdirməmək üçün qərara aldı ki, öz qoşunlarını Zəngəzurdan çıxarsın. Lakin hökumət bu qərarı çıxararkən öz əvvəlki mövqeyində qalırdı ki, Zəngəzur Azərbaycanın ayrılmaz hissəsidir.

1919-cu il dekabrın 14-21 arasında Bakıda erməni-azərbaycanlı konfransı keçirildi. Konfransı Azərbaycanın Xarici İşlər Naziri M.Y.Cəfərov giriş sözü ilə açaraq bildirdi ki, ən mühüm məsələ Azərbaycanla Ermənistan arasında ərazi mübahisəsini həll etməkdir. 1919-cu il 23 noyabr müqaviləsi bu mübahisələri həll etməyin ümumi vəziyyətini müəyyənləşdirirdi. İndiki konfransın vəzifəsi bu vəziyyəti ətraflı şəkildə işləyib hazırlamaqdır. Lakin konfrans erməni tərəfinin günahı ucbatından yarımçıq qaldı. Danışıqlar göstərdi ki, Ermənistan hökuməti, bir tərəfdən, sözdə danışıqlara getməyə razılıq verir, digər tərəfdən, məsələlərin həlli real müstəviyə keçdikcə, müxtəlif bəhanələrlə onu pozmağa çalışır.





Beləliklə, Azərbaycanın Ermənistanla ərazi məsələlərini dinc yolla həll etmək cəhdi müsbət nəticə vermədi. Digər tərəfdən də Ermənistanın qızışdırdığı erməni silahlı dəstələri Dağlıq Qarabağda separatçılıq əməllərini daha da genişləndirdilər. Ermənilərin bölgədə möhkəmlənməsi təhlükəli xarakter aldı. Belə vəziyyət Azərbaycan hökumətinin daha ciddi tədbirlər görmək zərurəti qarşısında qoydu.

Yeni vəzifəyə təyin edildikdən sonra hələ Bakıda ikən X.P.Sultanov general-qubernatorluğun təşkili ilə əlaqədar olan bəzi işləri görmüş və 1919-cu il fevralın 12-də Şuşaya gələrək vəzifəsinin icrasına başlamışdı. Qeyd etmək lazımdır ki, Cümhuriyyət hökumətinin bu addımı azərbaycanlı əhali tərəfindən böyük razılıqla qarşılanmışdı. Qubernatorluğun yaradılması Qarabağ ermənilərinin Cümhuriyyət hökumətini tanımalarında əsas amillərdən biri olmuşdur.

X.P.Sultanov Şuşaya gələn kimi Qarabağda və Zəngəzurda vəziyyətlə tanış olmaq üçün ingilis, Azərbaycan və erməni nümayəndələrinin iştirakı ilə bir neçə rəsmi müşavirə keçirmişdir. Həmin müşavirələrin protokollarından məlum olur ki, general-qubernator vəzifəyə çox ciddi yanaşmış və hər bir məsələyə dair konkret göstəriş vermişdi. Qeyd etmək lazımdır ki, Qarabağı Azərbaycandan ayırmaq istəyən və daima azərbaycanlılarla ermənilər arasında nifaq toxumu səpən Erməni Milli Şurasının rəhbərləri bu müşavirələrə gəlməmiş və Azərbaycan hakimiyyətini tanımadıqlarını bəyan etmişdilər. Buna cavab olaraq X.P.Sultanov Erməni Milli Şurasının rəhbərindən 5 nəfəri müttəfiq nümayəndələrin köməyi ilə Qarabağdan sürgün edə bilmişdi.

Zəngəzur qəzasını da əhatə edən Qarabağ general-qubernatorluğunun yaradılması və X.P.Sultanovun oraya başçı təyin olunması Ermənistanı xeyli təşvişə salmış və onun Dağlıq Qarabağla bağlı ərazi iddialarını puça çıxarmışdı.

R.Hovannesyan bu barədə yazırdı: «Açıqlanmış ermənilərin özləri üçün təhqir üstündən təhqir hesab etdikləri və bərk qorxduqları məşhur armenofob X.P.Sultanovun Tomson tərəfindən hər iki ərazinin qubernatoru təyin edilməsi idi» (210, 115).

Azərbaycan hökuməti, təbii ki, Azərbaycanın ərazi bütövlüyünün və suveren hüquqlarının pozulmasına yol verə və qonşu dövlətin onun daxili işlərinə qarışması cəhdləri ilə barışa bilməzdi. Bununla yanaşı, Azərbaycan hökuməti bütün münaqişələri sülh yolu ilə həll etməyə hazır olduğunu bildirmişdi və bu niyyətinə sadiq idi.

Uzun sürən müzakirə və mübahisədən sonra ingilislər güzəştsiz mövqe tutaraq ermənilərdən Müttəfiqlərin komandanlığının qərarlarına tabe olmağı, Qarabağda və Zəngəzurda Cümhuriyyətin hakimiyyətini tanımağı tələb etdi.

Qarabağın general-qubernatoru X.P.Sultanovun gördüyü ciddi tədbirlər nəticəsində Şuşa rayonunda qayda-qanun bərpa olunmuş və həyat normal axara düşmüşdü (301, 249).

Qeyd edildiyi kimi, Qarabağın general-qubernatoru X.P.Sultanov Şuşaya gələn andan Qarabağ torpağını erməni quldur dəstələrindən azad etmək üçün gərgin fəaliyyətə başladı. O, 1919-cu il fevralın 12-də Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarının əhalisinə müraciət edərək general-qubernatorluğun yaradılması səbəblərini izah etmişdi.

X.P.Sultanovun general-qubernator təyin olunmasından sonra da erməni separatçıları Ermənistan hökumətinin yardımı ilə Qarabağı Azərbaycan Respublikasının tərkibindən ayırmaq səylərini davam etdirirdi. 1919-cu il 4 iyunda Dağlıq Qarabağ ermənilərinin silahlı dəstələri Şuşa ətrafındakı azərbaycanlı hərbi hissələrin yerləşdiyi gözətçi məntəqələrinə hücum etdi. Lakin onların bu hücumu X.P.Sultanovun gördüyü qəti tədbirlər nəticəsində dəf edildi.

X.P.Sultanovun Dağlıq Qarabağda erməni separatçılarının qiyamçı hərəkətlərini qəti tədbirlər nəticəsində aradan





qaldırması, dinc erməni əhalisi tərəfindən razılıqla qarşılanmış və onlar X.P.Sultanovun yanına gələrək təşəkkürlərini bildirmişlər (34, f.970, siyahı 1, iş 163, v.22).

Qarabağ erməniləri 1919-cu ilin avqustunda fövqəladə qurultay çağıraraq Azərbaycan hökumətinə tabe olmaq haqqında qərar qəbul etmişdilər. Qarabağ ermənilərinin VII qurultayının xüsusi nümayəndələri və erməni kilsə xadimləri X.P.Sultanovun hüzuruna gələrək Qarabağın dağlıq hissəsinin erməni əhalisinin onun hakimiyyətinə tabe olmaq arzusunda olduqlarını bildirmişdilər. Danışıqlar iki gün davam etmiş və nəhayət, müqavilə layihəsi işlənib hazırlanmışdı.

1919-cu il avqustun 28-də Qarabağın erməni əhalisinin nümayəndə heyəti Bakıya gələrək Baş Nazir Nəsib bəy Yusifbəylinin qəbulunda olmuşdular. Nümayəndə heyəti Qarabağ məsələsinin dinc yolla nizama salınmasma görə ona Qarabağın erməni əhalisi adından öz minnətdarlığını bildirmişdi (301, 288).

Dağlıq Qarabağda milli münaqişənin beynəlxalq aspektdə tənzimlənməsi Azərbaycan hökumətinin qarşısmda duran ən mühüm məsələlərdən idi. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin başlıca məqsədi Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə təsdiqlənməsindən ibarət idi. Qonşu ölkələrin Azərbaycanm istiqlaliyyətini tanıması müstəqilliyin dönməzliyinin təmin edilməsi üçün hələ yetərli deyildi. Dövlətin xarici siyasətinin ana xəttini təşkil edən bu vəzifənin həyata keçməsinə ölkənin ən nüfuzlu şəxsləri cəlb edilmiş, bu sahəyə birinci dərəcəli əhəmiyyət verilmişdi (218, 203-204).

1919-cu il yanvarın 8-də Azərbaycan nümayəndə heyəti parlamentin sədri Ə.M.Topçubaşovun rəhbərliyi altında Paris Sülh Konfransına yola düşdü.

Azərbaycan Xalq Cühuriyyəti haqqında məsələyə 1919-cu il mayın 2-də Dördlər Şurasının iclasında rəsmi şəkildə baxıldı. Həmin gün ABŞ prezidenti V.Vilson tələb etdi ki, Azər-

baycan nümayəndə heyətinə konfransın işində iştirak etmək üçün icazə verilsin.

May ayının 28-də Azərbaycan nümayəndə heyəti ABŞ prezidenti V.Vilson tərəfindən qəbul edildi. Nümayəndə heyəti V.Vilsona qısa siyasi memorandum təqdim etdi. Memorandumda Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, ərazi bütövlüyü məsələsi qısa şəkildə təsvir ediləndən sonra Azərbaycan nümayəndə heyətinin tələbləri verilirdi. Bu tələblər altı maddədən ibarət idi. Vilsonun cavabı isə dörd bənddən ibarət olmuşdu.

Azərbaycan hökuməti 14 bölmədən ibarət olan «Qafqaz Azərbaycan Respublikası nümayəndələrinin Versal Sülh Konfransına memorandumu» adlı sənəd təqdim etdi. Memorandumun ən əhəmiyyətli bölmələri dövlətin ərazisi və əhalisi ilə bağlı bölmələr idi. Ermənilərin, gürcülərin və iranlıların konfransa təqdim etdikləri ərazi iddiaları bilavasitə Azərbaycana aid olduğu üçün ölkənin hüdudları barədə konfransın rəhbərlərində aydın təsəvvür yaradılması zərurəti meydana çıxmışdı. Bu memorandumda Qafqaz Azərbaycanının ərazisi keçmiş inzibati bölgü sistemi üzrə yeddi maddədən ibarət göstərilmişdi (120, 203). Ə.M.Topçubaşov bu münasibətlə yazırdı: «Mənim tərəfimdən ermənilər haqqında deyilənlər qərb diplomatları üçün tamamilə yenilik idi» (120).

1919-cu ilin yayında Paris Sülh Konfransında Azərbaycan nümayəndələrinin qarşılaşdığı ciddi məsələlərdən biri də erməni nümayəndələri ilə münasibətlər idi. Ermənilər Paris Sülh Konfransının onların bütün problemlərini həll edəcəyinə ümid bəslədikləri üçün ona ciddi hazırlaşmışdılar. Onlar Aralıq dənizindən Qara dənizə, Qara dənzdən Xəzər dənizinə qədər «Böyük Ermənistan» yaratmaq barədə tələblərini sülh konfransına təqdim etmişdilər. Belə böyük iddiaların nəticəsi idi ki, ermənilər Parisə iki nümayəndə heyəti göndərmişdilər.





Ə.M.Topçubaşov Paris Sülh Konfransında görüşdüyü müxtəlif nümayəndə heyətlərinin üzvləri ilə söhbətlərində və böyük dövlətlərin başçılarına və xarici işlər nazirlərinə göndərdiyi notalarda «erməni əzabkeşliyinin» iç üzünü açıb göstərmiş və erməni millətçilərinin əsl simasını üzə çıxara bilmişdi.

Parisdəki erməni nümayəndələri isə Qarabağda özlərinin törətdiyi cinayətləri başqalarının ayağına yazır və bununla da müttəfiq ölkələrin nümayəndələri qarşısında Azərbaycan Respublikasını və onun Versaldakı nümayəndələrini nüfuzdan salmağa çalışırdılar.

Azərbaycan hökuməti təklif etdi ki, erməni-azərbaycanlı münaqişəsini təhqiq etmək üçün beynəlxalq istintaq komissiyası yaradılsın. Bu məsələ Parisdə olan Azərbaycan nümayəndələri tərəfindən də qaldırılmışdı. Əvvəllər beynəlxalq istintaq komissiyasının yaradılmasına ermənilər razılıq versələr də sonralar müxtəlif bəhanələrlə bu işi pozdular. Lakin 1919-cu ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində respublikanın Qarabağda suveren hüquqları bərpa edildi. Azərbaycanın Parisdə olan nümayəndə heyətinə göndərilən məlumatda qeyd edilirdi: «Qarabağ məsələsi adlandırılan məsələ qəti şəkildə həll edildi. VII erməni qurultayında Qarabağ ermənilərinin nümayəndələri Azərbaycan hökumətinin hakimiyyətini tanımaq barədə general-qubernator X.P. Sultanovla saziş bağladılar» (382; 301, 23). Bu sənəd Ə.M.Topçubaşov tərəfindən Versal Ali Şurasına təqdim edilmişdi.

1919-cu il yanvarın 8-də Azərbaycan Parlamentinin iclasında çıxış edən parlamentin sədri bildirmişdi: «1917-ci ilin dekabrından 1919-cu ilin iyununa kimi erməni qoşunları tərəfindən İrəvan quberniyasında 200-dən çox azərbaycanlı kəndi dağıdılmış və yandırılmışdı. Tərk edilmiş azərbaycanlı kəndlərinə Türkiyədən olan ermənilər yerləşdirilir» (301, 136-137).

Baş nazir F.Xoyskinin Ermənistan hökumətinə notasında azərbaycanlılara qarşı təcavüz siyasətinin dayandırılması qəti şəkildə tələb edilirdi (24, 153).

Lakin münasibətləri bərpa etmək mümkün olmadı. Ermənilər azərbaycanlıların malım, mülkünü talan edir, evlərini yandırırdılar. Belə ki, daşnak hökumətinin qoşunları Zəngibasar bölgəsini talan etdikdən sonra, talançıların apardıqları qənimətlərdən əlavə, dövlətə qalan 82 adda külli miqdarda əmlak 1920-ci il avqustun 2-də maliyyə nazirinin sərəncamı ilə hərraca qoyulmuş və əldə edilmiş məbləğ dövlət büdcəsinə keçirilmişdi. Ermənilərin yeritdiyi separatizmlə daşnak hökuməti tərəfindən türk-müsəlmanlar əleyhinə yeritdiyi talançılıq siyasəti dövlət səviyyəsində aparılırdı (179, 331).

Amerika Birləşmiş Ştatları da ermənilərə həm hökumət, həm də ayrı-ayrı erməniпərəst təşkilatlar vasitəsilə yardımlar edirdi. ABŞ-ın Istanbuldakı baş komissarı admiral Bristol 1921-ci il martın 28-də doktor Bartona göndərdiyi məktubunda Ermənistanın ABŞ-a olan borcları haqqında yazırdı: «Sizin məktubunuzdan öyrəndim ki, Ermənistana borc pul verilməsi uğrunda hərəkat başlanmışdır, həqiqətən çox təəccübləndim. Biz artıq Ermənistana 50 milyon dollardan artıq vermişik və o pul itirilib. Mən belə borcların vaxtında verilməsini təklif edirəm. Başqa bir borc verilməsi sadəcə yaxşı pulu pis işə sərf etmək olardı» (243, 244) .

Daşnak hökuməti cilddən-cildə girərək taktikasını çox tez-tez dəyişirdi. Halbuki, daşnakların bəzi dairələri türklər əleyhinə düşmənçilik təbliğatını davam etdirirdilər. Radikal erməni qrupları bildirirdilər ki, «erməni məsələsinin» həlli üçün qan tökmək, «Türkiyə Ermənistanı» torpaqlarını qan seli ilə suvarmaq lazımdır» (277).

1918-1920-ci illərdə daşnaklar tərəfindən 157 kənd tamamilə, 67 kənd isə qismən azərbaycanlılardan «təmizlənmişdi». Ümumiyyətlə, erməni milllətçilərinin yeritdiyi ardıcıl təqib və





qırğın siyasəti nəticəsində 1828-ci ildən 1920-ciilədək 738 tarixi türk-müsəlman kəndindən (indiki Ermənistan ərazisində) azərbaycanlılar qovuldu və həmin kəndlər erməniləşdirilib xristian yaşayış məntəqələrinə çevrildi.

1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti elan edildi. Mayın 3-də XI Ordunun silahlı dəstələri Azərbaycana soxuldu. Ruslar Qarabağda yuva salmış erməni quldur dəstələrinin bilavasitə köməyi ilə Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovu hakimiyyətdən uzaqlaşdırdı. Şuşa, Xankəndi və Qarabağın digər şəhər və kəndləri rus qoşunlarının, erməni quldur dəstələrinin nəzarəti altına keçdi (35, fond 27, siyahı 2, iş 54, vər. 43-44.).

1918-1920-ci illərdə Qarabağda soyqırım törədən erməni daşnakları Qarabağın qəzalarında kəndləri məhv edərək minlərlə azərbaycanlını öz doğma yurdlarından qovdular (35, f.970, siyahı 1, iş 1, v.51). Baxmayaraq ki, Nuru Paşanın rəhbərliyi ilə Türk-Islam odusu Xosrov bəy Sultanovun başçılıq etdiyi müqavimət hərəkatı (30; 36) ilə birgə 1920-ci il iyun ayının əvvəllərində Şuşanı XI Ordunun silahlı dəstələrindən təmizləyə bildi, ancaq Dağlıq Qarabağa rus və erməni quldurlarına kömək məqsədi ilə gətirilmiş birləşmiş ordu hissələri iyunun 15-də Şuşada sovet hökumətini bərpa etdi (136, 80).

Sovet Rusiyası hökuməti Qarabağda başlanmış azərbaycansızlaşdırma siyasətini davam etdirdi. 1920-1921-ci illərdə Ermənistandan Azərbaycana 850 erməni ailəsi köçürüldü. Bunlardan 765 ailə Dağlıq Qarabağda yerləşdirildi. Onların məskunlaşdırılması və yaşaması üçün hər cür şərait yaradıldı (34, fond 27, siyahı 1, iş 649, vər. 190; fond 24, siyahı 1, iş 137, vər.18; fond 410, siyahı 1, iş 11, vər.45.). Həmin dövrdə Qarabağın hər yerində azərbaycanlıların hüquqları tapdalanmış, hər hansı bir münaqişəyə görə yalnız onlar cəzalandırılmışlar (185, 38).

Ermənilərin torpaq iddiaları Azərbaycan və Ermənistan SSRI-nin tərkibinə qatıldıqdan sonra da davam etmişdir. Tarixi

Azərbaycan torpaqları olan Irəvan, Zəngəzur və Göyçə mahallarının Ermənistana verilməsi azmış kimi, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi siyasəti ermənilər tərəfindən daim diqqətdə saxlanmış və bu iddia ilə onların vaxtaşırı çıxışları olmuşdur.

Sovet Rusiyasının köməyi ilə DQMV-nin yaradılması Dağlıq Qarabağın gələcəkdə ermənilərə veriləcəyi uzaqgörənliyi idi. Həmçinin bu, Rusiya imperiyasının «parçala, hökmranlıq et» siyasətinə xidmət edirdi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti yaranan zaman dövlətin ərazisi 114 min kv.km idi. Azərbaycan SSR yarananda bu rəqəm 86,6 min kv.km-ə enmişdir. Göründüyü kimi, həmin ərazilər SSRI dövründə Moskva tərəfindən hissə-hissə Ermənistana verilmişdir.

Qeyd etmək lazımdır ki, ermənilər Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi iddiasından heç vaxt əl çəkməmişlər. Bu məqsəd uğrunda onlar ardıcıl iş aparmış, əlverişli məqamlardan məharət və məkrlə istifadə etmişlər. DQMV-ni də Ermənistana birləşdirmək üçün onun erməni əhalisini daim ruhlandırmışlar.

Ümumiyyətlə, Rusiyanın Qafqazda, xüsusilə türk-müsəlman dövlətləri arasında erməni-xristian dövləti yaratmaq planı baş tutduğu üçün yerli əhalinin- türk-müsəlmanların sıxışdırılaraq süni surətdə sayının azaldılması və ermənilərin sayca artırılması siyasəti davam etdirilmişdir. Sonrakı dövrlərdə də Qarabağın demoqrafiyasını ermənilərin xeyrinə dəyişmək üçün Dağlıq Qarabağ ərazisində daha çox erməni məskunlaşdırmaq, azərbaycanlıları bölgədən sıxışdırıb çıxarmaq siyasəti davam etdirilmişdir. Müxtəlif üsullarla yerli əhalini yurd-yuvasından didərgin salmaq, torpaqlarını mənimsəmək adi hala çevrilmişdir. Erməni ideoloqlarının müxtəlif şəkildə pərdələmək istəmələrinə baxmayaraq aşkarda olanı odur ki, bu siyasətin əsasını ermənilərin Azərbaycana qarşı torpaq iddiaları təşkil etmişdir.





Erməni siyasətbazları üçün uydurma dövlətçilik tarixi yazanlar "Şərqi Ermənistan", "Qərbi Ermənistan", "Böyük Ermənistan" xülyaları ilə tarixi saxtalaşdırmış, Qarabağın sonrakı faciələrinin başlanğıcını qoymuşlar (145; 146).

Beləliklə, ermənilər Azərbaycan türklərinə qarşı bəşər tarixində görünməmiş vəhşiliklər, soyqırımlar, depotasiyalar həyata keçirmişlər. Bir əsrdə azərbaycanlı əhali ermənilər tərəfindən iki dəfə soyqırıma məruz qalmışdır. Sovetlər dövründə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün DQMV- də gizli işlər aparan erməni siyasətbazları və ermənipərəstlər «Türksüz Ermənistan» yaratmaq, etnik təmizləmə aparmaq məqsədilə dəhşətli faciələr törətmişlər.

«Türksüz Ermənistan» siyasəti müharibədən sonra özünün yeni mərhələsinə qədəm qoydu. Bu məqsədlə Ermənistan SSR-də, yəni tarixi Qərbi Azərbaycan torpaqlarında, arzuolunmaz şəxslər hesab olunan aborigen azərbaycanlılara qarşı bir neçə dəfə rəsmi deportasiya həyata keçirildi. Belə ki, 1947-ci il dekabrın 23-də SSRI Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsinə dair» 4083 saylı qərar qəbul etdi (228; 229; 230). Qərarın 1-ci və 11-ci bəndlərində deyilirdi: «1948-1950-ci illərdə Ermənistan SSR-dən 100 min kolxozçu və digər azərbaycanlı əhali könüllü olaraq Azərbaycan SSR-nin Kür-Araz ovalığına - 10 mini 1948-ci ildə, 40 mini 1949-cu ildə və 50 mini 1950-ci ildə köçürülsün. Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdən və yaşayış evlərindən xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsin» (228).

Köçürülənlər üçün ayırılmış vəsaitin isə yalnız 45-47 %-dən istifadə edilmişdi. Digər tərəfdən, maraqlıdır ki, azərbaycanlıların tərk edilmiş kəndlərinin çoxu boş qaldı.

Azərbaycanlıların Ermənistan ərazisindən deportasiyası prosesi Sovet hakimiyyəti illərində heç vaxt dayanmamışdır. Sovet partiya və dövlət rəhbərliyində mühüm mövqelər tutmuş erməni millətçiləri hər bir əlverişli məqamdan və fürsətdən istifadə edərək Azərbaycanın Qarabağ bölgəsinə olan ərazi iddialarını həyata keçirməyə çalışırdılar. Mikoyan SSRI Ali Soveti Rəyasət Heyətinin sədri olarkən Sovet rəhbəri Xruşova təklif etmişdi ki, Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana birləşdirsin. Xruşov ona belə bir cavab vermişdi: «Mən bir sutka ərzində DQMV ermənilərinin Ermənistana köçürülməsi üçün 12 min hərbi yük maşını ayırmağa hazıram» (429, 16-17).

Dağlıq Qarabağda erməni separatizmi 1988-ci ilin əvvəllərində yenidən baş qaldırdı. Ermənilərin bu separatçı hərəkətlərinin arxasında Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilməsi kimi məkrli bir məqsəd dururdu (442). Ermənistanda yaradılmış «Qarabağ» və Dağlıq Qarabağdakı «Krunk» komitələri 1988-ci ilin əvvəllərində mitinqlər, tətillər təşkil etməyə başladılar (371). Ilk mitinqdə «miatsum» çağırışı ilə başlanan bu hərəkat bir muddət sonra ermənilərin Azərbaycan, eləcə də SSRI hökumətinə təzyiqlər etməklə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə getdikcə daha da gücləndi. Erməni liderlərin açıq-aşkar səsləndirdikləri «antisovet çağrışlarının qarşısı alınmadığı üçün» onlar get-gedə mütəmadi xarakter almağa başladı.

SSRİ rəhbərliyi tərəfindən məsələlərin kortəbii axarına buraxılması və açıq-aşkar fəaliyyətsizlik ona gətirib çıxardı ki, 1988-ci il mayın 11-də Ermənistan SSR-in Ararat (Ağrı) vadisində Azərbaycan kəndlərinə qabaqcadan hazırlanmış silahlı basqınlar edildi, nəticədə orada yaşayan çoxsaylı azərbaycanlı əhali öldürüldü, evləri dağıdılaraq yandırıldı, qarət olundu və onlar doğma dədə-baba yurdundan didərgin salındılar.

1988-ci ilin fevralından Dağlıq Qarabağda gərginləşən vəziyyət (495) ayın 13-dən bölgənin Ermənistana birləşdiril-





məsi tələbilə keçirilən mitinqlərlə müşayiət olunmağa başladı. 1988-ci ilin iyulunda DQMV-nin Azərbaycan tərkibindən çıxması (431), 1989-cu ildə isə vilayətin Ermənistana birləşdirilməsinə dair qərar qəbul edildi (432).

Azərbaycan xalqı 1987-ci ilin axırlarında süni surətdə yaradılan uydurma Dağlıq Qarabağ problemini elə ilk günlərdən respublikanın ərazi bütövlüyünə qarşı yönəldilmiş cəhd kimi, vətəndaşların Konstitusiya hüquqlarının pozulması aktı kimi qarşıladı. SSRI hökumətinin və Sov.IKP MK-nın gördüyü tədbirlər, o cümlədən qanlı Bakı qırğını sübut edir ki, Dağlıq Qarabağ münaqişəsi müfəssəl şəkildə hazırlanmış əməliyyatdır. «Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında» Sov.IKP MK-nın və SSRI Nazirlər Sovetinin 1988-ci ilin martında qəbul etdiyi xüsusi qərar SSRI-nin tarixində görünməmiş bir şey idi və elə bunun özü də Mərkəzlə Ermənistan rəhbərliyi arasında sövdələşmə olduğuna danılmaz sübutdur (419). Mahiyyət etibarilə həmin Ittifaq qərarı ilə Dağlıq Qarabağın Azərbaycan SSR-dən qoparılması üçün sosial-iqtisadi bünövrə qoyulurdu.

Muxtar vilayətdə xüsusi idarə formasının tətbiq edilməsi haqqında SSRI Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 12 yanvar tarixli fərmanı Dağlıq Qarabağın Azərbaycanın tabeliyindən çıxarılması strategiyasında mərkəzin atdığı növbəti addım oldu (246). Dağlıq Qarabağa rəhbərlik mərkəzin nümayəndəsi A.Volskinin sədrliyi ilə Xüsusi Idarə Komitəsinə tapşırıldı. Əslində isə bu, Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılması demək idi (174, 29).

SSRI-nin tarixi mərhələlərində milli məsələlərin həllindəki deformasiyalar, məcburi assimiliyasiya, bir xalqın kütləvi deportasiyası, onların nəinki milli, həmçinin adi insan hüquqlarından məhrum edilməsi, süni şəkildə bir xalqın «köklü» olanlara və «köklü olmayan»lara bölünməsi, məqsədəyönlü şəkildə xalqların miqrasiyası, ittifaq və muxtar respublika sərhədlərinin sərbəst

müəyyənləşdirilməsi, azsaylı xalqların milli maraqlarının unudulması, obyektiv milli proseslərdən imtinalar öz əksini tapırdı (401, 62). Keçmiş SSRI-nin 70 qaynar nöqtəsi vardı ki, bunlarda milli münaqişələr həddini aşmışdı. Münaqişələr Qafqaz və Moldaviyada daha geniş vüsət almışdı (174, 82).

Hesaba alsaq ki, Qafqazda 30-dan artıq milli gərginlik ocağı mövcuddur, onda deməliyik ki, Azərbaycan və Ermənistan arasında tamamilə başqa bir proses – silahlı milli konflikt yaşanır. Bunun başlıca səbəbi, yuxarıda qeyd etdiyimiz kimi, Ermənistanın heç bir əsası olmayan ərazi iddiaları və Dağlıq Qarabağ əhalisinin erməni hissəsinin separatçı çıxışlarıdır (174, 83).

Rusiyanın Cənubi Qafqaza ayaq basdığı gündən Azərbaycan xalqına qarşı həyata keçirilən bütün soyqırımlarının, o cümlədən 1905-1907-ci illər qırğınlarının, 1918-ci il Mart soyqırımının, sovet dövründəki bütün qanlı repressiyaların, 20 Yanvar qırğınının (366), Xocalı soyqırımının, Dağlıq Qarabağ münaqişəsinin də əsasında məhz bu siyasət– Rusiyanın imperiyapərəst, şovinist dairələri ilə «Böyük Ermənistan» xəstəliyinə tutulmuş erməni millətçilərinin ittifaqı durur (305; 496).

1989-cu il dekabr ayının 1-də Ermənistan SSR Ali Soveti «Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşməsi haqqında» qərar qəbul etməsilə, əslində, həm Ermənistanın Azərbaycana qarşı ərazi iddiası, həm də Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qəsd etmək cəhdi təsdiq olundu.

Həmin dövrdən başlayan proseslər ardıcıl olaraq davam etdi (54; 313). Belə ki, 1990-cı ilin fevralında Ermənistan SSR-dən azərbaycanlıların deportasiyası başa çatdı, Ermənistan SSR-dən Azərbaycana 243682 nəfər qaçqın gəldi. Bu zaman ermənilərin terror və işgəncələri nəticəsində 220 nəfər həlak olmuş, 1154 nəfər yaralanmışdı (3945, 38; 405; 435; 454; 505, p.2). 1991-ci il yanvarın 9-da ermənilər Qaladərəsi kəndinin yaxınlığında, Laçın-Şuşa avtomobil yolunun 6-cı kilometrliyində daha bir qanlı hadisə törətdilər: «Молодежь Азербайджана» qəzetinin xüsusi müxbiri Salatın Əziz qızı Əsgərovanı, kəşfiyyat bataloyonunun komandiri podpolkovnik Anatoli Mixayloviç Illarionovu, Laçın rayonu hərbi komendantlığı qərargahının rəisi mayor Iqor Yuryeviç Ivanovu və sovet ordusunun çavuşu Ivan Ivanoviç Qoyegi getdikləri avtomaşında atəşə tutaraq öldürdülər. ABŞ senatı isə iyunun 25-də ermənilərin Azərbaycan ərazisindən «zorla köçürülməsini» pisləyən qətnamə qəbul etdi.

SSRİ-nin dağılması ilə Ermənistanın Azərbaycana qarşı təcavüzü yeni mərhələyə qədəm qoydu.





## 1.2. Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müstəqilliyin ilk dövründə

SSRİ-nin parçalanması prosesinin gedişində onun tərkibinə daxil olan bir sıra respublikalarda müxtəlif zəminlərdə süni olaraq münaqişə ocaqları yaradılırdı. Belə münaqişə ocaqlarının yaradılmasında bu respublikalarda öz təsir gücünü qoruyub saxlamaq istəyən Kreml rəhbərliyi maraqlı idi (451). Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində və onun ətrafında erməni separatçılarının iştirakı ilə başlanan hadisələr də bu siyasətin tərkib hissəsi idi.

Azərbaycan torpaqlarına qarşı daim iddialarda olan ermənilər XX əsrin 80-ci illərinin sonlarında öz havadarlarına arxalanaraq bu dəfə də Dağlıq Qarabağda separatçılıq fəaliyyəti göstərməyə başladılar (107). Məsələ burasında idi ki, bölgədə baş verən hadisələrin əsas mahiyyəti dünya ictimaiyyətindən gizlədilirdi. Burada gedən proseslərə rəhbərlik isə, əsasən, Kremlin muxtar vilayətdə yaratmış olduğu və baş verən hadisələrə qeyri-obyektiv mövqedən yanaşan Dağlıq Qarabağ üzrə xüsusi idarəçilik institutuna həvalə olunmuşdu. Bu qurum Dağlıq Qa-

rabağla əlaqədar yaranmış problemin yalnız məhəlli münaqişə ocağı kimi tanınmasına çalışır və bir dövlətin torpaqlarının başqa bir dövlətin ordusu tərəfindən işğal olunması faktını geniş ictimaiyyətdən gizli saxlamağa cəhd göstərirdi. Həm də BMT, ATƏT kimi beynəlxalq təşkilatlar və digər bir sıra qurumlar, SSRİ-nin özünün, hələ də yaşamaqda davam etdiyinə görə, bu problemin öhdəsindən gələ biləcəyinə inanırdılar. Azərbaycan Respublikasının ilk illərində (1991-1993) ona rəhbərlik edən hökumətlərin isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair konsepsiyası yox idi (181). Münaqişə isə getdikcə dərinləşirdi.

1991-ci il oktyabrın 29-da Azərbaycan Hava Yolları Konserninin Yevlax Aviasiya Şirkətinə məxsus AN-2 təyyarəsi DQMV-nin Əsgəran rayonunda vuruldu. Təyyarədəki üç nəfər yandı.

Noyabrın 20-də DQMV Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Azərbaycana məxsus hərbi vertolyot partladıldı: Azərbaycan Respublikasının dövlət katibi T.K.Ismayılov, Baş Prokuroru I.I.Qayıbov, dövlət müşaviri M.N.Əsədov, baş nazirin müavini Z.S.Hacıyev, SSRI xalq deputatları V.C.Cəfərov, V.H.Məmmədov, Azərbaycan Respublikası Prezidenti aparatının şöbə müdiri O.M.Mirzəyev, DQMV prokuroru I.A.Plavski, Azərbaycan Melioriasiya və Su Təsərrüfatı nazirinin birinci müavini Q.H.Namazəliyev və b. həlak oldular.

1991-ci il dekabrın 28-də erməni quldurları Kərkicahan kəndinə hücum zamanı Moskvanın «Mayak» radiostansiyasının xüsusi müxbiri Leonid Lazareviçi öldürdülər. 1992-ci il yanvarın 28-də Azərbaycan Respublikası Mülki Aviasiyasının Ağdam-Şuşa marşrutu ilə hərəkət edən vertolyotu erməni yaraqlıları tərəfindən vuruldu, vertolyotdakı 40 nəfər sərnişin və heyət üzvləri həlak oldu.

1992-ci il fevralın 12-də Malıbəyli və Quşçular kəndlərinin əhalisi erməni quldurlarının həmlələri nəticəsində böyük itki verərək kəndlərini tərk etməyə məcbur oldu. Həmin gün





ABŞ-ın dövlət katibi Ceyms Beyker Bakıya əməli səfərə gəldi. Iki ölkə arasında rəsmi münasibətlər yaratmaq məqsədilə o, bir sıra məsələlərlə bərabər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında geniş məlumat aldı. ABŞ-ın Azərbaycanla gələcək əlaqələrinin mühüm aspektlərini müzakirə etdi. 1992-ci il martın 18-də ABŞ ilə Azərbaycan Respublikası arasında rəsmi diplomatik münasibətlər yaradıldı.

1992-ci il fevralın 17-də erməni quldurları zirehli texnikanın köməyi ilə Xocavənd rayonunun Qaradağlı kəndini işğal etdilər (236).

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri ən müasir silahlardan istifadə edərək, Rusiyaya məxsus olan və o dövrdə Stepanakertdə (Xankəndində) yerləşən 366-cı alayın bilavasitə iştirakı ilə əhalisinin hamısı (yeddi min) azərbaycanlıdan ibarət olan Xocalı şəhərinə hücum etdi (379). Şəhər iriçaplı silahların gücü ilə darmadağın edildi. Silahsız dinc əhali dəhşətli soyqırıma məruz qaldı - qadınlar, uşaqlar, qocalar, xəstələr ağlasığmaz vəhşiliklə məhv edildi. Həmin gecə ermənilərin törətdikləri soyqırımı nəticəsində 613 dinc Xocalı sakini, onlardan 106 qadın, 83 azyaşlı uşaq, 70 qoca vəhşicəsinə öldürüldü. Facia zamanı 1000 nəfər dinc sakin müxtəlif dərəcəli yara aldı, 487 nəfər, o cümlədən 76 nəfər həddibuluğa çatmamış gənc oğlan və qız əlil oldu, 1275 nəfər əsir götürüldü, 150 nəfər isə itkin düşdü (103, 199; 187; 249).

Azərbaycanın qan yaddaşına yazılan Xocalı soyqırımı, əslində, erməni faşizminin iç üzünü açıb göstərdi (142). Əsir düşənlər və meyitlər qeyri-insani hərəkətlərlə təhqir edildi. Onların başı və digər bədən üzvləri kəsildi, başlarının dərisi soyuldu, uşaqların gözləri çıxarıldı, hamilə qadınların qarınları yarıldı. Erməni silahlı qüvvələri bütün beynəlxalq normalara zidd olaraq əsirlərə qarşı qeyri-insani rəftar etdilər. Onlar Cenevrə konvensiyasının bütün maddələrinə və protokollarına

(357) zidd olaraq dinc sakinlərin yollarını kəsərək onlara işgəncələr verdilər (126; 127; 128; 129; 130; 131).

Bu hərbi-siyasi cinayət zamanı 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi, 56 nəfər şəhid oldu, xüsusi amansızlıq və qəddarlıqla diri-diri yandırıldı (103; 187).

Azərbaycan torpaqlarında özlərinə «vətən» yaratmağa şirniklənmiş gəlmə ermənilər bəd niyyətlərini həyata keçirmək – Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün azərbaycanlılara dəhşətli göz dağı verməkdən ötrü belə amansız hərəkətlərə rəvac verdilər (312). XX əsrin sonlarında bütün dünyanın gözü qarşısında «əzabkeş» ermənilər dinc sakinlər üzərində tarixdə analoqu olmayan vəhşilik törətdilər. Heydər Əliyev Xocalı soyqırımından danışarkən qeyd etmişdir: «Bu qəddar və amansız soyqırım aktı insanlıq tarixinə ən dəhşətli kütləvi terror aktlarından biri kimi daxil oldu» (304).

1992-ci ilin aprelində Vaşinqton hökuməti Senatın ATƏT üzrə komissiyasının sədri senator Dennis de Konsini başda olmaqla ABŞ Konqresinin nümayəndə heyətini Bakıya göndərdi. Bu gəliş də bir nəticə vermədi (482).

SSRİ-nin dağılmasından sonra öz müstəqilliyini elan etmiş respublikalar kimi Azərbaycan Respublikası da bir sıra beynəlxalq təşkilatlara üzv olmağa başladı. Beynəlxalq təşkilatlar bu problemə yalnız 1992-ci ildən sonra, yəni Qarabağda döyüş əməliyyatlarının kəskin xarakter almasından sonra, ciddi yanaşmağa başladılar. Dağlıq Qarabağla əlaqədar yaranmış münaqişənin dayandırılmasında və onun birdəfəlik aradan qaldırılmasında bir sıra nüfuzlu qurumlarla yanaşı, ATƏT-in də fəaliyyətinin mühüm əhəmiyyəti var idi. 1992-ci ildən bu nüfuzlu təşkilata üzv olan Azərbaycan Respublikasının o zamankı rəhbərliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi çox ağır bir problemin həlli məsələsində fəaliyyəti qeyri-qənaətbəxş idi (247).





O zamankı rəhbərlik beynəlxalq təşkilatların nüfuzundan istifadə etmək əvəzinə Dağlıq Qarabağ problemini öz gücü hesabına aradan qaldırmağa çalışırdı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1992-ci ilin yanvar ayında Rusiya Federasiyasının prezidenti B.Yeltsin və ABŞ prezidenti C.Buş birgə bəyanat verdilər. Bəyanatda hər iki dövlət başçısının Qarabağ bölgəsində yaranmış vəziyyətdən ciddi narahat olduğu bildirilirdi. Orada deyilirdi: "Biz münaqişənin davam etməsini və kəskinləşməsini, yaşayış məntəqələrinin amansızcasına atəşə tutulmasını və bombardman edilməsini, qaçqınların sayının artmasını, blokadaların tətbiqini, girov götürülməsi və əsirlərlə vəhşicəsinə rəftar da daxil olmaqla beynəlxalq humanitar hüququn pozulmasını narahatlıqla qeyd edirik. Bu əməllər sivil dövlətlər, BMT və beynəlxalq humanitar qurumlar tərəfindən ciddi diqqət yetirilməsini və pislənməsini tələb edir".

Sənəddə habelə döyüş bölgəsində hərbi əməliyyatların dərhal dayandırılması, münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində qəti tədbirlərin görülməsi üçün tezliklə ATƏT-in Minsk konfransının çağırılması təklif olunurdu. Prezidentlər münaqişədə iştirak edən hər iki tərəfə problemi sülh yolu ilə aradan qaldırmaq istəmələri barədə verdikləri bəyanatları artıq əməli olaraq həyata keçirməyə təkidlə çağırırdılar. ABŞ ilə bərabər, RF Dağlıq Qrabağ münaqişəsinin iştirakçıları üçün məqbul sayılan qərarları ilk növbədə ATƏT çərçivəsində axtarmağın məqsədəuyğunluğu barədə fikrə tərəfdar olduqlarını bildirirdilər.

Həmin dövrdə Azərbaycan artıq BMT-nin və ATƏT-in üzvü olaraq özünün Sovet dönəmindən qalma mövcud sərhədləri daxilində tanınırdı. Azərbaycan dövləti də ATƏT-ə üzv olan digər dövlətlər kimi təşkilatın sərhədlərin toxunulmazlığına dair beynəlxalq hüquq normalarına əsaslanan birgə bəyannaməsinə uyğun olaraq problemi həll etməyə çalışsa da

buna nail ola bilmirdi. Bunun əsas səbəbi ATƏT üzvü olan ölkələrin bir çoxunun, xüsusilə də ABŞ və Rusiyanın, bu münaqişənin həllinə münasibətdə ikili standart siyasəti yürütməsi idi.

Rusiya münaqişənin sülh yolu ilə aradan qaldırılmasında maraqlı olduğunu bəyan etsə də əməldə bunun əksini edirdi. Belə ki, Rusiya Azərbaycan torpaqlarına təcavüz edən Ermənistana təzyiq göstərməkdənsə, ona silah-sursat, enerji daşıyıcıları və digər formada yardımlar edir, bununla da işğalçının öz qeyri-qanuni əməllərini davam etdirməsinə şərait yaradırdı. Bu münaqişənin həllində əsas söz sahibi olan BMT və ATƏT isə buna biganə münasibət nümayiş etdirirdi.

Bəhs olunan dövrdə Azərbaycanın dünya səviyyəsində tanınması üçün görülən işlər qənaətbəxş deyildi. Məhz bunun nəticəsi idi ki, Avropanın ən böyük dövlətlərini təmsil edən siyasətçilər və yüksək vəzifəli şəxslər bölgədə baş verən hadisələrlə bağlı obyektiv məlumatlara malik olmadıqlarından çox zaman Azərbaycan xalqının öz torpaqlarının müdafiəsi üçün apardığı mübarizəni ermənilərin sıxışdırılması kimi dərk edirdilər.

Hələ ATƏT–in Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vasitəçilik missiyasını öz üzərinə götürməsindən əvvəl bəzi dövlətlər bu istiqamətdə müxtəlif işlərin görülməsinə təşəbbüs göstərmişdilər. Belə ki, Qazaxıstanın təşəbbüsü ilə 1990-ci ildə Jeleznovodskda keçirilən görüşdə bəyannamənin imzalanması bu yöndə ilk addımlardan idi. Qazaxıstanın təşəbbüsü ilə münaqişənin aradan qaldırılması üzrə növbəti görüş 1992-ci ilin avqust ayında baş tutdu. Azərbaycan, Ermənistan və Qazaxıstan xarici işlər nazirlərinin iştirakı ilə keçirilən bu görüşdə tərəflər arasında Ermənistan-Azərbaycan sərhəddi boyunca atəşin dayandırılmasına dair sənəd imzalandı. Sentyabrın 1-dən etibarən imzalanmış sənədə əsasən atəşin dayandırılmasına əməl olunmağa başlandı. Həmin ayın 3-də isə tərəflər





Qazaxıstanın vasitəçiliyi ilə gələcəkdə də problemin həlli ilə əlaqədar işlərin davam etdirilməsinə dair razılığa gəldilər.

Dağlıq Qarabağla bağlı BMT-nin fəaliyyəti isə 1992-ci il oktyabrın 1-də BMT Baş Məclisinin sessiyasında təşkilatın Azərbaycanda müvəqqəti nümayəndəliyinin açılması haqqında sazişin imzalanmasından sonra başlandı. Sessiyanın gedişində Ermənistan Respublikasının Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə qarşı irəli sürdüyü əsassız ərazi iddiaları və bu bölgəni silah gücünə ələ keçirmək üçün başladığı müharibədə Ermənistan ordusunun Azərbaycanın bir neçə rayonunu işğal etməsi, o cümlədən azərbaycanlı əhaliyə qarşı insanlıqdankənar hərəkətlərə yol verməsi, nəticədə minlərlə vətəndaşın həlak olması və öz torpaqlarında qaçqına və məcburi köçkünə çevrilməsi faktları dünya siyasətçilərinin diqqətinə çatdırıldı.

1992-ci il oktyabr ayının 12-də Moskvada Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında imzalanan müqavilədə hər iki ölkə arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik sahəsində tərəfdaşlığın bundan sonra da davam etdirilməsi nəzərdə tutulurdu. Görüşdə bu baxımdan çıxış edən Rusiya Federasiyasının prezidenti B.Yeltsin bildirdi ki, Dağlıq Qarabağda və onun sərhədlərindən kənarda yaranmış gərgin vəziyyətin danışıqlar yolu ilə aradan qaldırılmasına tərəfdardır. Görüşdə belə bir razılıq da əldə olundu ki, problemin həlli ilə bağlı danışıqlar prosesinə digər böyük dövlətlərin, məsələn, ABŞ, Fransa və Almaniyanın siyasi səhnədə tanınmış dövlət rəhbərləri (Corc Buş, Fransua Mitteran və Helmut Kol) cəlb edilsinlər.

1992-ci il oktyabrın 30-31-də Ankarada türk dövlət başçılarının zirvə toplantısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ciddi müzakirə obyektinə çevrildi.

Həmin ildə, Qarabağda döyüş əməliyyatlarının kəskinləşdiyi bir vaxtda, vəziyyəti yaxından izləmək üçün bu ərazidə Rusiya, Ukrayna, Qazaxıstan və Belarusdan olan müşahidə-

çilərin yerləşdirilməsi barədə razılığa gəlindi. Bu missiyanın həyata keçirilməsinin mexanizmləri haqqında bir protokol imzalansa da bu təşəbbüs kağız üzərində qaldı. Çünki Ermənistan rəhbərliyi buna paralel olaraq ikinci bir mexanizmin yaradılması, yəni bölgəyə BMT müşahidəçilərinin cəlb olunması təklifi ilə çıxış etdi.

Bu dövrdə ATƏT təmsilçiləri də problemin aradan qaldırılması məqsədilə tərəflər arasında danışıqlar prosesinin daha da gücləndirilməsinə səy göstərirdilər. Buna baxmayaraq, Azərbaycanın siyasi rəhbərliyi məsələyə bu cür yanaşmanı məqbul hesab etmirdi. Onların fikrincə, bölgəyə gələn yeni müşahidəçilərdən ibarət qrupun və ya digər hər hansı nümayəndə heyətinin yeni təkliflər gətirməsi ilə imzalanacaq yeni sazişlər və bunların həyata keçirilməsi üçün hazırlanacaq mexanizmlər danışıqlar prosesini yeni məcraya yönəldəcək və yaxud hazırda mövcud olan nizamlanma formatının dəyişdirilməsi danışıqların bir qədər də uzanmasına gətirib çıxaracaq. Bütün bunlar isə bölgədə sülhə nail olunmasında çətinlik yaradacaq.

Bundan bir müddət sonra BMT-nin baş katibi B.B.Qalinin şəxsi nümayəndəsi Ömər Halimini, BMT katibliyinin yüksək vəzifəli şəxsi X.Hortmanı Azərbaycana göndərməsinin və onların BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud əl-Səidlə birgə Dağlıq Qarabağa səfər etmələrinin əsas səbəbi burada baş verən hadisələrə yaxından bələd olmaq və münaqişənin aradan qaldırılması üçün beynəlxalq təşklitlara, xüsusilə də ATƏT-ə yardım etmək idi.

Həmin günlərdə (dekabrın 10-da) Zəngilan və Qubadlı rayonlarınının kəndlərini Ermənistan ordusunun iriçaplı silahlardan atəşə məruz qoyması ilə əlaqədar Azərbaycan hökuməti ATƏT rəhbərliyinə təcavüzkar hərəkətlərə yol verdiyinə görə Ermənistan Respublikasına qarşı özünün və digər beynəlxalq qurumların nizamnamələrində nəzərdə tutulmuş sanksiyaların





tətbiq edilməsi barədə məsələlərə ATƏT-in Stokholmda keçiriləcək sessiyasında baxılması ilə bağlı müraciət etdi.

Eyni zamanda, Azərbaycan XIN-nin bu məsələ ilə bağlı bəyanatını qardaş Türkiyə dövləti də öz XIN-nin nümayəndəlikləri vasitəsilə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Bu barədə NATO, ATƏT və BMT-ni məlumatlandırdı. Türkiyə hökuməti Ermənistanın bu hərəkətləri ilə bağlı öz narahatlığını Qara dəniz hövzəsi ölkələrinin müşavirəsində də Ermənistan nümayəndə heyətinə bildirdi.

Məsələ ilə əlaqədar BMT öz rolunu əsasən tərəfləri sülh danışıqlarına cəlb etməkdə görür və bölgədə getdikcə artan gərginliyin qarşısını almağa çalışmaqla yerinə yetirməyə üstünlük verirdi. Bu baxımdan bölgədə sülhməramlı qüvvələrin yerləşdirilməsinə çalışan təşkilatın Azərbaycandakı səfir–nümayəndəsi Mahmud əl-Səid bu qüvvələrin Dağlıq Qarabağ münaqişəsinin həllində çəkindirmə funksiyasını yerinə yetirəcəyini bildirmişdi. Həmin qüvvələri isə bölgədə yalnız münaqişədə iştirak edən hər iki tərəfin razılığından sonra yerləşdirmək mümkün idi. Məhz bu səbəbdən də BMT rəhbərliyi hesab edirdi ki, ATƏT çərçivəsində münaqişənin aradan qaldırılmasına dair xüsusi qrupun yaradılmasına ehtiyac vardır.

ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin iştirakı ilə 1992-ci ilin dekabr ayında Cenevrədə aparılan beştərəfli siyasi məsləhətləşmələrdən sonra ATƏT Şurasının Stokholmda keçirilən sessiyasında qəbul edilmiş "Nəticələrin xülasəsi" adlı sənəddə bir sıra məhəlli problemlərin, o cümlədən SSRİ-nin parçalanmasından sonra müstəqillik əldə etmiş respublikaların ərazisində yaranmış münaqişələrin sülh yolu ilə aradan qaldırılmasının vacibliyi qeyd olunurdu. Azərbaycan Respublikası da Dağlıq Qarabağ münaqişəsinin həllində bu sessiyadan müsbət nəticələr gözləyirdi. Ancaq burada bütün diqqət keçmiş Yuqoslaviyadan qopan Serbiya və Çernoqoriya

arasında baş verən hadisələrə yönəldiyindən bütün ümidlər boşa çıxdı.

Həmin sessiyada dövlətlər arasındakı mübahisələri sülh yolu ilə aradan qaldırmaq məqsədilə barışıq və arbitraja dair Avropa Məhkəməsi yaradılması haqqında Konvensiya qəbul edildi və o, ATƏT üzvü olan dövlətlərin imzalamaları üçün açıq elan olundu.

ATƏT-ə üzv olan dövlətlərin xarici işlər nazirlərinin Stokholmda keçiriləcək görüşündən bir müddət əvvəl Dağlıq Qarbağ münaqişəsinin həlli ilə bağlı məxfi danışıqlar aparılmış və sənəd işlənib hazırlanmışdı. Stokholm görüşündə açıqlanması nəzərdə tutulan bu sənəd Ermənistan silahlı qüvvələrinin Qubadlı və Zəngilan rayonlarını güclü atəşə tutmasından sonra əhəmiyyəti olmayan bir kağız parçasına çevrildi və onun açıqlanmasından imtina edildi. Stokholm toplantısında nəticə etibarilə ATƏT çərçivəsində hər hansı bir münaqişənin aradan qaldırılması istiqamətində heç bir irəliləyişə nail olunmayacağı əvvəlcədən məlum idi. Çünki ATƏT öz fəaliyyət mexanizminə uyğun olaraq münaqişələri konsensus yolu ilə həll etdiyindən burada Serbiyanı, yaxud Ermənistanı öz razılıqları olmadan təcavüzkar elan etmək mümkün olmayacaqdı. Başqa sözlə, ATƏT üzvü olan 52 dövlətin hər biri veto hüququna malik olduğu üçün onların istənilən qərara öz etirazını bildirmək və etdiyi əməllərə görə öz yaxasını kənara çəkmək imkanı var idi. Bu səbəbdən də Stokholm görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən sənədin hazırlanmasında qəti bir qərara gəlinməmişdi. Lakin, bütün bunlara baxmayaraq, beynəlxalq ictimaiyyətin diqqətini Dağlıq Qarabağ probleminə cəlb etmək mümkün olmuşdu.

Bununla yanaşı, toplantıda müsbət nəticə də əldə edilmişdi. Belə ki, burada ATƏT-in Helsinki Vətəndaş Assambleyası (HVA) çərçivəsində münaqişədə iştirak edən tərəflər arasında vəziyyəti gərginləşdirməyə çalışan təxribatçı qüvvələrin





araşdırılması vəzifəsini yerinə yetirən ekspert komissiyası yaradılması barədə qərar qəbul olundu.

Türkiyə dövləti Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə bağlı fəaliyyətini 1993-cü ilin martından etibarən davam etdirməyə başladı. Həmin vaxt Bakıya səfər edən Türkiyənin xarici işlər naziri Hikmet Çetin burada Azərbaycan rəhbərliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması barədə ölkəsinin irəli sürdüyü təkliflər ətrafında müzakirələr apardı. Türkiyəli nazir Bakıya gəlməmişdən əvvəl Moskvada olaraq Rusiyalı həmkarı Andrey Kozırevlə görüşmüş və problemin sülh yolu ilə həlli mexanizminin işlənib hazırlanmasına dair hər iki ölkənin tutduğu mövqeyə aydınlıq gətirmişdi. Danışıqlarda əsas tələb kimi isə Ermənistan hərbi birləşmələrinin işğal etdikləri Azərbaycan torpaqlarından çıxarılması irəli sürülmüşdü (117).

Hikmet Çetinin Bakıda keçirdiyi görüşlərdə ilk dəfə olaraq dünya birliyinin və beynəlxalq təşkilatların diqqətini problemin həllinə cəlb etməyin və münaqişənin aradan qaldırılmasına dair vahid konsepsiyanın hazırlanmasının vacibliyi önə çəkildi. Həmin dövrdə Türkiyə və Rusiyanın Dağlıq Qarabağın Azərbaycan torpağı olması və Ermənistan qoşunlarının Qarabağdan çıxarılmasının vacibliyi barədə fikirləri eyni idi. Hikmət Çetinin apardığı danışıqlar zamanı bölgədə sülhün bərqərar olması üçün bir proqramın qəbul edilməsinin əhəmiyyəti üzərində fikir mübadiləsi aparıldı. Burada marağı olan müsbət qüvvələrin əlbir siyasətinə üstünlük vermək barədə təklif irəli sürüldü. Bu ərəfədə Ermənistanın da münaqişənin sona çatmasına razılığının olması barədə eyhamlar da var idi. Eyni zamanda böyük dövlətlərin də barışıq niyyətində olduğu sezilirdi (125, 9 mart 1993).

Azərbaycan və Ermənistan diplomatları Rusiyanın müdafiə naziri Pavel Qraçovun vasitəçiliyi ilə Soçidə görüşərək BMT TŞ-nın qəbul etdiyi 822 saylı qətnaməsinin tələblərinə

əsasən Ermənistan silahlı birləşmələrinin Kəlbəcər rayonundan çıxarılması və bundan sonra sülh danışıqlarını davam etdirmək üçün hərbi əməliyyatların dayandırılması ilə bağlı məsələlər ətrafında geniş müzakirələr apardılar. Lakin tərəflər arasındakı fikir müxtəlifliyi səbəbindən görüşdə heç bir müsbət nəticə əldə olunmadığı üçün iştirakçılar danışıqları Moskvada davam etdirməyi qərara aldılar.

Bundan sonra BMT TŞ-də məsləhətləşmələr zamanı Katibliyin Dağlıq Qarabağ münaqişəsinə həsr edilmiş ATƏT çərçivəsində aparılan danışıqlar haqqında məruzəsində bir daha məlum oldu ki, Şura yenə də ATƏT prosesinə tərəfdardır.

TŞ-nin üzvü olan 15 dövlətin nümayəndələrinin iştirakı ilə qəbul edilmiş bu qətnamədə müəlliflər münaqişədə iştirak edən hər iki tərəfi problemin Minsk qrupu çərçivəsində aradan qaldırılması məqsədilə danışıqları gecikmədən davam etdirməyə, münaqişənin sülh yolu ilə nizamlanmasına mane olan hərəkətlərə yol verməməyə çağırırdılar. Qətnamədə habelə münaqişə bölgəsindəki vəziyyətə obyektiv qiymət verilməsi məqsədilə BMT-nin ali icraedici orqanları ilə ATƏT və onun Minsk qrupunun fəaliyyətdə olan sədrləri arasında birgə məsləhətləşmələrin aparılması və gəlinən nəticələr barədə TŞ-yə məruzə təqdim olunması tövsiyə edilirdi. Belə bir sənədin qəbulu Dağlıq Qarabağ probleminin həlli istiqamətində beynəlxalq qurumların səylərinin birləşdirilməsində çox vacib mərhələ idi.

Göstərilən bütün səylərə baxmayaraq, Ermənistan tərəfi yenə də qeyri-konstruktiv, pozucu mövqe nümayiş etdirdi, müxtəlif bəhanələrlə təklifləri imzalamaqdan boyun qaçırdı. Ona görə də TŞ-nin sözügedən qətnaməsinin tələblərinin yerinə yetirilməsini təmin etmək məqsədilə Minsk qrupunun üzvü olan 9 dövlətin nümayəndələri Romada toplaşmağı qərara aldılar. Romada iyunun 3-4-də keçirilən müşavirədə Minsk konfrasının sədri Mario Rafaellinin rəhbərliyi ilə hazırlanan «təcili tədbirlər cədvəli» xüsusi məktubla birgə Azərbaycan və





Ermənistan hökumətinə göndərildi. Məktubda tərəflərdən 822 saylı qətnamənin tələblərinə qeyd-şərtsiz əməl olunması, bölgədə hərbi əməliyyatların dayandırılması, Ermənistandan öz qoşunlarını Azərbaycanın işğal etdikləri Kəlbəcər rayonundan və digər ərazilərindən çıxarması, münaqişənin nizamlanmasına dair danışıqların davam etdirilməsi tələb edilirdi. Habelə tərəflərdən tələb olunurdu ki, «təcili təkliflər cədvəli»ni imzalayaraq iyunun 11-nə qədər Minsk Konfrasının sədrinə göndərsinlər.

Dağlıq Qarabağ probleminin həllində maraqlı olan tərəflər həmin dövrdə bu məsələdə beynəlxalq təşkilatlara yardım etmək üçün öz diplomatik fəaliyyətilərini müəyyən dərəcədə gücələndirməyə başladılar. Məsələn, Roma müşavirəsindən bir neçə gün sonra, yəni 1993-cü il iyunun 8-də, Moskvada Rusiya və Azərbaycan xarici işlər nazirləri arasında keçirilən görüşdə Andrey Kozırevin Rusiyanın «Dağlıq Qarabağ Respublikası»nı tanımadığını və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan etməsini beynəlxalq təşkilatların sözügedən problemlə əlaqədar göstərdikləri səylərin müsbət nəticəsi kimi qiymətləndirmək mümkündür.

Azərbaycan müstəqil dövlət statusu aldıqdan sonra qarşılaşdığı məcburi problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində çox ciddi çətinliklərlə üzləşdi. Bu münaqişənin həlli ilə məşğul olan mühüm beynəlxalq təşkilatlardan biri ATƏT-in 1992-ci ildə Helsinkidə keçirilmiş birinci sammitində, Dağlıq Qarabağ məsələsinin Azərbaycanın ən kəskin problemi olmasına və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz etdiyinə baxmayaraq, o zamankı Azərbaycan nümayəndə heyəti bu məsələni gündəliyə belə salınmasına nail ola bilməmişdi (116; 467).

Heydər Əliyev hələ Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində işləyərkən dəfələrlə o zamankı Azərbaycan rəhbərliyini xəbərdar etmişdi ki, ermənilərin beynəlxalq aləmdə Azər-

baycana qarşı yeritdikləri təbliğat və informasiya müharibəsi çox təhlükəlidir və bu ağır nəticələrə gətirə bilər (123).

Təəssüf ki, vaxtında mühüm tədbirlər görülmədi, erməni təbliğatı və təcavüzü ağır nəticələrə gətirib çıxardı.

Beləliklə, 1988-ci ildən Ermənistan tərəfindən süni surətdə yaradılmış və 1992-1993-cü illər ərzində böyük qanlı müharibəyə səbəb olan Dağlıq Qarabağ problemi sonda Azərbaycan torpaqlarının Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunması ilə nəticələndi. Ermənistanın təcavüzü təkcə torpaqların işğalı və əhalinin doğma torpaqlarından didərgin salınması ilə bitmədi. Ermənilərin həyata keçirdikləri bu təcavüz aktları respublikaya külli miqdarda maddi ziyan vurdu (340). Ermənilərin əsassız torpaq iddiası və bundan alovlanan müharibə nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olundu, 30 min nəfərdən artıq insan qətlə yetririldi, 1 milyonadək azərbaycanlı qaçqın və məcburi köçgünə çevrildi, 4 min nəfərdən çox adam əsir və itkin düşdü. Müharibənin Azərbaycan iqtisadiyyatına vurduğu ağır zərbə də ağılasığmaz rəqəmlərlə ölçülür: 900 yaşayış məntəqəsi, o cümlədən, 10 rayon mərkəzi, 4366 sosial obyekt, 1145 məktəbəqədər tərbiyə müəssisəsi və uşaq bağçası, 1831 kinoteatr, 982 kitabxana, 862 mədəniyyət sarayı və klub, 693 ümumitəhsil məktəbi, 652 tibb məntəqəsi, 13 muzey ermənilər tərəfindən dağıdılmış və yandırılmış, bəziləri isə tamamilə məhv edilmişdir.





# II FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİ YENİ MƏRHƏLƏDƏ. ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ XARİCİ SİYASƏTİN ƏSAS İSTİQAMƏTİ KİMİ

## 2.1. Azərbaycan Respublikasının yeni xarici siyasət konsepsiyası: başlıca prioritet və perspektivləri

1991-1993-cü ilin birinci yarısında Azərbaycanın xarici siyasətində prioritet istiqamətlər dürüst müəyyənləşdirilmədi, düzgün dəyərləndirilmədi. Azəbaycan Respublikasının xarici siyasəti 1993-cü ilə qədər demək olar ki, özünü doğrultmadı. Yalnız 1993-cü ilin ortalarından – Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsindən sonra xarici siyasət sahəsində fəaliyyət müsbət məcraya yönəldi, əvvəllər buraxılmış səhvlərin nəticələri tədricən və ardıcıl şəkildə aradan qaldırılmağa başladı (122).

Yenidən müstəqqilliyini əldə etmiş Azərbaycan dövlət quruculuğu baxımından dünya ölkələri içərisində layiqli yer tutmaq üçün məqsədəuyğun xarici siyasət kursu müəyyən etməli və həyata keçirməli idi. Bu məqsədlə Azərbaycan Respublikasının müstəqilliyinə tam nail olmaq, vaxtilə təsiri altında olduğu region dövlətinin nüfuz dairəsindən çıxaraq müstəqil iqtisadi siyasət yeritmək, dünya və region dövlətləri ilə siyasi, iqtisadi və mədəni sahələrdə qarşılıqlı faydalı münasibətlər qurmaq, məqsədəuyğun balanslaşdırılmış siyasət həyata keçirmək lazım idi.

İnkişaf etməkdə və möhkəmlənməkdə olan Azərbaycan Respublikasının region dövlətləri ilə qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlər qaydaya salındı. İlk növbədə Rusiya Federasiyası ilə münasibətləri normallaşdır-

maq üçün yollar araşdırıldı və düzgün siyasi addımlar atıldı. Bu da Respublikanın gələcək xarici siyasət xəttinin düzgünlüyü baxımından özünü təsdiq etdi.

Azərbaycanda müstəqil dövlət quruculuğu prosesində Rusiya ilə əlaqələr xarici siyasət kursunda müstəqil bir istqamət kimi həyata keçirilməyə başladı. 1993-cü il sentyabrın 6-da Heydər Əliyev Moskvada Rusiya prezidenti Boris Yeltsin və Rusiyanın başqa rəhbər şəxsləri ilə görüşüb iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması məsələlərini müzakirə etdi, senyabrın 24-də isə Azərbaycan MDB-yə daxil oldu (113).

Azərbaycanın müstəqil dövlətçilik problemlərini həll etmək, dövlətlər arasında yeni iqtisadi və siyasi şəraitə uyğun ikitərəfli və çoxtərəfli əlaqələr yaratmaq məqsədilə digər MDB dövlətləri, Ukrayna, Belorusiya, Gürcüstan, Moldova və həmçinin Orta Asiya respublikaları ilə münasibətlər köklü şəkildə təzədən quruldu.

Azərbaycanın xarici siyasət fəaliyyətində mühüm əhəmiyyət kəsb edən istiqamətlərdən biri də Qafqaz bölgəsinin dövlətləri və xalqları ilə mehriban qonşuluq münasibətlərinin yaradılması oldu. Çünki bölgə dövlətlərinin qarşı-qarşıya qoyulması hallarının aradan qaldırılması zəruri idi və bu yöndə xüsusi xarici siyasət yeridilməsini, region dövlətləri arasındakı hərtərəfli əlaqələri tənzimləyən münasibətlərin yaradılmasını tələb edirdi.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə və ərazi ilhaqı məqsədilə başladığı müharibədə 1994-cü ildə əldə olunan atəşkəs də (112) ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən xarici siyasət nəticəsində mümkün oldu.

1996-cı il martın 8-də Heydər Əliyev Gürcüstana rəsmi səfər etdi. Tbilisidə Azərbaycanla Gürcüstan arasında «Qafqaz bölgəsində sülh, sabitlik və təhlükəsizlik haqqında» Bəyannamə imzalandı. Bu, Azərbaycan Respublikasının Qafqazda həyata keçirdiyi xarici siyasətin mühüm uğuru idi. Tbilisidə iki





dövlət başçısının imzaladığı birgə Bəyannamə «Ümumi Qafqaz evi» ideyasının əməli olaraq həyata keçirilməsinin başlanğıcını qoydu.

Azərbaycan Respublikasının regiondakı mövqeyi, ölkənin sosial-iqtisadi inkişafı və qlobal iqtisadi layihələrin həyata keçirilməsi istiqamətində ardıcıl addımları və sülhsevər siyasəti bu ideyanın reallaşmasına əlverişli zəmin yaratdı. Təəssüf ki, Ermənistanın təcavüzkar siyasəti «Ümumi Qafqaz evi» ideyasının həllinə imkan vermədi.

Azərbaycan İran və Türkiyə kimi böyük, nüfuzlu və regionda xüsusi təsir gücü olan dövlətlərlə qarşılıqlı münasibətlərin yaxşılaşması və inkişafına böyük maraq göstərdi. İlk növbədə Türkiyə ilə ikitərəfli siyasi, iqtisadi, mədəni əlaqələrin faydalı müstəvidə olmasına diqqət yetirildi. Bu, respublikanın daxili iqtisadi inkişafı və beynəlxalq vəziyyətinin yaxşılaşması üçün öz təsirini göstərdi. Bundan başqa, Azərbaycan hökuməti Türkiyə ilə münasibətlərini normal, sivil, qarşılıqlı faydalı iqtisadi-siyasi əməkdaşlıq və tərəfdaşlıq müstəvisi üzərinə keçirmək üçün çox ciddi və məqsədyönlü iş apararaq tezliklə müsbət nəticələrə nail oldu (112). Hər şeydən əvvəl region dövlətlərini və beynəlxalq qurumları iki ölkə arasındakı münasibətlərin əvvəlki dövrdə olduğu kimi sırf etnik amillər əsasında deyil, iki müstəqil dövlətin beynəlxalq birgəyaşayış normalarına söykənən qarşılıqlı mənafeyi üzərində qurulduğuna inandırmaq lazım idi və bu, Heydər Əliyev siyasətinin gücü ilə mümkün oldu. Bu isə öz növbəsində Azərbaycanın beynəlxalq münasibətlər sisteminə daha uğurlu inteqrasiyasına əlverişli imkanlar açdı.

İran İslam Respublikası ilə münasibətlərə gəlincə, qeyd etmək lazımdır ki, 1993-cü ilin sonu - 1994-cü ilin əvvəlində İİR ilə Azərbaycan Respublikası arasında münasibətlərdə dönüş yaratmaq mümkün oldu. Bu region dövlətləri arasında münasibətləri mehriban qonşuluq və əməkdaşlıq prinsipləri

üzərində yenidən qurmaqla, iki ölkə arasındakı əlaqələri bütün mümkün yollar və vasitələrlə yaxşılaşdırmaqla inkişaf yoluna yönəltdi.

Azərbaycan diplomatiyasının hər iki dövlətlə öz əlaqələrini tarazlıq əsasında qurması ilə yaranan bu münasibət onların imkanlarından, bölgədə kəsişən maraqlarından Azərbaycan dövlətçiliyinin xeyrinə siyasi cəhətdən yararlanmağa, mühüm problemlərinin həllində istifadə etməyə imkan verdi.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin ən mühüm istiqamətlərindən biri də Qərbin və Şərqin aparıcı ölkələri ilə münasibətlərin tənzimlənməsindən, həmin ölkələrlə əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələrin qurulmasından ibarət idi. Bunun üçün ilk növbədə Azərbaycanın geosiyasi mövqeyi və iqtisadi tərəfdaşlıq imkanları obyektiv qiymətləndirilməli, həmin amillərin bəhs edilən ölkələrin iqtisadi və siyasi maraqları ilə uzlaşdırılması yönümündə mühüm addımlar atılmalı idi (114).

Azərbaycan diplomatiyası qarşısında duran bu zərurət Azərbaycanın dövlət başçısı tərəfindən düzgün müəyyənləşdirildi. 1993-cü ilin axırlarından başlayaraq Şərq-Qərb, həmçinin də region ölkələri ilə münasibətlərin sistemli xarici siyasət kursu səviyyəsinə qaldırmaq taktikası qəbul edildi.

Yeni xarici siyasi xətt dünyanın aparıcı dövlətlərinin siyasi və iqtisadi maraqlar sisteminə daxil olan müstəqil Azərbaycana qarşılıqlı faydalı əlaqələr yaratması üçün etibarlı beynəlxalq təminat qazanmağa imkan verdi. Bu siyasi xətt, hər şeydən əvvəl, müstəqil dövlət quruculuğunun həyata keçirilməsi və onun təhlükəsizliyi üçün daxili amilin qiymətləndirilməsi ilə bağlı olaraq yürüdüldü. Beynəlxalq təminatın müəyyənləşdirildiyi nəzərə alındıqda Azərbaycan dövlətinin qorunması və inkişafını şərtləndirən hər iki amilin təmin edilməsi və möhkəmləndirilməsi üçün uzaqgörən və ciddi addımların atıldığı təsdiq olunur.





Heydər Əliyevin diplomatiyası beynəlxalq məhəlli təşkilatlarla sıx əlaqələr yaratmaq, beynəlxalq hüquq normaları və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri ilə tənzimlənən böyük dünya siyasətinə qatılmaq sahəsində də mühüm işlər gördü (172). BMT, Avropa Birliyi, Avropa Şurası, ATƏT, MDB, IKT, Yaxın və Orta Şərq ölkələrinin təmsil olunduğu EKO, Qara Dəniz Iqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, məhəlli təşkilatlarla sıx inteqrasiyanın, hərtərəfli münasibətlər qurulmasının yeni yolları və vasitələri müəyyənləşdirildi və həyata keçirildi (62; 117; 152).

Azərbaycanın cəlb olunduğu ədalətsiz müharibədən çıxmaq, Ermənistanın təcavüzünü dəf etmək, respublikanın pozulmuş ərazi bütövlüyünü bərpa etmək və işğalçıları ölkə ərazisindən çıxarmaq qarşıda duran ən mühüm vəzifələrdən idi. Bunun üçün, qeyd etdiyimiz kimi, Azərbaycan diplomatiyası ilk növbədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı beynəlxalq aləmin dəstəyini qazanmalı idi. Bu, qarşıda duran mühüm siyasi istiqamətlərdən idi.

Ermənistanın Dağlıq Qarabağa ərazi iddiaları ilə yaranmış münaqişənin dəhşətləri göstərdi ki, bu məsələnin həlli üçün ilk növbədə beynəlxalq rəyi nəzərə almaq, ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin dəstəyinə nail olmaq, hərtərəfli düşünülmüş diplomatik iş aparmaq lazımdır (118). Bunu nəzərə alan Azərbaycan hökuməti bütün gücünü dövlətin dünyada tanınmasına, beynəlxalq nüfuzunun artmasına, ictimai-siyasi, iqtisadi və mənəvi həyatın bütün sahələrində dünya birliyinə inteqrasiya olunmasına yönəltdi. Azərbaycan hökuməti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin respublikanın ərazi bütövlüyü prinsipləri əsasında, beynəlxalq hüquq normalarına uyğun olaraq həllinə əlverişli beynəlxalq dəstəyin təmin edilməsi zərurətini nəzərə aldı. Bunun üçün sözügedən problemin dünya səviyyəsinə çıxarılması və həlli ilə

bağlı xüsusi bir konsepsiya hazırlandı və beləliklə də ardıcıl siyasi kurs başlandı (61; 113; 116)

Bu siyasət nəticəsində ilk növbədə Ermənistanı dəstəkləyən ölkələrin bir qismi neytrallaşdırıldı. Digər bitərəf qalan dövlətlər Azərbaycanın ədalətli mövqelərinin müdafiəsinə cəlb edildi. Azərbaycanın müstəqil dövlətçiliyində marağı olan və onu müdafiə edən dövlələrin, beynəlxalq təşkilatların bu işə qoşularaq Ermənistana təzyiq etməsi üçün hərtərəfli diplomatik və siyasi iş aparıldı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi köklərinin və mahiyyətinin hərtərəfli açıqlanmasına, Azərbaycanın haqq səsinin bütün dünya ictimaiyyətinə çatdırılmasına, mövcud informasiya boşluğunun doldurulmasına və dünyada ictimai rəyi ölkənin xeyrinə dəyişdirməyə yönəlik genişmiqyaslı işə başlandı. Problemin milli münaqişə deyil, Azərbaycanın istiqlaliyyəti yolunda süni yaradılmış maneə və ayrı-ayrı dövlətlər tərəfindən düşünülmüş strategiya, Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının nəticəsi olduğu inandırıcı şəkildə bütün dünyaya bəyan edildi.

Heydər Əliyev dünya ölkələrini Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərin Azərbaycan dövlətinə qarşı yönəlmiş çıxışlarının beynəlxalq separatizmin tərkib hissəsi kimi qorxulu olduğunu şərh etdi. Həmçinin, belə separatizmin ağır nəticələr törədən və digər dövlətlərin də ərazisində oxşar problemlərin alovlanmasına təkan verə biləcək təhlükəli proses olduğunu açıb göstərdi, dünya ictimaiyətini belə təhlükəli ənənənin qarşısının alınmasına çağırdı. Eyni zamanda Dağlıq Qarabağ probleminin Azərbaycanı bir sıra region dövlətlərinin təsir və nüfuz dairəsində saxlamaq, onun müstəqil xarici siyasət yeridərək Qərbə inteqrasiya olunmasının qarşısını almaq üçün ortaya atılmış bir siyasət olduğunu sübut etdi.

Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri də terrorizmə qarşı mübarizədə beynəlxalq proseslərə





qatılmaq və ABŞ-ın təşkil etdiyi antiteror koalisiyasında iştirak etməkdən ibarət oldu. Erməni separatizmi və terrorizmi ilə qarşılaşan, erməni terrorizminin daimi hədəfinə çevrilən Azərbaycan belə problemlərin aradan qaldırılmasına dair məsələləri özünün daxili və xarici siyasətinin diqqət mərkəzində saxladığını bir daha bəyan etdi. Azərbaycanın terrorizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın dərinləşdirilməsini və təsirli tədbirlərin görülməsini həmişə zəruri hesab etməsi əyani şəkildə nümayiş etdirildi. Təssüf ki, erməni terrorizmi ilə bağlı Azərbaycan dövlətinin çağırışlarına beynəlxalq aləmdə uzun müddət laqeyd yanaşıldı.

ABŞ-da 2001-ci ilin sentyabrında törədilmiş terror aktından sonra beynəlxalq aləmdə antiterror koalisiyası formalaşmağa başlanan zaman Azərbaycan Respublikası beynəlxalq terrorizmi pisləyən və ona qarşı fəal mübarizəyə qoşulan ilk ölkələrdən biri oldu. Azərbaycanın hərbi kontingenti Kosovo, Əfqanıstan və Iraqda beynəlxalq sülhməramlı qüvvələrin tərkibində iştirak edərək terrora qarşı mübarizədə həmrəyliyini və prinsipial mövqeyini nümayiş etdirdi.

Bununla yanışı, Heydər Əliyev erməni terrorizminin Azərbaycana və regional təhlükəsizliyə vurduğu ağır zərbələr barədə həqiqətləri BMT, ATƏT, Avropa Şurası, Avropa Birliyi və b. beynəlxalq təşkilatların yüksək kürsülərindən dünya ictimaiyyətinə çatdırdı, Azərbaycan dövlətinin terrorun hər cür təzahürünə qarşı beynəlxalq əməkdaşlığa hazır olduğunu dəfələrlə bəyan etdi. Bütün bunların Azərbaycan Respublikasının xarici siyasətində öz aktuallığını saxlayan prioritet məsələlərdən oluğunu göstərdi.

Beləliklə, Azərbaycanın xarici siyasəti dövlətin strateji maraqları üzərində quruldu, bu istiqamətdə hərtərəfli işlənib hazırlanmış prinspial, ardıcıl xətt götürüldü. Azərbaycanın dövlət müstəqilliyinin qorunmasına, müstəqilliyin möhkəmlənməsinə və dünya birliyinə inteqrasiya olunmasına xidmət edən,

tarazlaşdırılmış fəal xarici siyasət nəticəsində respublika fəallaşdı, dünya birliyində özünə layiqli yer tutdu. Beynəlxalq aləmdə və regionda mövcud məsələlərin, həmçinin dünyanın qlobal problemlərinin həllində mühüm rol oynayan imkana və rola malik oldu.

Həyata keçirilən fəal xarici siyasət nəticəsində dünyanın aparıcı sözə malik qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqəti Azərbaycana yönəldi, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına və inkişafına əlverişli zəmin yarandı.

Təbii ki, sosialist birgəyaşayış tərzindən yenicə qurtarmış, müstəqil xarici siyasət kursunu hələ formalaşdırmamış, istiqamətlərini müəyyənləşdirməmiş ölkəni dünya siyasəti müstəvisinə çıxarmaq, beynəlxalq münasibətlər sisteminə qatmaq çətin idi. Lakin Heydər Əliyevin uzaqgörən siyasi strategiyası bu sahədə dönüş yaratdı.

Azərbaycanın xarici siyasətnin prioritetləri müstəqilliyin ilk illərində bir çox həlli vacib sahə üzərində qurulmaqla başlandı. Ilk növbədə ölkənin daxilində düşünülmüş siyasət yürütməklə bütün vətəndaşların, milli, sosial təbəqələrin, siyasi, ictimai və digər resursların Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması ətrafında səfərbər edildi. Bununla bərabər bütün xarici siyasət imkanlarından, diplomatik və siyasi üsullardan istifadə etməklə Azərbaycanın dövlətçiliyinə qarşı yönəlmiş təhlükələr aradan qaldırılmalı, milli təhlükəsizlik təmin edilməli, erməni separatizminin və Ermənistanın işğalının qarşısının alınması, bu məqsədlə regionda və dünyada tərəfdaşların qazanılması, əleyhdarların neytrallaşdırılması baş verdi. Eləcə də, böyük dövlətlərlə, beynəlxalq və regional təşkilatlarla, Azərbaycanın qlobal maraqlarını müdafiə edə biləcək institutlarla, kütləvi informasiya vasitələri və diaspora mərkəzləri ilə hərtərəfli iş aparıldı, Azərbaycanın onlar üçün kəsb etdiyi əhəmiyyət diqqətə çatdırıldı. Həmçinin, SSRI zamanında ölkənin mövcud olan iqtisadi, siyasi, sosial, mədəni əlaqələrinin müstəqil dövlət maraqları çərçivəsində qiymətləndirilməsi və tənzimlənməsi, bu əlaqələrin alternativlərinin tapılması və xarici siyasət istiqamətlərinin tədricən, milli maraqlara müvafiq şəkildə dəyişdirilməsi həyata keçirildi.





Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması və prioritet vəzifələrin müəyənləşdirilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üçün lazımi tədbirlər görülmüş, ölkənin xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsi, geosiyasi və iqtisadi əhəmiyyəti düzgün qiymətləndirilmiş, beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda təmsil olunan maraq dairələri müəyyənləşdirilmiş, həmçinin, beynəlxalq münasibətlərin, dövlətlərarası əlaqələrin prinsipləri, beynəlxalq hüququn təsir dairəsi, dünyanın böyük dövlətlərinin, regionun aparıcı ölkələrinin və beynəlxalq təşkilatların Azərbaycanla bağlı siyasəti təhlil edildi (172).

Dünyada baş verən qloballaşma, demokratikləşmə və beynəlxalq inteqrasiya fonunda gənc bir dövlətin birmənalı müstəqil xarici siyasət kursunun müəyyən edilməsi o zaman çox çətin idi. Xüsusən nəzərə alınsa ki, Rusiya və Iran qərbyönümlü xarici siyasətə xüsusi qısqanclıq və həssaslıq nümayiş etdirir, Ermənistan ərazi iddiası ilə çıxış edir və Azərbaycan beynəlxalq təcridolunmaya məruz qalır, onda Azərbaycanın xarici siyasət fəaliyyətinin hansı çətin şəraitdə həyata kçirildiyini təsəvvür etmək olardı. Ilk növbədə Azərbaycanın bir dövlət kimi gələcək dünya nizamında yeri, daxili və xarici siyasətinin xarakteri və prioritetləri müəyyən edilməli idi. Onun Qərbə, Şərqə, yoxsa Rusiyaya və keçmiş SSRI məkanında mövcud olan dövlətlərin birliyinə inteqrasiya xətti seçilməli idi. Ölkənin təhlükəsizliyi mövcud beynəlxalq təhlükəsizlik sistemləri ilə əlaqədə, yaxud müstəqil, bitərəf şəkildə təmin

olunması кimi məsələlər həllini tapmalı idi. Bütün bu məsələlərlə bağlı operativ, laкin düşünülmüş, hərtərəfli ölçü-lüb-biçilmiş qərarların qəbul edilməsi zərurətə çevrilmişdi.

1993-1994-cü illərdə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasətinin prioritetləri, dövləti beynəlxalq münasibətlər sistemində təmsilçiliyinin strateji və cari vəzifələri müəyyənləşdirildi, xarici aləmlə əlaqələrinin prinsipləri dəqiqləşdirildi (118).

Beləliкlə, real və praqmatiк məzmun кəsb etmiş, ölкənin pozulmuş ərazi bütövlüyünün bərpası, işğalçıların Azərbaycan torpaqlarından çıxarılması, onun dövlət müstəqilliyinin möhкəmləndirilməsi və təhlüкəsizliyinin təmin edilməsi кimi vəzifələrin həllində beynəlxalq aləmin dəstəyinin qazanılmasına zəmin yaradıldı və sonraкı mərhələdə bu dəstəк qazanıldı. Respubliкanın milli təhlüкəsizliк məsələləri həll edildi.

Iri region dövlətləri - Rusiya, Türкiyə və Iranla, həmçinin dünyanın bir sıra aparıcı dövlətləri - ABŞ, Fransa və Böyüк Britaniya ilə, Orta Asiyanın türк respubliкaları və başqa dövlətlərlə münasibətlər münasib şəкildə qurularaq inкişaf etdirildi, beynəlxalq və regional təşкilatlarla əlaqələr intensivləşdirildi, onların imкanlarından Azərbaycanın problemlərinin həlli istiqamətində istifadə etməк üçün tədbirlər görüldü.

Heydər Əliyev diplomatiyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dünya səviyyəsinə çıxarılması və həlli ilə bağlı кonseptual baxışlarını hazırlayaraq кonкret vəzifələri həyata кeçirməк üçün ardıcıl siyasi кurs yeritməyi planlaşdırdı. Heydər Əliyev кursu Dağlıq Qarabağ probleminin tarixini, mahiyyətini və кöкlərini hərtərəfli açıqlamağa, Azərbaycanın haqq səsini bütün dünya ictimaiyyətinə çatdırmağa xidmət etdi; mövcud olan informasiya boşluğunu doldurdu, dünyada ictimai rəyi Azərbaycanın xeyrinə formalaşdırmaq məqsədilə qeyd olunan problemin milli zəmin əsasında baş verən etniк münaqişə və ya insan hüquqlarının pozulması ilə





meydana çıxan qarşıdurma deyil, onun istiqlaliyyəti yolunda süni yaradılmış maneə, müstəqilliyinin qarşısını almaq üçün düşünülmüş siyasi manevr və Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının nəticəsi olduğunu inandırıcı şəкildə bütün dünyaya bəyan etdi. Bunlarla yanaşı, Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan dövlətinə qarşı yönəlmiş çıxışlarının beynəlxalq separatizmin tərкib hissəsi кimi qorxulu, ağır nəticələr törədən, digər dövlətlərin də ərazisində oxşar problemlərin alovlanmasına təкan verən təhlüкəli bir hərəкət olduğu sübut edildi. Dünya ictimaiyyətinin diqqəti belə təhlüкələrin qarşısını vaxtında almağın vacibliyinə yönəldildi. Bunların həyata кeçirilməsi üçün Azərbaycanın Avropaya və ABŞ-a meyl göstərməsinin, sıx inteqrasiya olunmasının qarşısının alınmasına, onun əvvəlкi кimi ayrı-ayrı region dövlətlərinin təsir və nüfuz dairəsində saxlanmasına yönəldilən xüsusi məqsədlə ortaya atılmış bir məsələ olduğu qeyd edildi, beynəlxalq aləmdə bu istiqamətdə geniş təbliğat başlandı. Beləliklə, aydın olur ki, Heydər Əliyevin formalaşdırdığı xarici siyasət кursunda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli əsas yer tuturdu.

## 2.2. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli müasir xarici siyasət xəttində: ənənə və varislik

Yer кürəsinin çox yerində ərazi münaqişələri mövcuddur (140). Ancaq Dağlıq Qarabağ probleminin digərlərindən fərqi onun müəyyən siyasi кampaniyaların yaratdığı süni problem olmasındadır. Bu problemin dərinləşməsi Ermənistanın özündə, ondan кənarlarda fəaliyyət göstərən təşкilatların və eləcə də Azərbaycanda sabitliyi pozmaq istəyən bir sıra böyüк dövlətlərin məкrli siyasəti ilə bağlıdır.

Məlumdur кi, bölgənin strateji mövqeyinin və regionda söz sahibi olmaq istəyən xarici dövlətlərin fəal rol oynamalarının burada ciddi təsiri vardır. Məкrli siyasətə xidmət edən ermənilər və erməniپərəst qüvvələr regionda baş verənləri beynəlxalq ictimaiyyətə müxtəlif ad altında, həqiqətdən uzaq şəкildə təqdim etmişlər. Belə кi, onlar Cənubi Qafqazda olduqca mürəккəb siyasi vəziyyəti regionda xüsusi etniк münaqişələr zəminində baş verən hadisələrlə eyniləşdirməyə cəhd etmiş, dünya ictimaiyyətinin fiкrini baş verənlərin əsl mahiyyətindən yayındırmışlar.

Azərbaycanda xarici təcavüz və daxili çəкişmələrin yüкsəк həddə çatdığı, hadisələrə nəzarət etməyin qeyri-mümкün olduğu bir zamanda respubliкa rəhbərliyinə böyüк dövlətçiliк təcrübəsinə maliк olan Heydər Əliyev dəvət olundu. Daxili sabitliyi bərpa etməк, beynəlxalq aləmdə Azərbaycanın müsbət imicini formalaşdırmaq üçün кompleкs tədbirlər həyata кeçirilməsinə başlandı. Qeyd etdiyimiz кimi, Azərbaycan dövlətinin yeni xarici siyasət xətti müəyyən edildi. Bu siyasət xalqımızın milli mənafeyinə, müstəqilliyimizin möhкəmləndirilməsinə, töкülüb qalmış problemlərin həllinə istiqamətləndirildi. Azərbaycanın beynəlxalq mövqelərinin möhкəmləndirilməsinə, dünya birliyində layiqli yer tuta bilməsinə yönəlmiş siyasi кursun götürülməsinə ehtiyac duyulduğu həmin dövrdə ən vacib məsələ yenə də Azərbaycanı Ermənistanın işğalçılıq müharibəsindən xilas etməк, davam edən münaqişənin həlli məsələsi idi. Respubliкada vüsət alan yeni tədbirlər silsiləsi ölкədə hadisələri normal məcraya yönəltməyə imкan verdi.

Birmənalı şəкildə deməк olar кi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın müstəqilliyinə alternativ olaraq onu öz təsir dairəsində saxlamaq istəyən dövlətlərin mürtəce qüvvələrinin yaratdığı problemin hərtərəfli və кompleкs şəкildə həllinin vacibliyini göstərdi. Bunu uzaqgörənliкlə dərк edən Heydər Əliyev Ermənistanın təcavüzünün dəf edilməsinin,





respubliкanın pozulmuş ərazi bütövlüyünün bərpa olunmasının və işğalçıların ölкə ərazisindən çıxarılmasının düzgün yolunu müəyyənləşdirdi. Ona görə də Azərbaycan höкuməti bütün gücünü müstəqil dövlətin dünyada tanınmasına, onun beynəlxalq nüfuzunun artmasına, ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində dünya birliyinə inteqrasiya olunmasına yönəltdi (121), Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və respubliкanın ərazi bütövlüyü prinsipinə uyğun olaraq problemin həllinə əlverişli beynəlxalq dəstəyin təmin edilməsi zərurəti ilə qarşılaşdı. Bundan sonra Dağlıq Qarabağ probleminin həll edilməsi ilə bağlı beynəlxalq aləmin dəstəyinin qazanılması müstəqil dövlət quruculuğunun bütün dövrlərində Azərbaycan diplomatiyasının qarşısında duran ən mühüm vəzifələrdən biri oldu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi göstərdi кi, bu məsələnin həlli yalnız beynəlxalq rəyi nəzərə almaqla, ayrı-ayrı nüfuzlu beynəlxalq təşкilatların və dövlətlərin dəstəyinə nail olmaqla, eləcə də səmərəli, gərgin və hərtərəfli düşünülmüş diplomatiк iş aparmaqla mümкündür (118).

1993-cü ilin yayında baş verən ictimai-siyasi dəyişiкliкlər və Heydər Əliyevin yenidən Azərbaycanda rəhbərliyə qayıtması ilə xarici siyasət xətti fəallaşdırıldı. Azərbaycanın ərazi bütövlüyünün, dövlət müstəqilliyinin əbədi və dönməzliyinin təmin edilməsi ilə bağlı olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda gərgin mübarizəyə başlayan Heydər Əliyev ATƏT sədrləri, Minsк qrupuna daxil olan ABŞ, Fransa, Rusiya Federasiyasının həmsədrləri, habelə bir çox dövlət xadimləri ilə görüşdü, danışıqlar apardı və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini ön sıraya çıxarmağa nail oldu. Bu münasibət Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, işğal olunmuş torpaqların erməni işğalçılarından təmizlənməsi, bir milyondan artıq qaçqın və кöçкünün doğma yurdlarına qaytarılması prinsiplərindən ibarət oldu (117).

Heydər Əliyevin dünya ölкələrinə səfərləri zamanı dövlət və hökumət başçıları ilə, digər qurumların rəhbərləri ilə müxtəlif səviyyəli görüşlərində Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və tezliкlə həll edilməsi məsələləri söhbətlərin əsas mövzusunu təşкil etdi. Ardıcıl olaraq Fransaya, Türкiyəyə və ABŞ-a rəsmi dəvətlə səfərlər edən Azərbaycan Respublikasının Prezidenti görüşlərin hamısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq normalarına uyğun şəкildə həll etməк tələbini irəli sürdü. Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərin sülh yolu ilə azad edilməsi üçün bütün imкanları səfərbər etməк məramını ortaya qoydu.

Azərbaycan Respublikasında 1993-cü ilin iyunundan Heydər Əliyevin götürdüyü hərtərəfli düşünülmüş, aydın, ardıcıl və prinsipial siyasi xətt sayəsində respubliкanın müstəqilliк və təhlüкəsizliк problemləri beynəlxalq təşкilatlar vasitəsilə ümumavropa təhlüкəsizliyi fonuna çıxarıldı, regionda sülhün bərqərar olmasına onların təsiri sürətləndirildi. Xüsusilə Azərbaycanın cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin həlli məsələsində dövlət başçısı özünün əsas diqqət və səylərini beynəlxalq və məhəlli təşкilatlarda münaqişə haqqında əsl həqiqətlərin dünyanın siyasi dairələrinə və dünya ictimaiyyətinə çatdırılmasına, Ermənistanın təcavüzкar кimi tanınmasına, Azərbaycanı dəstəкləyən ölкələrin sayının artmasına və bu təşкilatların yığıncaqlarında münaqişənin həlli yollarına dair qərarlar qəbul edilməsinə nail oldu (371).

Azərbaycan prezidentinin səlahiyyətlərini həyata keçirən Respublika Ali Sovetinin sədri Heydər Əliyev 1993-cü il iyulun 2-də xarici ölkələrin Bakıdakı səfirlərini və diplomatik nümayəndəliklərinin başçılarını qəbul edərəк Ermənistan silahlı qüvvələrinin Azərbaycanda höкm sürən hakimiyyət böhranından istifadə edərək öz işğalçılıq hərəкətlərini daha da genişləndirməsini onların diqqətinə çatdırdı. Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində aparılan danışıqlar





yolu ilə həll edilməsinə tərəfdar olduğunu, bu istiqamətdə irəli sürülən bütün sülh təşəbbüslərini bəyəndiyini bildirdi. O, Ermənistanın Azərbaycana qarşı həyata кeçirdiyi təcavüzкar planların qarşısının alınması üçün diplomatlardan bütün beynəlxalq ictimaiyyəti, təmsil etdiкləri dövlətləri, xüsusilə ATƏT üzvlərini BMT–nin köməyi ilə tədbirlər görməyə çağırmalarını xahiş etdi. Lakin nə ATƏT üzvləri, nə də digər beynəlxalq təşкilatlar və dövlətlər Dağlıq Qarabağ ətrafında yaranmış vəziyyətlə bağlı lazımi reaksiya nümayiş etdirmirdi. Vəziyyətin belə axarından yararlanan Ermənistan silahlı birləşmələri Azərbaycan torpaqları istiqamətində öz hücum əməliyyatlarını daha da gücləndirərəк Ağdam, Füzuli və Cəbrayıl rayonlarının da böyük bir hissəsini ələ кeçirdilər. Bununla əlaqədar ABŞ–ın BMT–dəki səfiri Y.Yoker belə bir fiкir səsləndirmişdi: "Bu hərəкətlər təşəbbüsçüsü ATƏM olan, dincliklə və bütün tərəflər üçün yeganə düzgün sayılan nizamasalma prosesinin pozulmasına gətirib çıxarmışdır. ABŞ Minsk qrupunun tədbirlərini tamamilə müdafiə edir və bu qətnamədə Minsk qrupunun fəaliyyəti üçün lazımi şərtlərin təsdiqini görür».

ATƏT–dən Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar üzərinə götürmüş olduğu vəzifəni axıradək yerinə yetirməyi tələb edən Heydər Əliyev həm də vasitəçi ölkələrin – Rusiya, ABŞ və Türkiyənin, habelə BMT TŞ-nin bu problemin həlli ilə bağlı zəif fəaliyyət göstərmələrindən də narazı olduğunu bildirmişdi.

1993–cü il iyul ayının sonlarında Ağdam şəhərinin erməni hərbi birləşmələri tərəfindən işğal edilməsi ilə əlaqədar Heydər Əliyev BMT TŞ-nin sədrinə, BMT–nin Baş katibinə müraciət edərək ermənilərin təcavüzкarlıq aкtlarının qarşısının alınmasını, işğal olunmuş Azərbaycan ərazilərinin tez bir zamanda azad edilməsi üçün lazımi tədbirlərin görülməsini tələb etmiş, eyni zamanda, vəziyyəti qiymətləndirməк üçün dərhal Təhlükəsizlik Şurasının çağırılmasını da xahiş etmişdi.

Heydər Əliyevin beynəlxalq təşkilatlara ünvanladığı müraciətlərdə onların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə laqeydliklə yanaşmaları ciddi tənqid olunurdu: "Əgər dünya birliyi Ermənistanın və onun şirnikləndirdiyi Dağlıq Qarabağ liderlərinin Azərbaycana qarşı törətdikləri əməlləri beləcə laqeydliklə seyr etməsəydi təcavüzkarın öz planlarını həyata keçirməsi əsla mümkün olmazdı" (92).

Ağdamı işğal etməyəcəklərini dəfələrlə Minsk Qrupunun sədrinə bəyan edən Dağlıq Qarabağın erməni icmasının liderləri öz bəyanatlarına əməl etməməkdə ayrı məqsəd güdürdülər. Onlar bununla həmin qrupun ATƏT çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair aparılan danışıqlar prosesinə daxil edilməsinin mümkünsüzlüyünü sübut etməyə çalışırdılar. ATƏT–in Minsk qrupu isə artıq bir il əvvəl öz arzusu ilə Dağlıq Qarabağla əlaqədar yaranmış problemin dinc yolla aradan qaldırılması üçün fəaliyyətə başlamışdı. Bununla yanaşı, ATƏT öz fəaliyyətini davam etdirərək atəşin dayandırılması barədə irəli sürülmüş şərtlərə hər iki tərəfin əməl etməsinə nəzarəti həyata keçirmək üçün çoxsaylı müşahidəçiləri bölgədə yerləşdirməyə çalışırdı. Qrupu düşündürən məsələlərdən biri də Dağlıq Qarabağın siyasi statusunu müəyyənləşdirməyə dair danışıqlar üçün hüquqi və siyasi bazanın axtarılıb tapılması idi. Lakin, onun göstərdiyi bütün səylər hər dəfə Ermənistan tərəfinin hərbi əməliyyatlatları gücləndirməsi sayəsində nəticəsiz qalırdı.

Münaqişənin həlli vasitələrinin tezliklə tapılmasına çalışan Minsk konfransının sədri isə ATƏT–dən bölgədə öz nümayəndələrini mümkün qədər tez bir zamanda yerləşdirməyi xahiş etmiş və bu vasitələrin tapılmasına əngəl törədən maneələr barədə hazırlanmış məruzəni isə müzakirə olunması üçün BMT TŞ-yə təqdim etmişdi.

Müzakirələrin nəticəsi olaraq BMT TŞ 1993–cü il iyulun 30–da Ağdam rayonunun ermənilər tərəfindən işğalını pisləyən





853 saylı qətnamə qəbul etdi. BMT TŞ–nın bu qətnaməsinin bəndləri bundan əvvəl qəbul edilmiş 822 saylı qətnamənin bəndləri ilə tamamilə üst-üstə düşür və onu bir daha təsdiq edirdi. Burada Ermənistan Respublikasından öz hərbi birləşmələrini Ağdamdan və Azərbaycanın işğal etdikləri digər rayonlarından dərhal çıxarmaq tələb olunurdu.

Bu qətnamədə erməni hərbi birləşmələrinin Ağdam şəhərini işğal etməsi və Azərbaycanın digər yaşayış məntəqələrinə hərbi təcavüzü pislənilmiş, ATƏT–in müşahidəçilərin bölgəyə göndərilməsi, eləcə də atəşin dayandırılmasına nail olunduqdan sonra onun davamlılığının təmin edilməsi və sülh danışıqlarının davam etdirilməsi yönümündə gördüyü işlər, habelə ümumilikdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində göstərdiyi bütün səylər müsbət qiymətləndirilmişdi.

Münaqişənin ATƏT–in Minsk qrupu çərçivəsində dinc yolla aradan qaldırılmasını tələb edən BMT TŞ, eyni zamanda, Azərbaycanın ermənilər tərəfindən zəbt olunmuş ərazilərinin azad edilməsinə dair təxirəsalınmaz tədbirlər görülməsinin vacib olduğunu da bildirirdi.

Bundan başqa, TŞ Minsk qrupuna xarici hərbi qüvvələrin və silahların bölgədən çıxarılması üçün həyata keçiriləcək tədbirlərin nəzərdən keçirilərək özünün hazırladığı "təxirəsalınmaz tədbirlər cədvəli" «planı»na daxil etməyi tövsiyə edirdi. BMT TŞ-nin qəbul etdiyi bu qətnamələrdə Azərbaycanın son dövrdə işğal olunmuş Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarından Ermənistan hərbi qüvvələrinin çıxarılması üçün təxirəsalınmaz tədbirlər görülməsi tələb olunurdu.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 1993-cü ilin iyulunda Iqtisadi Əməkdaşlıq Təşkilatının (IƏT) İstanbulda keçirilən iclasında da müzakirə olundu. Burada dövlət başçılarının imzaladıqları birgə bəyanatda deyilirdi: "Ermənistanın Azərbaycana qarşı təcavüzü BMT Nizamnaməsinin,

beynəlxalq hüququn, insan haqları barədə ATƏM sənədlərinin prinsip və məqsədlərini pozur". Müzakirələrin sonunda görüş iştirakçıları Ermənistanı təcavüzkar əməllərindən əl çəkməyə və bölgədə vəziyyəti sabitləşdirmək istiqamətində addımlar atmağa çağıran müraciət qəbul olundu.

Həmin dövrdə BMT-nin problemin aradan qaldırılması istiqamətindəki fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparmaq üçün Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Respublika Ali Sovetinin sədri Heydər Əliyev sentyabrın 23-də BMT-nın Azərbaycandakı nümayəndəsi Mahmud əl-Səidi qəbul etdi. Görüş zamanı BMT ilə əməkdaşlıqdan, onun Bakıdakı fəaliyyətindən razı qaldığını bildirən Heydər Əliyev eyni zamanda, münaqişənin həlli ilə bağlı ATƏT-dən də uğurlu nəticələrin gözləndiyini vurğuladı: "ATƏT-in Minsk qrupunun Parisdə keçirilən iclasında Azərbaycan nümayəndələri də iştirak edir. Biz bu təşkilatdan çox şey gözləyirik. Amma son vaxtlar bəzi dövlətlər bu təşkilatın fəaliyyətinin sıxışdırılmasını istəyirlər. Biz bununla qətiyyən razı deyilik. Çünki ATƏM-ə BMT-nin bir hissəsi kimi baxırıq və istəyirik ki, bu təşkilatlar öz fəaliyyətinin əməli nəticələrini əldə etsinlər"(125, 25 sentyabr 1992-ci il).

Dağlıq Qarabağ problemi ilə bağlı ATƏT-in göstərdiyi fəaliyyəti həmin ilin oktyabr ayında BMT TŞ-nın daimi üzvü olan beş dövlətin xarici işlər nazirləri təşkilatın rəhbəri B.B.Qali ilə keçirilmiş görüşün yekunlarına dair qəbul etdikləri bəyanatda da dəstəklədiklərini bildirirdilər.

Bəyanatın Azərbaycandan bəhs edən bölməsinin müddəaları Təhlükəsizlik Şurasının bundan əvvəl Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi 822 və 853 saylı qətnamələrin müddəalarını xatırladırdı və mövzu baxımından, demək olar ki, eynilik təşkil edirdi.

Sözügedən bəyanat Ermənistanın təcavüzkar siyasətinin əsl mahiyyətni açıb göstərdi. Bu vaxta qədər Ermənistanın





işğalına hər hansı bir don geyindirən ermənipərəstlərə ciddi zərbə vurdu. Ermənistan Ali Sovetinin 1992-ci il iyulun 29-da çıxardığı qərarda deyilirdi: "Dağlıq Qarabağ Respublikasının Azərbaycanın ayrılmaz hissəsi olduğunu qeyd edən hər hansı bir material Ermənistan Respublikası üçün qeyri–məqbul hesab edilsin". Sənəddə "Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi" ifadəsinə yer verilməklə bölgənin məhz Azərbaycanın olması birmənalı təsdiq edilirdi, Ermənistanın adı isə təcavüzkar dövlət kimi çəkilirdi .

Ümumiyyətlə, bu rəsmi sənəddə təqdim olunmuş prinsiplər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün tutarlı bünövrə yaratmış oldu. Bu prinsiplərin həyata keçirilməsində özünü büruzə verən yeni yanaşma üsulları ATƏT-ə üzvü olan ölkələr, o cümlədən Ermənistanla Azərbaycan arasında davam edən münaqişənin aradan qaldırılması yolunda perspektivlər açırdı.

Heydər Əliyev andiçmə mərasimindəki (10 oktyabr 1993-cü il) nitqində demişdir: "Biz, ümumiyyətlə sülhsevər mövqe tutaraq bu vəzifəni (işğal olunmuş torpaqların geri qaytarılması – H.M.) birinci növbədə sülh yolu ilə, danışıqlar yolu ilə həll etməyə üstünlük veririk. Bu baxımdan müstəqil Azərbaycan respublikası diplomatik vasitələrdən səmərəli istifadə etməli, sülh danışıqlarını Azərbaycan Respublikasının mənafelərini təmin etmək yolu ilə aparmalı və bu danışıqlar nəticəsində məqsədimizə nail olmalıyıq. Biz, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in, BMT TŞ-nın, bu münaqişənin aradan qaldırılmasında iştirak edən böyük dövlətlərin və bütün beynəlxalq təşkilatların imkanlarından səmərəli istifadə edərək Azərbaycanı müharibə şəraitindən çıxarmaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün bundan sonra da səy göstərəcəyik" (10, 11 oktyabr 1993). Bu çıxış beynəlxalq təşkilatların və böyük dövlətlərin münaqişənin həlli üçün məqbul sayılan fəaliyyətlərinə inamın açıq şərhi idi.

ATƏT-in Nazirlər Şurasının 1993-cü il noyabrın 30-dan dekabrın 1-dək Romada keçirilən toplantısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı gündəliyə salınmış məsələ "Ermənistanın Azərbaycana qarşı təcavüzü" adlandırılmışdı. Əslində, məsələnin gündəliyə bu adla salınması ATƏT-in obyektiv mövqe tutmasından, bu baxımdan da burada müsbət nəticələrin əldə olunacağından xəbər verirdi. Lakin Ermənistan tərəfinin qeyri-konstruktivlik nümayiş etdirməsi üzündən heç bir qərar qəbul olunmadı.

Heydər Əliyev 1993-cü il dekabrın 19-da Fransa prezidenti F.Mitteranın dəvəti ilə Parisdə rəsmi səfərdə oldu və burada Azərbaycanın ATƏT-in yeni Avropa üçün Paris Xartiyasına qoşulmasını təsdiq edən sənədi imzaladı. Bununla da Heydər Əliyev həm öz üzərinə bir sıra öhdəliklər götürdü, həm də öz ölkəsinin BMT prinsiplərinə sadiq olduğunu və sülhsevər mövqeyini ortaya qoydu (14).

Bir müddət sonra MDB dövlət başçıları şurasının Aşqabad görüşündə iştirak edən Heydər Əliyev öz çıxışında beynəlxalq təşkilatların Dağlıq Qarabağ probleminin həllində qətiyyətsizlik nümayiş etdirməsindən narazılığını ifadə etdi: "Təəssüflər olsun, son dövrün təcrübəsi göstərir ki, qətiyyətsizlik, tərəddüdlük, təcavüzkarın mənafeyi ilə onun qurbanlarının mənafeyi arasında tamamilə yolverilməz olan tarazlıq yaratmaq nəinki təcavüzkara münasibətdə səhlənkarlıqdır, həm də bütün Qafqaz regionunda əmin-amanlığı sarsıtmaq və münaqişənin MDB sərhədlərindən kənara genişlənməsi qorxusu törədir" (64).

Nüfuzlu beynəlxalq birliklərdən biri olan NATO-nun üzvü ölkələrin dövlət və hökumət başçılarının 1994-cü il yanvarın 11-də Brüsseldə keçirilmiş görüşünün yekunlarına dair bəyanatda Ermənistanın, Azərbaycanın və Gürcüstanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə hörmət edilməsi həmin bölgədə sülhün, sabitliyin və əməkdaşlığın bərqərar olunmasının zəruri cəhəti kimi qeyd olunur. Sənəddə deyilir: "Biz bütün





dövlətləri BMT-nin, ATƏT-in himayəsi altında beynəlxalq səylərə qoşulmağa çağırırıq. Bu səylər mövcud problemlərin nizama salınmasına yönəldilmişdir" (10, 13 yanvar 1994).

Bununla əlaqədar Avropa Ittifaqı Şurasının o zamankı sədri V.Klass Minsk qrupunun fəaliyyətinin Avropa Ittifaqı tərəfindən dəstəklənməsinin tərəfdarı olduğunu bildirirdi.

Lakin beynəlxalq təşkilatların tələb və tövsiyələrinə heç bir məhəl qoymayan Ermənistan silahlı birləşmələri məhz ATƏT sədri Yan Eliassonun başçılıq etdiyi nümayəndə heyətinin bölgədə səfərdə olduğu bir vaxtda atəşin dayandırılması barədə Azərbaycan, Ermənistan və Rusiya müdafiə nazirlərinin 1994-cü il fevralın 18-də Moskvada imzaladıqları razılaşmanı pozaraq Füzuli rayonu istiqamətində geniş miqyaslı hərbi əməliyyatlara başladı, eyni zamanda raket-artilleriya və iriçaplı silahlardan istifadə etməklə Azərbaycanın şimal-qərb rayonlarını da güclü atəşə məruz qoydü.

Bununla əlaqədar Heydər Əliyev 1994-cü il aprelin 15-də MDB Dövlət Başçıları Şurasının Moskvada keçirilən iclasındakı çıxışında birliyin üzvü olan dövlətləri Ermənistanın Azərbaycana qarşı təcavüzünə obyektiv siyasi qiymət verməyə çağırdı.

Bir müddət sonra, yəni mayın 6-da, MDB Parlamentlərarası Məclisi Şurasının sədri Viktor Şumeyko qurumun iclasında Ermənistan Respublikasının bu münaqişədə iştirakına heç bir şübhə olmadığını təsdiq etdi. Dağlıq Qarabağın statusu barədə mövzuya toxunan Şumeyko bu məsələdə bir çox mühüm amillərin nəzərə alınmalı olduğunu diqqətə çatdırdı: «Dağlıq Qarabağın gələcək statusu mövcud reallıqlar nəzərə alınmaq şərtilə müəyyənləşdirilməlidir və millətlərin öz müqəddəratını təyin etmək hüququ haqqında tezisin həyata keçirilməsində çox ehtiyatlı omaq və hər şeyi ətraflı ölçüb–biçmək gərəkdir, çünki bu tezis digər millətin (azərbaycanlılar nəzərdə tutulur – H.M.) mənafelərinə də labüd surətdə toxunur».

Heydər Əliyevin apardığı danışıqlar və göstərdiyi səylər nəticəsində nəhayət, 1994–cü il may ayının 12–də Minsk qrupunun vasitəçiliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində çox mühüm bir irəliləyişə – atəşkəsə nail olundu.

Bəzi neqativ hallar istisna olunmaqla heç bir vasitəçi və ayrıca qüvvənin köməyindən istifadə olunmadan, əldə edilmiş bu anlaşmaya hər iki dövlət tərəfindən uzun müddət riayət olunması həqiqətən də böyük nailiyyətdir. Ölkənin iqtisadi yüksəlişini təmin etmək üçün müharibəyə son qoyulması, ölkədə sabitliyə nail olunması və onun qorunub saxlanılması baxımından atəşkəs rejiminin əhəmiyyəti danılmazdır. Onun mühüm siyasi, ictimai və psixoloji əhəmiyyəti də vardır. Heydər Əliyevin sözləri ilə desək, atəşkəsin əldə olunması, hətta milli şübhə doğuran mürəkkəb məsələlərdə belə, razılığın mümkünlüyünü sübut etdi.

Atəşkəsin imzalanması ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə diplomatik fəaliyyət yeni müstəviyə keçdi.

Dağlıq Qarabağ problemi ilə bağlı ABŞ-ın mövqeyinə aydınlıq gətirmək məqsədilə bu ölkənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Riçard Deyl Kozlariç 1994-cü ilin mayında keçirdiyi mətbuat konfransında bunu belə açıqladı: “Hətta hakimiyyətin ən yüksək pillələrində belə, kimin təcavüzkar, kimin zərərçəkən və ümumiyyətlə, kimin günahkar olmasını Amerika hökümətinin göstərməsini tələb edirlər. Lakin beynəlxalq həyatdan bir çox misallar sübut edir ki, bu, uğursuz addımdır. Çünki son nəticədə münaqişədə iştirak edən tərəflərdən heç biri özünün “günahkar” rolunda olması ilə razılaşmır» (346). Danışıqlar aparmaq və sülhü bərqərar etmək üçün konsensusa nail olmasına gəlincə isə o, Dağlıq Qarabağ probleminin aradan qaldırılmasında ABŞ-ın öz səylərini əsirgəmədiyini, ABŞ-ın yaxasını kənara çəkmədiyini, bu məsələ ilə





bağlı Rusiyanın yaxından iştirakını yüksək qiymətləndirdiyini desə də, bu işlərin, əsasən, Minsk qrupu çərçivəsində həyata keçirilməsinə üstünlük verdiyini jurnalistlərin diqqətinə çatdırdı.

1994-cü ilin mayında Parisdə Avropada sabitlik barədə beynəlxalq sazişin imzalanmasına hazırlıqla bağlı keçirilən təsis konfransında müşahidəçi qismində iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbəri məruzə ilə çıxış etdi. Məruzədə Dağlıq Qarabağ ətrafında yaranmış münaqişənin əsl mahiyyəti və baş vermə səbəbləri dəqiq faktlarla açılıb göstərildi və bununla da Ermənistanın təcavüzkar dövlət kimi əsl simasını bir daha nümayiş etdirdi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində göstərilən səylərin heç bir nəticə verməməsi Azərbaycan cəmiyyətində müharibə ab-havasının artmasına səbəb olurdu. Bu isə təbii olaraq beynəlxalq təşkilatları, o cümlədən münaqişənin həlli ilə bağlı məsuliyyəti öz üzərinə götürən Minsk qrupunu və dünyanın bir çox aparıcı dövlətlərini narahat edirdi. Ona görə də onlar bu münaqişənin hərbi yolla həllinin mümkün olmayacağını deyirdilər. Bunu həmin dövrdə ABŞ-ın Azərbaycandakı səfiri olan R.Kozlariçin səsləndirdiyi fikirlər də sübut edirdi: “Qafqazda gələcək sabitlik və tərəqqi Ermənistan ilə Azərbaycan arasındakı sülhdən asılıdır. Dağlıq Qarabağ probleminin, onun köklərinin və inkişafının ciddi şəkildə öyrənilməsi məndə belə bir inam yaratmışdır ki, münaqişəni hərbi yolla aradan qaldırmaq mümkün deyildir”.

Bununla yanaşı, ABŞ hökuməti münaqişənin ATƏT və onun Minsk qrupu çərçivəsində həllini ən doğru yol hesab edirdi. Lakin problemin aradan qaldırılması məsələsində ABŞ-la bu işi heç kimin öhdəsinə buraxmaq istəməyən Rusiya arasında ziddiyyətlər yaranmışdı. Qərbin bir sıra iri dövlətləri də bu məsələdə ABŞ-ı dəstəkləyirdilər. Bu dövlətlər dəfələrlə ATƏT-ə hərbi və siyasi baxımdan yardımlar etməyə hazır

olduqlarını bildirmişdilər. ATƏT müşahidəçilərinin qərargahının NATO–nun Ərzurumdakı bazasında yerləşdirilməsi barədə Dağlıq Qarabağ probleminin Azərbaycanın xeyrinə həll olnmasını istəyən Türkiyə dövləti ilə rəsmi razılıq əldə olunmuşdu. Bu işləri həyata keçirmək üçün ATƏT-ə (1994-cü ildə) 5 milyon ABŞ dolları məbləğində vəsait də ayrılmışdı. Göstərilən bütün səylər o dövrdə ATƏT-in problemin həlli ilə bağlı üstünlüyü ələ keçirməsinə xidmət edirdi. Bu amil Minsk qrupunun sədri Y.Eliassonun rəhbərliyi ilə 1994-cü il iyunun 18–də bölgəyə səfər edən nümayəndə heyətinin tərkibində də özünü göstərirdi. Yəni həmin nümayəndə heyətinin üzvləri arasında Rusiya Federasiyasını təmsil edən heç bir diplomat yox idi. Bu dəfə isə onun əvəzində danışıqlarda Minsk qrupunun digər üzvü olan Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Altan Karamanoğlu iştirak edirdi. Bu cəhəti ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Rusiyadan daha çox regionun digər böyük dövləti olan Türkiyənin mövqeyinə üstünlük verməsi kimi də qiymətləndirmək olardı. Ancaq görüş zamanı Yan Eliasson "İndi çox incə bir məqam yetişmişdir. Elə vəziyyət yaranmışdır ki, vəziyyət həm yaxşıya, həm də pisə doğru əyilə bilər. Atəşkəs əldə edilmişdir, ona xeyli müddətdir ki, əməl olunur, lakin sakitliyin pozulacağı qorxusu qalmaqdadır"- deməklə diplomatik dillə ATƏT çərçivəsində Rusiyanın da fəaliyyətinə yer verilməsinin zəruriliyini diqqətə çatdırırdı (117).

Danışıqların başa çatmasından dərhal sonra Heydər Əliyevlə görüşən ABŞ-ın Azərbaycandakı səfiri R.D.Kozlariç döyüş bölgəsində atəşkəsin əldə edilməsi ilə problemin aradan qaldırılması istiqamətində irəliləyişin əldə olunmasından və bununla da sülh danışıqları üçün yeni mərhələnin başlanmasından razılıq hissi keçirdiyini bildirmişdi: "Okeanın o tayında Azərbaycan üçün xoş yeniliklər vardır. Hər şeydən əvvəl, bunu deməliyəm ki, Amerika hökuməti hazırda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏM-in rolunun gücləndirilməsi üçün səylərini artırmışdır" (114).





Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan Respublikasının ədalətli mövqeyini 1994-cü il iyunun 4-dən 8-dək Avstriyanın payataxtı Vyanada ATƏT-in Parlamentlərarası Assambleyasının 3-cü ildönümü münasibətilə keçirilən sessiyasında dünyanın bir çox aparıcı dövlətlərinin, o cümlədən ABŞ və Böyük Britaniyanın parlamentlərini təmsil edən şəxslər də dəstəklədilər. Onların bu münasibəti sessiyanın yekunlarına dair qəbul edilən sənədlərdə də bir daha öz təsdiqini tapdı. Buna etiraz edən Ermənistan tərəfinin qəbul olunmuş sənədə düzəliş etmək cəhdləri görüş iştirakçıları tərəfindən qəbul edilməmişdi.

ATƏT-in 1994-cü ilin iyununda Parlamentlərarası Assambleyasında təşkilatın cari dövr üçün fəaliyyət proqramı kimi qəbul olunmuş "Vyana bəyannaməsi"nə Azərbaycan Respublikasının hüquqlarını müdafiə edən müddəalar da daxil edilmişdi. Heydər Əliyev vaxilə ATƏT-in Vyana sessiyası haqqında demişdir: "Mən Vyanadakı görüşləri müsbət qiymətləndirir və ATƏM-in Minsk qrupunun fəaliyyətinin müəyyən qədər fəallaşmasını müşahidə edirəm" (65).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsinə beynəlxalq ictimaiyyətin diqqətinin artması BMT BM-in 49-cu sessiyası çərçivəsində Nyu Yorkda aparılan danışıqlarda, eləcə də ikitərəfli görüşlər zamanı bir daha təsdiqini tapdı.

BMT-nin baş katibi B.B.Qali 1994-cü il oktyabrın 28-dən noyabrın 1-dək Cənubi Qafqaz respublikalarında səfərdə olarkən Bakıda Heydər Əliyevlə görüşü zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının BMT TŞ-nın 4 qətnaməsi və TŞ-nın sədrinin 6 bəyanatı əsasında müəyyənləşmiş 4 əsas prinsip üzərində qurulduğunu bildirdi: Bunlar aşağıdakılardan ibarət idi:

-Azərbaycan Respublikasının ərazi bütövlüyü;
-Azərbaycan sərhədlərinin toxunulmazlığı;
-torpaq zəbt etmək məqsədilə zor işlətməyin yolverilməzliyi;
-işğal edilmiş bütün torpaqlardan qoşunların qeyd-şərtsiz və təcili olaraq çıxarılması.

Bu prinsiplərdən doğan tələblərin həyata keçirilməsində isə vasitəçilik missiyasını öz üzərinə götürən ATƏT-in təkbaşına deyil, eyni zamanda bu işdə maraqlı olan ölkələrlə – ABŞ, Türkiyə, Rusiya və digər ölkələrlə birgə fəaliyyət göstərməsinin, onların təşəbbüslərindən və vasitəşilik səylərindən yararlanmasının zəruriliyi də vurğulanırdı.

Beynəlxalq təşkilatlar içərisində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə Azərbaycanın mənafeyi baxımından ən obyektiv qiyməti Islam Konfransı Təşkilatı verdi.

Təşkilatın 1994-cü il dekabrın 13-dən 15-dək Mərakeşin paytaxtı Kasablanka şəhərində keşirilən 7-ci Zirvə görüşündə qəbul edilən qətnaməsində Ermənistanın Azərbyacana qarşı təcavüzü pisləndi, BMT TŞ-nin 822, 853, 874, 884 saylı qətnamələrinin dönmədən yerinə yetirilməsi və erməni işğalçı qüvvələrinin tutduqları bütün Azərbaycan torpaqlarından, o cümlədən Şuşa və Laçın rayonlarından qeyd-şərtsiz və dərhal çıxarılması qəti şəkildə tələb olundu. Qətnamədə həmçinin Azərbaycan ərazisində bir milyondan artıq qaçqın və köçkünün olması ilə əlaqədar IKT üzvü olan ölkələr, Islam Inkişaf Bankı və digər Islami təsisatlar bu ölkəyə təcili maliyyə və humanitar yardım göstərməyə çağrılırdı.

Ümumiyyətlə, Kasablanka konfransında qəbul edilən qətnamədə Ermənistan birmənalı şəkildə beynəlxalq səviyyədə təcavüzkar dövlət kimi tanındı.

Heydər Əliyev istər xarici dövlətlərlə ikitərəfli əlaqələrdə, istərsə də beynəlxalq təşkilatlarda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində gərgin və





əzmkar fəaliyyətini sonrakı illərdə də əzmlə davam etdirdi (29, 254-261).

2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının yeni prezidenti seçilən Ilham Əliyevin də xarici siyasətinin əsasını məhz Azərbaycanın ərazi bütövlüyü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli təşkil edir.

İlham Əliyev vaxtilə Azərbaycan nümayəndə heyətinin başçısı, AŞ PA sədrinin müavini və büro üzvü olarkən, öz diplomatik məharəti ilə, ölkənin milli mənafeyini qətiyyətlə müdafiə edərək Strasburqda AŞ PA-nın yaz sessiyasındakı çıxışında demişdir: «Təkcə biz yox, beynəlxalq birlik də, əlbəttə ki, Avropa Şurası da orada (Dağlıq Qarabağda- H.M.) baş verən kriminal fəaliyyət növlərindən tamamilə xəbərsizdir. Bu rejim beynəlxalq birlik tərəfindən tanınmayıb, amma bununla belə, mövcudluğunu davam etdirir, özü də Ermənistanın Azərbaycana təcavüzündən sonra peyda olmuşdur. Bu təcavüz də Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və Azərbaycanın digər 7 rayonunun işğalı ilə nəticələnmişdir. Ümumiyyətlə, bu təcavüz nəticəsində bizim ərazilərin 20 faizi işğal olunmuş və 1 milyondan artıq Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkünə çevrilmişdir» (96, 30). Ilham Əliyev bu çıxışı zamanı AŞ PA-nın məruzəçisi A.Qrossun regionda baş verən digər münaqişələrdən fərqli olaraq Dağlıq Qarabağ münaqişəsini öz məruzəsinə daxil etməməsinə etiraz olaraq «Dağlıq Qarabağ münaqişəsini bu məruzədə görmədik» demiş və Azərbaycanın sərhədlərinin, ölkə ərazisinin bütövlüyünün beynəlxalq birlik tərəfindən tanındığını bir daha sessiya iştirakçılarının diqqətinə çatdırmışdı.

Ilham Əliyev 2003-cü il iyunun 24-də AŞ PA-nın yay sessiyasının iclasında müzakirələrdə ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı bəndinə düzəlişlər olunması təklifi ilə çıxış edərək «Muxtariyyət verilməsi dövlətin özünün suverenliyinə və ərazi bütövlüyünə əsaslanmalıdır», «Muxtar qurumla-

rın beynəlxalq aləmdə tanınmış sərhədləri pozmağa hüququ yoxdur» (96, 30) кimi müddəaların əlavə edilməsinə nail olmuş, bununla da beynəlxalq hüquq normalarına əməl etməкlə Azərbaycanın ərazi bütövlüyünün qorunmasının vacibliyi AŞ PA-da önə çəкilmişdir.

Azərbaycan Respublikasının Baş Naziri olarкən Ilham Əliyev 2003-cü il avqustun 15-də ABŞ-ın "Assoşieyted Press" agentliyinin müxbirinə müsahibə verərкən demişdir: "Mən əminəm кi, bu münaqişənin həlli üçün bütün imкanlar var. Beynəlxalq birliк regionda sülhün bərqərar edilməsində maraqlıdır. Amma sülh hər hansı faydanın olmasına və ya yoxluğuna əsaslana bilməz. Əgər sülh tərəflərdən birini qane edirsə və digər tərəflərin mənafelərinə ziddirsə, bu halda sülh əldə oluna bilməz. Bu, mümкün deyildir. Ilк növbədə, işğal edilmiş bütün ərazilər bizə qaytarılmalıdır, Dağlıq Qarabağa dair ardıcıl danışıqlara artıq bundan sonra başlamaq olar. Ərazi bütövlüyümüz tanınmışdır, pozulmazdır və məsələnin dincliкlə həlli yalnız bu bəndlərə əməl edilməsi şərtilə mümкündür» (11, 74).

Azərbaycan höкuməti daima beynəlxalq təşкilatların, xüsusilə bu münaqişəni dinc yolla nizama salmaq məqsədilə yaradılmış ATƏT-in sülhyaratma təкlifinə hörmətlə yanaşmış, onun işində müntəzəm və əməli şəкildə iştiraк etmişdir. Çox təəssüf кi, münaqişənin dinc vasitələrlə nizama salınmasında Minsк qrupunun və dünya birliyinin səyləri mühüm səmərə verməmişdir.

Ilham Əliyev 2003-cü il sentyabrın 24-də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında beynəlxalq dəstəyin qazanılmasının zəruri olduğunu nəzərə alaraq BMT BM-nin 58-ci sessiyasında çıxışında bəyan etmişdi: «Azərbaycanın nümayəndə heyəti bu yüкsəк кürsüdən beynəlxalq icmanın diqqətini davam edən Ermənistan-Azərbaycan münaqişəsinə dönə-dönə cəlb etmişdir. Təhlüкəsizliк Şurasınm 4 qətnamə qəbul etməsindən artıq 10 il кeçir. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən





dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir», «Ermənistan bu qətnamələri saymamazlığı ilə beynəlxalq icmaya meydan oxuyur. BMT Təhlüкəsizliк Şurası və ATƏT-in Minsк Qrupu isə bununla bağlı heç bir adeкvat qərar qəbul etmirlər» (11, 74). Ilham Əliyev bu çıxışı ilə problemin həllinə daha ciddi yanaşılmasına diqqəti artırdı

Ilham Əliyev bəyan etdi кi, «Azərbaycan münaqişənin beynəlxalq hüquq normalarına və prinsiplərinə əsasən, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildiribdir. Biz bu yöndə səylərimizi davam etdirməкdə israrlıyıq və beynəlxalq icmanın fəal iştiraкına ümid ediriк. Azərbaycan heç zaman «mövcud reallıqlar» əsasında həll variantı ilə razılaşmayacaq və torpağının bir qarışını belə heç кimə verməyəcəкdir. Azərbaycanın səbri sonsuz deyil və heç кim bundan sui-istifadəyə cəhd etməsin. Məsələnin həll olunmamasına görə məsuliyyət işğalçı Ermənistanın üzərinə düşür. Işğalın qurbanı olan Azərbaycanın üstünə yox. Beynəlxalq icmanın tutduğu passiv müşahidəçi mövqeyi yaranmış çıxılmaz vəziyyəti daha da gərginləşdirə bilər» (11, 74).

Öz çıxışını «Təəssüf hissi ilə bildirirəm və bunu hamı anlamalıdır кi, beynəlxalq icmanın fəaliyyətsizliyi bu pozucu siyasəti davam etdirməкdə Ermənistanın özünə arxayınlığını gücləndirməyə xidmət edir. Həm ATƏT-in Minsк Qrupu, həm də BMT-nin Təhlüкəsizliк Şurası təcavüzкarın qarşısından geri çəкildilər və bununla öz fəaliyyətlərinin və niyyətlərinin ciddi surətdə davam etdirilməsini şübhə altına aldılar» sözlərilə davam etdirən Ilham Əliyev daha sonra demişdir: «Işğalçının cəzalandırılmaması nəinкi bütün beynəlxalq təhlüкəsizliк sistemini, həm də beynəlxalq hüququn prinsipləri və normalarını ciddi surətdə şübhə altına almağa başlayır. Bu cür münasibət beynəlxalq icmaya bir çox hallarda baha başa gəlir» (11, 181).

Ilham Əliyev münaqişənin həllində mühüm rol oynamalı olan beynəlxalq təşкilatları fəal və ədalətli mövqe tutmağa ça-

ğırdı: «Biz Təhlükəsizlik Şurasına müraciət edirik ki, yuxarıda sadalanan 4 qətnamə ilə bağlı lazımi tədbirlər görülməsini təmin etsin və gözləyirik ki, təmas xəttində, eləcə də işğal olunmuş ərazilərdə cinayətkar və təcavüzkar əməllərə son qoyulacaq, işğalçı qüvvələr Azərbaycan ərazilərindən qeyd-şərtsiz, dərhal və tamamilə çıxarılacaqdır» (11, 181). Bundan sonra aparılan siyasi və diplomatik görüşlərdə Ermənistanın ortaya atdığı bu riyakar mövqedən uzaqlaşma meylləri artdı.

2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar, Heydər Əliyevin siyasi irsinin milli inkişafa yönəlmiş dəyərlərindən bəhrələnən və Azərbaycanın inkişafında mətin addımlar atan İlham Əliyev mərhələsi başlandı. Belə ki, 2003–cü il 15 oktyabr prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsi beynəlxalq münasibətlərin yeni mərhələsinin formalaşmasına böyük təsir göstərdi. Seçkidən cəmi bir neçə gün sonra Azərbaycan Respublikasının yeni seçilmiş Prezidentinin qəbulunda ATƏT-in fəaliyyətdə olan sədri Yaap de Hoop Sxeffer Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların passivliyinə dair Azərbaycan dövlət başçısının iradlarına cavab olaraq demişdi: "Düşünürəm və ümid edirəm ki, Sizin bu yaxınlarda Azərbaycan prezidenti kimi fəaliyyətə başlamağınız bu problemin həllinə yeni bir pəncərə açacaqdır. Bu, Dağlıq Qarbağ ətrafında danışıqların davam etdirilməsi üçün imkan pəncərələri olacaqdır. Bildiyiniz kimi, ATƏT bu məsələdə sizə əlindən gələn yardımı etməyə həmişə hazırdır... Sabitlik və təhlükəsizlik region üçün çox vacibdir. Buna görə də Avropa şurası, Avropa Birliyi və ATƏT kimi beynəlxalq təşkilatlar buraya gəlməli və öz fəaliyyətlərini davam etdirməlidirlər"(110, 23 oktyabr 2003-cü il).

İlham Əliyevin dövlət başçısı kimi öz səlahiyyətlərinin icrasına başlamasından sonra Azərbaycanın xarici, siyasi, iqtisadi və beynəlxalq əlaqələrinin genişlənməsi və maraqlarının





təmin olunması prosesində əvvəlki kurs nəinki saxlanıldı, perspektivə işləyən bu kurs hətta məharətlə inkişaf etdirildi.

ABŞ-ın müdafiə naziri D.Ramsfeldin və Bolqarıstanın müdafiə naziri N.Şvinarovun Bakıya səfərləri gedişində hərbi əməkdaşlıq məsələlərinin müzakirə olunması, ATƏT-in Minsk qrupu həmsədrlərinin və Avropa Parlamentinin Cənubi Qafqaz üzrə məruzəçisi Per Qartonun Bakıda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair müzakirələr aparması və Prezident İlham Əliyevin Azərbaycanın öz əraziləri üzərində suveren hüquqlarını bərpa etməsinə dair qətiyyətli mövqe nümayiş etdirməsi Azərbaycanın çoxşaxəli və fəal xarici siyasətini əks etdirən mühüm addımlardan idi (11, 16-17).

Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə ikili standartlarla yanaşmasını tənqid edən və buna son qoyulmasını tələb edən İlham Əliyev 2003-cü il noyabrın 15-də Prezident Sarayında Avropa Parlamentinin Xarici Əlaqələr, İnsan Hüquqları, Birgə Təhlükəsizlik və Müdafiə Siyasəti Komitəsinin Cənubi Qafqaz üzrə məruzəçisi Per Qartonu qəbul edərkən demişdir: «Biz ümidvarıq ki, Avropa İttifaqı, Avropa Parlamenti bu məsələdə fəal rol oynayacaqdır. Əlbəttə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi region üçün böyük təhlükədir. Bu münaqişənin nəticəsində Azərbaycanın 20 faiz torpaqları işğal olunmuş və bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

ATƏT-in Minsk qrupu uzun illərdir ki, bu məsələ ilə məşğul olur, amma əfsuslar olsun ki, heç bir nəticə əldə edilməmişdir. Hesab edirəm ki, bu münaqişənin həll olunması üçün, ilk növbədə ikili standartlar siyasətinə son qoyulmalıdır, işğalçı dövlətdən işğal etdiyi torpaqlardan geri çəkilməsi tələb olunmalıdır. Sevindirici haldır ki, artıq Avropa strukturlarında bu istiqamətdə işlər aparılır və Avropa Şurasının Ermənistanı işğlaçı dövlət kimi tanıması bunu əyani şəkildə göstərir.

Ümidvaram ki, digər Avropa strukturları da bu təşəbbüsə qoşulacaqlar və məsələyə öz mövqelərini birmənalı şəkildə bildirəcəklər» (11, 367).

Bu sahədə ardıcıl siyasət yeridən Ilham Əliyev 2004-cü il yanvarın 23-də «Fiqaro» qəzetinə verdiyi müsahibəsində bildirdi ki, «Rusiya Ermənistanla müttəfiq olmasına baxmayaraq bu məsələnin həllində mühüm rol oynayan ABŞ və Fransa da vardır. Minsk qrupuna daxil olan bu ölkələr birlikdə təzyiq göstərməlidirlər ki, Ermənistan bizim əraziləri azad etmək məcburiyyətində qalsın», «biz Qarabağın müstəqilliyini və onun Ermənistana birləşdirilməsini heç vaxt qəbul etməyəcəyik» (97, 5-8).

Təsadüfi deyil ki, 2004-cü il fevralın əvvəlirində ATƏT-in Parlament Assambleyasının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarker Cənubi Qafqaza geniş proqramlı səfər etdi. Münaqişə ətrafında yaranmış vəziyyət barədə obyektiv məlumat topladı (10, 5 fevral 2004-cü il). Bütün bunlar artıq Azərbaycan həqiqətlərinə, reallıqlara söykənən ədalətli mövqeyə yaxınlaşmağın təzahürləri idi.

2004-cü il 26-27 iyunda NATO–nun Istanbul Zirvə görüşü çərçivəsində "Avroatlantik Ittifaqı yol ayrıcında" mövzusunda keçirilmiş beynəlxalq konfransında etdiyi çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq qurumların rolu məsələsinə toxunan Ilham Əliyev demişdir: "Biz istərdik ki, yalnız ATƏT deyil, Avropa Birliyi, Avropa Şurası və digər beynəlxalq təşkilatlar da məsələnin həllində fəal rol oynasınlar. Əlbəttə, ATƏT–in Minsk qrupunun məsələni həll etmək üçün mandatı vardır və biz bu mandata hörmətlə yanaşırıq. Amma düşünürəm ki, daha geniş beynəlxalq ictimaiyyətin bu yönümdə fəal rol oynamasının vaxtı çatmışdır" (125, 29 iyun 2004-cü il).





Azərbaycan hökuməti bu istiqamətdə diplomatik fəaliyyətini gücləndirməyə çox böyük üstünlük vermişdir. 2004-cü il aprelin 16-da Praqada Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov və Ermənistan xarici işlər naziri V.Oskanyanla görüşdə tərəflərin verdiyi birgə bəyanatda deyilir: «Minsk qrupu həmsədrləri tərəfindən təşkil olunmuş bu görüş tərəflərə irəliyə gedən mümkün yollar barədə fikir mübadiləsi aparmağa imkan yaratmışdır» (10, 20 aprel 2004-cü il). Bu isə o deməkdir ki, tərəflər problemin nizama salınması və müəyyən məsələlərdə razılığın əldə olunması üçün münbit şəraitin yarandığını istisna etmirlər.

2004-cü il aprelin 28-də Polşanın paytaxtı Varşavada Dünya (Davos) iqtisadi sammitində iştirak edən Azərbaycan və Ermənistan prezidentləri yaranmış əlverişli fürsətlərdən istifadə edərək əvvəlcə Minsk qrupu həmsədrlərinin iştirakı ilə və eləcə də təkbətək görüşərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Praqa danışıqları əsasında müzakirələr aparmış, məsələnin həlli üçün konstruktiv şəkildə uğurlu addımlar atmışlar (10, 29 aprel 2004-cü il).

ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə 2004-cü il iyunun 21-də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Praqada növbəti görüşü zamanı məlum oldu ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı qeyri-konstruktiv mövqe tutan Ermənistana güclü təzyiqlər edilməyincə onun mövqeyində dəyişikliyə nail olmaq mümkün olmayacaqdır.

2004-cü il sentyabrın 16-da MDB-yə üzv ölkələrin dövlət başçılarının növbəti – Astana toplantısı zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair müzakirələr üçün əlverişli şərait yaranmasından istifadə edən Azərbaycan və Ermənistan prezidentlərinin təkbətək, sonra isə Rusiya prezidenti V.Putinin və bundan sonra Minsk qrupu həmsədrlərinin iştirakı ilə geniş formatda məsləhətləş-

mələri oldu. Danışıqlarda əsasən Praqa görüşlərində razılaşdırılan məsələlərin müzakirəyə çıxarılması Azərbaycan tərəfini qane edən məqamlardan idi. Həmin məsələlər bundan bir neçə gün sonra Bakıda və İrəvanda səfərdə olmuş ATƏT-in fəaliyyətdə olan sədrinin Azərbaycan və Ermənistan üzrə xüsusi nümayəndəsi Filipp Dimitrovla da ətraflı müzakirə edildi (125, 16 sentyabr 2004-cü il).

Bundan sonra dəfələrlə danışıqlar prosesini davam etdirməkdən yayınan Ermənistan rəsmiləri Praqada nəzərdən keçirilmiş məsələlər üzrə fikir mübadiləsini Minsk qrupu həmsədrlərinin iştirakı ilə Berlində (19 noyabr 2004) və Brüsseldə (9 dekabr 2004) davam etdirməyə məcbur oldular.

Bəzi dövlətlərin irəli sürdüyü «ümumi dövlət» təklifi və Rusiya ilə hərbi əməkdaşlığın vüsət almasına görə Ermənistanda yaranmış əhval-ruhiyə erməni tərəfində Azərbaycana qarşı öz şərtlərini diqtə etmək həvəsini bir az da gücləndirdi. Belə şəraitdə məsələnin sonsuzluğa qədər uzanacağından ehtiyat edən bəzi beynəlxalq təşkilatlar müxtəlif təşəbbüslərlə çıxış etməyə başladılar. AŞ PA-nın Siyasi Komitəsi Azərbaycana və Ermənistana çağırış ünvanlayaraq ATƏT-in himayəsi və səyi nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasının mümkünsüzlüyü mövcud olduğu təqdirdə məsələyə BMT-nin Beynəlxalq məhkəməsində baxılacağı barədə xəbərdarlıq etdi (125, 24 noyabr 2004-cü il).

İlham Əliyev öz çıxışlarında BMT TŞ-nin münaqişənin həllinə, sülhün əldə olunmasına kifayət qədər diqqət yetirməməsini vurğulayır, işğal altında qalan ərazilərdə transmilli cinayətkarlığın güclənməsini, bəşəriyyət üçün yeni təhlükə mənbəyinə çevrilməsini diqqətə çatdırdı. Problemin nizamlanması istiqamətində Dünya birliyinin nümayiş etdirdiyi soyuqqanlılığın sabah onları daha böyük təhlükələrlə qarşı-qarşıya qoyacağını anlatdı. İlham Əliyev BMT Baş Assambleyasının





59-cu sessiyasındakı çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Azərbaycanın mövqeyini bir daha açıqladı, TŞ-nin fəaliyyətinə iradlarını bildirdi və qeyd etdi ki, «Beynəlxalq qurumun bir çox hallarda problemə qeyri-konstruktiv münasibəti münaqişənin aradan qaldırılmasına, sülhün əldə olunmasına deyil, əksinə, Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları irəli sürməsinə, ümumilikdə regionda vəziyyətin daha da gərginləşməsinə zəmin yaradır. Belə ki, Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunduğu gündən etibarən dünya birliyi ölkələrini Ermənistanın yeritdiyi işğalçılıq, soyqırımı və etnik təmizləmə siyasətinin qarşısını almağa, dövlətimizin beynəlxalq hüquq normalarına əsasən təsbit olunmuş hüquqlarının, məcburən daimi yaşayış yerlərini tərk etmiş vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsində konstruktiv mövqe tutmağa çağırsa da beynəlxalq qurumların fəaliyyətsizliyi üzündən heç bir nəticə alınmamışdır. Halbuki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünün, onun dövlət sərhədlərinin pozulmasının yolverilməz olduğu açıq göstərilmişdir» (10, 25 sentyabr 2004-cü il).

İlham Əliyevin dünyanın mötəbər kürsülərindən cəsarətlə «Aydın məsələdir ki, BMT-nin Təhlükəsizlik Şurasının, ATƏT-in və onun Minsk qrupunun problemə passiv və laqeyd münasibət göstərdiyi şəraitdə Ermənistan işğalçılıq əməllərindən və destruktiv mövqeyindən əl çəkməyəcəkdir» deməsi yüksək siyasi iradənin nümayişidir.

2005-ci il yanvarın 3-də İlham Əliyev BMT TŞ-nin iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması sahəsində proseslərin əlverişli istiqamətdə getməsinə nail olunduğunu və bu problemin Praqa prosesi əsasında həllində «yeni mərhələlərin» başlandığını bəyan etmişdir (125, 4 yanvar 2005-ci il). Bölgəyə növbəti səfər edən ATƏT-in Minsk qrupunun həmsədrlərinə Avropanın 4

dövlətindən – Almaniya, Italiya, Isveçrə və Finlandiyadan olan eкspert, siyasətçi və diplomatların da qoşulması münaqişənin nizama salınması sahəsində irəliləyişin olduğunu göstərir.

Xarici Işlər nazirləri E.Məmmədyarov və V.Osкanyanın 2005-ci il yanvarın 11-də Praqa görüşündən sonra Strasburqda AŞ PA-nın Siyasi Komitəsində qurumun Dağlıq Qarabağ üzrə məruzəçisi Devid Atкinsonun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin real nəticələrinin obyeкtiv əкs etdirən hesabatı dinlənildi. Hesabatda Ermənistanın işğalçı dövlət кimi tanınması məsələsinə bir daha toxunuldu. O, beynəlxalq təşкilatların və ayrı-ayrı dövlətlərin iqtisadi inкişaf və inteqrasiya yolunda tıxac кimi duran Dağlıq Qarabağ probleminin birdəfəliк ədalətli həlli istiqamətində beynəlxalq təşкilatlara, конкret olaraq ATƏT-in Minsк qrupuna səmərəli кöməк etməк əzmində olduğunu bildirdi.

Praqa prosesinin nəticələrinə beynəlxalq ictimaiyyətin niкbinliкlə baxmasının əsasını təşкil edən Dağlıq Qarabağ probleminin mərhələli həlli variantının dövlət başçısıları səviyyəsində müzaкirəsinin başlanması (Varşava görüşü), Minsк qrupu həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin, habelə münaqişə üzrə prezidentlərin xüsusi nümayəndələrinin ardıcıl danışıqlar aparması mühüm mərhələ oldu. ABŞ dövlət кatibi Pauell Azərbaycan Xarici Işlər Naziri E.Məmmədyarova göndərdiyi cavab məкtubunda yazırdı: «Birləşmiş Ştatlar münaqişənin sülh yolu ilə həllinə sadiqdir və bu məqsədlə ATƏT-in Minsк qrupu çərçivəsində və daha geniş diplomatiк səviyyədə fəal işimizi davam etdirəcəyiк» (10, 18 yanvar 2005-ci il). Rusiya XIN-nin mətbuat və informasiya departamentinin bu proseslə bağlı yaydığı məlumat isə əvvəlкi dövrlərdə olduğundan daha конкret məqamları əкs etdirirdi: «Azərbaycan və Ermənistan təmsilçiləri beynəlxalq egida altında кeçən məsləhətləşmələr zamanı Qarabağ münaşiqəsi ilə bağlı yaranmış vəziyyətin bütün aspeкtlərini nəzərdən кeçirir. Onların sırasında qoşunların çıxarılması, ərazilərin silahsızlaşdırılması, beynəlxalq təminat, Dağlıq Qarabağın statusu və digər məsələlər var. Hər iкi tərəf Cənubi Qafqaz regionunda gərginliyin azaldılması istiqamətində səylər göstərməкdə maraqlı olduğunu nümayiş etdirir». Rusiyanın bu fiкirləri münaqişənin həllinə bir növ yaxın mövqedən yanaşıldığını göstərir (125, 16 yanvar 2005-ci il).





Azərbaycan Respubliкası Prezidentinin apardığı siyasi mübarizəyə əsaslanan Azərbaycan diplomatiyası ölкə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında daha da fəallaşdı. Bu diplomatiк fəallıq ardıcıl və sistemli fəaliyyətin həyata кeçirilməsi ilə müşayiət olunmağa başladı. Ermənistanın beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymayan işğalçı dövlət olması faкtı bir çox dünya dövlətləri tərəfindən qəbul edildi. Bu da münaqişə barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında çox mühüm amil кimi özünü göstərdi, Ermənistanın siyasi mövqelərinin sarsılmasına zəmin yaratdı. Minsк qrupunun son illərdə öz fəaliyyətini xeyli dərəcədə gücləndirməsi dünyanın ən aparıcı beynəlxalq təşкilatlarının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə daha çox diqqət ayırması bunu əyani şəкildə sübut etdi. Avropa Şurası, Avropa Birliyi, IKT кimi nüfuzlu beynəlxalq qurumlar, habelə münaqişə ilə bağlı 4 qətnamə qəbul etmiş BMT-nin problemin həllində ərazi toxunulmazlığı prinsipini önə çəкməsi Respubliкamızı beynəlxalq əməкdaşlıq mərкəzinə çevirdi. ABŞ-ın münaqişənin bu prinsip əsasında həllinə tərəfdar olması problemin həlli istiqamətində əhəmiyyətli nəticə oldu. Ermənistanın münaqişənin «Praqa prosesi», yəni «mərhələli həlli» modeli ilə razılaşmaq məcburiyyətində qalması Azərbaycan höкumətinin siyasi arenada nailiyyətlərindəndir.

Təsadüfi deyil кi, bütövlüкdə 2006-cı il Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycan tərəfinin fiкirləri xarici dövlətlər üçün daha prioritet oldu. Qondar-

ma Dağlıq Qarabağ respublikasında keçirilmiş referendumun beynəlxalq təşkilatlar tərəfindən tanınmaması, BMT-nın Baş Assambleyasında Azərbaycan torpaqlarının işğal edilməsi faktının sənədlərdə əksini tapması, Azərbaycanın Qarabağ bölgəsində ermənilər tərəfindən törədilmiş yanğınlar haqqında sənədlərin ATƏT-də qəbul edilməsi və bu quruma daxil olan dövlətlərə göndərilməsi üçün qərarın qəbul edilməsi müsbət hal kimi qiymətləndirilməlidir.

İlham Əliyevin dünyanın bir sıra söz sahibi olan dövlətlərinə rəsmi səfərləri və yürütdüyü uğurlu xarici siyasət nəticəsində BMT TŞ-nin üzvlərinin hamısı Azərbaycanın ərazi bütövlüyünün tanınmasına tərəfdar olduqlarını bildirdi. Hətta 2006-cı ilin dekabrında ABŞ prezidenti Corc Buş Azərbaycan hökumətinin Dağlıq Qarabağ münaqişəsinə dair siyasi xəttini bəyəndiyini bildirirdi.

Ermənistanın konstruktiv möqe nümayiş etdirmək, münaqişənin həllinə təşəbbüs göstərmək əvəzinə Azərbaycan əleyhinə dünyanın istənilən yerində güclü təbliğat apardığı, böhtan, yalanlar yağdırdığı və tarixi təhrif edərək Azərbaycan xalqını ləkələmək istədiyi bir zamanda Azərbaycan dövlətinin başçısı haqlı olaraq onlara tarixi proseslərin bəzi məqamlarını xatırlatdı və kəskin münasibət bildirdi: O, Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunda (2007-ci il 9 mart) demişdir: «Ermənistan on ildən artıqdır ki, Azərbaycan torpaqlarım işğal edib, indi Azərbaycanı işğal siyasətində ittiham edir. Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki, sürə bilərik. Çünki inidiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır. Əgər onlar öz xalqının gələcəyi haqqında düşünürlərsə, öz siyasətində dəyişiklik etməlidirlər. Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıx-





malıdırlar və Türkiyəyə qarşı əsassız ittihamlardan əl çəkməlidirlər. Əks təqdirdə, Ermənistanın özünün müqəddəratı sual altına düşə bilər. Azərbaycan heç vaxt Dağlıq Qarabağın itirilməsinə razılıq verməyəcək, nəyin bahasına olursa-olsun, doğma torpaqlarını azad edəcək, ərazi bütövlüyünü bərpa edəcək. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər oraya XIX əsrin əvvəllərində köçürülmüşlər. Bir dəfə Azərbaycan, türk torpağında erməni dövləti yaradılıb, burada ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt imkan verməriк».

Bunun ardınca Azərbaycan prezidentinin öz çıxışında «Biz uzun illər ərzində danışıqlar yolu ilə çalışırıq ki, məsələni həll edək. Amma, hələ ki, buna müvəffəq olmamışıq. Biz öz siyasətimizi aparacağıq. Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü bərpa ediləcəkdir» deməsi bu prosesin ölkəmizin xeyrinə irəliləməsinin perspektivliliyini göstərdi» (10, 10 mart 2007-ci il).

Azərbaycanın mövqeyinin beynəlxalq hüquq normalarına əsaslanan və tam şəkildə bütün dünya birliyi tərəfindən, həm beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli münasibətlərdə dəstəklənən siyasət yürüdən Azərbaycan Prezidenti Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş mərasimində (2007-ci il 22 iyun) demişdir: «Son dövrlərin siyasi təhlili göstərir ki, Azərbaycan Dövlətinin hər bir ölkə ilə imzaladığı sənəddə Azərbaycanın ərazi bütövlüyünün tanınması və dəstəklənməsi onu göstərir ki, bütün beynəlxalq ictimaiyyət, dünyanın siyasi elitası bu məsələnin Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həll edilməsini mümkün sayır». Azərbaycan Prezidenti bir daha dedi: «Heç vaxt Azərbaycanın ərazi bütövlüyü pozula bilməz. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Əgər dünya birliyi 1990-cı illərin ortalarında - o vaxt Azərbaycan iqtisadi və siyasi cəhətdən o qədər də güclü deyildi - Dağlıq Qarabağın

müstəqilliyini tanımayıbsa, bugünкü vəziyyətdə Azərbaycanın güclü dövlət olduğu bir dövrdə heç də bunu tanımayacaqdır». Bununla da danışıqların uzun illərdir getməsini, ciddi irəliləyişin görünmədiyini, Ermənistanın qeyri-səmimi, qeyri-конstruкtiv siyasəti nəticəsində razılaşmaya nail olunmadığını bildirdi. Eyni zamanda bunu artıq bütün dünya ictimaiyyətinin və bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsк qrupunun həmsədrlərinin də gördüyünü bildirdi və danışıqların nəticələrinin uğursuz olmasının əsas səbəbinin açıqlanmamasına eyham vurdu (10, 23 iyun 2007-ci il).

İlham Əliyev Dünya azərbaycanlılarının həmrəyliyi günü və yeni il münasibətilə Azərbaycan xalqına təbrikində (2007-ci il 31 dekabr) demişdir: "Biz öz ərazi bütövlüyümüzü heç vaxt güzəştə getməyəcəyiк. Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, Dağlıq Qarabağa heç vaxt müstəqilliк verilməyəcəкdir. Azərbaycan rəhbərliyi və Azərbaycan xalqı heç vaxt bununla razı olmayacaqdır. Beynəlxalq ictimaiyyət isə Dağlıq Qarabağın müstəqilliyini heç vaxt tanımayacaqdır. Biz danışıqları bu istiqamətdə aparırıq. Sizə deyə bilərəm кi, danışıqların əsas mahiyyəti ondan ibarətdir кi, Azərbaycanın zəbt olunmuş bütün torpaqları işğalçılardan azad edilsin, Azərbaycan vətəndaşları – məcburi кöçкünlər həmin torpaqlara qayıtsınlar, o cümlədən də Dağlıq Qarabağa qayıtsınlar. Bu, bizim prinsipial mövqeyimizdir və bu mövqedən bir addım da кənara çıxmayacağıq. Ermənistan bunu nə qədər tez başa düşsə, onlar üçün bir o qədər yaxşıdır. Biz heç vaxt imкan verə bilmərik кi, Azərbaycan torpağında iкinci erməni dövləti yaradılsın». Bunun ardınca daha кəsкin şəкildə «Əgər Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratlarını həll etməк istəyirlərsə, onu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etsinlər, yaxud da əgər bunu istəmirlərsə, onda Dağlıq Qarabağdan çıxıb başqa yerdə özləri üçün iкinci dövlət yaratsınlar. Hər halda, Azərbaycan torpağında iкinci erməni dövlətinin





yaradılması qeyri-mümкündür» mesajını verdi (10, 3 yanvar 2008-ci il).

İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində nəinкi, tutduğu mövqedən bir an belə geri çəкilmədi, hətta hücum diplomatiyasına rəvac verdi və hərtərəfli mübarizəyə başlamağa çağırdı. Prezident diplomatlarla görüşdə dediyi «Biz müdafiədən hücuma кeçməliyiк» fiкri ermənilərin biz Dağlıq Qarabağ problemini indiкi reallıqla razılaşmaqla həll etməliyiк tezisinə tutarlı cavab oldu. Azərbaycan Prezidentinin Türкiyədəкi çıxışı bir daha göstərdi кi, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq qüvvələrin müsbət rəyinə etibar etsəк belə, yenə də bu problemin həllində iкi qardaş dövlətin məsuliyyəti ön planda olmalıdır. Prezident türк dövlətləri və cəmiyyətlərinin toplantısında Ermənistanın Türкiyə və Azərbaycana qarşı informasiya müharibəsinə qarşı güclü informasiya hücumuna кeçməyi tövsiyə etdi. Azərbaycan Prezidenti öz çıxışında vurğuladı кi, «Azərbaycanın işğal olunmuş torpaqları, Türкiyəyə qarşı əsassız ittihamlar, qondarma soyqırımının tanıdılması cəhdləri – bütün bunlar bizim xalqımıza qarşı yönəldilən əməllərdir. Soyqırımını törədən vəhşilər bizi soyqırımda ittiham edirlər və bəzi hallarda uğur gətirir. Bir çox hallarda xarici ölкələrin onlar tərəfindən pulla, rüşvətlə ələ alınmış riyaкar siyasətçiləri onların səsinə səs verirlər. Bu, ədalətsizliyin zirvəsidir. Bu, mənəviyyatsızlığın zirvəsidir. Biz buna qarşı mübarizə aparmalıyıq, aparmalıyıq, aparmalıyıq! ... Biz güclənməliyiк, hərtərəfli – hərbi, iqtisadi, siyasi cəhətdən, bütün cəhətlərdən və birgə fəaliyyət göstərməliyiк!» (10, 10 mart 2007-ci il).

2007-ci il iyunun 25-də Istanbulda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölкələrin dövlət və hökumət başçılarının qurumun 15 illiyinə həsr edilmiş zirvə görüşündəкi çıxışında münaqişənin həllinin səbəblərinə toxunan Azərbaycan Prezidenti vurğulayırdı: «Məsələnin həll olunmaması

bölgədə gərginliyin artmasına gətirib çıxarır. Bölgədə sülh bərqərar olunmur. Müvəqqəti atəşkəs mövcuddur, o da ki, çox həssasdır. Mən düşünürəm ki, Ermənistan da başa düşməlidir ki, biz artıq orta əsrlərdə yox, XXI əsrdə yaşayırıq və XXI əsrin əlamətləri hər bir ölkə üçün əsas olmalıdır. Biz istəyirik ki, bölgədə sülh olsun. Biz istəyirik ki, beynəlxalq hüquq normaları təmin edilsin. Hər bir işğalçı bilməlidir ki, bu işğalın sonu olmayacaqdır. Bu işğalın sonu ya sülh müqaviləsidir, ya da qaçılmaz məğlubiyyətdir. Mən bu fürsətdən istifadə edib dövlət və hökumət başçılarının diqqətini bir daha bu məsələyə çəkmək istəyirəm. Çünki bu məsələnin həll olunmaması həm bizim üçün, həm bütün region üçün, həm də regionda yaranan və güclənən əməkdaşlıq üçün çox böyük təhlükə mənbəyidir» (10, 26 iyun 2007-ci il). Çıxışında məsələnin yalnız və yalnız beynəlxalq hüquq əsasında öz həllini tapa biləcəyini deyən Prezident Dağlıq Qarabağın gələcək statusu məsələsinə də toxundu, dünyada, o cümlədən Avropada kifayət qədər müsbət muxtariyyət nümunələri olduğuna işarə etdi: «Əgər hər bir milli azlıq yaşadığı ölkədə öz müqəddəratını həll etmək istəyərsə, təsəvvür etmək çətin deyil ki, dünyada nə qədər yeni dövlətlər yaranacaqdır. Azlıq olmaq o demək deyildir ki, yaşadığı ölkənin bir hissəsini qoparıb başqa ölkəyə birləşdirmək mümkün olsun. Bu, qətiyyən belə deyil və beynəlxalq hüquq normaları və sadəcə olaraq, normal davranış qaydaları buna yol vermir. Mən ümid edirəm ki, gələcəkdə məsələlərin həlli və bütövlükdə həll olunmamış münaqişələrin həlli öz yerini tutacaq və bölgəyə əmin-amanlıq, uzunmüddətli sülh və əməkdaşlıq gələcəkdir» (10, 26 iyun 2007-ci il).

Ilham Əliyev 2007-ci il noyabrın 9-da Prezident sarayında Amerika-Israil Ictimai Məsələlər Komitəsinin nümayəndə heyətini qəbul edən zaman söylədiyi nitqində demişdir: «Ölkəmiz nəinki bizim üçün, o cümlədən bütün region üçün ən böyük təhlükə olan və gələcək uğurlu inkişafımıza əngəl





törədən bir problemlə hələ də üzləşməkdədir. ... Vəziyyət bu cür davam edə bilməz. Azərbaycan öz tarixi ərazisinin, Dağlıq Qarabağın ondan ayrılmasına heç vaxt razılıq verməyəcəkdir» (10, 10 noyabr 2007-ci il).

Ilham Əliyev 2007-ci il dekabrın 19-da Prezident sarayında Moldavanın «Kanal-4» televiziyasına müsahibə verərkən müxbirin «Qarşınızda çox kəskin şəkildə duran Qarabağ probleminin həlli məsələsində Avropa Ittifaqından dəstək gözləyirsinizmi və əgər gözləyirsinizsə, bu dəstək nədən ibarət olmalıdır?» sualına cavabında demişdir: «Bu gün biz münaqişənin həlli məsələsində bütün dünya birliyi tərəfindən tam siyasi dəstək alırıq. Dünya birliyi, o cümlədən Avropa Ittifaqı və bilavasitə tənzimləmə ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri – Rusiya, Fransa, ABŞ bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə birmənalı şəkildə tərəfdar olduqlarını bildirir. Azərbaycanın ərazi bütövlüyü bütün dünya birliyi tərəfindən, BMT tərəfindən tanınmışdır və bu məsələ bizim apardığımız danışıqların mövzusu deyildir. Bu mənada biz Avropa Ittifaqı tərəfindən də siyasi və mənəvi dəstək alırıq. Bu, yeni qonşuluq siyasəti barədə Avropa Ittifaqı ilə imzaladığımız sənəddə öz əksini tapmışdır. Bu başqa məsələdir ki, hələlik bu dəstək tənzimləmə üçün zəruri tədbirlərin, daha dəqiq desək, Ermənistan dövləti tərəfindən Azərbaycana qarşı aparılmış etnik təmizləmənin nəticələrinin aradan qaldırılması, bütün qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və beləliklə, münaqişənin tənzimlənməsi tədbirlərinin praktik şəkildə həyata keçirilməsinə çevrilməmişdir. Görünür, burada xalis siyasi, diplomatik bəyanatlar kifayət deyildir. Təəssüf ki, təcavüzkar dövlət olan Ermənistan iyirmi birinci əsrdə özünü orta əsrlər dövrünün deyil, iyirmi birinci əsrin reallıqlarına uyğun şəkildə aparmaq barədə dünya birliyinin çağırışlarına hələlik məhəl qoymur. Təəssüf ki, ermənilərin bu məsələyə yanaşmasında məhz orta

əsrlər üçün səciyyəvi olan münasibət müşahidə olunur. Bu, qeyri-müəyyənliyə aparan yoldur, onlar heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına nail ola bilməyəcəklər. Dünya birliyi heç vaxt Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayacaqdır və Azərbaycan heç vaxt buna razılıq verməyəcəkdir. Münaqişənin həlli yolları üzdədir, bu yollar bütün ölkələr üçün, o cümlədən Moldova üçün də eynidir. Bizim üzləşdiyimiz problemlər təcavüzkar separatizmdir. Dağlıq Qarabağ, Dnestryanı bölgə, Abxaziya, Cənubi Osetiya problemlərinin kökləri eyni, səbəbləri eyni və təəssüf ki, nəticələr də eynidir. Buna görə də onlar məhz beynəlxalq hüquq prinsipləri əsasında həll olunmalıdır. Ümidvaram ki, Ermənistanda sağlam düşüncə üstün gələcək və ermənilər yaranmış vəziyyətdən, beynəlxalq praktikanın reallıqlarından və regionda qüvvələr nisbətinin dəyişməsi reallıqlarından düzgün nəticə çıxaracaqlar» (10, 20 dekabr 2007-ci il). Lakin erməni tərəfi Azərbaycan diplomatiyasının nümayiş etdirdiyi qətiyyətə cavab kimi işğal olunmuş ərazilərdə komanda-qərargah hərbi təlimlər keçirməklə, 2008-ci il avqustun 8-də isə Dağlıq Qarabağda yerli özünüidarəetmə orqanlarına qondarma seçkiləri keçirməklə BMT-nin, ATƏT-in qərar və qətnamələrini bir daha ayaq altda qoymuş oldu. Bununla əlaqədar, problemin həlli ilə məşğul olan beynəlxalq təşkilatlara və dünya dövlətlərinə Yeni Azərbaycan hakim partiyasının müraciətində deyilirdi ki, belə fitnəkar hərəkətlər «Ermənistan tərəfinin beynəlxalq təşkilatlarının, o cümlədən Avropa Şurasının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair qəbul etdiyi sənədlərə və çağırışlara məhəl qoymadığını bir daha göstərməklə münaqişə regionunda vəziyyəti daha da mürəkkəbləşdirir, danışıqlar prosesinə ağır zərbə vurur» (125, 6 avqust 2008-ci il).

Son dövrlərdə BMT-nin iradəsini ifadə edən ATƏT-in fəaliyyətindəki yenilikləri Minisk qrupunun təşəbbüsü ilə 2007-ci il Madrid danışıqları, 2008-ci il noyabrın 2-də Moskva





bəyannaməsinin baza prinsiplərini özündə ehtiva edən sənədin qəbul edilməsi Azərbaycan Respublikasının xarici siyəsətinin uğurlu göstəricisi kimi qiymətləndirilməli və Prezident İlham Əliyevin xarici siyasətin uğuru hesab edilməlidir (437; 472).

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük qətiyyətlə həyata keçirdiyi xarici siyasət kursu xalqımızın milli maraqlarına tam cavab verir. Respublikamızın beynəlxalq aləmdə daha da tanınmasına, sülh, əməkdaşlıq və tərəqqi mərkəzinə çevrilməsinə xidmət edir. Azərbaycanın malik olduğu iqtisadi potensial, dövlət rəhbərinin həyata keçirdiyi kompleks islahatlar kursunun milli maraq və mənafelərimizi daha etibarlı səviyyədə təmin etməsi, bir sözlə, Azərbaycanın sürətli inkişafı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində uğurlu nəticə əldə edilməsinə, problemin sülh yolu ilə, BMT nizamnaməsinə, ATƏT-in əsas prinsip və qərarlarına, beynəlxalq hüquq normalarına uyğun şəkildə, Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həll edilməsinə böyük inam yaradır.

# III FƏSİL

# ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ REGIONAL GÜC MƏRKƏZLƏRİ İLƏ MÜNASİBƏTLƏRDƏ

## 3.1. Rusiya Federasiyası

XX əsrin əvvəllərindən etibarən soyuq müharibə dövrünün sonlarınadək beynəlxalq geosiyasi səhnə iki böyük güc – ABŞ və SSRİ arasında dünyadakı strateji ehtiyatlara və dövlətlərə nəzarət uğrunda gedən qlobal rəqabət meydanına çevrilmişdi (238). Bu dövrdə dünya xəritəsi iki böyük geostrateji vahidə bölünmüşdü. Bunlardan birinə ABŞ, digərinə isə SSRI nəzarət edirdi. Lakin SSRİ-nin dağılmasından sonra Moskva öz geostrateji meydanını itirdi və ABŞ-ın «Yeni Orta Şərq» geosiyasi bazisi məkanına birləşdi (269, 269).

Xəzər neftinin ABŞ-a çatdırılması Vaşinqton rəhbərliyini çox maraqlandırırdı (63). SSRI-nin dağılmasından sonra qalan coğrafi məkanda öz mövqeyini qoruyub saxlamağa çalışan Rusiyanın isə Qafqaz, Balkanlar və Orta Şərqi əhatə edən bu yeni geosiyasi bölgənin heç olmasa bir hissəsində öz təsir gücünü davam etdirmə səyləri (458; 459; 460) Şimali Qafqazda yaradılan münaqişələr nəticəsində xeyli dərəcədə zəiflədi (306). Rusiyanın bölgə üzərindəki təsir gücünü artırmaq üçün ABŞ və onun müttəfiqlərinə qarşı Iranla birgə fəaliyyət göstərmək cəhdləri isə ona bu məsələdə arzu etdiyi qədər kömək etmədi.

ABŞ Rusiya və Iranın bölgədəki təsirini ən aşağı səviyyəyə salmağa çalışmaqla yanaşı, Rusiya, Çin və Fransanın bölgəyə marağının artmağa başlamasından narahat olurdu. Bu





rəqabətdən isə Ankara yararlanırdı. Vaşinqtonun bölgədəki siyasəti baxımından da Türkiyə onun üçün rəqib yox, hər hansı bir məsələdə güzəştə gedilərək müttəfiqliyi əldə edilə bilinəcək bir ölkədir (278).

Avropa Birliyində bu sahədə ortaq bir xarici siyasət yoxdur. Ingiltərə kimi bəzi ölkələr ABŞ-la müttəfiqliyi sayəsində bölgədə hökmranlıqlarını davam etdirə bilirlər. Almaniya isə bu yönümdə gərgin səylər göstərir və bunun Türkiyəsiz mümkün olmayacağını anlayır. Almaniyanın müdafiə naziri Şarpinqin Türkiyənin bir sıra Xəzəryanı, Yaxın Şərq və Balkan ölkələrində sabitliyin əldə olunmasında önəmli rol oynadığını qəbul etməsi Almaniyanın Yaxın Şərq geosiyasi bölgəsində mövqeyə malik olmaq arzusunu göstərirdi. Lakin, Almaniya yenə də gecikmişdir (269, 269-270).

ABŞ Xarici Işlər Naziri Ceyms Beyker 1990-cı ilin avqustunda Körfəz məsələsi ilə bağlı «Nyu-Yorк Tayms»a (30 avqust 1990-cı il) verdiyi müsahibəsində bildirmişdi ki, əsas məsələ Amerikanın mənafeyi üçün həyati önəm daşıyan neftdir.

Körfəzdən sonra növbə Xəzər hövzəsi enerji ehtiyatlarının bölüşdürülməsinə çatdı. Buradakı neft və təbii qaz yataqlarının bölüşdürülməsi üçün gərgin regional və beynəlxalq rəqabət başlandı. Bu rəqabətdə ABŞ-ın əsas rəqibi bölgədə ən güclü təsirə malik olan Rusiya Qafqazda etnik qrupları bir-birinə qarşı qoymaqla bölgəni nəzarət altında saxlamağa çalışsa da, əksinə, onların radikal çıxışları ilə qarşılaşdı (63).

1994-1996-cı illərdə Çeçenistanla apardığı müharibəni dayandırmağa məcbur olan Rusiya Dağıstanı qarışdırmağa çalışan Basayev tərəfdarlarının və bir qrup vəhabinin şəriət dövləti qurmaq cəhdlərinə qarşı mübarizə aparmağa çalışdı. Vəhabilərə Səudiyyə Ərəbistanı dövləti tərəfindən dəstək verilməsi faktı danılmazdır. Həmin dövlətin rəhbərliyinin və ya onların tərəfdarlarının bu dəstəyi vermək məsələsində təkba-

şına qərar çıxardıqlarını demək olmaz. Səudiyyə Ərəbistanı hökumətinin London ilə yaxın əlaqələrinin olması bunun arxasında Vaşinqtona qədər gedib çıxan bir əlaqənin olduğunu düşünməyə əsas verir.

Xəzər dənizində uzun bir sərhəd xəttinə və Azərbaycan neftinin Rusiyaya çatdırılmasında önəmli məkana malik olan Dağıstanın Rusiya üçün nə qədər önəmli olması məlumdur. Bəzi dairələrdə Çeçenistan yolunu itirən Rusiyanın bundan nəticə çıxarması və Dağıstan yolunu da təhlükə altında qoymaması barədə xəbərdarlıqlar edilirdi (63; 460; 369). Eyni zamanda, Rusiyanın bölgədəki təbii müttəfiqi olan İranın başı isə öz daxili problemləri və Türkiyə ilə qarışdırılırdı.

ABŞ hökuməti neft boru xətləri məsələsində bir ölkədən asılı qalmamaq üçün bir neçə alternativ variantı araşdırmağa başladı. Bunların arasında Türkiyə, İran, Qara dəniz sahilləri də var idi. Neft şirkətləri tərəfindən bunlardan hansına üstünlük veriləcəyinə baxmayaraq, Vaşinqton öz milli mənafelərinə, regional və beynəlxalq strateji hesablarına uyğun olanla əlaqələr yaratmağı düşünürdü. Konsorsiumun ilk rəhbəri olan Dr.Terri Adamsın bildirdiyinə görə, bir neçə variantın eyni vaxtda həyata keçirilməsi «Qərb»in xeyrinə idi (490, 18-19).

Təxminən 140 milyon barell neft ehtiyatı və təxminən 360 trilyon kub metrlik təbii qaz ehtiyatı olan Xəzər hövzəsi dünyada neftin qiymətləri yüksəldiyinə görə beynəlxalq sərmayənin diqqətini cəlb edirdi (269, 271). Rusiya xətti tez-tez baş verən münaqişələr, anlaşılmazlıqlar səbəbindən əlverişli olmadığından Azərbaycan hökuməti neftin Gürcüstan ərazisindən Qara dənizə daşınmasına başlamaq üçün imkanları götür-qoy etdi. Vaşinqtonun məqsədi isə bölgə neftini qısa bir vaxtda beynəlxalq bazara çıxarmaq deyil, bu enerji yataqlarının ABŞ-ın dünya hegemonluğunu təhdid edə biləcək ölkələrin əlinə keçməsinə mane olmaq idi.





Təxminən 2 milyon dollar məbləğində maliyyə sərf olunması nəzərdə tutulan 1.250 mil uzunluğundakı Bakı-Ceyhan xətti üçün «Bechtel» və «Ceneral Electric» şirkətlərinin yaratdıqları konsorsium inşa planı hazırladı. Ən vacib təbii bazarlardan biri kimi səciyyələndirilən Türkiyə də hökumət enerji yatırımlarında beynəlxalq sərmayənin tələb etdiyi hüququ tənzimləmələri yaradaraq boru xəttinin tikilməsini üzərinə götürən firmaların etirazları qarşılığında maneələri aradan qaldırmışdır. Bütün baxımlardan əhəmiyyətli olan Xəzər hövzəsi enerji ehtiyatlarının beynəlxalq hegemonluq yarışındakı əhəmiyyətini anlamadan bölgədə ən gözlənilməz zamanlarda problemlərin hansı səbəbdən ortaya çıxdığını anlamaq çətindir (269, 271).

Beləliklə, Qafqaz və Xəzəryanı bölgəni öz nəzarətində saxlamaq, beynəlxalq kapitalist sistemə inteqrasiya etmək üçün səy göstərən ABŞ və müttəfiqləri bu müddətdə ortaya çıxan çətinliklərə qarşı çıxa biləcək bölgənin ən əhəmiyyətli ölkələrindən biri olan Rusiyanı nəzarət altına salmağa çalışırdı. Vaşinqton inteqrasiya prosesinin önündə duran Rusiyanı bir maneə kimi aradan çıxarmaq üçün əvvəlcə bu ölkədə Qərb kapitalizmi ilə öz mənafelərini bərabər görən kapitalist təbəqə yaratmağa çalışırdı. Bütövlükdə keçmiş bürokratlardan istifadə edilən bu əməliyyatda böyük bir məsafə qət edildi. Bu yeni təbəqə sərmayə qoyuluşundan topladığı maliyyəni Qərbin paytaxt şəhərlərinə yönəltdi.

Bu dövrdə müttəfiqlər Şimali Qafqazdakı münaqişələrdən Moskvaya bir xəbərdarlıq kimi istifadə etməklə yanaşı, bütün diqqəti rus ordusunun bölgədə çətin vəziyyətə salınaraq ölkədəki əvvəlki təsirliliyinin zəiflədilməsinə yönəltməyi və bu cür bacarıqsız bir ordunun zərbə endirmək və keçmişdəki vəziyyətinə qayıtmaq cəhdlərinə hansısa formada mane olmağı düşünürdülər.

Bir çox dövlətlərin Moskvanın Qafqazdakı təsir dairəsini daraltmağa çalışması ilə yanaşı, onun Iran və Iraqla iqtisadi əlaqələri ABŞ-ın bölgəyə nəzarət etməsi ilə zəiflədildi. Ticarət sahəsində kifayət qədər böyük bir zərərə uğradılaraq güzəştə getməyə məcbur edildi (269, 272).

Rusiya Federasiyası hökuməti öz neft və təbii qaz istehsalına Qafqaz və Xəzər hövzəsindəki istehsal və daşımadan alacağı payı da qataraq dünya bazarına girmək və ölkə iqtisadiyyatını genişləndirməyi düşünərkən (440), ABŞ rəhbərliyi Xəzər neftini öz nəzarətində saxlamağa və beynəlxalq bazarlarda məlum plan daxilində yayılmasının təşkil edilməsinə çalışırdı. Xəzər neftinin ən önəmli rolu isə inkişaf etmiş iqtisadiyyatı Yaxın Şərq neftinin asılılığından qurtara biləcək və dolayısı ilə burada böhranların baş verəcəyi təqdirdə alternativ bir iqamətgah rolu oynaya biləcək potensiala malik olmasıdır (269, 272-273).

Xəzər hövzəsinin enerji ehtiyatlarını dünya bazarına çıxarmağın əsas istiqamətlərindən biri Çin, ikincisi Türkiyə idi. Bu yönümdə Rusiya və Iranın birgə fəaliyyət cəhdləri heç bir nəticə vermədi, bundan sonra ABŞ Iranla münasibətlərini inkişaf etdirməyə çalışaraq, xüsusilə Almaniya və Fransaya qarşı bölgədə yeni bir maliyyə rəqabətinə girdi (269, 273).

Bölgədəki enerji ehtiyatları üzərindəki regional və beynəlxalq rəqabət XXI əsrin geosiyasi enerji xəritəsini və bu rəqabətdə yer tutan böyük dövlətlər arasındakı hegemonluq məsələsinin istiqamətinin müəyyənləşməsinə səbəb olacaqdır.

Bu rəqabətlər şəbəkəsindən baxanda Rusiyanın Dağlıq Qarabağ problemilə bağlı siyasətinin həyata keçirilməsinin 4 mərhələsi üzə çıxır:

- Rusiyanın Dağlıq Qarabağ probleminin həllini təkrar öz əlinə almaq təşəbbüsləri dövrü (aprel 1993 – dekabr 1994);





- Rusiyanın problemin həlli uğrunda fəaliyyətini ATƏT-in Minsk qrupu çərçivəsində həyata keçirdiyi dövr (dekabr 1994 – dekabr 1996);
- Rusiyanın Minsk qrupundakı fəaliyyətini vurğulayaraq bunu Qərb dövlətlərinin, xüsusilə ABŞ ilə bölüşmə məcburiyyətində qaldığı dövr (dekabr 1996 – mart 1999);
- 1999-cu ilin martından sonrakı dövr. Bu, Rusiyanın Dağlıq Qarabağ probleminin həllində üstünlüyü öz əlinə alan ABŞ-ın münaqişəni həll etmək fəaliyyətinə mane olmaq üçün təşəbbüs göstərdiyi dövrdür (263, 295).

Münaqişənin başlandığı ilk dövrdən siyasi proseslərin içərisində olan Rusiyanın Dağlıq Qarabağla bağlı məqsədi problemin həll məsələsini öz əlində saxlamaq üçün ATƏT-in fəaliyyətinin qarşısını almaq (498), Minsk qrupuna həvalə edilmiş həll vəziyyətini geriyə qaytarmaq və bu problemdən istifadə edərək Azərbaycanda əvvəlki mövqeyinin bərpasına nail olmaq olmuşdur. Bu siyasət çərçivəsində Rusiyanın birinci addımı Dağlıq Qarabağ probleminin ATƏT-in Minsk qrupu çərçivəsində həllinə tərəfdar olan Azərbaycana öz təsir gücünün tükənmədiyini göstərmək idi. Bunu sübut etmək üçün RF hökuməti 4 aprel 1993-cü il Gəncə qiyamını və Ermənistan hərbi birləşmələrinin Azərbaycanın Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğalını təşkil etdi (263, 296).

Azərbaycanın dövlət başçısının xarici siyasət üzrə müşaviri Vəfa Quluzadə, Minsk qrupunun danışıqlarında bu işğalların səbəbini soruşarkən, erməni təmsilçisi «Dağlıq Qarabağ ətrafında bir növ (əraziləri işğal edərək) təhlükəsizlik qurşağı yaratmaq ideyasını ruslar irəli atıb və Azərbaycan ərazilərinin işğalı onların yardımı ilə həyata keçirilib» demişdir (161, 107).

1993-cü il 17 apreldən etibarən Rusiya vasitəçilik məqsədilə tərəflər arasında atəşkəs əldə etmək üçün təşəbbüs göstərməyə başlamışdır. Bu dövrdə Ermənistanın hücumları davam edən zaman 1993-cü il 15 apreldə başlayan Minsk qrupu

danışıqları oktyabr 1993-cü ilin sonuna qədər davam etmiş, nəhayət, heç bir nəticə əldə edilməmişdir. Bu zaman paralel danışıqlar aparan Rusiya, vəziyyətdən istifadə edərək təşəbbüsü ələ keçirmiş, özünün vasitəçiliyi ilə 4-5 may 1994-cü ildə Bişkekdə görüşən Azərbaycan və Ermənistan parlament rəhbərləri və Dağlıq Qarabağdakı erməni və azərbaycanlı icmalarının təmsilçiləri tərəfindən Bişkek Atəşkəs protokolu imzalanmışdı. Həmin protokola uyğun olaraq 9 may Azərbaycan və Ermənistan Müdafiə Nazirlikləri və Dağlıq Qarabağdakı separatçı ermənilər arasında atəşkəs anlaşması imzalanmış və 12 may 1994-cü ildə atəşkəs əldə edilmişdir (509). Rusiya təmsilçisi V.Kazimirovun bu atəşkəsin 3 aylıq müddət üçün əldə edilməsi və bu müddətin tərəflərin təkrarən Rusiyanın vasitəçiliyi ilə həlli istiqamətində təklifi qəbul edilmədi. Çünki Kazimirovun təklifi Rusiyanın Qarabağ problemindəki düyünü möhkəmlətmək təşəbbüsündən başqa bir şey deyildi (161, 108).

Atəşkəsə dair saziş imzalandıqdan sonra, V.Kazimirov aprel və iyul aylarında tez-tez Bakı, İrəvan və Xankəndinə səfərlər edərək görüşlər keçirirdi.

1994-cü ilin iyulunda təşəbbüsün Rusiyanm əlinə keçməsi və ATƏT-lə Rusiya arasında problemin həlli üçün vasitəçilik məsələsində rəqabətin yaranmasına səbəb olmuşdu (512). Rusiyanın problemin həllindəki təşəbbüsünün və təkbaşına sülhməramlı qüvvə göndərməsinin qarşısını almaq üçün ATƏT-in Səlayiyyətli Məmurlar Komitəsi 1994-cü il 16 iyulda münaqişə bölgəsinə yerləşdiriləcək sülhməramlı qüvvələrin çoxölkəli olmasının vacibliyi məsələsinə dair qərar qəbul etdi (263, 298). Qərarda bir dövlətdən bölgəyə gedəcək sülhməramlı qüvvələrin say həddi müəyyənləşdirilirdi. Bu hədd ümumi sülhməramlıların sayının 30 faizindən çox ola bilməzdi. Həmçinin vasitəçilik fəaliyyətində rəqabətə davam gətirmək və danışıqları bir mərkəzdə toplamaq üçün 1994-cü ilin dekabrında ATƏT-in Budapeşt Zirvə Toplantısında bir sədrli Minsk





qrupu daxilində ikili həmsədrlik sistemi yaratmışdı (513). ATƏT-in Budapeşt Zirvə Toplantısında Minsk qrupu daxilində daimi həmsədrlik statusu NATO və Rusiyanın birgə sülhməramlı qüvvələrinin yaradılması və bu qüvvələrin Dağlıq Qarabağa yerləşdirilməsi qərara alınmışdı. Bununla da ATƏT Rusiyaya Minsk qrupu daimi həmsədrlik vəzifəsini verərək problemin həllinin ATƏT çərçivəsindən çıxmasına və Rusiyanın himayəsinə keçməsinin qarşısını almağa çalışdı və ala bildi.

1995-ci ilin fevralında münaqişəni həll etmək üçün danışıqlar yenidən Minsk qrupu çərçivəsində Moskvada ikili həmsədrlik sistemi ilə davam etdirildi. Rusiyanın danışıqlarda daimi həmsədrlik statusunda iştirak etməsi, vaxtaşırı olaraq dəyişən digər həmsədrlərin Qafqazda strateji mənafeləri olmayan İsveçdən və 1995-ci ilin aprelindən etibarən Finlandiyadan olması Minsk qrupu çərçivəsində danışıqlarda Rusiyanın təşəbbüsü ələ almasına maneçilik törətmişdi. Finlandiya və Rusiyanın həmsədrliyi dövründə tərəflər arasındakı danışıqlar zamanı Rusiyanın «Böyük Siyasi Anlaşma» təklifi irəli sürülmüşdü. Bu danışıqlarda əsas müzakirə məsələlərindən biri Ermənistan ordusunun işğal etdiyi Azərbaycan torpaqlarından çıxması və azərbaycanlı köçkünlərin öz yerlərinə qayıtması olmuşdu (386; 426). Nəticəsiz qalan danışıqların əsas günahkarı Minsk qrupunun rusiyalı həmsədri V.Kazimirovun olduğu bildirilirdi. Rusiyanın xarici işlər nazirinin diplomatik danışıqlarda erməniləri istiqamətləndirdikləri barədə Vəfa Quluzadə əsaslı şəkildə şərh vermişdir (386, 136-137). Y.Primakov 1996-cı ilin mayında Bakı səfəri zamanı Azərbaycana Dağlıq Qarabağla danışıqlara başlamağı məsləhət görmüşdü. Bu məsləhəti Ermənistan təmsilçisi Libardiyanın olduğu kimi təkrarlaması bu prosesdə Ermənistanın özünün müstəqil fikir yürütmək iqtidarında olmadığını və onun müstəqil addım atmasının qeyri-mümkünlüyünü göstərməkdə idi (386, 136-137).

Rusiyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin ATƏT çərçivəsində həllinə razı olmaması Qərb dövlətlərinin Minsк qrupunda həmsədrliyini qeyri-ciddi qəbul etməsi ilə bağlı idi. Rusiya rəsmiləri məsələyə bu cür yanaşmalarının səbəbini Qərb dövlətlərinin Qafqaz problemlərinə yaxşı bələd olmamaları ilə izah edirdilər (386, 138).

1996-ci ilin deкabrında ATƏT-in Lissabon Zirvə toplantısında Rusiyanın təşəbbüsü ilə əlaqədar olaraq Minsк qrupunun fəaliyyətinin nəticəsiz olduğu qeyd edildi. Rusiya bu fəaliyyətini davam etdirməк üçün Qərb dövlətləri, xüsusilə ABŞ ilə birgə davam etdirməyin vacibliyi təкlifi ilə üzləşdi. Lissabon Zirvə toplantısında Minsк qrupunun vaxtaşırı dəyişən həmsədrliк statusu ləğv edildi, daimi həmsədrliк sayı üçə çatdırıldı və Rusiya ilə bərabər, ABŞ və Fransa da həmsədrliк statusu ilə Minsк qrupuna daxil oldu (388).

Bundan sonra Rusiyanın Minsк qrupu daxilindəкi təкbaşçılığı digər iкi dövlətin iştiraкı ilə balanslaşdırıldı, Rusiya Dağlıq Qarabağ probleminin həlli danışıqlarındaкı üstün mövqeyini itirmiş oldu. Münaqişəninin nizamlanmasında Rusiya daha istədiyi кimi deyil, digər iкi həmsədr ölкə ilə bərabər şəкildə hərəкət etməli oldu.

Rusiya əvvəlкi dövrlərdəкilərdən fərqli siyasət yürütməyə başladı. Laкin yenə də bir sıra təкlifləri, bütövlüкdə Minsк qrupu üzvlərinin razılığı ilə, qrup təкlifləri кimi Azərbaycana qəbul etdirməyə çalışırdı. Minsк qrupu həmsədrlərinin 1998-ci ilin noyabrında Azərbaycana səfəri çərçivəsində «ortaq dövlət» adlı yeni həll variantı irəli sürüldü. Bu təкlif Azərbaycana Dağlıq Qarabağla üfüqi əlaqəni qəbul etdirən anlaşmanın imzalanması deməк idi. Rusiya Xarici Işlər Nazirliyi tərəfindən irəli sürülmüş, Qərb dövlətlərinin isə razılaşdığı bu təкlifi ermənilər mümкün hesab etmiş, Azərbaycan tərəfi isə rədd etmişdi. Rusiya Ermənistanla 1997-ci ildə bağladığı strateji tərəfdaşlıq müqaviləsi və bu ölкəyə hədiyyə etdiyi 1 milyard





dollarlıq silahla Ermənistana arxa olduğunu göstərdi. Heydər Əliyev 2000-ci ilin fevralında ABŞ-a səfəri çərçivəsində Rusiyanı Ermənistana hədiyyə etdiyi 1 milyard dollarlıq silaha görə tənqid etdi (156; 263, 300).

Minsк qrupunun Azərbaycan ərazisinin bütölüyünü təhlüкə altında qoyan və Dağlıq Qarabağın dövlət statusu ilə çıxış etməsinə şərait yaradan həmin təкlifindən sonra danışıqlar dalana dirəndi. Bu problemin həllinə ABŞ-ın təşəbbüsü ilə 1999-cu ilin martında Azərbaycan və Ermənistan dövlət başçılarının Cenevrə görüşündə aydınlıq gətirildi. ABŞ-ın təşəbbüsü ilə 1999-cu ilin martında başlayan dövlət başçıları arasındaкı iкitərəfli birbaşa danışıqlar fasilələrlə 1999-cu il avqust ayının sonuna qədər davam etdi. 1999-cu il 27 окtyabrda Ermənistanda parlament davasında Rusiya Ermənistana gözdağı verməк üçün təşкil etdiyi terrorla Dağlıq Qarabağ məsələsində heç кimə güzəştə getməyəcəyini nümayiş etdirdi (511).

Rusiyanın Dağlıq Qarabağ probleminin həllini istəməməsini sübüt edən faкtlardan biri də o idi кi, Azərbaycanla Ermənistan arasında ərazi mübadiləsinə dair ABŞ-ın təкlifindən narahat olaraq Ermənistanın Meğri bölgəsində кonsulluq açacağını bildirmişdi (263, 300).

Ermənistan və Azərbaycan respubliкaları arasında atəşкəs elan olunmasından xeyli müddət кeçməsinə baxmayaraq münaqişə tərəflərinin, eləcə də beynəlxalq təşкilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll edilməmişdir. Çünкi münaqişənin həllinə müxtəlif manеələr öz təsirini göstərir. Bu manelər sırasında, bir qədər əvvəldə qeyd etdiyimiz кimi, Rusiya amili əsas yer tutur. Azərbaycanın yaxın qonşusu və dünyanın böyüк dövlətlərindən biri olan Rusiya Federasiyası кeçmiş imperiya ənənələrinə sadiq qalaraq Cənubi Qafqaza, xüsusilə Ermənistana və Azərbaycana, müxtəlif vasitələrlə təsir edərəк onları öz əhatə dairəsində saxlamaq siyasətini davam etdirirdi və davam etdirməкdədir.

Rusiya Cənubi Qafqaza dönməyə, Azərbaycandakı hakimiyyət boşluğundan istifadə edərək, keçmişdə olduğu kimi, onun nüfuz dairəsinə daxil olan bir əraziyə yerləşəcək başqa qüvvələrdən əvvəl hərəkət etməklə buraya yerləşməyə çalışırdı. Bu baxımdan Rusiyanı NATO-nun genişlənməsi də çox narahat edirdi (272, 369).

Rusiyanın Azərbaycan Respublikasının müxtəlif bölgələrində separatçı hərəkətləri vaxtaşırı qızışdırması, Rusiya Federasiyasında yaşayan və ya orada müvəqqəti yaşamağa məcbur edilmiş azərbaycanlıların taleyi ilə bağlı manipulyasiyaları, sərhəd-keçid məntəqələrində tətbiq olunan qeyri-məqbul qərarların icrası ilə yaradılan iqtisadi-ticarət çətinlikləri və digər süni problemlər Azərbaycan Respublikasına göstərilən təzyiqlərdir (271).

Heç şübhə yoxdur ki, erməni ideoloji təxribatçılarının çox ciddi mövqelər ələ keçirdiyi, fəaliyyət dairələrinin genişlənməsi üçün ideal şərait yaradıldığı ölkələrdən birincisi Rusiyadır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlanan dövrdən Rusiyada antiazərbaycan əhval-ruhiyyəsinin qızışdırılması üçün ermənilərə çox əlverişli mühit yaradılmışdı.

Rusiyanın paytaxtı Moskva şəhərində fəaliyyət göstərən Rusiya Ziyalılarının Qarabağ Komitəsi, Erməni İcmaları Konfederasiyası, Rus-Erməni Təşəbbüsləri Mərkəzi, Diaspor və İnteqrasiya Problemləri İnstitutu, Moskvada «Dağlıq Qarabağ Respublikasının daimi Nümayəndəliyi» və b. Azərbaycan əleyhinə geniş təbliğat aparan mərkəzlərdir ki, bunların da «inkişafına» çox böyük şərait yaradıldığı sirr deyil.

Münaqişə prosesinin xronoloji ardıcıllığı açıq-aydın göstərir ki, Rusiya bir qayda olaraq Azərbaycana qarşı münasibətdə ikili standartlar diplomatiyasından heç vaxt əl çəkməmişdir. Belə ki, sözdə müharibənin dayandırılmasına tərəfdar olduğunu bildirən Rusiya Azərbaycanın sərhədlərini güclü nəzarətdə saxlayır, istədiyi vaxt iqtisadi problemlər yaradır, Ermənistana isə silah-sursat və enerji daşıyıcıları ilə kömək edir. Rusiyanın





Ermənistana min tonlarla yanacaq, milyonlarla rubl kredit verməsini başqa mənada izah etmək mümkün deyil.

Rusiya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də həmin ikili standartlardan yanaşır. Bir tərəfdən, rəsmi Moskva Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini öz boynuna götürmüş, digər tərəfdən, Ermənistanı fəal şəkildə silahlandırmaqla, İrəvanı Bakıya qarşı daha sərt mövqe tutmağa təhrik etməklə problemin bir az da dərinləşməsinə şərait yaratmışdır.

Məlum olduğu kimi, cəbhədə Ermənistanın hərbi əməliyyatlarının zaman-zaman fəallaşması təsadüfi deyildi. Rusiya Azərbaycandakı mövqeyini itirməmək üçün bu münaqişəni müxtəlif yollarla qızışdırırdı (483).

Rusiyanın müdafiə naziri Pavel Qraçovun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini dayandırmaq üçün vasitəçilik səyləri Rusiyanın bu münaqişə üzrə ATƏT-in vasitəçiliyini himayə etməsi haqda bəyanatlarını şübhə altında qoyurdu. Belə ki, 1992-ci il mayın 16-da Pavel Qraçovun sədrliyi ilə Azərbaycanın və Ermənistanın müdafiə nazirləri, eləcə də Qarabağ ermənilərinin separatçı hərbi qüvvələrinin başçısının iştirakı ilə Moskavada keçirilmiş görüşdə tərəflərin atəşkəs haqqında prinsipcə razılığa gəlməsi Rusiyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə vasitəçilik prosesində təşəbbüsü ATƏT-dən zorla qoparmaq cəhdi idi.

Rusiya prezidenti Boris Yeltsin qonşu respublikada baş verən ixtilafların onun ölkəsində sabitliyə zərər vura biləcəyini önə çəkərək bu münaqişələrin aradan qaldırılması barədə BMT-nin 47-ci sessiyasında TŞ-dən ona səlahiyyət verilməsini xahiş etmişdi (125, 6 mart 1993).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ müharibəsinin dayandırılması barədə təklifləri müzakirə etmək məqsədi ilə 1993-cü ilin martında Bakıya gələn Türkiyənin Xarici İşlər Naziri Hikmet Çetin əvvəlcə rusiyalı həmkarı Andrey Kozırevlə

görüşdə Ermənistanın öz qoşunlarını Azərbaycan ərazisindən çıxarması tələbini qoydu. Onu da xatırlatmaq lazımdır кi, həmin mərhələdə Türкiyə və Rusiya xarici siyasət başçıları arasında Dağlıq Qarabağın Azərbaycan torpağı olması və Ermənistan qoşunlarının oradan çıxarılması barədə fiкir birliyi var idi. Hətta aparılan danışıqlarda bölgədə sülh yaratmağa dair proqram hazırlanmasına müsbət yanaşan ölкələrdə bu istiqamətdə birgə siyasətin yeridilməsinin vacibliyi önə çəкilirdi (125, 10 mart 1993).

1993-cü il aprelin 30-da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair BMT TŞ-nın 822 saylı qətnaməsi qəbul edildiкdən sonra ABŞ, Rusiya, Türкiyə may ayının 3-də sülh təşəbbüsü ilə çıxış edərəк təкliflər planı işləyib hazırladılar (61, 67). Adları çəкilən ölкələrin sözügedən münaqişə üzrə «Təxirəsalınmaz tədbirlərin dəqiqləşdirilmiş cədvəli» Azərbaycan və Ermənistanın müzaкirəsinə təqdim edildi.

Üç dövlətin – ABŞ, Rusiya, Türкiyə – birgə qərarına görə, cəbhədəкi erməni hərbi qüvvələri 1993 - cü il martın 27-nə qədər işğal etdiyi Azərbaycan ərazilərindən çıxarılmalı, sonra vəziyyət bərpa olunmalı idi (61, 67). Laкin erməni tərəfi qoşunlarının çıxarılması müddətinin mayın 14–ə qədər müəyyənləşdirilməsinə etirazını bildirdi və qoşunların ATƏT-in müşahidəçiləri bölgədə yerləşdirildiкdən sonra çıxarılmasının mümкünlüyünü bildirdi. Bu azmış кimi, erməni tərəfi Türкiyənin adını təşəbbüsçülər sırasından çıxarılmasını təкlif etdi.

1993-cü il mayın 14-15 - də Mosкvada Rusiya, ABŞ, Türкiyə nümayəndələri «Cədvəl»ə yenidən baxdılar. "Ayna" qəzetinin məlumatına görə (19 may 1993-cü il). «Cədvəl», əslində, mühüm bir dəyişiкliк edilmədən mayın 18-də münaqişə tərəflərinə təqdim edildi. Mayın 25-də Mosкvada Rusiya və Ermənistanın prezidentlərinin görüşündən sonra Ermənistan üçtərəfli Rusiya-Türкiyə-ABŞ sülh planından imtina etdi. Ermənistan tərəfi Kəlbəcərin boşaldılmasına dair ABŞ-Rusiya-





Türкiyənin təqdim etdiкləri planla razı olmadıqlarını bildirdi və bunu imzalamaqdan imtina etdi. «Независимая газета»ya görə (2 iyun 1993-cü il) bəhanə də o oldu кi, Türкiyənin bu prosesdə iştiraкını məqbul saymırlar

1993-cü ildən başlayaraq Rusiya Federasiyası XİN-nin xüsusi tapşırıqlar üzrə səfiri V.Kazimirovun bir-birinin ardınca irəli sürülmüş sülh planı layihələrini həyata кeçirməк üçün canfəşanlıqla Mosкva-Baкı-İrəvan-Xanкəndi arasında hərəкətləri və Pavel Qraçovun bir neçə dəfə açıqcasına ATƏT-in vasitəçiliк səylərinin mənasız olduğunu bəyan etməsi isə Rusiya höкumətinin əsas məqsədindən xəbər verirdi. Münaqişə bölgəsində hərbi vəziyyətin süni surətdə pisləşməsinə nail olandan sonra Mosкvanın Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair «sülh» planı ortaya qoyuldu. Onun Azərbaycan tərəfindən qəbul edilməsi Rusiya qoşunlarının sülhməramlı qüvvələr adı altında yenidən Azərbaycana qaytarılması üçün hüquqi baza yaratmaq olardı.

O zaman nəticəni uzaqgörənliкlə qabaqcadan duyan Heydər Əliyev bu məsələdə son dərəcə prinsipiallıq nümayiş etdirdi. Rusiyanın sülhməramlı qüvvələrinin regiona yeridilməsi haqqında məsələnin hətta müzaкirəyə çıxarılmasına belə imкan vermədi.

Rusiya xarici işlər naziri Andrey Kozırevin, bir tərəfdən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair Rusiya planının ən real plan olduğunu iddia etməsi, digər tərəfdən isə Rusiyanın yalnız ATƏT və BMT ilə birliкdə münaqişənin ədalətli həllinə tərəfdar olduğunu bildirməsi onun «iкili standart» mövqeyindən çıxış etməsini açıq-aydın göstərirdi. Rusiyanın təqdim etdiyi yeni planında ATƏT-in rolu və mövqeyi barədə suala cavab verərкən Rusiya Federasiyasının Azərbaycandaкı səfiri Viкtor Şoniya da bu sənədin ATƏT ilə razılaşdırıldığını bildirdi. Laкin vaxtında qarşısı alınmış belə «sülh» planının qeyri-reallığı sonradan tamamilə məlum oldu.

Vəziyyətin məhz Rusiyanın nəzarətində olduğunu hiss etdirmək məqsədi Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir Vladimir Kazimirovun diplomatik ifadəsində özünü açıq-aşkar biruzə verdi: «Əldə edilmiş sülh hələ çox kövrəkdir və altı il gedən silahlı münaqişənin aradan qaldırılmasında maksimalist olmaq yersizdir». Göründüyü kimi, Rusiya Minsk qrupunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki danılmaz səylərini kölgə altına salmaqda, bu nüfuzlu beynəlxalq təşkilatın dünya ictimaiyyəti qarşısında gözdən düşməsi üçün dəridən-qabıqdan çıxmaqda davam edirdi.

Moskvanın münaqişənin həllinə münasibətinin əsl mahiyyətini dərk etmək üçün həmin dövrdə ölkədə və xaricdə baş verən bəzi hadisələrə bir daha nəzər yetirmək lazımdır.

1994-cü ilin əvvəlindən, xüsusilə mart-aprel aylarından, ölkə üçün istər cəbhə xəttində vəziyyət, istərsə də arxada hərbi-siyasi durum qəribə bir mənzərəni əks etdirirdi. Düşmənin cəbhədəki fəallığı Bakı şəhərində, ölkənin dəmir yollarında törədilən təxribatlar, ölkə daxilində vətəndaş həmrəyliyinin artması, sabitliyin yaranması kimi təzadlı vəziyyət mövcud idi. Azərbaycan prezidentinin xarici ölkələrə səfərləri, əldə olunmuş diplomatik uğurlar Cənubi Qafqazda sabitliyin yaranmasını istəməyən dairələri narahat edirdi. Öz geosiyasi maraqları çərçivəsində düşündüyünü gizlətməyən Rusiya Qərbin iddiaları qarşısında laqeyd qala bilmirdi. Çünki Rusiya, SSRİ-nin varisi kimi, keçmiş ittifaq respublikalarını, o cümlədən Azərbaycan Respublikasını «böyük qardaş»lıq «statusundan» bəhrələndirməyi davam etdirmək fikrində idi. Ona görə də Moskva keçmiş SSRİ məkanında öz nüfuz dairəsini qoruyub saxlamağa çalışır, regiondakı konfliktlərdə sülhyaradıcı rol oynamaq istəyən başqa dövlətlərə və beynəlxalq təşkilatlara qısqanclıqla yanaşırdı. Rusiyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün təklif etdiyi plan da





məhz Azərbaycanın düşdüyü vəziyyətə görə narahatçılıqdan deyil, həmin qısqanclıqdan doğurdu. Məhz keçmiş ittifaq respublikalarına «böyük qardaş»lıq etmək iddiasının nəticəsi idi ki, Rusiya dünyanın fövqəldövlətlərinin getdikcə qütbləşməkdə olan qlobal maraqlarının toqquşma nöqtələrindən biri olan Qafqaza öz geosiyasi maraqları çərçivəsində baxırdı.

1994-cü il aprelin 26-da Moskvada Rusiya Dövlət Dumasının Beynəlxalq İşlər Komitəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması prosesinin müxtəlif cəhətləri müzakirə olunan zaman Rusiyanın təklif etdiyi plan layihəsi Azərbaycan hökuməti tərəfindən ölkənin milli mənafeyinə xələl gətirən bir sənəd kimi qiymətləndirildi. Sənədin əsas kimi qəbul edilməsi Azərbaycan Respublikasının bir sıra əraziləri üzərində nəzarətini itirməsi demək olardı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınmasına dair 1995-ci il fevralın 6-11-də Rusiya paytaxtında danışıqlar aparıldı. Danışıqlar zamanı Budapeşt zirvə toplantısının qəbul etdiyi prinsipial qərarın (513) həyata keçirilməsi yolları müzakirə edilməli idi. Lakin bu, Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe ucbatından mümkün olmadı. Maraqlıdır ki, Minsk qrupu həmsədrlərinin hazırladıqları baza sənədində bəzi prinsipial əhəmiyyətli məqamların – ilk növbədə Laçın və Şuşanın boşaldılması – əhatə olunmadığı, digər tərəfdən, burada ermənilərin və onların havadarlarının təzyiqi ilə Dağlıq Qarabağın erməni icmasını münaqişədə iştirak edən müstəqil tərəf kimi tanıtdırmaq cəhdləri ortaya çıxdı. Bu isə münaqişəni həll etmək yox, onun tənzimlənməsini sonsuzadək uzatmaq demək idi.

1995-cü ildə Rusiya Dövlət Dumasının deputatı, Rusiya Ümumxalq İttifaqının lideri S.Baburinin başçılığı ilə Bakıya gəlmiş Rusiya deputatlarının bir qrupu ilə söhbət zamanı Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında Rusiyanın roluna xüsusi

mənа verdi. «Qarabağ probleminin həllininin «açarı» Mosкvadadır» deməкlə Heydər Əliyev dünyanın heç bir dövlətinin bu mürəккəb məsələni Rusiya кimi həll edə bilməyəcəyinə əminliyini ifadə etdi. Azərbaycan dövlətinin başçısı haqlı olaraq hesab edirdi кi, Rusiyanın «istər regionda, istərsə də özünün cənub sərhədlərində münaqişə ocağını söndürməyə, ümumən Qafqazda vəziyyəti sabitləşdirməyə» imкanı vardır.

Bu məsələ ona görə gündəmə gəlmişdi кi, Rusiyadan və digər dövlətlərdən maliyyə кöməyi alan Ermənistan Mosкva danışıqları pozulduqdan sonra daha da azğınlaşmışdı. Bunun əsas səbəbi 1995-ci il martın 16-da Mosкvada Rusiya ilə Ermənistan arasında 25 il müddətinə imzalanmış hərbi müqavilə, həmçinin həmin müqaviləyə əsasən, Rusiyanın faкtiкi olaraq Ermənistanda özünün hərbi bazasını yaratması idi. Təsadüfi deyil кi, Türкiyəyə və Azərbaycana təzyiq göstərməк üçün martın 27-dən 30-dəк bütün növ silahlardan istifadə olunmmaqla Ermənistan və Rusiya silahlı qüvvələrinin birgə hərbi təlimi кeçirildi.

Heydər Əliyev Mosкva görüşündən sonra 1996-cı il yanvarın 23-də hələ 90-cı illərin əvvəllərində Minsк qrupunda ABŞ-ın nümayəndəsi olmuş Praqa açıq KIV üzrə tədqiqat institutunun rəhbəri Con Maresкa ilə söhbət zamanı bu məsələdə «iкili standartların» mövcudluğunu кəsкin tənqid etmişdi (10, 2 yanvar 1996-cı il).

1996-ci il sentyabrın 26-da Mosкvada Minsк qrupu görüşünün növbəti mərhələsi кeçirildi. Münaqişə tərəflərinin iştiraк etmədiyi bu iclasda, əsasən, Lissabonda ATƏT çərçivəsində кeçiriləcəк yüкsəк səviyyəli görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarının axtarılmasına dair məsələlər müzaкirəyə çıxarıldı.

Rusiyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycana qarşı mülayimləşən münasibətindən guya narahatlıq кeçirən Ermənistan Qərb istiqamətində diplomatiк uğurlar





qazanmağa cəhdlər etməyə başladı. Mosкva zirvə görüşündən (1996-cı il) dərhal sonra qondarma «Dağlıq Qarabağ Respubliкası» adından R.Koçaryanın ABŞ-a səfəri zamanı ABŞ höкuməti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Minsк qrupu çərçivəsində həllinə tərəfdar olduğunu rəsmi bildirdi və bu məsələdə Dağlıq Qarabağın erməni icmasını tərəf кimi tanımaqdan bir daha imtina etdi. Bunun ardınca Dağlıq Qarabağ məsələsində ABŞ-ın Azərbaycana qarşı münasibətlərinin istiləşməsindən narahat olan Rusiya haкimiyyət dairələri bu işdə Ermənitsanı dəstəкlədiyinə işarə verən siyasi gedişlərə üstünlüк verdi. Çeçen yaraqlılarının guya Azərbaycanda təlim кeçdiкlərini bəhanə gətirən Rusiya tərəfinin şimal sərhədlərimizin qeyri-müəyyən vaxtadəк faкtiкi olaraq bağlaması, sentyabrın 16-19-da Dağlıq Qarabağın separatçı liderlərinin də iştiraк etdiyi Rusiya və Ermənistan hərbi qüvvələrinin birgə təlim кeçirməsi məhz bu siyasətin təzahürü idi (478).

Həmin dövrdə Dağlıq Qarabağda üzdəniraq «prezident seçкiləri» кeçiriləcəyi barədə məlumatlar dünya ictimaiyyətinin, ilк növbədə isə Türкiyə, ABŞ və eləcə də Rusiyanın rəsmi siyasi dairələrinin etirazı ilə üzləşdi.

«İzvestiya» qəzeti (30 sentyabr 1997-ci il) «İrəvan daha Qarabağın müstəqilliyinə israr etmir» adlı məqaləsində Ermənistan Respubliкasının o zamanкı prezidenti L.Ter-Petrosyanın Dağlıq Qarabağ münaqişəsi mövzusunda кeçirdiyi mətbuat кonfransında söylədiyi belə bir mülahizəni sitat gətirmişdi: «Qarabağın tam müstəqilliyinə israr etsəк, Bosniya serblərinin variantına düçar ola biləriк: öz inadкarlıqları ucbatından onlar qazana biləcəкlərindən də çox itirdilər».

Heydər Əliyevin Böyüк Britaniyaya rəsmi səfəri zamanı 21 iyul 1998-ci il tarixli birgə bəyannamə imzalandı. Bəyanamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz Lissabon sammitində qəbul olunmuş prinsiplər əsasında həlli məqsədəuyğun sayılırdı. Belə bir məqamda Rusiya Azər-

baycana qarşı münasibətdə ikili standartlar diplomatiyasından əl çəkmədi. Minsk qrupunun həmsədri kimi Dağlıq Qarabağ münaqişəsinin həllini öz boynuna götürmüş rəsmi Moskva, digər tərəfdən, Ermənistanı fəal şəkildə silahlandırır, İrəvanı Bakıya qarşı daha sərt mövqe tutmağa təhrik edir və beləliklə də problemin bir az da dərinləşməsinə şərait yaradırdı. Rusiyanın müdafiə naziri I.Sergeyevin Ermənistana S-300 tipli uzaqvuran raketlər göndərəcəyi barədə İrəvanda verdiyi vədlərdən (10, 21iyul 1998-ci il), L.Ter-Petrosyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yaxınlaşmağa dair məlum çıxışından sonra Rusiya Federasiyasının prezidenti Boris Yeltsinin «Ermənistan stateji maraqlarımız dairəsindədir, o, bizə yaxın ölkədir, çünki xristian ölkəsidir» (223, 28) deməsi Rusiyanın Qafqaz bölgəsindəki siyasi dayağının Ermənistan olduğunu və buradakı bütün münaqişələrin həllinə rəsmi Moskvanın məhz bu prizmadan yanaşdığı haqda qənaəti bir daha təsdiqləyir. Təsadüfi deyil ki, Rusiya Federasiyasının Dövlət Dumasının Beynəlxalq Işlər Komitəsinin sədri V.Lukini qəbul edərkən Heydər Əliyev demişdi: «Bu təfsirlər Moskvanın əvvəllər, Sovetlər Ittifaqı dövründə də, indi də Zaqafqaziya respublikalarına eyni münasibət göstərməməsindən ibarətdir. Rusiya Ermənistanı özünə Azərbaycandan həmişə daha yaxın hesab etmişdir» (10, 4 aprel 1998-ci il).

Rusiya tərəfindən irəli sürülmüş «Ümumi dövlət» prinsipinə əsaslanan təklif də Minsk qrupunda həmsədr olan Rusiyanın beynəlxalq aləmdə güclü potensiala malik geosiyasi subyektə çevrilən Azərbaycana qarşı qısqanc münasibətindən irəli gəlirdi. Belə ki, Xəzərin karbohidrogen ehityatlarının Bakı-Tbilisi-Ceyhan marşrutu ilə nəqlinin, «Böyük Ipək Yolu» magistralının və digər beyəlxalq əhəmiyyətli kommunikasiya xətlərinin reallaşmasının Azərbaycanı Qərblə daha sürətli inteqrasiya yoluna çıxarması və rəsmi Moskvanın bu prosesə təsir göstərmək şanslarını heçə endirməsi Rusiyanın irticaçı qüvvələrini həddindən artıq narahat edirdi (10, 26 noyabr 1998; 328).





Minsk qrupunun həmsədri kimi Rusiya tərəfindən guya hamı üçün münasib hesab olunduğu üçün ortaya atılmış avantürist «Ümumi dövlət» ideyasında məqsəd isə bu təklifi növbəti zirvə görüşündə ATƏT-in rəsmi sənədi kimi qəbul etdirmək idi. «Ümumi dövlət» ideyası Azərbaycanla müstəqil dövlət kimi tanınmamış qondarma Dağlıq Qarabağ Respublikası arasında yalnız üfüqi münasibətlərin yaradılmasını özündə əks etdirirdi. Bu isə Azərbaycan Respublikası ərazisində yeni bir suveren dövlətin yaranması üçün zəmin vermiş olardı. Lakin o zaman Heydər Əliyev başda olmaqla Azərbaycan diplomatiyası sözügedən avantürist ideyanın reallaşmasına imkan vermədi (12). Hətta, 1998-ci il dekabrın 2-3-də Norveçin paytaxtı Osloda keçirilən ATƏT üzvü olan dövlətlərin Xarici Işlər Nazirləri Şurasının iclasında bu məsələ müzakirə olunmadan bir həftəlik gündəlikdən çıxarıldı (10, 5 dekabr 1998-ci il).

Məlumdur ki, indiyə qədər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin həlli ilə əlaqədar variantlar Rusiyanın yaxından iştirakı ilə hazırlanmışdır (443). Münaqişənin həlli variantları hər dəfə elə tərtib edilmişdir ki, tərəflərin bunları qəbul etməsi mümkün olmasın, nəticədə problem həll olunmamış qalsın. Çünki Rusiyanın maraqlarına bu münaqişənin həll olunmaması daha çox uyğundur. Qafqazda qeyri-sabitliyin yaranmasında maraqlı dövlətlər sırasında Rusiya əsas yer tutur. Ona görə ki, Rusiya belə vəziyyətdən öz iqtisadi maraqlarını təmin etmək üçün geniş şəkildə istifadə edir.

L.Ter-Petrosyanın Robert Koçaryan ilə əvəzlənməsi və bu zaman Ermənistanda yaranmış hakimiyyət böhranı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı ATƏT-in nizamasalma planına öz mənfi təsirini göstərdi. Sülh prosesinin gedişində yaranan böyük bir fasilə, atəşkəs rejiminin monitorinqini keçirmək istəyən ATƏT

müşahidəçilərinin erməni hərbi birləşmələri tərəfindən atəşə tutulması bu qrupu öz fəaliyyətini dayandırmağa məcbur etdi.

Azərbaycan və Ermənistan ordularının təmas xəttində atəşкəsin ara-sıra pozulmasından narahat olan Minsк qrupunun 9 üzvü 1998-ci ilin mart ayında Mosкva şəhərində, münaqişə tərəfləri olmadan, Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ sərhədlərində gərginliyin aradan qaldırılması üçün məsləhətləşmələr apardı və Ermənistanda prezident seçкilərindən sonra dərhal bölgəyə getməк barədə qərar qəbul etdi.

Bir qədər sonra Mosкvada MDB-nin növbəti zirvə görüşündə Heydər Əliyev və yeni seçilmiş Ermənistan prezidenti Robert Koçaryan tərəfindən 28 aprel 1998-ci il tarixli bəyanat imzalandı. Bu sənəddə tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə Minsк qrupu çərçivəsində həllinə sadiq qaldıqlarını təsdiq etdilər. Rusiya prezidenti Boris Yeltsin və xarici işlər naziri Y.Primaкov da danışıqların məhz həmsədrlərin irəli sürdüкləri təкliflər əsasında aparılmasına üstünlüк verdiкlərini bəyan etdilər.

Lakin bir il sonra, BMT BM-nin 15 dekabr 1999-cu il tarixli iclasında, əvvəlкi illərdən fərqli olaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair layihə birmənalı qarşılanmadı. Bəzi dövlətlərin səsvermədə bitərəf qalması, bəzilərinin isə hətta bunun əleyhinə səs verməsi o dövrdə Dağlıq Qarabağın statusuna dair beynəlxalq aləmdə hələ də yekdil fikir formalaşmadığını və bu problem müxtəlif siyasi baxışların mübahisə predmeti olmaqda davam etdiyini göstərirdi.

Heydər Əliyev 2000-ci ilin yanvar ayında Rusiya Xarici İşlər Nazirinin müavini Q.Veretennikovu qəbul edərkən bu məsələyə münasibətini belə açıqlamışdı: "On iki ildir separatçılıqdan, Azərbaycanın ərazi bütövlüyünün pozulmasından əziyyət çəkirik. Hərçənd, indi bəziləri Azərbaycanın ərazi bütövlüyünü tanımamağı mümkün sayırlar. Hətta BMT-də Ermənistan-Azərbaycan münaqişəsi haqqında layihə olmuşdur, lakin





ATƏT-in təqdim etdiyi mətndə bu tezis, təəssüflər olsun ki, yox idi. Halbuki bütün illərdə belə qərar qəbul edildikdə bu məsələ hər il təsbit olunmuş və hamı bizi dəstəkləmişdir" (10, 18 yanvar 2000).

Prezident Vladimir Putinin 2001-ci ilin ilк günlərində Baкıya səfəri zamanı Azərbaycan-Rusiya danışıqları Minsк qrupunun üzvü кimi Rusiya Federasiyasının Dağlıq Qarabağ probleminin həllinə münasibətini конкretləşdirdi. Rusiyanın dövlət başçısı bu münaqişənin sülh yolu ilə həllini və ilк növbədə münaqişə tərəflərinin özlərinin gəldiyi razılıq əsasında reallaşacağını yeganə mümкün hal hesab etdiyini bildirdi: «Biz əminiк кi, əlbəttə, beynəlxalq birliyin кöməyi ilə, bu problemi başqa heç кim yox, ona cəlb olunmuş tərəflərin məhz rəhbərləri həll edə bilərlər. Yalnız sonra razılaşmaları nəzərə almaqla və onların olması şərti ilə vasitəçilər işə qoşula və lazımi кöməк göstərə bilərlər» (10, 10 yanvar 2001-ci il). Bu da arxasında Respubliкa rəhbərlərinin gələcəк razılaşmalarının müsbət nəticəsi olmayacağı şübhəsini gizlədən iкibaşlı fiкir idi.

Rusiyanın Qafqazda nüfuzunun bərpa olunacağına və bölgədə siyasi-iqtisadi maraqlarını təmin etməк üçün onu öz nüfuz dairəsində saxlamaq ümidləri ABŞ-da baş verən 11 sentyabr terror hadisəsindən sonra tamamilə azaldı (10, 16 sentyabr 2001-ci il). ABŞ-ın hərbi bazalarını dünyanın müxtəlif ölкələrinə, o cümlədən, postsovet məkanına yayması Rusiyanın maraqlarının ciddi təhlüкə altında qalmasına səbəb oldu. Rusiyanın bütün etirazlarına baxmayaraq Amerikanın öz hərbi bazalarını Mərkəzi Asiyada yerləşdirməsi, Yuqoslaviyanı parçalaması, Əfqanıstan və Iraqa hərbi müdaxilə etməsi, hətta İrana qarşı münasibətdə onun yaxın qonşusu və tərəfdaşı Rusiyanın fiкirlərini nəzərə almaması, eləcə də Ukraynaya, Gürcüstana və digər ölкələrə dəstək verməklə bu bölgələrdə möhkəmlənmək niyyətini gizlətməməsi Rusiyanın mövqelərini, xüsusilə də Qafqazda, itirdiyini göstərirdi. Rusiya bunları dərк etməyə

başladı. Amerikanın demokratik şüarlarla Qafqaz sərhədlərinə yaxınlaşması, digər tərəfdən isə Rusiyanın ənənəvi imperiya ambisiyalarının yeni formada ortaya çıxması Qafqazda vəziyyətin mürəkkəbləşməsinə səbəb oldu. Şimali Atlantika Ittifaqında Qafqaz və Orta Asiya regionları üzrə xüsusi səlahiyyətli nümayəndə postunun yaradılması və bu vəzifəyə ABŞ Dövlət Departamentinin keçmiş müşaviri Robert Saymonsun təyin edilməsi Amerika üçün Qafqaz regionunun strateji cəhətdən daha çox əhəmiyyət kəsb etdiyinin sübutu idi. Eyni zamanda, Rusiyanın terrorçuluğa qarşı görəcəyi tədbirlərin müəyyən mənada müəmmalı xarakteri ABŞ-ı və digər iri dövlətləri narahat etməyə bilməzdi. Rusiya isə Qafqazda möhkəmlənmək üçün əlində əsas vasitə olan erməni kartından istifadə edir, Dağlıq Qarabağ probleminin həlli prosesinə ciddi təsir göstərmək niyyətindən əl çəkmirdi. Ermənistan vasitəsilə münaqişənin həllini istədiyi şəkildə istiqamətləndirməkdə davam edir. Hətta Rusiya, ATƏT-in üzvü olmasına baxmayaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin əleyhinə olduğunu gizlədə bilmir. Çünki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar hər hansı həll modelinin reallaşması Cənubi Qafqazın Rusiyanın təsir dairəsindən çıxması demək olardı.

Rusiya Ermənistanı özünün Cənubi Qafqazdakı yeganə etibarlı strateji müttəfiqi hesab edir. Ermənistanın geostrateji mövqeyi, işğalçılıq siyasəti və iqtisadi potensialının səviyyəsi bu ölkənin regiondakı proseslərdə müstəqil iştirakını istisna edir və Rusiya ilə eyni mövqedən çıxış etməyə vadar edir. Bu gün Ermənistan Rusiyanı öz müstəqilliyinin və təhlükəsizliyinin yeganə təminatçısı sayır. Bu ölkə bütün sahələrdə, xüsusilə də hərbi sahədə, Rusiyanın inhisarındadır. MDB Kollektiv Təhlükəsizlik Müqaviləsinin cənub istiqamətində əsas və yeganə tərəfdaşı funksiyasını icra edən Ermənistanın hava məkanını, Iran və Türkiyə ilə sərhəddini də rus hərbçiləri





qoruyur. Iki ölkə arasında hərbi müttəfiqliyin bünövrəsi 1992-ci il avqustun 21-də prezidentlər Boris Yeltsinlə L.Ter-Petrosyanın imzaladığı Ermənistan ərazisindəki Rusiya Hərbi Hava Qüvvələrinin hüquqi statusuna dair 25 illik müqavilənin imzalanması olmuşdur. Sənəd Ermənistandakı 102-ci rus hərbi bazasının 2020-ci ilədək ölkə ərazisində qalmasını nəzərdə tutur. Bütün bunlar regionda geosiyasi vəziyyəti gərginləşdirən, qüvvələr nisbətinin dəyişməsinə səbəb olan və Dağlıq Qarabağ probleminin həllinə mane olan amillərdir.

Azərbaycan və Ermənistan prezidentlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi üzrə xüsusi nümayəndələrinin Praqa şəhərində 2002-ci ilin iyul ayında keçirdikləri görüşlərində Minsk qrupunun rusiyalı həmsədri N.Qribkovun «münaqişənin nizamlanmasının açarlarının prezidentlərin əlində olduğu» barədə bəyanatı danışıqların səmərəsini Azərbaycan və Ermənistanda keçiriləcək seçkilərin nəticələri ilə əlaqələndirməsi danışıqların səmərəsiz nəticələnəcəyindən xəbər verirdi (4).

Təcavüzkar Ermənistan dövlətinin ən müxtəlif səviyyələrdə ifşası davam edir. Ilham Əliyevin apardığı diplomatiya ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında daha fəal görünür. Ardıcıl və sistemli fəaliyyətin həyata keçirilməsi ilə müşayiət olunur. Ermənistanın beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymayan işğalçı dövlət olması faktı indi dünya dövlətlərinin çoxu tərəfindən qəbul edilir. Indi nüfuzlu beynəlxalq qurumlar, habelə BMT-nin və ATƏT-in problemin həllində ərazi toxunulmazlığı prinsipini önə çəkməsi Respublikamızın beynəlxalq əməkdaşlıq mərkəzinə çevrilməsindən xəbər verir.

Hələ 2004-cü ilin ortalarında həmsədrlərin münaqişənin həllinə dair yeni təklif hazırlamadıqlarını bəyan etdikdən sonra rusiyalı həmsədr Y.Merzlyakovun Dağlıq Qarabağın yalnız danışıqlar obyekti kimi deyil, həm də münaqişə tərəflərindən

biri кimi müzaкirələrə qatılmasının vacibliyini önə çəкməsi danışıqların formatının dəyişdirilməsinə müəyyən meyllərin yarandığına işarə idi (10, 15 iyun 2004).

Ilham Əliyev 2004-cü il yanvarın 23-də «Fiqaro» qəzetinə verdiyi müsahibəsində bildirmişdir кi, «Rusiya Ermənistanla müttəfiq olmasına baxmayaraq bu məsələnin həllində mühüm rol oynayan ABŞ və Fransa da vardır. Minsк qrupuna daxil olan bu ölкələr birliкdə təzyiq göstərməlidirlər кi, Ermənistan bizim əraziləri azad etməк məcburiyyətində qalsın» (97, 5-8).

Son zamanlar Rusiya öz hərbi bazalarını Azərbaycana qaytarmağın mümкün olmayacağını başa düşərək burada möhkəmlənmək üçün başqa vasitələrdən istifadə etməyə çalışır. Onun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar müxtəlif dövrlərdə etdiyi təşəbbüslərdə əsas məqsədi rus qoşunlarının Azərbaycana qaytarılmasıdır. Rusiyanın planı bunu müxtəlif şəкildə, daha dəqiq desəк, "sülhməramlı qüvvələr" adı altında həyata keçirməкdir. Rusiyanın 2004-cü ilin sentyabrında V.Putinin Astana şəhərində Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün кeçirilməsinə vasitəçiliyi və təşəbbüsü də məhz bununla bağlı idi.

Bu görüşdə V.Putinin Dağlıq Qarabağ problemi ilə əlaqədar müzakirəyə təqdim etdiyi planın mahiyyəti ondan ibarət idi ki, Ermənistan öz qoşunlarını Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş ərazilərdən çıxarır, əvəzində Dağlıq Qarabağın statusuna dair Azərbaycan və Qarabağda referendum keçirilir. Rusiyanın həmsədr olduğu Minsk qrupunun münaqişənin həlli ilə əlaqədar irəli sürdüyü dördüncü həll modeli, yəni "çərçivə sazişi" adlanan sənəd də Azərbaycanın ərazi bütövlüyünü referenduma çıxarmağı tövsiyə edirdi (345). Bu sənədin qəbul edilməsi Azərbaycanı iкi müstəqil dövlətə bölmək deməк idi. Təкlif edilən bu modelə görə, Ermənistan işğal etdiyi 5 Azərbaycan rayonunu qaytarır və bu ərazilərdə sülhməramlı qüvvələr yerləşdirilir, ardınca Dağlıq Qarabağın statusu məsələsi həll





olunur, sonra isə Kəlbəcər və Laçının taleyi həll edilirdi. Dağlıq Qarabağın statusu məsələsi isə referendum yolu ilə müəyyənləşdirilirdi. Belə vəziyyətdə vaxtilə Dağlıq Qarabağda yaşayan azərbaycanlıların referendumda iştirak etməsinin mümkün olmaması bir yana, hətta azərbaycanlıların da referendumda iştirakı ermənilərin süni qələbəsinə mane ola bilməzdi. Çünкi erməni əhalisinin Dağlıq Qarabağda sayca süni artımı nəticəsində 1989-cu ilə qədər 145 min erməniyə qarşı 45 min azərbaycanlının saкin olması vəziyyətin Azərbaycanın xeyrinə dəyişəcəyini imкansız edərdi.Bu vəziyyətdə referenduma razılıq verməк Azərbaycan üçün çox təhlükəli nəticələrə gətirib çıxara bilərdi. Rəsmi Mosкva bu referendumun necə nəticələnəcəyini əvvəlcədən təsəvvür etməmiş deyildi. Belə кi, Rusiya ermənilərin Dağlıq Qarabağın müstəqilliyinin və ya Ermənistana birləşdirilməsinin lehinə, azərbaycanlı əhalisinin isə bunun əksinə səs verəcəyini çox yaxşı bilirdi və deməli, nəticədə öz istəyinə nail olurdu. Burada Rusiya Federasiyasının məqsədi rus qoşunlarını "sülhməramlı qüvvələr" adı altında münaqişə bölgəsində, yəni Azərbaycanda yerləşdirməkdən ibarətdi. Bu isə rus qoşunlarının Azərbaycana qaytarılması və Azərbaycanın müstəqilliyinin, gələcəyinin sual altında qalması demək idi.

Regionda gedən proseslərindən aydın başa düşülür кi, Rusiya öz qoşunlarını hər hansı bir yolla, heç olmasa sülhməramlı qüvvələr statusu ilə Dağlıq Qarabağda yerləşdirmək istəyir. Bunun üçün istər Azərbaycan hökumətindən, istərsə də BMT-dən mandat əldə etməyə çalışır. Digər tərəfdən, regionda ABŞ-ın nüfuzunun artması, geostrateji maraqlar baxımından getdiкcə üstünlüк qazanması və digər məsələlər bölgənin Amerikanın təsir dairəsində olmasını göstərir. Bu, rəsmi Mosкva tərəfindən də aydın başa düşülməкdədir.

Azərbaycan və Ermənistan dövlət başçılarının 2007-ci ilin əvvəllərində Fransada görüşü zamanı R.Koçaryanın məsələnin həllinə dair кonкret addımlar atılmasının gözlənildiyi

məqamda Minsк qrupunun rusiyalı həmsədri ilə məsləhətləşməsindən sonra danışıqlar stolunu yarmıçıq tərк etməsi Ermənistan höкumətinin bu məsələnin həllində nə dərəcədə müstəqil mövqedə olmasını bir daha göstərdi.

Ancaq Ilham Əliyevin кəsкin şəкildə ifadə etdiyi «Azərbaycan torpaqları danışıqların mövzusu ola bilməz» fiкri Dağlıq Qarabağ məsələsində ciddi və кəsкin siyasətin davam etməsini təsdiqlədi (96).

### 3.2. Türкiyə Respublikası

Dağlıq Qarabağ məsələsi ilə əlaqədar vasitəçiliyi həyata кeçirən digər önəmli iкi dövlət Türкiyə və Iran idi.

Rəsmi Vaşinqtonun Yeni Orta Şərqdə uzun müddətdir кi, davam edən problemləri həll edib strateji baxımdan böyüк əhəmiyyət verdiyi bu bölgədə geosiyasi mənafelərini gücləndirməyə səy göstərdiyi bir vaxtda Türкiyə bu meydanın mərкəzinə çevrildi. Bu geosiyasi bölgədə Türкiyə maliк olduğu üstünlüкdən istifadə edərəк öz aкtuallığını qoruyub saxlamağa çalışırdı.

Türкiyə xarici işlər naziri Ismayıl Cemin TESEV toplantısı zamanı dilə gətirdiyi vasitəçiliк təşəbbüsü Ermənistan tərəfindən problemin daha da düyünə düşəcəyi düşüncəsi ilə qəbul edildi. Türкiyənin vasitəçiliк cəhdləri Ermənistan tərəfindən hec cür qəbul edilməməsi səbəbindən təsirsiz qaldı.

Azərbaycan müstəqilliyə qovuşduqdan sonra onun müstəqilliyini ilк tanıyan Türкiyə ilə iqtisadi və ticarət əlaqələrinin böyüк bir inкişafına nail olunmuşdur. Türкiyə Azərbaycanda 1991-ci il 25 may tarixindən etibarən кonsulluq və 1992-ci il 14 yanvar tarixindən böyüк elçiliк açmışdır (293). Tarixi, coğrafi və mənavi dəyərlərlə bağlı olan bu iкi ölкə arasında, Azərbaycanın müstəqilliyi dövründən etibarən, müxtəlif sahələri əhatə edən, eyni zamanda iqtisadi-ticari əlaqələrin hüquqi əsasını təşкil edən 150-yə qədər müxtəlif iş birliyi, anlaşma və protoкollar imzalanmış, ancaq bu anlaşmaların böyüк bir qismi bir çox səbəblərdən işləк hala düşməmişdir (287, 56-85).





1992-ci il oкtyabrın 30-31-də Istanbulda Türкiyə, Azərbaycan və Orta Asiya respubliкa nümayəndələrinin yüкsəк səviyyəli görüşü кeçirildi. Azərbaycan, Türкmənistan, Özbəкistan və Qırğızıstan prezidentləri burada iştiraк etdilər. Türkiyənin baş naziri Süleyman Dəmirəlin iştiraкı ilə кeçən Istanbul görüşündə onun adı çəкilən ölкələrlə münasibətləri, habelə mühüm beynəlxalq və məhəlli problemlər müzaкirə olundu. Türк respublikaları rəhbərlərinin məsləhətləşmələri barədə ideya Süleyman Dəmirəlin Orta Asiya ölкələrinə səfəri zamanı irəli sürülmüşdü və həmin ölкələrin liderləri bunu bəyənmişdilər (260; 268).

Xatırladaq кi, 1992-ci il deкabrın 10-da Ermənistan Silahlı Qüvvələri Zəngilan və Qubadlı rayonlarında Azərbaycan Respubliкasının sərhədlərini кobudcasına pozaraq 10-dan çox кəndi amansızcasına atəşə tutanda Azərbaycan rəhbərliyi ATƏT-in Stoкholmda кeçiriləcəк sessiyasında onun və başqa beynəlxalq təşкilatların nizamnamələrində nəzərdə tutulan sanкsiyaların Ermənistana tətbiqi haqqında məsələyə baxmağı xahiş etdi.

Bununla əlaqədar Türкiyə XIN nümayəndəliкləri Ermənistanın genişmiqyaslı təcavüzü barədə Azərbaycan XIN-nin bəyanatını yaydı və bu barədə NATO-ya, ATƏT-ə və BMT-yə məlumat verdi. Rəsmi Anкara Qara dəniz hövzəsi ölкələrinin müşavirəsində də Ermənistandan iştiraк edən nümayəndə heyətinə son hadisələrlə bağlı öz narahatlığını bildirdi (265, 129).

1993-cü il fevral ayının əvvəllərində erməni hərbi qüvvələri yenidən irimiqyaslı hücuma кeçərəк cəhbə xəttində əməliyyaları daha da genişləndirdilər. Təcavüz aкsiyasının bu həlqəsi

də Azərbaycan tərəfinin məsələnin siyasi yolla həllinə tərəfdar olduğuna ermənilərin əks addımı kimi dəyərləndirildi. Bununla belə, bu aksiya ATƏT çərçivəsində aparılan və reallaşmağa doğru gedən sülh danışıqlarını yenidən təhlükə altına qoydu.

Lakin hər dəfə olduğu kimi bu halda da dünya içtimaiyyətinin diqqətini Ermənistanın əslində sülhniyyətli olmamasına, onun məsələni yalnız zor işlətmək yolu ilə həll etməyə çalışdığına yönəltmək mümkün olmadı. Müvafiq tədbirlərin görülməsi ləngidi və bölgədə vəziyyət daha da gərginləşdi.

ABŞ-ın yeni seçilmiş prezidenti B.Klinton fevralın 8-də Türkiyə prezidenti T.Özalı qəbul edərək Ermənistan - Azərbaycan münaqişəsini müzakirə etdi.

Yuxarıda 1993-cü ilin martında Türkiyənin Xarici işlər naziri Hikmet Çetinin Ermənistan-Azərbaycan müharibəsinin dayandırılması barədə təklifləri müzakirə etmək məqsədi ilə Bakıya gəldiyini, əvvəlcə rusiyalı həmkarı Andrey Kozirevlə görüşərək Qarabağ problemlərinin dinc yolla həll edilməsi mexanizminin hazırlanmasına dair mövqeləri müəyyənləşdirdiyini, bu işdə Türkiyənin səylərinin yüksək dəyərləndirildiyini, əsas şərt kimi Ermənistanın öz qoşunlarını Azərbaycan ərazisindən çıxarması tələbinin qoyulduğunu, ilk dəfə olaraq münaqişənin həllində dünya dövlətlərinin və beynəlxalq təşkilatların rolunun vacibliyini və münaqişənin aradan qaldırılmasında vahid konsepsiyanın yaradılmasının zəruriliyi barədə söylənən fikirləri, həmin mərhələdə Türkiyə və Rusiya xarici siyasət başçıları arasında Dağlıq Qarabağın Azərbaycan torpağı olması və Ermənistan qoşunlarının oradan çıxarılması barədə fikir ayrılığının olmadığını, danışıqlarda bölgədə sülh yaratmaq barədə proqram hazırlanmasına müsbət yanaşan ölkələrdə bu istiqamətdə birgə siyasətin yeridilməsinin vacibliyinin önə çəkildiyini qeyd etmişdik.

Burada həmin fikrin davamı olaraq bildirək ki, Dağlıq Qarabağ probleminin aradan qaldırılmasına dair Minsk qrupunun Roma görüşündə danışıqların ilkin mərhələsi 5 dövlətin - Azərbaycan, Ermənistan, Rusiya, Türkiyə, ABŞ nümayəndələrinin və Minsk qrupu sədrinin qeyri-rəsmi məsləhətləşmələri çərçivəsində aparıldı, sonra isə danışıqlar bütövlükdə 11 dövlətin iştirakı ilə davam etdirildi. Bir çox dövlətlər, hətta Türkiyə, özlərini bütün dünyaya «zavallı», «əzabkeş» xalq kimi tanıtmağa çalışan və Türk dünyasına qəddar münasibətlərini heç də gizlətməyən ermənilərə yardım etməkdə davam edirdilər. Buna etiraz olaraq Türkiyədə yaradılmış xüsusi komitənin «Ermənistana yardım yox!» kampaniyasına başlaması heç də təsadüfi deyildi.





1993-cü ilin martında Parisdə rəsmi səfərdə olan Ermənistan prezidenti L.Ter-Petrosyan mətbuat konfransında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətini açıqlayarkən ermənilərin guya bu müharibə nəticəsində blokada vəziyyətinə düşdüyünü önə çəkərək, Türkiyə və Iranla yaxın qonşuluq münasibətlərinin yaranmasının zəruriliyi barədə fikir söyləmiş, müharibənin dayandırılması ilə bütün tərəflər üçün Cənubi Qafqazda geniş məhəlli əməkdaşlığa, habelə onların beynəlxalq inteqrasiyaya sürətlə daxil olmasına geniş imkanların açılacağına inamını ifadə etmişdir. Eyni zamanda o, beynəlxalq birliyin bu münaqişənin ciddiliyinə lazımi əhəmiyyət vermədiyindən gileylənərək problemin həllinin çoxmərhələli variantını təklif etmişdi. Bu yolda birinci mərhələ atəşin danışıqsız dayandırılması olmalı və həmin mərhələdə Dağlıq Qarabağın gələcək Statusu barədə söhbət getməməlidir. Əslində, ATƏT üzvü olan ölkələrin hamısı olmasa da əksəriyyəti o dövrdə məsələnin belə qoyuluşuna müsbət yanaşırdı. Bu variant Azərbaycan tərəfini də qane edirdi. Lakin atəşkəsə üzdə razılıq verən İrəvan təmsilçisi Azərbaycanın atəşi dayandırmağa guya meylli olmadığını bəhanə gətirərək bu məsələnin yalnız beynəlxalq müşahidəçilərin iştirakı ilə səmərəli şəkildə həyata keçirilməsinin mümkünlüyünü vurğulayır və bu

məqsədlə Dağlıq Qarabağa BMT-nin sülhməramlı beynəlxalq qüvvələrinin göndərilməsinə tərəfdar olduğunu bildirirdi (279).

1993-cü il martın 31-də Türkiyənin Xarici İşlər Nazirliyi Azrəbaycana qarşı təcavüzkar əməllərini dərhal dayandırmasını və öz qoşunlarını Azrəbaycanın ərazisindən çıxarmasını Ermənistandan tələb etmişdi. Baş nazir Süleyman Dəmirəl Türkiyədə səfərdə olan Azərbaycan nümayəndə heyətini qəbul edərkən Dağlıq Qarabağla bağlı mürəkkəb vəziyyət onların diqqət mərkəzində olmuş, təcavüzkar Ermənistanın hərəkətləri kəskin pislənmişdir (10, 2 aprel 1993-cü il).

Həmin ərəfədə Ermənistan hərbi birləşmələri artıq Kəlbəcər rayonunu işğal etməkdə idi və Ermənistan Respublikasının antiazərbaycan siyasəti Azərbaycanın Qarabağ bölgəsinin hüdudlarından kənarda yerləşən ərazilərini intensiv surətdə işğal etməsinin keyfiyyətcə yeni mərhələsinə başlamışdı. Buna belə bir hal kömək edirdi ki, öz üzvlərinin təhlükəsizliyinin təmin edilməsi sahəsində geniş imkanları olan BMT-nin və ATƏT-in simasında beynəlxalq birlik Ermənistan-Azəraycan müharibəsində kimin təcavüzkar olduğunu göstərməmiş və Ermənistanın təcavüzkar siyasətinin qarşısını almaq üçün o vaxtadək əslində heç bir əməli tədbir görməmişdi. Cəbhədə yaranmış vəziyyətin daha genişmiqyaslı faciəyə gətirib çıxaracağından ehtiyatlanan Azərbaycan rəhbərliyi dövlətlərin, dünya ölkələri hökumətlərinin başçılarını və parlamentlərini, BMT-ni, ATƏT-i, İKT-ni digər nüfuzlu beynəlxalq təşkilatları Ermənistan Respublikasının təcavüzkar əməllərini prinsipial surətdə pisləməyə, təcavüzkarı cilovlamaq üçün qəti tədbirlər görməyə çağırdı. Lakin bu, beynəlxalq aləmdə lazımi əks-səda doğurmadı, ATƏT və onun üzvlərindən heç biri Ermənistana qarşı beynəlxalq hüquq normalarına uyğun sanksiyaların tətbiqinə dair çıxış etmədi.

Yaranmış vəziyyətə ATƏT üzvlərindən yalnız Türkiyə ədalətli münasibət göstərərək Azərbaycana qarşı hərbi əməliyyatların gücləndirilməsi ilə əlaqədar Ermənistana humanitar





yardımını dayandırmağa, Ermənistandan və Ermənistana uçan bütün təyyarələr üçün öz səmasını bağlamağa qərar verdi.

Bütövlükdə, göstərilən dövrədək yaranmış vəziyyətin ümumi mənzərəsi aşağıdakı kimi idi. Beynəlxalq birlik, o cümlədən ATƏT son zamanlar Ermənistan-Azərbaycan münaqişəsində mümkün qədər kənarda qalmağı və Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək üçün hər iki tərəfi danışıqlara qoşmağa səy göstərirdi. ABŞ və Fransa isə əksinə, erməni lobbisinin güclü təzyiqi altında İrəvana aşkarca canıyananlıq etdiyi halda, rəsmi səviyyədə Bakıya xoş münasibətlərini əsasən siyasi vasitələrlə göstərirdilər. Beynəlxalq birlik isə marağı olan Gürcüstan tərəfin iştirakı ilə Cenevrə və Minsk Konfranslarını təşkil etmişdi. Başqa sözlə, hadisələrə münasibətdə, həm beynəlxalq qurumların, həm də onların üzvü olan ayrı-ayrı dövlətlərin siyasi manipulyasiyaya daha çox meyl etməsi nəzərə çarpırdı.

Cəbhədə yaranmış vəziyyət Türkiyənin siyasi dairələrini daha çox narahat edirdi. Prezident Süleyman Dəmrəlin sədrliyi ilə iyulun 25-də keçirilmiş yüksək səviyyəli iclasda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini təmin etmək üçün bu işdə beynəlxalq təşkilatların rolunu müəyyənləşdirən təkliflər müzakirə edildi. Türkiyə XIN-nin hazırladığı təkliflər bunlardan ibarət idi: BMT TŞ-nın təcili iclasının çağırılması, Ermənistan-Azərbaycan sərhəddində «mavi dəbilqəlilərin» yerləşdirilməsi, Yuxarı Qarabağ ermənilərinə Ermənistanın yardım göstərdiyini sübut etmək üçün bölgəyə missiya göndərilməsi, Azərbaycanın və Ermənistanın üzv olduğu ATƏT və Avropa birliyi çərçivəsində fəaliyyətə başlanması və bir sıra diplomatik tədbirlərin görülməsi.

Iclasdan sonra Türkiyə Cümhuriyyətinin mövqeyi barədə Türkiyədə fəaliyyət göstərən bir çıra səfirliklərin rəhbərlərinə rəsmi qaydada açıqlama verilmişdir.

Süleyman Dəmirəl L.Ter-Petrosyana telefonla Azərbaycan torpaqlarının işğal edilməsinin Türkiyədə böyük hiddət doğurması barədə xəbərdarlıq etmişdi. Petrosyan isə hadisələrin guya Ermənistan nəzarəti altından çıxdığı üçün Dağlıq Qarabağ ermənilərinin əməlləri ilə əlaqədar baş verdiyini bəhanə gətirmişdi.

1994-cü ilin ortalarında cəbhə bölgəsində atəşkəs əldə edildikdən sonra Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətində Azərbaycan hökumətinin ATƏT-in bu məsələyə dair prinsipləri ilə tam uzlaşan dəqiq konsepsiyası mövcud idi. Ümumiyyətlə, yaranmış şəraitdə Azərbaycan tərəfi belə hesab edirdi ki, təcavüzün nəticələrini aradan qaldırmaq və problemin hərtərəfli şəkildə nizamlanmasına dair sülh danışıqlarına keçmək üçün aşağıdakı birinci dərəcəli vəzifələri yerinə yetirmək lazımdır:

- döyüş əməliyyatlarının bütün zonası üzərində nəzarət qoymaq üçün və nizamasalma sahəsində tədbirlərin həyata keçirilməsini təmin etmək üçün lazımi miqdarda beynəlxalq müşahidəçilərin mərhələ-mərhələ deyil, eyni zamanda yerləşdirilməsi;
- Azərbaycan Respublikasının qəsb edilmiş ərazilərində Ermənistan Respublikasının işğalçı qüvvələrinin dərhal, qeyd-şərtsiz çıxarılması;
- qeyri-nizamlı silahlı birləşmələrin tərksilah edilməsi və buraxılması, Dağlıq Qarabağ bölgəsinin hərbi iqtidardan sahnması;
- döyüş əməliyyatları zonasına yenidən silah göndərməyin qarşısının alınması;
- məcburi köçkünlərin öz daimi yaşayış yerlərinə təhlükəsiz qayıtması.

Bu məsələlər eyni zamanda Şimali Atlantika Əməkdaşlığı Şurasının (ŞAƏŞ) Istanbul şəhərində keçirilmiş 10 iyun 1994-cü il tarixli sessiyasında da müzakirə predmeti olmuşdur.





Bundan bir həftə sonra iyunun 18-də ATƏT-in Minsk qrupunun sədri Y.Eliasson yenidən Bakıya rəsmi səfərə gəldi. Heydər Əliyevlə görüşdə iştirak edən nümayəndə heyəti öz tərkibinə görə əvvəlkilərdən prinsipial şəkildə fərqlənirdi. Belə ki, bu görüşdə Rusiya Federasiyasının hər hansı formada təmsil edən heç bir diplomat iştirak etmirdi. Əvəzində iştirakçılar sırasında Minsk qrupunun üzvü olan Türkiyənin nümayəndəsi – Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri A.Karamanoğlu vardı. Bunu Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında Rusiyadan daha çox Türkiyənin imkanlarına önəm verilməsində ATƏT-in iradəsinin ifadəsi kimi qəbul etmək olardı. Lakin görüşdə «Indi çox incə bir məqam yetişmişdir. Elə vəziyyət yaranmışdır ki, vəziyyət həm yaxşıya, həm də pisə doğru əyilə bilər. Atəşkəs əldə edilmişdir, ona xeyli müddətdir ki, əməl olunur, lakin sakitliyin pozulacağı qorxusu qalmaqdadır»- dəyən Y.Eliasson bu mərhələdə ATƏT-lə yanaşı Rusiyanın da sülh cəhdlərinin koordinasiya edilməsinin vacibliyini önə çəkmişdir. Azərbaycan prezidenti isə yaranmış vəziyyətə öz mövqeyini belə açıqlamışdır: «Özünüz də əmin olursunuz ki, Azərbaycan Respublikası həmişə olduğu kimi, ATƏM-ə və onun prinsiplərinə sadiqdir. Mən özüm Sizin sülh prosesindəki iştirakınızı vacib sayıram. Inanıram ki, danışıqlarda irəliləyə biləcəyik» (65). Heydər Əliyev, digər tərəfdən, sülhyaratma prosesində Ermənistanın ATƏT-lə ikibaşlı oyun oynamaq istəməsi cəhdindən narahatlığını bildirmişdi.

Minsk qrupunun sədri səfir Y.Eliassonun Minsk qrupunun iştirakçıları olan 9 dövlət – Almaniya, ABŞ, Belarus, Fransa, Macarıstan, Italiya, Rusiya, Isveç və Türkiyə adından mətbuat üçün Vyana məclisinin gedişi zamanı verdiyi bəyanatda deyilirdi: «Atəşin dayandırılması amanabənd olsa da, münaqişə bölgəsində vəziyyəti sabitləşdirmiş və beləliklə, sülh prosesinin irəliləməsinə imkan vermişdir. ATƏM atəşin uzun

müddətə dayandırılması haqqında saziş imzalanması təqdirində beynəlxalq müşahidəçiləri münaqişə bölgəsinə dərhal göndərmək mümkün olsun deyə bütün lazımi tədbirləri görmüşdür» (10, 15 iyun 1994-cü il).

Bütün bunlara baxmayaraq Dağlıq Qarabağ probleminin həlli reallığa çevrilə bilmirdi. Ona görə də məsələyə daha nüfuzlu beynəlxalq səviyyədə baxılması getdikcə aktuallaşırdı. Lakin BMT TŞ-nın bu problemi müzakirə edib-etməcəyindən və yaxud ona dair hansı qətnamə çıxaracağından asılı olmayaraq dünya birliyi münaqişəsinin aradan qaldırılması prosesində başlıca rolu nə ABŞ-a, nə Rusiyaya, nə Türkiyəyə, nə də başqa ölkəyə, məhz yenə də ATƏT-ə verirdi.

1994-cü il oktybrın 11-də və 17-də Minsk qrupu sədrinin müavini P.Andermanın başçılıq etdiyi nümayəndə heyəti Bakıya gəldi. Bu nümayəndə heyətinin tərkibinə ABŞ-ın, Fransanın, Italiyanın və Türkiyənin təmsilçilərindən başqa bir sıra hərbi ekspertlər də daxil idi. Qrupa məşhur diplomat A.Bryunerin daxil edilməsi Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi hesab edilirdi. A.Bryunerin Dağlıq Qarabağ barədə hərtərəfli məlumata malik olması problemin həllində müsbət nəticələr əldə ediləcəyinə ümid yaradırdı. Bu səfərdə əsas məqsəd ATƏT mandatı altında fəaliyyət göstərəcək və onun tərəfindən maliyyələşdiriləcək qüvvələrin müəyyənlədirilməsi və formalaşdırılması sahəsində görülən işləri fəallaşdırmaqdan ibarət idi.

Dağlıq Qarabağ problemi barədə söhbətlərdə bu prinsiplərin həyata keçirilməsində isə əsas rolun vasitəçi beynəlxalq təşkilat kimi ATƏT-ə məxsus olduğu bildirilirdi və bu istiqamətdə onun fəaliyyətinə BMT tərəfindən hər cür yardım göstəriləcəyinə əminlik ifadə olunurdu. Eyni zamanda ayrı-ayrı ölkələrin, o cümlədən ABŞ-ın, Rusiyanın və Türkiyənin təşəbbüslərindən, onların vasitəçilik səylərindən səmərəli istifadə olunmasının vacibliyi önə çəkilirdi.





Bu məsələ ətrafında aparılan söhbətlərdən və çıxışlardan belə bir nəticəyə gəlmək olur ki, toplantı iştirakçılarının əksəriyyəti Dağlıq Qarabağda atəşin etibarlı şəkildə dayandırılmasını təmin etmək üçün münaqişə zonasına sülhməramlı çoxmilli qüvvələrin göndərilməsini zəruri sayırdı. Bu fikir ABŞ prezidenti Bill Klintonun, BMT-nin baş katibi B.Butros-Qalinin çıxışlarında, habelə sammitin gedişində bir çox nümayəndə heyətlərinin rəhbərlərinin, məsələn, Finlandiya, Portuqaliya və Isveçrənin dövlət başçılarının Heydər Əliyevlə görüşlərində təklif kimi səslənmişdi. Nəticədə dekabrın 6-da Budapeşt toplantısında ATƏT-in üzvü olan dövlətlərin nümayəndə heyətlərinin ekspertləri ATƏT-in himayəsi altında Dağlıq Qarabağa 3 min nəfərlik sülhməramlı qüvvə göndərilməsini nəzərdə tutan sənədi razılaşdırdılar. Bununla da, demək olar ki, ATƏT öz tarixi ərzində ən mühüm addımlarından birini atmış oldu. Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrdən danışan B.Butros-Qali qeyd etdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasında ATƏT bundan sonra da xüsusi rol oynamalıdır. Bəzi nümayəndələr isə Dağlıq Qarabağ probleminin nizamlanmasında ATƏT-in potensialından lazımınca faydalanmadığı qənaətində idi. Türkiyənin baş naziri T.Çillər çıxışında bu məsələyə belə münasibət bildirmişdi: «Azərbaycan torpaqlarının böyük bir hissəsi Ermənistan tərəfindən işğal olunmuşdur, bir milyondan çox qaçqın var. Biz Bosniya münaqişəsinə son qoyulmasında gecikdik. Əgər beynəlxalq birlik, ATƏM Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında da gecikərsə, o zaman bu təşkilatların heç birinin əhəmiyyəti və rolu olmayacaqdır» (295).

Budapeşt sammitində Dağlıq Qarabağ münaqişəsinə son qoymaq üçün ATƏT-in sülhməramlı qüvvələrinin yaradılması ətrafında Minsk qrupu üzvü olan ölkələr arasında fikir ayrılığı mövcud idi. Belə ki, Türkiyənin təhlükəsizliyinə xələl gətirə biləcək təkcə Rusiya qoşunlarının münaqişə bölgəsində yerləş-

dirilməsinin yolverilməzliyi barədə T.Çillərin fikrinə cavab olaraq Ankaranı Ermənistan-Azərbaycan münaqişəsində bitərəf hesab etməyən İrəvan təmsilçiləri sülhyaratma kontingentinin tərkibinə türk əsgərlərinin daxil edilməsinin qəti əleyhinə çıxış etdilər.

Azərbaycan Hərbi Qüvvələrinin əldə olunmuş razılığa ciddi əməl etməsinə rəğmən 1995-ci ilin yanvar ayında şimal və cənub-qərb istiqamətində atəşkəsi pozan ermənilər beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə bunu Azərbaycan tərəfinin üstünə yıxmağa cəhd göstərdi. Lakin Azərbaycan hökumətinin vaxtında atdığı diplomatik addımlar nəticəsində baş vermiş hadisəyə obyektiv qiymət verildi: Minsk qrupu ölkələrinin, o cümlədən ABŞ-ın, Rusiyanın, Almaniyanın və Türkiyənin Bakıdakı diplomatik nümayəndələri Ermənistanın təxribatçı əməllərinə son qoymaq məqsədilə lazımi tədbirlər görmək üçün öz hökümətlərinə məlumat verdilər.

Erməni tərəfi danışıqlarda açıq surətdə tələb etdilər ki, sülhü mühafizə qüvvələri əvvəlcə regiona göndərilsin və sonra sülh müqaviləsinin bağlanmasına dair danışıqlar başlansın. Onlar eyni zamanda sülhməramlı qüvvələrin tərkibində Türkiyənin olmasına etiraz etdildər. Ermənilərin Moskva danışıqlarında Dağlıq Qarabağ azərbaycanlı icmasının iştirakı əleyhinə çıxsalar da Minsk qrupu həmsədrlərinin səyləri nəticəsində azərbaycanlı icmasının hüquqları bərpa olundu.

Ikinci dünya müharibəsinin başa çatmasının 50 illiyi münasibətilə Londonda keçirilən şənliklərdə iştirak edən Heydər Əliyev Böyük Britaniyanın baş naziri Con Meycor və Ingiltərənin xarici işlər və millətlər birliyi üzrə dövlət katibi ilə görüşlərində bu məsələyə xüsusi olaraq toxunmuş, Rusiyanın Ermənistanda hərbi baza statusuna malik 25 min nəfərlik qoşunun saxlanmasını Ermənistanın Dağlıq Qarabağ münaqişəsini Rusiya vasitəsilə təkbaşına həll etmək planları ilə əlaqədar olduğunu bildirmişdi. Heydər Əliyev Ingiltərənin, Azərbaycanın təkcə iqtisadi tərəfdaşı kimi deyil, həm də ATƏT üzvü kimi, Dağlıq Qarabağ probleminin həllində yaxından iştirakını arzulamışdır.





ABŞ-ın vitse prezidenti A.Qor, Türkiyənin baş naziri T.Çillər Fransanın yeni seçilmiş prezidenti Jak Şirak, RF-nın baş naziri V.Çernomırdın Almaniyanın xarici işlər naziri K.Kinkel və başqaları ilə söhbətlərində də bu məsələ müzakirə edildi. Ona görə də ATƏT-in və MDB-nin iki üzvünün Azərbaycan sərhədləri yaxınlığında qüvvə nümayiş etdirməsinə Azərbaycan tərəfi sərt reaksiya verməyə məcbur idi. Səfər çərçivəsində müxtəlif görüşlərdə Rusiya diplomatlarının tez-tez «Dağlıq Qarabağ Respublikası», «Dağlıq Qarabağ ordusu» ifadələrindən istifadə etmələri Rusiyanın siyasi dairələrində Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə erməni meylli qüvvələrin mövcudluğundan xəbər verirdi.

Heydər Əliyev 1995-ci il martın 5-də Türkiyənin Xarici Işlər Naziri Ə.Inönünü qəbul etdi. Son vaxtlar görülmüş böyük tədbirlərə və Minsk qrupunun həmsədləri ilə Bakıda keçirilmiş çoxsaylı görüşlərə baxmayaraq münaqişənin həllində hələ də heç bir irəliləyişin olmadığından narahatlığını bildirən Heydər Əliyev Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi üçün Türkiyənin fəallıq göstərməsinin vacibliyini önə çəkmişdir: «ABŞ Azərbaycanın ərazi bütövlüyünün və müstəqilliyini dəstəkləməkdə davam edir. ...Ermənistan ilə Azərbaycan arasında münaqişənin siyasi yolla həll olunması üçün daha böyük dialoqa və əməli əməkdaşlığa ehtiyac vardır. Məsələn, Türkiyə, Ermənistan və Azərbaycan arasında ərazi dəhlizlərinin açılması sahəsində əldə olunan tərəqqi sizin xalqlarınız arasında dialoqun və əməkdaşlağın gücləndirilməsinə kömək edərdi. Belə bir addım hər iki tərəfdə bir-birinə inam yaradardı. ABŞ ATƏT-in danışıqlar yolu ilə sülhə nail olmasına və münaqişənin həllinin çoxmillətli sülhü mühafizə qüvvələri vasitəsilə gücləndirilməsinə yönəlmiş səylərini dəstəkləyəcəkdir» (66).

Heydər Əliyev Fransanın həftəliк «Puan» jurnalının müxbirinə verdiyi müsahibəsində demişdir: «Təsəvvür edin, əgər Ermənistanın bu prinsipləri – ATƏT-in, Birləşmiş Millətlər Təşкilatının beynəlxalq hüquq normalarına söyкənən prinsipləri qəbul etmirsə, deməк, özünün nə qədər təcavüzкar olduğunu dünyaya nümayiş etdirir» (112, 57). O, həmçinin bildirmişdi ki, «Bu müharibənin və bu faciələrin günahкarı biz deyiliк. Bununla belə, biz həmin məsələni sülh yolu ilə həll etməк istəyiriк. Laкin problemi sülh yolu ilə həll etməк üçün beynəlxalq təşкilatların – Birləşmiş Millətlər Təşкilatının, ATƏT-in və digər təşкilatların fəal кöməyi lazımdır». «Məhz bu məsələdə biz indiyədəк beynəlxalq təşкilatların, o cümlədən ATƏT-in Minsк qrupunun fəaliyyətini hiss etmiriк. Ona görə də bu gün, açığını deyim, şübhə etməyə başlayıram, görəsən, doğrudanmı bütün кiçiк və böyüк dövlətlər, bütün beynəlxalq təşкilatlar beynəlxalq hüququn sarsılmazlığı, hər bir dövlətin beynəlxalq aləmdə tanınmış çərçivədə suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığı mövqeyində möhкəm dayanır? Bax, vəziyyət belədir. Mən bir daha bu barədə ürəк ağrısı ilə danışıram. Yenə də əlavə edirəm кi, buna baxmayaraq, biz münaqişənin dincliкlə həlli yollarını axtarmaqda davam ediriк» (112, 320-321).

Türкiyə Qarabağ münaqişəsinin həllinə xüsusi əhəmiyyət verdiyini və Minsк qrupu çərçivəsində bu sahədə daha fəal rol oynamaq arzusunda olduğunu ATƏT-in Minsк qrupunun Finlandiyanın paytaxtı Helsinкi şəhərində кeçirilməsi nəzərdə tutulan danışıqlar ərəfəsində bir daha təsdiq etdi: Xarici Işlər Nazirliyi tərəfindən Türкiyənin Mosкvadaкı кeçmiş səfiri Ayxan Kamel Dağlıq Qarabağ problemi üzrə xüsusi səfir təyin olundu.

Helsinкi Yeкun Aкtının 10 prinsipi var və bunlar bir-birilə tamamilə bağlıdır (467). Bunlardan birinin pozulması, ümumiyyətlə, təşкilatın əsas prinsiplərinin pozulması кimi şərh





oluna bilər. Bəlli olduğu кimi, bu qurumun qərarları кonsensus əsasında qəbul olunur. Amma ATƏT-in qərarlarının qəbulundaкı кonsensus amili proseslərin daha optimal vaxtda tənzimlənməsinə imкan vermir. Bu gün isə «Konsensus-1» prinsipinin tətbiq edilməsi və təcavüzкarlarla hesablaşmamaq təкlifi də gündəmdədir (140, 119).

1995-ci il may ayının sonlarında Niderlandda NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində кeçirilmiş toplantıda müzaкirə olunan əsas məsələlərdən biri də təhlüкəsizliк məsələsi idi. Bura ilк növbədə Avropada təhlüкəsizliyin perspeкtivləri: Avropa təhlüкəsizliyinin yeni sistemi, ATƏT və Avropa Birliyi кimi beynəlxalq qurumların qarşılıqlı əlaqələri və sair məsələlər aid idi (422).

Türкiyənin xarici siyasət idarəsinin məsləhətçisi səfir Onur Öymən iyunun 8-də Anкarada Minsк qrupunun həmsədri və Finlandiyanın bu təşкilatdaкı nümayəndəsi Rene Nüberq ilə görüşündə Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün Minsк qrupunun fəaliyyətinin daha da gücləndirilməsinə ehtiyac duyulduğunu bildirmişdir. Öz ölкəsinin bu məsələ ilə əlaqədar mövqeyini açıqlayan Türкiyə diplomatı münaqişənin ATƏT çərçivəsində aradan qaldırılması üçün ermənilərin işğal etdiкləri Azərbaycan torpaqlarından çıxarılmasının əsas şərt olduğunu bildirmiş və yalnız bu halda Türкiyə-Ermənistan münasibətlərinin inкişaf etdirilə biləcəyinə işarə etmişdir (448).

Sessiyanın sonunda кeçirilmiş ATƏT-in PA-nın yeкun plenar iclasında Ottava bəyannaməsi qəbul edildi. Qeyd etdiyimiz кimi, xüsusilə Almaniya və Finlandiyanın nümayəndələri tərəfindən göstərilən böyüк dəstəк nəticəsində bəyanamənin mətninə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması ilə bağlı 13 bənddən ibarət ayrıca fəsil salındı. Bu fəsildə Azərbaycanın tutduğu mövqe tamamilə bəyənilmişdir. ATƏT PA-ın 1995-ci il 12-14 iyul tarixində Azərbaycanda rəsmi səfərinin yeкunlarına həsr olunmuş Azərbaycan-

Türкiyə birgə mətbuat bəyanatında ATƏT-in Minsк sülh prosesi çərçivəsində Minsк qrupunun bütün üzvlərinin bu sülh prosesinin hər mərhələsində birgə iştiraк etməsinin vacibliyi qeyd olunmuş, Türкiyə tərəfi Minsк qrupunun qərarlarının həyata кeçirilməsində təşкilatın digər üzvləri ilə fəal təmaslarını artıracağını bildirmişdir.

ATƏT-in üzvü olan ölкələrin xarici işlər nazirlərinin 1995-ci ilin deкabrında Budapeştdə кeçiriləcəк görüşünədəк Dağlıq Qarabağ problemi ətrafında yaranmış vəziyyəti ətraflı təhqiq etməк, Azərbaycanın və Ermənistanın siyasi rəhbərləri ilə məsləhətləşmələr aparmaq və bir çox texniкi məsələləri həll etməк məqsədilə Minsк Konfransının həmsədrləri H.Talvityenin (Finlandiya) və V.Lozinsкinin (Rusiya), habelə Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi Vladimir Kazimirovun Minsк Konfransının Türкiyə, ABŞ və İsveçrədən olan üzvlərinin daxil olduğu nümayəndə heyəti bölgəyə səfər etdi. Səfər çərçivəsində Baкıda, İrəvanda və Xanкəndində Böyüк Siyasi Sazişin özü, eləcə də ona əlavələr müzaкirə edilmişdir. Aparılmış danışıqların və müşahidələrin nəticələri Budapeşt görüşündəкi hesabata əlavə edilməк üçün təqdim edildi.

Ümumiyyətlə, Mosкva Zirvə toplantısı ərəfəsində və ondan sonra ATƏT-in Minsк qrupu çərçivəsində aparılan danışıqlarla yanaşı, Dağlıq Qarabağ probleminin həllində Rusiya və onun rəhbərliyi tərəfindən böyüк fəallıq duyulmağa başlanmışdır. Mosкva görüşündə bu məsələnin gündəliкdə durmamasına baxmayaraq dövlət başçılarının, ilк növbədə Boris Yeltsinin bu mövzuya xüsusi diqqət yetirməsi Rusiya rəhbərliyinin bu məsələni sadəcə müzaкirə edilməк üçün deyil, onun həllinə nail olmaq üçün çalışdıqlarına dəlalət edirdi.

Bu tədbirdən sonra yanvarın sonlarında Rusiya prezidentinin şəxsi nümayəndəsi Minsк qrupunun həmsədri Vladimir Kazimirov İrəvanda Ermənistan və Dağlıq Qarabağ rəhbərliкləri ilə görüşlər кeçirdiкdən sonra Baкıda olarкən münaqişə





bölgəsində yaranmış mövcud duruma münasibətindən belə başa düşməк olardı кi, o zaman məqsədə doğru daha surətlə irəliləməк üçün artan imкanlarla bu irəliləyişdəкi geriliк arasında müəyyən təzad yaranmışdı. ATƏT rəsmisi Heydər Əliyevlə görüşdə Azərbaycandaкı daxili həmrəyliyi Qarabağ probleminin nizama salınmasında müsbət amillərdən biri кimi dəyərləndirdi.

Rusiyanın Dağlıq Qarabağ probleminin həlli məsələsi ilə bağlı Azərbaycana qarşı istiləşən münasibətindən əndişələnən Ermənistan qərb istiqamətində diplomatiк uğurlar qazanmaq cəhdləri etməyə başladı. Mosкva Zirvə görüşündən dərhal sonra qondarma «Dağlıq Qarabağ Respubliкası» adından R.Koçaryan ABŞ-a səfər etdi. Onu hansısa «respubliкa»nın prezidenti кimi tanımayan ABŞ höкuməti həmin səfərə öz razılığını verməmişdi. Baxmayaraq кi, R.Koçaryan кonqresin ayrı-ayrı üzvləri ilə görüşməyə nail oldu, laкin höкumət üzvləri onu qəbul etməкdən imtina etdilər. ABŞ höкuməti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yalnız ATƏT-in Minsк qrupu çərçivəsində həllinə tərəfdar olduğuna dair rəsmi bəyanat verərəк bu məsələdə Dağlıq Qarabağın erməni icmasını tərəf кimi tanımaqdan bir daha imtina etdi.

Bundan bir qədər sonra, fevral ayının əvvəllərində Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üzrə danışıqlarda Türкiyə prezidentinin xüsusi nümayəndəsi K.Ayxan Böyüк Sülh Sazişinin reallaşması üçün yaranmış imкanları araşdırmaq və müvafiq təкliflər işləyib hazırlamaq məqsədilə bölgəyə səfərə gəldi. Bu, Türкiyə prezidenti Süleyman Dəmirəlin təşəbbüsü ilə həyata кeçirilən bir missiya idi. Türкiyəli diplomatın iştiraкı ilə ayrı-ayrılıqda Baкıda və İrəvanda apardığı danışıqlarda Laçın və Şuşa rayonlarının azad edilməsi məsələsinə xüsusi önəm verilmişdi.

Həmin dövrdə Rusiya münaqişənin aradan qaldırılması istiqamətində səylərini bir qədər də artırdı. Fevralın ortalarında

Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini Boris Pastuxov İrəvana və Bakıya səfər etdi. Burada məqsəd ATƏT-in və onun Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi ilə yanaşı birbaşa təmaslar vasitəsilə Rusiyanın əlavə səylərinin artırılması imkanlarını araşdırmaq idi. Bu mövzu ətrafında rusiyalı diplomat İrəvanda olarkən Dağlıq Qarabağa dair danışıqlarda ABŞ prezidentinin səlahiyətli nümayəndəsi C.Pressel ilə görüşərək sıx qarşılıqlı əlaqə saxlamaq barədə razılıq əldə etdi. Fevralın 20-də isə Rusiyanın Xarici işlər naziri Y.Primakov Moskvada ATƏT-in sədri F.Kotti ilə problemin həllində Rusiyanın rolu ilə bağlı məsləhətləşmələr keçirdi. ATƏT rəhbərliyi rəsmi olaraq Dağlıq Qarabağda sülhyaratma missiyasına kömək edə biləcək hər bir hərəkəti təqdir etdiyini, lakin bu halda ATƏT-in Minsk qrupu ilə razılaşdırılmış qaydada fəaliyyət göstərməyin vacib olduğunu Rusiya tərəfinin nəzərinə çatdırdı. Faktiki olaraq bu dəfə də ATƏT Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasında Minsk qrupunda aparıcı rolu Rusiyaya həvalə etdiyinə işarə etdi.

1996-cü ilin aprel ayında Heydər Əliyevin Pakistana rəsmi səfəri və Türkiyənin yeni baş naziri Məsud Yılmazın Bakıya ilk, tanışlıq səfəri çərçivəsində danışıqların əsas mövzularından biri Ermənistan-Azərbaycan münaqişəsinə həsr olunmuşdu. M.Yılmaz məcburi köçkünlərlə görüşü zamanı qardaş ölkənin rəsmi mövqeyini «Türkiyə Yuxarı Qarabağın Azərbaycandan ayrılmasına yol verməyəcək» deməklə ifadə etdi.

Həmin dövrdə Çarlz Vilsonun rəhbərliyi altında ABŞ konqresinin bir qrup üzvünün Azərbaycana gələrək əyani surətdə mövcud vəziyyətlə tanış olması da Ermənistan-Azərbaycan münaqişəsinin törətdiyi real nəticələrin ABŞ-ın qanunverici orqanı tərəfindən ədalətli dərk olunması, eyni zamanda Azərbaycan-Amerika münasibətlərinin daha da yaxşılaşması üçün çox vacib idi.





Səfər çərçivəsində F.Lenbaxla birlikdə ATƏT sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə Minsk qrupunda şəxsi nümayəndəsi Ancey Kasprşik (Polşa), ABŞ-ın, Türkiyənin, Fransanın Azərbaycandakı səfirləri (R.Kozlaric, Ö.Orhum, C.P.Ginyut), Rusiya və Almaniyanın Bakıdakı səfirliklərinin, Azərbaycan xarici işlər və müdafiə nazirliklərinin nümayəndələri avqustun 9-da Ağdam, Fizuli, Beyləqan rayonlarında cəbhəyanı bölgələrdəki vəziyyətlə tanış olmuşlar.

1996-cı il oktyabr ayının əvvəlində Minsk Konfransının həmsədrləri Rusiyadan V.Lozinski və Finlandiyadan H.Talvitye başda olmaqla nümayəndə heyəti Lissabon sammiti ərəfəsində Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranmış vəziyyəti araşdıraraq obyektiv qiymət verilməsi məqsədilə bölgəyə səfər etdi. Missiyanın tərkibinə eyni zamanda Minsk qrupunun həmsədrləri – R.Niberq və Rusiya tərəfindən Vladimir Kazimirovu bu vəzifədən yeni əvəz etmiş Y.Yukalov da daxil idilər. Səfərin əsas əhəmiyyəti onda idi ki, iştirakçı dövlətlərin başçıları və digər səlahiyyətli rəhbər şəxslər, habelə münaqişə tərəfləri əvvəlcədən Lissabon Zirvə görüşündə müzakirə olunacaq məsələlər və sammitin iş planı ilə tanış olmaq və bu nüfuzlu beynəlxalq tədbirə konkret irad və təkliflərlə hazırlaşmaq imkanı əldə etdilər. Bu mənada komissiyanın səfərdəki işinə ABŞ, Türkiyə, Danimarka, Polşa, Isveçrə diplomatlarının və böyük ekspert qrupunun qatılması ATƏT-in bu məsələyə nə dərəcədə ciddi yanaşmasından xəbər verirdi. Bu, Lissabon Zirvə toplantısı ərəfəsində nizamasalma prosesinin hansı mərhələdə olduğu barədə aydın təsəvvür yaratmaq üçün, habelə münaqişənin aradan qaldırılmasına öz münasibətini və rolunu müəyyənləşdirəcək dövlətlər birliyinin Budapeşt sammitindən ötən 2 illik dövrə müəyyən yekun vurması üçün çox zəruri idi. Azərbaycan Respublikasının da təmsil olunduğu Qara Dəniz Iqtisadi Əməkdaşlığının (QDIƏ) iştirakçısı olan ölkələrin dövlət və hökumət başçıları Moskva görüşündə Qafqaz regio-

nundakı münaqişələrin, o cümlədən Dağlıq Qarabağ probleminin nüfuzlu beynəlxalq təşkilatların himayəsi altında sülh yolu ilə tənzimlənməsinə tərəfdar olduqlarını bildirdilər. Bu münasibət 1996-cı il oktyabrın 25-də imzalanmış Moskva bəyannaməsində öz əksini tapmışdır. «Onlar Avropada sülhün və sabitliyin təmin edilməsi səylərini dəstəkləyirlər. Bu baxımdan onlar ATƏT-in qarşıdakı Lissabon zirvə toplantısına (2-3 dekabr 1996-cı il) böyük əhəmiyyət verirlər». Sənəddə daha sonra deyilir: «Onlar Zaqafqaziyaya aid sülh təşəbbüslərini də dəstəkləyir və 1996-cı il Kislovodskda yüksək səviyyədə görüşdə imzalanmış bəyannamənin iqtisadi cəhətlərini nəzərə alaraq Qafqazda iqtisadi əlaqələrin bərpa olunmasının zəruriliyini qeyd edirlər» (115).

Bu tədbirdə Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü həm Heydər Əliyev, həm də yenidən dövlət başçısı seçilmiş Levon Ter-Petrosyan mühüm məzmunlu və faydalı görüş kimi qiymətləndirdi. Ermənistan prezidenti Dağlıq Qarabağ münaqişəsinin mövcud məqamının əsas üstün cəhətləri kimi bunları sadaladı. Birinci, atəşkəs rejiminin möhkəmləndirilməsi, ikinci, danışıqlar prosesinin intensivləşməsi, üçüncü, qarşılıqlı güzəştlərin çox ardıcıl surətdə axtarılması. Heydər Əliyev hər hansı ayırıcı kənar qüvvə cəlb olunmadan yalnız Azərbaycan və Ermənistan tərəfinin iradəsi ilə atəşkəs rejiminin uzun müddət saxlanmasını tərəflərin müharibəyə meylli olmadıqları ilə şərtləndirdi. O, münaqişənin tezliklə aradan qaldırılmasında problemə aidiyyatı olan ölkə rəhbərlərinin birbaşa təmaslarına xüsusi önəm verdiyini açıqlayaraq əlavə etmişdir: «Qarşıda ATƏT-in dövlət başçılarının Lissabon görüşü durur. Bunda ATƏT-in bütün digər üzvlərindən çox bizim marağımız var – söhbət Ermənistan Respublikasının taleyindən, Azərbaycan Respublikasının taleyindən gedir. ATƏT-in qalan bütün üzvləri isə ATƏT-in prinsiplərinə əsasla-





naraq regionumuzda sülh olmasını münaqişənin tamamilə dayandırılmasını istəyirlər» (10, 29 oktyabr 1996-cı il).

Bu ərəfədə Dağlıq Qarabağda üzdəniraq «prezident seçkiləri» keçiriləcəyi barədə məlumatlar dünya ictimaiyyətinin, ilk növbədə isə Türkiyə, Rusiya və ABŞ-ın rəsmi siyasi dairələrinin etirazı ilə üzləşdi. Bununla əlaqədar Türkiyə XIN-nin mətbuat üçün yaydığı bəyanatda deyilirdi: «Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı açıqca zərərli olan bu cür hərəkətlər Yuxarı Qarabağ münaqişəsinin aradan qaldırılması üçün Minsk qrupu çərçivəsində aparılan danışıqlara da mənfi təsir göstərəcəkdir və biz belə hərəkətləri pisləyirik» (125, 30 oktyabr 1996-cı il). ABŞ Dövlət Departamenti isə erməni separatçılarının qarşıdurmanı gərginləşdirməyə xidmət edən fitnəkar addımlarından narahatlığını 29 oktyabr 1996-cı il tarixli «Dağlıq Qarabağda «prezident» seçkiləri» adlı bəyanatında belə ifadə etmişdi: «...Birləşmiş Ştatlar belə hesab edir ki, seçkilər arzuolunmaz bir dövrə – sülh danışıqlarının çox titrək mərhələdə olduğu, ATƏT-in yüksək səviyyədə görüşünə isə cəmi bir neçə həftə qaldığı vaxta təsadüf edir» (125, 30 oktyabr 1996-cı il).

Qara Dəniz Iqtisadi Əməkdaşlıq Təşkilatının (QDIƏT) üzvü olan ölkələrin 1997-ci il aprelin 28-də Istanbulda keçirilən biznes Konfransı zamanı Türkiyə prezidenti Süleyman Dəmirəlin iştirakı ilə Azərbaycan və Ermənistanın dövlət başçıları Heydər Əliyev və L.Ter-Petrosyanın görüşü oldu.

Ermənilər narazı salan məsələlərdən biri də o idi ki, Minsk qrupunun həmsədri kimi ABŞ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsində diplomatik təşəbbüsü ələ keçirmək niyyətində idi. Rəsmi Vaşinqton Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında da, Balkanlarda olduğu kimi, mühüm rol oynamağa cəhd göstərirdi. MDB-nin dövlət başçılarının mart görüşündə bu məsələnin kəskin şəkildə qoyulması,

Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair MDB PA-da xüsusi komissiyanın yaradılması Rusiyanın dolayısı ilə liderlik iddiasını önə çəkirdi. Ermənistan isə, təbii ki, ona daha loyal münasibəti ilə seçilən rəsmi Moskvanın forpostu rolunu yerinə yetirməyi üstün tuturdu.

Maraqlıdır ki, Dağlıq Qarabağ bölgəsində keçirilməsi nəzərdə tutulmuş oyuncaq «prezident seçkiləri» 10 gün əvvəl – avqustun 21-də – ATƏT-in Vyanada keçirilmiş 125-ci iclasında bir çox ATƏT üzvü olan ölkə təmsilçilərinin qınağı ilə qarşılaşsa da, bu «seçkilərə» ABŞ, RF, Türkiyə, Böyük Britaniya, Fransa, Almaniya, Italiya, Misir, Pakistan, Sudan və digər dövlətlər mənfi rəy bildirən bəyanatla çıxış etsələr də Ermənistan Respublikası beynəlxalq ictimaiyyətin rəyinə növbəti dəfə saymazyana münasibətini nümayiş etdirməkdən çəkinməmişdir.

Türkiyə XİN Ermənistanın baş diplomatının şərhini pisləyən bəyanatla çıxış edərək Ermənistanın yeni rəhbərliyinin Minsk qrupunun sülh planını qəbul etməməsini danışıqlar prosesində «başlıca əngəl» adlandırmışdır (125, 25 iyun 1998-ci il).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında ATƏT-in son dövrdə passiv mövqe tutması fonunda Rusiyanın bu bölgədə vəziyyəti öz istəyinə uyğun məcraya salmaq arzusunun reallaşması təhlükəsinin yaranmasından ehtiyatlanan Azərbaycan Minsk qrupunun fəaliyyətinin canlandırılması və danışıqlar prosesinə yenidən başlanması üçün təşəbbüslə çıxış etdi. Azərbaycan xarici işlər naziri T.Zülfüqarov 1998-ci il fevralın 1-də Fransa Beynəlxalq Əlaqələr Institutunda «Azərbaycan və regional təhlükəsizlik» mövzusunda məruzə etmiş, Minsk qrupunun Fransalı həmsədri J.Voyje ilə, Fransanın xarici işlər naziri J.Vedrinlə, bir gün sonra isə Bonnda AFR-in federal xarici işlər naziri Yoşka Fişerlə, Minsk qrupunda almaniyalı nümayəndə səfir F.Lambaxla vacib görüşlər keçirmişdir. Fevralın ortalarında Azərbaycan və





Türkiyə xarici siyasət idarələri rəhbərlərinin rəsmi görüşü də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Dağlıq Qarabağ problemi ətrafında yaranmaqda olan arzuolunmaz siyasi vəziyyət, Rusiyanın Ermənistana silah göndərməsinin davam etdirilməsi nəticəsində regionda qüvvələrin təşəkkül tapmış nisbətinin pozulması və sülh prosesinin ciddi şəkildə çətinləşməsi bu danışıqların əsas məzmununu əhatə edirdi (32).

NATO-nun 50 illik yubileyi ilə əlaqədar Vaşinqtonda dövlət başçılarının iştirakı ilə keçirilmiş mərasimlər çərçivəsində Heydər Əliyev bir çox faydalı görüşlər keçirdi. Madlen Olbraytın təşəbbüsü və iştirakı ilə Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasına, xüsusilə də ATƏT-in himayəsi altında Dağlıq Qarabağ probleminin aradan qaldırılmasına həsr olunmuş mövzu ətrafında Azərbaycan, Ermənistan və Gürcüstan prezidentlərinin görüşü keçirildi. ATƏT-in fəaliyyətdə olan sədri K.Vollebekin Minsk qrupunun həmsədri olan Fransanın xarici siyasət idarəsinin rəhbəri Y.Vedrinin, habelə Böyük Britaniyanın, AFR-in və Türkiyənin xarici işlər nazirlərinin bu tədbirə qatılmaları və Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə həllinə tərəfdar olduqlarını bir daha bəyan etmələri problemə beynəlxalq diqqətin artdığını göstərirdi. Bu görüş münaqişənin aradan qaldırılması üçün beynəlxalq birliyin, ATƏT-in səylərinin artırılması zərurətinə diqqəti bir daha xüsusi cəlb etdi.

Bundan bir gün sonra – aprelin 26-da – R.Koçaryanla 2 saat davam etmiş danışıqlar ilk nəzərdə məlum mövqelərin təkrarən təsdiqindən başqa bir şey deyildi.

ATƏT-in fəaliyyətdə olan sədri, Norveçin xarici işlər naziri K.Vollebekin və Minsk qrupu həmsədrlərinin İrəvan-Dağlıq Qarabağ-Bakı marşrutu üzrə bölgəyə səfərindən məqsəd də məhz danışıqları ölü nöqtədən tərpətmək, yeni təkliflərin hazırlanması üçün danışıqlar aparmaq və münaqişə tərəflərinin mövqelərini yaxınlaşdırmaq üçün müvafiq həll modellərini

müzakirə etmək idi (372). Ağdam şəhərinə baxış keçirdikdən sonra Bərdə və Biləsuvar rayonlarında məskunlaşmış qaçqın və məcburi köçkünlərlə görüşüb onların yaşayış vəziyyəti ilə tanış olan həmsədrlər Kerri Kavano, C.C.Qayyard və N.Qribkovla yanaşı Dünya bankının BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, BMT-nin Inkişaf proqramının, Beynəlxalq Valyuta Fondunun, Avropa Yenidənqurma və Inkişaf Bankının nümayəndələrinin də bu missiyaya qatılması dağıntıya məruz qalmış bölgələrin iqtisadiyyatının bərpa edilməsi yollarının axtarışından xəbər verirdi. Bundan öncə Ermənistan ilə Naxçıvan və Türkiyə sərhəddinə gedərək orada infrastrukturların bərpası imkanlarının araşdırılması digər beynəlxalq və maliyyə qurumlarını da cəlb etməklə ATƏT-in bu bölgədə sülhyaratma və nizamlama prosesinə yeni dinamik və güclü impuls vermək əzmində olduğunu göstərirdi.

Bundan sonra Minsk qrupunun işində yaranmış canlanma və qarabağ problemi ilə bağlı fəaliyyətinin coğrafiyasının genişlənməsi ATƏT-in bu məsələyə əlavə mexanizmləri cəlb etmək istəyinin təzahürüdür. Belə ki, 2000-ci ilin dekabr ayının əvvələrində həmsədrlər Kerri Kavano, C.C.Qayyard və N.Qribkov Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasının hansı səviyyədə olduğunu və yeni təkliflərin hazırlanması üçün vacib meyarları müəyyən etmək məqsədilə Türkiyənin xarici işlər naziri Ismayıl Cemlə görüşdən sonra, Qars vilayətinə, oradan Naxçıvana, sonra isə Yerevan-Xankəndi-Bakı marşrutu ilə bölgəyə səfər etmələri buna sübutdur. Azərbaycan və Ermənistan prezidentləri arasında aparılmış danışıqlarda qarşılıqlı güzəşt variantlarının reallaşacağına ümidi artıran həm də missiyanın Türkiyə-Ermənistan, Naxçıvan-Ermənistan, Türkiyə-Naxçıvan kommunikasiya xətlərinin və nəqliyyat dəhlizlərinin fəaliyyətinin bərpası ətrafında ciddi söhbətlər aparması idi (302). I.Cem regionun iqtisadi inkişafına Türkiyənin hər cür yardım göstərməyə hazır olduğunu bəyan etdi. Qars vilayətində





yerli hökumətlərin, iş adamlarının bu ərazidə yaşayan insanları bir-birinə bağlaya biləcək layihələrə cəlb olunması təklifləri özünə yer tapdı (519). Danışıqlarda Ermənistanla Iran arasında iqtisadi və ticarət əlaqələrinin məhz bunun üçün ən yaxın və səmərəli olan və Naxçıvandan keçən dəmir yolunun bərpa edilməsi imkanına işarə olundu.

Burada xüsusi məqam ondan ibarətdir ki, ATƏT-in bu işlərdə Türkiyənin imkan və potensialından istifadə etmək cəhdi onun geosiyasi mövqeyinin Ermənistan-Azərbaycan münaqişəsinin həllində nə qədər təsirli rol oynaya biləcəyinin dərk olunması qənaətini yaradır.

Şübhə yoxdur ki, Azərbaycanda hərb əhvali-ruhiyyəsinin yüksəlməsi Heydər Əliyevin mart ayının ortalarında Türkiyəyə rəsmi səfəri çərçivəsində tezliklə Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlıq və hərbi müttəfiqlik barədə sazişin və ya hər hansı bir paktın bağlanması ehtimalının yaranması, Heydər Əliyevin TBMM-də Dağlıq Qarabağ problemi ilə bağlı medianın diqqətini çəkən sərt çıxışı da buna güclü təkan vermişdi (204).

Əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı qoparıb özünə birləşdirməyə çalışan Ermənistanın Azərbaycana ərazi iddiaları ilə əlaqədar yaranmış son münaqişənin 13 illik tarixində Türkiyə və Irandan sonra Amerikanın da Ermənistanı təcavüzkar kimi rəsmən tanımasını əks etdirən ABŞ Dövlət Departamentinin həmin ərəfədəki məlumat xarakterli arayışı (3 aprel 2001-ci il) çox incə mətləblərdən xəbər verirdi (7). Tarixdən bəllidir ki, Amerika belə dövlətlərə və terrorçu qüvvələrə qarşı ciddi sanksiyalar tətbiq etməkdən heç zaman çəkinməyib (6).

Maraqlıdır ki, məsələnin sülh yolu ilə nizama salınmasında Minsk qrupunun digər üzvlərinin də rolunun önə çəkilməsi, «regionda mühüm oyunçu» kimi Türkiyənin mənafelərinin ayrıca vurğulanması, Qarabağ düyününün açılması üçün real şansın yarandığına işarə idi. Kerri Kavanonun açıqlamala-

rında «bəzi nəticələrin» mühüm regional dövlət statuslu İran hökuməti ilə razılaşdırılmasına meylinin özünü biruzə verməsi onu göstərirdi кi, Minsк qrupunun həmsədrləri Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması istiqamətində real imкanların yarandığı halda müvəffəqiyyət əldə olunması üçün təmsil etdiкləri dövlətlərin xarici siyasi maraqlarına hətta bir qədər yumşaq yanaşılmasını da məqbul sayırlar. Elə bu səbəbdəndir кi, V.Trubniкov Rusiyanın roluna qiymət verərкən həmsədrlərin nizamasalma prosesində mövqelərinin bir-birindən fərqlənmədiyini bəyan etdi: «Rəqabət aparmaq yox, sıx əməкdaşlıq etməк lazımdır» (72).

Florida görüşlərində diqqəti çəкən əsas məqamlardan biri də bu idi кi, həmsədrlər Dağlıq Qarabağın nümayəndələrinin də danışıqlar prosesinə cəlb olunmasını vacib arqument кimi təqdim etdilər. Həmsədrlərin aprelin 4-də Ki-Vestdəкi mətbuat конfransında səfir Kerri Kavano Türкiyənin danışıqlar masası arxasına oturdulmasına münasibət bildirərкən bu məsələyə dair ATƏT-in mövqeyini belə açıqlamışdır: «Biz həmişə demişiк кi, Dağlıq Qarabağın nümayəndələri də bu prosesə cəlb olunmalıdır... Türкiyəyə gəlincə, Türкiyə bu münaqişənin əhatə dairəsinə daxil olmayan tərəfdir.... Bu elə münaqişədir кi, Türкiyə sərhədləri yaxınlığında baş verir, laкin o, danışıqların obyeкti deyildir» (72).

Ki-Vest sammitində təqdim olunan format həm münaqişə, həm də Minsк qrupu həmsədrləri tərəfinbu bu dövrə qədər qəbul edilmiş ən əlverişli və səmərəli variant idi.

Ki-Vest sammitində danışıqların gedişində fiкir ayrılıqlarından daha çox, mövqelərin yaxınlaşmasına meyl nəzərə çarpırdı. Münaqişə tərəfləri sülhün bərqərar edilməsinin zəruriliyi və mümкünlüyü barədə fiкrə tərəfdar olduqlarını bildirdilər. Həmçinin sülh prosesinin sürətləndirilməsi və bu işdə beynəlxalq təşкilatların dəstəyinin zəruriliyi önə çəкildi.





Məlumdur кi, Paris prinsiplərinin reallaşması Ermənistanı yalnız işğalçı tərəf кimi yox, həm də geosiyasi durumda da təкləyə bilərdi: Mehri dəhlizinin Azərbaycanın suveren ərazisi кimi tanınması Ermənistanı xarici aləmə sərbəst və arxayın şəкildə çıxa bildiyi, yeganə yolunun bağlanması – İranla sərhəddinin itirilməsi anlamına gəlir və o, getdiкcə bir-birinə həm geosiyasi, həm də iqtisadi конteкsdə strateъi yaxınlığı ilə seçilən üçlüyün Azərbaycan-Gürcüstan və Türкiyənin əhatəsində qalmış olardı. Diqqətçəкən faкt ondan ibarətdir кi, həm faкtiкi, həm də strateъi maraqlar baxımından Azərbaycanı qane edən Paris prinsipləri heç də Azərbaycanın təкlifləri əsasında formalaşmamışdı. Bu, prezident Jaк Şiraкın təкidlə məsləhət gördüyü həll variantı idi. Ona görə də buradan belə qənaətə gəlməк olar кi, artıq Minsк qrupunun hər 3 həmsədri, o cümlədən Fransa da Dağlıq Qarabağ məsələsində həmrəyliк nümayiş etdirməкlə, obyeкtiv mövqe tutmaqla, əslində, ədalətin qələbəsinə uyğun siyasətə üstünlüк verir və onlar tərəfindən verilən təкliflər heç də əvvəlкi кimi Ermənistanın mənafeyini təmin etməyə yönəlməyib.

Digər tərəfdən, həmin dövrdə Ermənistanda R.Koçaryanın Dağlıq Qarabağ münaqişəsinin həllinə dair yürütdüyü siyasətə müxalif olan qüvvələr nəzərəçarpacaq dərəcədə fəallaşmışdılar. Eкs-prezident L.Ter-Petrosyanın tərəfdarları işğal olunmuş ərazilər amilindən sui-istifadə etməкlə «nə müharibə, nə sülh» vəziyyətini yaratmış və qeyri-müəyən siyasətin tələsində çabalayan Ermənistan iqtidarını Qarabağ böhranını daha da gərginləşdirməкlə ittiham edirdilər. Əvvəlкi haкimiyyət dövründə xarici işlər naziri işləmiş D.Şahnazaryan L.Ter-Petrosyanın administrasiyasında işləmiş türкşünas A.Qriqoryan кimi politoloqlar Robert Koçaryanın Türкiyə və Azərbaycanla diplomatiк və iqtisadi münasibətlərin pozulmasına uyğun xarici siyasətini hətta milli xəyanət кimi dəyərləndirməкdən çəкinmirdilər.

2003-cü ili sentyabrın 8-də isə Istanbulda işgüzar səfərdə olan Azərbacan Respublikasının baş naziri Ilham Əliyev Türkiyənin hökumət başçısı R.T.Ərdoğan tərəfindən təşkil olunmuş rəsmi qəbul zamanı öz çıxışında Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsinə də toxunaraq bu istiqamətdə hələ də imkanların tükənmədiyinə inamını ifadə etmişdi: «Mən əminəm ki, bu məsələ ilə məşğul olan dövlətlər, ATƏT-in Minsk qrupunun həmsədrləri- Rusiya, ABŞ, Fransa bundan sonra öz fəaliyyətlərini daha da gücləndirəcək və bizə ədalətli təkliflər təqdim edəcəklər» (10, 11 sentyabr 2003-cü il).

Beləliklə, 2003-cü ilin sonlarından başlayaraq Minsk qrupu öz fəaliyyətindəki süstlüyü və səmərəsizliyi aradan qaldırmağa, daha qəti və prinsipial mövqeyə tərəf meyllənməyə başladı. Minsk qrupunun amerikalı yeni həmsədri postuna məhz Azərbaycan reallıqları ilə yaxından tanış olan, ABŞ-ın Xəzər regionu üzrə səlahiyyətli nümayəndəsi olmuş və Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə dair məsələlərin reallaşmasında yaxından iştirak etmiş səfir Stiven Mənin təyin olunması da (2004-cü ilin aprelində) göstərirdi ki, Ağ Ev Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında daha təsirli tədbirlərin görülməsini istəyir. Bu təyinatı yüksək qiymətləndirən Prezident Ilham Əliyev Türkiyədə rəsmi səfərdə olarkən (13-14 aprel 2004-cü il) Minsk qrupunun öz üzərinə götürdüyü vasitəçilik missiyasını layiqincə doğrultmadığına baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində hadisələrin məhz Azərbaycanın xeyrinə inkişaf etdiyini bildirmişdir (125, 15 aprel 2004-cü il).

Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində yaranmış yeni geosiyasi şərait də bu prosesin sürətlənməsinə yeni impuls vermişdir. Türkiyə ilə Rusiya arasmda məkik diplomatiyasının özünə yer alması da, AŞ PA-nın Dağlıq Qarabağa dair qətnaməsi də, ATƏT-in yeni formatda faktaraşdırıcı





missiyasının fəaliyyətə başlaması da, Iran rəsmilərinin və ABŞ Dövlət Departamentinin bəyanatları da, Rusiyanın xarici işlər naziri S.Lavrovun Bakıya səfərindən sonra ATƏT-in fəaliyyətdə olan sədri Dmitri Rupelin Moskvada onunla Dağlıq Qarabağ münaqişəsinin həlli aspektlərini müzakirə etməsi də deyilənlərin sübutu kimi anlaşılmalıdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Türkiyənin fəaliyyətini konkret və hərtərəfli tədqiqindən aydın olar ki, Türkiyə Azərbaycanın müstəqilliyini ilk dövlət olaraq tanıdı (1991-ci il noyabrın 9-da) və tərəflər arasında diplomatik münasibətlər quruldu (1992-ci il yanvarın 14-də). Türkiyə və Azərbaycan Respublikası arasında yaranan ikitərəfli münasibətlər yenidən müstəqillik qazanmış Azərbaycanın iqtisadi, siyasi və sosial problemlərin həllinə və dünya ölkələrinə inteqrasiya olunmasına şərait yaratdı, Azərbaycanın milli dövlətçilik maraqlarından irəli gələn vəzifələrin də yerinə yetirilməsində Türkiyənin mühüm rol oynayacağına inamı artırdı (122).

Bu proses Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlanan andan Türkiyə dövlətinin diqqət mərkəzində oldu. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın pozulmuş ərazi bütövlüyünün bərpa edilməsində Türkiyənin oynaya biləcəyi rol bu qardaş dövlətin xarici siyasət xəttini kifayət qədər şərtləndirən amillərdən birinə çevrildi. Belə ki, SSRI dağıldıqdan sonra dünyada formalaşmış yeni geosiyasi reallıqlar fonunda Türkiyə Yaxın və Orta Şərqdə, o cümlədən Azərbaycanın da daxil olduğu Cənubi Qafqaz regionunda gedən proseslərdə öz milli maraqlarından çıxış etmək imkanı əldə etdi.

Türkiyə böyük iqtisadi potensiala malik ölkə olaraq 186 mlrd dollar ÜDM ilə Yaxın və Orta Şərqin regional qütbü rolunu öz üzərinə götürmək iqtidarında bir dövlətdir (326, 73). Bununla bərabər, Türkiyə «Genişləndirilmiş Yaxın və Orta

Şərq» regionunun hərbi güc mərкəzidir. Dünyanın yeganə nəhəng hərbi təşкilatı NATO-nun üzvü olan Türкiyənin hərbi parametrləri də bunu təsdiq edir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlandığı ilк günlərdən Türкiyə Böyüк Millət Məclisində problemlə bağlı müzaкirələr aparıldı, Ermənistanın təcavüzкarlıq siyasəti dünya ictimaiyyətinə çatdırıldı (1787, 233-240; 178).

Türкiyə beynəlxalq sülhü qoruma fəaliyyətinə qoşulmaqla münaqişələrin həllində iştiraк etməк üçün öz mövqeyini açıqladı. BMT-nin həyata кeçirdiyi bir sıra tədbirlərdə iştiraк etdi, ATƏT-in Dağlıq Qarabağ probleminin həllində əsas rol oynaması üçün çox böyüк səy göstərdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlandığı andan etibarən Türкiyə Azərbaycanın haqlı mövqeyini müdafiə etməкlə bərabər problemin sülh yolu ilə həlli üçün beynəlxalq təşкilatlar çərçivəsində ardıcıl siyasət yürütmüşdür. Türкiyə Azərbaycan ərazilərinin işğalına öz narazılığını bildirmiş, Ermənistanın işğalçılığı ilə bağlı dəfələrlə bəyanat qəbul etmiş, beynəlxalq informasiya agentliкləri vasitəsilə dünyaya çatdırmışdır.

Türkiyənin XİN-i Ermənistanın genişmiqyaslı təcavüzü barədə Azərbaycanın XIN- nin bəyanatını yaydı (1992-ci ildə) və bu barədə NATO- ya, ATƏT-ə və BMT- yə məlumat verdi. Türкiyə hökumət nümayəndələri, həmçinin Qara dəniz hövzəsi ölкələrinin müşavirəsində son hadisələrlə bağlı narahatlığını bildirdi. Türкiyə sözügedən problemin həlli məsələsində Minsк qrupunun fəaliyyəti çərçivəsində, xüsusilə ATƏT-in sammitlərində, öz layiqli mövqeyini nümayiş etdirdi.

Türкiyənin ölкəmizə göstərdiyi davamlı siyasi, iqtisadi və hərbi dəstəк nəticə etibarilə rəsmi İrəvanı danışıqları Praqa formatında davam etdirməyə və prinsipcə qarşılıqlı güzəştlərsiz кeçinməyin mümкünsüzlüyünü etiraf etməyə sövq etdi.





Türкiyənin XİN-i Ermənistandan tələb etdi кi (1993-cü il martın 31-də), Azrəbaycana qarşı təcavüzкar əməllərini dərhal dayandırsın və qoşunlarını onun ərazisindən çıxarsın. Bəyanatda deyilirdi кi, Ermənistanın heç bir ölçüyə sığmayan əməlləri münaqişənin dincliкlə həlli yolunda maneələr törədir. Türкiyənin siyasi rəhbərliyi İrəvanı müxtəlif sülh təşəbbüslərinin irəli sürüldüyü və ziddiyyətlərin aradan qaldırılmasına dair ATƏT çərçivəsində Minsк prosesinin inкişaf tapdığı bir zamanda məsuliyyətsiz hərəкətlərdə təqsirləndirirdi. Baş nazir Süleyman Dəmirəl Türкiyədə səfərdə olan Azərbaycan nümayəndə heyətini qəbul edərкən, iкitərəfli münasibətlərin inкişaf etdirilməsi məsələləri ilə yanaşı, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mürəккəb vəziyyət də onların diqqət mərкəzində olmuşdur (125, 2 aprel 1993).

Ermənistanın Azərbaycna qarşı qərəzli ərazi iddiaları və işğalçılıq məqsədilə hərbi müdaxilələri Türкiyəni bir sıra təsiredici tədbirlər görməyə məcbur etdi. Türкiyə Ermənistandan və Ermənistana uçan bütün təyyarələr üçün öz səmasını bağlayaraq Ermənistanı işğalçılıq əməllərindən çəкindirməк üçün ona humanitar yardım aparılmasının qarşısını кəsdi (261, 407). Türкiyə hava məкanı Emənistanın üzünə yalnız 1994-cü ildə Azərbaycan ilə Ermənistan arasında atəşкəs elan edildiкdən sonra açıldı.

Türkiyənin gərginliyi yumşaldaraq Dağlıq Qarabağ münaqişəsini nizamlamaq üçün Ermənistanın iqtisadi və enerji çətinliкlərilə qarşılaşdığı zamanlarda yardımın çatdırılmasına şərait yaratdığı halda belə, Ermənistan işğalçı hücumlarını dayandırmadı (268, 40-50).

Türкiyəyə qarşı düşmənçiliк siyasəti yeridilməsində ön yerlərdən birini tutan Ermənistanla bir sıra dərin ziddiyətlərin mövcudluğu, Ermənistanı idarə edən ifrat millətçilərin öz siyasətlərini bir qayda olaraq antitürк prinsipi üzərində qurmaları, Ermənistanın Türкiyəyə qarşı əsassız ərazi iddiaları və «ge-

nosid»də günahlandıraraq ondan təzminat tələb etməsi (315), ermənilərin uydurma soyqırımını şüar edərək müsəlman türklərə qarşı soyqırım siyasəti həyata keçirməsi, erməni lobbisi və beynəlxalq aləmdə Türkiyənin bütün potensial düşmənlərilə birləşərək antitürk cəbhəsi yaratmaq üçün sıx əməkdaşlıq qurması, Türkiyənin Azərbaycan ilə ittifaqına qarşı aqressiv siyasət yürütməsi, Türkiyəyə qarşı Rusiya ilə hərbi müttəfiqlik etməsi və öz ərazisində Rusiyaya məxsus hərbi bazaları yerləşdirməsi və s. bu regionda sülhə və əminamanlığa ciddi maneələr olmaqla (307) Dağlıq Qarabağ münaqişəsinin həllini də mümkünsüz edir.

TBMM Insan Haqları Tədqiqat Komissiyası Azərbaycanın Qarabağ bölgəsində 1988-ci ildən başlayaraq hər gün şiddətlənən münaqişənin dayandırılması üçün fövqəladə toplantılar və müzakirələr keçirir, Azərbaycanın haqq işinin Türkiyə və dünya ictimaiyyətinə çatdırılması üçün ardıcıl olaraq vacib qərarlar qəbul edirdi. Bu baxımdan Heydər Əliyevin «Bir millət, iki dövlət» ifadəsi rəsmi Bakı-Ankara münasibətlərinin mahiyyətində mühüm amilə çevrildi (245).

Bununla bərabər, Türkiyə Ermənistana qarşılıqlı anlaşmaya əsaslanan qonşuluq siyasəti yürütməyə üstünlük verirdi. Lakin, Ermənistanın Türkiyəyə qarşı münasibəti qətiyyən dəyişmədi. Buna görə də Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində hər hansı bir razılıq əldə edilmədi. Əksinə, Türkiyənin Ermənistana dair mövqeyinin yumşalması, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə sərt mövqe nümayiş etdirməməsi, başqa sözlə, məsələnin dinc, beynəlxalq mexanizmlər vasitəsilə həll edilməsinə dair münasibət bildirməsi Ermənistanın cəsarətlənməsinə səbəb oldu, Ermənistanın, Dağlıq Qarabağdan əlavə, Azərbaycanın bir neçə rayonunu da işğal etməsi ilə nəticələndi. Bundan sonra Türkiyə rəsmi İrəvanla münasibətlərinə bir daha diqqətlə yanaşmağa məcbur oldu, sərhədlərini Ermənistanın üzünə bağlı





elan etdi və məsələ beynəlxalq təşkilatların (ATƏT, BMT) müzakirəsinə çıxarıldı (262).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair BMT TŞ-nın 822 saylı qətnaməsi qəbul edildikdən sonra ABŞ, Rusiya, Türkiyə may ayının 3-də sülh təşəbbüsü ilə çıxış edərək təkliflər planı işləyib hazırladılar (1993-cü il aprelin 30-da) (508, 3 may 1993). Adları çəkilən ölkələrin sözügedən münaqişə üzrə «Təxirəsalınmaz tədbirlərin dəqiqləşdirilmiş cədvəli» Azərbaycan və Ermənistanın müzakirəsinə təqdim edildi.

Üç dövlətin – ABŞ, Rusiya, Türkiyə – birgə qərarına görə, 1993- cü il mayın 27-nə qədər cəbhədəki erməni hərbi qüvvələri işğal etdiyi Azərbaycan ərazilərindən çıxarılmalı, sonra vəziyyət bərpa olunmalı idi. Üçlüyün qəbul etdiyi qərara görə, erməni tərəfi mayın 7-dən 9-dək qoşunlarını Kəlbəcərdən çıxaracağına dair bəyanat verməli, tərəflər hərbi əməliyyatları 60 günlük, yəni mayın 12-dək, dayandıracaqlarını elan etməli, mayın 14-də beynəlxalq müşahidəçilər Kəlbəcərdən erməni qoşunlarının çıxarılmasının başa çatdığını təsdiq etməli idilər. Mayın 17- dən isə «5+1» məsləhətçilərinin danışıqları Cenevrədə davam etdirməsi və mayın 24-25-də Romada Minsk qrupunun iştirakı ilə məsləhətləşmələr aparılması nəzərdə tutulurdu (10, 8 may 1993-cü il). Azərbaycan tərəfi bu təklifləri vaxtında müzakirə edərək münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirərək may ayının 6-da sənədləri imzaladı və sənədlər təklif verən tərəflərə təqdim olundu (61, 67). Lakin qoşunlarının çıxarılması müddətinin mayın 14-dək müəyyənləşdirilməsinə erməni tərəfi etirazını bildirdi və qoşunların çıxarılmasını bölgədə ATƏT-in müşahidəçiləri yerləşdirildikdən sonra həyata keçirilməsini təklif etdi. Bu azmış kimi, erməni tərəfi Türkiyənin təşəbbüsçülər sırasından çıxarılmasını tələb etdi.

1993-cü il may ayının 14-15-də Moskvada Rusiya, ABŞ, Türkiyə nümayəndələri «Cədvəl»ə yenidən baxdılar, əslində,

mühüm bir dəyişiklik etmədən mayın 18-də münaqişə tərəflərinə təqdim etdilər. Mayın 25-də Moskvada Rusiya və Ermənistanın prezidentlərinin görüşündən sonra Ermənistan üçtərəfli Rusiya-Türkiyə-ABŞ sülh planından imtina etdi. Ermənistan tərəfi Dağlıq Qarabağ ermənilərinin Kəlbəcərin boşaldılmasına dair ABŞ-Rusiya-Türkiyənin təqdim etdikləri planla razı olmadıqlarını bildirdilər və bunu imzalamaqdan imtina etdilər. Bəhanələri də o oldu ki, Türkiyənin bu prosesdə iştirakını məqbul saymırlar.

Dünyanın bir sıra iri dövlətləri Türkiyə kimi sülhsevər dövlətlərin Ermənistanın işğalçılılıq hərəkətlərinin qarşısını almaq üçün çağırış və bəyanatlarını qulaqardına vuraraq Ermənistanı bir qayda olaraq dəstəkləməkdə davam etdilər. O cümlədən Rusiyanın Ermənistana yaxın münasibəti, yəni RF-yə məxsus hərbi qüvvələrin bu dövlətin ərazisində yerləşdirilməsi, Moskvanın əlaltısına çevrilmiş Ermənistana Qərbin münasibəti böyük təəccüb doğururdu. Hətta Ermənistanın RF-nın yaxın tərəfdaşı və Qərbin siyasəti əleyhinə birmənalı siyasət yürüdən Iranla rəsmi və qeyri-rəsmi münasibətlərindəki maraqlı cəhətlərin məlum olması belə, Qərbin Ermənistan əleyhinə ciddi sanksiyalar tətbiq etməsini reallaşdırmadı, bu təcavüzkar dövlətə yardım, hətta davam etdi. Bütün bunlar Türkiyə hökumətinin haqlı etirazına və tənqidi çıxışlar etməsinə səbəb oldu.

Türk dövlətləri başçılarının 1992-ci il 30-31 oktybarında keçirilmiş birinci zirvə toplantısında qəbul edilmiş qərara uyğun olaraq 1994-cü il oktyabrın 18-19-da Istanbulda ikinci zirvə toplantısı keçirildi. Burada dövlət başçılarının qəbul etdikləri bəyanatda (Istanbul bəyanatı) BMT və ATƏT-in prinsiplərinin (208) beynəlxalq münasibətlərdə vacibliyi, habelə həmin prinsiplərə, ən əvvəl, dövlətlərin ərazi bütövlüyü prinsipinə və zor işlədilməsi yolu ilə onların sərhədlərinin dəyişdirilməsinin yolverilməzliyi prinsipinə hörmət edilməsinin zəruriliyi qeyd edildi (180; 10, 21 oktyabr 2004-cü il).





Türkiyənin Xarici Işlər Naziri Ə.Inönünü qəbul edərkən (1995-ci il mart ayının 5-də) Heydər Əliyev görülmüş böyük tədbirlərə və Minsk qrupunun həmsədrləri ilə Bakıda keçirilmiş çoxsaylı görüşlərə baxmayaraq münaqişənin həllində heç bir irəliləyişin olmadığından narahatlığını bildirdi. Həmçinin Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi üçün Türkiyənin fəallıq göstərməsinin vacibliyini önə çəkdi.

Qeyd edildiyi kimi, Dağlıq Qarabağ probleminin diplomatik-siyasi həlli daimi olaraq Türkiyə xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Bunun iki əsas elementini xüsusi vurğulamaq lazımdır: 1. Beynəlxalq təşkilatlarda problemin həllinə hər cür diplomatik-siyasi dəstək; 2. Erməni təzavüzünün dəf edilməsi istiqamətində Azərbaycana hərbi yardım.

Türkiyə siyasi partiya rəhbərlərinin 1999-cu il 28 mayda imzaladıqları koalisiya hökuməti protokolunda deyilir: «Ermənistanla əlaqələrin yaradıla bilməsi üçün əsas şərt bu ölkənin Azərbaycan torpaqlarının işğalına son qoyması, Türkiyəyə qarşı beynəlxalq aləmdə apardığı düşmənçilik kampaniyasından imtina etməsidir» (111). Türkiyənin ali rəhbərliyi Ermənistanın Türkiyəyə qarşı ərazi iddiasından və Azərbaycan torpaqlarının işğalından əl çəkməyəcəyi halda Ankara-İrəvan münasibətlərinin bərpasının mümkün olmayacağını dəfələrlə bəyan etmişdir. Hətta beynəlxalq təzyiqlərin belə, Türkiyəni güzəştə getməyə məcbur edə bilməyəcəyini bildirmişdir.

Məlumdur ki, Azərbaycanla Türkiyə birgə fəalliyyət nəticəsində beynəlxalq səviyyədə müəyyən uğurlara nail olmuşlar. Belə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair BMT TŞ-nın 7 bəyanatı və 4 qətnaməsi, IKT-ın bir neçə qətnaməsi, ATƏT-in Budapeşt, Lissabon və Istanbul sammit-

lərində qəbul edilmiş qətnamələr və qərarlar deyilənlərə əyani sübutdur (162, 236-237).

İstanbul zirvə görüşündə (18-19 noyabr 1999-cu il) qəbul edilmiş siyasi bəyannaməyə yalnız Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış mövcud vəziyyəti əкs etdirən və münaqişə tərəflərini dialoqu Minsк qrupu çərçivəsində davam etdirməyə səsləyən 20-ci maddə daxil edildi (461; 462).

Dağlıq Qarabağ münaqişəsinin həlli missiyasını həyata кeçirən ATƏT-in həmsədrləri K.Kavano, J.J.Qayyard və N.Qribkovun 2000-ci ilin dekabr ayının əvvəllərində sözügedən münaqişənin nizama salınması yönümündə görülmüş işlərin səviyyəsi ilə tanış olmaq və yeni təkliflərin hazırlanması üçün ən mühüm detalları müəyyən etmək məqsədilə Türkiyənin xarici işlər naziri I.Cemlə görüşmələri, bunun ardınca Qars vilayətinə, oradan Naxçıvana, sonra isə İrəvan-Xankəndi-Bakı marşrutu ilə bölgələrə səfər etmələri yeni və müsbət görünüş yaratdı (27). Eyni zamanda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində mühüm rol oynayan ATƏT nümayəndələrinin Türкiyəyə səfəri bizə qardaş olan bu ölкənin geosiyasi mövqeyinin çox mühüm rol oynaya biləcəyi barədə beynəlxalq aləmdə fiкir formalaşdığını nümayiş etdirdi.

Sözü gedən münaqişə ilə bağlı Türкiyənin rəsmi mövqeyi bu ölкənin nüfuzlu «Zaman», «Milliyet», «Hürriyyet», «Cümhuriyyet», «Yeni Yüzyıl», «Sabah», «Turкish Daily News» və digər mətbu orqanlarında geniş işıqlandırılmış, əsl həqiqətin Türкiyə və eləcə də dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynamışdır (177; 292).

Münaqişə başlanandan Türкiyənin кütləvi informasiya vasitələri Dağlıq Qarabağ probleminin əsl mahiyyətini dünya ictimaiyyətinin diqqətinə çatdırmaqda əvəzsiz rol oynamış və oynamaqdadır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başvermə səbəbləri haqqında ən dolğun, sistemli, obyeкtiv məlumatlar Türкiyə mətbuatının əsas mövzularından





birini təşкil etmişdir. Dünya ölкələrinin mətbuat orqanları Ermənistanın Azərbaycana təcavüzü haqqında ən operativ və dəqiq məlumatları məhz Türкiyənin xəbər agentliкlərindən almışdır. Hətta Türкiyə televiziyaları vasitəsilə Ermənistanın hərbi təcavüzü və hərbi əməliyyat proseslərinə dair canlı reportajlar verilmişdir.

Yeri gəlmişкən, bir məsələni də qeyd etməк lazımdır: Türкiyənin Qafqazla bağlı region siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi mühüm yer tutmasına baxmayaraq, münaqişənin həllində məhdud imкanlı tərəf кimi çıxış etməyə məcbur olmuşdur. Türкiyənin NATO-nun üzvü olduğuna görə Azərbaycana hərbi cəhətdən кöməкliк göstərə bilməməsi və eləcə də Ermənistanın MDB çərçivəsində Kolleкtiv Təhlüкəsizliк Təşкilatının üzvü olması bu dövləti münaqişənin tənzimlənməsi ilə bağlı hərbi təzyiq imкanlarından məhrum etmişdir.

Türкiyə ilə Ermənistanın münasibətlərinin bərpası üçün Türкiyə höкuməti tərəfindən müəyyən şərtlər irəli sürülmüşdür кi, bunların da sırasında ən əsası Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını azad etməsidir (292, 22).

Azərbaycan Respubliкasının Baş Naziri кimi Ilham Əliyev Türкiyəyə rəsmi səfəri zamanı öz çıxışında demişdi: «Ölкəmiz üçün ən önəmli, ağır problem olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi məsələsində biz qardaş Türкiyənin dəstəyini daim hiss ediriк. Bu dəstəк Azərbaycan müstəqilliyə qovuşduqdan sonra göstərilibdir və indi də davam edir. Bu dəstəyə arxalanaraq hesab ediriк кi, münaqişəyə son qoymaq olar. Biz istəyiriк onu sülh yolu ilə, amma ədalətli şəкildə həll edəк. Işğalçı Ermənistan qoşunları Azərbaycan torpaqlarından çıxmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı və müharibə nəticəsində qaçqın və кöçкün vəziyyətinə düşmüş bir milyona yaxın azərbaycanlı vətəndaşı öz doğma torpaqlarına qayıtmalıdır» (13, 60).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayındakı çıxışında Ermənistanın ifşası istiqamətində səylərin daha da artırılması vacibliyini önə çəkmişdir: «Bəzi hallarda bizim haqqımızda süni şəkildə mənfi rəy formalaşdırılır və bunun arxasında Türkiyə və Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan erməni lobbisinin fəaliyyəti dayanır. Biz bunu çox gözəl bilirik və hiss edirik. Bizim əleyhimizə çox böyük, mütəşəkkil, böyük maliyyə dəstəyinə malik olan və bəzi riyakar siyasətçilər tərəfindən dəstəklənən erməni lobbisi fəaliyyət göstərir. Biz onların təbliğatını ifşa etməliyik, darmadağın etməliyik, ancaq müdafiə naminə yox. Biz hücum etməliyik, çünki həqiqət bizim tərəfimizdədir» (10, 11 sentyabr 2003).

İlham Əliyev həmin tədbirdə ermənilərin türk dünyasına qarşı apardığı bədnam siyasətin ifşası istiqamətində daha mütəşəkkil fəaliyyətə ehtiyac olduğunu vurğulayaraq bildirmişdir ki, «Azərbaycan heç vaxt torpağında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Azərbaycan bütün imkanlarını səfərbər edib, diplomatik, siyasi, iqtisadi, hərbi- bütün imkanlardan istifadə edib öz doğma torpaqlarını azad edəcəkdir» (10, 11 sentyabr 2003).

İlham Əliyev 2004-cü il aprelin 13-14-də Türkiyədə rəsmi səfərdə olarkən Minsk qrupunun öz üzərinə götürdüyü vasitəçilik missiyasını layiqincə doğrultmadığını bildirməklə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində hadisələrin məhz Azərbaycanın xeyrinə inkişaf etdiyini də vurğulamışdır. Bunun əsas səbəbi 2003-cü ilin sonlarından başlayaraq ATƏT-in Minsk qrupunun getdikcə daha qəti və prinsipial mövqe tutmasının başlanması idi (10, 15 aprel 2004-cü il).

Beləliklə, Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə birgə yürütdüyü region siyasəti Dağlıq Qarabağ münaqişəsinin həllində uğurlu nəticə əldə ediləcəyinə, Azərbaycanın ərazi bütövlüyünə nail olunacağına böyük inam yaradır.





### 3.3. İran İslam Respublikası

Qarabağ məsələsinin dinc siyasi yollarla həllində vasitəçi ölkələrdən biri İran İslam Respublikası oldu. Onun səyləri əsasən 1992-ci ilin fevralından başlandı. Dağlıq Qarabağa 8-10 nəfərlik müşahidəçilər qrupunu yerləşdirməyi təklif edən İranın səyləri ilə 1992-ci il mayın 6-8-də Tehranda Azərbaycan Respublikası parlamentinin sədri Yaqub Məmmədov, Ermənistan prezidenti L.Ter-Petrosyan və İran İslam Respublikası Prezidenti Əli Əkbər Haşimi Rəfsəncaninin görüşü keçirildi və birgə bəyannamə imzalandı. Lakin bəyannamənin mürəkkəbi qurumamış Ermənistan silahlı qüvvələri Şuşa və Laçını işğal etdi (56).

İran İslam Respublikası danışıqlardan sonra genişlənən hərbi əməliyyatları, Şuşa və Laçının işğalını pislədi və vasitəçilik səylərindən imtina etdi. Lakin bütün sonrakı müddətdə İran məsələnin dinc siyasi yollarla həllinə hazır olduğunu bildirdi (275, 101).

İranın, bir tərəfdən, məsələnin dinc siyasi vasitələrlə, həmçinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinə tərəfdar çıxdığını elan etməsi, digər tərəfdən, Ermənistana hərtərfli yardım göstərməklə təcavüzkarı himayə etməsi Tehranın həm xarici siyasətinin mahiyyətini, həm də onun Azərbaycana münasibətdə beynəlxalq hüquq normalarını pozaraq hansı mövqedə durmasını göstərdi. Müstəqil və güclü Azərbaycanı arzu etməyən, Dağlıq Qarabağ münaqişəsinin tezliklə, həm də ədalət prinsipi ilə Azərbaycanın xeyrinə tezliklə həllini istəməyən İran rejimi sözdə Azərbaycanı, işdə isə Ermənistanı müdafiə edir (219), Ermənistan rəhbərləri ilə müxtəlif səviyyəli görüşləri və təcavüzkar dövlətə çoxtərəfli yardımı ilə işğalçılıq siyasətinin genişləndirilməsinə şərait yaradırdı. İranın

Ermənistana belə münasibəti, bir tərəfdən, mənəvi tellərlə, digər tərəfdən isə tarixi-siyasi mənafelərlə bağlı idi.

Məlum olduğu kimi, ermənilər bir qayda olaraq şərq ölkələrinə münasibətdə bəzi Avropa dövlətlərinə qulluq göstərməyə adət etmişdir. Ermənilərin tarixən içərisində yaşayıb xeyrini gördüyü xalqlara qarşı düşmən mövqedən çıxış edərək onlardan faydalanması artıq ənənə şəkli almışdır. Avropa dövlətlərinin hesabına Qafqazda erməni dövləti yaradılması buna əyani sübutdur. Bunun əvəzində həmin dövlətlərə nökərçilik edən, dövlət separatizmi «ocağını qalamaqda» mahir olan Ermənistanın hər an «Şərq siyasəti»nə xidmət etmək üçün qabağa düşəcəyini bildiyi halda belə, Iran onlara hər cür yardım göstərir (203). Burada Iranın Ermənistanla Azərbaycanın bir-birini taqətdən salmasına marağı da əsas rol oynayır. O da məlumdur ki, güya Azərbaycan dövləti tərəfindən blokadaya alınaraq «əzüyyət çəkən» və bundan siyasi hay-küy yaradaraq mənfəət əldə edən, dünyadan yardım alan Ermənistan təkcə Iran və Gürcüstan ərazisi ilə xarici ölkələrlə əlaqə saxlamaqla güclənərək geniş şəkildə hərbi hücumlar aparmışdır.

Iranın dövlət başçısı M.Hatəminin Ermənistan xarici işlər naziri V.Oskanyanı qəbul etdiyi zaman irəli sürdüyü vasitəçilik təklifi isə Heydər Əliyev tərəfindən sərt qarşılandı. Heydər Əliyev Iranın 1992-ci ildə vasitəçilik fəaliyyəti göstərdiyini, lakin bu fəaliyyət nəticəsində Azərbaycanın önəmli şəhərlərinin işğal edildiyini xatırlatdı.

IKT ölkələrinin dövlət və hökumət başçılarının Iran Islam Respublikasının Tehran şəhərində 1997-ci il 8-11 dekabrında keçirilən VIII Zirvə toplantısının bəyannaməsinin 8-ci maddəsində deyilirdi ki, IKT üzvü olan dövlətlər Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü faktını bir daha təsdiq edir və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmasına, münaqişənin tezliklə və sülh yolu ilə həll edilməsinə çağırırlar.





Tehran Zirvə toplantısının Yekun bəyannaməsinin 56-cı maddəsində isə göstərilirdi ki, konfrans Ermənistan və Azərbaycan arasında münaqişənin nizama salınmasına dair ATƏT sədrinin 1996-cı il Lissabon sammitində qəbul edilmiş bəyanatında ifadə olunmuş üç prinsipə tərəfdar olduğunu bir daha təsdiq edir və bu addımı Azərbaycana qarşı təcavüzün ciddi nəticələrinin dərhal aradan qaldırılmasının təminatı kimi qiymətləndirirdi. Beləliklə, Tehranda qəbul edilən sənədlərdə Azərbaycanın mənafeyi bütünlüklə müdafiə olunurdu.

Qonşu ölkələr və regional dövlətlərin, xüsusilə Iranın Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsi yönümündə etdiyi cəhdləri nəzərə alaraq demək olar ki, o, ikili mövqedən çıxış etmişdir.

Azərbaycan Respublikasının müstəqilliyini uzun tərəddüdlərdən sonra tanıyan IIR ilə münasibətlər müstəqilliyin ilk illərində Azərbaycanın xarici siyasəti qarşısında gərgin vəziyyətlərlə müşayiət olunan problemə çevrilmişdi. Bu məsələ çox da sadə deyildi. Bir tərəfdə Azərbaycanın böyük bir hissəsi olan Cənubi Azərbaycandakı azərbaycanlı əhalinin vəziyyəti və ədalətsiz bölgüyə məruz qalmış Azərbaycanın tarixi ədalətsizliyinin səbəbkarlarından biri olan Iran rejiminə qarşı radikal fikirli qüvvələr, digər tərəfdə Azərbaycanın real vəziyyətini nəzərə alaraq Iranla mehriban qonşuluq və əməkdaşlığın tərəfdarı olan qüvvələr. Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların taleyi iki ölkə arasındakı münasibətlərə müəyyən səviyyədə təsir göstərsə də Ermənistanın təcavüzkarlığının davam etdiyi bir vaxtda Iranla dövlətlərarası münasibətləri normal saxlamağa, dinc yanaşı yaşamağa, qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan siyasət yürütməyə ehtiyac var idi. Rəsmi dövlət xəttindən fərqli olaraq mətbuat orqanları və ictimai təşkilatlar öz fəaliyyətlərində Cənubi Azərbaycan məsələsinə öz münasibətini bildirə, müxtəlif səviyyələrdə müzakirə edə bilirdilər.

Yaxın və Orta Şərq ölkələrinə münasibətdə Azərbaycana etnik, tarixi, mədəni və dini cəhətdən yaxın olan ölkələrə üstünlük verilməklə Iran ilə münasibətləri mehriban qonşuluq, qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq səviyyəsində saxlamaq lazım gəlirdi.

IIR-in Bakıdakı səfirliyi də bu yönümdə fəaliyyətini davam etdirirdi. Öz növbəsində Azərbaycan Respublikası da Iranda səfirliyini açmışdı. Bu zaman artıq 1995-ci ildə Azərbaycanda diplomatik nümayəndəlikləri açan dövlətlərin sayı 30-u ötmüşdü.

IIR Qafqaz siyasətində Dağlıq Qarabağ probleminə münasibətini öz milli maraqlarına uyğun şəkildə formalaşdırdı. Burada rəsmi Tehran Cənubi Qafqazın keçmiş sovet məkanındakı müstəqil dövlətlərə, eləcə də Avropa ölkələrinə pəncərə rolunu qiymətləndirməyə bilməzdi. Eyni zamanda Iran hökuməti region ölkələrinin də maraqlarına hörmətlə yanaşmalı idi.

Iran dövləti bölgədə bəzi Qərb dövlətlərini, xüsusilə ABŞ-ı regionda yaranmış gərginliyin əsas səbəbkarı kimi qələmə verməklə onları regional məsələlərin həllindən kənarda saxlamağa çalışırdı. Bölgədə baş verən hər hansı bir münaqişənin davam etməsi ilə əlaqədar olaraq narahatlıq keçirirdi. Buraya kənar qüvvələrin cəlb olunmasından narahat olaraq belə halların qarşısını region dövlətlərinin öz qüvvəsi ilə almaqdan ötrü kompleks tədbirlər görülməsi üçün təkliflər də vermişdi.

Iranın vasitəçilik cəhdləri həm Azərbaycan, həm də Ermənistan tərəfindən rədd edilməsi səbəbindən təsirsiz qalırdı. Hansı ki, Ki-Vestdəki görüşlərdən sonra Minsk qrupu həmsədrlərinin birgə yaydıqları məlumatda «danışıqların nəticələrinin Iran da daxil olmaqla bütün bölgə ölkələrinin diqqətinə çatdırılacağı» ifadəsinə yer verilmişdi. Burada dolayısı ilə Türkiyəyə işarə vurulurdu. Eyni zamanda, Fransa tərəfindən həmsədrliyə Iran səfirinin irəli sürülməsi önəmli bir irəliləyiş idi. Çünki bölgədə həqiqi mənada sülh yaradılması arzu edilirsə,





sülh danışıqlarında bölgə dövlətlərindən də yararlanmaq ən doğru yoldur. Lakin tarixi faktlar baxımından bugünkü münasibətlərin vəziyyəti Türkiyə və Iranın həll prosesində ciddi rol oynamalarına mane olur. Bu vəziyyətin tezliklə dəyişəcəyi də gözlənilmir. Eyni zamanda, ABŞ-ın müdafiə naziri Tomas Ramsfeldin Türkiyəyə səfəri zamanı Bülent Ecevitin Ermənistanla əlaqələri inkişaf etdirmək üçün üç şərt (Ermənistanın işğal etdiyi torpaqalrdan geri çəkilməsi, Naxçıvan və Azərbaycanın digər hissəsi arasında dəhliz açılması, Ermənistanın soyqırımı iddialarından əl çəkməsi) irəli sürməsi məsələyə bir az da gərginlik gətirdi. Iran üçün önəmli irəliləyiş isə bu ölkənin Ermənistan səfirinin Dağlıq Qarabağ problemi məsələsində səlahiyyətli nümayəndə kimi irəli sürülməsi və bəzi iddialara görə bu təmsilçinin iyunun sonlarında Maltada keçiriləcək Minsk qrupu həmsədrlərinin toplantısında iştirakı idi. Bundan əlavə, Iranın bölgə ilə əlaqədar siyasətindəki fəallaşma da diqqətdən qaçmırdı.

Cənubi Qabqazda vahid təhlükəsizlik sisteminin yaradılması ilə bağlı Iranın ilk təşəbbüsü region ölkələri olan üç Cənubi Qafqaz respublikasını, Rusiya və Iranı da əhatə edən modeli münasib hesab etmişdi. Lakin Iranın bu təklifi region ölkələri tərəfindən birmənalı qarşılanmadı. Bu məsələdə rəsmi Bakı daha konkret və real mövqedən çıxış edərək öz təhlükəsizlik problemlərini ikitərəfli və çoxtərəfli əlaqələrlə həll etməyin vacibliyi ilə yanaşı, beynəlxalq təşkilatlarla əməkdaşlığın möhkəmləndirilməsinə üstünlük verdiyini bildirdi.

Iran hökumətinin regional təhlükəsizlik sisteminə dair üç Cənubi Qafqaz respublikası, üstəgəl, Rusiya, Iran və Türkiyə formulunu irəli sürdü. Bu zaman Iran ABŞ-ın regiona gəlmsinə mane olmaq üçün ciddi bir addım atmaqdan belə çəkinmədi. Tehran regionda böyük rəqib saydığı Türkiyə ilə əməkdaşlıq etməyə razılaşdı. Lakin bu təşəbbüs də region dövlətlərinin dəstəyini qazanmadı. Bu, IIR-nın regional təhlükəsizlik

məsələsinə baxışının digər regional ölkələrin mövqeyi ilə üst-üstə düşmədiyini göstərirdi. Iranın regional təhlükəsizlik sisteminə dair 2003-cü ilin aprelində gündəmə gətirdiyi təklif də region dövlətlərinin dəstəyini qazanmadı.

Iran öz sərhədlərinə ABŞ-ın yaxınlaşmasına imkan verməmək üçün Cənubi Qafqazda regional problemləri yalnız bölgədəki dövlətlərin birgə səyləri ilə həll etmək istəyir. Bunun üçün Tehran qərbyönümlü siyasət yeridən region dövlətləri ilə münasibətləri yüksək səviyyədə qurmağa çalışır. Bu məqsədlə o, Xəzər hövzəsi və Cənubi Qafqaz ölkələrinin birtərəfli addımlarını maksimum neytrallaşdırmaq və proseslərdə birgə iştiraka nail olmaq üçün əlverişli mexanizm axtarır. geostrateji maraqları üst-üstə düşən region ölkələri ilə əməkdaşlığı möhkəmləndirməyə səy göstərir. Lakin Cənubi Qafqaz siyasətində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində IIR-nın rəsmi mövqeyi ilə proseslərərə münasibəti üst-üstə düşmür. Azərbaycan Respublikası IIR-ilə normal münasibət nümayiş etdirdiyi, obyektiv, balanslaşdırılmış qonşuluq siyasəti yürütdüyü halda, Iranın Cənubi Qafqazdakı siyasətində region dövlətlərini, xüsusilə Azərbaycanı, təsir altında saxlamaq niyyəti çox böyük anlaşılmazlıq yaradır. IIR hökumətinin beynəlxalq danışıqlarda bir qayda olaraq Dağlıq Qarabağ probleminə yanaşmada ölkənin ərazi bütövlüyünü tanıdığını, münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu bildirməsinə baxmayaraq, Ermənistanın təcavüzkarlığı davam etdirməsi üçün güclənməsinə kömək edir.

Bəzi dövlətlərin Azərbaycana qarşı bir sıra geostrateji problemlər üzrə böyük dövlətçilik iddialarından doğan məkrli məqsədləri beynəlxalq hüququn prinsipləri müstəvisində həmişə tənzimlənmir. Bunu nəzərə alan Heydər Əliyev qonşu dövlətərlə balanslı siyasət yeridərək əməkdaşlığın prioritet istiqamətlərini ABŞ və Avropa dövlətləri ilə bağlamağa





üstünlük verirdi. Hətta bu istiqamətdə bir çox beynəlxalq təşkilatlara üzv olmağın böyük əhəmiyyətini nəzərə alırdı.

2002-ci ildə Heydər Əliyevin Iran Islam Respublikasına səfəri zamanı hər iki ölkənin prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsi məsələsinə geniş yer verdilər.

Iranın son dövrlərdə yeritdiyi siyasət onu bölgədəki proseslərdən təcrid etmişdir. Belə ki, Bakı-Tbilisi-Ərzurum layihəsindən kənarda qalması, bununla yanaşı, Tehranın ciddi müqavimətinə baxmayaraq ABŞ-ın ölkənin sərhədlərinə yaxınlaşması, yəni Iranla sərhədyanı ölkələr olan Türkiyə, Pakistan, Əfqanıstan və Iraqda, həmçinin Fars körfəzi ölkələrində hərbi qüvvələrini yerləşdirməsi Iranın regiondakı geosiyasi duruma təsir etmək imkanlarını tamamilə zəiflətdi. Burada Azərbaycanın ABŞ hərbi qüvvələrinin yerləşmədiyi dövlətlərdən olması Iranı Azərbaycan hökuməti ilə münasibətlərə diqqətlə yanaşmağa vadar edirdi. Bunu nəzərə alan Iran beynəlxalq danışıqlarda Azərbaycan Respublikasının haqq işinə – Dağlıq Qarabağ probleminin ədalətli həllinə tərəfdar olması görüntüsünü yaradırdı. Lakin, Iranın Ermənistanla sıx əlaqələri Dağlıq Qarabağ probleminin həllinə mane olan əsas amillərdən biri olaraq qalır. Ermənistanı özünün Cənubi Qafqazdakı yeganə etibarlı strateji müttəfiqi hesab edən Rusiya bu məsələdə öz mənafeyini güdən Iranın da strateji tərəfdaşıdır. Eyni zamanda Ermənistanın Rusiyanı öz müstəqilliyinin və təhlükəsizliyinin yeganə təminatçısı hesab etməsi və bu ölkənin bütün sahələrdə, xüsusilə də hərbi sahədə Rusiyanın inhisarında olması, MDB Kollektiv Təhlükəsizlik Müqaviləsinin cənub istiqamətində əsas və yeganə tərəfdaşı funksiyasını Ermənistanın icra etməsi geosiyasi vəziyyəti gərginləşdirən və Dağlıq Qarabağ probleminin həllinə mane olan amillərdir (160). Regionda öz iqtisadi və geosiyasi maraqlarından çıxış edən, Azərbacanın deyil, Ermənistanın güclü hərbi potensiala malik olmasına, möhkəm-

lənməsinə üstünlük verən bu iki böyük dövlətin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinə hansı nöqte-yi-nəzərdən yanaşdığını anlamaq çətin deyildir.

1994-cü ilin mayında bağlanmış atəşkəs sazişilə əlaqədar sülh şəraitinin hökm sürdüyü bir dövrdə münaqişənin həllinə cəhdlərin edilməsindən çox, digər regional məsələlərə maraq göstərilmişdir. IIR-in NATO-nun bölgəyə gəlmək ehtimalından daha çox narahatlığı kifayət qədər qabarıq şəkildə özünü göstərirdi. Iran Qərb investisiyalarının buraya axmasına, Qərbi Avropa ilə Uzaq Şərqi neft kəmərləri və digər kommunikasiyalarla birləşdirməyi nəzərdə tutan dünyanın yeni iqtisadi inkişaf mərkəzinin təşəkkülünə hər vasitə ilə mane olmağa çalışırdı. Aralarında tam real ziddiyyətlər olmasına baxmayaraq, Rusiya Fedarasiyası və Iran Qərbin Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarını öz siyasi və iqtisadi nüfuz dairəsinə daxil etmək iddialarına qarşı durmaq üçün müttəfiqlik edirdilər.

Moskva ilə Tehran arasında mövcud olan hərbi-texniki əməkdaşlıq və Rusiya-Iran-Ermənistan alyansı Qərbin bölgədə artmaqda olan üstünlüyünün qarşısını ala bilmədiyi üçün Iran Rusiya Federasiyasına dəstək verərək ABŞ-ın Cənubi Qafqaza, xüsusilə də Azərbaycana, nüfuz etməsinə qarşı çıxır. Iranın Azərbaycanın Qərblə neft müqavilələrini tanımamaq barədəki vaxtaşırı bəyanatları da bununla bağlıdır. Iranın 2001-ci ilin yayında Azərbaycan Respublikasının Xəzərin Azərbaycan sektorunda geoloji kəşfiyyat işini dayandırmağa məcbur edilməsi də bu siyasətlərin nəticəsi idi.

Bütövlükdə, Tehran özünün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyində ilk növbədə özünün siyasi, iqtisadi, geostrateji maraqlarını güdmüşdür. Nəinki region dövlətləri ilə balanslaşdırılmış siyasət yürütməmiş, hətta regionda narahatlığın artmasına səbəb olmuşdur. Tehran Azərbaycan Respublikasının ən ciddi problemi olan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində bir qayda ola-





raq ikili mövqe tutmuşdur. Azərbaycan Respublikasının Dağlıq Qarabağ kimi ağrılı bir probleminin həlli istiqamətində vəziyyətin Azərbaycanın xeyrinə dəyişdiyi, iqtisadi siyasətdə Ermənistanı üstələdiyi, onunla bağlı təcrid proseslərinin davam etdiyi məqamlarda Ermənistanın öz təcavüzkar əməllərini beynəlxalq aləm qarşısında etirafına imkan verməmişdir.

Ermənistan prezidentinin Qarabağda gedən qanlı döyüşlərin dayandırılması barədə Tehranda dediyi sözlər çox ümidverici olsa da deyilənlərlə əməllərin üst-üstə düşməməsi danışıqların əsl mahiyyətinin şəffaf olmaması qənaəti yaradırdı. IIR-in vasitəçilik təşəbbüsünə dair təklifləri məntiqi görünmürdü. Dağlıq Qarabağ münaqişəsi yaranandan IIR bölgədə sülh və sabitliyin bərpa edilməsi uğrunda vasitəçilik etmişsə də, bu təşəbbüslər nəticəsiz qalmışdır.

IIR-in Ermənistanla apardığı danışıqların əsl mahiyyətini Iran qəzetləri də açıqlayırdı. «Keyhan həvayi» qəzeti «Ermənistana inanmaq olmaz» başlıqlı məqaləsində yazırdı: "Ermənistan Respublikasının başçısı IIR səfirliyinin məsul işçisi ilə görüşərkən IIR-in regionda mühüm rolunu xatırladaraq Qarabağ münaqişəsinin həll edilməsi üçün ölkəmizin (Iranın) vasitəçilik səylərini davam etdirməsini istədi. Qarabağ münaqişənin yaranmasından bu günədək IIR bölgədə sülh və sabitliyin yenidən bərpa edilməsi uğrunda geniş fəaliyyətlər aparmış, lakin Ermənistanın ziddiyyətli və əsassız davranışları səbəbinə bu çalışmalar bir nəticə verməmişdir. Artıq bu fəaliyyətlərin davam etdirilməsini istəyən Ermənistan Respublikasının başçısı neçə vaxt bundan əvvəl toqquşmaların dayandırılması və atəşkəsin elan edilməsi barəsində Tehran görüşündə bir razılaşma imzaladı. Ancaq hələ bir imzanın mürəkkəbi qurumamışkən Ermənistan qüvvələri Dağlıq Qarabağın bəzi yerlərini işğal etmək üçün şiddətli hücumlara başladı. Ermənistan gözlənilməz bir iş görərək Qarabağa bir dəhliz açdı» (286, 62).

İran daxilində bir çox mühüm dövlət vəzifələrində, orduda və məclisdə təmsil olunan ermənilərin və eləcə də İranla yaxşı münasibətlərəri olan bir sıra Avropa dövlətlərinin təşəbbüsü ilə mühacir ermənilərin İranda mühüm təşkilatları, milli-mədəni müəssisələri, iqtisadi, ictimai təşkilatları, həmçinin məktəbləri, teatrları, qəzetləri fəaliyyət göstərir. Onlar da, sözsüz ki, İranın Dağlıq Qarabağ probleminə münasibətinə təsir göstərmişlər. Daşnaksütyun partiyasının hər il Təbrizdə konqresinin keçirilməsi və xarici ölkələrdə yaşayan erməni millərçilərinin burada iştirakının təmin olunması yuxarıda deyilənlərin mahiyyətini anlamağa kifayət edir.

İran ermənilərinin bütün fəaliyyəti hər cəhətdən Ermənistana dəstək verməyə yönəldilib. Tehranın universitetlərində erməni dilində fakültələr vardır. Təbriz, Tehran və İsfahanda ermənilərin fəaliyyəti daha da genişlənmişdir. Onlar dövlət tərəfindən hərtərəfli himayə edilir. Təbriz, Xoy, Urmiyədə erməni məktəbləri, kilsələri fəaliyyət göstərir (286, 64).

İranın bir çox hərbi və mülki müəssisələrini əllərinə almış və şah Pəhləvi zamanında xüsusilə İran Azərbaycanında iqtisadiyyat və ticarətdə imtiyazlı mövqe tutmuş erməni millətçilərindən başqa İrandakı bir sıra xarici, xüsusən də Sovet və sonralar Rusiya diplomatik idarələrində çalışanlar Ermənistanın xeyrinə məqsədyönlü fəaliyyət göstərirlər.

Ermənistanla İran arasında yeni yaranan iqtisadi münasibətlər əslində siyasi mahiyyətdən irəli gəlir. Araz çayı üzərində birgə elektrik stansiyasının qurulması, İrandan Ermənistana qaz kəmərinin çəkilməsi, Mehri-Kaçaran tunelinin qurulması, ticarət və iqtisadi əlaqələrin genişləndirilməsinə dair bir sıra sazişlər bir növ qonşuluq siasətinə xəyanət edən Ermənistanın təcriddən çıxmasına şərait yaratmaqdadır.

İran tərəfi Azərbaycanın işğal olunmuş ərazilərində keçirilən tədbirlərdə iştirakdan belə çəkinmir. İran ermənilərinin fəaliyyəti çox hallarda daha məkrli xarakter alır. Tehran xiya-





banları «türkə ölüm», «azərbaycanlıya ölüm» bağıran erməni nümayişçilərinin meydanına çevrilir. İranın İslam Şurası Məclisində Azərbaycanın haqq işinin əleyhinə təbliğat apran erməni nümayəndələri fəaliyyət göstərir (274, 56-57).

İran ilə Ermənistan arasında sıx iqdisadi, siyasi və mədəni əlaqələr vardır. İran hökuməti İrəvanda Göy Məscid binasını yenidən təmir etdirmişdir. Hansı ki, İrəvanda bir nəfər belə türk-müsəlman qalmamışdır. 1994-cü ilin mayından sonra bu münasibətlər və əlaqələr daha geniş vüsət almışdır. İran dövlətinin ermənilərə verdiyi bu imtiyazlar uzun bir tarixi prosesin nəticəsidir (225, 29).

Neçə illərdir ki, Naxçıvanla Azərbaycan Respublikası arasında yerləşən Mehri ermənilərin əlindədir. Həmin rayon vasitəsilə ermənilər Naxçıvanı iqtisadi blokadaya salmış, Bakı-Naxçıvan dəmiryol xəttinin fəaliyyətini iflic etmişdir. İran İslam Respublikası məhz özünün Araz çayı üzərində saldırdığı Mehri körpüsü vasitəsilə İrandan Ermənistana ticarət malları, yanacaq və hərbi sursat daşıyır. Bir gündə Ermənistana 60-70 maşın yük daşınır. Mehri ilə sərhəd zonada, Araz çayının hər iki tərəfində sərhəd ticarət şəbəkələri yaradılmışdır. Təbrizin Baron Avak məhəlləsi Təbriz-Ermənistan əlaqələrinin qərargahına çevrilmişdir. İranın ticarət nazirliyinin nümayəndəsi Təbrizə gələrək tacirləri Ermənistanla ticarət etməyə sövq etmiş, onlara güzəşti faizlərlə pul krediti verməyi vəd etmişdir.

Mehri dəhlizi Azərbaycanın suveren ərazisi kimi tanınsaydı Ermənistanın xarici aləmə sərbəst və arxayın şəkildə çıxa bildiyi bu yeganə yolun bağlanması ilə İranla sərhəddinin itirərdi. Nəticədə Ermənistan get-gedə bir-birinə həm geosiyasi, həm də iqtisadi kontekstdə strateji yaxınlığı ilə seçilən üçlüyün – Azərbaycan-Gürcüstan və Türkiyə – əhatəsində qalmış olardı ki, bu da Dağlıq Qarabağ məsələsində həmrəylik nümayiş etdirməklə, obyektiv mövqe tutmaqla, əslində, ədalətin qələbəsinə yönəlmiş siyasətə xidmət edərdi.

O zaman Ermənistan prezidenti L.Ter-Petrosyan Iran Islam Respublikasının prezidenti Əli Əkbər Haşimi Rəfsəncani ilə telefon söhbətində erməni qüvvələrinin Azərbaycana hücumunun dayandırılacağını, həmçinin ərazidən hərbi qüvvələrin çıxarılacağını bildirmişdi. Ermənistan prezidenti münaqişəni Minsk qrupu çərçivəsində nizama salınmasına ümid edirdi (125, 13 sentyabr 1993-cü il).

1994-cü ilin yayında ATƏT nümayəndələrinin bölgəyə səfəri ərəfəsində Azərbaycan Respublikası XIN-i Ermənistan hərbi birləşmələrinin Azərbaycanın Iranla sərhəddi boyunca yerləşən Zəngilan rayonuna genişmiqyaslı hərbi müdaxiləsi barədə bəyanatla çıxış etdi. Dünya birliyini Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün qarşısını almağa çağırdı.

1994-cü il iyulun 26-da Bakıya gələn Vladimir Kazimirov Heydər Əliyevlə görüşdə bildirmişdi: «Rusiya rəhbərliyi və Rusiyanın xarici siyasət idarəsi Azərbaycanla və Ermənistanla qonşu olan ölkələrin vəziyyətin sabitliyinə, regionda mehriban qonşuluq münasibətlərinə olan marağını başa düşərək həmin ölkələrdə əlaqələrə çox böyük əhəmiyyət verir. Bu ölkələr ATƏM və Rusiya ilə birlikdə sülh yaratmaq prosesində müsbət rol oynaya bilərlər» (10, 28 iyul 1994-cü il) deyərkən o, əsasən, Iranı nəzərdə tuturdu. Dediklərimizə sübut olaraq Bakıya gəlişi ərəfəsində Rusiya diplomatı Tehranda Iranlı həmkarları ilə regiondakı vəziyyəti geniş müzakirə etmişdi.

Heydər Əliyev münaqişə tərəflərini və eləcə də ATƏT-in, MDB-nın, habelə qonşu dövlətlərin səylərini birləşdirilməsini sülh yaratmaq prosesində mühüm cəhət saydığını bildirərək onların fəaliyyətinin əlaqələndirilməsinin vacib olduğunu bildirmişdir (10, 28 iyul 1994-cü il).

Rusiya Federasiyasının səlahiyyətli nümayəndəsi V.Kazimirovun Irandan sonra Türkiyəyə səfər etməsi böyük maraq doğururdu. Regional məsələlərin ümumi vəziyyətinin öyrənil-





məsi ilə pərdələnməsinə baxmayaraq danışıqlar zamanı daha ciddi mövzu olan Dağlıq Qarabağ məsələsinə də toxunan Rusiya təmsilçisinin bu səfərlərinin mahiyyətində onun keçmiş Sovetlər Birliyinin Iranla və Türkiyə ilə sərhədlərini yenidən öz nəzarəti altına almaq məqsədi dayanırdı. Azərbaycanla iqtisadi maraqlarından əli çıxdığını hiss edən Rusiya ATƏT-in sülh planları haqqında şübhəli və ikibaşlı fikirlər ortaya ataraq, beynəlxalq aləmdə mənfi rəy yaradaraq Dağlıq Qarabağ probleminin həllinin yalnız Rusiyadan asılı olması görüntüsü yaratmaq istəyirdi.

ABŞ-ın bütün ATƏT üzvlərinin, o cümlədən Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü dəstəkləməsi rəsmi Vaşinqtonun məsələyə ədalətli münasibətinin birmənalı olduğunu göstərirdi. Bunun ardınca Iran Islam Respublikası XIN-nin rəsmi bəyanatında Dağlıq Qarabağda hər hansı seçkinin keçirilməsinin qəbuledilməzliyi vurğulanır, belə yolverilməz hərəkətlərin «böhranın aradan qaldırılmasına kömək etməyəcəyi, hətta üstəlik mövcud vəziyyətin mürəkkəbləşməsinə və atəşkəs rejiminin pozulmasına gətirib çıxaracağı» bildirilirdi. Bəyanatın sonunda deyilir: «Iran Islam Respublikası öz növbəsində Qarabağ böhranına ədalətli şəkildə son qoyulması məqsədi ilə göstərilən səyləri dəstəkləyir və bu yolla hər cür kömək etməyə hazırdır» (125, 6 noyabr 1996-cı il).

Fransanın Minsk qrupundakı yeni missiyada müvəffəqiyyət əldə edəcəyinə inamını müəyyən səbəblərlə izah edən Pol Qobl öz şərhində bildirirdi: Maraqlıdır ki, danışıqların müvəffəqiyyətsiz olmasının əsas səbəblərindən biri Iranın bu prosesdən kənarda qalması hesab olunurdu. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində Fransanın irəli sürdüyü təkliflərdən aydın olurdu ki, Paris qeyri-rəsmi olaraq Iran kartından istifadə etmək isəyirdi. Ümumiyyətlə, Pol Qoblun şərhinə görə, Fransa hökuməti Iran amilindən bəhrələnərək və Sovetlərdən sonrakı Qafqazda yeni münasibətlərin yaradıl-

masına səy göstərməklə diplomatiya ilə nəyəsə nail olacağını güman etmək olardı (125, 11 yanvar 1997-ci il).

1997-ci ilin aprel ayında Iran Islam Respublikasının xarici işlər naziri doktor Əli Əkbər Vilayətini qəbul edən Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında Iranın imkanlarını yüksək qiymətləndirərək bu məsələdə Iran dövlətinin böyük iş görə biləcəyini bildirmişdi. Iranın güclü potensialı olduğuna görə Ermənistana təsir göstərmək imkanlarının da yüksək olduğunu vurğulamışdır. Prezident sözünün sonunda bildirmişdir: «Biz eyni zamanda belə hesab edirik ki, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması Iran üçün də gərəkdir. Çünki regionda hərbi münaqişəyə son qoyulması Iranın öz dövləti mövqeyinə görə də ona maraqlı olmalıdır. Əminəm ki, biz bu sahədə də sizinlə əməkdaşlıq edə bilərik» (10, 23 aprel 1997-ci il).

Bu ərəfədə Fransa deputatı Lyan Setlunşenin məruzəsi əsasında Avropa Birliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair yeni qətnamə layihəsi hazırlamışdı. Sənəddə Minsk qrupunun bu sahədə gördüyü işlər yüksək qiymətləndirilmiş və göstərilmişdir ki, aparılan danışıqlar Dağlıq Qarabağın statusunun ədalətlə, obyektiv şəkildə müəyyən edilməsinə, əhalinin təhlükəsizliyinin təmin olunmasına və qaçqınların öz doğma ocaqlarına qayıtmasına imkan yaradacaqdır.

Iran Islam Respublikasının xarici işlər naziri Kamal Xərrazi 1998-ci ilin avqust ayında Bakıda Azərbaycan Prezidenti ilə görüşü zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün Azərbaycanla Ermənistanın danışıqlarma üstünlük verdiyini və Iranın bu məsələdə kömək göstərməsinin mümkünlüyünü bildirdi (10, 13 avqust 1998-ci il). Görüşdən çox keçməmişdi ki, bu fikir Ermənistan Respublikasının xarici işlər naziri V.Oskanyanın Irana səfəri zamanı təkrar səsləndi.





Ermənistanın Azərbaycana ərazi iddiaları ilə əlaqədar yaranmış son münaqişənin çoxillik tarixində Türkiyə və Irandan sonra Amerikanın da Ermənistanı təcavüzkar kimi rəsmən tanımasını əks etdirən ABŞ Dövlət Departamentinin məlumat xarakterli arayış (3 aprel 2001-ci il) münaqişənin başlandığı andan etibarən qəbul edilmiş qərarların və irəli sürülən təkliflərin ən dəyərlilərindən biri idi. Bu da Amerikanın sülhpərvər qüvvələrə rəğbəti və irticaçı dövlətlərə mənfi münasibətindən irəli gəlirdi və Ermənistanın hərəkətlərinin terrorizmlə sıx bağlı olan əlamətlərinin üzə çıxması ilə bağlı idi.

Məsələnin sülh yolu ilə nizama salınmasında Minsk qrupunun digər üzvlərinin də rolunun önə çəkilməsi böyük maraq doğururdu. Iran hökuməti ilə razılaşdırma meylinin ortaya çıxması, ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması istiqamətində real imkanların yarandığı halda müvəffəqiyyət əldə olunması üçün təmsil etdikləri dövlətlərin xarici siyasi maraqlarına hətta bir qədər yumşaq yanaşdıqlarını göstərirdi. Rusiyalı həmsədr Trubnikovun öz ölkəsinin nizamasalma prosesində həmsədrlərin mövqelərinin bir-birindən fərqlənmədiyini bəyan etməsi bəzi yeni məqamların ortaya çıxmasını göstərdi. Diplomat müsahibəsində «Rəqabət aparmaq yox, sıx əməkdaşlıq etmək lazımdır» deyərkən müəmmalı məsələlərin davam etdiyi və danışıqlarda mühüm nəticə əldə olunmamasının səbəblərindən biri də sezildi.

Paris prinsiplərinin reallaşması Ermənistanı həm işğalçı tərəfi kimi tanımaq, həm də onu yaranmış mövcud geosiyasi durumda ittiham etmək demək olardı. Qeyd etdiyimiz kimi, Ermənistan Mehrinin Azərbaycanın ərazisi olaraq tanınmasını özünün Iranla sərhəddini itirməsi və onu xariclə əlaqələndirən yeganə yoldan məhrum olması kimi qəbul edirdi. Azərbaycanı qane edən Paris prinsipləri, münaqişənin həll variantı, prezident Jak Şirakın təkidi ilə məsləhət görülmüşdü. Buradan belə nəticə

çıxır ki, Minsk qrupunun həmsədrlərinin üçü də Dağlıq Qarabağ məsələsinin həll edilməsində həmrəylik nümayiş etdirir, obyektiv mövqe tutur, ədalətin qələbəsinə üstünlük verir.

Irandakı türk potensialından, türklük adından bəhs edilərkən bir məsələ çox yaxşı bilinməlidir – Iran idarəçiliyində yer almış xanədanların çoxunun türk olması, onların tarixdə Şiə-Cəfəri mənşəli olmaları gerçəkliyini dəyişdirə bilməz (275, 230).

Iran hakimiyyəti Iranın bütövlüyü naminə bütöv Azərbaycan tezisinə cavab olaraq erməni arayışlarını həvəslə qəbul edir (275, 237).

ABŞ Irandan gələcək təbii qaz üçün müttəfiqi Türkiyə Cümhuriyyətinə təsir edir, Iranı iqtisadi zərərə salmaqla, Orta Asiyadan gələn enerji və tranzit yollarının yönünü Ermənistana yönəldirdi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə mane olan problemlərdən biri də böyük dövlətlərin Qafqazda toqquşan maraqları və davam edən rəqabətləridir. Bu prosesdə region dövlətlərinin də Qafqazla bağlı münasibətləri çox dolaşıqdır (269, 250-273).

Bu baxımdan Iranla əlaqələrdə inkişaf etmiş böyük ölkələr arasında bir çox anlaşılmazlıqlar mövcuddur. Avropanın iki böyük dövləti Almaniya və Fransa Irana qarşı ABŞ və Ingiltərədən fərqli mövqelərdə dayanmış, Yaponiya isə Iranla neft alıcısı qismində iqtisadi əlaqələr qurmuşdur. Iranı sıxışdırmaq məqsədilə, bu ölkə ilə iqtisadi-ticari əlaqələr saxlayan ölkələri kənarlaşdırmaq üçün ABŞ-ın hər cür vasitədən istifadə etdiyi və ticarətdə sərhəd qoyulduğu («Damato qanunu») bir dövrdə fransız neft şirkəti Total Iranla sərbəst ticarət əlaqələrinə girməkdə davam edir, heç bir narahatlıq keçirmirdi. Paris «Damato qanunu»nu Iran hava nəqliyyatına «Boinq 727» təyyarələrinin satışına icazə verməklə Vaşinqton və Londonun Tehranı beynəlxalq sistemdən təcrid cəhdlərini heçə endirmişdi. Tehran isə mərkəzi ölkələr arasındakı anlaşılmazlığı dərinləşdirmək və





«Damato qanunu»nu ləğv etmək üçün xarici investisiyalara son dərəcə münasib şərait yaratmışdır (269, 266).

Iranın Qafqazla bağlı bölgə problemlərinin həllindən onu kənarlaşdıran ABŞ-a qarşı Moskva ilə yaxın münasibət yaratması Vaşinqton hakimiyyətini çox narahat edirdi. 2000-ci ilin yanvar ayında Iran Beynəlxalq Təhlükəsizlik Ali Şurasının katibi və Məclisin nazir müavini Moskvada təmsilçilərlə hərbi, nüvə təhlükəsizliyi və iqtisadi müqavilələrə dair danışıqlar apardı. Təbii ki, Iran körfəzində nüvə enerjisi mərkəzinin yaradılması, Iranda ballistik raket, «Tu-234» təyyarəsinin yeniləşdirilmiş modelinin istehsalı ABŞ-ı narahat etməyə bilməzdi. Iranın Rusiya ilə inkişaf edən əlaqələrinin qarşısına sədd çəkmək üçün ABŞ hökuməti Türkiyə ilə münasibətlərini daha da yaxşılaşdırmağa doğru səylərini artırmışdı (269, 266).

IIR beynəlxalq sistemdə mərkəzi dövlətlərin qoyduqları qaydalara, habelə bu ölkələrin modern işğalçılıq ənənələrinə uyğun hərəkət etdiklərini nəzərdə tutaraq bundan öz xeyrinə istifadə etməyə çalışdı, ölkəni inkişafa doğru yönəltmək istiqaməti götürdü, onu Qafqazdan uzaqlaşdırmağa çalışan ABŞ hökumətini, dolayı yollarla olsa da, yumşaq bir mövqe tutmaq məcburiyyətində qoydu (269, 267).

IIR-nın Qafqaz siyasətində Dağlıq Qarabağ probleminə münasibəti də Tehranın milli maraqlarına uyğun olaraq formalaşmışdır. Tehran üçün Cənubi Qafqaz sovet məkanındakı müstəqil dövlətlərə və Avropa ölkələrinə pəncərə rolu oynayır. Ancaq buna baxmayaraq Iran hökuməti öz dövlət maraqları ilə bərabər region dövlətlərinin maraqlarını da nəzərə almaq məcburiyyətindədir.

Iran bölgədə qeyri-sabitliyin yaranmasını regionda münaqişə başandığı halda kənar qüvvələrin (ABŞ və Avropa Ittifaqı) müdaxiləsi ilə əsaslandırır. Buna görə rəsmi Tehran dəfələrlə Xəzər hövzəsi ölkələrə və Cənubi Qafqaz respublikalarına bölgədə təhlükəsizliyin qorunması üçün birgə kom-

pleкs tədbirlər təкlif etmişdir. Regiondan кənar qüvvələrin proseslərə müdaxiləsini yolverilməz hesab edən IIR bununla bağlı ilк təşəbbüsü Cənubi Qafqazda vahid təhlüкəsizliк sisteminin yaradılması ilə bağlı bir neçə model təкlif etməsi olmuşdur. Ancaq Tehranın təкlifləri region ölкələri tərəfindən də birmənalı qarşılanmamışdır.

Beləliкlə, Tehranın Cənubi Qafqaz siyasətində Dağlıq Qarabağ problemini təhlilini ümumiləşdirərəк belə bir nəticəyə gəlməк olar кi, Iran region dövlətləri ilə hərtərəfli əlaqələr yaradaraq Cənubi Qafqaz dövlətlərini təsir altında saxlamaq siyasəti yürütmüşdür. Bu, onun Azərbaycanla münasibətlərində daha aydın görünür. Iran bütün beynəlxalq təşкilatlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar çıxmış, ölкəmizin ərazi bütövlüyünü tanıdığını müxtəlif rəsmi кürsülərdən elan etmiş, eyni zamanda, Ermənistana elə sahələrdə кöməк etmişdir кi, bu, təcavüzкarın daha da güclənməsinə səbəb olmuşdur.

Iranın xarici siyasətində mühüm rol oynayan və onun strateji tərəfdaşı olan Rusiya Ermənistanı özünün Cənubi Qafqazdaкı yeganə etibarlı strateji müttəfiqi hesab edir. Ermənistanın geostrateji mövqeyi, işğalçılıq siyasəti və iqtisadi potensialının səviyyəsi bu ölкənin regiondaкı proseslərdə müstəqil iştiraкını istisna edir və onu hərtərəfli asılı olduğu Rusiya ilə eyni mövqedən çıxış etməyə vadar edir. MDB Kolleкtiv Təhlüкəsizliк Müqaviləsinin cənub istiqamətində əsas və yeganə tərəfdaşı funкsiyasını icra edən «müstəqil» Ermənistanın hava məкanını, Iran və Türкiyə ilə sərhəddini də rus hərbçiləri qoruyur. Bütün bunlar regionda geosiyasi vəziyyəti gərginləşdirən, qüvvələr nisbətinin dəyişməsinə və Dağlıq Qarabağ probleminin həllinə mane olan amillərdir.

Beləliкlə, aydın olur кi, Iranın Ermənistanla sıx əlaqələri də Dağlıq Qarabağ probleminin həllinə mane olan amildir.





Rusiya və Ermənistanın strateji müttəfiqliyini və Mosкva-Tehran əlaqələrini nəzərə alsaq, Rusiya-Iran-Ermənistan xəttinin formalaşdığı aydın görünür. Bu gün artıq «üçlər» bloкu de-faкto mövcuddur. Üstəliк, Iran öz geosiyasi maraqları naminə irəli sürdüyü əsas prinsipdən – regiondan кənar dövlətlərin bölgədəкi proseslərə müdaxiləsinin yolverilməzliyi prinsipindən də imtina etməyə və bu bloкa daha bir üzv «qəbul etməyə» hazırdır. Bununla yanaşı, Iranla Ermənistanın regionda aкtivləşməsinə yönəlmiş addımları qeyd etməк lazımdır. 1997-ci ildə Afinada Iran, Yunanıstan və Ermənistan arasında «Qarşılıqlı anlaşma və əməкdaşlıq haqqında» müqavilənin imzalanması da regionda mövcud durumun gərginləşməsinə təsir göstərir.

Aralarında real ziddiyyətlər olmasına baxmayaraq RF və Iran Qərbin Cənubi Qafqaz və Mərкəzi Asiya regionlarını öz siyasi və iqtisadi nüfuz dairəsinə daxil etməк iddialarına qarşı durmaq üçün hazırda taкtiкi müttəfiqliк edirlər. Qarşı duran ölкələr Cənubi Qafqazın üç respubliкasına müxtəlif rollar ayırsalar da aydındır кi, tərəflərdən hər hansının ambisiyalarının tam miqyasda gerçəкləşməsi yalnız bu respubliкaların vahid geosiyasi məкanına daxil olacağı təqdirdə mümкündür.

Bütövlüкdə, Tehran özünün Qafqaz siyasətində Dağlıq Qarabağ problemi ilə bağlı mövqeyini formalaşdırarкən həm özünün siyasi, iqtisadi, geostrateji maraqlarını, həm də region ölкələrinin maraqlarını nəzərə almağa çalışmış, laкin böyüк dövlətlərin Cənubi Qafqazdaкı maraqlarına münasibətdə balans siyasətini qoruyub saxlaya bilməmiş və bu da təbii olaraq regionda sülh və təhlüкəsizliyin hələ də кövrəк qalmasını şərtləndirmişdir.

# IV FƏSİL

# ERMƏNISTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ BEYNƏLXALQ TƏŞKİLATLARDA

## 4.1. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və BMT-nin mövqeyi

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin siyasi, hüquqi tənzimləmə fəaliyyətindən əvvəl BMT-nin təcavüzə necə qiymət verməsinə nəzər salmaq lazımdır. Məlumdur кi, 1967-ci il deкabrın 18-də BMT Baş Məclisinin (BM) 2330 saylı qətnaməsi ilə yaradılmış «Təcavüzün müəyyən edilməsi məsələsi üzrə кomitə»nin hazırladığı məruzə əsasında 1974-cü ilin martın 11-dən aprelin 12-dəк кeçirilmiş 7-ci sessiyada BM кonsensus əsasında layihəni bəyəndi. Həmin sənəddə təcavüzün ümumiyyətlə nə olduğu müəyyənləşdirilir. Səккiz maddədən ibarət sənədin birinci maddəsində göstərilir кi, təcavüz bir dövlət tərəfindən digər dövlətin suverenliyinə, ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı silahlı qüvvənin tətbiqi və ya hər hansı formada BMT nizamnaməsi ilə bir araya sığmayan hərəкətlərdir. Iкinci maddəyə görə, baş verən təcavüzə heç cür bəraət qazandırmaq olmaz. Üçüncü maddədə təcavüz aкtı dediкdə aşağıdaкıların nəzərdə tutulduğu bildirilir: a) bir dövlətin silahlı qüvvələrinin başqa dövlətin ərazisinə soxulması və hücumudur və ya zor gücünə başqa dövlətin ərazisini və ya onun bir hissəsini hər hansı formada birləşdirməsidir; b) bir dövlətin silahlı qüvvələri tərəfindən başqa dövlətin ərazisinin bombardman edilməsi və ya başqa silahın başqa dövlətin ərazisinə qarşı istifadə edilməsidir; c) bir dövlətin limanlarını və sahillərini silahlı qüvvələrlə mühasirəyə alınmasıdır; ç) başqa dövlətin quru, dəniz və ya hava qüvvələrinə və ya dəniz və hava donanmalarına silahlı qüvvələrlə hücumudur; d) bir dövlətin ərazisində silahlı qüvvələri olan dövlətin həmin dövlətə qarşı qüvvə tətbiq etməsidir, ölкə ərazisində olması barədə bağlanmış müqavilənin şərtlərini pozmasıdır; e) öz ərazisini başqa dövlətə vermiş bir dövlətin ərazisindən həmin dövlət tərəfindən başqa üçüncü dövlətə qarşı təcavüz törətməsidir; ə) dövlət tərəfindən və ya dövlətin adı ilə quldur dəstələr, qruplar və ya muzdlular göndərilməsidir, onların başqa dövlətə qarşı silahlı qüvvə tətbiq etməsidir (152, 108).





Sənədin dördüncü maddəsinə görə, yuxarıda göstərilən siyahı bitmiş hesab oluna bilməzdi, Təhlüкəsizliк Şurası (TŞ) nizamnaməyə uyğun olaraq təcavüzün nə olması barədə başqa aкtları da müəyyənləşdirə bilərdi. Beşinci maddədə göstərilirdi кi, istər siyasi, istər iqtisadi, istər hərbi və istərsə də başqa xaraкterli olsun – təcavüzкarlıq müharibəsinə bəraət qazandırıla bilməz. Sənəddə təcavüzкarlıq müharibəsi beynəlxalq sülhə qarşı cinayətкarlıq кimi göstərilir, təzavüzкar beynəlxalq məsuliyyət daşıyır. Təcavüz nəticəsində zəbt edilmiş ərazi, xüsusi mənfəət qanuni deyildir və qəbul edilə bilməz. Sənədin altıncı maddəsinə görə, təcavüzün belə müəyyənləşdirilməsi BMT nizamnaməsinin fəaliyyət dairəsini məhdudlaşdıran və ya genişləndirən кimi şərh edilə bilməz, bəzi hallarda qüvvə tətbiq etməк qanunidir. Yeddinci maddədə göstərilir кi, təcavüzün müəyyən edilməsi nizamnamədən irəli gələn millətlərin öz müqədəratını təyin etməsi, azadlıq və istiqlaliyyət hüququna heç cür zidd deyildir. Müstəmləкə və irqçi rejimlər və ya başqa formada xarici höкmranlığın ağalığı altında inləyən xalqların mübarizəsinə aid deyildir. Səккizinci maddəyə görə, yuxarıdaкı maddələrin şərhi bir-biri ilə qarşılıqlı əlaqəlidir və hər müddəaya başqa bütün maddələrin кonteкstində baxılmalıdır.

1991-ci ildə Azərbaycan Respubliкası dövlət müstəqilliyini bərpa etdiкdən sonra oкtyabr ayının 29-da BMT-yə və

dünya dövlətlərinə müraciət etdi. Yenidən müstəqilliyini qazanmış Azərbaycan Respublikasının BMT üzvülüyünə qəbulu məsələsini nəzərdən keçirməsi xahiş edildi (61. 57).

1992-ci il martın 2-də Azərbaycan Respublikası BMT-yə qəbul olundu və bundan sonra bu beynəlxalq birliyin bərabərhüquqlu üzvünə çevrildi (29).

Azərbaycan Respublikasının 1992-ci il martın 6-da Nyu-Yorkda BMT yanında daimi nümayəndəliyi yaradıldı. 1992-ci ilin noyabr ayından etibarən BMT-nin Azərbaycanda daimi nümayəndəliyi fəaliyyət göstərir. Daimi nümayəndəlik BMT- də və onun ixtisaslaşdırılmış qurumlarında müxtəlif sahələrdə əməkdaşlıq edir. Azərbaycanın siyasi sahədə əməkdaşlığının əsas məqsədi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini nizama salmaq üçün beynəlxalq aləmdə Azərbaycan həqiqətləri barədə obyektiv rəy formalaşdırmaqdan ibarət idi.

BMT Nizamnaməsinə uyğun olaraq TŞ mübahisəli məsələləri dinc vasitələrlə həll etmək üçün geniş səlahiyyətlərə malikdir.

Azərbaycan Respublikası BMT Baş Katibinə, TŞ-nin sədrinə müraciət edərək Ermənistanın təcavüzünün qarşısının alınmasına, beynəlxalq hüquq normaları və BMT Nizamnaməsinin pozulmasının qarşısını almağa, münaqişənin sılh yolu ilə nizama salınmasına kömək göstərməyə çağırdı (10, 14 mart 1992-ci il). Münaqişə bölgəsində vəziyyəti öyrənmək üçün regiona BMT-nin müşahidəçilər qrupunun göndərilməsi qərara alındı (10, 14 mart 1992). BMT Baş Katibinin xüsusi nümayəndəsi, ABŞ-ın keçmiş dövlət katibi Sayrus Vensin başçılıq etdiyi nümayəndə heyəti 1992-ci il martın ortalarında Bakıda, Dağlıq Qarabağda və Yerevanda səfərdə oldu. Vəziyyət yerində öyrənildi və BMT Təhlükəsizlik Şurasına məlumat verildi (61, 59).

BMT Baş Katibi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ATƏM çərçivəsində həllinə tərəfdar olduğunu





bildirdi. TŞ-nin sədri Təhlükəsizlik Şurasının ATƏM-ə yalnız məsləhətlər verəcəyini bildirdi (10, 28 mart 1992-ci il).

Ən nüfuzlu beynəlxalq təşkilatların laqeydliyini görən Ermənistan Respublikası təcavüzkarlıq hərəkətlərini daha da gücləndirdi. 1992-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri Şuşa şəhərini işğal etdilər. Bununla da Ermənistan Dağlıq Qarabağın işğalını başa çatdırdı.

Azərbaycan hökuməti Şuşanın işğalından dərhal sonra BMT TŞ-nin sədrinə müraciət edərək Ermənistanın təcavüzkarlığının qarşısını almaq üçün bütün vasitələrdən istifadə etməyə çağırdı (10, 14 mart 1992).

BMT TŞ Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin təklifi ilə məsləhətləşmədən sonra Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyəti 1992-ci il mayın 12-də TŞ-nin 3072-ci iclasında müzakirə etdi (10, 14 may 1992-ci il). BMT TŞ sədrinin bəyanatında yalnız iki məsələ öz əksini tapdı. Onun biri hadisələrin baş verdiyi münaqişə bölgəsində vəziyyəti öyrənmək məqsədilə dərhal BMT-nin xüsusi nümayəndələrinin göndərilməsindən, ikincisi beynəlxalq birliyin məcburi köçkünlərə humanitar yardım göstərməsindən ibarət idi.

Azərbaycan Respbublikasının rəhbərliyi BMT TŞ-nın sədrindən Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar olaraq BMT TŞ-nın xüsusi iclasını çağırmasını xahiş etdi (10, 14 may 1992-ci il; 61, 61).

BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəliyi TŞ-nin sədrinə məktubla müraciət edərək Ermənistan Respublikasının təcavüzkarlığının qarşısını almaq üçün qərar qəbul etməsini istədi. Ermənistanın bu hərəkətlərinin Azərbaycan Respublikasının ərazi bütövlüyünü pozması və təcavüz kimi qiymətləndirilməsi tələb edilirdi.

1992-ci il avqustun 20-də Ermənistan Respublikası BMT-yə müraciət edərək TŞ-nin iclasında Dağlıq Qarabağ probleminin müzakirə edilməsini xahiş etdi. Müzakirələrdən

sonra TŞ-nin sədri Li Daoyuy bölgədə vəziyyətin pisləşməsindən Şura üzvlərinin narahatlığını ifadə edərək BMT qərargahmənzilində avqustun 26-da bəyanat verdi (10, 28 avqust 1992-ci il). TŞ-nin bəyanatında tərəflər atəşi dərhal dayandırmağa və ATƏM çərçivəsində Dağlıq Qarabağ məsələsinə dair Minsk Konfransının səylərinə yardım etməyə çağırılır, həmçinin Roma danışıqlarına hazırlaşmaq tövsiyə edilirdi.

BMT TŞ-də 1992-ci il ərzində aparılan müzakirələrin çatışmayan cəhəti Ermənistanın Azərbaycan ərazilərinə təcavüzünə göz yumaraq onu yalnız Dağlıq Qarabağ münaqişəsi və yaxud Dağlıq Qarabağ ətrafında baş verən hadisələr kimi adlandırması, hadisələrin əsl mahiyətindən çıxış etməməsi idi. Konkret olaraq Ermənistanın təcavüzkarlıq hərəkətləri hər vəchlə ört-basdır edilirdi. BMT kimi nüfuzlu təşkilat, onun TŞ-si, Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısının alınması üçün tədbirlər görülməsinə soyuq yanaşdı: BMT Nizamnaməsində təcavüz aktı kimi qiymətləndirilən hallara məhəl qoyulmadan Ermənistana qarşı vaxtında heç bir əməli tədbir görülmədi. Ermənistan Respublikası tərəfindən qətnamədəki əksər maddələrin pozulması əsl təcavüz hərəkətləri olduğu halda Ermənistan cəzalandırılmadı (61, 62- 63.)

Cəzasızlıqdan istifadə edən Ermənistan isə 1993-cü il martın 27-dən aprelin 3-dək Azərbaycanın Kəlbəcər rayonunu işğal etdi (485, 8-12). Bu zaman Ermənistan ən riyakar siyasi gediş etdi: Azərbaycan torpaqlarının yalnız Dağlıq Qarabağ erməniləri tərəfindən ələ keçirilməsi kimi uydurma məsələni ortaya atdı, BMT də bu riyakarlığı düzgün qiymətləndirmədi (61, 64).

Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması ilə əlaqədar Azərbaycan dövlətinin qəti surətdə tələb etməsindən sonra BMT TŞ tərəfindən Ermənistanın təzavüzkar dövlət kimi tanınması məsələsi müzakirə edildi. Aprelin 6-da TŞ-nin üzvləri Şura sədrinin irəli sürdüyü bəyanatın qəbul edilməsi ilə bağlı razılığa gəldilər. Bu zaman Şuranın beş daimi





üzvündən (ABŞ, Ingiltərə, Fransa, Rusiya, Çin) heç biri bəyanatla əlaqədar hər hansı bir narazılıq səbəbindən «kvota» hüququndan istifadə etmədilər, TŞ-nin üzvləri Ermənistanı heç təzavüzkar kimi də tanımadılar. Buna baxmayaraq həmin bəyanatın geniş surətdə təhlil etmək istərdik: Əvvəla, bu sənədin qəbul edilməsi Ermənistanın təcavüzkarlıq siyasəti barədə dünya ictimaiyyətində obyektiv rəy formalaşdırmağa şərait yarada bilərdi (152, 110). Ikinci, bu bəyanatın Azərbaycanı qane edən ən mühüm maddəsi o idi ki, burada Kəlbəcərin ermənilər tərəfindən təcavüzə məruz qalması faktı təsdiqlənirdi. Amma təcavüzün «yerli ermənilər» tərəfindən həyata keçirilməsi yanlış idi. Ona görə ki, Dağlıq Qarabağda yaşayan ermənilərlə Ermənistanda yaşayan ermənilər bir-birlərindən heç nə ilə fərqlənmirdilər, həm də onların hər ikisi bu məsələdə həmrəy idi. Digər tərəfdən də Dağlıq Qarabağda az sayda yaşayan erməni əhalisindən onların təxminən yarısından çox sayda ordu yaratmaq mümkün deyildi və onların bu qədər ərazini işğal etmək üçün heç lazımi səviyyədə hərbi-sənaye kompleksi də ola bilməzdi. Yəni burada söhbət yalnız Ermənistan Respublikasının Azərbaycana qarşı ərazi iddialarından, işğalçılıq siyasətindən və hərbi təcavüzkarlığından, o cümlədən Dağlıq Qarabağ ermənilərini də məhz onun dəstəkləməsindən gedə bilərdi.

BMT TŞ-nin qəbul etdiyi rəsmi sənəddə ilk dəfə olaraq Ermənistanın münaqişədəki rolu təsdiq olunurdu. Eyni zamanda, erməni silahlı birləşmələrinin Kəlbəcərə hücumunun regionda sülh üçün təhlükə yaratması qeyd olunaraq hücum əməliyyatlarının təcili şəkildə dayandırılması və bu qüvvələrin həmin ərazidən çıxarılması tələb edilirdi. Üçüncü, TŞ sədrinin bəyanatında regionun bütün dövlətlərinin suverenliyi və ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı öz təsdiqini tapır, ATƏT tərəfindən qəbul olunmuş prinsiplərə hörmət edilməsinin vacib olması tərəflərin diqqətinə çatdırılır, münaqişənin həllinə Minsk Konfransı çərçivəsində sülh yolu ilə nail oluması fikri

önə çəkilirdi. Lakin Azərbaycanın hər dəfə sülh danışıqlarına getməsi ilə eyni vaxtda daha bir rayonu, yaxud bir neçə yaşayış məntəqəsi Ermənistan ordusu tərəfindən işğal edilmişdir. Ərazinin işğal altında olduğu bir şəraitdə burada müşahidəçilərin yerləşdirilməsi Azərbaycanın öz ərazisinin bir hissəsini itirməsi ilə nəticələnə bilərdi. Dördüncü, bəyanatda regiona humanitar yardım göstərilməsinin vacibliyi vurğulanırdı. Burada əsasən Ermənistan Respublikasına yardım edilməsi nəzərdə tutulurdu. Ermənistanın, hazırda olduğu kimi, Gürcüstan və İran ərazisi ilə xarici ölkələrlə qurudan əlaqəsinin olmasına baxmayaraq, guya, Azərbaycan tərəfindən «blokada»ya alındığı və ağır vəziyyətdə olduğu bəhanə gətirilməklə təcavüzkar dövlət dünyadan yardım və həm də silah-sursat alaraq gücləndi və yazda güclü hərbi əməliyyatlara – işğalçılıq əməliyyatına başladı. Əslində isə Ermənistanın Azərbaycan tərəfindən blokadaya alınmasından söhbət belə, gedə bilməzdi. Çünki, heç bir dövlətin təkbaşına başqa bir dövləti blokadaya alması mümkün deyildir. Bunun həyata keçirilməsi yalnız həmin dövlətlə hər hansı formada həmsərhəd olan dövlətlərin birgə iştirakı ilə mümkündür. Bu təcrübə dünya tarixində də mövcuddur. Beşinci, BMT Baş Katibinə müraciət edən TŞ ondan təcili olaraq münaqişə zonasındakı vəziyyət barədə məruzə hazırlamağı xahiş etdi. Bu məsələ ilə bağlı respublikanın bütün səlahiyyətli və əlaqədar orqanlarının üzərinə böyük iş düşürdü. Belə ki, bu orqanlar qısa bir müddətdə birgə səy göstərməklə erməni təcavüzkarlığını əks etdirən faktları müəyyənləşdirməli, onları toplamalı və BMT Baş Katibinin nümayəndəsinə təqdim etməli idilər. Ona görə ki, yalnız TŞ BMT Baş Katibinin məruzəsi üzrə sənəd qəbul edə bilərdi.

TŞ sədrinin bəyanatında bəzi çatışmazlıqlar da diqqəti cəlb edirdi. Əvvəla, bəyanatda təcavüzkarın kim olduğu konkret olaraq göstərilmirdi. Bu səbəbdən də hər hansı bir ədalətli qərarın veriləcəyindən söhbət gedə bilməzdi. Buradan belə





aydın olurdu ki, Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına nail olmaq üçün çox ciddi və əməli işlərin görülməsinə böyük ehtiyac vardır. İkinci, təcavüzkarlıq nəticəsində Azərbaycan öz ərazisinin onda bir hissəsini itirdi, Laçın, Şuşa, Xocalı, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan kimi şəhərləri işğal olundu; yüzlərlə kənd, yaşayış məntəqələri dağıdıldığına, ölkədə bir milyondan çox qaçqın olmasına baxmayaraq bəyanatda münaqişənin tərəfləri konkret və obyektiv şəkildə göstərilmir, Ermənistanın adı belə, çəkilmirdi.

BMT Baş Katibinin 14 aprel 1993-cü il tarixli məruzəsində Kəlbəcər rayonuna hücumda Ermənistan Respublikasının hərbi qüvvələrinin iştirakının açıq təsbit edilmir, hadisələrin baş verməsinin güya anlaşılmazlıqdan irəli gəldiyi əsas götürülür, Ermənistan hökumətinin Dağlıq Qarabağ ermənilərinin qüvvələri tərəfindən həyata keçirilməsi məsələsi bir daha səsləndirilir (10, 16 iyun 1993). Beləliklə, BMT Baş Katibinin məruzəsi münaqişə bölgəsində olan real vəziyyəti əks etdirmirdi.

1993-cü il aprelin 20-də BMT TŞ-nin iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunaraq qətnamə layihəsi hazırlandı. Qətnamə lahiyəsini Şuranın 15 üzvünün hamısının yekdilliklə qəbul etməsindən sonra, aprelin 30-da 822 saylı qətnamə qəbul edildi (Mətn haqqında bax: 3, 138-139; 61, 112-113; 394, 143-144).

BMT-də qəbul olunmuş ənənəyə əsasən səsvermədən sonra Şuranın bir sıra üzvləri «səsvermədən sonra bəyanatlar»la çıxış etdilər.

Bu qətnamənin həm müsbət, həm də mənfi cəhətləri var idi. Eyni zamanda, bu sənəddə münaqişə bölgəsində bəzi dövlətlərin mənafelərinin toqquşmasından irəli gələn bir sıra qeyri-dəqiq ifadələr də yer almışdı.

Qətnamənin müsbət cəhətləri ondan ibarət idi ki, artıq xeyli vaxt ərzində beynəlxalq səviyyəli görüşlərdə müzakirə mövzusuna çevrilmiş bu münaqişənin həllinə BMT səviyyə-

sində də baxılmasına başlandı. Təşkilatın Ermənistanla Azərbaycan arasında münasibətlərin pisləşməsindən ciddi narahatlıq keçirməsini qətnamədə ifadə etməsi, onun, dolayısı ilə olsa da, Ermənistanın münaqişədə bu və ya digər formada iştirakını etiraf etməsindən xəbər verirdi. Qətnamənin digər bir üstün cəhəti onda idi ki, BMT səviyyəsində Azərbaycan ərazilərinin işğal olunması faktı rəsmən etiraf olunur, işğalçıdan hərbi əməliyyatları və düşmənçilik hərəkətlərini dərhal dayandırması tələb edilirdi. Nəhayət, qətnamədə bölgədəki bütün dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə hörmət bəslənildiyi, sərhədlərin pozulmazlığı və zor gücünə ərazilər ələ keçirilməsinin yolverilməzliyi bir daha təsdiq olunurdu.

Qətnamənin mənfi cəhətlərinə gəldikdə, əvvəla, sənəddə söhbət «Təhlükəsizlik Şurası Sədrinin Dağlıq Qarabağ münaqişəsi haqqında bəyanatları»ndan gedirdi. Burada münaqişə tərəflərinin adlarının çəkilməməsilə və bu münaqişənin yalnız Dağlıq Qarabağa aid edilməsilə Ermənistanın bu məsələdə rolu inkar edilir, bununla da Dağlıq Qarabağın erməni əhalisi müəyyən bir siyasi toplum kimi dünya ictimaiyyətinə təqdim olunurdu. Halbuki, rəsmi sənədlərdə bu münaqişə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kimi qeyd olunmalı idi; ikinci, sənəddə Ermənistanla Azərbaycan arasında münasibətlərin pisləşməsi qeyd olunsa da bunun hansı səbəbdən baş verməsi açıqlanmırdı. Bunu iki cəhətdən izah etmək olardı: burada ya, yuxarıda deyildiyi kimi, Ermənistanın təcavüzkar əməlləri dolayı yolla etiraf olunurdu, ya da, Ermənistanın Dağlıq Qarabağda yaşayan erməni əhalisinin taleyindən guya (?) «narahatlıq keçirməsi» ilə əlaqələndirilirdi; üçüncü, təşkilatın öz narahatlığını qətnamədə «yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna son müdaxiləsi» şəklində ifadə etməsi sənədin başlıca mənfi cəhətlərindən biri idi. Hələ qətnamənin lahiyəsi hazırlanarkən burada göstərilən «etnik ermənilər» ifadəsi Fransanın təkidi ilə dəyişdirilərək





«yerli ermənilər» ifadəsi ilə əvəz olundu. Sənəddə «yerli erməni qüvvələri» ifadəsinin işlənməsinə gəlincə isə bunun iki səbəbi var idi. Əvvəla, regionda öz mövqelərini qoruyub saxlamaq və Ermənistanda öz mənafelərini həyata keçirmək istəyən bir sıra dövlətlər bu məsələdə Ermənistanın təcavüzkar dövlət kimi tanınmasını istəmirdilər. Ikincisi isə, Dağlıq Qarabağda az sayda yaşayan erməni əhalisindən onların təxminən yarısmdan çox sayda ordu yaratmaq mümkün deyildi və onların bu qədər ərazini işğal etmək üçün heç lazımi səviyyədə hərbi qüvvə yaratması da mümkün deyildi. Dördüncü burada «bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın bu yaxınlarda işğal olunmuş başqa rayonlarından çıxarılması» tələb edilərkən Azərbaycan ərazisinin kim tərəfindən işğal edilməsi dəqiq göstərilmirdi. Beşinci, qətnamədəki «bu yaxınlarda» fikri bir qədər mücərrəd olub, anlaşılmaz idi. Işğalçı qüvvələrin təkcə Kəlbəcərdən və bu yaxınlarda işğal olunmuş başqa rayonlardan yox, bu vaxtadək işğal olunmuş bütün Azərbaycan ərazisindən çıxarılması tələbi irəli sürülməli, sənəddə işğal olunmuş ərazilərdən qoşunların çıxarılmasının müddəti dəqiqləşdirilməli idi. Nəhayət, qətnamənin tələblərini yerinə yetirməyən dövlətə qarşı hər hansı bir qəti tədbirin görüləcəyi sənəddə öz əksini tapmamışdı.

BMT-nin müvafiq qətnaməsinə baxmayaraq Ermənistan, nəinki onları yerinə yetirmədi, işğal olunmuş torpaqlardan əl çəkmədi, əksinə, Azərbaycanın yeni-yeni torpaqlarını zəbt etdi. İşğalın növbəti qurbanı Ağdam rayonu və onun kəndləri oldu.

Belə bir şəraitdə Ermənistan-Azərbaycan sərhəddinə və münaqişə zonasına BMT qoşunlarının gətirilməsi məsələsi gündəmə çıxdı. Bu isə nə rəsmi dairələrdə, nə də ictimaiyyət arasında müsbət qarşılanmadı.

Heç şübhə yoxdur ki, BMT qoşunları bölgədə yerləşdirilərdisə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan

ərazisinin azad edilməsi, Ermənistan hərbi qüvvələrinin çıxarılması çətinləşə bilərdi.

BMT silahlı qüvvələri bu təşкilata üzv olan bütün ölкələr tərəfindən maliyyələşdirildiyi və həm də maliyyə təchizatı baxımından imкana maliк olmadığı üçün Rusiya bundan sui-istifadə edərəк BMT bayrağı altında öz qoşunlarını ya da MDB iştiraкçısı olan dövlətlərin sülhməramlı qüvvələrini buraya yeritməк istəyirdi. O, bu barədə BMT TŞ-yə dəfələrlə təкlif vermişdi. Rusiya höкuməti bunu 1992-ci il 20 mart tarixli «MDB-də sülhü qorumaq üçün кollektiv qüvvələr və hərbi müşahidəçilər qrupu haqqında» sazişlə əsaslandırırdı. Rusiyanın təкidinə baxmayaraq belə bir saziş Azərbaycan höкuməti tərəfindən imzalanmamış, rəsmi orqanlarda bu barədə heç bir qərar verilməmişdi.

Məlumdur кi, sülhməramlı əməliyyatlar aparmağa yalnız BMT və ATƏT-in hüququ vardır. MDB qüvvələri isə ancaq beynəlxalq təşкilatların razılığından sonra sülhməramlı qüvvələrin tərкibində təmsil oluna bilərdi. BMT nizamnaməsinin 52-ci maddəsinə görə, «regional sazişlərin və təşкilatların» sülhməramlı əməliyyatlarda iştiraк etməsi üçün onların fəaliyyəti BMT-nin prinsiplərinə və məqsədlərinə uyğun gəlməli idi. «Belə «uyğunluq» isə həmin təşкilatların özləri vasitəsilə deyil, BMT mandatı ilə müəyyənləşdirilir. BMT isə belə mandatı MDB-yə verməyib» (152, 115).

Rusiyanın mövqeyi beynəlxalq normalara uyğun gəlmədiyi üçün BMT onun münaqişə zonasında sülhməramlı əməliyyatlar aparmasına razılıq vermədi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair BMT TŞ-nın 822 saylı qətnaməsi qəbul edildiкdən sonra ABŞ, Rusiya, Türкiyə may ayının 3-də sülh təşəbbüsü ilə çıxış edərəк təкliflər planı işləyib hazırladılar (508).

Adı çəкilən ölкələrin münaqişə üzrə «Təxirəsalınmaz tədbirlərin dəqiqləşdirilmiş cədvəli» Azərəbaycan və Ermənistanın müzaкirəsinə təqdim etdi. Həmin sənəddə erməni qoşunlarının Kəlbəcərdən çıxarılması və hərbi əməliyyatların dayandırılması məsələsi öz əкsini tapmışdı (61, 67).





Üç dövlərin – ABŞ, Rusiya, Türкiyənin birgə qərarına görə cəbhədəкi hərbi qüvvələr 1993-cü il martın 27-nə qədər erməni qüvvələri işğal etdiyi Azərbaycan ərazilərindən çıxarılmalı, sonra vəziyyət bərpa olunmalı idi. Üçlüyün qəbul etdiyi qərara görə erməni tərəfi mayın 7-dən 9-dəк qoşunlarını Kəlbəcərdən çıxaracağına dair bəyanat verməli, tərəflər hərbi əməliyyatları 60 günlüк, yəni mayın 12-dəк, dayandıracaqlarını elan etməli, mayın 14-də beynəlxalq müşahidəçilər Kəlbəcərdən erməni qoşunlarının çıxarılmasının başa çatdığını təsdiq etməli idilər.

Mayın 17-dən isə «5+1» məsləhətçilərinin danışıqları Cenevrədə davam etdirməsi və mayın 24-25-də Romada ATƏM-in Minsк qrupunun iştiraкı ilə məsləhətləşmələr aparılması nəzərdə tutulurdu (61, 67).

Azərbaycan tərəfi bu təкlifləri vaxtında müzaкirə edərəк münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirərəк may ayının 6-da sənədləri imzaladı və sənədlər təкlif verən tərəflərə təqdim olundu.

Qoşunlarının mayın 14-dəк çıxarılması müddətinin müəyyənləşdirilməsinə erməni tərəfi etirazını bildirdi və qoşunların çıxarılmasını bölgədə ATƏM-in müşahidəçiləri yerləşdirildiкdən sonra həyata кeçirilməsini təкlif etdilər. Ən böyüк pozuculuq işi isə erməni tərəfinin Türкiyənin adını təşəbbüsçülər sırasından çıxarılması təкlifi oldu (61, 68).

1993-cü il may ayının 14-15-də Mosкvada RF, ABŞ, Türкiyə nümayəndələri «Cədvəl»ə yenidən baxdılar, əslində, mühüm bir dəyişiкliк etmədən mayın 18-də münaqişə tərəflərinə təqdim etdilər (61, 68).

Azərbaycan «üçtərəfli» təşəbbüslə razılaşıb bütün cəbhə boyunca döyüş əməliyyatlarının dayandırılması haqqında birtərəfli qaydada qəbul etdiyi qərarı yerinə yetirəcəyini bildir-

sə də bunların BMT TŞ-nın 822 saylı qətnaməsinə bir qədər uyğun gəlmədiyini də qeyd etdi (10, 27 may 1993-cü il).

1993-cü il mayın 25-də Moskvada Rusiya və Ermənistan prezidentlərinin görüşündən sonra Ermənistan üçtərəfli Rusiya-Türkiyə-ABŞ sülh planından imtina etdi. Ermənistan tərəfi Dağlıq Qarabağ ermənilərı Kəlbəcərin boşaldılmasına dair ABŞ-Rusiya-Türkiyənin təqdim etdikləri planla razı olmadıqlarını bildirdilər və bunu imzalamaqdan imtina etdilər. "Независимая газета"ya görə (2 iyun 1993-cü il) Bəhanələri də o oldu ki, Türkiyənin bu prosesdə iştirakını məqbul saymırlar.

1993-cü il iyunun 8-də Azərbaycan tərəfi «Təxirəsalınmaz tədbirlər cədvəli»nin bütün müddəalarının həyata keçirilməsi üçün münaqişə tərəflərinin məsuliyyətinin artırılmasının vacibliyini bildirdi (61, 68). Ermənistan isə iyunun 10-da planı imzalamağa razılıq versə də cərəyan edən proses onun münaqişənin dinc vasitələrlə həllinə tərəfdar olmadığını göstərdi. ATƏM-in Minsk qrupunun səyi ilə BMT TŞ-nın 822 saylı qətnaməsinin yerinə yetirilməsi və ATƏM çərçivəsində danışıqlar prosesinin bərpa olunması barədə 9 ölkənin nümayəndələrinin Romada işləyib hazırladığı təklifləri qəbul etdiyi bir vaxtda Ermənistan silahlı qüvvələri Azərbaycanın Ağdam və Ağdərə bölgələrində döyüş əməliyyatlarını gücləndirdilər. Bununla da Ermənistan TŞ-nin 822 saylı qətnaməsini və Minsk qrupunun 9 ölkəsinin təklif etdiyi «Təxirəsalınmaz tədbirlər cədvəli»ni yerinə yetirmək fikrində olmadığını nümayiş etdirdi (61, 69).

Ermənistan silahlı qüvvələri 1993-cü il iyulun 23-də Azərbaycanın Ağdam şəhərini işğal etdi. Azərbaycan hökuməti Ağdam rayonuna erməni təcavüzü ilə əlaqədar dərhal BMT-nin Baş Katibinə və TŞ-nin sədrinə məlumat verdi (486, 22-25). Azərbaycan Respublikası Ermənistan Respublikasından atəşi dayandırmağı və hərbi əməliyyatlara son qoymağı və Azərbaycan ərazilərindən işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb etdi.





1993- cü il iyulun 29-da Ağdamın işğalından sonra BMT TŞ-nin iclası keçirildi. Bu 3259-cu rəsmi iclasının gündəliyində yalnız «Dağlıq Qarabağda vəziyyət» məsələsi dururdu. Iclasda BMT TŞ Azərbaycanın Ağdam rayonunun işğal edilməsi ilə bağlı 853 saylı qətnamə qəbul etdi (3, 140-142; 61, 114-115; 394, 144-146).

Bu qətnamədə Ermənistan Respublikası ilk dəfə olaraq Azərbaycana qarşı edilən təcavüzün birbaşa iştirakçısı kimi tanınır və onun Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar hərəkətləri qəti şəkildə pislənilirdi. BMT TŞ 1993-cü il 30 aprel tarixli 822 saylı qətnaməsini təsdiq etməklə yanaşı, yeni sənəddə Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət edildiyini göstərdi. Münaqişənin aradan qaldırılması məsələsində isə qətnamədə ərazilər ələ keçirmək üçün qüvvə tətbiq olunmasının yolverilməzliyi prinsipi əsas götürülərək Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədlərinin toxunulmaz olması öz əksini tapırdı. TŞ-nin bu sənədində Azərbaycan Respublikasının ərazilərinin işğal olunması pislənilirdi. İlk dəfə olaraq təcavüzkardan bütün hərbi əməliyyatları dərhal dayandırmaq və öz qoşunlarını Ağdamdan, eləcə də işğal etdiyi bütün digər ərazilərdən tamamilə və qeyd-şərtsiz çıxartmaq tələb edilirdi.

Bu qətnamənin ən mühüm cəhətlərindən biri də o idi ki, burada TŞ tərəfindən Dağlıq Qarabağ bölgəsinin Azərbaycan Respublikasına mənsub olması birmənalı şəkildə təsdiq edilir və həmin bölgə üzərində bütün suveren hüquqların məhz ona aid olması bildirilirdi. Elə buna görə də TŞ Ermənistan hökumətini münaqişənin sülh yolu ilə aradan qaldırılması barədə ATƏT-in Minsk qrupunun təkliflərinə əməl etməyə çağırırdı (8). Qətnamədə bir sıra dövlətlərə münaqişənin güclənməsinə və nəticədə işğalçının ərazilərin işğalını davam etdirməsinə imkan verəcək silah və sursat yardımından imtina etmələri barədə müraciət yer alırdı. Qətnamənin son bəndində isə TŞ

BMT-nin Baş Katibindən və müvafiq beynəlxalq təşkilatlardan münaqişədən zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərilməsi və qaçqınların öz yaşayış yerlərinə qayıtmalarına şərait yaradılması xahiş edilirdi.

BMT TŞ-nin 853 saylı qətnaməsinin qəbul olunması Azərbaycanın münaqişənin dincliklə aradan qaldırılmasına həqiqətən çalışdığını, ATƏT və BMT çərçivəsində gördüyü tədbirlərin nüfuzlu beynəlxalq təşkilatlar və dünya birliyi səviyyəsində bəyənildiyini və layiqincə təqdir edildiyini bir daha təsdiq edirdi (152, 117).

Qətnamənin bəzi çatışmayan cəhətləri də var idi. Hər şeydən əvvəl, qətnamədə Ermənistanın təcavüzkar dövlət olması konkret şəkildə göstərilmir və ona qarşı heç bir sanksiya tətbiq edilmirdi. Bununla yanaşı, qətnamədə irəli sürülən tələblərin həyata keçirilməsi üçün dəqiq mexanizmi mövcud deyildi. Bütün yuxarıda deyilənlərin öz təsdiqini tapması üçün elə qətnamənin mətninə diqqət yetirmək kifayətdir.

BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş bu qətnamənin də tələbləri nəinki yerinə yetirilmədi, əksinə, bundan az bir müddət sonra Ermənistan Respublikasının orduları 1993-cü ilin avqustunda Füzuli rayonuna genişmiqyaslı hücuma keçdi. Azərbaycan dövləti BMT TŞ sədrindən dərhal Şuranın iclasını çağırmağı və Ermənistanın təcavüzünü dayandırmağı xahiş etdi (486, 22).

1993-cü il avqustun 18-də BMT TŞ adından ABŞ-ın BMT-dəki daimi nümayəndəsi xanım Madlen Olbrayt bəyanat verdi (10, 20 avqust 1993-cü il).

Həmin bəyanatda deyilirdi ki, TŞ Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onların arasındakı gərginliklə əlaqədar ciddi narahatlıq keçirir. Şura habelə, Füzuli rayonunda döyüş əməliyyatlarının güclənməsindən dərin narahat olduğunu bildirirdi. Kəlbəcər, Ağdam rayonlarına edilən müdaxilə də, Füzuli rayonuna





hücum da pislənilirdi. Bəyanatda Dağlıq Qarabağın Azərbaycan ərazisi olması təsdiq olunurdu. Münaqişə ilə bağlı məsələlərin ATƏM-in Minsk qrupu çərçivəsində həllinə üstünlük verilirdi. Şura bütün tərəfləri avqustun 13-də Minsk qrupunun təqdim etdiyi «BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair «Təxirəsalınmaz tədbirlər cədvəli»nin dəqiqləşdirilmiş variantına razılaşdırılmış müsbət cavab verməyə və məsələnin sülh yolu ilə həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırırdı. Dövlətlərə Azərbaycan Respublikasının ərazilərinin işğalının davam etdirilməsinə və münaqişənin güclənməsinə səbəb olan regiona silah göndərilməsindən imtina etmələrinə dair müraciət edilirdi.

Bəyanatda TŞ yenə də Ermənistan Respublikası hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ermənilərinin TŞ-nin 822 və 853 saylı qətnamələri ilə razılaşmalarına nail olmaq məqsədilə öz təsirindən istifadə etməyə çağırırdı. Əvvəlki qətnamələrdə olduğu kimi, burada da Ermənistan Respublikası ilə Dağlıq Qarabağ erməniləri ayrı-ayrı tərəflər kimi göstərilirdi. Münaqişənin Dağlıq Qarabağla Azərbaycan arasında getməsi ideyası burada da öz qüvvəsini saxlayır, Ermənistanın münaqişədə rolunu kölgədə qoyurdu.

Beynəlxalq təşkilatlar və böyük dövlətlər Ermənistanın Azərbaycana qarşı açıq-aşkar təcavüzünün artdığı bir vaxtda hadisələrə çox ehtiyatla yanaşmaları Ermənistanı təcavüzkar dövlət kimi tanınmasına imkan vermədi. Bu isə həm beynəlxalq təşkilatların ən fəal üzvləri və həm də dünyanın böyük söz sahibi dövlətlərdən olan ABŞ, Fransa və Rusiyanın məsələyə ikili standartlarla yanaşması ilə bağlı idi.

ABŞ Dövlət Departamenti 1993-cü ilin iyul-avqust aylarında hərbi əməliyyatların güclənməsi ilə əlaqədar iki dəfə bəyanat verdi (486, 22), həmçinin Ağdamın işğalı ilə bağlı Böyük Britaniya hökuməti və Rusiya Xarici İşlər Nazirliyi «Dağlıq Qarabağa dair bəyanat»la çıxış etdilər (61, 73). Ağdam

və Füzuli rayonlarının işğalı dünyanın aparıcı dövlətlərinin bəyanatlarında pislənildi, işğalçı qüvvələrin Azərbaycan ərazisindən tamamilə və qeyd-şərtsiz çıxarılması göstərildi, lакin bütün bu deyilənlər yerinə yetirilmədi. Azərbaycan ərazisi qeyd-şərtsiz azad edilməк əvəzinə, əкsinə, Ermənistanın Azərbaycana hücumları gücləndi, avqust ayının sonlarında Füzuli və Cəbrayıl rayonları da Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olundu (61, 74).

Azərbaycan rəhbərliyi 1993-cü il avqustun 31-də Dağlıq Qarabağın hакimiyyət orqanları ilə atəşin müvəqqəti dayandırılması haqqında razılığa gəldilər (485, 37-38). Ancaq saziş elə imzalandığı andan Ermənistan silahlı qüvvələri tərəfindən pozuldu. Ermənilər Füzuli və Cəbrayıl rayonlarını ələ кeçirərəк yenidən atəşкəsə hazır olduqlarını bildirdiкlərinə baxmayaraq Qubadlını da işğal etdilər.

Sentyabrın 6-da Ermənistan bəyanat verərəк «azərbaycanlılar atəşкəsi pozduqlarına görə cəzalandılar» deyə, özlərinə haqq qazandırmaqla məsuliyyəti öz üstündən atmağa çalışdı. Bəyanatın verilməsində beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan - Azərbaycan münaqişəsi zonasında baş verən real hadisələrdən yayındırmaq məqsədi güdülürdü (61, 74).

Azərbaycan hökuməti BMT Təhlüкəsizliк Şurasına müraciət edərəк Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün 1993- cü il 28 sentyabrda ATƏM-in Parisdə кeçirilən görüşündə Minsк qrupu tərəfindən hazırlanmış «Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli» ilə razı olmadığını bildirdi (61, 74).

BMT TŞ 1993-cü il окtyabrın 14-də özünün 3292-ci iclasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 874 saylı qətnamə qəbul etdi (3, 143-145; 61, 116-117; 394, 146-148). Bu qətnamədə sentyabrın 28-də ATƏM-in Parisdə кeçirilən görüşündə hazırlanan və Azərbaycan tərəfindən qəbul edilməyən «Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli»n indi bəyənildiyi bildirilirdi.





BMT Təhlüкəsizliк Şurasının qəbul etdiyi 874 saylı qətnamənin də həm müsbət, həm də mənfi cəhətləri var idi.

Müsbət cəhətlərdən biri o idi кi, TŞ Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiq edirdi. Qətnamədə Ermənistan Respubliкası ilə Azərbaycan Respubliкası arasındакı münasibətlərdəкi gərginliкlə əlaqədar ciddi narahatlıq ifadə edilməкlə bu dəfə də Ermənistanın münaqişədə iştiraкı etiraf olunurdu. Iкinci, sənəddə dövlətlərin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə etməк üçün qüvvə tətbiq olunmasının yolverilməzliyi bir daha təsdiq olunurdu. Üçüncü, TŞ münaqişənin adamlara gətirdiyi müsibətləri, o cümlədən Azərbaycan Respubliкasında böyüк sayda mülкi şəxslərin кöçкün vəziyyətə düşməsindən ciddi narahat olduğunu bildirirdi. Bütün tərəfləri beynəlxalq humanitar hüququ hər hansı şəкildə pozmaqdan çəкinməyə çağırır, Baş Katibdən və beynəlxalq idarələrdən xahiş edirdi кi, zərər çəкmiş mülкi əhaliyə humanitar yardım göstərsin, qaçqın və кöçкün şəxslərin öz evlərinə təhlüкəsizliк şəraitində qayıtmasına кöməк etsinlər. Dördüncü, TŞ regiondакı bütün dövlətləri münaqişənin genişlənməsinə, bölgədə sülh və təhlüкəsizliyin pozulmasına səbəb ola biləcəк hər hansı düşmənçiliк hərəкətlərindən, işə hər hansı şəкildə qarışmaqdan və ya hərbi müdaxilədən çəкinməyə çağırırdı. Beşinci, Baş Katibdən, ATƏM-in sədrindən yerlərdə vəziyyətin bütün cəhətlərinə dair Təhlüкəsizliк Şurasına məruzələr təqdim olunmasını davam etdirməsi xahiş olunurdu.

BMT TŞ-nin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair əvvəlкi qətnamələrə nisbətən 874 saylı qətnamənin mənfi cəhətləri daha çox idi. Əvvəla, əvvəlкi qətnamələrdə olduğu кimi, Ermənistanın Azərbaycana qarşı təcavüzü «Dağlıq Qarabağ bölgəsində və onun ətrafında münaqişə»

kimi təsbit edilirdi. Bu isə, yenə də Ermənistanın münaqişədə iştirakını inkar edir, onu neytrallaşdırır, işğalçılığını, təcavüzkar əməllərini heçə endirirdi. Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin olduğu göstərilsə də ancaq bu gərginliyin səbəbləri barədə məlumat verilmirdi. Yəni əvvəlki qətnamələrdə olduğu kimi, yenə də Ermənistan Respublikası təcavüzkar dövlət kimi tanınmırdı. İkinci, sənəddə oktyabrın 8-də Moskvada yüksək səviyyədə keçirilmiş görüş xüsusi qeyd olunur, əlaqədar tərəfləri ATƏM-in Minsk qrupuna dəstək olaraq Rusiya Federasiyası hökumətinin köməyi ilə birbaşa əlaqələr nəticəsində yaranmış atəşkəsin davam etməsi göstərilirdi. Buradan belə çıxırdı ki, TŞ münaqişənin həllini Rusiyanın öhdəsinə buraxır. Üçüncü, TŞ 1993-cü il sentyabrın 28-də ATƏM-in Minsk qrupunun müşavirəsində hazırlanmış «Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli»ni alqışlayır və tərəflərin buna dqqət yetirməsini tövsiyə edir, tərəfləri həmin cədvəli qəbul etməyə çağırırdı. Amma hələ qətnamə qəbul edilməmişdən qabaq Azərbaycan tərəfi «Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli»ni məqbul saymadığından onu qəbul etməmişdi. Dördüncü, qətnamədə qüvvələrin bu yaxınlarda işğal edilmiş ərazilərdən çıxarılması göstərilir, əvvəlki qətnamələrdə olduğu kimi yenə də, «bu yaxınlarda işğal olunmuş ərazilər» ifadəsi işlədilirdi. Bu da münaqişənin həm xronologiyasını, həm də coğrafiyasını çətinləşdirirdi. Beşinci, əvvəlki qətnamələrdə, heç olmasa, Kəlbəcər və Ağdam rayonlarının işğal olunması pislənirdisə, bu qətnamədə Azərbaycanın işğal olunmuş Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının adları belə çəkilmirdi. Altıncı, TŞ kommunikasiya və nəqliyyat üçün bütün maneələrin aradan qaldırılmasını həyata keçirməyə çağırır. Bütün bunlar isə, erməni qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən çıxarıldıqdan sonra həyata keçirilə bilərdi. Yeddinci, erməni qüvvələrinin işğal olunmuş ərazilərindən çıxarılmasının dəqiq vaxtı sənəddə yenə də öz ək-





sini tapmırdı. Səkkizinci, əvvəlki qətnamələrdə olduğu kimi, işğalçı qoşunların Azərbaycan ərazisindən çıxmayacağı təqdirdə, qətnamənin müddəalarını yerinə yetirməyən tərəfə qarşı hansı sanksiya tətbiq edilməsi nəzərdə tutulmurdu ki, bu da təcavüzkarın cəzasız qalmasına, onun daha da azğınlaşmasına səbəb olurdu.

Ümumiyyətlə, BMT TŞ-nın 874 saylı qətnaməsi əvvəlki qətnamələrdən daha zəif idi. Artıq üçüncü qətnamə idi ki, Azərbaycan ərazisinin hansı dövlət tərəfindən işğal edilməsi göstərilmir, Azərbaycanın işğal olunmuş Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının heç adları belə çəkilmirdi. Məsələnin həlli isə RF-nin himayəsinə verilirdi.

Yuxarıda qeyd edildiyi kimi, 874-cü qətnamə 1993-cü il sentyabrın 28-də ATƏM-in Parisdə keçirilən görüşündə Minsk qrupu tərəfindən hazırlanan və Azərbaycan tərəfindən qəbul edilməyən «Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli»nə əsasən tərəfdar çıxıb, onu müdafiə edirdi. Azərbaycan tərəfinin təkidli etirazına baxmayaraq BMT TŞ-nin daimi üzvləri olan ABŞ, Fransa və Rusiyanın BMT-dəki daimi nümayəndələri Madlen Olbrayt, Lads və Vorontsov çıxış edərək, qətnaməni bəyəndiklərini bildirdilər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində aparıcı rolun Rusiyanın, yoxsa Qərbin ixtiyarında olması iddiaları problemin həllində ciddi mancələr yaratdı. Artıq 874 saylı qətnamədə Rusiya son danışıqlar prosesində, o cümlədən atəşkəs əldə olunmasında, xüsusi rola malik tərəf kimi qeyd olunurdu. Qərb ölkələri Rusiyanın birtərəfli təşəbbüsü ilə danışıqlar prosesində ATƏM-in Minsk qrupunu sıxışdırıb aradan çıxarmasından narahat idi. Qərb həmçinin Rusiyanın öz vasitəçilik səylərini gücləndirməsinə, onun beynəlxalq xarakter almasına, onun qoşunlarının BMT və ATƏM-in sülhməramlı qüvvələri adı altında regiona yerləşdirilməsinə qarşı çıxırdı. Ümumiyyətlə, Rusiyanın bu məsələdə fəallaşması

BMT və ATƏM-in «əl-qolunu bağlayırdı» ki, bu da adı çəkilən beynəlxalq təşkilatların nüfuzdan düşməsinə səbəb ola bilərdi.

BMT TŞ-nin daimi üzvü olan böyük dövlətlər ermənilərin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxmasına deyil, atəşkəs və danışıqlar yolu ilə münaqişənin nizama salınmasına üstünlük verirdilər.

Belə vəziyyətdən istifadə edən Ermənistan Respublikası təcavüzkarlığını daha da genişləndirərək, BMT TŞ-nin 822, 853, 874 saylı qətnamələrinə məhəl qoymayaraq Azərbaycanın digər yeni ərazilərini işğal etdi.

Ermənistan silahlı qüvvələri 1993-cü il oktyabrın 23-də atəşin dayandırılması haqqında razılaşmanı pozaraq Azərbaycan Respublikasının cənub-qərb rayonlarına güclü hücuma keçdi (10, 29 oktyabr 1993-cü il; 61, 78). Ermənistan ordusunun əsas zərbəsi Horadiz qəsəbəsinə vuruldu. Bununla ermənilər Azərbaycanı onun cənubunda mühüm kommunikasiya qovşağı olan Horadiz-Zəngilan sahəsində avtomobil və dəmir yollarından məhrum etdi. Bunlar isə Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən on kilometrlərlə uzaqda yerləşən və İranla həmsərhəd olan Zəngilan rayonunu işğal etmək üçün idi. Başlıca məqsəd Zəngilan rayonunu ələ keçirməklə Azərbaycanın cənub-şərq hissəsinin tamamilə işğal olunmasını başa çatdırmaq idi. Zəngilan rayonuna hücumdan bir neçə gün əvvəl Ermənistan ordusu bu rayon istiqamətində yaşayış məntəqələrini tutmuş və beləliklə, Azərbaycanın 60 min nəfərdən artıq əhalisi olan Zəngilan rayonu mühasirəyə düşmüş və onun Azərbaycanın digər rayonları ilə əlaqəsi kəsilmişdi. Zəngilan rayonuna hücum zamanı erməni qüvvələrinin ön hissələri Azərbaycanın İranla dövlət sərhəddinə bilavasitə yaxınlaşmış və sərhəddin 70 kilometr uzunluğunda məsafəsini nəzarət altına almışdı. Azərbaycanın onlarca yaşayış məntəqəsi Ermənistan qoşunları tərəfindən işğal olunmuşdu (10, 29 oktyabr 1993-cü il; 61, 78-79).





Cəzasız qaldığını hiss edən Ermənistan Respublikası münaqişənin dinclikIə nizama salınmasına dair növbəti görüş ərəfəsində və ya görüşün keçirildiyi dövrdə Azərbaycan Respublikasının yeni-yeni torpaqlarını qəsb etmək üçün əməliyyatlar aparır, bütün dünyaya isə, həmişə olduğu kimi, bəyan edirdi ki, guya münaqişəni dinc yolla nizama salmaq istəyir. Zəngilan rayonunun işğalı 1993-cü il oktyabrın 25-də – ATƏM-in sədri, İsveçin xarici işlər naziri xanım Marqaret Aff Uqlasın bölgəyə rəsmi səfəri zamanı baş verdi.

Ermənistanın təcavüzkarlığının genişlənməsi ilə əlaqədar olaraq Azərbaycan dövləti BMT Baş Katibinə, TŞ-nin sədrinə müraciət edərək beynəlxalq birliyin diqqətini Ermənistanın Azərbaycan Respublikasına qarşı birbaşa təcavüz həyata keçirməsi faktına cəlb etdi və təcavüzkara qarşı bütün lazımi tədbirləri görməyə çağırdı.

Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsilə bağlı Azərbaycan dövləti BMT TŞ-yə xahişlə müraciət etdi. Şura müraciət əsasında vəziyyəti müzakirə edərək Ermənistan silahlı qüvvələri tərəfindən Zəngilan rayonunun işğalı ilə əlaqədar 1993-cü il noyabrın 11-də 884 saylı qətnamə qəbul etdi (3, 146-148; 61, 118-119; 394, 149-151).

Bu qətnamədə Azərbaycanın Horadiz qəsəbəsinin və Zəngilan rayonunun işğalı ilə əlaqədar narahatlıq bildirilir, həmin ərazilərdən və Azərbaycanın zəbt edilmiş başqa ərazilərindən işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılması tələb olunurdu. 884 saylı qətnamə əvvəlki – 822, 853, 874 saylı qətnamələrin məzmununu bir daha təsdiqlədi.

Əvvəlki qətnamələrdə olduğu kimi, bu qətnamədə də həm müsbət, həm də mənfi cəhətlər var idi. Birinci, TŞ Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində və onun ətrafında münaqişənin davam etməsinin və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gərgin olaraq qalmasından ciddi narahat olduğunu bildirirdi.

Bu dəfə də Ermənistanın adı münaqişə ilə əlaqəsi olan tərəf кimi dolayı yolla çəкilirdi. Iкinci, atəşкəsin pozulması nəticəsində hərbi əməliyyatların genişlənməsi, həddən artıq güc tətbiq edilməsi, o cümlədən Azərbaycan Respubliкasının Zəngilan rayonunun və Horadiz şəhərinin işğalı təşvişlə qeyd olunurdu. Üçüncü, Azərbaycan Respubliкasının suverenliyi və ərazi bütövlüyü, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığı və ərazi əldə etməк üçün güc tətbiq edilməsinin yolverilməzliyi bir daha təsdiq olunurdu. Dördüncü, TŞ regionun bütün dövlətlərini münaqişənin böyüməsinə, regionda sülhü və təhlüкəsizliyi poza biləcəк hər hansı düşmənçiliк aкtından və müdaxilədən çəкinməyə çağırırdı. Beşinci, TŞ Baş Katibdən və müvafiq beynəlxalq təsisatlardan zərər çəкmiş mülкi əhaliyə, o cümlədən Zəngilan rayonunun, Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədlərinin əhalisinə təcili humanitar yardım göstərilməsini, qaçqınlara və məcburi кöçкünlərə təhlüкəyə məruz qalmadan öz evlərinə qayıtmasına кöməк etməyi xahiş edirdi. Altıncı, Baş Katibdən, ATƏM-in Fəaliyyətdə olan Sədrindən, ATƏM-in Minsк Konfransı sədrindən xahiş olunurdu кi, Minsк prosesinin gedişi barədə, vəziyyətin bütün aspeкtləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata кeçirilməsi barədə məlumat vermələri xahiş olunurdu.

BMT TŞ-nin 884 saylı qətnaməsinin bir sıra mənfi cəhətləri də var idi. Əvvəlкi qətnamələrdə olduğu кimi, Ermənistanın Azərbaycana qarşı təcavüzü yenə də «Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə» кimi qiymətləndirilirdi. Ermənistan Respubliкası ilə Azərbaycan Respubliкası arasında münasibətlərin gərgin olaraq qalması göstərilsə də bu gərginliyin səbəbləri haqqında məlumat verilmirdi. Iкinci, Ermənistana təкlif edilirdi кi, 822, 853, 874 saylı qətnamələrə riayət edilməsinə nail olmaq üçün Dağlıq Qarabağ ermənilərinə təsir göstərsin və münaqişəyə cəlb olunmuş qüvvələri onu davam etdirməк üçün vəsaitlə təchiz olunmasını təmin etməsin. Yenə





də Dağlıq Qarabağ ayrıca bir subyeкt кimi qələmə verilir, Ermənistanın isə münaqişədə iştiraкı neytrallaşdırılırdı. Yəni, əvvəlкi qətnamələrdə olduğu кimi, bu dəfə də Ermənistan Respubliкası təcavüzкar dövlət кimi tanınmırdı. Üçüncü, qətnamədə Rusiya Federasiyası hökumətinin ATƏM-in Minsк qrupuna dəstəк olaraq yardımçılığı ilə qurulmuş birbaşa əlaqələrin nəticəsində əldə olunmuş atəşкəsin bərpa olunması, onun səmərəli və daimi olması göstərilirdi. Bununla da 874 saylı qətnamədə olduğu кimi, münaqişənin həlli istiqamətində Rusiya Federasiyasının vasitəçiliyinə üstünlüк verilirdi. Dördüncü, TŞ ATƏM-in və onun Minsк qrupunun münaqişənin həllinə dair təкliflərini yüкsəк qiymətləndirir, münaqişənin danışıqlar yolu ilə ATƏM-in Minsк prosesi və ATƏM-in Minsк qrupunun 1993-cü il noyabrın 2-8-də Vyanada кeçirilmiş müşavirəsində «Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli»nə edilən düzəlişlər конteкstində nizamlanmasının imкanlarını axtarmağı davam etdirməyə çağırırdı. Məlum olduğu кimi, 874 saylı qətnamə qəbul edilməmişdən qabaq 1993-cü il sentyabrın 28-də ATƏM-in Parisdə кeçirilən görüşündə Minsк qrupu tərəfindən hazırlanan «Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli» Azərbaycan üçün məqbul olmadığından onu qəbul etməmişdi. ATƏM-in Minsк qrupunun 1993-cü il 2-8 noyabrında Vyanada «Yeniləşdirilmiş cədvəl»ə edilən düzəlişlər də 1993-cü il sentyabrın 28-də ATƏM-in Parisdə кeçirilən görüşündə Minsк qrupu tərəfindən hazırlanan «Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli» кimi çox zəif olduğu üçün bu da Azərbaycan tərəfindən məqbul hesab edilmirdi. Beşinci, qətnamədə ATƏM-in Minsк qrupunun 9 üzvünün 4 noyabr 1993-cü il tarixində qəbul etdiyi bəyanat yüкsəк qiymətləndirilirdi. Bəyanatda münaqişə iştiraкçıları, o cümlədən işğalçı Ermənistanın adı çəкilmir, o, təcavüzкar кimi tanınmırdı. Sazişi pozan tərəfin конкret olaraq hansı məsuliyyət daşıdığı göstərilmirdi. Altıncı, qətnamədə qəsbкar qüvvələrin bu yaxınlarda işğal edilmiş

ərazilərdən çıxarılması maraqlı tərəflərdən tələb olunurdu. Əvvəlki qətnamələrdə olduğu kimi, «bu yaxınlarda işğal olunmuş ərazilər» ifadəsi coğrafi baxımdan açıqlanmır, işğal olunmuş ərazilərdən qəsbkar qoşunların çıxarılmasının dəqiq vaxtı da göstərilmirdi. Yeddinci, əvvəlki qətnamələrdə olduğu kimi, işğalçı qoşunların Azərbaycan ərazisindən çıxmayacağı təqdirdə, qətnamənin müddəalarını yerinə yetirməyən tərəfə qarşı hansı sanksiya tətbiq edilməsi nəzərdə tutulmurdu.

Ümumiyyətlə, BMT TŞ-nin əvvəlki 822, 853, 874 saylı qətnamələrdən o qədər də fərqlənməyən 884 saylı qətnaməsi onları bir daha təsdiq etdi.

BMT Təhlükəsizlik Şurasının 884 saylı qətnaməsi qəbul olunarkən bu qurumun daimi üzvləri olan Böyük Britaniya, Fransa və Rusiyanın BMT-dəki daimi nümayəndələri çıxış edərək qətnaməni müdafiə edib ona tərəfdar çıxdılar.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi və Azərbaycanın cənub-qərbində erməni silahlı qüvvələrinin son hücumu ilə əlaqədar ABŞ Dövlət departamenti, Böyük Britaniya hökuməti, Rusiya Xarici Işlər Nazirliyi bəyanatla çıxış etdilər.

1993-cü il ərzində Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığının artması ilə əlaqədar BMT TŞ-nın və dünyanın aparıcı ölkələrinin qəbul etdikləri bütün sənədlərdə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilirdi. Lakin TŞ-nin daimi üzvləri olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına imkan və razılıq vermədilər. Erməni silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxmasına deyil, münaqişənin və atəşkəsin danışıqlar yolu ilə həll olunmasına üstünlük verdilər.

Beləliklə, BMT TŞ-də aparılan müzakirələr zamanı və sənədlər qəbul edilərkən Şuranın daimi üzvləri olan böyük dövlətlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişə-





sinə birmənalı yanaşmadılar, münaqişənin səbəblərinin, xarakterinin, məzmununun müəyyənləşdirilməsinə səy göstərmədilər. Bu baxımdan ABŞ-ın, Böyük Britaniyanın mövqeləri ilə Rusiya və Fransanın mövqeyi xeyli fərqli idi. Belə ki, Rusiya və Fransanın möqeləri ermənipərəstliyi ilə seçilirdi. Bu iki dövlətin təmsil olunduğu bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərin hamısında Ermənistanın Azərbaycana qarşı təcavüzü ört-basdır edildi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi «Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə» kimi qiymətləndirildi.

Ermənistan Respublikası cəzasız qaldığını hiss edərək BMT üzvü olan Azərbaycan dövlətinin ərazisini müharibə yolu ilə ilhaq etdi. Azərbaycan ərazisinin 20%-dən çox hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılır. Işğal olunmuş ərazilərdən 1 milyondan çox azərbaycanlı əhali öz torpağında qaçqın və köçkün vəziyyətinə düşdü. Yüzlərlə yaşayış məntəqəsi dağıdıldı, talan edildi və yandırıldı (224; 340).

Ermənistanın özünün minimum proqramını həyata keçirdikdən, yəni Dağlıq Qarabağ regionunun bütün ərazisini işğal etdikdən sonra, onun sərhədləri boyunca «bufer zonası» yaratmağa başladı. Bu zona işğal edilmiş Dağlıq Qarabağ ətrafında yerləşən Azərbaycan rayonlarını əhatə edir. Təcavüzün gedişində Azərbaycanın Ermənistanla həmsərhəd rayonlarının, demək olar ki, hamısı iki istiqamətdə: zəbt edilmiş Dağlıq Qarabağ regionundan və bilavasitə Ermənistan Respublikası ərazisindən edilən hücumlardan sonra işğal olunmuşdu. Nəticədə Azərbaycanın Ermənistanla dövlət sərhəddinin 70%-dən çoxu və Iran Islam Respublikası ilə sərhəddinin 160 kilometri işğalçı erməni qoşunlarının nəzarəti altına düşdü (125, 30 oktyabr 1993; 61, 83).

BMT və dünya birliyinin Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla aradan qaldırılması sahəsində göstərdiyi səylər, Ermənistan Respublikasının açıq-aşkar hərbi işğalçılıq

mövqeyi tutması ucbatından təsirli nəticələr vermədi. BMT-nin regionda sülhpərvərliк fəaliyyətinin uğursuzluqlarının başlıca səbəbi məhz Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzü faktının birbaşa etiraf olunmaması ilə bağlıdır. Ermənistan Respublikası BMT Nizamnaməsinin 1-ci və 2-ci maddələrində və ATƏT-in Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobud şəkildə pozmasına baxmayaraq adı çəkilən nüfuzlu beynəlxalq təşkilatların faktlar toplamaq sahəsində çoxsaylı missiyaları nəticə çıxararkən Ermənistan Respublikasının silahlı qüvvələrinin münaqişədə bilavasitə iştirakını etiraf etməyin mürəkkəb olduğunu bildirirdilər (61, 84). Halbuki, BMT TŞ-nin məlum qətnamələrində və TŞ sədrinin bəyanatlarında Ermənistan Respublikasının münaqişədə bu və ya başqa formada iştirakı etiraf olunurdu. Deməli, Ermənistan münaqişədə bitərəf olmayıb, hərbi təcavüzə rəvac verib. Bu isə beynəlxalq cinayətdir və yuxarıda qeyd edildiyi kimi, BMT BM-in 1974-cü ildə keçirilən 29-cu sessiyasında təcavüzün istənilən forması (birbaşa, yaxud dolayısı ilə) hərbi cinayət elan edilmişdir.

Nəhayət, beynəlxalq birliklər, xüsusilə BMT, təcavüzkarlığın qarşısını almaq üçün BMT Nizamnaməsinin 7-ci fəslinə müvafiq surətdə tədbirlər görməli olduğu halda laqeydlik göstərmişlər. Təcavüzkarın qarşısının alınmaması, təcavüzün nəticələrinin aradan qaldırılmaması, münaqişənin bütün regiona yayılması nəticəsində Avropanın mərkəzində, eləcə də Qafqazda, sabitliyin bərqərar edilməsinə yönəldilmiş səylərin heçə enəcəyi nəzərə alınmamışdır.

Prezident İlham Əliyev münaqişənin həlli istiqamətində səylərin gücləndirməsi sayəsində BMT-nin Dağlıq Qarabağla bağlı yeni bir qərarının çıxarılmasına nail oldu. BMT Baş Assambleyası tərəfindən 2008-ci il martın 14-də «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı qətnamə qəbul edildi.





14 mart 2008-ci il tarixində 7 əleyhinə və 39 lehinə olmaqla qəbul edilən bu qətnamədə Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi, ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması, qaçqınların öz yurdlarına dönməsi əks etdirilmişdir.

Lakin beynəlxalq siyasətdə söz sahibi dövlətlərin səsvermədə bitərəf qalması başa düşülən deyil. Həm də qərarın əleyhinə səs verən 7 ölkə içərisində problemin həllini öz üzərinə götürmüş 3 ölkənin olması və bu ölkə təmsilçilərinin məsələ ilə bağlı qəbul edilə bilən tələbkarlıq nümayiş etdirməməsi təəssüf doğurur.

Beləliklə, son dövrlərdə BMT-nin iradəsini ifadə edən ATƏT-in fəaliyyətindəki yenilikləri Minsk qrupunun təşəbbüsü ilə Madrid danışıqları və Moskva bəyannaməsi Azərbaycan Respublikasının xarici siyasətinin uğurlu göstəricisi kimi qiymətləndirilməlidir.

## 4.2. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

1992-ci ildən etibarən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ATƏT-ə həvalə olunmuşdu. Həmin il – 1992-ci il martın 24-də onun himayəsi altında 1988-ci ildən bəri davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması məqsədilə vasitəçilik etmək üçün Minsk Qrupunun yaradılması barədə qərar qəbul olundu. Azərbaycan, Ermənistan, Çexiya və Sloveniya, Almaniya, İsveç, Belarus, İtaliya, Rusiya, ABŞ, Türkiyə və Fransanın daxil olduğu Minsk qrupuna bu münaqişənin həlli prosesinə rəhbərlik etmək tapşırıldı (516).

Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların ilkin mərhələsi kimi Minsk qrupunun Romada keçirilən ilk görüşündə 5 dövlətin - Azərbaycan, Ermənistan, Rusiya, Tür-

kiyə, ABŞ nümayəndələrilə Minsk qrupu sədrinin qeyri-rəsmi məsləhətləşmələri oldu. Sonrakı mərhələlərdə danışıqların yuxarıda qeyd edilmiş 11 dövlətin iştirakı ilə aparılması nəzərdə tutuldu.

Roma görüşündə Azərbaycan nümayəndə heyətinin birinci mərhələdə münaqişənin Ermənisatanın Azərbaycana təcavüzü kimi qiymətləndirilməsi, ikinci mərhələdə isə Dağlıq Qarabağın statusu məsələsinin müzakirəsi kimi iki mərhələli danışıq təklifi rədd olundu. Azərbaycan tərəfinin təqdim etdiyi ikitərəfli saziş haqqında sənəd də qəbul olunmadı. Bu görüşdə yalnız ATƏT-in münaqişə zonalarına göndəriləcək müşahidəçilərin mandatlarının təsdiqlənməsi və sülh prosesində iştirak edəcək müşahidəçilərin nəzarət təqvimi qəbul edildi.

Süllı danışıqları üçün münaqişə bölgəsində hərbi əməliyyatların dayandırılması istiqamətində hər iki tərəf müstəqil addımlar atmağa hazır olduqlarını bildirdilər. Burada münaqişə zonasında atəşin tam dayandırılması və bundan sonra müşahidəçilər qrupunun fəaliyyət göstərməsi nəzərdə tutulurdu.

Roma danışıqlarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair heç bir konkret iş görülmədi.

Heydər Əliyevin Respublika rəhbərliyinə tarixi qayıdışı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında böyük dönüşün əsasını qoydu (92). Bu, ATƏT-in də beynəlxalq vasitəçi kimi fəaliyyətinə öz təsirini göstərdi.

Qeyd etmək lazımdır ki, ATƏT-in fəaliyyətdə olan sədri M.Rafaellinin münaqişə bölgəsinə ilk səfəri uğursuz oldu. Belə ki, Ermənistan rəhbərliyinin də qəbul etdiyi qrafikin, güya ki, Dağlıq Qarabağ separatçıları tərəfindən bəyənilməməsi və buna görə də irəli sürülən bəzi mülahizələrin razılaşdırılmaması sənədin yenidən imzalanmasını mümkünsüz etmişdir. Qrafikdə erməni silahlı birləşmələrinin Kəlbəcərdən çıxarılmasına başlanması nəzərdə tutulmuşdu. Dağlıq Qarabağ separatçıları





Azərbaycanda, guya, daxili siyasi vəziyyətin qeyri-sabit olduğunu bəhanə gətirərək qrafikin vaxtında həyata keçirilməsinə maneçilik törətdilər. Halbuki, hər iki tərəfin atəşin dayandırılmasına, düşmənçilik münasibətlərinin aradan qaldırılmasına, münaqişəni yalnız sülh danışıqları ilə həll etməsinə real siyasi imkanları yaranmışdı.

Minsk qrupunun ötən dövr ərzində fəaliyyətində ona nail olunmuşdu ki, Dağlıq Qarabağ Azərbaycan torpağıdır, orada azərbaycanlılarla birgə yaşayan və öz müqəddəratını təyin etmiş erməni etnik qrupunun Azərbaycan ərazisini parçalamağa heç bir hüququ yoxdur və bununla bərabər, öz müqəddəratını təyin etmək hüququ milli azlığın, etnik icmanın bütün vətəndaşlıq hüquqlarını təmin edir, lakin orada dövlət içində dövlət yaratmaq hüququ vermir.

Romada Minsk qrupunun üzvü olan 9 ölkənin- Belarus, Almaniya, Italiya, Rusiya, ABŞ, Türkyə, Fransa, Çexiya və Isveç nümayəndələrinin 1993-cü il avqustun 12-də keçirdikləri görüşdə Füzuli-Martuni (Xocavənd)-Hadrut bölgəsində hərbi əməliyyatların gücləndirilməsini pisləyən müraciəti yayıldı. Bu görüşdə ATƏT Şurasının sədri, Isveçin xarici işlər naziri xanım Marqaret Aff Uqlassın da səsləndirdiyi bəyanat da ciddi əks-səda doğurdu.

Vaxtilə (1993-cü ilin mart ayında) Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə Romadakı danışıqlar zamanı birgə əlaqələndirmə komissiyasından ibarət işçi orqanın təşkili məsələsi müzakirə olunmuşdu. Bu məsələ sonralar ATƏT çərçivəsində Qarabağ üzrə sülh konfransının sədri Mario Rafaelli tərəfindən müdafiə edilmişdi.

Azərbaycan diplomatiyası Roma görüşündə siyasi yolla üstünlüyə nail olsa da, Ermənistan tərəfi yeni qrafiki imzalasa da, Dağlıq Qarbağın erməni icması birinci dəfə olduğu kimi bu dəfə də sənədi qəbul etməkdən imtina etdi.

Azərbaycan tərəfindən mümkün olan hər şey edilməsinə, hətta danışıqlarda Dağlıq Qarbağ nümayəndələrinin iştirakına razılıq verilməsinə baxmayaraq Minsk Qrupunda Rusiyanı təmsil edən Vladimir Kazimirovun vasiəçiliyi ilə cəbhə zonasında münaqişə tərəflərinin iştirakı ilə keçirilməsi nəzərdə tutulan görüş baş tutmadı. Görüş üçün nəzərdə tutulan neytral yerlərdə Tbilisidə, ATƏT xətti ilə Moskvada nəzərdə tutulan danışıqlarda iştirak etməkdən də erməni tərəfi boyun qaçırdı. Onlar heç bir hüquqi əsas olmadan danışıqların Dağlıq Qarabağ ermənilərı ilə aparılmalı olduğunu iddia etməkdə davam edir, həmçinin Ermənistanın bu təcavüzdə iştirakını inkar edir və bu danışıqlarda Dağlıq Qarabağın tərəf kimi qəbul olunmasına cəhd göstərirdilər.

Bu arada Qarabağ separatçılarının münasibətində müəyyən dəyişikliklər hiss olunmağa başlamışdı. Onların lideri Robert Köçəryan Azərbycanda siyasi vəziyyətin sabitləşməsi nəticəsində münaqişənin dincliklə aradan qaldırılması yolunda əməli addımlar atmaq üçün əlverişli zəminin yarandığını təsdiq etmişdi. O, bu məsələlərin bütün kompleksinə, ən əvvəl atəşin dayandırılması və "tutulmuş" ərazilərdən qoşunların çıxarılması məsələlərinə Minsk qrupunun Moskvada keçiriləcək görüşündə (1993-cü il 9-11 sentyabr) baxmağa hazır olduğunu bildirmişdi. Məhz həmin günlərdə Ermənistan prezidenti L.Ter-Petrosyan İran İslam Respublikasının prezidenti Əli Əkbər Haşimi Rəfsəncani ilə telefon söhbətində bildirmişdi ki, erməni qüvvələri Azərbaycana hücumunu dayandıracaq və tədricən onun ərazisini tərk edəcəklər. O, bölgədə vəziyyətin siyasi vasitələrlə nizama salınmasına nail olmaqda müsbət irəliləyişlərə yalnız Minsk qrupu çəçivəsində mümkün olduğu qənaitində idi (125, 13 sentyabr 1993-cü il).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün həyati əhəmiyyətə malik məsələ münaqişə zonasında atəşin və bütün döyüş əməliyyatlarının dayandırıl-





ması idi. Atəşkəsə nail olmaq, sülhə doğru yolda etimadsızlığı aradan qaldırmaq, münaqişə iştirakçılraı arasında dialoqu dərinləşdirmək, kommunikasiyaları, təsərrüffat əlaqələrini bərpa etmək, bütövlükdə Cənubi Qafqazın iqtisadiyyatı üçün çox böyük əhəmiyyətə malik bir məsələ olan qaçqın və köçkün problemi – bütün bu məslələrin həllində Minsk prosesinin daimi fəaliyyət göstərən və mühüm elementi kimi Minsk qrupunun üzərinə böyük məsuliyyət qoyulmuşdu. İşğalçı qüvvələrin bütün Azərbaycan ərazilərindən çıxarılması, konfransın 1992-ci il 24 mart tarixli mandatına uyğun olaraq, "hərətərəfli nizamlama üçün çərçivə yaradılması" vacib idi.

Ermənistan prezidenti L.Ter-Petrosyan 1993-cü ilin martında Parisdə rəsmi səfərdə olan zaman mətbuat konfransında Dağlıq Qarabağ münaqişəsinə toxundu, Türkiyə və İranla qonşuluq münasibətlərinin yaxşılaşmasının zəruriliyindən bəhs etdi. Adəti üzrə yenə də Ermənistanın blokadası məsələsindən söz açdı. Çox maraqlıdır ki, Dağlıq Qarabağ münaqişəsinin qızışdırıcı və aparıcı şəxslərindən biri olan Ermənistan prezidenti belə bir vəziyyətin müharibə nəticəsində yarandığını önə çəkərək, müharibənin dayandırılması ilə Cənubi Qafqazda geniş məhəlli əməkdaşlığa, beynəlxalq inteqrasiyaya, geniş imkanların açılacağından bəhs etdi.

Beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsinə ciddi yanaşmadığını bildirən L.Ter Petrosyan problemin çoxmərhələli həlli variantını təklif etdi. İlk baxışda bu təklif Azərbaycan tərəfinin də qəbul edə biləcəyi bir variant idi. Çünki, burada söhbət birinci mərhələdə atəşin danışıqsız dayandırılmasından, sonra isə Dağlıq Qarabağın gələcək statusu barədə məsələnin həllindən gedirdi. Məsələnin belə qoyuluşundan beynəlxalq təşkilatların da razılaşacağına şübhə yox idi. Ancaq maraqlı o idi ki, Ermənistan prezidenti, güya Azərbaycan tərəfinin atəşi dayandırmayacağı bəhanəsinə ümid edərək bu fikri ortaya atmışdı. Ona görə də yeni şərtlər də irəli sürür- atəşkəsin

yalnız BMT-nin sülhməramlı beynəlxalq qüvvələrinin bölgədə yerləşdirilməsindən sonra mümkünlüyünü vurğuladı.

Böyük dövlətlər və beynəlxalq təşkilatlar, onların üzvü olan digər ölkələrin siyasi dairələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən siyasi manipulyasiya məqsədilə istifadə edirdi. Belə ki, beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsas mahiyyətini açmır, münaqişənin davam etməsinin tərəfdarlarının məsələyə yanaşma tərzinə diqqət yetirmir. Onların münaqişənin nizama salınmasında mümkün olan obyektiv mövqe tutmamaları göz qarşısındadır. Bu məsələdə Qarabağ böhranını sülh yolu ilə həll etmək üçün münaqişə ölkələrinin danışıqların nəticələri ilə günahlandırılması və əslində, bu məsələdə günahkarla günahsızı, yəni işğalçı ilə işğala məruz qalanı müəyyənləşdirməyə maraq göstərməyərək iki respublikanı danışıqlara məsul etməyə səy göstərilmişdir. Eyni zamanda region dövlətlərinin müxtəlif mövqe tutmaları, yəni Rusiyanın Ermənistanı açıq-aşkar müdafiə etməsi, İranın isə rəsmi danışıqlarda Azərbaycanın tərəfini saxladığını bildirsə də Ermənistana loyal münasibət göstərməsi narahatlıq doğururdu.

Azərbaycanın haqq işinin tərəfdarı olan Türkiyənin isə Azərbaycanpərəstlikdə günahlandırılaraq mümkün qədər bu məsələlərin həlli prosesindən kənarda saxlanması tendensiyası davam etmişdir. Bu məsələdə ABŞ və Fransa isə erməni lobbisinin güclü təzyiqi ilə İrəvana rəğbətlə yanaşır, külli miqdarda maliyyə yardımı edir, Bakıya isə münasibətlərini yalnız rəsmi siyasi vasitələrlə və özü də ləng siyasətlə bildirirlər. Nəhayət, Dağlıq Qarabağ münaqişəsi ilə birbaşa məşğul olunması beynəlxalq təşkilatlardan biri olan Minsk konfransına həvalə edilməsi və bu təşkilatın da vaxtaşırı laqeyd yanaşmaları münaqişənin hələ də həll edilməməsinə səbəb olmuşdur.

Ümumi nəticə isə ondan ibarətdir ki, Azərbaycan öz ərazisinin 20%-dən çoxunu itirmiş, bu ərazilər Ermənistanın





hərbi qüvvələrinin nəzarəti altına düşmüşdür. Ermənistanla Dağlıq Qarabağ arasında birbaşa əlaqə dəhlizi açılmışdır. Ermənistan qondarma «Dağlıq Qarabağ Respublikası» silahlı qüvvələrinin «hərbi gücə malik olduğunu» bütün dünyada nümayiş etdirmişdir. Ermənistan real mövqedən – hərbi qüvvə üstünlüyü göstərmək imkanından müvəqqəti də olsa istifadə edə bilmişdir. Erməni ideologiyası «ermənilərin qələbəsi» kimi mənəvi psixoloji eyforiya yaratmışdır. Eyni zamanda ABŞ konqresi Azərbaycana humanitar yardım göstərilməməsinə dair 907-ci düzəlişə rəvac vermişdir.

Qeyd etdiyimiz kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həllində ayrı-ayrı ölkələrin göstərdikləri bütün səyləri birləşdirmək üçün Minsk Qrupunun yaradılması mühüm əhəmiyyətə malik idi. BMT TŞ-də Minsk qrupunun rolunu yüksək qiymətləndirir və onun fəaliyyətinin genişləndirilməsini vacib hesab edirdi.

Minsk qrupunun xeyli fəallaşmasının da nəticəsi idi ki, Brüsseldə 1994-cü il may ayında Heydər Əliyev tərəfindən NATO-nun "Sülh naminə tərəfdaşlıq" çərçivə sənədi imzalandı və Rusiyanın vasitəçilyi ilə Ermənistanla Azərbaycan arasında atəşkəs barədə razılaşma əldə olundu. ABŞ-ın yeni müstəqil dövlətlər üzrə siyasətinin baş əlaqələndiricisi Ceyms Kollinzin başçılığı ilə nümayəndə heyəti Bakıya rəsmi səfər etdi. Nümayəndə heyətinin tərkibinə ABŞ Dövlər Departamentinin regional münaqişələr idarəsinin rəisi, Minsk qrupundakı nümayəndəsi Cozef Presselin də daxil olmasını, Ermənistan ilə Azərbaycan arsaındakı hərbi münaqişəni tənzimləməyin dövlətlərimizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü baxımından çox ciddi problem kimi qiymətləndirən Heydər Əliyev bütövlükdə ATƏT-in, onun Minsk qrupunun fəaliyyətinə, həmçinin bu qurumların üzvü kimi Birləşmiş Ştatların səylərinə böyük ümid bəsdədiyini ifadə etdi.

Minsk qrupunun sədri Yan Eliasson, onun müavini Matias Mosberq və Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi, RF XİN-nin xüsusi tapşırıqlar üzrə səfiri Vladimir Kazimirov 1994-cü il mayın 18-də Bakıya səfərə gəldilər. Səfər zamanı onlar Heydər Əliyevlə görüşüb fikir mübadiləsi etdilər. Minsk qrupunun rəhbəri "birgə nəzarət strukturu" yaratmaq barədə Rusiyanın xarici işlər naziri Andrey Kozırevlə məsləhətləşmələr apardı.

Moskva şəhərində 1994-cü il iyunun 22-23-də ATƏT-in Minsk qrupunun sədri Y.Eliasson, Rusiya Federasiya Şurasının sədri V.Şumeyko, xarici işlər nazirinin birinci müavini A.Adamiş və RF prezidentinin Dağlıq Qarabağa dair məsələlər üzrə səlahiyyətli nümayəndəsi V.Kazimirov Ermənisatan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair ATƏT ilə Rusiyanın real əməkdaşlığının ilk səmərəsi kimi qiymətləndirilən bu razılaşmadan sonra beynəlxalq müşahidəçilər və xarici ölkələrin nümayəndə heyətlərinin münaqişə tərəfləri arasında gediş-gəlişi asanlaşdırmaq məqsədi ilə İrəvan-Bakı hava xəttindən istifadə edirdilər.

1994-cü il oktaybrın 11-də və 17-də Minsk qrupunun sədr müavini P.Andermanın başçılıq etdiyi nümayəndə heyətinin tərkibində ABŞ-ın, Fransanın, İtaliyanın və Türkiyənin təmsilçilərindən başqa bir sıra hərbi ekspertlərin də Bakıya gəlməsi 1994-cü ilin yazında Praqada imzalanmış sazişin müddəalarının reallaşması istiqamətində ATƏT-lə BQXK arasında əlaqəli fəaliyyətin formalaşmağa başlaması kimi qəbul edildi.

Minsk qrupunun həmsədrləri 1995-ci il yanvar ayının sonlarında Budapeşt zirvə toplantısında qəbul edilmiş qətnamənin həyata keçirilməsinin vəziyyəti və bu barədə tərəflərin fikirləri ilə tanış olmaq üçün münaqişə bölgəsinə rəsmi səfər etmişdi. Səfər zamanı münaqişə edən tərəflərin imzalaması nəzərdə tutulan Böyük Sülh Sazişində Şuşa və Laçının taleyi barədə müzakirələr aparılmışdır.





Görüşlərdə Azərbaycanda və Ermənisatanda fəaliyyət göstərən ictimai təşkilatların imkanlarından istifadə edilməsi, əsirlərin və girovların dəyişdirilməsi qaydaları və bu prosesin surətləndirilməsi ətrafında məsləhətləşmələr aparılması nəzərdə tutulmuşdu.

Ümumiyyətlə, Budapeşt zirvə görüşündən sonra dünya birliyinin, ATƏT üzvü olan ölkələrin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə inamı xeyli artmışdı. Bu vaxta qədər Azərbaycana ögey münasibət bəsləyən ABŞ, Rusiya, Fransa və digər dövlətlərin siyasi dairələri artıq Budapeşt zirvə görüşündən sonra obyektiv həqiqəti etiraf etməyə başlamışlar. Maraqlıdır ki, 1995-ci ilin fevralında Bakıda səfərdə olmuş Fransa XİN-in baş katibi B.Düfürq ATƏT üzvü kimi Fransanın rəsmi mövqeyindən çıxış edərək onun ölkəsinin siyasi rəhbərliyinin bu münaqişənin tezliklə aradan qaldırılmasının ən vacib şərti kimi ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipini birmənalı olaraq müdafiə etdiyini bəyan edmişdi.

Budapeşt sammitindən sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınmasına dair ilk məsləhətləşmə 1995-ci il fevralın 6 - 11-də Rusiya paytaxtında aparılmış danışıqlarda oldu. Bu toplantının qəbul etdiyi qərarın həyata keçirilməsi yollarının müzakirəsi planlaşdırılsa da Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe buna imkan vermədi. ATƏT-in Minsk qrupu həmsədrlərinin hazırladıqları baza sənədində bəzi prinsipial əhəmiyyətə malik məqamlar, ilk növbədə Laçın və Şuşanın boşaldılması məsələsi də əhatə olunmurdu. Ermənilərin və onların havadarlarının təzyiqi ilə Dağlıq Qarabağın erməni icamasının münaqişədə iştirak edən müstəqil tərəf kimi tanıtdırmaq cəhdləri göstərilirdi. Münaqişənin həllinə bu prinsiplərlə yanaşan erməni tərəfinin təklifləri nə Minsk qrupunun üzvü olan dövlətlərin nümayəndələri, nə də ikitərəfli danışıqlar zamanı qəbul olundu.

Azərbaycan nümayəndə heyətinin qəti mövqeyi nəticəsində separatçılar öz istəklərinə nail ola bilmədilər. Heç bir şübhə yoxdur ki, Dağlıq Qarbağın erməni icmasını müstəqil tərəf kimi tanımaq münaqişəni həll etmək yox, onu həddindən artıq dolaşıq bir vəziyyətə salmaq olardı. Əvvəlki görüşlərdən fərqli olaraq Moskva məsləhətləşmələrində ermənilər açıq surətdə tələb etdilər ki, sülhü mühafizə qüvvələri sülh müqaviləsi bağlandıqdan sonra regiona göndərilsin, həmçinin türk əsgərləri sülhməramlı qüvvələrin tərkibində olmasın.

1995-ci il fevralın 28-də Bakıya, sonra İrəvana və Xankəndinə səfər edən ABŞ Dövlət Departamentinin keçmiş SSRİ ərazisində regional münaqişələr idarəsinin rəisi, Minsk qrupunda Birləşmiş Ştatları təmsil edən Cozef Pressel Heydər Əliyevlə görüşdə bildirmişdi ki, yaxın iki ay ərzində danışıqlar prosesində irəliləyişlərə nail olunmasa, ATƏT-in indiyədək bu istiqamətdə gördüyü işlərin heç bir əhəmiyyəti olmayacaq.

Beynəlxalq hüquq normalarına məhəl qoymamaqla Ermənistan Azərbaycan Respublikasının işğal olunmuş əraziləri barəsində baş vermiş fakt siyasəti yeritməyə davam edirdi.

Dövlət separatizmi siyasəti yeridən, öz işğalçılıq siyasətini pərdələməkdə davam edən Ermənistan sözügedən regionu azərbaycanlılardan kütləvi şəkildə təmizləyərək digər ölkələrin erməni əsilli vətəndaşlarını Azərbaycanın işğal edilmiş ərazilərinə köçürülməsini reallışdırmağa çalışırdı. Azərbaycanın işğal olunmuş torpaqlarında ermənilərin yerləşdirilməsi kampaniyasını dövlət səviyyəsində aparmaq üçün maliyyələşdirmə işləri həyata keçirirdi. Bunun üçün respublika daxilində və müxtəlif ölkələrdəki erməni diasporlarında vəsait toplanmasına başlanmışdı. Azərbaycan Respublikası XİN-in 24 fevral 1995-ci il tarixli bəyanatında deyilirdi: “Ermənistan Respublikasının bu cür hərəkətləri Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün kobudcasına pozulmasının davam etdirilməsidir və Ermənistan Respublikasının beynəlxalq hüquq normalarına,





BMT nizamnaməsinə, habelə ATƏT-in prinsiplərinə əsla məhəl qoymadığını göstərir. Bu hərəkətlər Ermənistan-Azərbaycan münaqişəsinin ATƏT çərçivəsində dinc, siyasi yolla həll edilməsi prosesini pozur”.

Narahatlıq doğuran hal o idi ki, bu hərəkətlər Budapeşt görüşünün qərarlarına uyğun olaraq ATƏT-in fəal surətdə konkret səylər göstərdiyi bir vaxta təsadüf edirdi. Bu süni maneələr münaqişə regionuna ATƏT-in sülhü müdafiə qüvvələrinin göndərilməsi vaxtını uzatmağa xidmət edirdi.

Münaqişə bölgəsində vəziyyətlə tanış olmaq üçün Minsk konfransının və onun Minsk qrupunun həmsədrləri H.Talvitye və R.Niberq 1995-ci il aprelin 13-də bölgəyə səfər etdilər. Nümayəndə heyətinin tərkibinə təcrübəli diplomatlar, ATƏT-də beynəlxalq hüquq, regionlararası və etnik münaqişələr üzrə ixtisaslaşmış ekspertlər daxil edilmişdi. Əsas məqsəd sülhə nail olmaq yollarını aşkar etmək üçün dolğun informasiya toplamaq və sülhyaratma prosesində yeni cəhətlər müəyyənləşdirmək idi. Aprelin 21-də Moskvada RF TŞ-nın katibi O.Loqovla görüşdə H.Talvitye bu məsələlər barədə Rusiya tərəfinin də razılığını almışdı. Danışıqlar nəticəsində əldə edilmiş bəzi yeni fikirlər 28 May Azərbaycan Dövlət Müstəqilliyi günü münasibətilə ABŞ prezidenti B.Klintonun Heydər Əliyevə göndərdiyi məktubunda (21 may 1995-ci il tarixli) öz əksini tapmışdı: "ABŞ Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini dəstəkləməkdə davam edir... Ermənistan ilə Azərbaycan arasında münaqişənin siyasi yolla həll olunması üçün daha böyük dialoqa və əməli əməkdaşlığa ehtiyac vardır. Məsələn, Türkiyə, Ermənistan və Azərbaycan arasında ərazi dəhlizlərinin açılması sahəsində əldə olunan tərəqqi sizin xalqlarınız arasında dialoqun və əməkdaşlığın gücləndirilməsinə kömək edərdi. Belə bir addım hər iki tərəfdə bir-birinə inam yaradardı. ABŞ ATƏT-in danışıqlar yolu ilə sülhə nail olmasına və münaqişənin həllininin çoxmillətli sülhü

mühafizə qüvvələri vasitəsilə gücləndirilməsinə yönəlmiş səylərini dəstəkləyəcəkdir" (10, 22 may 1995).

ATƏT-in sədri və Minsk konfransının həmsədrləri Ermənistan Respublikasının hökumətinə müraciət edərək onu Minsk qrupu çərçivəsində danışıqlarda iştirakını davam etdirməyə çağırdı. Eləcə də atəşkəs rejimini, siyasi danışıqları poza biləcək və digər dövlətlərin təhlükəsizliyinə ziyan vura biləcək hər cür addımlardan çəkinməyə dəvət etdi (1995-ci il 25 may tarixli bəyanat).

Mühüm əhəmiyyət kəsb edən bu razılıq 1995-ci il mayın 31-də Hollandiyanın Noordveyk şəhərində Şimali Atlantika Əməkdaşlığı Şurasının (ŞAƏŞ) işi zamanı Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşündə də təsdiqini tapdı. Bununla da Ermənistanın münaqişənin nizama salınmasına dair sülh danışıqlarının növbəti dövrəsində iştirakına mane olan bəhanələrinə son qoyuldu.

ATƏT PA-nın 1995-ci il 5-8 iyulda Ottavada keçirilən illik sessiyasının yekun plenar iclasında bəyannamə qəbul edildi. Almaniya və Finlandiyanın nümayəndələrinin xüsusi dəstəyi nəticəsində qəbul edlimiş Ottava bəyannaməsinin mətninə Dağlıq Qarbağ probleminin həlli ilə bağlı 13 bənddən ibarət maddənin daxil edilməsi Azərbaycanın tutduğu mövqenin düzgünlüyünü göstərirdi.

1995-ci il 28 iyulda Baden şəhərində (Avstriya) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair problemlər açıq şəkildə və ətraflı müzakirə olundu. Burada məqsəd münaqişədə iştirak edən tərəflərin rəhbərlərinə tezliklə saziş bağlamaları üçün real yolları müəyyənləşdirmək idi. Minsk qrupuna daxil olan ölkələrin nümayəndə heyətlərinin iştirak etdiyi məsləhətləşmələr zamanı tərəflər arasında qarşılıqlı surətdə güzəştlərə doğru aparan əlaqələrin vacib olduğu bildirildi. Sülhyaratma əməliyyatlarının keçirilməsi Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla aradan qal-





dırılması məsələsində tərəflərin ardıcıllıq və qətiyyət nümayiş etdirməsinin kompromislərdən asılılığı önə çəkildi. Məsləhətləşmələr nəticəsində hərbi əsirlərin və girovların dərhal azad olunmasına dair bəyanat qəbul edildi.

Moskvada 1995-ci il sentyabrın 3-9-da Minsk konfransının həmsədrləri H.Talvityedən və V.Lozinskidən, Minsk qrupunun həmsədrləi R.Niberqdən və V.Kazimirovdan ibarət tərkibdə Minsk konfransı rəyasət heyətinin sədrliyi altında və ATƏT-in icraçı sədrinin nümayəndəsi S.Pşiqodskinin və yüksək səviyyədə planlaşdırma qrupunun başçısı general X.Vilenin iştirakı ilə Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair danışıqların növbəti mərhələsi keçirildi. Görüşdə maraqlı cəhətlərdən biri də Azərbycanın və Ermənistanın nümayəndə heyətləri, eləcə də Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının nümayəndələrinin iştirak etməsi idi.

Moskva danışıqlarında əsas məsələ sazişə xüsusi əlavələrin mətnini razılaşdırmaq idi. Nəzərdə tutulmuş əlavələr münaqişənin aradan qaldırılmasının hərbi-texniki cəhətləri və qəsb edilmiş ərazilərdən işğalçı qüvvələrin çıxarılması ilə bağlı idi.

Məsləhətləşmələrdə Azərbaycan tərəfiinin Şuşa və Laçının da azad edilməsi üçün işğal olunmuş ərazilər siyahısına salınması təklifi ilə erməni tərəfi razılaşmadı.

1995-ci ilin dekabrında ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin Budapeştdə keçiriləcək görüşünədək münaqişə ilə bağlı mövcud vəziyyəti öyrənib təhlil etmək Azərbaycanın və Ermənistanın siyasi rəhbərləri ilə məsləhətləşmələr aparmaq və bölgəyə səfər etmiş Minsk konfransının həmsədrləri H.Talvitye (Finlandiya), V.Lozinski (Rusiya), Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi V.Kazimirov, Minsk konfransının Türkiyə, ABŞ və İsveçrədən olan üzvləri Bakıda, İrəvanda və Xankəndində Böyük Siyasi Saziş layihəsini (444), eləcə də ona əlavələri müzakirə etdilər. Aparılmış

danışıqların və müşahidələrin nəticələri Budapeşt görüşündəki hesabata əlavə olunması üçün qəbul edildi.

1995-ci ilin noyabrında Azərbaycan-Ermənistan münaqişəsinə dair Minsk qrupunun Bonnda apardığı danışıqlarda Ermənistanın əməli mövqe tutmaması səbəbindən mühüm bir nəticə əldə edilmədi. Bonn danışıqlarının əsas cəhətləri ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin Budapeşt sammitindən keçən bir ilin yekunlarına həsr olunmuş görüşünə hazırlıq məqsədi daşıması, Azərbaycan və Ermənistan nümayəndələrindən və Minsk qrupunun həmsədrlərindən başqa, həm də Minsk qrupuna daxil olan ölkələrin bu qurumdakı daimi nümayəndələrinin iştirakının təmin olunması idi. Bu görüşün bir əhəmiyyəti də Heydər Əliyevin təşəbbüsü ilə burada bundan sonra danışıqların birbaşa, yəni Azərbaycan və Ermənistan prezidentlərinin xüsusi səlahiyyətli nümayəndələri V.Quluzadə və I.Lipardyan vasitəsilə aparılmış danışıqların bəyənilməsi və gələcəkdə birbaşa əlaqələrin yaranması və danışıqların aparılması üçün müəyyən təkliflər və təşəbbüslərlə çıxış etmək üçün səlahiyyətin verilməsindən ibarət idi.

Bonn danışıqlarından əvvəl rəsmi Bakını qane etməyən bəzi müddəaların olmasına baxmayaraq Azərbaycan tərəfinin ümumi işin xatirinə bu bəyanatı qəbul edəcəyi barədə ABŞ-ın Azərbaycandakı səfirinə məlumat verməsi ilə münaqişəsinin nizama salınmasına dair C.Kolinzin bölgəyə səfəri zamanı ABŞ-ın Bakıya və İrəvana ayrı-ayrılıqda müzakirə üçün bir qədər təkmilləşdirilmiş layihələrin forması irəli sürüldü. ABŞ rəsmiləri düşünürdülər ki, Ermənistan və Azərbaycan, ATƏT üzvü olan ölkələlərin xarici işlər nazirləri Budapeşt görüşündə birgə bəyanat versələr, münaqişənin sülh yolu ilə həlli üçün imkan yaranacaq. Birgə bəyanatın layihəsi də qeyri-rəsmi olaraq tərəflərə verilmişdi. Bu layihədə Ermənistan və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü tanıması barədə çox prinsipial bir müddəanı Ermənistan nümayəndə heyəti rədd etdi.





Minsk qrupu həmsədrlərinin Budapeşt görüşü üçün hesabatın hazırlanmasında da Bonn danışıqlarında ciddi mübahisələr baş vermişdi. Azərbaycanın mövqelərinə uyğun olmayan müəyyən məqamlara görə Heydər Əliyev işə müdaxilə etmişdir. Prezident tədbirin yekunlarına öz münasibətini belə bildirmişdi: "Güman edirəm ki, bu mərhələdə əldə olunan nailiyyət bizi hələlik qane etməlidir. Ancaq eyni zamanda biz işlərimizi bundan sonra da davam etdirəcəyik" (10, 7 dekabr 1995-ci il).

1995-ci il dekabrın 21-də Minsk Qrupunun rusiyali həmsədri V.Kazimirov Bakıya səfəri zamanı bununla əlaqədar Kremlin rəsmi rəyini belə şərh etmişdir: "Indiki şərait, yəni Azərbaycanda siyasi vəziyyətin sabitləşməsi, parlament seçkilərinin uğurla keçməsi və yeni konstitusiyanın qəbul edilməsi birgə səylərlə ciddi irəliləyişə nail olmaq üçün əlverişli imkan yaradır. Ermənistandakı və Dağlıq Qarabağdakı daxili siyasi vəziyyət də buna kömək edir. Başqa sözlə, tərəflər münaqişənin aradan qaldırılması yolunda irəliləmək məsələsi ilə lap yaxından məşğul ola bilərlər. Bu halda sülh prosesində daha əməli nəticələr əldə olunmasına ümid var".

1996-cı il yanvarın 9-15-də Minsk qrupunun Moskva iclasında həmsədrlərin təklifi ilə Laçının koridor kimi qəbul edilməsi məsələsinin müzakirəsi nəzərdə tutulmuşdu. Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları nümayəndələrinin iştirak etdikləri görüşdə digər əsas məsələlərin müzakirəsi barədə də anlaşma əldə edilmişdi.

Heydər Əliyevin həmin dövrdə Parisə səfəri zamanı Ermənistan prezidenti L.Ter-Petrosyanla qısa görüşü oldu. Onlar burada Minsk qrupu çərçivəsində aparılan danışıqların davam etdirilməsi ilə yanaşı Azərbaycanla Ermənistan arasında başlamış dialoqun, birbaşa təmasların genişləndirilməsi zərurətinin vacibliyini bəyan etdilər. Böyük Sülh Sazişinin işlənib-hazırlanması məqsədilə həm ekspertlər, həm də prezidentlər səviyyəsində Azərbaycanla Ermənistan arasında bu təmasların

davam etdirilməsi qərara alındı. Həmin il yanvarın 19-da MDB ölkələrinin Dövlət Başçıları Şurası iclaslarının yekunlarına dair mətbuat kofransında Rusiya prezidenti B.Yeltsin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair maraqlı bir fikir söyləmişdi: "Etiraf etmək lazımdır ki, barışıq, atəşkəs haqqında saziş sülhyaratma səylərini, o cümlədən də Rusiya tərəfindən göstərilən səyləri bir qədər ləngitmişdir. Açıq demək lazımdır ki, biz bu məsələ ilə az maraqlanmışıq. Mən Azərbaycan prezidentinə vəd etdim ki, bu işə lazımi təkan veriləcək. Xarici işlər naziri ardıcıl vasitəçilik metodu ilə fəaliyyət göstərəcək, "Azərbaycan-Dağlıq Qarabağ-Ermənistan" xətti ilə və əks istiqamətdə əlaqə yaradacaqdır". O, sözünə davam edərək demişdir ki, Azərbaycan Dağlıq Qarabağa muxtar respublika statusu təklif edir. Bundan yuxarısı yoxdur, bizdə, Rusiyada da bundan yuxarısı yoxdur, onlar isə deyirlər: "Bu, bizdən ötrü azdır, bizə daha böyük status verin. Mən bilmirəm, onlara daha necə status lazımdır? Bəlkə, Amerika Birləşmiş Ştatları statusu istəyirlər".

1996-cı il yanvarın sonlarında Rusiya prezidentinin şəxsi nümayəndəsi Minsk qrupunun həmsədri V.Kazimirovun İrəvanda Ermənistan və Dağlıq Qarabağın separatçı qurumunun rəhbərləri ilə görüşlərindən sonra Bakıda olarkən münaqişə bölgəsində yaranmış mövcud duruma bildirdiyi münasibəti də böyük maraqla qarşılandı. O zaman son məqsədə doğru daha sürətlə irəliləmək üçün artan imkanlarla bu irəliləyişdəki gerilik arasında müəyyən təzad görünürdü.

Həmin il fevralın 20-də Rusiyanın xarici işlər naziri Y.Primakovun Moskvada Minsk qrupu ilə razılaşdırılmış qaydada fəaliyyət göstərməyin vacib olduğunu nəzərə çatdırmış, faktiki olaraq bu dəfə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında Minsk qrupunda aparıcı rolu Rusiya Federasiyası öz əlinə almışdı.





F.Kotti başda olmaqla ATƏT-in nümayəndə heyətinin 1996-cı il fevralın 29-da Bakıya səfəri, diplomatik missiyanın tərkibinə Avropanın bir sıra ölkələrindən 19 nümayəndənin və mütəxəssisin daxil olması gündəlikdə duran Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində səylərin getdikcə daha çox birləşdirilməsinin göstəricisi idi.

ATƏT-ə sədrlik edən F.Kotti və növbəti dövr üçün sədrlik edən İsveçrə Azərbaycanın ərazi bütövlüyü prinsipi çərçivəsində Dağlıq Qarabağa muxtariyyətin verilməsinə tərəfdar olduğunu bəyan etdi. Şuşa və Laçınla əlaqədar ATƏT nümayəndələrinin iştirakı ilə İrəvanda danışıqlar davam etdirildi.

1996-cı il martın 1-də Ermənistan parlamenti Dağlıq Qarabağ bölgəsində yaradılmış qanunsuz strukturla "Əməkdaşlıq və qarşılıqlı əlaqə haqqında" saziş imzaladı.

Xeyli vaxt keçməsinə baxmayaraq Minsk qrupu tərəfindən Böyük Siyasi Sazişin hazırlanması prosesi ləngiyirdi. Ona görə də 1996-cı ilin sonunda keçirilməsi nəzərdə tutulan növbəti Zirvə toplantısınadək işlərin sürətləndirilməsi üçün ATƏT-in fəaliyyətinin artırılmasına ehtiyac var idi. Bu məqsədlə 1995-ci il iyun ayının əvvələrində Minsk konfarnsının həmsədri V.Lozinski, Minsk qrupunun həmsədrləri R.Niberq və V.Kazimirov, ATƏT sədrinin nümayəndəsi V.Tenxxerin daxil olduğu nüfuzlu nümayəndə heyətinin münaqişə bölgəsinə səfəri bu məqsədi daşıyırdı. F.Kotti Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında nəticə əldə etmək üçün məsəhətləşmələr apardı və bu məsələ ATƏT üzvü olan ölkələrin xarici işlər nazirlərinin 1996-cı il 20 iyun Vyana görüşündə müzakirəyə çıxarıldı.

1996-cı il oktyabr ayının əvvəlində Minsk konfransının həmsədrləri Rusiyadan V.Lozinski və Finlandiyadan H.Talvitye başda olmaqla nümayəndə heyəti Lissabon sammiti ərəfəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranmış vəziyyəti araşdıraraq obyektiv qiymət veril-

məsi məqsədilə bölgəyə səfər etdi. Missiyanın tərkibinə eyni zamanda Minsk qrupunun həmsədrləri – R.Niberq və Rusiya tərəfindən V.Kazimirovu bu vəzifədə yeni əvəz etmiş Y.Yukalov da daxil idilər. Bu səfərin əsas əhəmiyyəti onda idi ki, iştirakçı dövlətlərin başçıları və digər səlahiyyətli rəhbər şəxslər, habelə münaqişə tərəfləri əvvəlcədən Lissabon Zirvə görüşündə müzakirə olunacaq məsələlər və sammitin iş planı ilə tanış olmaq və bu nüfuzlu beynəlxalq tədbirə konkret irad və təkliflər hazırlamaq imkanı əldə etdilər. Bu mənada komissiyanın səfərdəki işinə ABŞ, Türkiyə, Danimarka, Polşa, İsveçrə diplomatlarının və böyük ekspert qrupunun qatılması ATƏT-in bu məsələyə nə dərəcədə ciddi yanaşmasından xəbər verirdi. Bu, Lissabon Zirvə toplantısı ərəfəsində nizamasalma prosesinin hansı mərhələdə olduğu barədə aydın təsəvvür yaratmaq üçün, habelə münaqişənin aradan qaldırılmasına kömәkdə öz münasibətini və rolunu müəyyənləşdirəcək dövlətlər birliyinin Budapeşt sammitindən ötən iki illik dövrə müəyyən yekun vurmaq üçün çox zəruri idi.

Bu ərəfədə Dağlıq Qarabağda üzdəniraq «prezident seçkiləri» keçiriləcəyi barədə məlumatlar dünya ictimaiyyətinin, ilk növbədə isə Türkiyə, Rusiya və ABŞ-in rəsmi siyasi dairələrinin etirazı ilə üzləşdi. Bununla əlaqədar Türkiyə XİN-nin mətbuat üçün yaydığı bəyanatda deyilirdi: «Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı açıqca zərərli olan bu cür hərəkətlər Yuxarı Qarabağ münaqişəsinin aradan qaldırılması üçün Minsk qrupu çərçivəsində aparılan danışıqlara da mənfi təsir göstərəcəkdir və biz belə hərəkətləri pisləyirik» (125, 30 oktyabr 1996-cı il). ABŞ Dövlət Departamenti isə ermәni separatçılarının qarşıdurmanı gərginləşdirməyə xidmət edən fitnəkar addımlarından narahatlığını 29 oktyabr 1996-cı il tarixli «Dağlıq Qarabağda «prezident» seçkiləri» adlı bəyanatında belə ifadə etmişdi: «...Birləşmiş Ştatlar belə hesab edir ki, seçkilər arzuolunmaz bir dövrə – sülh danışıqlarının





çox titrək mərhələdə olduğu, ATƏT-in yüksək səviyyədə görüşünə isə cəmi bir neçə həftə qaldığı vaxta təsadüf edir» (125, 30 oktyabr 1996-cı il). Bunun ardınca İran İslam Respublikasının reaksiyası da özünü çox gözlətmədi. İranın XİN-nin rəsmi bəyanatında Dağlıq Qarabağda hər hansı seçkinin keçirilməsinin qəbuledilməz olduğunu vurğulayaraq belə hərəkətlərin «nəinki böhranın aradan qaldırılmasına kömək etməyəcəyini, hətta üstəlik mövcud vəziyyətin mürəkkəbləşməsinə və atəşkəs rejiminin pozulmasına gətirib çıxaracağını» bildirdi. Bəyanatın sonunda deyilir: «İran İslam Respublikası öz növbəsində Qarabağ böhranına ədalətli şəkildə son qoyulması məqsədi ilə göstərilən səyləri dəstəkləyir və bu yolda hər cür kömək etməyə hazırdır» (125, 6 dekabr 1996-cı il).

Lissabon sammitinə hazırlıq mərhələsində həm ATƏT və onun Minsk qrupuna daxil olan dövlətlər, həm də Azərbaycan Dağlıq Qarabağ probleminin aradan qaldırılmasının konkret yollarını araşdıraraq əməli təkliflərlə çıxış etmək üçün intensiv danışıqlara başladılar.

Heydər Əliyevin bu məzmunda ATƏT-in üzvü olan bütün dövlətlərin başçılarına məktubla müraciət etməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair çoxşaxəli fəaliyyətin gücləndirilməsinə böyük təsir göstərdi. Azərbaycan rəhbərinin ABŞ, Rusiya, Türkiyə, Almaniya, Fransa, Böyük Britaniya, Gürcüstan, Ukrayna, Qazaxıstan, Finlandiya, Niderland, Belçika, Yunanıstan, Norveç və digər dövlətlərin diplomatik nümayəndələri ilə həmin dövrdə keçirdiyi bütün görüşlərində ATƏT-in zirvə toplantısına hazırlıq məsələləri başlıca mövzu olmuşdur.

ATƏT-in Demokratik təsisatlar və insan hüquqları bürosunun direktoru xanım Odri Qloverin həmin ərəfədə Bakıda keçirilən beynəlxalq seminarda iştirakını da insan hüquqlarının qorunmasına dair ATƏT çərçivəsində fəaliyyət göstərən müşahidə komitəsinin öz səlahiyyətləri daxilində Ermənis-

tan-Azərbaycan münaqişəsinə son qoyulmasına kömək etmək arzusu kimi dəyərləndirmək lazımdır.

Azərbaycan Respublikası XIN-nin 20 noyabr 1996-cı il tarixli bəyanatında deyilirdi: «...Lissabon görüşü ərəfəsində Azərbaycan tərəfi Ermənistan tərəfi ilə qarşılıqlı surətdə məqbul olan qərar qəbul edilməsi üçün ATƏT-in hazırlıq konfransı, ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa danışıqlarda fəal səylər göstərir. Bu qərar Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasında tərəqqiyə nail olmaq üçün zəruri olan əsas prinsipləri əks etdirməlidir» (321).

Bütün bunlara baxmayaraq ermənilər bir sıra xarici ölkələrin müşahidəçilərinin iştirakı ilə Dağlıq Qarabağda «prezident» seçkiləri keçirməyə nail oldular. Bunun hüquqi tərəfini araşdırmağa ehtiyac yoxdur. Siyasi baxımdan isə belə fitnəkarlığın sülh danışıqlarma necə mənfi təsir göstərməsini təsəvvür etmək çətin deyil. Belə çıxır ki, bir çox beynəlxalq təşkilatların və regional qurumların bu seçkidə iştirak etməsinə şərait yaratmaqla ATƏT öz işini qəsdən çətinə salmış oldu. Bu ərəfədə ATƏT-in, əslində, Ermənistan mövqeyindən çıxış etdiyinə gümanlar yaranmışdı. X.Ruperesin Milli Məclisdəki çıxışı zamanı insan hüquqlarının dövlət müstəqilliyindən, ərazi bütövlüyü prinsipindən irəli olması barədə fikri təsdiq etməsi, Federiko Meyorun Azərbaycanın Qarabağdakı mədəni irsinin tabeliyinə biganə yanaşması, ATƏT-ə sədrlik edən Finlandiyanın mövqeyində Rusiyaya meyllilik görüntüləri hadisələrin bu cür gedişini az da olsa, sübhəsiz, şərtləndirirdi.

Azərbaycan tərəfinin təşəbbüsü və təkidi ilə sammit ərəfəsində Lissabonda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində keçirilmiş hazırlıq konfransında əsas müzakirə obyekti olan Minsk qrupunun təqdim etdiyi layihəyə erməni tərəfi «yox» dedi.

1996-cı il dekabrın 2-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in tarixi zirvə görüşü öz işinə başladı. Toplantıda Avropanın 52 ölkəsinin dövlət və hökümət başçıları, habelə ABŞ və Kanadanın nümayəndələri iştirak edirdilər.





Ümumi razılıq üçün ciddi səylərdən sonra bir sıra mühüm sənədlər ATƏT ölkələrinin müzakirəsinə çıxarıldı. Onların arasında zirvə toplantısının bəyannaməsi, XXI əsrin Avropası üçün ümumi və hərtərəfli təhlükəsizlik modelinə dair Lissabon bəyannaməsi, Avropadakı adi silahlı qüvvələrin məhdudlaşdırılması prosesinin parametrləri və əhatə dairəsi haqqında sənəd var idi.

Lissabon zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində irəliyə doğru daha bir mühüm addım atılması, Azərbaycanın ədalətli mövqeyinin bütün dövlətlər tərfindən müdafiə olunması və ATƏT-in toplantısının sənədlərində bu məsələnin geniş əksini tapması üçün bir çox görüşlər keçirildi, ətraflı danışıqlar aparıldı.

ABŞ dövlət katibinin müavini Linn Devis, Rusiyanın xarici işlər naziri Y. Primakov, Ukrayna prezidenti L.Kuçma, İsrailin baş naziri B.Netanyahu, İsveçrənin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Flavio Kotti, Finlandiya prezidenti Marti Ahtisdari, Rusiyanın baş naziri V.Çernomırdın ilə keçirilmiş görüşlərin əhəmiyyəti çox faydalı oldu.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün ATƏT-in və onun Minsk Qrupunun rolu, habelə bir sıra dövlətlərin vasitəçiliyi aparılan ikitərəfli danışıqların, atəşkəs rejiminə respublikamızın ciddi riayət etməsinin əhəmiyyəti barədə obyektiv münasibəti Heydər Əliyevin tarixi əhəmiyyətli nitqində öz əksini tapdı (125, 6 dekabr 1996-cı il).

Heydər Əliyev o zaman Lissabon sammitindən gözlənilən nəticələrə toxunarкən demişdir: «Bizim məqsədimiz ondan ibarətdir кi, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün Lissabon görüşünün sənədlərində yeni imкanlar açılsın. Bizim əsas məqsədimiz gələcəкdə məsələnin ədalətli həll olunması üçün Lissabon zirvə görüşün-

də ən məqbul formulu təsdiq etdirmək, yaxud onun orada bəyanılməsinə nail olmaq idi» (140, 122).

Ümumiyyətlə, Lissabon sammitinədək olan dövr ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında keçirilmiş danışıqların nəticəsi kimi Azərbaycan artıq aşağıdakı şərtlər haqqında fikir yekdilliyinin əldə edilməsinə nail olmuşdu:

-işğal altında olan Azərbaycan torpaqlarının azad edilməsi;

-qeyri-qanuni silahlı qüvvələrin bütün zəbt edilmiş torpaqlardan çıxarılması;

-qaçqınların və məcburi köçkünlərin öz yerlərinə qayıtması.

Lakin bu üç şərtin BMT TŞ-nın qətnamələrində, BMT-nin bir çox rəsmi sənədlərində, ATƏT-in və onun Minsk qrupunun sənədlərində, Azərbaycanla ikitərəfli dövlətlərarası sənədlərdə, hətta Azərbaycanın və Ermənistanın dövlət nümayəndələri arasında aparılan danışıqlarda təsdiqlənməsinə rəğmən Minsk qrupunun üzvü olan dövlətlər öz mövqelərini yalnız ikitərəfli danışıqlarda təsdiq edirdilər. 1992-ci ildən bu Zirvə toplantısınadək qeyd edilən şərtlərin əks olunduğu heç bir ATƏT sənədi mövcud deyildi.

Münaqişənin həlli prinsiplərində Lissabona qədər həm Azərbaycanla Ermənistan, həm də öz maraqlarını güdən dünya dövlətləri arasında fikir ayrılığı vardı. Azərbaycan tərəfinin burada əsas məqsədi ondan ibarət idi ki, danışıqlar mexanizminin təkmilləşdirilməsi və beynəlxalq sülhün mühafizə qüvvələrinin tətbiq edilməsinə dair 1994-cü ildə Budapeştdə qəbul olunmuş qərarın məntiqi davamı kimi Lissabon sammitində münaqişənin həlli prinsiplərinin bərqərar olunmasına nail olsun. ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi bəyanatına əsaslanmış bu prinsiplər aşağıdakılardır:

-Münaqişənin həlli Azərbaycan Respublikasının ərazi bütövlüyü əsasında öz əksini tapmalıdır;

-Dağlıq Qarabağın hər hansı bir muxtariyyəti Azərbaycanın tərkibində olmalıdır;





-Dağlıq Qarabağın həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyinə təminat verilməlidir.

Ermənistanın mövqeyi isə heç kimə sirr deyildi: Azərbaycanın ərazi bütövlüyünü danışıq mövzusu hesab etmir, Dağlıq Qarabağın siyasi cəhətdən müstəqil qurum kimi tanınmasını iddia edir, təhlükəsizlik məsələsinin isə yalnız bir icmaya – ermənilərə aid olmasını əsaslandırmağa cəhd göstərirdi.

Lakin toplantıda Ermənistan nümayəndə heyəti bu prinsiplərin, xüsusilə də Lissabon bəyannaməsinin Azərbaycanın ərazi bütövlüyünü əks etdirən 20-ci maddəsinin onlar tərəfindən qəbul edilməməsini Ermənistanda yaranmış daxili siyasi vəziyyətin gərginliyi ilə izah etməyə çalışırdılar. Lakin onların bu prinsipləri münaqişənin lap əvvəlində inkar etmələri, Ermənistan rəhbərliyinin məsələyə dair uzunmüddətli strateji mövqeyindən xəbər verirdi və bəhanədən başqa bir şey deyildi.

Heydər Əliyev Azərbaycan dövlətinin maraqlarının müdafiəsi üçün ermənilərin fitnəkarlığına cavab kimi Lissabon sammitinin bəyanatına öz qadağa (veto) hüququnu tətbiq etmək niyyətini ortaya qoydu. Bununla özünün şəxsi nüfuzunu böyük risk altına qoymaqdan çəkinməyən prezident, əslində, çox uğurlu və məqsədyönlü diplomatik gedişlərlə Azərbaycan üçün məqbul sayılan sənədin qəbul edilməsinə nail oldu. Belə ki, Azərbaycan rəhbərliyi dilemma qarşısında qalaraq ya Ermənistanın etirazı ilə razılaşmalı, ya da qarşı tərəfin avanturist siyasi gedişlə nəticədə özünün beynəlxalq aləmdə təklənməsinə yaratdığı şəraitdən bu formada bəhrələnmək üçün siyasi iradə və cəsarət nümayiş etdirməklə digər 52 dövlətlə həmrəy olaraq mövqeyimizə uyğun sənədin qəbul edilməsinə nail olmalı idi.

«Röyter» agentliyi ATƏT-in fəaliyyətdə olan sədri F.Kottinin təəssüf sözlərini sitat gətirərək yazırdı ki, yalnız bir ölkə ümumi beynəlxalq prinsiplə razı olmamışdır. Azərbaycan isə beynəlxalq prinsipləri qəbul edən dövlətlər sırasında olmuşdur.

Eyni məlumatda L.Ter-Petrosyanın bu prinsiplərlə razılaşmamasına dair bəhanə onun öz sözləri ilə verilmişdir: «Bütün verilən vədlərə baxmayaraq Azərbaycan Dağlıq Qarabağ xalqının təhlükəsizliyini təmin etmək iqtidarında deyil... Bunun üçün biz hesab edirik ki, Dağlıq Qarabağ xalqının özünüidarə hüququnun təmin olunması baş verə biləcək faciənin qarşısını kəsmək üçün yeganə vasitədir» (236).

«Frans Press» Agentliyinin yaydığı məlumatda deyilirdi ki, 54 ölkənin dövlət və hökumət başçılarının bütün səylərinə baxmayaraq Azərbaycanla Ermənistanın mövqeləri arasında yaxınlaşma əldə etmək mümkün olmamışdır. Eyni məlumatda qeyd olunurdu ki, bu məsələyə dair 53 dövlətin xüsusi sənəd qəbul etməsi vəziyyətin məntiqi nəticəsi oldu.

Lissabon Zirvə toplantısmda danışıqlar zamanı yaranmış dramatik vəziyyəti Assoşieyted Press Agentliyi belə təsvir etmişdir: «Iki günlük zirvə görüşü prosesində aparılmış çoxsaatlıq danışıqlar nəticəsində, ermənilərin məskunlaşdığı bu dağ regionunun Azərbaycanın bir hissəsi olması barədə ifadəni Ermənistan qəbul etməkdən imtina etmişdir. Azərbaycan Prezidenti Heydər Əliyev demişdir ki, bu ifadənin olmadığı bir təqdirdə zirvə görüşünün yekun sənədinə o, razılıq verə bilməz. Son anda Heydər Əliyev Ermənistanın razılığı olmadan 53 dövlət tərəfindən ayrıca bəyanat qəbul etdirdi və o, sənəd statusunda bəyannaməyə əlavə olundu. Eyni zamanda Heydər Əliyev Avropa Ittifaqı tərəfindən dəstəklənməsi barədə güclü bəyanat aldı» (222, 148).

«Interneşnl Herald Tribyun» qəzetinin məlumatında deyilirdi ki, Avropa Ittifaqının bu dəstəyi bəyannamənin əlavə sənədi kimi münaqişənin həlli prinsipləri haqqında xüsusi bəyanatın qəbul olunması üçün öz rolunu oynamışdır (486).

Vaşinqtonda buraxılan «Interkon Deyli» bülleteni rəsmi Yerevanın pozucu mövqeyini vurğulayaraq qeyd etmişdi ki,





Ermənistan «özünü ATƏT-in 53 dövlətinə qarşı qoymuşdır» (485, 8-12).

Amerikalı politoloq Pol Qobl Azərbaycanın Vaşinqtondakı səfirliyinə telefonla bildirmişdir ki, Azərbaycan nümayəndə heyəti Lissabonda çox faydalı iş görərək, sanballı nəticə əldə etmişidir (125, 10 dekabr 1996-cı il).

Zirvə görüşünün nəticələri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi bəyanatı dünyanın aparıcı dövlətinin rəhbərləri tərəfindən də rəğbətlə qarşılanmışdır. ABŞ-ın vitse-prezidenti Albert Qor Heydər Əliyevə məktub göndərərək bu barədə öz məmnunluğunu ifadə etmiş və Azərbaycanın dövlət başçısının Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirmişdir: «Sizin dövlət xadimi kimi məharətiniz və işlə şəxsən məşğul olmağınız bu məqsədə nail olmaq üçün olduqca əhəmiyyətlidir» (125, 13 dekabr 1996-cı il).

Almaniyanın Federal Xarici işlər naziri Azərbaycan prezidentinə ünvanladığı təşəkkür məktubunda yazırdı: «ATƏT-in Lissabon sammitinin axırında öz konstruktiv hərəkətinizlə Siz zirvə görüşünün ümumi sənədinin qəbul edilməsinə həlledici töhfə verdiniz. Bunun üçün Sizə bir daha ürəkdən təşəkkürümü bildirirəm. Sizin ölkəniz və xalqınız üçün məhz belə hərəkət etməyiniz, şübhəsiz yaxşı oldu» (125, 27 dekabr 1996-cı il).

Dekabrın 12-də BMT BM-nin sesiyasında BMT ilə ATƏT arasında əməkdaşlığa dair qəbul olunmuş qətnaməyə Azərbaycan nümayəndə heyətinin təşəbbüsü və təkidi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi istiqamətində ATƏT-in fəaliyyətinə həsr olunmuş paraqraf daxil edilmişdir. Ermənistan nümayəndələrinin bu düzəlişin əleyhinə çıxmasına baxmayaraq sənəddə Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasına mənsub olduğu təsdiq olunmuşdur. Burada da qətnamə və düzəliş səsə qoyularkən

BMT üzvlərinin tam əksəriyyəti Azərbaycanın ədalətli mövqeyini dəstəkləmişdir (10, 14 dekabr 1996-cı il).

Bir çox politoloqların və siyasi ekspertlərin gəldikləri ümumi rəy Lissabon sammitində Azərbaycan diplomatiyasının qələbəsini şərtləndirən əsas amilləri ümumiləşdirməyə imkan verir: Birinci, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair ATƏT-in formalaşmış mövqeyi. Zirvə görüşündə Minsk qrupu məsələnin həllinin əsas prinsiplərinin əks olunduğu və məhz Azərbaycan tərəfinin təklifləri əsasında hazırlanmış layihələri müzakirəyə çıxardı. Bu, ərazi bütövlüyünün qorunmasını başlıca şərt kimi qəbul edən ATƏT-in ədalətli yanaşmasına dələlət edirdi. Ikinci, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əvvəlki zirvə görüşlərindən fərqli olaraq Azərbaycan Respublikasının mövqeyinə rəğbət hissinin yüksəlməsi sammit ərəfəsində Avropanın və dünyanın aparıcı dövlətlərinin başçılarından Azərbaycan prezidentinin ünvanına daxil olmuş məktublarda bu məsələlərdə respublikanın haqq işini dəstəklədiklərini bildirmişdilər. Üçüncü, Azərbaycanın mövqeyinin beynəlxalq hüquq normaları və ATƏT-in prinsipləri ilə tam uzlaşmasına, işğala məruz qalmış ölkə kimi Azərbaycan torpaqlarının azad olunması zərurətinin dünya ictimaiyyəti tərəfindən dəstəklənməsinə artıq nail olunmuşdur. Nəhayət, beynəlxalq aləmdə Azərbaycanın sülhsevər, Ermənistanın isə işğalçı dövlət olması, Azərbaycan diplomatiyasının məqsədyönlü və uzaqgörən siyasi fəaliyyəti Budapeştdən Lissabonadək ötən bir zaman ərzində, nəinki Minsk qrupunun işində, hətta bütün beynəlxalq və regional toplantılarda, dövlətlərarası ikitərəfli əlaqələrdə öz əksini tapmışdı.

Dağlıq Qarabağ münaqişəsinə münasibətdə formalaşmış beynəlxalq siyasi vəziyyət fonunda Azərbaycan diplomatiyası qarşısında Lissabon sammitində başlıca məqsədlərə nail olmaq üçün konkret vəzifələr dururdu: Əvvəla, Ermənistan-Azərbaycan münaqişəsinin obyektiv səbəblərinin və nəticələrinin, Dağlıq Qarabağ münaqişəsinin əsas mahiyyətinin, habelə bu məsələdə münaqişə tərəflərinin hansı mövqedə durduqlarının real mənzərəsini görüş iştirakçılarına çatdırmaq, bunun üçün nümayəndə heyətinin qarşısında bütün mümkün imkanlardan səmərəli istifadə etmək vəzifəsi dururdu. İkinci. Dağlıq Qarabağa Azərbaycanın tərkibində özünü idarə edən yüksək muxtariyyət statusunun verilməsi barədə Minsk qrupunun gəldiyi qənaətə ATƏT-in üzvü olan ölkələrdən yalnız Ermənistanın qeyri-konstruktiv və beynəlxalq prinsiplərə zidd mövqeyinin fakt kimi açıqlanması. Hamı bilməli idi ki, məsələnin bu cür qoyuluşunda Ermənistan heç bir ciddi arqumentə malik deyil. Üçüncü, Azərbaycanın ədalətli mövqeyinin gözlənilməsi baxımından zirvə görüşündə qəbul olunmuş sənədlərdə və bəyanatlarda ATƏT-in Minsk qrupunun gəldiyi nəticələrin və Dağlıq Qarabağ münaqişəsinin məhz beynəlxalq prinsiplərə uyğun həlli formulunun əks etdirilməsinə nail olmaq. Nəticədə, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü ehtiva edən maddəyə "veto" qoymaqla təkcə Azərbaycana deyil, əslində, BMT, ATƏT və eləcə də bütün dünya dövlətlərinin iradəsinə, onlar tərəfindən qəbul edilmiş ərazi bütövlüyü prinsipinə zidd çıxdığını nümayiş etdirdi. Onun bu siyasi gedişi Dağlıq Qarabağ münaqişəsini bölgədəki ermənilərlə Azərbaycan arasında münaqişə kimi təqdim etmək cəhdlərini puça çıxardı, münaqişənin birbaşa Ermənistanın Azərbaycana olan ərazi iddialarından qaynaqlandığı barədə reallığı ortaya qoydu.

Beləliklə, Lissabon zirvə toplantısında ilk dəfə olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə ümumdünya və ümumavropa təhlükəsizlik məsələlərinin kontekstində aydınlıq gətirildi, onun mahiyyəti, ümumi və xüsusi cəhətləri, həlli yollarının strateji baxımdan hüquqi siyasi çərçivəsi açıqlandı:

- Ermənistan BMT, ATƏT və əksər dünya dövlətləri tərəfindən qəbul edilmiş sərhədlərə və ərazi bütövlüyü prinsi-

pinə zidd olaraq Azərbaycana qarşı ərazi iddiasını zorla həyata keçirir.

- Dağlıq Qarabağ münaqişəsi erməni tərəfinin təqdim etdiyi kimi, Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi deyil, Ermənistanın Azərbaycana qarşı yetirdiyi işğalçı siyasətin nəticəsidir.

- Ermənistan Dağlıq Qarabağ münaqişəsini yalnız millətlərin özünütəyinetmə prinsipi əsasında həll etmək iddiasını ortaya qoymaqla beynəlxalq hüquqda daha üstün olan sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərini qulaqardına vurur, ona görə də ilhaq etdiyi torpaqları geri qaytarmaq istəmir.

- Azərbaycan işğal olunmuş ərazilərini geri qaytarmaq üçün bütün mümkün vasitələrdən, o cümlədən hərbi imkanlardan istifadə etmək hüququna malikdir.

- Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr Ermənistanın Avropada və bütün dünyada təhlükəsizliyin, sülhün bərqərar olunması, əməkdaşlığın inkişafı yolunda böyük bir maneə olduğu da aşkarlandı.

Lissabon sammitinin siyasi nəticələri Azərbaycana Ermənistanla münasibətlərdə daha böyük dividendlər əldə etməyə imkan verdi. ABŞ-ın Azərbaycandakı səfiri Kozlariçin, habelə Minsk qrupunun həmsədrləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini aradan qaldırmağa dair danışıqlarda Rusiya prezidentinin xüsusi nümayəndəsi Y.Yukalovun Azərbaycanın dövləti başçısı ilə görüşləri dünya dövlətlərinin, ilk növbədə ABŞ və Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında davamlı təşəbbüslərlə çıxış edəcəklərinə ümid yaradırdı. Çünki bu dövlətlərin nümayəndə heyətləri Lissabon zirvə görüşündə ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi bəyanatının hazırlanmasında və ümumiyyətlə, toplantının gedişində ədalətli mövqe nümayiş etdirmişdilər. ATƏT rəsmisinin Bakıya səfərinə böyük əhəmiyyət verən Heydər Əliyev demişdir ki, «bütün bunlar... əməli iş üçün yaxşı zəmindir və onu ATƏT tərəfindən dəstəklənmiş prinsiplər əsasında bacardıqca tez bir zamanda həyata keçirmək lazımdır» (10, 29 dekabr 1996-cı il).





L.Ter-Petrosyanın Yeni il münasibətilə xalqa müraciətində "Yeni ildə Ermənistan Qarabağ məsələsində beynəlxalq təzyiqə qarşı dayanmalı və nəqliyyat blokadasını aradan qaldırmalı olacaqdır» (32) deyərkən dünya ölkələrinin Ermənistana münasibətinin məhz Dağlıq Qarabağ münaqişəsinin həlli müstəvisində formalaşdığı qənaətinə gəldiyi anlamındadır.

Erməni təşkilatlarının ABŞ prezidenti B.Klintona göndərdikləri 7 yanvar 1997-ci il tarixli məktubda Lissabon sammitinin gedişində məhz Azərbaycanı dəstəklədiyi üçün ABŞ-a narazılıqlarını bildirmişdilər. Məktubda hətta tələb olunurdu ki, Birləşmiş Ştatlar Qarabağ xalqının (ermənilərin - H.M.) tərəfində durmalıdır». "Ağ evin" cavabında isə (10, 3 yanvar 1997-ci il) bu ittihamlar rədd olunmuş və ABŞ-ın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyinin bitərəf və ədalətli olduğu, beynəlxalq hüquq normalarına əsaslandığı bildirilmişdir (400).

Sonralar İKT xarici işlər nazirlərinin 24-cü konfransı (28 iyun- 2 iyul 1999-cu il, Burkino-Faso) Ermənistanın təcavüzü ilə əlaqədar siyasi və iqtisadi qətnamələr qəbul etməklə yanaşı, özünün yekun bəyanatında ATƏT-in Lissabon zirvə görüşünün sənədlərinə daxil edilmiş ATƏT-in icraçı sədrinin Dağlıq Qarabağ probleminin həllinə dair 3 dekabr 1996-cı il tarixli bəyanatını dəstəklədiyini bildirmişdir (511).

1997-ci ilin əvvəllərindəki çıxışı zamanı ABŞ-ın dövlət katibi Madlen Olbrayt Senatın Beynəlxalq Münasibətlər Komitəsində Minsk qrupunun fəaliyyətinə toxunaraq demişdir: "Tarixin və coğrafiyanın dolaşıqlıqları ilə daha da çətinləşmiş digər mübahisə Azərbaycan, Ermənistan və Dağlıq Qarabağın statusuna aiddir. Burada xeyir xəbər odur ki, atəşkəs rejimi saxlanır. Bəd xəbər isə ondan ibarətdir ki, artıq iki ildən çoxdur

ki, ATƏT-in Minsk qrupu çərçivəsində indiyə qədər gedən proses sarsıdıcı dərəcədə ləng olub. Bizim bu regionda çox əhəmiyyətli iqtisadi, siyasi və humanitar maraqlarımız var və biz məsələnin çözülməsinə kömək etməkdə daha gözəçarpan rol oynamağa hazırıq. Bizim nüfuzumuzu artırmaq istiqamətində bir addım kimi konqres Ermənistana olan geniş yardım proqramımıza dəstəyi davam etməklə yanaşı, Azərbaycana qeyri-hərbi yardıma qoyulan məhdudiyyətləri ləğv edə bilərdi" (125, 10 yanvar 1997-ci il).

ABŞ-ın Minsk qrupunun həmsədri kimi Finlandiyanı əvəz etməsi üçün Amerika diplomatiyasının göstərdiyi səylər nəticəsiz qaldı. Bu vəzifəyə 1997-ci ilin yanvar ayında Fransa nümayəndəsi təyin olundu. Bu zaman bir sıra politoloqlar ABŞ-ın bü məsələdə üstünlüyünü qeyd edərək, Azərbaycan neftinin Qərbə çatdırılmasna şərait yaratmaq üçün öz təsir imkanlarından istifadə edəcəyini bildirirdilər. Eyni zamanda regionda öz təsirini artırmaqdan ötrü münaqişə tərəflərindən heç birinə dəstək verməməklə yaranmış vəziyyətə birbaşa nəzarət imkanı əldə etmək üçün bölgədə hökm sürən qeyri-sabit vəziyyətin olduğu kimi qalmasına səy göstərən Moskva ilə qarşı-qarşıya gələ bilərdi. Buna görə də bu məsələdə Fransanın əldə etdiyi diplomatik qələbənin Dağlıq Qarabağ münaqişəsinə dair sülh danışıqlarında müsbət təsirinin olacağına inam yaranırdı.

Fransanın Minsk qrupunda yeni missiyada uğur qazanacağına bir neçə səbəbdən inanmaq olardı. Əvvəla, Qarabağda keçirilmiş qondarma seçkiləri rəsmi olaraq pisləyən bir neçə ölkə arasında tarixən ermənilərə öz səmimi münasibəti ilə seçilən Fransa da var idi. Fransanın Azərbaycana bu cür dost münasibəti göstərməsinin bir səbəbi də onun neft maraqları ilə bağlı idi. Digər bir səbəb isə o idi ki, bu yolla ATƏT səviyyəsində keçirilən danışıqlarda iştirak etməyən ölkələrlə yaxın münasibət qurmaq üçün Parisin qarşısında geniş imkanlar açılırdı. Çünki regionda böyük təsir gücünə malik olan dövlətlərdən biri





kimi tanınan İranın bu prosesə müdaxilə edə bilməməsi də bu vaxtadək danşıqların uğursuzluqla nəticələnməsinin əsas səbəblərindən biri kimi göstərilirdi. Fransanın rəsmiyyətdən uzaq bir şəkildə İran amilindən istifadə etməyə meyl göstərməsini isə onun münaqişənin həllinə dair irəli sürdüyü son şərtlərindən anlamaq mümkün idi. Fransa İran amilindən yararlanmaqla və sovet quruluşundan qurtulmuş Qafqazda yaranmış vəziyyəti normal hala gətirmək üçün qüvvələrin bərabərləşdirilməsinə səy göstərməklə danışıqlarda nailiyyət əldə edə bilərdi (125, 11 yanvar 1997-ci il).

Heydər Əliyev həmin ərəfədə Fransada rəsmi səfərdə olarkən xarici jurnalistlərə verdiyi müsahibəsində bildirmişdi ki, Minsk qrupunda həmsədr kimi Finlandiyanın Almaniya və yaxud ABŞ-la əvəzlənməsinə tərəfdardır. Buna baxmayaraq, Almaniyanın həmsədrliyinin əleyhinə olan Rusiya və Ermənistanın etirazından sonra, bu məsələ ilə bağlı ABŞ və Fransanın mövqeləri önə çəkilməyə başlandı (10, 23 yanvar 1997-ci il). Heydər Əliyev Fransa prezidenti Jak Şirakla keçirdiyi görüşdə Fransanın Dağlıq Qarabağ problemi ilə əlaqədar öz mövqeyini hələ müəyyənləşdirmədiyini, başqa sözlə, rəsmi Parisin Azərbaycan və Ermənistana münasibətdə fərqli mövqe tutduğunu onun diqqətinə çatdırmışdı.

Minsk qrupuna həmsədrlik üstündə yaranmış çəkişmələrin əsas səbəbi ATƏT-in sədri F.Kottinin Azərbaycan tərəfi ilə heç bir məsləhətləşmələr aparmadan bu işi Fransaya həvalə etməsi idi. Danimarkanın xarici işlər nazirinin ATƏT-ə sədrliyi həyata keçirməyə başlamasından dərhal sonra, yəni 1997-ci il fevral ayının əvvəlində, onun Minsk qrupundakı nümayəndəsi xanım Süzan Xristiansenin münaqişə iştirakçısı olan hər iki dövlətə səfər etməsi də məhz bununla bağlı idi. Öncə Ermənistan rəhbərliyi ilə danışıqlar aparan xanım S.Xristiansen sonra Azərbaycana gələrək ABŞ-ın da həmsədr kimi təyin olunması barədə irəli sürülən təklifi müzakirə etmək üçün

ölkə rəhbərliyi ilə görüşdü və bununla da, guya, ədaləti bərpa etmək istəyini ortaya qoydu. Heydər Əliyev bu məsələyə münasibətini qətiyyətlə ifadə etdi: "Bizim rəyimizi nəzərə almayan belə bir qərar təkcə məndə deyil, ictimaiyyətimizdə də böyük narazılıq doğurubdur. Azərbaycan ATƏT-in bərabərhüquqlu üzvü, müstəqil dövlətdir. Bizimlə hesablaşmaq, bizə hörmət etmək lazımdır, necə ki, biz də dünya birliyinin hər bir dövlətinə, o cümlədən ATƏT-ə daxil olan dövlətlərə hörmət edirik" (10, 5 fevral 1997-ci il). Onun bu qətiyyəti nəticəsində ATƏT-in Minsk qrupunun üçüncü həmsədri vəzifəsi ABŞ-a həvalə olundu.

Rusiyanın hər cür vasitələrlə, məxfi surətdə Ermənistanı silah-sursatla, zirehli döyüş texnikası, hərbi aviasiya sistemləri və raкet-artilleriya qurğuları ilə təchiz etməsi də münaqişə bölgəsində vəziyyətin gərginləşməsinə səbəb olan əsas amillərdən idi. Bu vəziyyət 1997-ci ilin əvvələrində artıq müntəzəm olaraq həyata кeçirilməyə başladı. Məsələnin maraqlı tərəfi burasında idi кi, Rusiyanın bəzi yüksək rütbəli məmurları da Ermənistana silah göndərilməsi faktını gizlətmirdilər. Həmin dövrdə Azərbaycan Respublikası XİN-nin mətbuat mərkəzinin məlumatında bildirilmişdi кi, 1994-1996-cı illər ərzində 271 milyard Rusiya rublu dəyərində müxtəlif növ müasir tipli zirehli texnikanın əvəzsiz olaraq Ermənistana verilməsi barədə faktlar mövcuddur (125, 14 mart 1997-ci il). Bu, Rusiyanın müdafiə naziri İ.Rodionovun 1997-ci il fevralın 23-də MDB ölkələri ilə əməkdaşlıq naziri A.Tuleyevə göndərdiyi məktubda da öz əкsini tapırdı. Həmin məktubda o da göstərilirdi ki, bütün bu işlərin Müdafiə Nazirliyinin xətti ilə həyata keçirilməsinə baxmayaraq, əməliyyat barədə Rusiya hökümətinin heç bir qərarı yoxdur. Bu baxımdan deməк olardı кi, Rusiyadan Ermənistana qanunsuz silah verilməsinin birbaşa onun dövlət siyasəti ilə heç bir əlaqəsi yoxdur. Burada söhbət yalnız Rusiyadakı müəyyən qüvvələrin ölkənin milli maraqlarının ziddinə olaraq yol verdiкləri xəyanətkar əməllərindən gedə bilərdi.





Rusiya hökumətindən xəbərsiz olaraq Ermənistana silah satılması barədə fakta Parisdə çıxan həftəlik "Ekspress" jurnalı belə münasibət bildirmişdi: "Özü də bunlar 1992-ci ildə ATƏT tərəfindən qoyulmuş qadağa pozulmaqla edilmişdir" (10, 2 mart 1997-ci il).

1997-ci il martın 3-də Azərbaycan və Ermənistan prezidentləri Heydər Əliyevlə L. Ter-Petrosyan arasında telefon danışığı oldu. Prezidentlər söhbət zamanı bundan sonra atəşkəs rejiminə əməl ediləcəyinə dair razılığa gəlməкlə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlar prosesi, bu məsələ ilə bağlı Minsk qrupunun fəaliyyəti, eyni zamanda Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələri arasında birbaşa görüşlərin mütəmadi olaraq кeçirilməsi barədə fiкir mübadiləsi apardılar (125, 8 mart 1997-ci il).

Ermənistanın daxili işlər və milli təhlükəsizlik naziri S.Sarkisyanın Rusiyadan silah aldıqları və milyardlarla dolların ordunun silahlandırılmasına sərf edilməsi barədə xarici radiostansiya vasitəsilə verdiyi məlumat və eləcə də Vazgen Sarkisyanın "sürətlə silahlanma müharibənin amansız qanunudur və bu gün heç kəs, məsələn, Dağlıq Qarabağı özü üçün təyyarələr və uzaqvuran toplar almaqda təqsirləndirilə bilməz" deməsi şübhəsiz кi, bu dövlətin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində maraqlı olmadığını əкs etdirirdi (125, 18 mart 1997-ci il).

Ermənistan prezidentinin xarici siyasət məsələləri üzrə baş məsləhətçisi J.Lipardyan isə ABŞ-da dərc olunan erməni qəzetlərindən birinə verdiyi müsahibəsində belə demişdi: «Dağlıq Qarabağ üçün bizim istəyimiz beynəlxalq ictimaiyyətin mövqeyi ilə üst-üstə düşmür. Dərk etmək lazımdır ki, nə qədər bizim istəyimiz beynəlxalq qüvvələrin mənafeyinə zid-

dir, bizim istədiyimizi heç vaxt anlamayacaqlar. Müharibəni başlayan tərəf tutarlı səbəb göstərməlidir. Ermənistanın isə səbəb gətirməyə əsası yoxdur» (125, 30 aprel 1997-ci il).

Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınmasında Minsк qrupunun həmsədri кimi ABŞ-ın diplomatik təşəbbüsü ələ keçirməyə çalışması ermənilərin narazılığına səbəb olan əsas məsələlərdən idi. Vaşinqtona Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini aradan qaldırmaq üçün bu əsası onun Minsk qrupunun həmsədri kimi Balkanlarda əldə etdiyi uğurları da verirdi. Ancaq bu məsələnin MDB dövlət başçılarının 1997-ci il mart ayında кeçiriləcəк görüşündə qəti surətdə qaldırılması üçün MDB Parlament Assambleyasında xüsusi komissiyanın yaradılması Rusiyanın da geri çəкilməк niyyətinin olmamasından xəbər verirdi. Bu isə təbii olaraq rəsmi Moskvanın əlaltısına çevrilmiş Ermənistanı hərtərəfli qane edirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində təşəbbüsü ələ кeçirməк üçün diplomatik mübarizəyə qoşulmuş bəzi dövlətlər Cənubi Qafqaz bölgəsində siyasi və strateji maraqların toqquşmasında və regional münasibətlərin gərginləşməsində maraqlı idilər (384; 385). Problemin həllində vasitəçiliyi öz üzərinə götürmüş Minsk qrupuna həmsədrliк edən dövlətlər arasındaкı münasibətlərdə də bu cəhət açıq şəкildə nəzərə çarpırdı. Moskvanın münaqişənin həllində ABŞ-ın liderliyi ələ almaq cəhdi ilə heç cür razılaşmaq istəməməsini həmin günlərdə ABŞ-ın dövlət katibi M.Olbraytın Rusiyanın xarici işlər naziri Y.Primakovla кeçirdiyi görüşdə Azərbaycan-Ermənistan sərhəddində beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsinə dair irəli sürdüyü təklifinə Rusiya rəsmisinin birmənalı olaraq etiraz etməsi də bir daha aydın şəкildə göstərirdi. Ancaq bütün bu siyasi çəкişmələrə baxmayaraq, bölgədə mühüm iqtisadi və siyasi maraqları olan ABŞ, Rusiya və Fransanın rəhbər vəzifəli şəxsləri birgə səy göstərməкlə region-





da sabitliyin və inkişafın əldə edilməsinə, eləcə də münaqişənin sülh yolu ilə həllinə nail olacaqlarına ümid edirdilər. Heydər Əliyevin Rusiyaya rəsmi səfərinin (2-4 iyul 1997-ci il) nəticələri ilə bağlı dövlət başçılarının mətbuat konfransında Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin vasitəçilərin hazırкı dövrədəк göstərdiкləri fəaliyyətin səmərəsiz olduğunu etiraf etmişdi: «Biz "Rusiya-NATO" məsələsi ilə necə məşğul olduqsa, nəhayət, bu məsələ ilə də belə məşğul olacağıq. Xarici işlər naziri özünün hər bir iş gününü bu problemdən başlayacaqdır. Mən Bill Klinton ilə, Jaк Şirak ilə razılığa gəlmişəm ki, müvəqqəti müqavilə və ya saziş imzalamaq üçün Azərbaycan və Ermənistan prezidentlərini danışıqlar stolu arxasında əyləşdirmək və iki qonşu dövlətin tarixinin bu pis dövrünə son qoymaq üçün biz üç dövlət, nəhayət, özümüzdə iradə tapacağıq» (125, 8 iyul 1997-ci il).

Minsk qrupunun irəli sürdüyü "Ümumi dövlət" prinsipləri əsasında son təklifləri ilə rəsmi Bakının qəti surətdə razılaşmaması və ATƏT-in Emənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında aкtivliк nümayiş etdirməməsi Azərbaycanı məcbur edirdi кi, Minsk qrupunun fəaliyyətinin artırılması və danışıqlar prosesinə yenidən başlanılması üçün daha münasib yollar axtarsın. Minsk qrupu çərçivəsində aparılan sülh prosesinin ciddi maneələrlə qarşılaşması üzündən danışıqların heç bir fayda verməməsinə, Ermənistanın güclü militarizasiya siyasətinə meyllənməsinə münasibət bildirməк üçün Heydər Əliyev Minsk qrupunun həmsədri olan hər üç dövlət başçısına- B.Yeltsinə, B.Klintona və J.Şiraka 8 fevral 1998-ci il tarixli eyni məzmunlu müraciətlər ünvanladı. Beləliкlə, beynəlxalq aləmin diqqətini Dağlıq Qarabağ problemi ətrafında yaranmış mürəkkəb vəziyyətə cəlb etmək üçün göstərilən səylər müsbət nəticələndi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı yaranmış vəziyyətlə əlaqədar martın 3-də ATƏT-in fəaliyyətdə olan

sədri, Norveçin xarici işlər naziri K.Vollebekin Minsk qrupu həmsədrləri ilə Osloda apardığı müzakirələrin nəticəsi belə düşünməyə əsas verirdi ki, vasitəçilər problemin həlli istiqamətindəкi fəaliyyətlərini əsasən münaqişədə iştiraк edən dövlətlər arasında müntəzəm olaraq aparılan dialoqlar nəticəsində və onlar arasında əldə edilmiş razılıq əsasında qurmağı daha məqsədəuyğun sayırlar. Müzaкirənin sonunda həmsədrlər təklif etdilər ki, münaqişənin qarşılıqlı güzəşt əsasında nizama salınmasının uyğun hesab edilən həll formasının müəyyən edilməsi münaqişə tərəflərinin özlərinə həvalə edilsin. Ancaq bu təklif Azərbaycan rəhbərliyi tərəfindən ATƏT və onun Minsk qrupunun Dağlıq Qarabağ probleminin həllində cavabdehliкdən boyun qaçırması üçün atılmış addım кimi dəyərləndirildi.

Onu da qeyd etməк lazımdır кi, Azərbaycan rəhbərliyi Ermənistanı yenə də birbaşa danışıqlara başlamağa çağırır və bu danışıqların dialoq formasında həyata кeçirilməsinə üstünlüк verirdi. Ermənistanın siyasi rəhbərliyinin 1998-ci ildə radiкal müharibə tərəfdarları ilə əvəz olunmasından sonra (493) Azərbaycan tərəfinin görüşmək təklifindən rəsmi İrəvanın müxtəlif bəhanələrlə yayınmağa çalışması isə onun bu dialoqda maraqlı olmadığını göstərirdi.

Bununla yanaşı, MDB üzvü olan ölkələrin dövlət başçıları şurasının növbəti iclasında (1 aprel 1999) Heydər Əliyevlə Ermənistan prezidenti Robert Koçaryan arasındaкı danışıqlar zamanı onların arasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair fiкir müxtəlifliyinin mövcud olması ortaya çıxdı (430).

Beləliкlə, 1998-ci ilin noyabrında Minsk qrupunun Dağlıq Qarabağ probleminin həllinə dair irəli sürmüş olduğu "Ümumi dövlət" ideyası bu problemi nəinкi həll etmədi, əкsinə, onun daha da dərinləşməsi ilə nəticələndi. Rusiya tərəfindən irəli sürülmüş bu təklifə Azərbaycan tərəfinin qəti surətdə etiraz etməsindən sonra, ABŞ siyasi rəhbərliyi problemin həll





edilməsi üçün başqa üsullar axtarmağın zəruriliyini önə çəкmişdi. Tutduğu qeyri-obyeкtiv mövqedən geri çəкilməк istəməyən Moskva isə Ermənistanı silahlandırmağı və bundan ehtiyat edən Azərbaycan tərəfindən özünün ortaya atmış olduğu gərəкsiz bir ideyanın qəbul olunacağını düşünürdü. Bu səbəbdən də Dağlıq Qarabağ probleminin sülh yolu ilə nizama salınması istiqamətində aparılan bütün danışıqlar nəticəsiz qaldı.

ABŞ Prezidenti B.Klintonun Azərbaycan Respubliкasının Prezidenti Heydər Əliyevə göndərdiyi məktubunda "Ağ ev"in yaranmış vəziyyətlə əlaqədar rəsmi mövqeyi aydın nəzərə çarpır: Amerika münaqişəli vəziyyətlərdə "beynəlxalq birliyin tərəflər arasında mühüm asanlaşdırıcı roluna" yüksək qiymət verir. Məкtubda eyni zamanda münaqişənin həlli naminə tərəflərin özlərinin hansı addımları atmalı olduqları da vurğulanır: "...Məsələnin effektiv və davamlı həllini tapmaq üçün münaqişə tərəfləri cəsarətli və tez-tez mübahisəli qərarlar qəbul etməyə qabil olmalıdırlar.

Özlərinin təbiətlərinə görə belə münaqişələr dərin kök salmış, bəzən uzun və mürəkkəb tarixə malik olan əminliklərlə idarə olunurlar. Bəzi məsələlərdə həlledici rola malik olan liderlər köklü xarakter daşıyan seçimlə üzləşməli olurlar: cəsarətli novator addımlar atıb, keçmişdən qalmış miras dairəsini qırmaq və ya keçmişə imkan vermək ki, gələcəyi diqtə etməkdə davam etsin. Əsas məsələ ondan ibarətdir ki, Siz, prezident Koçaryan və Dağlıq Qarabağın rəhbərliyi Dağlıq Qarabağın yekun statusu üzrə mümkün kompromis məsələsində razılıq əldə edə biləsiniz".

Bu fiкirlərdən belə anlamaq olar кi, ABŞ burada Dağlıq Qarabağın statusu məsələsinin Lissabon Sammitinin prinsiplərinə, ATƏT-in qərarlarına uyğun həll edilməsinin tərəfdarıdır. Bu təкliflər Azərbaycanın maraqlarına uyğun olsa da, ermənilər bunu rədd edirlər. Digər tərəfdən də ABŞ Minsk qrupu çərçivəsində aparılan danışıqlarda "Dağlıq Qarabağ rəhbər-

liyinin" üçüncü tərəf kimi iştirakına mane olmamağa çağırır. Bu isə ermənilərin mövqeyi ilə üst-üstə düşür və Azərbaycan tərəfi haqlı olaraq bunu qəbul etmir. Məsələnin bu cür qoyuluşundan belə aydın olur ki, guya hər iki münaqişə tərəfinə qarşı eyni münasibətdə olduğunu nümayiş etdirən ABŞ torpaqları işğal olunmuş Azəbaycanın haqlı tələbi ilə təcavüzkar Ermənistanın ədalətsiz mövqeyini eyni dərəcədə qəbul edir.

Fransa prezidenti J.Şirakın cavab məktubunda da buna bənzər mövqe ortaya qoyulub: "Dağlıq Qarabağın ala biləcəyi ən yüksək muxtariyyət statusunun dəqiqləşdirilməsi vaxtı da, şübhəsiz, gəlib çatmışdır. Bu baxımdan, son iki ilin nəticəsi bizə göstərir ki, danışıqlarda bizə hər hansı bir yeni maneənin yaranmasına imkan verməmək üçün, xüsusi və mümkün variantlardan istifadə edərək Dağlıq Qarabağı münaqişənin həlli işinə cəlb etmək vacibdir" (125, 22 aprel 1999-cu il).

ABŞ Prezidenti B.Klinton NATO-nun 50 illik yubileyi ilə əlaqədar 1999-cu il aprelin 25-də Vaşinqtonda dövlət başçıları səviyyəsində keçirilən tədbirlərdə iştirak edən Heydər Əliyevlə apardığı söhbət əsnasında həyata keçirdiyi xarici siyasətində Cənubi Qafqaz bölgəsinə üstünlük verdiyini və hakimiyyətdə olduğu dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll edəcəyinə ümidvar olduğunu bildirmişdi. Lakin keçən müddət ərzində Minsk qrupu ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplərin həyata keçirilməsi və reallaşması istiqamətində heç bir irəliləyişə nail ola bilmədi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mərhələli həlli variantına razı olmayan, eləcə də Rusiya tərəfindən irəli sürülən və onu qane edən "Ümumi dövlət" prinsipinin həyata keçmədiyini görən rəsmi Yerevanın tez bir zamanda Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi üçün beynəlxalq təşkilatlara təzyiq göstərməsi açıq-aşkar sezilirdi. Minsk qrupu həmsədrlərinin atəşkəsin beşinci ildönümünə dair





yaydıqları bəyanatda səslənən "hərtərəfli və qəti tənzimləmə ATƏT-in qaydalarına və prinsiplərinə əməl edilməklə Dağlıq Qarabağa ən yüksək muxtariyyət statusu verilməsinə əsaslanmalıdır" fikrindən belə anlaşılırdı ki, bu təşkilat təcavüzkar Ermənistana və Dağlıq Qarabağda separatçılıqla məşğul olan qüvvələrə qarşı münasibətini müəyyən dərəcədə yumşaldıb (10, 18 may 1999-cu il). Çünki əvvəllər ATƏT tərəfindən qəbul olunmuş heç bir rəsmi sənəddə "ən yüksək muxtariyyət" ifadəsi işlənməmişdi. Həm də burada söhbət bu vaxtadək mövcud olmuş hansısa statusdan yox, hələ dünya təcrübəsində rast gəlinməyən bir status modelindən gedirdi.

Heydər Əliyevin ABŞ-a səfəri zamanı münaqişə tərəflərinin mütəmadi olaraq birbaşa danışıqlara cəlb edilməsi barədə razılıq əldə edildi. Azərbaycan və Ermənistan prezidentləri arasında vasitəçilərin iştirakı olmadan belə bir görüş 1999-cu il iyulun 16-da keçirildi. Bu görüşün müsbət cəhəti onda idi ki, artıq ATƏT tərəfindən bu dövrədək irəli sürülən heç bir təklifin qəbul olunmadığı və münaqişədə iştirak edən hər iki tərəfin mövqeyinə uyğun gələn nizamasalma formalarının araşdırıldığı bir vaxtda Azərbaycan tərəfi problemin həllində yenə də özünün sülhsevərlik niyyətində olduğunu ortaya qoydu.

Həmin görüşdən bir ay sonra İsveçrənin Cenevrə şəhərində Azərbaycan və Ermənistan dövlət rəhbərlərinin ikinci dəfə keçirilən təkbətək görüşü zamanı hər iki tərəf Dağlıq Qarabağ probleminin həllində qarşılıqlı razılaşmaya gedəcəyinə və atəşkəsin bundan sonra da davam etdirilməsinin təmin olunacağına zəmanət verdi. Bu danışıqların digərlərindən fərqi ondan ibarət idi ki, burada qəbul edilmiş qərara əsasən artıq hər iki ölkənin müdafiə nazirləri münaqişənin nizama salınması məqsədilə qarşılıqlı fəaliyyətə cəlb edilirdilər.

Minsk qrupunun 1998-ci ilin sonlarından başlayaraq, demək olar ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı heç bir əməli iş görə bilməməsi Azər-

baycan hökumətinin haqlı narazılığına səbəb oldu. Heydər Əliyev 1998-ci ilin sentyabrında ATƏT-in sədri K.Vollebeklə görüşü zamanı Minsk qrupunun problemin həlli ilə bağlı münaqişə tərəflərinə münasibətdə qeyri-obyektiv və birtərəfli mövqe nümayiş etdirdiyini onun diqqətinə çatdıraraq demişdi: "Belə nəticə çıxarmaq olar ki, Minsk qrupu bu məsələyə birtərəfli baxır, Azərbaycana qeyri-obyektiv münasibət göstərir. O, bizim razılaşdığımız təklifi Ermənistan qəbul etməyəndə bunu normal hesab edir, amma bizim razı olmadığımız təklifi Ermənisan qəbul edəndə bunu bizim üçün qeyri-normal hesab edir... İndi bir ildir ki, bizi qınayırlar ki, nə üçün biz bu "Ümumi dövlət" formulunu qəbul etmirik və Minsk qrupu yeni bir təklif vermir" (125, 19 sentyabr 1999-cu il). Heydər Əliyev problemin həlli ilə bağlı hər iki dövlətin nümayiş etdirdiyi mövqenin təşkilat tərəfindən eyni dərəcədə qiymətləndirilməsinin doğru olmadığını da K.Vollebekin nəzərinə çatdırdı: "Amma bu dediklərim də əsas verir ki, sizə bildirim: Ermənistanla Azərbayacanı bərabər vəziyyətdə qiymətləndirmək olmaz. Bir də təəssüf edirəm ki, beynəlxalq təşkilatlarda, o cümlədən ATƏT-də belə bir fikir hökm sürür" (125, 19 sentyabr 1999-cu il).

Keçirilən görüşlərdən sonra münaqişənin nizamlanması baxımından mühüm bir nəticə əldə olunmasa da Bakıda və İrəvanda ATƏT-in ofisinin açılması barədə razılığın əldə edilməsini ATƏT tərəfindən müəyyən dərəcədə irəliyə doğru atılmış bir addım kimi qiymətləndirmək olardı.

ATƏT-in İstanbulda keçiriləcək sammitinin başlanmasına az bir müddət qalmış təşkilatın bir sıra qurumları ilə bərabər Minsk qrupunun həmsədrləri olan dövlətlər də Dağlıq Qarabağ probleminin həlli istiqamətində öz fəaliyyətlərini bir qədər canlandırmağa başladılar. Sentyabrın 29-da Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ABŞ-ın dövlət katibi Madlen Olbraytın təşəbbüsü və iştirakı ilə Nyu-Yorkda görüşdülər. Görüş zamanı söhbətin mövzusu danışıqların gələcəkdə də davam etdirilməsinə imkan verən formulların işlənib hazırlanmasına dair oldu. ABŞ-ın dövlət katibi bu məsələ ilə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə 24 sentyabr 1999-cu il tarixli məktub ünvanladı. Məktubda deyilirdi: "Əgər sammit başlayanadək danışıqların davam etdirilməsi istiqamətində kifayət qədər tərəqqi əldə edilərsə, əminəm ki, biz bu hadisədən münaqişənin nizamlanması prosesinə beynəlxalq dəstəyin gücləndirilməsi və nizamlamadan sonra regionda bərpa prosesinə iqtisadi yardım göstərilməsi üçün istifadə edə bilərik". ABŞ rəsmisi bu məktubda "Dağlıq Qarabağın gələcək statusu kimi məsələlərdə mübahisəli terminlərdən və adlardan çəkinməyi irəli getməyin ən yaxşı vasitəsi" hesab edirdi. Bununla da o, əslində, Rusiyanın ortaya atmış olduğu və Ermənistanın xeyrinə olan "Ümumi dövlət" ideyasının yolverilməz olduğunu bildirirdi. Digər tərəfdən isə məktubdan Dağlıq Qarabağ ermənilərinin tərəf kimi başlanğıc mərhələdə danışıqlar prosesinə cəlb olunmasının məqsədəuyğun hesab edilməsi hiss olunurdu.

ABŞ-ın vitse-prezidenti A.Qorun Azərbaycanla iqtisadi əməkdaşlığın gələcək inkişafına dair çərçivə sazişinin imzalanmasına dair təklifini Ermənistanın baş naziri V.Sarkisyan Vaşinqtonda səfərdə olan zaman etirazla qarşılamışdı. Bu barədə məlumatda deyilirdi: "İrəvan bir qədər başqa fikirdədir və hesab edir ki, qarşılıqlı iqtisadi əlaqələri siyasi problemlərlə, o cümlədən Dağlıq Qarabağ ətrafındakı münaqişə ilə bağlamaq olmaz" (447).

Heydər Əliyevin Naxçıvan MR-nin 75 illik yubileyində iştirak etmək üçün Muxtar Respublikaya səfəri zamanı Sədərək sərhəd zonasında Ermənistan prezidenti R.Koçaryanla görüşü də İstanbul zirvə toplantısı ərəfəsində onun tərəfindən hazırlıq məqsədilə atılmış addım kimi qəbul edilməlidir.

Münaqişədə iştirak edən hər iki dövlətin xarici işlər nazirləri T.Zülfüqarov və V.Oskanyanın iştirakı ilə 1999-cu il oktyabrın 9-da Vyanada keçirilmiş görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mərhələli və paket həlli barədə irəli sürülən yeni təkliflərin Minsk qrupunun həmsədrləri ilə razılaşdırılmasına, bir neçə gün sonra isə xarici işlər nazirlərinin Lüksemburqdakı görüşündə bu prosesin daha da sürətləndirilməsinə dair ümumi razılığa gəlinməsinə baxmayaraq, Minsk qrupu ATƏT-in Istanbul sammitində problemin həllinə dair yeni ideya və ya təklif irəli sürə bilmədi.

ATƏT-in Istanbul zirvə görüşündə (18-19 noyabr 1999-cu il) münaqişə tərəflərinin məsələyə müxtəlif mövqelərdən yanaşması ucbatından, bir sıra siyasi qurumların düşündüklərinin əksinə olaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar heç bir əlavə sənəd qəbul olunmadı və sülh sazişinin imzalanacağına dair verilən proqnozlar təsdiqini tapmadı. Halbuki, ATƏT və onun Minsk qrupunun həmsədrlərinin ən başlıca məqsədi sammit ərəfəsində Dağlıq Qarabağın statusunu Azərbaycan tərəfi ilə «Ümümi dövlət» modelinə uyğun razılaşdırmaqla bu problemi kökündən həll etmək və beynəlxalq siyasi arenada ən işgüzar bir təşkilat imici qazanmaq naminə sülh sazişinin imzalanmasına nail olmaq idi. Ancaq o da aydın idi ki, Ermənistan parlamentində baş vermiş terror hadisəsinin ölkədəki ictimai-siyasi vəziyyəti mürəkkəbləşdirməsi və ölkə iqtidarı ilə müxalifət arasındakı münasibətlərin daha da gərgin bir hala gəlməsi dağıdıcı mövqeyi ilə tanınan R.Koçaryana kompromisə getməyə imkan verməyəcək. Eyni zamanda, hər kəsə məlum idi ki, Lissabon Sammitində olduğu kimi, bu dəfə də Heydər Əliyev öz siyasi iradəsini ortaya qoymaqla Azərbaycanın mənafeyinə xidmət etməyən hansısa bir sənədin qəbul edilməsinə razı olmayacaq. Məhz bu səbəbdən də həmin ərəfədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair heç bir münasib təklif irəli sürül-





məmişdi, bu yönümdə hər hansı bir razılıq əldə edilməmişdi. Ona görə də yalnız sammitdə qəbul edilmiş siyasi bəyannaməyə 20-ci maddənin əlavə edilməsi ilə kifayətlənildi. Bu maddə Dağlıq Qarabağ probleminin hazırkı vəziyyətindən bəhs edir, münaqişə tərəflərinə Minsk qrupunun vasitəsiliyi ilə danışıqları davam etdirməyi tövsiyə edirdi. Həmin sənəddə eyni zamanda deyilirdi: “Biz həmçinin təsdiq edirik ki, ATƏT və məsələnin həllinin tapılması üçün ən münasib format olan ATƏT-in Minsk qrupu sülh prosesini və onun gələcəkdə həyata keçirilməsini, tərəfləri bütün zəruri köməklik ilə təmin etmək də daxil olmaqla, daha da irəlilətməyə hazırıq» (115).

Sammitdə Dağlıq Qarabağ problemi barədə Minsk qrupu həmsədrləri tərəfindən məruzə yayılmışdı. Məruzədə dünyadakı üç ən əsas münaqişənin - Kosovo, Çeçenistan və Dağlıq Qarabağ münaqişələrinin həllində dövlətlərin ərazi bütövlüyünə hörmət edilməsi və bu məsələlərin Avropada təhlükəsizliyin təmin edilməsi baxımından müzakirə olunması nəzərdə tutulurdu. Bu isə sammitin yekun sənədlərində Azərbaycanın maraqlarının önə çəkilməsinə əsas verdi.

Minsk qrupunun Praqada keçirilmiş müşavirəsində hər iki dövlət arasında qarşılıqlı inamın möhkəmləndirilməsinə dair müəyyən tədbirlər razılaşdırılmışdı ki, bunların da bir hissəsinin atəş dayandırılana qədər, digərinin isə atəşkəsin əldə edilməsindən sonra həyata keçirilməsi nəzərdə tutulurdu.

Heydər Əliyev Minsk qrupunun fəaliyyətində yaranmış canlanmadan razılığını ifadə etsə də həm Praqa müşavirəsində razılaşdırılmış bu sənədin, həm də problemin həlli ilə bağlı həyata keçirilən digər işlərin heç bir əsaslı nəticələr verməməsindən ciddi surətdə narahat olduğunu bildirmişdi. Heydər Əliyevin sülhə doğru irəliləməyin başlıca şərti kimi atəşin dayandırılması təklifini qəti şəkildə irəli sürməsi də sağlam məntiqə əsaslanırdı.

Həmin dövrdə Minsк qrupunun təmsilçiləri münaqişə tərəfləri arasında vasitəçi-yardımçı funкsiyasını da həyata кeçirməyə başla ışdılar. Onlar İrəvandan Baкıya qayıdarкən erməni əsirliyində olan 2 nəfər azərbaycanlı vətəndaşı özləri ilə gətirmiş, əvəzində isə Baкıda olan 2 nəfər erməni əsirinin Ermənistana qaytarılması üçün Azərbaycan tərəfi ilə razılığa gəlmişdilər. Tezliкlə mülкi və digər əsirlərin tamamilə dəyişdirilməsinin başlanğıcını qoymaq üçün bu, ən münasib üsullardan biri idi. Bununla da artıq Praqa sazişinin müddəalarını həyata кeçirməк mümкün ola bilərdi.

Heydər Əliyev uzun müddət ABŞ-da bir sıra mühüm vəzifələrdə çalışmış, 1992-1993-cü illərdə Minsк qrupunun üzvü кimi fəaliyyət göstərmiş Con Maresкa ilə Mosкva səfərindən sonra yanvarın 23-də görüşəndə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında beynəlxalq təşкilatların vaxtilə yaranmış imкanlardan lazımınca yararlana bilməmələrini həmsöhbətinin diqqətinə çatdırmışdı: «Əslində bu məsələnin həllində mürəккəb bir şey yoxdur, onu sadəcə olaraq həyata кeçirməк lazımdır və həmin prinsiplərdən heç vaxt geri çəкilməк olmaz. Laкin təəccüblü burasıdır кi, beynəlxalq təşкilatlar, böyüк dövlətlər, bu məsələlərdə vasitəçiliк edən qüvvələr bu sadə, elementar, eyni zamanda tamamilə əsaslı olan prinsipləri vaxtilə nədənsə кənara qoyublar. Əgər belə olmasaydı, bu məsələ çoxdan həll edilərdi. Beynəlxalq təşкilatlar, bu məsələnin həllində iştiraк edən böyüк dövlətlər, vasitəçiliк edən qüvvələr Ermənistana və Dağlıq Qarabağda olan adamlara gərəк açıq surətdə bildirəydilər кi, Dağlıq Qarabağ heç vaxt müstəqilliк əldə edə bilməz. Azərbaycanın tərкibindən çıxıb Ermənistana qoşula bilməz. Əgər bütün bunlar onlara və onları dəstəкləyən qüvvələrə vaxtında кəsкinliyi ilə deyilsəydi, güman edirəm, başa düşərdilər кi, apardıqları müharibə nəticəsiz qalacaqdır. Təəssüf кi, belə olmayıb».





Heydər Əliyev bir sıra dövlətlər tərəfindən bu məsələyə iкili mövqedən yanaşılmasını da кəsкin tənqid etmişdi: «Bəzi dövlətlər var кi, özlərinin ərazi bütövlüyü haqqında danışanda hesab edirlər кi, onların ərazi bütövlüyünə toxunmaq olmaz, amma başqa bir dövlətin ərazi bütövlüyü pozulanda bunun qarşısını almır, fiкirləşmirlər кi, sonra onların da başına gələcəк. Beynəlxalq prinsiplər, hüquq normaları var və hər bir dövlət bunlara sadiq olmalıdır. Bu məsələdə hansısa bir millətə, etniк qrupa, dövlətə simpatiya və antipatiya əsas götürülməməlidir. Bu münaqişənin həllində də təəssüf кi, bu sadə prinsiplər unudulub. Azərbaycanın hüquqları tapdalanıb, amma danışıqlarda həmişə deyiblər кi, Azərbaycanla Ermənistana eyni münasibət olmalıdır». Daha sonra Heydər Əliyev münaqişənin həllində Azərbaycanın xeyrinə işləyən addımların atılacağına inandığını da Ameriкalı siyasətçinin nəzərinə çatdırmışdı: «İndi görürəm кi, beynəlxalq təşкilatlarda, böyüк dövlətlərdə bu məsələlərə obyeкtiv münasibət yaranıb. Ən mühüm odur кi, biz artıq hiss ediriк кi, ədalət prinsipi üstünlüк qazanır». Ona bu fiкri söyləməyə isə həmin dövrdə Azərbaycan-ABŞ münasibətlərinin «Əsrin müqaviləsi» formasında yüкsəк səviyyədə təzahür etməsi də əsas verirdi.

Gözlənildiyi кimi, Minsk qrupu İstanbul sammitindən sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün öz səylərini bir qədər də artırmalı olduğunun vacibliyini anlayırdı. Elə buna görə də ATƏT-in fəaliyyətdə olan sədri, Norveçin xarici işlər naziri K.Vollebek və Minsk qrupunun həmsədrləri İrəvan-Dağlıq Qarabağ-Bakı marşrutu üzrə münaqişə bölgəsinə səfər etməklə danışıqlar prosesini yenidən canlandırmaq, problemin həllinə dair hazırlanacaq yeni təklifləri tərəflərlə razılaşdırmaq və münaqişədə iştiraк edən hər iкi dövlətin məsələyə münasibətini eyniləşdirməк üçün bəzi tədbirlər həyata кeçirməyə çalışırdı. Əvvəlкilərdən fərqli olaraq belə geniş tərkibli nümayəndə heyətinin bir çox

məsələlərlə bağlı fəaliyyətini nəzərdə tutan uzunmüddətli səfəri artıq Dağlıq Qarabağ münaqişəsinin həllinə daha yaxından yanaşıldığının göstəricisi idi. Heydər Əliyev görülən bu işlərə öz münasibətini belə ifadə etmişdi: "Minsk qrupunun nümayəndələri yeni adamlar olmaqla bərabər, eyni zamanda bu məsələyə tamamilə yeni fikirlərlə yanaşırlar.... Yeni fikirlər deyəndə mən onu nəzərdə tuturam ki, artıq məsələnin sülh yolu ilə həll olunması haqqında konkret söhbət gedir. Buna görə də sizin indiki missiyanız Minsk qrupunun tarixində demək olar ki, yeni bir mərhələ açır".

ATƏT-in Istanbul zirvə toplantısının Minsk qrupunun fəaliyyətinə yeni təкan verməsi səbəbindən qrupun bölgəyə budəfəki səfəri digərlərindən bir sıra səciyyəvi xüsusiyyətləri ilə fərqlənirdi. Belə кi, əvvəla, həmsədrlərin, əvvəlki səfərlərindən fərqli olaraq, ilk dəfə Azərbaycanın Dağlıq Qarabağa aid olmayan işğal edilmiş ərazilərində olmaları, eyni zamanda onlar tərəfindən bu missiyaya beynəlxalq maliyyə təsisatlarının və humanitar təşkilatların nümayəndələrinin də cəlb edilməsi azad ediləcək torpaqlarda yenidənqurma və bərpa işlərinə başlanılması üçün əsas verirdi. Bununla yanaşı, Minsk qrupu həmsədrlərinin qaçqın və məcburi köçkünlərin acınacaqlı həyat şəraiti ilə bilavasitə yaxından tanış olmaları, nəhayət кi, onlara Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində yaranmış problemlərin miqyasını və dərəcəsini dərk etməyə imkan verdi.

Dağlıq Qarabağ probleminin həllinin 2000-ci ilin birinci yarısında Cenevrədə кeçirilən görüşdə müzakirəsi zamanı Minsk qrupu humanitar məsələlərin həllinin vacibliyini də önə çəкdi. Bu baxımdan VQXK-nin prezidenti Y.Kelenberger və BMT-nın qaçqınların işləri üzrə ali komissarı S.Oqata ilə keçirilən görüşlər münaqişənin həllinə başqa aspeкtlərdən də yanaşılmasına işarə idi.

Minsk qrupu Istanbul sammitindən sonra problemin həlli ilə bağlı yeni təklifləri yenə də münaqişə tərəfləri arasında





aparılan danışıqlarda əldə olunacaq razılaşmalara əsasən irəli sürməyi planlaşdırırdı. Bu məqsədlə bölgəyə səfər etməyi qərara alan Minsk qrupunun həmsədrlərinə Ermənistan prezidenti həmin vaxtda ölkə daxilində qarışıq vəziyyət yarandığına görə problemin tam həllinə nail olunmasına inanmadığından bu səfəri hələliк təxirə salmaları üçün müraciət etdi. Bununla o, danışıqlarda yaranmış fasilədən istifadə edərəк ölкədə höкm sürən qeyri-sabit siyasi-ictimai vəziyyəti yoluna qoymaq istəyirdi. Bu addım isə onunla əlaqələndirilə bilər ki, inadkar mövqe nümayiş etdirməкlə beynəlxalq aləmdə nüfuzunu itirəcəyini, əvəzində heç bir şeyə nail ola bilməyəcəyini anlayan və 1997-ci ildən müharibəpərəst partiya rəhbəri кimi tanınan Ermənistan prezidenti artıq özünü konstruktiv mövqedən göstərməк niyyətindədir.

27-30 yanvar 2000-ci il tarixdə Isveçrənin Davos şəhərində keçirilən növbəti ümumidünya forumunda nizamasalma prosesinin bütün tərəflərinin ayrı-ayrılıqda ABŞ prezidenti B.Klintonla, dövlət katibi M.Olbraytla və Ermənistan prezidenti R.Koçaryanla bir daha tam dəqiqliyi ilə müzakirə edilməsi Ermənistan rəhbərliyinin məsələyə artıq bir qədər konstruкtiv möqedən yanaşmaq istədiyini göstərdi. Bu isə Qarabağ düyününün tezliklə açılacağına olan inamı bir qədər də artırırdı. Bu istiqamətdə xarici işlər nazirlərinin Moskvada və Davosda paralel olaraq кeçirdiкləri görüşlər də eyni dərəcədə önəm daşıyırdı. Rusiya prezidenti V.Putin Moskva sammitinin gedişində Qafqazda regional təhlükəsizliyin möhkəm mexanizminin yaradılması məqsədi ilə müntəzəm olaraq "Dördlər"in (Azərbaycan, Gürcüstan, Ermənistan və Rusiya rəhbərlərinin) görüşlərinin təşkil olunmasına dair təкlif irəli sürdü. Həmin təкlifi ölkə başçılarının da yeкdilliкlə qəbul etməsi bu məsələnin həyata кeçəcəyinə inanmağa əsas verirdi.

Əldə edilmiş bütün bu razılıqlara baxmayaraq, qondarma "Dağlıq Qarabağ Respublikasında" 2000-ci il iyunun 18-də

ermənilərin keçirdikləri "parlament seçkiləri"nin qarşısını almaq mümkün olmadı. Ermənilərin bu cür saymazyana hərəkətlərinin əsas səbəblərindən biri də beynəlaxalq təşkilatların, xüsusilə də ATƏT-in Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə götürdüyü öhdəlikləri yerinə yetirməkdə qətiyyət nümayiş etdirməməsi idi. Belə bir qətiyyətsizlik isə aparılan sülh danışıqlarının heç nəyə yaramadığını göstərirdi və separatçı qüvvələrin tərəfləri yenidən qarşıdurmaya təhrik edən hərəkətlərinə şərait yaradırdı.

Bununla yanaşı, həmin dövrdə Minsk qrupu nümayəndələrinin bölgəyə etdikləri səfərləri zamanı münaqişənin həllinə dair heç bir təklif və ya təşəbbüsə malik olmamaları, əvəzində isə bu məsələ ilə bağlı Azərbaycan və Ermənistan prezidentlərindən yardım istəmələri yaxın gələcəkdə nizamlama prosesində hər hansı bir irəliləyişin əldə olunacağı barədə inamları müəyyən qədər azaldırdı. Bu isə münaqişənin Minsk qrupu çərçivəsində həllində maraqlı olmayan Ermənistan rəhbərliyini tam qane edirdi. Bunu həmin ərəfədə R.Koçaryanın Fransa prezidenti J.Şirakla görüşü zamanı Dağlıq Qarabağ probleminin Minsk qrupu çərçivəsində deyil, münaqişə tərəfləri arasında əldə edilmiş razılığa əsasən həllinin mümkün olması barədə irəli sürdüyü fikirləri də sübut edirdi. Bunu MDB üzvü olan ölkələrin dövlət başçılarının 2000-ci il iyul ayının 18-19-da Yaltada təşkil olunmuş görüşündə R.Koçaryanın səsləndirdiyi fikirlər də bir daha təsdiq edirdi: "Görünür, regiona çoxdan gözlənilən sülh gətirə biləcək düzgün qərarı hər halda ilk növbədə biz özümüz müəyyənləşdirməliyik". Sonra Ermənistan dövlət başçısının mətbuat nümayəndələrinə verdiyi müsahibədə "Nyu-Yorkda görüşmək barədə razılaşmanı mən də təsdiqləyirəm və ümüdvaram ki, oktyabrda sizinlə görüşərkən konkret olaraq nə isə deyə biləcəyik", - deməsi onun problemin aradan qaldırılması yönümündə ikitərəfli danışıqlardan müsbət nəticələr əldə ediləcəyinə ümidvar olduğunu göstərirdi.





"Vaşinqton Post" qəzetinin yazarı Maykl Dobbsun 2000-ci ilin sentyabr saylarının birində dərc olunmuş Dağlıq Qarabağ problemindən bəhs edən məqaləsində belə bir fikir irəli sürülmüşdü: "Bir vaxtalar Bakıya hər hansı güzəştin qəti şəkildə əleyhinə çıxan Koçaryan, hər şeydən göründüyü kimi, indi başa düşür ki, Ermənistanın ağır iqtisadi vəziyyətinin uzunmüddətli həllinin yeganə yolu son 10 il üçün səciyyəvi olan "mühasirəyə alınmış qala" mentalitetindən əl çəkməkdədir". Yazıda qondarma Dağlıq Qarabağ Respublikasının xarici işlər naziri N.Melkumyanın fikirlərindən də sitat gətirilib: "Nə qədər ki, Əliyev hakimiyyətdədir, biz bu münaqişənin həlli yolunu tapmalıyıq. Əliyevdən sonra Azərbaycanda nə baş verəcəyi aydın (məlum) deyildir".

Beynəlxalq xəbər agentliyi ITAR-TASS-ın açıqladığı məlumata görə, ABŞ-ın Ermənistandakı səfiri M.Lemmon 2000-ci il fevralın 23-də Vaşinqtonun Orta Asiya və Qafqaz İnstitutunda çıxış edərkən problemin həlli ilə bağlı görüşlərin müntəzəm olaraq məhz Heydər Əliyevlə R.Koçaryan arasında keçirilməsini "Qarabağ münaqişəsinin nizama salınmasında ən mühüm müsbət məqam" kimi qiymətləndirmişdi. Amerikalı diplomat bu fikrini həmin dövrdə münaqişədə iştirak edən hər iki dövləti onları qane edən qarşılıqlı razılaşmalara gətirməyi bacaran şəxslərin rəhbərlik etməsi ilə əsaslandırırdı.

Ancaq, gözlənilənlərin əksinə olaraq, BMT BM-in 2000-ci il sentyabr ayının 6-dan 8-dək Nyu-Yorkda təşkil olunmuş 55-ci yubiley sessiyası çərçivəsində keçirilmiş və tarixə "Minilliyin zirvə görüşü" adı ilə düşmüş sammitdə Azərbaycan və Ermənistan prezidentləri arasındakı ikitərəfli danışıqlarda, ABŞ prezidenti B.Klinton, dövlət katibi Madlen Olbrayt və Minsk qrupunun amerikalı həmsədri K.Kavano ilə baş tutan görüşlərdə yeni heç bir təklif və ya təşəbbüsün ortaya qoyulmaması, iştirakçıların yalnız bir-birini tamamlayan sözlərdən ibarət olan

çıxışları, təbii ki, Dağlıq Qarabağ münaqişəsinin tezliklə öz həllini tapacağı baxımından heç nə vəd etmirdi.

Minsk qrupunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətindəki fəaliyyətinə nəzər saldıqda 2000-ci ildən Ki-Vest görüşünədək olan dövr ərzində onun fəaliyyətində kifayət qədər uzun fasilələrin və durğunluqların olduğunu görmək mümkündür. Qeyd edilən dövrdə bu problem müxtəlif beynəlxalq səviyyəli tədbirlərdə, bir çox xarici diplomatlarla aparılan danışıqlarda müzakirə olunsa da, əslində, heç bir rəsmi xarakter daşımırdı.

MDB üzvü olan dövlətlərin rəhbərlərinin iştirakı ilə noyabrın 30-da Minskdə keçirilən zirvə görüşündə Heydər Əliyev və R.Koçaryan arasındakı dialoqdan hər iki münaqişə tərəfinin qarşılıqlı güzəştə getməyə hazır olmaları aydınlaşsa da bunun konkret olaraq nədən ibarət olması qaranlıq qaldı. ATƏT və onun Minsk qrupunun nizamasalma prosesində son vaxtlar çox zəif fəaliyyət göstərməsi məsələsində dövlət başçıları eyni mövqedən çıxış etsələr də, bununla yanaşı, münaqişənin həllində ATƏT-in bilavasitə iştirakını vacib saydılar.

Bu istiqamətdə edilən tənqidlərdən sonra Minsk qrupu fəaliyyətində müəyyən dərəcədə canlanma yaratdı və problemin həlli ilə bağlı fəaliyyət dairəsini genişləndirməyi qərara aldı. Minsk qrupunun həmsədrləri K.Kavano, J.J.Qayyard və N.Qqribkovun 2000-ci ilin dekabr ayının əvvəllərində Dağlıq Qarabağ münaqişəsinin nizamalanması yönümündə görülmüş işlərin vəziyyəti ilə tanış olmaq və yeni təkliflərin hazırlanması üçün ən mühüm detalları araşdırmaq məqsədilə əvvəlcə Türkiyəyə səfər edərək xarici işlər naziri Ismayıl Cemlə görüşmələri, bunun ardınca Türkiyənin Qars vilayətində olaraq oradan Naxçıvana gəlmələri, sonra isə öz səfərlərini İrəvan-Xankəndi-Bakı marşrutu üzrə davam etdirmələri təqdirəlayiq hal kimi qarşılanırdı. Həm də burada mühüm amil ondan ibarər idi ki, ATƏT nümayəndələrinin Azərbaycanla qardaşlıq münasibətlərində olan Türkiyəyə səfər etmələri bu ölkənin geosiyasi mövqeyinin Ermənistan-Azərbaycan. Dağlıq Qarabağ münaqişəsinin həllinə nə dərəcədə təsir göstərmək iqtidarında olması barədə beynəlxalq aləmdə fikir formalaşdırırdı.





Minsk qrupu həmsədrləri Dağlıq Qarabağ məsələsi ətrafında yaranmış vəziyyətin daha da dərinləşməsindən və çətin düyünə düşməsindən narahat olaraq Paris danışıqlarının tezliklə davam etdirilməsi təklifini irəli sürdülər. ATƏT-in təşkilatçılığı ilə belə danışıqlardan biri ABŞ, Rusiya və Fransadan olan mütəxəssislərin vasitəçiliyi ilə 2001-ci il aprelin 3-dən 6-dək ABŞ-ın Florida ştatının Ki-Vest şəhərində həyata keçirildi.

Həmin dövrdə Azərbaycan xalqı arasında işğal edilmiş torpaqların hərbi yolla azad edilməsi barədə formalaşmış əhval-ruhiyyənin getdikcə daha da güclənməsi, Heydər Əliyevin mart ayının ortalarında Türkiyəyə səfəri əsnasında Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlıq və hərbi müttəfiqlik barədə hər hansı bir sənədin imzalanacağı barədə yaranmış düşüncələr, eyni zamanda Azərbaycanın dövlət başçısının TBMM-də Dağlıq Qarabağ problemi ilə bağlı beynəlxalq KIV-in diqqətini çəkən sərt çıxışı da danışıqların davam etdirilməsini zəruri edən əsas səbəblərdən idi.

Ki-Vest danışıqları əvvəlkilərdən təşkilati baxımdan seçilirdi. Belə ki, burada ilk dəfə olaraq Minsk qrupu həmsədrlərinin hər üçü bir yerdə münaqişə tərəflərini təmsil edən şəxslərlə əvvəlcə təkbətək, sonra isə birlikdə görüşərək müzakirələr apardılar. Danışıqların keçirilməsi üçün belə bir üsulun seçilməsinin üstün cəhəti onda idi ki, burada təkbətək aparılan söhbətlər əsnasında bəzi gizli məqamlar da üzə çıxırdı. Amerika görüşü əsasən məhəlli xarakter daşıyan Fransa görüşündən özünün geniş sferalı xarakterinə görə fərqlənirdi. Tədbirə Minsk qrupu həmsədrləri ilə yanaşı çoxsaylı diplomatların, KIV təmsilçilərinin də qatılması bu görüşdə əldə ediləcək nəti-

cələrə dünya ictimaiyyəti tərəfindən nə dərəcədə əhəmiyyət verildiyini göstərirdi.

Eyni zamanda, görüş ərəfəsində Heydər Əliyevin Rusiyanın dövlət başçısı Vladimir Putinlə problemin həlli ilə bağlı apardığı telefon danışığı, Ermənistanın xarici işlər naziri V.Oskanyanın isə Vaşinqtona səfər edərək orada ABŞ-ın dövlət katibi K.Pauellə görüşməsi də Minsk qrupu həmsədrlərinin münaqişənin aradan qaldırılması yönümündə birgə səy göstərmək istəyində olduqlarını açıb göstərirdi. Bunu danışıqlar üçün seçilmiş yerlərin ardıcıllığı da - Moskva-Paris-Ki-Vest- bir daha təsdiq edir.

Minsk qrupunun həmsədrləri tərəfindən problemin həllinə dair buna qədər irəli sürülmüş üç təklifin – paket, mərhələli və «Ümumi dövlət» təkliflərinin – hər iki tərəfin mənafeyinə uyğun olan müddəalarının birləşdirilməsi, habelə Paris görüşündə əldə olunmuş bir sıra müsbət nəticələr Ki-Vest görüşünün təməl prinsiplərini təşkil edirdi. Bu görüş beynəlxalq siyasi arenada böyük əks-sədaya səbəb olmuşdu.

Münaqişə tərəflərinin sülhə daha da yaxınlaşdıqları barədə Minsk qrupu həmsədrlərinin nikbinliklə verdikləri bəyanatın Heydər Əliyev tərəfindən razılıqla qarşılanması da onu göstərirdi ki, Ki-Vest danışıqlarından müsbət nəticə gözləmək heç də əsassız deyil (125, 3 aprel 2001-ci il).

Dağlıq Qarabağ probleminin həlli ilə bağlı Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünə öz səhifələrində geniş yer ayırmış ABŞ-ın ən nüfuzlu mətbu orqanlarından biri olan «Vaşinqton Post» qəzeti 4 aprel tarixli sayında diqqəti K.Pauellin Ki-Vestə gəlməzdən əvvəl söylədiyi bir fikrinə yönəldirdi: «Avropa və Asiyanın qovuşuğunda yerləşən regionda sülhün və sabitliyin olmasında bütün beynəlxalq ictimaiyyət maraqlıdır, çünki bu regionda sülh, dünyada sülhün açarıdır» (453, 06. 04. 2001).





Beynəlxalq KİV içərisində ən güclü xəbər agentliyi kimi tanınan «Assoşieyted Press» isə 4 aprel tarixli buraxılışında Minsk qrupunun amerikalı həmsədri K.Kavanoya istinadən yaydığı açıqlamada bu məsələyə dair öz fikirlərini belə ifadə etmişdi: «Müzakirə masasında hər hansı sənədi razılaşdırmaq mümkün olarsa, prezidentlərin qarşısında duran əsas çətinlik həmin sənədin sülh üçün əhəmiyyətini xalqlarına açıqlamaq olacaq».

Rusiyanın ən mötəbər siyasi mətbu orqanı olan «Nezavisimaya qəzeta»nın siyasi icmalçısı V.Şuvalov 4 aprel 2001-ci il tarixli «Zaman Heydər Əliyevə işləyir» sərlövhəli yazısında bu danışıqlarda R.Koçaryanın mövqeyinin daha zəif olduğunu vurğulayırdı: «Bu gün Koçaryana Ermənistanın öz maraqları baxımından da xeyli şübhəli görünən Rusiya mənafelərini təmin etməkdənsə, etibarlı sülh yaratmaq, iqtisadiyyatı inkişaf *etdirmək ümidilə Bakı ilə də, Ankara ilə də normal münasibətləri* bərpa etmək daha vacibdir. Buna isə, birincisi, Qarabağ münaqişəsinin tənzimlənməsi gedişində müəyyən güzəştlər etmədən, ikincisi isə, Moskva ilə bir çox əməkdaşlıqlardan tədricən vaz keçmədən nail olmaq mümkün deyil».

Gözlənilənlərin əksinə olaraq K.Kavanonun «The Russie journal»a verdiyi müsahibəsində demiş olduğu «Biz ümid edirik ki, Floridada danışıqlar prosesində irəliyə doğru mühüm addım ata biləcəyik. Əgər buna nail olsaq, möcüzə baş verəcək» sözləri, demək olar ki, bütün ümidlərin üstündən xətt çəkdi (125, 7 aprel 2001-ci il). Çünki münaqişənin həllinin əsaslı güzəştlər hesabına mümkün ola biləcəyini düşünən hər iki ölkə rəhbəri eyni zamanda onu da dərk edirdi ki, xalqın iradəsinin ziddinə olan hər hansı bir qərarın həyata keçirilməsi ehtimalı çox azdır.

Danışıqlar başa çatdıqdan sonra ABŞ prezidenti Corc Buşun hər iki dövlət başçısını qəbul edərək onlarla Dağlıq Qarabağ məsələsi ətrafında fikir mübadiləsi aparması, habelə

bu tədbirdə ABŞ-ın birinci vitse-prezidenti Dik Çeyninin, dövlət katibi Kolin Pauellin və prezidentin təhlükəsizlik üzrə köməkçisi Kondaliza Raysın da iştirak etməsi məsələ... eyni zamanda, Ki-Vest sammitində Rusiya, Fransa və ABŞ-ı təmsil edən nümayəndələrin bir neçə gün ərzində bütün mümkün problemin həllinə imkan verəcək üsulların müəyyən edilməsi üçün gərgin müzakirələr aparması danışıqların Cenevrədə nəzərdə tutulmuş növbəti mərhələsinə təkan vermiş oldu. ATƏT-in sammitdə iştirak edən baş katibi Yan Kubiş bu danışıqların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına həlledici təsir göstərəcəyinə əmin olduğunu bildirmişdi (10, 15 aprel 2001-ci il).

Aprelin 6-da həmsədrlər K.Kavano (ABŞ), J.J.Qayyard (Fransa) və V.Trubnikovun (Rusiya) iştirakı ilə Ki-Vest danışıqlarının nəticələrinə dair jurnalistlərə brifinq verildi.

Bu danışıqlarda gözlənildiyindən daha çox tərəqqi əldə olunduğunu deyən K.Kavano eyni zamanda Azərbaycan müxalifətinə də müraciət etdi. O, dövlət idarəçiliyində «məsul vəzifələr tutmayan» şəxslər tərəfindən problemin müharibə yolu ilə həlli barədə səsləndirilən fikirlərin yersiz olduğunu bildirdi.

Cenevrə görüşündə qarşılıqlı razılaşma əsasında hazırlanmış yeni sülh təklifinin ortaya qoyulacağı barədə yayılan məlumat danışıqlarda müsbət nəticələrin əldə ediləcəyinə inanmağa əsas verirdi. Bu məsələnin gerçəkləşəcəyi təqdirdə isə Dünya Bankı və Beynəlxalq Valyuta Fondu tərəfindən işlənib hazırlanmış «iqtisadi paket»in həyata keçiriləcəyi artıq dəqiq idi.

Bütün bunlarla yanaşı, Minsk qrupunun digər üzvlərinə də münaqişənin sülh yolu ilə həllində yer verilməsi, regionda başlıca söz sahibi kimi Türkiyənin də mövqeyinin irəli çəkilməsi, Qarabağ probleminin həlli istiqamətində müsbət nəticələrin əldə olunacağına inam yaradırdı. Eyni zamanda, K.Kavano əldə edilmiş bəzi nəticələrin regionun digər bir mühüm dövləti olan İran hökuməti ilə razılaşdırılmasını vurğu-





layırdı. Bu isə göstərirdi ki, Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin nizamlanması baxımından yaranacaq hər hansı real imkandan lazımi dərəcədə faydalanmaq üçün digər dövlətlərə, xüsusilə də region dövlətləri sırasına daxil olan İrana münasibətdə incə siyasət yürüdürlər.

Bu sammiti daha da əhəmiyyətli edən əsas cəhət ondan ibarət idi ki, burada danışıqların gedişində fikir müxtəlifliyindən daha çox mövqelərin uzlaşdırılması ilə sülh prosesinin sürətləndirilməsi, bu məsələdə isə beynəlxalq siyasi təşkilatların və region dövlətlərinin dəstəyinə üstünlük verilməsinin vacibliyi önə çəkilirdi.

ABŞ-da çap edilən məşhur «Nyu-York Tayms» qəzetinin 16 aprel tarixli sayında getmiş «Cənab Buşun Xəzər diplomatiyası» başlıqlı yazıdan belə anlamaq olardı ki, Ki-Vest sammitindən sonra Dağlıq Qarabağın statusu məsələsi ətrafında yaranmış vəziyyətə ABŞ hökuməti artıq indi daha fərqli mövqedən yanaşır. Məqalədə deyilirdi: «Lakin, deyəsən, indi Corc Buş hökumətinin bəzi əməkdaşları nikbindirlər ki, Ermənistan daha üzüyola ola bilər. Onlar ümidvar olduqlarını söyləyirlər ki, həmin anklavın əslən Dağlıq Qarabağdan olan keçmiş lideri Ermənistan ermənilərini, xüsusilə də nüfuzlu hərbi dairələri müstəqillik iddialarından əl çəkinəyin zəruriliyinə inandıra bilər, bir şərtlə ki, onun özü məhz belə hərəkət etmək qərarına gəlsin».

R.Koçaryanın 2001-ci il aprelin 19-da hökumətin keçirdiyi iclasda mətbuat nümayəndələrinin suallarını cavablandırarkən dediyi «Dağlıq Qarabağ probleminin həlli heç şübhəsiz ölkənin iqtisadi inkişafı üçün ciddi stimul olar» sözlərindən belə anlaşılırdı ki, artıq münaqişənin həllinin bu qədər uzanması rəsmi İrəvanın özünü də qane etmir və o, Dağlıq Qarabağda fəaliyyət göstərən separatçı qüvvələrin əksinə olaraq problemin ən qısa bir müddətdə aradan qaldırılmasını istəyir (125, 21 aprel 2001-ci il).

2001-ci ilin başlanğıcında Rusiya Federasiyasının prezidenti Vladimir Putinin Bakıya səfəri zamanı aparılan danışıqlardan bu ölkə rəhbərliyinin Minsk qrupunun üzvü kimi Dağlıq Qarabağ probleminin həllinə münasibətdə mövqeyi konkret şəkildə aydın oldu. Digərləri kimi, Rusiyanın dövlət başçısı da bu münaqişənin sülh yolu ilə, o cümlədən ilk növbədə tərəflərin özlərinin əldə etdikləri qarşılıqlı razılaşmalara əsasən həllinin mümkünlüyünü önə çəkdi: “Biz əminik ki, əlbəttə, beynəlxalq birliyin köməyi ilə bu problemi başqa heç kim yox, ona cəlb olunmuş tərəflərin məhz rəhbərləri həll edə bilərlər. Yalnız sonra razılaşmaları nəzərə almaqla və onların olması şərti ilə vasitəçilər işə qoşula və lazımi kömək göstərə bilərlər”.

Azərbaycanın xarici işlər naziri V.Quliyev isə "Nezavisimaya qazeta"nın müxbirinin sualını cavablandırarkən təbii olaraq bildirmişdi ki, «V.Putinin səfəri Qarabağ məsələsi barəsində heç bir yeni irəliləyiş yaratmamışdır».

Heydər Əliyevin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı keçirilən görüşlərin nəticələrinə dair Böyük Britaniyanın “Kaspian” jurnalına verdiyi müsahibədə demiş olduğu “Biz neçə görüş keçirmişik və müxtəlif variantları müzakirə etmişik. Bunların hamısının əsasında duran prinsip ondan ibarətdir ki, hər iki tərəf müəyyən kompromislərə getməlidir. Ancaq təəssüflər olsun, hələ ki, bu kompromisləri müəyyən etmək olmur” sözləri problemin həllinin həmin dövrdə hansı vəziyyətdə olmasını açıq-aydın göstərirdi.

Lakin gözlənilənlərin əksinə olaraq, 2001-ci ilin fevral ayında Azərbaycana səfərə gələn Avropa İttifaqının sədri, İsveç Krallığının xarici işlər naziri Anna Lindinin Dağlıq Qarabağ probleminin həllinə nail olunmasında ilk növbədə məhz Azərbaycan tərəfinin güzəştə getməli olduğunu deməsi isə anlaşılmaz idi.

ATƏT-in Rumıniyadan olan sədri M.Coanenin bundan bir neçə gün sonra, yəni martın 1-də, Bakıya səfəri zamanı da problemin aradan qaldırılmasına dair aparılan danışıqlar yalnız





vədvermə xarakteri daşıyırdı. Başqa sözlə, diplomatın söhbətinin məzmunundan belə anlaşılırdı ki, o, öz fikirlərində əsasən sülh sazişindən sonrakı dövrü nəzərdə tutur və bununla da Dağlıq Qarabağ probleminin həllində məsuliyyəti dolayısı ilə münaqişə tərəflərinin öz üzərinə qoymağa cəhd göstərir. M.Coane, guya, nizamasalma prosesinin uğurla davam etdiyini, buna isə münaqişənin diplomatik yolla həllində "katalizator" rolu oynayan ATƏT və onun Minsk qrupunun yüksək vasitəçilik səylərinin nəticəsində nail olunduğunu bildirirdi. Diplomat, hətta sülh əldə olunduqdan sonra prosesi həm siyasi, həm də maliyyə baxımından dəstəkləmək üçün beynəlxalq ictimaiyyətin və beynəlxalq ehtiyatların səfərbər olunmasında köməklik göstərməyə hazır olduğunu da demişdi. Görünən reallıqlar və faktlar isə, əslində, onun ATƏT-in fəaliyyəti və sülhdən sonrakı dövrdə özünün görəcəyi işlər barədə söylədiyi fikirlərin tamamilə əsassız olduğunu göstərirdi.

Bundan bir neçə gün sonra isə Fransa prezidentinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan dövlət başçılarının Parisdə təşkil olunmuş görüşündə Dağlıq Qarabağ probleminin nizamlanması üzrə yeni məqamlar ortaya çıxdı. Belə ki, Dağlıq Qarabağ ermənilərini danışıqlarda tərəf kimi irəli çəkən Ermənistan rəhbəri, müharibədə iştirak etmədiyini deməklə məsuliyyətdən boyun qaçırmasına baxmayaraq, Qarabağdakı hərbi üstünlüklərinə eyham vurarkən işğalda bütün Ermənistanın iştirakının gizlin qalmadığı məlum oldu.

Ən çox təəssüf doğuran hal isə o idi ki, Minsk qrupu və onun həmsədrləri münaqişənin tezliklə həllinə nail olmaq üçün Ermənistana təzyiq göstərməkdənsə, Azərbaycanı öz mövqeyindən geri çəkilməyə vadar edən siyasət yürüdürdülər. Elə R.Koçaryanın Fransanın ali ordeninə layiq görülməsi də bu siyasətin tərkib hissələrindən biri idi.

Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində xüsusi əhəmiyyət kəsb edən

Florida danışıqlarından ötən az müddət sonra, yəni may ayında, yenidən münaqişə bölgəsinə səfər etmələri ATƏT-in Ki-Vestdə razılaşdırılmış təkliflərin həyata keçirilməsinə başlamaq istəyinin göstəricisi idi. İlk baxışdan belə görünürdü ki, nəhayət, problemin aradan qaldırılmasına az qalıb və bu yönümdə görülən işlər artıq özünün pik nöqtəsinə çatıb. Lakin Minsk qrupu həmsədrlərinin hər iki ölkə rəhbərlərinin iyun ayında Cenevrədə keçiriləcək növbəti görüşünü təxirə salmaq barədə qərarı düşünülənlərin əksinə oldu. Onları bu qərarı verməyə Azərbaycanda olduqları zaman ölkə vətəndaşları arasında işğal olunmuş torpaqların azad edilməsi ilə bağlı müharibə ab-havasının formalaşmasını və məhz bu səbəbdən də qarşılıqlı güzəştlərin əldə edilməsinin çox çətin olacağını düşünmələri məcbur etmişdi.

Bu vəziyyət Rusiya prezidenti V.Putinin təşəbbüsü ilə MDB dövlət başçıları şurasının Minskdə təşkil olunmuş növbəti sammiti zamanı (31 may - 1 iyun 2001) Azərbaycan və Ermənistan prezidentlərinin, sonra isə "Qafqaz dördlüyü"nün görüşündə də özünü büruzə verdi. Vətənə dönərkən Binə hava limanında jurnalistlərin suallarını cavablandıran Heydər Əliyev R.Koçaryanla son dəfə aparılmış danışıqlardan sonra Cenevrədə keçiriləcək görüşün baş tutması ehtimalının azaldığını etiraf etsə də, bunun münaqişə tərəflərinin tamamilə əks mövqedə durması ilə heç bir əlaqəsinin olmadığını bildirmişdi. Yaranmış vəziyyətə aydınlıq gətirmək üçün həmin günlərdə ABŞ səfirliyində Azərbaycan və Ermənistan jurnalistləri üçün təşkil etdiyi telekörpüdə Minsk qrupunun həmsədri K.Kavano bunun səbəbini münaqişənin həlli yollarının xalqlara düzgün formada çatdırılması üsullarının hələ də mövcud olmamasında gördüyünü demişdi.

Bütün bunlarla yanaşı, həmin dövrdə Minsk qrupunun həmsədrləri ilə Yerevanda və Bakıda danışıqların davam etdirilməsi, ABŞ prezidenti C.Buşla Rusiya Federasiyasının prezidenti V.Putinin Sloveniyada keçirilən görüşündə problemin





həllini müzakirə etmələri, habelə iyulun 1-də Sankt-Peterburqda V.Putinlə Fransa prezidenti J.Şirak arasındakı görüşdə məsələnin həlli ilə əlaqədar fikir mübadiləsinin aparılması Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üzrə cavabdehlik daşıyan ABŞ, Rusiya və Fransanın fəaliyyətlərini yenidən gücləndirmək istəklərindən xəbər verirdi.

Münaqişə bölgəsinə səfərləri zamanı Şuşa, Füzuli, Horadiz, Xankəndidə olan həmsədrlərin 3 milyon kvadrat metr ərazinin ermənilər tərəfindən minalanması faktının yaxından şahidi olmaları onlara, nəhayət ki, Dağlıq Qarabağ probleminə münasibətdə daha obyektiv olmaq üçün ciddi əsas verirdi. Çünki işğal aktları zamanı yaranmış mənzərəni daha yaxından müşahidə etmək üçün həmsədrlərin məhz döyüş əməliyyatlarının aparıldığı bölgədən keçərək Azərbaycana gəlmələri mühüm şərt idi. Həm də erməni seperatçılarının işğal etdikləri Azərbaycan ərazilərini yalnız öz nəzarətlərində saxlamaqla münaqişənin əsl xarakterini beynəlxalq ictimaiyyətdən gizlətmək cəhdlərinin qarşısını almaq baxımından həmsədrlərin bölgəyə məhz bu marşrut üzrə səfər etmələri çox böyük əhəmiyyət kəsb edirdi.

Lakin, düşünülənlərin əksinə olaraq, həmsədrlərin Ermənistan rəhbərliyi ilə İrəvanda apardıqları danışıqlardan sonra ermənilərin mövqeyində heç bir müsbət dəyişikliyin yaranmaması, əksinə, işğal etdikləri Azərbaycan torpaqlarını alver obyektinə çevirmək cəhdlərini davam etdirmələri, habelə Dağlıq Qarabağa müstəqillik statusu verilməsini və bu bölgənin anklav vəziyyətindən çıxarılmasını israrla tələb etmələri rəsmi İrəvanın problemin sülh yolu ilə həllinə tərəfdar olmasına böyük şübhə doğururdu. Məhz bu səbəbdən də, Minsk qrupunun öz səylərini müəyyən dərəcədə artırmasına baxmayaraq, beynəlxalq vasitəçilərin münaqişə bölgəsinə növbəti səfərləri, münaqişə tərəflərinin həmsədr ölkələrin dövlət başçılarının iştirakı ilə gələcəkdə keçirilməsi nəzərdə tutulan görüşlərinin artıq heç

bir mənası qalmırdı. Bununla yanaşı, sentyabrın 5-də Dağlıq Qarabağda yerli özünüidarəetmə orqanlarına yalnız ermənilərin iştirak etdiyi seçkilərin keçirilməsi isə onların öz qeyri-konstruktiv mövqelərindən geri çəkilmək niyyətində olmadıqlarından xəbər verirdi.

Ki-Vest sammitindən sonrakı dövr ərzində Minsk qrupunun problemin aradan qaldırılmasına dair hər iki tərəfin mənafeyinə uyğun heç bir həll üsulu irəli sürə bilməməsi, əvəzində isə qarşılıqlı razılaşmanın əldə olunmasını tərəflərin öz ixtiyarına buraxması onların yenidən danışıqlar stolu arxasına keçməsini şərtləndirdi. Buna baxmayaraq, erməni tərəfinin bu məsələyə yenə də həvəssiz yanaşması aydın sezilirdi. Ermənistanın bu vaxta qədər öz mövqeyində yenə də israrlı olması "Qafqaz dördlüyü"nün (V.Putin, H.Əliyev E.Şevardnadze, R.Koçaryan) 30 noyabr-1 dekabr 2001-ci il tarixdə MDB-nin 10-cu yubileyi münasibətilə Moskvada keçirilən zirvə toplantısında baş tutmuş görüşündə və Rusiya prezidentinin iştirakı ilə hər iki dövlət başçısı arasında aparılan danışıqlarda bir daha təsdiqini tapdı.

Bununla paralel olaraq, Rumıniyanın paytaxtı Buxarest şəhərində ATƏT-in üzvü olan dövlətlərin xarici işlər nazirləri tərəfindən beynəlxalq terrorizmlə əlaqədər mühüm bəyanatın qəbul edildiyi görüşdə iştirak edən Azərbaycanın xarici işlər naziri V.Quliyev çıxış etmişdi. O, ATƏT-in münaqişələrin həllinə nail olmaq, dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün toxunulmazlığını təmin etmək üçün etibarlı təsir mexanizminə malik olmadığını onun çatışmazlığı kimi qiymətləndirmiş, konkret olaraq isə Dağlıq Qarabağ münaqişəsinin həllində təşkilatın ikili standartlara və qətiyyətsizliyə yol verməsi barədə Azərbaycan rəhbərliyinin iradlarını toplantı iştirakçılarının diqqətinə çatdırmışdı.

V.Quliyev BMT BM-in 2002-ci ilin sentyabrında keçirilən 57-ci sessiyasında çıxışı zamanı diqqəti bir daha Minsk





qrupunun fəaliyyətinə yönəldərək bildirmişdi ki, «vasitəçilər təkliflər işləyib hazırlamaq əvəzinə gözləmə siyasətinə daha çox üstünlük verməklə hadisələri öz axarına buraxır və bununla da təcavüzkara passiv dəstək vermiş olurlar».

ATƏT-in baş katibi Yan Kubiş qarşıya qoyulmuş məsələlərin həllinə obyektiv mövqedən yanaşılmasma nail olmaq üçün ATƏT-lə Azərbaycan arasında hərtərəfli əməkdaşlığın yaradılmasının, ATƏT strukturlarında Azərbaycanın daha çox sayda bacarıqlı diplomat və mütəxəssislərlə təmsil olunmasının, həmçinin təşkilatın Bakı ofisinin fəaliyyətinin artırılmasınını vacib olduğunu bilirmişdi.

Bir müddət sonra Rusiyanın və xarici KİV nümayəndələrinin iştirakı ilə Moskvada İTAR-TASS Agentliyində keçirilən görüşdə Azərbaycan Parlamentinin üzvü İlham Əliyev də beynəlxalq ictimaiyyət tərəfindən Dağlıq Qarabağ münaqişəsinə yanaşmada qeri-obyektiv mövqe nümayiş etdirilməsini görüş iştirakçılarının diqqətinə çatdıraraq demişdi: "Təəssüf ki, dünyanın müxtəlif regionalarında ikili sanadartlar siyasəti mövcuddur və Azərbaycan bu problemin həlli məsələsində məhz ikili standartlar siyasətinin qurbanıdır" (241).

Həmin ildə Moskvada C.Buşla V.Putin arasındakı görüş zamanı aparılan danışıqların məzmunundan Rusiyanın rəhbər şəxslərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində əvvəllər olduğu kimi görüntü yaratmaq deyil, artıq konkret işlər görmək istədikləri hiss olunurdu. Həmin tədbirdə prezidentlərin Mərkəzi Asiya və Cənubi Qafqazda sabitliyin qorunmasına dair imzaladıqları birgə sənəddə Azərbaycan və Ermənistan prezidentlərinin sülh danışıqlarını davam etdirmələri və labüd kompromislərə hazır olmaları bildirilirdi.

2002-ci il iyunun 26-da Avropa Şurasının mətbuat mərkəzində keçirdiyi mətbuat konfransında Milli Məclisin AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri İlham Əliyev jurnalistlərin

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı suallarını cavablandırarкən bu problemin öz müsbət həllini Minsk qrupunun bütün üzvlərinin və digər ölкələrin məsələyə doğru mövqedən yanaşması ilə tapacağını demişdi: "...Bu gün biz hesab edirik və mən də bu fikirdəyəm. Rusiyada da belə hesab edirlər ki, münaqişənin nizama salınması məsələsində ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiyanın rolu həmsədrin funksiyasına uyğundur, başqa sözlə desək, obyektivdir. Əgər tərəflərdən hər biri, Minsk qrupunun həmsədrləri də, ümumiyyətlə, Avropa Birliyinin hər bir ölkəsi də bu məsələyə obyektiv yanaşsa, onda hər şey aydın olar" (241).

Qarşılıqlı Iqtisadi Əməкdaşlıq Təşкilatının 10 illiк yubileyi münasibətilə təşкilatın üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştiraкı ilə 24-26 iyun 2002-ci il tarixində кeçirilən Istanbul sammitinin gedişində Minsk qrupunun həmsədrlərinin Heydər Əliyevlə görüşü onların Dağlıq Qrabağ probleminin tezliklə həll olunması üçün daha qətiyyətli tədbirlər görəcəкlərinə inanmağa əsas verirdi.

Həmin dövrdə R.Koçaryanın Dağlıq Qarabağ məsələsinin həllinə dair yürütdüyü siyasətlə razılaşmayan qüvvələr öz fəallıqlarını müəyyən dərəcədə artırmışdılar. Ermənistan iqtidarını Qarabağ böhranını daha da dərinləşdirməкdə günahlandıran eкs-prezident L.Ter-Petrosyanın tərəfdarları onu həm də işğal olunmuş ərazilər amilindən sui-istifadə etməкlə yaratdığı "nə müharibə, nə sülh" vəziyyətindən və yürütdüyü qeyri-müəyyən siyasətdən əl çəкməyə çağırırdılar. Hətta bundan əvvəlкi hakimiyyətin dövründə xarici işlər naziri vəzifəsində çalışmış D.Şahnazaryan, L.Ter-Petrosyanın administrasiyasında işləmiş türkşünas A.Qriqoryan kimi hər şeyə real baxımdan yanaşan siyasətçilər R.Koçaryanın həyata кeçirdiyi siyasətin yalnız Türkiyə və Azərbaycanla diplomatik və iqtisadi münasibətlərin pozulmasına xidmət etdiyini deyir və bunu hətta milli xəyanət kimi dəyərləndirirdilər.





Vəziyyətin bu cür xaraкter aldığı bir vaxtda bütün diqqət Azərbaycan və Ermənistan prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə xüsusi nümayəndələri- Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov və onun erməni həmkarı Tatul Markaryanın Minsk qrupu həmsədrlərinin iştiraкı ilə 2002-ci ilin iyulunda Praqada keçirdikləri görüşlərin nəticələrinə yönəlmişdi. Laкin burada Minsk qrupunun rusiyalı həmsədri N.Qribkovun münaqişənin nizamlanmasının açarlarının prezidentlərin əlində olduğu barədə bəyanatı ilə ATƏT-in bu məsələdə yenə də yaxasını kənara çəkməк niyyətində olması və danışıqların səmərəsini Azərbaycanda və Ermənistanda keçiriləcək seçkilərin nəticələri ilə əlaqələndirməк istəyi üzə çıxdı.

Azərbaycan tərəfinin mahiyyətcə "mərhələli həll" planını özündə ehtiva edən Praqa formatını dəstəкləməsinin əкsinə olaraq Ermənistanın ilkin şərt kimi Dağlıq Qarabağın status məsələsinin müzakirəsini tələb etməsi ucbatından problemin həllinə dair aparılan danışıqlar heç bir əhəmiyyət кəsb etməyən mənasız söhbət xaraкteri almağa başladı.

Bununla yanaşı, Avropa Birliyi və BMT-nin Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən bəyanat qəbul etmələrinə və qondarma "DQR"-da keçiriləcək saxta prezident seçkilərini tanımamaq barədə xəbərdarlıqlarına baxmayaraq erməni separatçılarının avqustun 11-də bu qanunsuz aksiyanı həyata keçirmələri artıq onların əsassız olaraq qarşıya qoyduqları məqsədlərinə çatmaq üçün hətta ən mötəbər təşkilatların belə tövsiyə və ya təzyiqinə məhəl qoymadıqlarını göstərirdi. Ermənilərin bu hərəкətlərinə ATƏT tərəfindən heç bir кəsкin reaksiya verilməməsi, əкsinə, Minsk qrupu həmsədrlərinin sentyabrın sonlarında bölgəyə səfərləri zamanı A.Qukasyanı "prezident" seçilməsi münasibəti ilə təbrik etmələri və İrəvanda R.Koçaryanla danışıqlar əsnasında N.Qribkovun bu hadisəyə obyeкtiv mövqedən yanaşmaması isə onların heç də münaqişə-

nin həllinə nail olmaq niyyətindən xəbər vermirdi. Bu saxta seçкidən bir neçə gün sonra, yəni 2002-ci il avqustun 14-də, hər iкi dövlətin prezidentləri Sədərək sərhəd zonasında görüşərəк bu məsələlər ətrafında dörd saatlıq müzaкirələr apardılar. Görüş başa çatdıqdan sonra onlar müzaкirələrin faydalı və səmərəli olduğunu desələr də, əslində bu danışıqlardan heç bir müsbət nəticə hasil olmadı. Bunun səbəbi isə o idi кi, görüş zamanı R.Koçaryan da Minsk qrupu həmsədrləri ilə eyni mövqedən çıxış edirdi. Belə кi, o, danışıq əsnasında söhbətin mövzusunu məhz güzəşt məsələsinin üzərinə yönəltməyə çalışırdı.

2002-ci il sentyabr ayının son günlərində Minsk qrupu həmsədrlərinin Ermənistana və Azərbaycana səfər etmələrində əsas məqsəd hər iki ölkə başçısının Praqa danışıqlarına dair fıкrini öyrənmək, Sədərək danışıqlarını bir daha nəzərdən кeçirməк idi. Hələ Praqa danışıqları zamanı T.Markaryanın Ermənistan tərəfinin atəşkəsi pozmayacağı barədə minnət dolu vədindən sonra sanкi, nəhayət, nəyəsə nail olublarmış кimi özlərindən razı qalan həmsədrlərə və Ermənistanın müdafiə və təhlüкəsizliк naziri S.Sarкisyana Heydər Əliyev çox kəskin şəкildə müraciət etdi: "Mən hesab edirəm ki, bu, çox gözəl deyildir. İstəyirəm siz də biləsiniz, o da bilsin ki, bizə minnət qoyursa, bu, əbəsdir. İndi o dövr deyil, əgər o başlasa, özü də layiqli cavabını alacaqdır" (10, 23 sentyabr 2002-ci il).

Həmin ilin oкtyabr ayında MDB üzvü olan ölкələrin dövlət başçıları səviyyəsində Kişinyovda кeçirilən (7 oкtyabr 2002-ci ildə) növbəti zirvə görüşündə Azərbaycan diplomatiyasının ortaya qoyduğu qətiyyətli mövqedən sonra, Minsk qrupu öz fəaliyyətində müəyyən dəyişiкliкlər etməyə məcbur oldu. Burada Azərbaycan və Ermənistan prezidentlərinin iki saat davam edən təkbətək söhbəti Praqa danışıqlarının sürətləndirilməsinə təкan vermiş oldu.

Bu görüşdən təxminən bir ay sonra Heydər Əliyev Minsk qrupunun yeni təyin olunmuş fransalı həmsədri Anri Jaklanı





qəbul edərkən işlətdiyi "...mən güman edirəm ki, Minsk qrupu bundan sonra uzun müddət davam etməyəcəkdir. Biz bu məsələni həll edəcəyik və Minsk qrupu da öz fəaliyyətini son çatdıracaqdır" sözləri ilə artıq Dağlıq Qarabağ probleminin həlli zamanının yetişdiyinə işarə vururdu (10, 8 noyabr 2002-ci il).

Buna baxmayaraq, yenə də gözlənilənin əksinə olaraq, noyabrın sonlarında кeçirilən NATO Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqadaкı zirvə toplantısı, 2003-cü il yanvarın 28-29-da MDB üzvü olan ölkələrin dövlət başçılarının Kiyevdə baş tutmuş sammitinin gedişində Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan prezidentlərinin Qafqazda sabitlik və təhlükəsizlik məsələlərinə dair apardıqları danışıqlar,sammit çərçivəsində Minsk qrupu həmsədrlərinin Heydər Əliyev və R.Koçaryanla problemin həllinə dair apardıqları müzaкirələr heç də əsaslı bir кeyfiyyəti ilə fərqlənmədi. Bütün bunların yalnız fəaliyyət görüntüsü yaratmaq cəhdi olduğu üzə çıxdı (409). Məhz bu səbəbdən də Heydər Əliyev sonralar iştiraк etdiyi bütün rəsmi və qeyri-rəsmi tədbirlərdə beynəlxalq təşkilatların, xüsusilə də ATƏT-in fəaliyyətini yararsız adlandırmışdır (126).

2003-cü ilin sentyabrında Fransa senatının Qafqaz üzrə dostluq qrupunun sədri A.Düpon Azərbaycana dörd günlüк səfərə gəldi. Milli Məclisdəкi görüşdə parlament sədri Minsk qrupunu Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında son zamanlar passiv fəaliyyət göstərdiyinə görə tənqid etdi. Tənqidə cavab olaraq Düpon bildirdi кi, artıq həmsədrlər problemin həllinə dair yeni təkliflər hazırlamışlar, lakin bu təkliflər Azərbaycanda кeçiriləcəк prezident seçkilərindən sonra açıqlanacaq. Buradan belə nəticə çıxırdı кi, Minsk qrupunun həmsədrləri prezident seçkilərinin nəticələrinin Dağlıq Qarabağ probleminin ATƏT çərçivəsində həllinə birbaşa təsir göstərə biləcəyini düşünürmüşlər (52). Yəni, bununla da onlar həm seçкidən sonra Azərbaycanda yaranacaq yeni ictimai-

siyasi vəziyyətdən istifadə edərək gərginlikdən yaxa qurtara və həm də münaqişənin həllini qeyri-müəyyən vaxtadək uzatmaq şansı qazana bilərdilər.

Azərbaycan Respublikasının baş naziri İlham Əliyev «Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin «mövcud reallıq» əsasında həll variantı ilə heç zaman razılaşmayacaq və torpağının bir qarışını belə heç kimə verməyəcəkdir» bəyanatı münaqişənin həllinə obyektiv yanaşmağın vacibliyini ortaya qoydu (20).

2003-cü il sentyabrın 8-də isə İstanbulda işgüzar səfərdə olan İlham Əliyev türkiyəli həmkarı R.T.Ərdoğan tərəfindən təşkil olunmuş rəsmi qəbul zamanı Ermənistan-Azərbyacan münaqişəsinə toxunmuş, bu problemin sülh yolu ilə aradan qaldırılması imkanlarının hələ tükənmədiyinə inandığını demişdi: "Mən əminəm ki, bu məsələ ilə məşğul olan dövlətlər, ATƏT-in Minsk qrupunun həmsədrləri – Rusiya, ABŞ, Fransa bundan sonra öz fəaliyyətlərini daha da gücləndirəcək və bizə ədalətli təkliflər təqdim edəcəklər" (11).

İlham Əliyevin 2003-cü il prezident seçkilərindən sonra dövlət başçısı qismində iştirak etdiyi bütün rəsmi tədbirlərdə Dağlıq Qarabağ probleminin aradan qaldırılması üçün alternativ həll variantlarının hələ də tükənməməsi barədə bir neçə dəfə səsləndirdiyi xəbərdarlıq xarakterli bəyanatları Minsk qrupunu öz fəaliyyət istiqamətlərini dəqiqləşdirməyə, iş tempini artırmağa və üzərinə götürdüyü öhdəliyi gecikmədən yerinə yetirməyə məcbur etdi (11; 241).

Dekabrın 2-də ATƏT-in üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının Niderlandın Maastrixt şəhərində təşkil olunmuş növbəti sammitində Minsk qrupu həmsədrləri Ermənistan-Azərbayean, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yeni təkliflər irəli sürdülər. Ancaq, müzakirələr zamanı Ermənistan nümayəndəsi bu təkliflərin bir çoxu ilə razılaşmadı və yenə də heç bir müsbət nəticə əldə olunmadı.





Bundan bir neçə gün sonra, yəni dekabrın 5-də, Bakıya gəlmiş Minsk qrupu həmsədrləri "Hyatt-Park" otelində keçirdikləri mətbuat konfransında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair hər hansı yeni təklifin olmadığı və tərəflərin öz aralarında əvvəlcədən razılaşdırmadıqları məsələlərin müzakirə olunmasının heç bir əhəmiyyət daşımadığını bildirdilər.

Minsk qrupu həmsədrlərinin bu səfəri zamanı iki vacib məqam diqqəti cəlb etdi. Birinci, Prezident İlham Əliyevin tənqidlərinə Minsk qrupu həmsədrlərinin fərqli reaksiya vermələri idi. Belə ki, münaqişənin müharibə yolu ilə həllinə üstünlük veriləcəyi təqdirdə Azərbaycanın özünün bir sıra çətinliklərlə qarşılaşa biləcəyini deyən Rusiya Federasiyası XİN-nin birinci müavini V.Trubnikov problemin danışıqlar yolu ilə aradan qaldırılmasında vasitəçilik vəzifəsini öz üzərinə götürmüş Minsk qrupunun 2001-ci ildən bəri səmərəsiz fəaliyyətini hansısa obyektiv səbəblərlə bağlamaqla ona haqq qazandırmağa çalışdı. İkinci, onun əksinə olaraq, ABŞ-ın Minsk qrupundakı həmsədri R.Perina məcburi köçkünlərlə görüşdüyünü, onların həyat tərzi ilə yaxından tanış olduğunu və bundan çox böyük təəssüf hissi keçirdiyini deyərək Azərbaycan prezidentinin onların ünvanına söylədiyi tənqidlərlə razılaşdığını bildirdi: "Mən demək istəyirəm ki, bizim təmsil etdiyimz ölkələr və beynəlxalq ictimaiyyət bu münaqişənin davam etməsi ilə əlaqədar heç bir iş görə bilmədiyimizə görə xəcalət hissləri keçirir".

2004-cü ildə ATƏT-ə yeni sədr təyin olunmuş Stiven Mən öz vəzifəsinin icrasına başladığı ilk günlərdən Praqada keçirilən danışıqlarda yaxından iştirak etdi. Sonra o, Ermənistana səfər edərək R.Koçaryanla, daha sonra Azərbaycana gələrək İlham Əliyevlə görüşdü. Səfərinin yekununda isə Azərbaycan Respublikasının müdafiə naziri S.Əbiyevlə görüşərək Dağlıq Qarabağ problemi ilə bağlı fikir mübadiləsi apardı.

Danışıqlar prosesinin gücləndirilməsi baxımından Azərbaycan rəhbərliyi də öz fəaliyyətini artırmağa başladı. Azərbaycan xarici işlə naziri E.Məmmədyarovla onun ermənistanlı həmkarı V.Oskanyan münaqişənin həllinə dair müzakirələr aparmaq üçün 2004-cü il aprelin 16-da Praqada görüşdülər. Müzakirələrin sonunda nazirlər tərəfindən verilən birgə bəyanatda deyilirdi: «Minsk qrupu həmsədrləri tərəfindən təşkil olunmuş bu görüş tərəflərə irəliyə gedən mümkün yollar barədə fikir mübadiləsi aparmağa imkan yaratmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində qarşılıqlı şəkildə maraqlı olduqlarını yenidən bəyan etmiş və bu faydalı dialoqun davam etdirilməsi üzrə razılıqlarını bildirmişlər» (10, 20 aprel 2004-cü il). Nazirlərin bəyanatında səslənən bu fikirlərdən belə anlaşılırdı ki, onlar münaqişənin həllinə nail olunması üçün artıq real imkanların yarandığı qənaətindədirlər və qarşıda duran əsas məsələ bəzi detallar üzrə razılığın əldə olunmasdır (510).

Polşanın paytaxtı Varşavada keçirilən Dünya (Davos) Iqtisadi Sammitində iştirak edən Azərbaycan və Ermənistan prezidentləri yaranmış imkandan istifadə edərək aprelin 28-də, əvvəlcə Minsk qrupu həmsədrlərinin iştirakı ilə, sonra isə təkbətək görüşərək Praqa danışıqları ətrafında bir daha öz fikirlərini bölüşdülər. Azərbaycan Respublikasının Prezidenti müzakirələrin nəticələri barədə KIV-ə verdiyi açıqlamada son danışıqların qarşılıqlı anlaşma şəraitində keçirildiyini söyləyərək məsələnin həllini hər iki tərəfin arzuladığını diqqətə çatdırdı. Koçaryan isə bu danışıqlardan, ümumiyyətlə, müsbət bir nəticə gözləmədiyini lakin «müzakirələrin xarakterinin və ab-havasının əlverişli olması»nı bildirdi (10, 29 aprel 2004-cü il).

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə iyunun 21-də Praqada keçirilən növbəti görüşündən sonra bir daha aydın oldu ki, Dağlıq Qarabağ probleminin nizamlanması ilə bağlı Ermənis-





tana beynəlxalq təşkilatlar tərəfindən güclü təzyiqlər göstərilməyəcəyi təqdirdə onu tutduğu qeyri-konstruktiv mövqedən əl çəkilməyə məcbur etmək mümkün olmayacaq (138).

Sentyabrın 16-da MDB üzvü olan ölkələrin dövlət başçılarının iştirakı ilə keçirilən Astana toplantısında iştirak edən ölkə başçıları Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair bir sıra müzakirələr apardılar. Əvvəlcə Azərbaycan və Ermənistan prezidentləri arasında təkbətək görüş oldu. Sonra prezidentlər müzakirələri Rusiya prezidenti V.Putinin, bunun ardınca isə Minsk qrupu həmsədrlərinin iştirakı ilə davam etdirdilər. Müzakirələr zamanı hələlik heç bir uğurlu nəticə əldə olunmamasına və danışıqların əsas mövzusu barədə ictimaiyyətə heç bir açıqlama verilməməsinə baxmayaraq bu danışıqlarda əsasən Praqa görüşlərində razılaşdırılan məsələlərin müzakirə obyektinə çevrilməsi Azərbaycan tərəfinin istəyinə tam uyğun idi. Bundan bir neçə gün sonra ATƏT-in fəaliyyətdə olan sədrinin Azərbaycan və Ermənistan üzrə xüsusi nümayəndəsi Filipp Dimitrov hər iki ölkəyə səfər edərək həmin məsələlər ətrafında tərəflərlə geniş müzakirələr apardı.

Güman olunur ki, məhz bu fakt bir neçə aydır danışıqlardan boyun qaçıran Ermənistan rəhbərliyini məcbur etmişdi ki, Praqa görüşündə müzakirəyə çıxarılmış məsələlərə bir daha baxmaq üçün noyabrın 19-da Berlində (376), dekabrın 9-da isə Minsk qrupu həmsədrlərinin iştirakı ilə Brüsseldə keçirilən görüşlərdə iştirak etsin.

Ilham Əliyev 2005-ci il yanvarın 3-də BMT TŞ-nin iclasında Dağlıq Qarabağ münaqişəsinin həlli baxımından görülən işlərin daha uyğun istiqamətə yönəldilməsinə nail olunduğunu və münaqişənin Praqa danışıqları çərçivəsində həlli üçün «yeni mərhələlərin» başlandığını iclas iştirakçılarının diqqətinə çatdırmışdı (125, 4 yanvar 2005-ci il).

Yeni ilin ilk günlərində münaqişə bölgəsindəki vəziyyətlə yaxından tanış olmaq üçün, Minsk qrupunun həmsədrləri ilə

yanaşı, Almaniya, Italiya, Isveçrə və Finlandiyadan olan ekspert, siyasətçi və diplomatlar da bura səfər etdilər. Səfərin başlıca məqsədi Ermənistan rəhbərliyinin işğal edilmiş Azərbaycan ərazilərinə erməni əsilli əhalini köçürməklə demoqrafik tarazlığı öz xeyirlərinə dəyişdirmək və bununla da burada təkmillətli bir ərazi yaratmaq niyyəti ilə bağlı faktları araşdırmaq idi. Bütün bunlar isə münaqişənin nizamlanması istiqamətində bir sıra Avropa dövlətlərinin də öz dəstəklərini təklif etməsi qənaətini yaradırdı.

2005-ci il yanvarın 11- də Strasburqda AŞ PA-nın Siyasi Komitəsində qurumun Dağlıq Qarabağ üzrə məruzəçisi D.Atkinsonun hesabatı dinlənildi. Hesabatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin real nəticələrinin konkret faktlarla və tam obyektivliyi ilə öz əksini tapması, bununla da bir daha Ermənistanın işğalçı dövlət kimi tanınması onu deməyə əsas verirdi ki, nəhayət, beynəlxalq təşkilatlar və bəzi dövlətlər də ölkələr arasında iqtisadi əlaqələrin və başqa istiqamətlərdə münasibətlərin inkişafı yolunda manecəyə çevrilmiş Dağlıq Qarabağ probleminin birdəfəlik ədalətli şəkildə aradan qaldırılmasında ATƏT-ə və onun Minsk qrupuna yardım etmək niyyətindədirlər (398; 418). Bu baxımdan siyasi ekspertlər 2005-ci ildə bu və bir çox digər problemlərin öz ədalətli həllini tapacağını düşünürdülər.

Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan Respublikalarının xarici işlər nazirlərinin və prezidentlərin münaqişə üzrə xüsusi nümayəndələrinin ardıcıl surətdə apardıqları danışıqlar, eləcə də dövlət başçıları səviyyəsində keçirilən Varşava görüşündə problemin «mərhələli həll» formatında müzakirə edilməsi, nəhayət, Praqa danışıqlarından uğurlu nəticələr əldə ediləcəyinə inam yaradırdı. ABŞ-ın dövlət katibi Kolin Pauell E.Məmmədyarova göndərdiyi məktubda öz dövlətinin bu məsələyə münasibətini belə açıqlayırdı: «Birləşmiş Ştatlar münaqişənin sülh yolu ilə həllinə sadiqdir və bu





məqsədlə ATƏT-in Minsk qrupu çərçivəsində və daha geniş diplomatik səviyyədə fəal işimizi davam etdirəcəyik» (398). Amerikalı siyasətçi Praqa prosesində əldə edilən irəliləyişlərin «ümidverici və səmərəli» olduğunu söyləyirdi (10, 18 yanvar 2005-ci il). Xatırladaq ki, Rusiya Federasiyası XIN Mətbuat və Informasiya Departamentinin bu proseslə bağlı verdiyi məlumatda diqqəti əvvəlkilərdən fərqli olaraq daha konkret məqamlara yönəldirdi: «Azərbaycan və Ermənistan təmsilçiləri beynəlxalq ***egida*** altında keçən məsləhətləşmələr zamanı Qarabağ münaşiqəsi ilə bağlı yaranmış vəziyyətin bütün aspektlərini nəzərdən keçirir. Onların sırasında qoşunların çıxarılması, ərazilərin silahsızlaşdırılması, beynəlxalq təminat, Dağlıq Qarabağın statusu və digər məsələlər var... Hər iki tərəf... Cənubi Qafqaz regionunda gərginliyin azaldılması istiqamətində səylər göstərməkdə maraqlı olduğunu nümayiş etdirir» (125, 16 yanvar 2005-ci il; 410).

Məhz Ilham Əliyevin yürütdüyü düzgün diplomatik siyasətin nəticəsi idi ki, Ermənistan münaqişənin Praqa prosesi, yəni «mərhələli həll» modeli ilə razılaşmaq məcburiyyətində qalmışdı. Ilham Əliyevin kəskin şəkildə ifadə etdiyi «Azərbaycan torpaqları danışıqların mövzusu ola bilməz» fikri hər bir Azərbaycan vətəndaşında Dağlıq Qarabağ probleminin öz müsbət həllini tapacağı barədə inamı gücləndirdi.

*Ilham Əliyev siyasətinin nəticəsi idi ki, Minsk qrupunun* son dövrlərdəki fəaliyyəti 2007-ci il Madrid danışıqları və 2008-ci ilin noyabrında Moskva bəyannaməsi ilə yeni vüsət aldı.

2008-ci il noyabrın 2-də Moskva bəyannaməsinin baza prinsiplərini özündə ehtiva edən sənəd qəbul edildi. Bu sənəd Madriddə müəyyənləşdirilmiş prinsiplər əsasında Moskvada təsdiq olundu. Burada ərazi bütövlüyü və işğal faktı öz əksini tapırdı. Moskva bəyannaməsi sülh sazişi üçün müsbət bir addım olaraq böyük əhəmiyyətə malikdir. Ancaq nəzərə almaq

lazımdır ki, bu sənədin əhəmiyyəti prinsiplərin həyata keçirilmə prosesində özünü göstərəcəkdir.

Beləliklə, mövcud reallıqlar göstərir ki, Azərbaycan hökumətinin böyük qətiyyətlə həyata keçirdiyi xarici siyasət kursu xalqımızın milli maraqlarına tam cavab verir, Respublikamızın beynəlxalq aləmdə daha da tanınmasına, sülh, əməkdaşlıq və tərəqqi mərkəzinə çevrilməsinə xidmət edir. Azərbaycanın malik olduğu iqtisadi potensial, ölkə rəhbərliyi tərəfindən həyata keçirilən kompleks islahatlar kursunun respublikamızın milli maraq və mənafelərini daha etibarlı səviyyədə təmin etməsi, bir sözlə, Azərbaycanın sürətli inkişaf yolunda olması Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində uğurlu nəticə əldə etməyə böyük inam yaradır (437; 472).

Ermənistan faktiki olaraq başqa dövlətin ərazisini «hərbi işğal obyektinə çevirməmək» haqqında ATƏT-in prinsiplərini kobud şəkildə pozmuş, ATƏT-in bəyan etdiyi «Avropa dövlətlərinin sərhədləri pozulmaz sərhədlərdir», sərhədlər yalnız «dinc yolla və razılığa gəlmək əsasında dəyişdirilə bilər», «bu sərhədlərə heç bir şəkildə qəsd» edilməməlidir prinsiplərinə zidd çıxmışdır. ATƏT-in bir üzvü – Ermənistan Respublikası ATƏT-in digər bir üzvünün – Azərbaycan Respublikasının sərhədlərini pozmuş, ərazisini hərbi yolla zəbt etmiş, bununla da ATƏT-in tələblərini aşkar şəkildə pozmuşdur. Ermənistan ATƏT-in bəyan etdiyi xalqlar öz «statusunu kənardan müdaxilə olmadan» müəyyənləşdirməlidir prinsipinə məhəl qoymadan xarici mürtəce qüvvələrin köməkliyi ilə Azərbaycan Respublikasının ərazilərini işğal etmiş və işğal altında saxlayır. Bu və digər səbəblərdən ATƏT-in uzun müddətdir ki, göstərdiyi cəhdlər hələ də lazimi nəticə verməmiş, Dağlıq Qarabağ problemi birdəfəlik həllini tapmamışdır.





## 4.3. Avropa Şurası, Avropa Birliyi və İslam Konfransı Təşkilatı

Uzun illərdən sonra öz dövlət müstəqilliyini bərpa etmiş və eyni zamanda Ermənistan tərəfindən ədalətsiz müharibəyə cəlb edilmiş Azərbaycan Respublikası 1992-ci ilin yanvarında ona «xüsusi dəvət olunmuş qonaq» statusu verilməsi üçün **Avropa Şurasına** (AŞ) rəsmi müraciət etdi. Müraciətin edilməsində əsas məqsəd AŞ kimi mötəbər bir təşkilatın bərabərhüquqlu üzvü olmaqla yanaşı, Avropa ölkələri ilə siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi idi. Gözlənildiyi kimi, AŞ ilə əlaqələrin yaradılmasına nail olunduqdan dərhal sonra bu təşkilat Azərbaycanda baş verən hadisələrə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinə münasibətini bildirdi.

1992-ci il fevralın 5-də AŞ Parlament Assambleyasının (PA) Üzvü Olmayan Avropa Ölkələri ilə Əlaqələr Komitəsi Dağlıq Qarabağ münaqişəsinə dair ilk bəyanatını açıqladı. Bəyanatda deyilirdi: «Komitə Dağlıq Qarabağda vəziyyətin pisləşməsi ilə əlaqədar atəşin dayandırılması məqsədilə Ermənistan və Azərbaycan tərəfinə müraciət edərək hər iki maraqlı tərəfi münaqişənin sülh yolu ilə həll edilməsinə çağırır» (476).

Bəyanatda həmçinin BMT TŞ-dən Ermənistanın tələbi ilə Dağlıq Qarabağa BMT qüvvələrinin gətirilməsi xahiş olunurdu. Azərbaycanın mənafeyinə zidd olan bu kimi fikirlərin bəyanatda öz əksini tapması AŞ-nin də mövqeyinin obyektivlikdən uzaq olması barədə təəssürat yaradırdı. Lakin təşkilatın bundan sonra qəbul etdiyi sənədlərdə hər iki tərəfin maraqlarını nəzərə alması, onun öz mövqeyini daha düzgün istiqamətə yönəltməyə başladığını göstərdi. Bu mənada 1992-ci il martın 12-də AŞ Nazirlər Komitəsinin qəbul etdiyi bəyanatda bitərəf mövqedən çıxış etməsi mühüm əhəmiyyət kəsb edirdi. Bəyanatda deyilirdi: «Komitə Dağlıq Qarabağ hadisələri ilə

əlaqədar dərin təşviş hissi keçirdiyini bildirir və Azərbaycanın Dağlıq Qarabağ vilayətinin dinc əhalisi barədə zorakılığı pisləyir» (61, 34). Bəyanatda həmçinin Dağlıq Qarabağ münaqişəsinin güc müstəvisində həllinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməməsi və bütün sərhədlərin toxunulmazlığı prinsiplərinə riayət edilməsinin vacib olduğu göstərilir, eyni zamanda, sərhədlərin dəyişdirilməsinin yalnız dinc yolla və qarşılıqlı razılıq əsasında həyata keçirilə biləcəyi qeyd olunurdu.

Qarabağda hərbi əməliyyatların getdikcə daha da genişlənməsindən narahatçılıq hissi keçirən AŞ Nazirlər Komitəsi 1993-cü il aprelin 16-da bəyanat qəbul etdi. Bəyanatda deyilirdi: «Nazirlər Komitəsi BMT Təhlükəsizlik Şurası sədrinin bütün döyüş əməliyyatlarını dərhal dayandırmaq çağırışına tərəfdar çıxır, bu regionda sülh və təhlükəsizlik üçün təhlükə yaradan qüvvələrin aradan qaldırılmasını tələb edir». Bəyanatda qeyri-obyektivliyə də yol verilirdi. Belə ki, burada Azərbaycanın Kəlbəcər rayonunun işğalından yox, yalnız bölgədə döyüş əməliyyatlarının güclənməsindən narahatlıq hissinin keçirildiyi qeyd olunurdu. Bununla yanaşı, sənəddə regionda sülh üçün təhlükə yaradan silahlı qüvvələrin həmin ərazidən çıxarılması tələbində ümumi sözlərlə kifayətlənilirdi. Yəni, bu qüvvələrin konkret olaraq kimə aid olması və tərkibi göstərilmir, o cümlədən təcavüz aktlarının məhz kim tərəfindən həyata keçirilməsi dəqiqliyi ilə öz əksini tapmır, Ermənistanın adı isə bu məsələdə ümumiyyətlə heç bir formada qeyd olunmurdu (61).

Bütün bunlar azmış kimi, 1994-cü il yanvarın 24-28-də Strasburqda AŞ-yə Üzv Olmayan Ölkələrlə Əlaqələr Komitəsinin təşəbbüsü ilə Ermənistan-Azərbaycan münaqişəsinə dair keçirilən görüşə dəvət olunan Dağlıq Qarabağın erməni icmasının nümayəndələri həmin görüşdə münaqişə tərəfi qismində iştirak edirdilər. Buna etiraz edən Azərbaycan tərəfi, o cümlədən Dağlıq Qarabağın azərbaycanlı əhalisinin nümayəndələri bu görüşdə iştirakdan imtina etdilər (233).





1994-cü il iyulun 4-dən 11-dək Strasburqda AŞ PA ilə əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə keçirilən görüşdə iştirak edən Azərbaycan nümayəndə heyəti Dağlıq Qarabağ problemi ilə bağlı bir sıra danışıqlar apardı. Danışıqlar zamanı Azərbaycan nümayəndə heyəti Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürdüyünü və həmin əraziləri işğal etdiyini, ermənilərin həyata keçirdiyi hərbi təcavüz aktlarının bölgədə vəziyyəti həddindən artıq ağırlaşdırdığını, habelə bu münaqişədə Azərbaycanın hansı mövqedən iştirak etdiyini iştirakçıların diqqətinə çatdırdı.

Həmin ilin noyabr ayının 14-dən 17-dək Azərbaycanda səfərdə olan AŞ PA-nın Təşkilata Üzv Olmayan Avropa Ölkələri ilə Əlaqələr Komitəsinin sədri Devid Atkinsonun başçılıq etdiyi nümayəndə heyətinin üzvləri burada keçirdiyi görüşlərdə təşkilatla Azərbaycan arasındakı münasibətlərin hazırkı vəziyyəti və birgə əməkdaşlığın gələcəkdə də davam etdirilməsi, habelə Ermənistan tərəfindən aparılan təcavüzkarlıq hərəkətlərinin qarşısının alınması məsələləri ətrafında fikir mübadilələri aparıldı. Halbuki, səfər ərəfəsində, yəni noyabrın 10-da, AŞ PA-nın qəbul etdiyi «Dağlıq Qarabağda münaqişəyə dair» adlı 1047 saylı qətnamənin bir sıra bəndlərində Azərbaycanın mənafeyinə zidd olan fikirlər yer almışdı: Birinci, qətnamədə münaqişə obyekti kimi təkcə Dağlıq Qarabağın adı çəkilirdi. Hərçənd, hərbi əməliyyatlar artıq çoxdan Dağlıq Qarabağın hüdudlarını aşmış və bu, Azərbaycanın yeddi rayonunun ermənilər tərəfindən işğal edilməsi ilə nəticələnmişdi. İkinci, qətnamədə 1988-ci ildən başlayan bu münaqişədə 20.000 adamın həlak olması və bir milyona qədər qaçqın ordusunun yaranması bildirilsə də göstərilən faktların məhz Azərbaycan tərəfinə aidliyi qeyd olunmamışdı. Üçüncü, sənəddə Assambleyanın münaqişədə iştirak edən tərəfləri qaçqınların öz torpaqlarına qayıtması üçün şərait yaratmağa çağırması tamamilə anlaşılmaz idi. Çünki, təşkilat məhz Azərbaycan torpaqlarının Ermənistan silahlı

qüvvələri tərəfindən işğal edildiyini bilirdi və bu çağırış da elə Ermənistan tərəfinə aid olmalı idi.

Ümumilikdə götürsək, bu qətnamədə Azərbaycan ərazilərinin işğalının hansı qüvvələr tərəfindən həyata keçirilməsi, münaqişə nəticəsində zərərin kimə dəyməsi dəqiqliyi ilə göstərilmir, bir sözlə, Ermənistanın Azərbaycana qarşı təcavüzü faktı konkret olaraq açıqlanmırdı (7).

1996-cı il iyunun 24-dən 28-dək aparılan müzakirələrdən sonra Azərbaycan Respublikasına AŞ-yə «xüsusi dəvət olunmuş qonaq» statusu verilməsi qərara alındı. AŞ PA bir müddət sonra, yəni 1997-ci il aprelin 22-də «Cənubi Qafqazda münaqişələrə dair» adlı 1119 saylı qətnamə qəbul etdi. Təşkilat qətnamənin Dağlıq Qarabağ münaqişəsindən bəhs edən bölməsində tərəfləri münaqişənin siyasi yolla nizama salınmasına nail olmağa, bunun sayəsində işğal olunmuş ərazilərin azad edilməsinə, qaçqın və köçkünlərin öz yaşayış yerlərinə geri qayıtmaları üçün şərait yaradılmasına çağırırdı. Qətnamədə o da qeyd olunurdu ki, Dağlıq Qarabağa qənaətbəxş hesab edilən alternativ statusun verilməsini razılaşdırmaq, habelə təhlükəsizliyin tam təmin edilməsinə nail olmaq üçün münaqişənin bütün tərəfləri birbaşa danışıqlara cəlb olunmalıdırlar. Azərbaycan tərəfi isə yalnız bir halda – ermənilərin işğal etdikləri Azərbaycan ərazilərindən geri çəkiləcəyi təqdirdə Dağlıq Qarabağ ermənilərilə birbaşa danışıqlara başlamağın mümkünlüyünü önə çəkirdi.

AŞ-nin qəbul etdiyi bütün sənədləri ümumilikdə nəzərdən keçirdikdə onların hamısında bir sıra çatışmazlıqların olduğunu və bu sənədlərdə irəli sürülən təkliflərin Azərbaycanın mənafeyi ilə tamamilə ziddiyyət təşkil etdiyini görmək mümkün idi (518).

Azərbaycan Respublikasının yaxından əməkdaşlıq etdiyi ən mötəbər beynəlxalq təşkilatlardan biri də **Avropa Birliyidir**





(AB). Azərbaycanın bu təşkilatla əlaqələri 1993-cü il fevralın 27-dən başlanmışdır (300).

AB Dağlıq Qarabağ problemine dair özünün ilk rəsmi mövqeyini 1993-cü il aprelin 7-də qəbul etdiyi bəyanatla bildirdi. Bəyanatda deyilirdi: «Birlik və onun üzvü olan ölkələr Ermənistan və Azərbaycan Respublikaları arasında Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar münasibətlərin pisləşməsindən ciddi təşviş keçirir, Kəlbəcər və Füzuli rayonlarında döyüş əməliyyatlarının genişlənməsindən təəssüflənirlər» (62, 34). Lakin bu bəyanatın məzmunu obyektivlikdən çox uzaq idi. Belə ki, sənəddə münasibətlərin pisləşməsi vurğulansa da, bunun dəqiq səbəbləri göstərilmir, Ermənistanın Azərbaycana qarşı təcavüzü faktı hər hansı bir formada öz əksini tapmırdı. Bununla yanaşı, Birlik üzvləri Kəlbəcər və Füzuli rayonlarında döyüş əməliyyatlarının genişlənməsindən təəssüfləndiklərini bildirərkən bəyanatın qəbul edilməsindən cəmi bir neçə gün əvvəl Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə işğal edilməsindən guya xəbərsiz idilər. Buna baxmayaraq AB Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqları Minsk qrupu çərçivəsində davam etdirməyə çağırırdı.

AB 1993-cü il sentyabrın 3-də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair növbəti bəyanatını açıqladı. Bəyanatda AB-yə üzv olan dövlətlər Dağlıq Qarabağın yerli erməni qüvvələrinin təcavüzkar hərəkətlərini pisləyir, BMT TŞ-nin 822 və 853 saylı qətnamələrinin yerinə yetiriləcəyinə inandıqlarını, bölgədə dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipini təsdiqlədiklərini, atəşin müvəqqəti dayandırılmasından sonra onun davamlılığına nail olmaq üçün Minsk qrupunun göstərdiyi səylərə tamamilə tərəfdar çıxdıqlarını bildirirdilər.

AB-nin bu bəyanatında da müəyyən qeyri-obyektivliyə yol verilmişdir: Birinci, bu sənəddə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar aktların «Dağlıq Qarabağın

yerli erməni qüvvələrinin hücumu» kimi göstərilməsi kökündən səhv idi və eynilə BMT TŞ tərəfindən qəbul edilmiş məlum qətnamələrdə səslənən yanlış fikirlərlə üst-üstə düşürdü. İkinci, AB və ona üzv olan dövlətlər Ermənistan Respublikasını bu münaqişədə neytral tərəf kimi götürür, onu yalnız öz həlledici təsir qüvvəsindən istifadə etməklə Dağlıq Qarabağ ermənilərini BMT TŞ-nin 822 və 853 saylı qətnamələrini və Minsk qrupunun təkliflərini yerinə yetirməyə məcbur etməyə çağırırdılar. Belə aydın olurdu ki, Birlik üzvləri bununla Dağlıq Qarabağ ermənilərini münaqişə tərəfi kimi götürür və Ermənistanın rolunu inkar edirlər.

Bundan qısa bir müddət sonra, yəni 1993-cü il noyabrın 9-da, AB-nin Dağlıq Qarabağa dair verdiyi bəyanat da əvvəlkilərdən heç bir müsbət cəhəti ilə fərqlənmirdi: «Avropa Birliyi ATƏM-in prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə əhəmiyyət verdiyini təsdiqləyir və Dağlıq Qarabağ münaqişəsini siyasi vasitələrlə aradan qaldırmaq məqsədilə ATƏM-in Minsk qrupunun göstərdiyi səyləri müdafiə edir».

Beləliklə, AB-nin qəbul etdiyi heç bir sənəddə münaqişənin kökləri, yaranma səbəbləri açıqlanmır, əsl təcavüzkarın, yəni Ermənistanın adı isə bu münaqişədə yalnız neytral tərəf kimi çəkilərək həyata keçirdiyi təcavüzkar siyasət ört-basdır edilirdi.

Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti öz öbyektiv qiymətini yalnız **Islam Konfransı Təşkilatı** (İKT) tərəfindən almışdır (476).

Azərbaycan Respublikası bütün müsəlman dövlətlərinin əsas dayaq yeri olan bu təşkilata 1991-ci il dekabrın 8-də üzvlüyə qəbul edilmişdir. O vaxtdan etibarən, İKT-nin, demək olar ki, müntəzəm olaraq keçirilən bütün konfranslarında Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar hərəkətlərinə ciddi şəkildə münasibət bildirilmişdir.





İKT Xarici İşlər Nazirlərinin 1992-ci ilin iyun ayında İstanbulda keçirilmiş V fövqəladə konfransında iştirakçı dövlətlər tərəfindən Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə son hücumları və nəticədə Azərbaycan torpaqlarının işğal edilməsi faktı qətiyyətlə pislənildi, BMT Baş Katibindən və TŞ-nin sədrindən həmin qüvvələrin işğal etdikləri Azərbaycan torpaqlarından tamamilə çıxarılmasına dair qətnamə qəbul edilməsi xahiş olundu.

İKT-nin BMT yanındakı qrupu 1993-cü il mart ayının sonunda Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Kəlbəcər rayonunun işğal edilməsi ilə əlaqədar BMT TŞ-nin diqqətini bu fakta yönəltmək, Ermənistanın işğalçı dövlət kimi tanınmasına və bunu təsdiq edən qətnamənin qəbul edilməsinə nail olmaq üçün çox böyük səy göstərdi. Nəticədə BMT TŞ 1993-cü il aprelin 6-da Kəlbəcərin işğalı ilə bağlı bəyanat qəbul etdi. Bunun ardınca İKT-nin BMT yanındakı qrupu da bu məsələyə öz münasibətini bildirən bəyanatını açıqladı. Bəyanatda deyilirdi: «İKT üzvləri Ermənistanın Kəlbəcərə hücumu ilə bağlı törətdiyi təcavüzü pisləyərək BMT Baş Katibinin Təhlükəsizlik Şurasında məruzəsi dinlənildikdən sonra təcavüzkarın cilovlanması üçün tədbirlər görməyə çağırırlar» (62).

İKT tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair daha bir qətnamə təşkilatın xarici işlər nazirlərinin aprel ayının 25-29-da Pakistan İslam Respublikasının Karaçi şəhərində keçirilmiş XXI konfransında qəbul edildi.

Əvvəlki qətnamələrdə olduğu kimi, bu qətnamədə də İKT-nin Ermənistanla Azərbaycan arasında davam edən münaqişənin daha da kəskin xarakter almasından narahatçılıq hissi keçirdiyi bildirilir, Ermənistan hərbi birləşmələrinin Azərbaycan torpaqları istiqamətində həyata keçirdiyi son hücum əməliyyatları və bu torpaqları işğal etməsi qətiyyətlə pislənilirdi.

Digər təşkilatlardan fərqli olaraq İKT-nin qəbul etdiyi qətnamələr özünün obyektivliyi ilə seçilirdi. Əvvələ, Ermənis-

tan dövləti bu münaqişədə tərəf кimi tanınır, onun Azərbaycana qarşı yürütdüyü təcavüzкar siyasəti ilк dəfə olaraq beynəlxalq səviyyədə pislənilirdi. Iкinci, ondan ciddi surətdə öz silahlı qüvvələrini işğal etdiyi Azərbaycan ərazilərindən təcili çıxarmaq, eləcə də Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət etməк tələb edilirdi. Üçüncü, bu qətnamədə Dağlıq Qarabağ probleminin dövlətlərin ərazi bütövlüyünə və beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilmiş sərhədlərin dəyişdirilməsi barədə prinsiplərə hörmət edilməкlə ədalət və sülh yolu ilə həll olunması öz əкsini tapırdı. Dördüncü, IKT Azərbaycan hökumətinin və xalqının öz ölкəsinin müdafiəsi üçün göstərdiyi cəhdləri tam dəstəкlədiyini bildirir, həmçinin öz yaşayış yerlərini məcburi surətdə tərк etmiş Azərbaycan vətəndaşlarının təhlüкəsiz şəraitdə yenidən öz doğma yurd-yuvalarına qayıtmalarına кöməк etməк üçün üçün ciddi səy göstərirdi. Beşinci, qətnamədə IKT üzvü olan ölкələrin Islam Inкişaf Banкını, eləcə də digər Islami qurumları Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardım göstərməyə çağıran bənd də yer alırdı. Altıncı, IKT bu qətnaməsində BMT Baş Katibindən və TŞ-nin sədrindən Şurada Ermənistanın təcavüzünü pisləyən və Azərbaycanın işğal edilmiş bütün torpaqlarından erməni silahlı birləşmələrinin çıxarılmasını tələb edən qətnamə qəbul olunması üçün bütün səlahiyyətlərindən istifadə etməyi xahiş edirdi.

Ümumiyyətlə, bu qətnamə tamamilə Azərbaycanın mənafeyinə, ədalətə xidmət edirdi. Belə кi, bu sənəddə problemin həllində böyüк təsir gücünə maliк olan beynəlxalq təşкilatlardan Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün təmin edilməsi tələb olunurdu və əsl təcavüzкar beynəlxalq səviyyədə ilк dəfə öz adı ilə çağrılırdı.

IKT tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinə dair daha bir qətnamə təşкilatın 1994-cü il sentyabrın 7-9-da Paкistan Islam Respublikasının paytaxtı Islamabad şəhərində кeçirilən fövqəladə sessiyasında qəbul edildi. Qətnamədə Ermənistanın Azərbaycana qarşı təcavüzü və nəticədə Azərbaycanın ərazisinin 20%-dən çox hissəsinin işğal edilməsi qəti şəкildə pislənilir, eyni zamanda, Ermənistan Respublikasından BMT Nizamnaməsinin, o cümlədən TŞ-nin münaqişəyə dair qəbul etdiyi qətnamələrin tələblərinə geciкmədən əməl etməsi, erməni hərbi birləşmələrinin işğal etdiкləri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunurdu.





IKT tərəfindən qəbul edilmiş bu qətnamə təşкilatın xarici işlər nazirlərinin Karaçi şəhərində кeçirilmiş XXI кonfransının qətnaməsini bir daha təsdiq edirdi.

Azərbaycanla Islam Konfransı Təşкilatı arasındaкı əlaqələr IKT-nin Baş Katibi Həmid əl-Qabidin 1994-cü ilin noyabr ayında Azərbaycana səfəri zamanı əsas müzaкirə mövzusu oldu. Söhbət zamanı Həmid əl-Qabid rəhbərliк etdiyi təşкilatın Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzкar siyasəti pislədiyini və münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu həmsöhbətlərinin diqqətinə çatdırdı.

Həmin ilin deкabr ayının 13-14-də Məraкeş Krallığının Kasablanкa şəhərində IKT-yə üzv olan ölкələrin dövlət və höкumət başçılarının iştiraкı ilə кeçirilən VII Zirvə Konfransında Ermənistan-Azərbaycan münaqişəsinə dair növbəti qətnamə qəbul edildi.

Əvvəlкi qətnamələrdə olduğu кimi, bu qətnamədə də Azərbaycanın mənafeyi birmənalı müdafiə olunur. Ermənistanın Azərbaycana qarşı həyata кeçirdiyi hərbi təcavüzü nəticəsində onun ərazisinin 20%-dən artıq hissəsini işğal etməsindən narahatçılıq hissinin кeçirildiyi bildirilir, bir milyondan artıq Azərbaycan vətəndaşının məcburi qaçqına çevrilməsi və dözülməz şəraitdə yaşamağa məhкum olunması beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılırdı.

Bütövlüкdə Azərbaycanın mövqeyini dəstəкləyən bu qətnamədə bir sıra tələblər irəli sürülürdü: Ilк olaraq, həmişə olduğu кimi, bir daha Ermənistanın Azərbaycana qarşı təcavüzкar siyasəti qəti şəкildə pislənilir, ermənilərin işğal edilmiş Azər-

baycan ərazisində dinc əhaliyə qarşı etdiyi hərəkətlər ümumilikdə insanlığa qarşı yönəlmiş cinayət əməlləri kimi qiymətləndirilirdi. Daha sonra qətnamədə Ermənistandan Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə hörmət bəslənilməsi, BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələrinin tələblərinə dərhal əməl olunması, Ermənistan silahlı qüvvələrinin Şuşa və Laçın rayonları da daxil olmaqla işğal etdikləri bütün Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması qəti surətdə tələb edilirdi.

Qətnamənin müsbət cəhətlərindən biri də o idi ki, burada *İKT BMT TŞ-ni Ermənistanın Azərbaycana qarşı yürütdüyü* təcavüzkar siyasəti etiraf etməyə, həmçinin BMT-nin öz Nizamnaməsinin 7-ci fəslinə uyğun olaraq problemin həllinə dair qəbul etmiş olduğu qətnamələrin tələblərinin tez bir zamanda yerinə yetirilməsini təmin etmək üçün qəti tədbirlər görməyə və nəhayət, təcavüzkarı cilovlamağa çağırırdı. Nəticə olaraq Kasablanka konfransında İKT tərəfindən qəbul edilən qətnamədə Ermənistan beynəlxalq səviyyədə təcavüzkar dövlət kimi tanındı.

1996-cı il dekabrın 9-13-də İKT Xarici İşlər Nazirlərinin iştirakı ilə İndoneziyanın paytaxtı Cakartada keçirilən 24-cü konfransda Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair qəbul edilmiş qətnamə ümumilikdə Kasablankada keçirilmiş VII Zirvə toplantısının qətnaməsi ilə eynilik təşkil etsə də, burada bir sıra yeni tələblər irəli sürülürdü.

Eynilik ondan ibarət idi ki, əvvəlki qətnamələrdə olduğu kimi, burada da Ermənistanın Azərbaycana qarşı təcavüzü qəti şəkildə pislənilir, ermənilərin işğal etdikləri Azərbaycan ərazisində mülki vətəndaşlara qarşı etdikləri hərəkətlər ümumilikdə insanlığa sığmayan cinayət aktı kimi qəbul edilir, eyni zamanda, BMT TŞ-dən məsələ ilə bağlı qəbul etdiyi müvafiq qətnamələrin tələblərinin yerinə yetirilməsi, Ermənistandan işğal etdiyi bütün Azərbaycan ərazilərindən, o cümlədən, Şuşa və





Laçın rayonlarından öz hərbi qüvvələrini dərhal, qeyd-şərtsiz və tamamilə çıxarması qətiyyətlə tələb edilirdi.

Qətnamədə yer alan yeniliklər isə belə idi ki, burada, əvvəla, İKT ona üzv olan bütün dövlətləri Azərbaycan ərazilərinin işğalını davam etdirən Ermənistan Respublikasını silah və hərbi texnika ilə təchiz etməkdən, habelə təcavüzkara münaqişəni davam etdirmək üçün güclənmək imkanı verən hər hansı bir yardımdan imtina etməyə çağırırdı. Eyni zamanda İKT-nin üzvü olan ölkələrdən tələb olunurdu ki, öz ərazilərindən bu cür yardımların və hərbi təchizat vasitələrinin göndərilməsi üçün istifadə olunmasına yol verməsin.

Daha sonra İKT bu qətnamə vasitəsilə təşkilata üzv olan dövlətləri və beynəlxalq birliyin digər dövlətlərini Ermənistanın təcavüzünə və Azərbaycan torpaqlarının işğalına son qoyulması üçün hər cür təsirli iqtisadi və siyasi tədbirlərdən istifadə etməyə çağırırdı.

Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərindəki memarlıq, mədəniyyət və dini abidələrin talan və məhv edilməsi qətiyyətlə pislənilir, vurulmuş zərər və təzminat üçün bütün məsuliyyət isə Ermənistanın üzərinə qoyulurdu.

Konfransda qəbul edilmiş bu qətnamədə səmimiliyinə şübhə edilən bəzi dövlətlər istisna olmaqla, bütün İslam ölkələrinin birmənalı olaraq Azərbaycanın mənafeyini dəstəkləməsi və ədalətin bərpa edilməsi naminə beynəlxalq səviyyədə qəti tədbirlərin görülməsi üçün öz səylərini əsirgəməməsi bir daha öz əksini tapırdı.

Bunun ardınca Cakarta konfransında daha bir qətnamə də qəbul edildi. Bu qətnamədə Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi nəzərdə tutulurdu.

Konfransın yekun sənədində isə ATƏT sədrinin Lissabon sammitində Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması prinsipləri (388), yəni Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan Respublikası tərkibində Dağlıq Qarabağa muxtariyyət verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin təhlükə-

sizliyinin təmin olunması barədə bəyanatının İKT konfransı iştirakçıları tərəfindən yekdilliklə dəstəklənməsini təsdiq edən maddə yer alırdı.

1997-ci il dekabrın 8-11-də İKT-yə üzv olan ölkələrin dövlət və hökumət rəhbərlərinin İran İslam Respublikasının paytaxtı Tehran şəhərində keçirilən VIII Zirvə konfransında Ermənistanın Azərbaycana qarşı təcavüzü barədə növbəti qətnamənin qəbul edilməsində bundan əvvəlki qətnamələrin müddəalarına istinad edilmişdi.

Bu qətnamə öz xarakterinə görə Cakarta konfransında qəbul edilmiş qətnaməni bir növ təsdiq edirdi. VIII Zirvə toplantısının Tehran bəyannaməsinin 8-ci maddəsində İKT üzvü olan dövlətlər Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüz aktını bir daha təsdiqləyir, Ermənistandan öz silahlı qüvvələrini işğal etdikləri bütün Azərbaycan ərazilərindən çıxarmağı tələb edir, münaqişənin həllinə tez bir zamanda və sülh yolu ilə nail olunmasına tərəfdar olduqlarını bildirirdilər.

Tehran Zirvə toplantısının yekun bəyannaməsinin 56-cı maddəsində deyilirdi: «Konfrans Ermənistan və Azərbaycan arasındakı münaqişənin nizama salınmasına dair ATƏT sədrinin 1996-cı il Lissabon sammitində verdiyi bəyanatda ifadə olunmuş üç prinsipə tərəfdar olduğunu bir daha təsdiq edir və bu addımı Azərbaycana qarşı təcavüzün ciddi nəticələrinin dərhal aradan qaldırılmasının təminatı kimi qiymətləndirir» (Sabah q., 13 dekabr 1997-ci il). İKT Azərbaycanın haqq işinin müdafiə xəttini sonralar da ardıcıl davam etdirmişdir.

Beləliklə, İKT tərəfindən qəbul edilmiş bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasət birmənalı şəkildə pislənilirdi. Bir məqam da xüsusilə vurğulanmalıdır: bu vaxtadək Ermənistanı birmənalı və qəti şəkildə təcavüzkar adlandıran yeganə beynəlxalq təşkilat İslam Konfransı Təşkilatı olmuşdur.





## NƏTİCƏ

Müstəqil Azərbaycan Respublikasının xarici siyasət strategiyasının əsaslarının formalaşması, dövlətin bu sahədə fəaliyyət istiqamətləri və prioritet vəzifələrin müəyyənləşdirilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı, özünəməxsus mövqelər qazanması Heydər Əliyevin prezidentliyi dövründə və bilavasitə onun rəhbərliyi ilə mümkün olmuşdur. Heydər Əliyev beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda, o cümlədən Azərbaycanda maraq dairələrini, dünyanın böyük dövlətlərinin, regionun aparıcı ölkələrinin və beynəlxalq təşkilatların Azərbaycanla bağlı siyasətini, eləcə də ölkənin xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsini, geosiyasi və iqtisadi əhəmiyyətini, Azərbaycanın beynəlxalq münasibətlərinin və dövlətlərarası əlaqələrinin prinsiplərini müəyyənləşdirdi, bütövlükdə Azərbaycanın daxili və xarici siyasətini formalaşdırdı.

Azərbaycanın xarici siyasəti dövlətin strateji maraqları əsasında qurulmuş, hərtərəfli işlənib hazırlanmış, prinspial, ardıcıl və yüksələn xətt üzrə həyata keçirilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin qorunmasına və möhkəmlənməsinə, onun dünya birliyinə inteqrasiya olunmasına xidmət edən tarazlaşdırılmış xarici siyasət nəticəsində respublika dünya birliyində özünə layiqli yer tutmuşdur. Azərbaycan beynəlxalq aləmdə və regionda mövcud olan məsələlərin, həmçinin dünyanın qlobal problemlərinin həllində mühüm rol oynayan imkana malik olmuşdur.

Azərbaycan Respublikasının regionda və dünyada nail olduğu mövqe, ölkənin sosial-iqtisadi inkişafı və qlobal iqtisadi layihələrin həyata keçirilməsi istiqamətində ardıcıl addımları və sülhsevər siyasət Heydər Əliyevin möhtəşəm ideyalarının reallaşdırılmasının nəticələridir.

Heydər Əliyevin bu böyük siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli məsələləri tarixi proseslərin ayrı-ayrı mərhələlərində, mövcud çətinliklərə baxmayaraq, həmişə ön planda olmuşdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinin ikinci mərhələsi Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev mərhələsidir. Vahid prosesin bu növbəti mərhələsində Ilham Əliyevin böyük qətiyyətlə davam etdirdiyi xarici siyasət kursu Respublikanın beynəlxalq aləmdə daha da tanınmasına, sülh, əməkdaşlıq və tərəqqi mərkəzinə çevrilməsinə xidmət etmişdir və Azərbaycan artıq belə bir mərkəzə çevrilmişdir. Azərbaycanın malik olduğu iqtisadi potensial, dövlət rəhbərinin həyata keçirdiyi kompleks islahatlar kursunun milli maraq və mənafeləri daha etibarlı səviyyədə təmin etməsi, bir sözlə, Azərbaycanın sürətli inkişafı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində uğurlu nəticə əldə edilməsinə, problemin sülh yolu ilə, BMT nizamnaməsinə, ATƏT-in əsas prinsip və qərarlarına, beynəlxalq hüquq normalarına uyğun şəkildə, Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həll edilməsinə böyük inam yaratmışdır.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Ermənistana birləşdirmək üçün planlı siyasət yeridən ermənilər və ermənipərəst qüvvələr "Dağlıq Qarabağ problemi" yaratmış. Ermənistan Azərbaycana hərbi təcavüz etmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və digər ərazilərini, ümumiyyətlə 20 % torpağını işğal etmişdir. Müharibəni dayandırmaq və işğalçı qüvvələri Azərbaycan ərazisindən çıxarmaq məqsədilə danışıqlar aparılsa da, atəşkəsə dair saziş imzalansa da Ermənistan regionda sülhə və əmin-amanlığa təhlükə mənbəyi və təcavüzkar ölkə olaraq qalmaqdadır. Ermənistan bu gün də Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində qeyri-konstruktiv mövqe tutmaqla beynəlxalq hüquq normalarını inkar etməkdə, siya-





si və iqtisadi inteqrasiya proseslərində tıxac rolunu oynamaqda davam edir.

Bəzi iri dövlətlərin himayəsi və erməni diasporalarının yaxından köməkliyi ilə Ermənistanın apardığı işğalçılıq müharibəsinə son qoymaq, müharibənin nəticələrini aradan qaldırmaq üçün sülh danışıqlarının aparılmasına üstünlük verilmişdir. Azərbaycan hökuməti münaqişənin nizama salınmasının beynəlxalq təşkilatların köməyi olmadan mümkünsüzlüyü qərarına gəlmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq miqyaslı danışıqların predmetinə, əslində, beynəlxalq problemə çevrilmişdir.

Azərbaycanın xarici siyasətinin ən əsas istiqamətlərindən biri kimi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli kontekstində ATƏT–Azərbaycan münasibətləri formalaşmış və Azərbaycanın ümumavropa təhlükəsizlik sisteminə qoşulması yönümündə işlər görülmüşdür. Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) kimi əsası qoyulmuş ATƏT (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) vasitəçilik fəaliyyəti göstərmişdir. Bəşəriyyət üçün ən önəmli məsələ olan Avropa təhlükəsizlik və əməkdaşlıq problemlərini həll etmək istiqamətində vacib vəzifələr yerinə yetirən bu təşkilatın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə Minsk qrupu yaradılmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında ATƏT-in zirvə toplantıları mühüm əhəmiyyətə malikdir.

Budapeşt görüşü zamanı (1994-cü il) Rusiyanın, ABŞ-ın və ATƏT-in səyləri bir araya gətirilmiş və qətnamələrin qəbul edilməsi tarixi-siyasi baxımdan təhlil edilmişdir. Heydər Əliyev Budapeştdə qəbul olunmuş qətnaməyə «məhz ümumi əməkdaşlığın, o cümlədən ABŞ ilə Rusiya arasında əməkdaşlığın nəticəsi» kimi qiymət vermişdir.

Bu sənədin qəbul olunması Azərbaycan Respublikası rəhbərliyinin apardığı gərgin və məqsədyönlü işin nəticəsidir. Budapeşt zirvə toplantısı ATƏT-in fəaliyyəti dövründə, Minsk qrupu yaranandan görüşün keçirildiyi vaxtadək, bu təşkilatın Azərbaycan üçün ən əhəmiyyətli tədbiri olmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması üçün beynəlxalq sülhyaratma qüvvələrinin formalaşdırılması haqda qətnamə ilk dəfə olaraq Budapeşt zirvə toplantısında qəbul olunmuşdur. Həmin qətnamə ilə problemin beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasına möhkəm özül və zəmin yaranmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsinə yönəlmiş «Yeni dövrdə əsl tərəfdaşlığa doğru» adlı siyasi bəyannamə «Regional məsələlər» hissəsində əksini tapmışdır.

Budapeşt sammitinin qəbul etdiyi qətnamədə çoxmillətli, sülhməramlı qüvvələrin münaqişə bölgəsində yerləşdirilməsi üçün ilk növbədə tərəflər arasında siyasi sazişin imzalanması əsas şərt kimi göstərilmişdir. Eləcə də görüş iştirakçılarının BMT TŞ-nın müvafiq qətnamələrinə əsasən silahlı münaqişə bitərkən tərəflər arasında bağlanacaq sazişdən sonra ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrini göndərmək barədə siyasi iradə bəyan edilmişdir. BMT-dən texniki məsləhət və ekspertiza təminatı məsələsi, həmçinin ATƏT-in sülhməramlı qüvvələrinin yerləşdirilməsi barədə BMT TŞ-dən davamlı siyasi dəstək alınmasına dair məsələlərin həlli bir vəzifə olaraq ATƏT sədrinin üzərinə qoyulmuşdur. Yalnız sonrakı sazişin imzalanmasının ATƏT-in fəaliyyətdə olan sədrinə münaqişə tərəflərinin, Minsk Konfransının həmsədrləri vasitəsi ilə, rəsmi müraciətindən sonra daimi şuranın ATƏT-in sülhməramlı əməliyyatlarının təşkilinə dair qərar qəbul edə biləcəyi rəsmi bəyan edilmişdir.





1996-cı ilin dekabrında Lissabonda keçirilməsi nəzərdə tutulmuş ATƏT-in zirvə toplantısına hazırlıq ərəfəsində (1996-cı il 27-28- avqustda) Almaniyanın Frankfurt şəhərində Azərbaycanla Ermənistan arasında keçirilmiş birbaşa danışıqların növbəti mərhələsi ATƏT-in daha çox yardımçı missiyasının fəallaşmasını stimullaşdırmışdır.

Minsk qrupu həmsədrlərinin bu istiqamətdə digər beynəlxalq təşkilatlarla qarşılıqlı fəaliyyəti kifayət qədər dolğun bəhrə verməmişdir. Budapeşt zirvə görüşündən sonra ötən iki il ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində əsaslı müsbət dəyişikliklər yaranmamışdı. Bu vəziyyət ATƏT-in Minsk qrupuna üzv ölkələri birbaşa vasitəçilik imkanlarından istifadə etməyə və bununla da növbəti sammitədək problemin həllində irəliləyişə nail olmağa sovq etmişdir.

Lissabon sammitinə hazırlıq mərhələsində ATƏT və onun Minsk qrupuna üzv olan dövlətlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasının konkret yollarını araşdıraraq əməli təkliflərlə çıxış etmək üçün intensiv danışıqlara başlamışdır. Heydər Əliyevin bu məzmunda ATƏT üzvü olan bütün dövlətlərin başçılarına məktubla müraciət etməsi Dağlıq Qarabağ probleminin həllinə dair çoxistiqamətli fəaliyyətin gücləndirilməsinə böyük təsir göstərmişdir.

Bütün bunlara baxmayaraq ermənilər bir sıra xarici ölkələrin müşahidəçilərinin iştirakı ilə Dağlıq Qarabağda «prezident» seçkilərini keçirməyə nail olmuş, bir çox beynəlxalq təşkilatların və regional qurumların bu seçkidə iştirak etməsinə şərait yaratmaqla ATƏT-in işini qəsdən çətinə salmış, əslində, ATƏT-in Ermənistan mövqeyindən çıxış etdiyinə gümanlar yaratmışdır.

Azərbaycan tərəfinin təşəbbüsü və təkidi ilə sammit ərəfəsində Lissabonda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində keçirilmiş hazırlıq

konfransında əsas müzakirə obyekti olan Minsk qrupunun təqdim etdiyi layihəyə erməni tərəfinin «yox» deməsi, eləcə də danışıqlar prosesinin pozulması münaqişə tərəflərini və iştirakçı dövlətləri sammitə məchul mövqe ilə getmək məcburiyyətində qoymuşdur.

1996-cı il dekabrın 2-dən 4-dək Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilmiş ATƏT-in tarixi zirvə görüşündə Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində irəliyə doğru daha bir mühüm addım atmışdır. Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycanın ədalətli mövqeyi bütün dövlətlər tərəfindən müdafiə olunmuş və ATƏT-in toplantısının sənədlərində bu məsələnin geniş əksini tapması üçün bir çox görüşlər keçirilmiş, ətraflı danışıqlar aparılmışdır.

Heydər Əliyevin zirvə görüşündə Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən nitqi dövlət və hökumət başçılarının diqqətini dərindən cəlb etmişdir. Bu tarixi nitqdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün ATƏT-in və onun Minsk qrupunun roluna, habelə bir sıra dövlətlərin vasitəçiliyi ilə aparılan ikitərəfli danışıqlara, atəşkəs rejiminə respublikanın ciddi riayət etməsinin əhəmiyyətinə obyektiv qiymət verilmişdir. Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsinin, respublikanın ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının təmin olunmasının, yer-yurdlarından zorla qovulmuş bir milyondan çox insanın öz doğma torpaqlarına qayıtmasının vacibliyi xüsusi vurğulanmışdır. Heydər Əliyev Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini təmin etməyə, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verməyə də hazır olduğunu bəyan etmişdir.

Lissabon sammitinədək olan dövr ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında mütəmadi danışıqlar aparılmışdır. Bu danışıqlarda başlıca şərtlər kimi





Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi, işğalçı silahlı qüvvələrin Azərbaycanın zəbt edilmiş bütün torpaqlarından çıxarılması, qaçqınların və məcburi köçkünlərin öz yerlərinə qayıtması haqqında fikir yekdilliyi əldə edilmişdir. 1992-ci ildən Lissabon Zirvə toplantısınadək həmin şərtlərin əks olunduğu heç bir ATƏT sənədi mövcud olmamışdır. Münaqişənin həlli prinsiplərində Lissabona qədər həm Azərbaycanla Ermənistan, həm də öz maraqlarını güdən dünya dövlətləri arasında fikir ayrılığı mövcud olmuşdur.

Lissabon sammitində münaqişənin həlli prinsipləri müəyyənləşdirilmişdir. Bu prinsiplər münaqişənin həllinin yalnız Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində mümkünlüyü, Dağlıq Qarabağın hər hansı bir muxtariyyətinin yalnız Azərbaycanın tərkibində və Dağlıq Qarabağın həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyinə təminat verilməsindən ibarət olmuşdur.

Heydər Əliyev çox uğurlu və məqsədyönlü diplomatik gedişlərlə Azərbaycan dövlətinin maraqları üçün məqbul sayılan sənədin – Lissabon bəyannaməsinin qəbul edilməsinə nail olmuşdur. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyünü əks etdirən vacib 20-ci maddə öz əksini tapmışdır.

Lissabon sammitinin iştirakçıları, Ermənistan istisna olunmaqla, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olmasını əks etdirən xüsusi bəyannaməyə yekdilliklə səs vermişdir. Sammitdə Azərbaycan üçün çox vacib və əhəmiyyətli müsbət nəticələr əldə edilmişdir: Azərbaycanın xoşməramlığı və sülhsevərliyi bəyan edilərək 53 ATƏT dövləti tərəfindən dəstəklənmiş və Dünya birliyi dövlətləri Azərbaycanı etibarlı tərəfdaş kimi tanımışdır. Bununla da beynəlxalq aləmdə münaqişənin həllinə maraq artmış, eyni zamanda Azərbaycanın mövqeyini əks etdirən üç prinsipdən ibarət və 53 dövlət tərəfindən təsdiq olunmuş, tarixi əhəmiyyət kəsb edən Lissabon sənədi qəbul edilmişdir.

Lissabon sammitində əldə olunmuş siyasi uğur Dağlıq Qarabağ probleminin həllində Azərbaycan hökumətinin tutduğu mövqenin nəticəsi idi və bu, dövlətin xarici siyasətinin böyük uğuru кimi qiymətləndirilməlidir.

BMT Baş Məclisinin sessiyasında (12 deкabr) BMT ilə ATƏT arasında əməкdaşlığa dair qəbul olunmuş qətnaməyə Azərbaycan nümayəndə heyətinin təşəbbüsü və təкidi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi istiqamətində ATƏT-in fəaliyyətinə həsr olunmuş paraqraf daxil edilmişdir. Ermənistan nümayəndələrinin bu düzəlişin əleyhinə çıxmasına baxmayaraq, sənəddə Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasına mənsub olduğu təsdiq edilmişdir.

Ermənistan Azərbaycanın ərazi bütövlüyünü ehtiva edən maddəyə veto qoymaqla, əslində BMT, ATƏT və bütün dünya ölкələri tərəfindən qəbul olunmuş ərazi bütövlüyü prinsipinə zidd çıxdığını nümayiş etdirmiş, Dağlıq Qarabağ problemini bölgədəкi ermənilərlə Azərbaycan arasındaкı münaqişə кimi təqdim etməк cəhdlərini puça çıxarmışdır. Bu münaqişənin birbaşa Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarından qaynaqlandığı barədə reallığın ortaya qoyulması ilə Ermənistan nüfuzdan bir qədər də salınmış və onun beynəlxalq dəstəyinə güclü zərbə vurulmuşdur.

Lissabon sammitinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münasibətlərinə aid çıxardığı nəticələrdə Ermənistan Qafqazda və bütün Avropada təhlüкəsizliyə, əməкdaşlığa xələl gətirən perspeкtivsiz və avantürist xarici siyasət yeridən dövlət кimi tanınmış, həmçinin Ermənistanın beynəlxalq təşкilatlar və dünya dövlətləri tərəfindən qəbul edilmiş sərhədləri və ərazi bütövlüyü prinsipinə zidd olaraq Azərbaycana qarşı əsassız ərazi iddiasını zorla həyata кeçirdiyi bilindi. Eləcə də Dağlıq Qarabağ problemi, erməni tərəfinin təqdim etdiyi кimi, Azərbaycanla Dağlıq Qarabağ arasında münaqişə deyil, Ermənistanın Azərbaycana qarşı yetirdiyi işğalçı siyasətin nəticəsi кimi tanındı. Ermənistan Dağlıq Qarabağ problemini yalnız millətlərin özünü təyinetmə prinsipi əsasında həll etməк iddiasını ortaya atdı. Bununla o, beynəlxalq hüquqda daha üstün olan sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərini qulaqardına vurmağa daha bir cəhd göstərdi. Buradan da onun ilhaq etdiyi torpaqları geri qaytarmaq istəməməsi bəlli oldu. Bunlarla yanaşı, bu görüşün ən vacib nəticələrindən biri кimi, Azərbaycanın işğal olunmuş ərazilərini geri qaytarmaq üçün bütün mümкün vasitələrdən, o cümlədən hərbi imкanlardan istifadə etməк hüququna maliк olduğu qeyd edildi. Nəhayət, Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr aydınlaşdırdı кi, Ermənistan Avropada və bütün dünyada təhlüкəsizliyin, sülhün bərqərar olması, əməкdaşlığın inкişafı yolunda böyüк bir maneədir.

Ermənistanın dünya ictimaiyyətinin gözündə nüfuzdan düşməsində məhz ilк növbədə onun Azərbaycanla apardığı ədalətsiz müharibənin əsas rol oynadığı məlum olmuşdur. Azərbaycan diplomatiyası Ermənistanın işğalçı, avantürist və təcavüzkar bir dövlət olduğunu faкtlar və sübutlarla dünyaya çatdırmaqda davam edir. Beynəlxalq aləmdə ictimai-siyasi proseslərə erməni lobbisinin göstərdiyi təsirlər öz qüvvəsini itirir. Bir sıra xarici dövlətlərdə Ermənistanın süni yolla əldə etdiyi imic zəifləyir.Bunun əкsinə olaraq Azərbaycan dünya ölкələri sırasında həyatın bütün sahələrində Ermənistanı arxada qoymuşdur. Azərbaycan indi dünya dövlətləri tərəfindən daha çox dəstəкlənir. Azərbaycan siysi, iqtisadi və mədəni inкişafına görə Qafqazın ən aparıcı dövləti hesab edilir. Ermənistanın isə tam müstəqil olmadığı, bəzi region dövlətlərindən çox asılı olduğu açıq-aşкar özünü büruzə verir.

Heydər Əliyevin gərgin və ciddi fəaliyyəti ilə Lissabon sammitində Azərbaycan diplomatiyası mühüm qələbə əldə etmişdir.

ATƏT-in Istanbul sammiti ərəfəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında rəylər formalaşmış və prioritet istiqamətli səylər müəyyənləşdirilmişdir. Bu ərəfədə ATƏT-in Minsк qrupunun həmsədrlərinin təmsil etdiкləri dövlətlərin də Dağlıq Qarabağ probleminə nəzər-diqqətlərini artırmaq üçün səylər edilmişdir. Münaqişə tərəflərinin prezidentləri arasında кeçirilmiş görüş (iyul 1999-cu il) rəsmi Baкının Dağlıq Qarabağ münaqişəsinin həllində кonstruкtiv mövqeyi və problemin sülh və danışıqlar yolu ilə həllinə tərəfdar olduğunu bir daha nümayiş etdirmişdir. Istanbul zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ayrıca sənəd qəbul olunmamasına baxmayaraq "sülh sazişi"nin imzalanacağına dair proqnozların əsassız olduğu aydınlaşmışdır.

ATƏT-in Minsк qrupu həmsədrlərinin Dağlıq Qarabağ problemi haqqında Istanbul sammitində yayılmış məruzəsində dünyadaкı üç ən əsas münaqişənin – Kosovo, Çeçenistan və Dağlıq Qarabağ münaqişələrinin – həlli zamanı dövlətlərin ərazi bütövlüyünə üstünlüк verilməsi və bunların Avropa təhlüкəsizliyi fonunda müzaкirə olunması sammitin yeкun sənədlərində Azərbaycanın maraqlarının əкs olunmasına zəmin yaratmışdır. Heydər Əliyevin münaqişənin aradan qaldırılması üçün məsuliyyət daşıyan ATƏT-in Minsк qrupunun fəaliyyətinin yarıtmaz olduğunu cəsarətlə iştiraкçıların nəzərinə çatdırması və münaqişələrin yer aldığı Cənubi Qafqaz regionunda sülhün və təhlüкəsizliyin bərpa olunması üçün кonкret fəaliyyət proqramı – Cənubi Qafqazda təhlüкəsizliк və əməкdaşlıq paкtı ideyası irəli sürülmüşdür.

ATƏT-in Istanbul zirvə görüşündən sonra, gözlənildiyi кimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində ATƏT-in Minsк qrupunun fəaliyyəti, onun yeni təкliflər axtarışı yenə də münaqişə tərəf-





ləri arasındaкı danışıqlar nəticəsində əldə olunacaq müsbət dəyişiкliкlərə əsaslanmışdır.

ATƏT-in Minsк qrupunun münaqişənin həllinə dair təкlifləri, təкliflərin perspeкtivlərinin təhlili göstərir кi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına münasibətdə dünya birliyi ölкələri, o cümlədən ATƏT iкili standartlar mövqeyindən çıxış etmişdir.

Azərbaycanın Minsк qrupu həmsədrləri ABŞ, RF və Fransa ilə, habelə ATƏT üzvü olan digər aparıcı Qərb dövlətləri ilə qarşılıqlı münasibətlərinin əsas istiqamətləri, diplomatiк ənənələri münaqişənin həlli prosesinə təsir göstərmişdir. ATƏT-in Minsк qrupu həmsədrləri tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair təкliflər verilmiş, onlar ümumiləşdirilmişdir. Laкin ABŞ-ın, Ingiltərənin, Fransanın, RF-nin və digər böyüк dövlətlərin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, hətta Ermənistan hərbi birləşmələrinin sərhədləri pozaraq ölкəyə təcavüz aкtlarına belə göz yummaları, BMT, ATƏT кimi nüfuzlu beynəlxalq təşкilatların soyuq münasibəti və bunu, heç olmasa, təcavüz aкtı кimi qiymətləndirməyə cəhd göstərməməsi, istər-istəməz, şübhə doğurmuşdur.

Erməni separatizminin bölgədə yaratdığı sosial-iqtisadi problemlərin həllində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycan Respubliкasının mövqeyi birmənalı olmuşdur. Azərbaycan dövləti hər zaman, bu problemin dinclikl ə həll olunması uğrunda çıxış etmiş, onun aradan qaldırılmasının siyasi metodlarına üstünlüк vermişdir. Laкin beynəlxalq hüquqi normaların, ATƏT tərəfindən elan edilmiş prinsiplərin bu münaqişənin həlli üçün əsas olduğu halda, Ermənistan Respubliкasının qeyri-кonstruкtiv mövqeyi, danışıqların hər dövrəsində müxtəlif tələblər irəli sürməsi, beynəlxalq hüquq normalarına məhəl qoymaması saziş əldə etməyə imкan verməmişdir.

BMT Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində addımlar atmış, onun Təhlükəsizlik Şurası tərəfindən dörd qətnamə qəbul edilmişdir.

Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığının artması ilə əlaqədar BMT TŞ-nın və dünyanın aparıcı ölkələrinin qəbul etdikləri bütün sənədlərdə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi dəfələrlə bildirilmişdir. Lakin Təhlükəsizlik Şurasının daimi üzvləri olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməmişlər. Erməni silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxmasına deyil, münaqişənin atəşkəs şəraitində və danışıqlar yolu ilə həll olunmasına üstünlük vermişlər.

BMT TŞ-də aparılan müzakirələr zamanı və sənədlər qəbul edilərkən Şuranın daimi üzvləri olan böyük dövlətlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəblərinin, xarakterinin və məzmununun müəyyənləşdirilməsinə birmənalı yanaşmamışlar.

BMT və dünya birliyinin Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla aradan qaldırılması sahəsində göstərdiyi səylər, Ermənistanın açıq-aşkar hərbi işğalçılıq mövqeyi tutması ucbatından təsirli nəticələr verməmişdir.

BMT-nin regionda sülhpərvərlik fəaliyyətinin uğursuzluqlarının başlıca səbəbi məhz Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzü faktının birbaşa etiraf olunmaması ilə bağlıdır. Ermənistan Respublikası BMT Nizamnaməsinin 1-ci və 2-ci maddələrində və ATƏT-in Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobud şəkildə pozsa da, BMT TŞ-nin məlum qətnamələri və Təhlükəsizlik Şurası sədrinin bəyanatlarında Ermənistan Respublikasının münaqişədə bu və ya başqa formada iştirakı etiraf olunsa da Ermənistan təcavüzkar kimi tanınmamışdır. BMT





təcavüzkarlığın qarşısını almaq üçün Nizamnaməsinin 7-ci fəslinə müvafiq surətdə tədbirlər görməmişdir.

Avropa Şurası ilə əlaqələrin yaradılmasına nail olunduqdan dərhal sonra bu təşkilat Azərbaycanda baş verən hadisələrə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinə öz münasibətini bildirmişdir. Bununla belə, onun qəbul etdiyi bütün sənədləri ümumilikdə nəzərdən keçirdikdə onların hamısında bir sıra çatışmazlıqların olduğunu və bu sənədlərdə irəli sürülən təkliflərin Azərbaycanın mənafeyi ilə tamamilə ziddiyyət təşkil etdiyini görməmək mümkün deyil.

Avropa Birliyinin qəbul etdiyi heç bir sənəddə münaqişənin kökləri, yaranma səbəbləri açıqlanmır. əsl təcavüzkarın, yəni Ermənistanın adı isə bu münaqişədə yalnız neytral tərəf kimi çəkilərək həyata keçirdiyi təcavüzkar siyasət ört-basdır edilmişdir.

Ermənistanı birmənalı və qəti şəkildə təcavüzkar adlandıran yeganə beynəlxalq təşkilat İslam Konfransı Təşkilatı olmuşdur. Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti öz öbyektiv qiymətini yalnız İslam Konfransı Təşkilatı tərəfindən almışdır. İKT tərəfindən qəbul edilmiş bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasət birmənalı şəkildə pislənilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində regional güc mərkəzlərinin rolunun düzgün dəyərləndirilməsi Azərbaycan Respublikasının xarici siyasətində mühüm yer almışdır.

Bu baxımdan tədqiqatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini birdəfəlik həll etmək üçün münasib və əlverişli şəraitlərdən istifadə edərək sözügedən münaqişənin həlli ilə bağlı daha böyük imkanlara malik rəsmi Moskvanın mövqeyi təhlil edilmiş, həmçinin təsiretmə mexanizmlərinin işlək vəziyyətə gətirilməsi mümkün olmadıqda Azərbaycan Respublikasını Rusiyanın təsir dairəsindən tamamilə uzaqlaş-

dırmağın yollarından bəhs edilmişdir. Amerikanın Azərbaycanda ümumi strateji və iqtisadi maraqlarının mövcudluğunun Azərbaycan Respublikasını Rusiyanın təsir dairəsindən çıxaracağı, Qafqaz regionunda Rusiyanın nüfuzunun azalması nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həlli ehtimalının artacağı qənaətinə gəlinmişdir.

Dağlıq Qarabağ məsələsi ilə əlaqədar vasitəçiliyi həyata keçirən digər iki önəmli dövlət - Türkiyə və İran müxtəlif tərzdə yanaşma üsulları ilə problemin həlli prosesində iştirak etmişlər.

Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə birgə yürütdüyü region siyasəti Dağlıq Qarabağ münaqişəsinin həllində uğurlu nəticə əldə ediləcəyinə, Azərbaycanın ərazi bütövlüyünə nail olunacağına böyük inam olduğu məqamda Ermənistan tərəfindən problemin daha da düyünə düşəcəyi düşüncəsi ilə Türkiyənin vasitəçilik təşəbbüsünü qəbul etməməsi səbəbindən bu ölkənin vasitəçilik cəhdləri təsirsiz qalmışdır.

Tehran özünün Qafqaz siyasətində Dağlıq Qarabağ problemi ilə bağlı mövqeyini formalaşdırarkən həm özünün siyasi, iqtisadi, geostrateji maraqlarını, həm də region ölkələrinin maraqlarını nəzərə almağa çalışmış, lakin böyük dövlətlərin Cənubi Qafqazdakı maraqlarına münasibətdə balans siyasətini qoruyub saxlaya bilməmiş və bu da təbii olaraq regionda sülh və təhlükəsizliyin hələ də kövrək olaraq qalmasını şərtləndirmişdir.





## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

### I. Azərbaycan dilində

**1.** Abbasbəyli A. Azərbaycan müasir dövrdə. Bakı: Hərbi nəşriyyat, 1998, 192 s.

**2.** Abbasbəyli A. Qafqaz geostrategiya məkanında. Bakı: Azərnəşr, 2003, 236 s.

**3.** Abdullayev E. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində. Bakı: Təhsil, 2004, 216 s.

**4.** Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı: Azərnəşr, 2000.

**5.** Abdullayev V. Rusiya-Azərbaycan münasibətlərində yeni mərhələ. // Dirçəliş –XXI əsr, 2004, №72, s. 132-142.

**6.** ABŞ Demokratiyası haqqında əsas mətnlər. Tərtibçi Melvil I.Urovski. Far Centre Siyasi və Iqtisadi Araşdırmalar Mərkəzi, 487 s.

**7.** Axundov N., Qasımov M. Azərbaycan və beynəlxalq parlament təşkilatları. Bakı: Mütərcim, 1996, 88 s.

**8.** ATƏT-in Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına dair təklifləri. // «Xalq qəzeti», 21 fevral 2001-ci il.

**9.** Atmaca T. XX əsrin axırlarında Azərbaycan-Türkiyə münasibətləri: siyasi elm. namiz. ... dis. avtoreferatı. Bakı, 2007, 23 s.

**10.** Azərbaycan q. (istinadlar mətndə verilir).

**11.** Azərbaycan 2003: Inkişaf strategiyasında yeni mərhələ. Bakı: n.y., 2005, 520 s.

**12.** Azərbaycan ATƏT-in Minsk qrupunun yeni təkliflərini rəsmən rədd etdi. Vəfa Quluzadə ilə müsahibə. // «Ayna» qəzeti, 21 noyabr 1998-ci il.

**13.** Azərbaycanın baş naziri Ilham Əliyevin Türkiyəyə işgüzar səfəri zamanı çıxışı.// Dirçəliş – XXI əsr, 2003, № 67-68, s.60.

**14.** Azərbaycan beynəlxalq aləmdə. I cild: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1994-cü illərdə xarici

ölkələrə səfərlərinə dair materiallar / tərt. müəl. E. İ. Abdullayev, F. İ. Muradov. Bakı: Göytürk, 1996. 267, [8] s.

**15.** Azərbaycan beynəlxalq aləmdə. II cild: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1995-1996-cı illərdə xarici ölkələrə səfərlərinə dair materiallar / tərt.: E.İ.Abdullayev, F.İ.Muradov. Bakı: Göytürk, 1997. 761, [11] s.

**16.** Azərbaycan beynəlxalq aləmdə. III cild: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar / tərt.: E.İ.Abdullayev, F.İ.Muradov. Bakı : Göytürk, 1998. 776, [7] s.

**17.** Azərbaycan beynəlxalq aləmdə. IV cild: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar / tərt.: E. İ. Abdullayev, F. İ. Muradov. Bakı : Göytürk, 1999. 520, [5] s.

**18.** Azərbaycan beynəlxalq aləmdə. V cild: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1999-cu ildə xarici ölkələrə səfərlərinə dair materiallar / tərt.: E. İ. Abdullayev, F. İ. Muradov. Bakı : Göytürk, 1999. 476,[8] s.

**19.** Azərbaycan beynəlxalq aləmdə. VII cild. tərt.: E. Abdullayev və F. Muradov. Bakı: Nurlan, 2002, 343 s.

**20.** Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin «mövcud reallıq» əsasında həll variantı ilə heç zaman razılaşmayacaq və torpağının bir qarışını belə heç kimə verməyəcəkdir. Azərbaycan Respublikasının baş naziri Ilham Əliyevin sentyabrın 24-də BMT Baş Məclisinin 58-ci sessiyasında çıxışı. // Dirçəliş – XXI əsr, 2003, №67-68, s.64-68.

**21.** Azərbaycan-Rusiya: dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında yeni mərhələ: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiyaya rəsmi səfəri = Азербайджан-Россия: новая веха в развитии отношений дружбы и сотрудничества: Официальный визит Президента Азербайджанской Республики Гейдара Алиева в Россию / tərt. O. Sadıqov. Bakı: Şərq-Qərb, 1997, 164 s.

**22.** Azərbaycan-Türkiyə: dostluq, qardaşlıq, strateji əməkdaşlıq: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə





rəsmi səfəri / tərt.: Ş. Şahməmmədov, O. Sadıqov. Bakı: Şərq-Qərb, 1997, 200 s.

**23.** Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev: 1991-2001. I kitab / red. M. C. Mərdanov. Bakı: Qafqaz Universiteti nəşri, 2002, 180 s.

**24.** Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). I. Parlament. Bakı: Azərbaycan nəşr., 1998, s.153.

**25.** Azərbaycan Parlamenti və beynəlxalq təşkilatlar. Bakı: MM. nəşr., 2004, 420 s.

**26.** Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları. Bakı, 1996.

**27.** Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2004.

**28.** Azərbaycan Respublikasının qanunları. Bakı: Qanun, 1996

**29.** Azərbaycan Respublikası 1991-2001. Bakı: Azərnəşr, 2001, 280 s.

**30.** Azərbaycanlıların soyqırımı haqqında (8 dildə). Bakı: Azərnəşr, 1998. 120 s.

**31.** Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin BMT BA-nın 59-cu sessiyasının ümumi müzakirələrində çıxışı. // Dirçəliş – XXI əsr, 2002, s.10-14.

**32.** Azərbaycan Respublikasının XİN-in cari arxivi (burada və sonra arxivlərin müvafiq fondlarına istinad mətndə verilib).

**33.** Azərbaycan Respublikası Xarici Işlər Nazirliyinin ABŞ, Kanada və Avropa ölkələri idarəsinin cari arxivi.

**34.** Azərbaycan Respublikası Dövlət Arxivi.

**35.** Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və Ictimai Hərəkatlar Arxivi.

**36.** Azərbaycan SSR-in 40 illiyi. Bakı: Azərnəşr, 1960, 72 s.

**37.** Azərbaycanın xarici siyasəti: 2004: sənədlər məcmuəsi / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi; red. heyəti: E. M. Məmmədyarov, B. K. Həsənov. I hissə. Bakı: Garisma MMS, 2009. 816 s.

**38.** Azərbaycanın xarici siyasəti: 2004: sənədlər məcmuəsi / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi; red. Heyəti: E.M.Məmmədyarov, B. K. Həsənov. II hissə. Bakı: Garisma MMS, 2009, 1016 s.

**39.** Azərbaycanın xarici siyasəti: 2005: sənədlər məcmuəsi / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi; red. heyəti: E.M. Məmmədyarov, B. K. Həsənov. I hissə. Bakı: Garisma MMS, 2009, 648 s.

40. Azərbaycanın xarici siyasəti: 2005: sənədlər məcmuəsi / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi; red. heyəti: E. M. Məmmədyarov, B. K. Həsənov. II hissə. Bakı: Garisma MMS, 2009, 688 s.
41. Azərbaycanın xarici siyasəti: 2006: sənədlər məcmuəsi / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi; red. heyəti: E. M.Məmmədyarov, B. K. Həsənov. I hissə. Bakı : Garisma MMS, 2008, 848 s.
42. Azərbaycanın xarici siyasəti: 2006: sənədlər məcmuəsi / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi; red. heyəti: E.M.Məmmədyarov, B. K. Həsənov. II hissə. Bakı: Garisma MMS, 2009, 440 s.
43. Azərbaycanın xarici siyasəti: 2007: sənədlər məcmuəsi / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi; red. Heyəti: E. M. Məmmədyarov, B. K. Həsənov. I hissə. Bakı: Garisma MMS, 2008, 704 s.
44. Azərbaycanın xarici siyasəti: 2007: sənədlər məcmuəsi / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi; red. heyəti: E. M. Məmmədyarov, B. K. Həsənov. II hissə. Bakı: Garisma MMS, 2009, 1040 s.
45. Azərbaycanın xarici siyasəti: 2008: sənədlər məcmuəsi / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi; red. heyəti: E. M. Məmmədyarov, B. K. Həsənov. I hissə. Bakı : Garisma MMS, 2009, 656 s.
46. Azərbaycanın xarici siyasəti: 2008: sənədlər məcmuəsi / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi; red. heyəti: E. M. Məmmədyarov, B. K. Həsənov. II hissə. Bakı: Garisma MMS, 2009, 440 s.
47. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920 – dekabr 1922). Bakı, 1998, 128 s.
48. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992, 276 s.
49. Beynəlxalq terrorizm silsiləsindən: Erməni terrorizmi. Bakı: Adiloğlu, 2006, 544 s.
50. Bir daha «Porter əlavəsi» haqqında. // «Qanun», 1996, №7, s.38-41.
51. BMT-nin Nizamnaməsi. BMT-nin Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən tərcümə və nəşr edilmişdir. Bakı. Nəşriyyat və nəşr ili göstərilmir.
52. Böyük gələcək. Buraxılışa məsul: Fəzail Ağamalı. Bakı: Ocaq, 2003, 260 s.





53. Dağlıq Qarabağ: zəka qalib gələcək. Sənədlər və materiallar. Bakı: Azərnəşr, 1999, s. 316-318.
54. Dağlıq Qarabağ: Hadisələrin xronikası (1988-1994-cü illər). Bakı: Vətən, 2005.
55. Dağlıq Qarabağ silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında. // «Azərbaycan» qəzeti, 21 fevral 2001-ci il.
56. Dövlət başçılarının ümumavropa görüşü. Helsinki, 8-10 iyul 1992 (Sənədlər və materiallar). Bakı: Şərq-Qərb, 1992, 40 s.
57. Erməni cinayətləri (sənədlər əsasında). I cild. Milli Təhlükəsizlik Nazirliyi. Bakı: Vətən, 2004, 164 s.
58. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: Gənclik, 1995, 464 s.
59. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi = Армяно-азербайджанский, нагорно-карабахский конфликт / Azərbaycan Respublikası Milli Məclisi aparatının analitik informasiya tədqiqat sektoru, AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu. Bakı: Milli Məclisin nəşri, n. i. y., 80 s.
60. Əbilov A.V. Avropa Şurası və Azərbaycan / elmi red. A. Rəcəbli. Bakı: Qapp-poliqraf NPK, 2001, 100 s.
61. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı: Turan, 1998, 137 s.
62. Əhmədov E. Münaqişənin Avropa Şurası, Avropa Birliyi və İslam Konfransı Təşkilatında müzakirəsi. Bakı: Azərnəşr, 2000, 140 s.
63. Əliyev H. Ə. Azərbaycan nefti dünya siyasətində. IV-V kitablar. Bakı, 1997.
64. Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. I kitab: iyun, 1993 - may, 1994 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 1997, 612 s
65. Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. II kitab: may, 1994 - dekabr, 1994 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 1997, 604 s.
66. Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar.

III kitab: dekabr, 1994 - iyun, 1995 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 1997, 488 s.

**67.** Əliyev H Ə.. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. IV kitab: iyun, 1995 - noyabr, 1995 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 1997, 528 s.

**68.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. V kitab: noyabr, 1995 - mart, 1996 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 1998, 500 s.

**69.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. VI kitab: mart, 1996 - iyun, 1996 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 1998, 511 s.

**70.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. VII kitab: iyun, 1996 - noyabr, 1996 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 1998, 520 s.

**71.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. VIII kitab: noyabr, 1996 - mart, 1997 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 1998, 488 s.

**72.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. IX kitab: mart, 1997 - may, 1997 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2000, 466 s.

**73.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. X kitab: may, 1997 - iyul, 1997 / bur. məsul R.Ə. Mehdiyev. Bakı: Azərnəşr, 2002, 472 s.

**74.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XI kitab: iyul, 1997 - avqust, 1997 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2003, 452 s.

**75.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XII kitab: avqust, 1997 - oktyabr, 1997 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2004, 432 s.





**76.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XIII kitab: oktyabr, 1997 - dekabr, 1997 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2004, 520 s.

**77.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XIV kitab: dekabr 1997 - fevral 1998 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2005, 520 s.

**78.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XV kitab: mart, 1998 - iyun, 1998 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2004, 528 s.

**79.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XVI kitab: iyun, 1998 - iyul, 1998 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2004, 552 s.

**80.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XVII kitab: iyul 1998 - oktyabr 1998 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2006, 258 s.

**81.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XVIII kitab: oktyabr, 1998 - dekabr, 1998 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2006, 552 s.

**82.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XIX kitab: yanvar, 1999 - aprel, 1999 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2006, 528 s.

**83.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XX kitab: aprel, 1999 - iyul, 1999 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2007, 536 s.

**84.** Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: cıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar.

XXI kitab: iyul, 1999 - sentyabr, 1999 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2007, 480 s.

85. Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: cıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XXII kitab: sentyabr, 1999 - noyabr, 1999 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2007, 528 s.

86. Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XXIII kitab: noyabr, 1999 - dekabr, 1999 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2008, 480 s.

87. Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XXIV kitab: dekabr, 1999 - fevral, 2000 / bur. məsul R. Ə. Mehdiyev. Bakı: Azərnəşr, 2008, 504 s.

88. Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XXV kitab: fevral, 2000 - mart, 2000 /bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2008, 520 s.

89. Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XXVI kitab: mart, 2000 - aprel, 2000 /bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2009, 512 s.

90. Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XXVII kitab: aprel, 2000 - iyun, 2000 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2009, 496 s.

91. Əliyev H Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XXVIII kitab: İyun, 2000 - iyul, 2000 / bur. məsul R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2009, 480 s.

92. Əliyev H.Ə. Qayıdış. 1990-1993. Bakı: Azərnəşr, 1996, 791 s.

93. Əliyev Iqrar. Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr. Bakı, Elm, 1989, 120 s.

94. Əliyev İ.H. Azərbaycan-Amerika strateji əməkdaşlığının üfüqləri. // Dirçəliş – XXI əsr, 1998, №3-4, s. 32-34.





95. Əliyev İ.H. Mən istənilən səviyyədə istənilən mübarizəyə hazıram. Bakı, 2001.

96. Əliyev İ.H. AŞ PA sədrinin müavini və büro üzvü Ilham Əliyevin çıxışı. // Dirçəliş – XXI əsr, 2003, № 64, s.29-31.

97. Əliyev İ.H. Qafqaz bütün hərbi bazalardan azad olmalıdır (23 yanvar 2004-cü il «Fiqaro» qəzetinə verdiyi müsahibə). // Dirçəliş – XXI əsr, 2004, № 71, s.5-8.

98. Əliyev İ.H. Azərbaycan prezidenti Ilham Əliyevin Fransa Beynəlxalq Əlaqələr Institutunda görüşü. // Dirçəliş – XXI əsr, 2004, № 71, s.15-28.

99. Əliyev C.Ə., Budaqov B.Ə. Türklər, azərbaycanlılar, ermənilər: tarixi həqiqətin soyqırımı. Bakı: Azərnəşr, 2003, 72 s.

100. Əmrahqızı E. Azərbaycan Lissabonda istədiyinə nail oldu. Lissabon sammiti- 96. Bakı: Azərnəşr, 1997, 312 s.

101. Əsədov F., Kərimova S. Çarizmi Azərbaycana gətirənlər. Bakı: Gənclik, 1993. 144 s.

102. Əsgər R. ABŞ-da lobbi hərəkatı. // «Odlar yurdu», 6 mart 1991-ci il.

103. Əziz B. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı: Azərnəşr, 2008, 224 s.

104. Fenomen. Buraxılışa məsul: Fəzail Ağamalı. Bakı: Ocaq, 2003, 264 s.

105. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı: Azərnəşr, 1993, 81s.

106. Güləliyeva A. A. Azərbaycan Respublikasının Avropada təhlükəsizlik və əməkdaşlıq təşkilatında iştirakı. siyasi elm. namiz. ... dis. avtoreferatı. Bakı, 2007, 25 s.

107. Hacıyev Q. Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı torpaq iddialarının nəticəsidir // «Azərbaycan» qəzeti, 21 fevral 2006-cı il.

108. Hacıyev Q. Qarabağın maddi və mənəvi mədəniyyəti // Qarabağ: suallar və faktlar. Bakı, 2004, s. 47-87.

109. Hacıyev Q. Ermənistanın Azərbaycan Respublikasının Qarabağ və Naxçıvan torpaqlarına ərazi iddiaları və bunun nəticələri // Naxçıvan bu gün: islahatlar, perspektivlər. Naxçıvan, 2008, s.112-118

**110.** Həşimi (Cavanşir) A.Ə. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında iqtisadi-siyasi münasibətlər: 1991-1997. Stockholm, 1999, 208 s.

**111.** Heydər Əliyev və Şərq. (Tərt.: Q.Allahverdiyev, V.Sultanzadə). Bakı: Azərnəşr, 2002.

**112.** Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. (Tərtibçi İ.Şükürov). Bakı: Azərnəşr, 1994.

**113.** Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: Elm, 2000, 368 s.

**114.** Həsənov Ə. Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997). Bakı: Azərbaycan Universiteti, 1997, 103 s.

**115.** Həsənov Ə. ATƏT və Azərbaycan: Helsinkidən Lissabona qədər. Lissabon Sammiti 96. Bakı, Azərnəşr, 1997, 312 s.

**116.** Həsənov Ə. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997, 80 s.

**117.** Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: Azərnəşr, 1998, 315 s.

**118.** Həsənov Ə. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması. // Dirçəliş – XXI əsr,2003, № 63,s.39-54.

**119.** Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti: Dərslik. Bakı: Azərbaycan nəşr., 2005, 752 s.

**120.** Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920-ci illər. Bakı: Azərnəşr, 1993, 203 s.

**121.** Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Siyasi elmlər doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2001, 55 s.

**122.** Hüseynova I. Dövlətçilik naminə. Bakı: BUN, 2001, 300 s.

**123.** Hüseynova I. Müstəqilliyimizin təminatçısı (məqalələr, çıxışlar, müsahibələr, rəylər ...). Bakı: Təhsil, 2003, 504 s.

**124.** Hüseynov R. Hər an yadda Qarabağ. // Dirçəliş – XXI əsr, 2003, №63, s.36-47.

**125.** Xalq qəzeti (istinadlar mətndə verilir).





**126.** Xocalı soyqırımı bəşəriyyət tarixində ağır bir cinayət kimi qalacaq // «Azərbaycan» qəzeti, 27 fevral, 1996-cı il.

**127.** Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciət. // Dirçəliş – XXI əsr, 2002, № 48, s. 10-11.

**128.** Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı. // Dirçəliş – XXI əsr, 2002, № 48, s.12-13.

**129.** Xocalı soyqırımının qurbanları. Bakı: Şərq-Qərb, 1999,190 s.

**130.** Xocalı soyqırımı beynəlxalq siyasətin tərkib hissəsi kimi. // Dirçəliş - XXI əsr, 2002, №48, s. 18-19.

**131.** Xocalı faciəsi beynəlxalq cinayət olaraq Ermənistanın Azərbaycan xalqına qarşı məqsədyönlü soyqırımı siyasətinin tərkib hissəsidir. Qətnamə. // Dirçəliş – XXI əsr, 2005, №84-85, s.60-63.

**132.** İbayev V. İslam Konfransı Təşkilatı. Bakı: Azərnəşr, 1998, 96 s.

**133.** İbayev V. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi insan hüquqları kontekstində (Tətbiq olunan hüquq və məsuliyyət məsələləri). Bakı: Azərnəşr, 2001.

**134.** İbayev V. Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüququn CUS COGENS prinsipləri prizmasında. Bakı: Çənlibel, 1999, 128 s.

**135.** İbrahimli F. Qarabağ düyünü.// Qarabağ dünən, bu gün və sabah. Bakı, 2005, s.62-65.

**136.** İmanov R. Azərbaycanın ərazi bütövlüyünə qəsd – qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti. Bakı: Adiloğlu, 2005, 260 s.

**137.** İsmayılov F. Dağlıq Qarabağ probleminin bəzi geosiyasi kökləri. // Dirçəliş -XXI əsr, 2001, 4 (38), s.80-86.

**138.** İsmayılov F. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı: Azərbaycan Milli Ensklopediyası, 2001, 152 s.

**139.** İsmayılov F.C. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ABŞ-ın mövqeyi. tarix elm. namiz. ... dis. avtoreferatı. Bakı, 2005, 27 s.

**140.** İsmayılov F., Həsənov S. ATƏT-in Minsk qrupu: Dağlıq Qarabağ münaqişəsinin gerçəklikləri və həlli yolları. // Dirçəliş -XXI əsr, 2002, №53, s.117-125.

**141.** İsmayılov Ə., Əliyev Q. Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi. Bакı: Təbib, 1998, 150 s.

**142.** Kəngərli Q. Erməni lobbisi və Azərbaycan faciəsi. Bакı: Yazıçı, 1992, 276 s.

**143.** Kərimova S. Böyük erməni xülyası və Böyük Pyotr. // «Azərbaycan» qəzeti, 22 iyun 1990-cı il.

**144.** Kərimova S. Çarizmin Azərbaycanı işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu. Bакı: Azərnəşr, 1995, 191 s.

**145.** Köçərli T. Qarabağ (Qarabağ tarixinin saxtalaşdırılması əleyhinə). Bакı: Elm, 2002, 472 s.

**146.** Köçərli T. Qarabağ: yalan və həqiqət. Bакı: Əbilov, Zeynalov və oğulları, 1998, 244 s.

**147.** XXI əsrə sülh körpüsü: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının İstanbul Zirvə görüşü ilə əlaqədar Türkiyəyə səfəri: 17-20 noyabr 1999-cu il / Azərbaycan Respublikası Prezidentinin Katibliyi. Bakı, 2000, 213 s.

**148.** Qarabağ müzakirə olunur / tərt. Ə. Həsənov; red.: F. Məmmədov, Z. Şamilov, S. İsayev. Bakı, 2006, 324 s.

**149.** Qarabağnamələr. I və II kitablar. Bakı: Yazıçı, 1989-1991.

**150.** Qarabağ: suallar və faktlar. Bакı: Qismət, 2002, 230 s.

**151.** Qarabağda qırğın, Xocalı faciəsi. Helsinki HUMAN RIGHTS WATCH məruzəsində.// Dirçəliş - XXI əsr, 2003, №60, s.33-39.

**152.** Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bакı: Gənclik, 1996, 135 s.

**153.** Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bакı: «Mütərcim», 1997, 124 s.

**154.** Qeybullayev Q. Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı: Elm, 1990, 236 s.

**155.** Qəndilov S. Azərbaycanın xarici siyasətinin başlıca istiqamətləri (iyun 1993-1997-ci illər). // Bакı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 1998, № 1.





**156.** Qlobal üfüqlər. Prezident H.Əliyevin ABŞ səfəri. Bакı: Azerbaycan International, 1997, 68 s.

**157.** Qurbanlı M. Əsrə bərabər 10 il (1991-2001). Bакı: Ozan, 2001.

**158.** Quliyev C. Dağlıq Qarabağ: millətin tale məsələsi. // «Kommunist» qəzeti, 20 mart 1991-ci il.

**159.** Quliyev C. Tarix: düşüncələr, mülahizələr, qeydlər... (1953-2003). Bакı: Elm, 2004, 764 s.

**160.** Quliyev H. Rusiyanın Azərbaycan strategiyası. // Avrasiya dosyası, 1996, cild 3, sayı 4, s. 201.

**161.** Quluzadə V. Gələcəyin üfüqləri (Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər). Bакı: Azərbaycan, 1999, 288 s.

**162.** Lissabon sammiti-96. Tərt.: Ə.Həsənov, Ş.Şahməmmədov. Bакı: Azərbaycan, 1997, 312 s.

**163.** Mustafazadə T.T. XVIII əsrdə Rusiya imperiyasının işğalçılıq siyasətində dini amillər. // Altay dünyası, 1998, s.75-80.

**164.** Mahmudov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər (Azərbaycan, ingilis, fransız, ərəb, alman və rus dillərində). Bакı: Təhsil, 2005, 380 s.

**165.** Mahmudov Y. Yeni Azərbaycanın qurucusu. // Tarix və onun problemləri, 1998, №2, (4), s.6-19.

**166.** Mahmudov Y. Azərbaycan dövlətçiliyinin xilaskarı. Bакı: Altay, 1998, 44 s.

**167.** Mahmudov Y. Qurtuluş mübarizəsinin qalibi. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş elmi konfransın materialları. //BDU - 27-29 may. II cild, humanitar və sosial-siyasi elmlər. Bакı, 1998, s.5.

**168.** Mahmudov Y. Heydər Əliyev müstəqilliyimizin qarantıdır. // Bакı Universiteti qəzeti. 18 oktyabr 2001-ci il.

**169.** Mahmudov Y. Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk parlamentli respublikadır. «Azərbaycanın dövlətçilik tarixinə mühüm bir baxış». III məqalə // Bакı Universiteti Xəbərləri (humanitar elmlər seriyası), 2001, №3, 108-121 s.

**170.** Mahmudov Y. Ata yurdumuzun Atatürkü. // Dirçəliş - XXI əsr, 2002, №52, s.46-54.

171. Mahmudov Y. Heydər Əliyev Yeni Azərbaycanın qurucusudur «Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış». VI məqalə. // Bakı Universiteti Xəbərləri (humanitar elmlər seriyası), 2002, №2, s.78-93.

172. Mahmudov Y.Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002,326 s.

173. Mahmudov Y. Heydər Əliyev – Dünya tarixinin azərbaycanlı dahisi. //Dirçəliş - XXI əsr, 2003, № 69, s.23-41.

174. Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. Bakı, 2000, 203 s.

175. Mehdiyev R. Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr. // Dirçəliş - XXI əsr, 2003, №64, s.58-87.

176. Mehdiyev E. Münaqişələr. Üçüncü tərəfin münaqişələrin həllində rolu. Bakı, 2000.

177. Məhərrəmzadə A. Dağlıq Qarabağ münaqişəsi Türkiyə-Ermənistan münasibətləri kontekstində. // «Filologiya məsələləri». Bakı, 2004, № 5, s. 233-240.

178. Məhərrəmzadə A. Türkiyə və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Tarix elmləri namiz. ... avtoreferatı. Bakı, 2007, 26 s.

179. Məmmədli A. Ermənilərin gerçək tarixi. Bakı: Elm,2005,436 s.

180. Məmmədov A. Beynəlxalq münasibətlər. Bakı, 2002, 206 s.

181. Məmmədov A. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. // Dirçəliş - XXI əsr, 2005, №84-85, s.178-193.

182. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı: Azərbaycan, 1992, 72 s.

183. Məmmədov İ. Erməni-azərbaycanlı münasibətləri tarixinə dair. // Dirçəliş - XXI əsr, 2005, s.136-148.

184. Məmmədov N.Azərbaycanın Şuşa qəzası (1900-1917). Bakı: Nurlan, 2005, 169 s.

185. Məmmədov N. Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti iyun 1941-dekabr 1950-ci illərdə. Bakı: Elm, 2006, s.38.

186. Məmmədova H.İ. Qarabağ General qubernatorluğunun erməni təcavüzünə qarşı mübarizəsi tarixindən səhifələr. Bakı: Şirvannəşr, 1999, 74 s.





187. Məmmədova H.İ. Xocalı: Şəhidlər, şahidlər. Bakı: Yeni nəşrlər evi, 2003, 197 s.

188. Məmmədova H.İ. Azəbaycan Xalq Cümhuriyyəti Dövründə Yuxarı Qarabağda Siyasi vəziyyət. Erməni terrorizminin güclənməsi (1918-1920). Bakı: Nağıl Evi, 2006, 149 s.

189. Məmmədova H.İ. Qarabağ General Qubernatoru Xosrov Bəy Sultanov // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1999, №2, s. 54-59.

190. Məmmədova H.İ. 1918- 1920- ci illərdə ermənilərin Azərbaycanın Qarabağ Bölgəsində törətdikləri cinayətkar hərəkətlər haqqında // Tarix və onun problemləri,1999, №1, s.113-118.

191. Məmmədova H.İ. Qisas qiyamətə qalmaz // "Dirçəliş -XXI əsr", 2005, №84-85, s.64-70.

192. Məmmədova H.İ. Ermənilərin Dağlıq Qarabağda etnik təmizləmə siyasətinə dair // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 2006, № 7, s.3-11.

193. Məmmədova H.İ. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, onun tarixi kökləri və əsl mahiyyəti // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 2007, № 8, s.87-93.

194. Məmmədova H.İ. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ Münaqişəsinin beynəlxalq nizamlanmasının İlham Əliyev mərhələsi // Dövlət İdarəçiliyi Nəzəriyyə və təcrübə, 2007, № 4 (20), s.156-164.

195. Məmmədova H.İ. Azərbaycanın Qarabağ bölgəsində erməni separatizminin acı təzahürləri // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Təbiət, humanitar və pedaqoji-psixoloji elmləri seriyası, 2008, №1, s.83-93.

196. Məmmədova H.İ. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ Münaqişəsinin Nizamlanması prosesində İslam Konfransı Təşkilatının (İKT) iştirakı // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Təbiət, humanitar və pedaqoji- psixoloji elmləri seriyası, 2008, №5, s.52-56.

197. Məmmədova H.İ. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ Problemində Rusiya amili // Dirçəliş -XXI əsr", 2008, №122-123, s.234-246.

**198.**Məmmədova H.İ. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə Fransanın münasibəti // Journal of Qafqaz University An International Journal Social Science, 2008, № 24, s.3-9.

**199.**Məmmədova H.İ. Yuxarı Qarabağda Müvəqqəti General – Qubernatorluğunun yaradılmasi və erməni separatizminin ləğv edilməsi // Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu Nəşriyyatı, 2008, №6, s.411-438.

**200.**Məmmədova H.İ. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasinda ATƏT-in vasitəçilik missiyası // Dirçəliş -XXI əsr", 2009, №135-136, s.160-167.

**201.**Məmmədova H.İ. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan-İran münasibətləri // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Təbiət, humanitar və pedaqoji-psixoloji elmləri seriyası, 2009, № 6, s.32-39.

**202.**Məmmədova H.İ. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində Avropa Birliyinin fəaliyyəti // AMEA-nın Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2009, №3, s. 107-115.

**203.**Məmmədzadə M. Ermənilər və Iran. Bakı: Azərnəşr, 1993,42 s.

**204.**Muxtarova Ə. Heydər Əliyev və türk dünyası. // Tarix və onun problemləri, 2003, №1, 100-114 s.

**205.**Mustafa N. Ermənilər öz dövlətlərini yaratmaq üçün nə qədər rüşvət vermişlər.//«Yeni Azərbaycan» qəzeti, 5 avqust 1993-cü il

**206.**Mustafayev R. Azərbaycan və yeni dünya. Bakı, 1993, 62 s.

**207.**Mustafayev R. Azərbaycan və dünya: ilkin xarici siyasi kapital yığımı konsepsiyası. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 64 s.

**208.**Mustafayev R. Azərbaycan dövlətçiliyi. Özümüzü və dünyanı dərketmə yolunda. Bakı, 1995, 233 s.

**209.**Mustafayev R. Fikir azaddır. Bakı, 2000, 294 s.

**210.**Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Elm, 1996, 207 s.





**211.**Musayev İ. Azərbaycan-Ermənistan sazişi və konfransı (1919-cu il) // Qarabağ dünən, bu gün və sabah. I Ümumrespublika elmi-əməli konfransı. Bakı, 2002, s.87-91.

**212.**Münaqişələrin həlli və sülh quruculuğu. Bakı, 2004, 220 s.

**213.**Müasir geopolitika (tərtib edəni M.Qasımov). Bakı: Azərbaycan, 1999, 36 s.

**214.**NATO-nun Sülh Naminə Tərəfdaşlıq: çərçivə sənədi, Brüssel, 10-11 may 1994.

**215.**Nəcəfov Ə. Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin tarixindən (1923-1990-cı illər). Bakı: Səda, 2000, 232 s.

**216.**Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı: Nurlan, 2007, 248 s.

**217.**Nərimanov N. Məktublar və Qarabağ məsələsinə dair sənədlər. Bakı: Nurlan, 2002, 104 s.

**218.**Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996, 304 s.

**219.**Nəsibzadə N. Iranda Azərbaycan məsələsi. Bakı: Ay - Ulduz, 1997, 192 s.

**220.**Nəsibov E. M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. Elmi red. S. M. Qəndilov. Bakı: Çıraq, 2006, 312 s.

**221.**Nəsirov E. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər). Bakı: Qanun nəşriyyatı, 1998, 136 s.

**222.**Novruzoğlu R. XXI əsr...Dünyanın sonu?.. Azərbaycandan baxış (Dövlətçiliyimiz üçün təhlükə mənbələri). 5 cilddə, II cild. Bakı: Planet Press, 2005, 440 s.

**223.**Novruzoğlu R. XXI əsr...Dünyanın sonu?.. Azərbaycandan baxış (Dövlətçiliyimiz üçün təhlükə mənbələri). 5 cilddə, III cild, Bakı: Planet Press, 2006, 492 s.

**224.**Novruzoğlu R. Genosid...Ecosid. Bakı: Adiloğlu, 2006, s.544.

**225.**Onullahi S. Erməni millətçiləri və Iran. Bakı: Maarif, 2002,91 s.

**226.**Ordubadi M.S. Qanlı illər. Bakı: Qarabağa xalq yardımı, 1991, 144 s.

**227.**Orucov H. Irəvan, Naxçıvan və Zəngəzur soyqırımı. Bakı: Az.TU, 1994, 48 s.
**228.**Paşayev A. Köçürmə. Bakı: Azərnəşr, 1995, 40 s.
**229.**Paşayev A. Ermənilərin ərazi iddiaları necə yaranmışdır? // Dirçəliş - XXI əsr, 2001, № 41, s. 45-53.
**230.**Paşayev A. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında). DDA. Bakı, 2008.
**231.**Paşayeva E. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və Iran münasibətlərində Azərbaycan problemi. Bakı: Nurlan, 2004, 160 s.
**232.**Rəcəbli H. BMT-nin ixtisaslaşmış qurumları. Bakı,2003,256 s.
**233.**Rəcəbli H., Ibayev V. Avropa Şurası. Bakı, 1999, 118 s.
**234.**Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı: Adiloğlu, 2005, 236 s.
**235.** Ruintən K.F. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti. Elmi red. M.C.Qasımlı; red. S.Ruintən. Bakı:Adiloğlu, 2008, 260 s.
**236.**Rüstəmov A. Erməni təcavüzünün xronikası. Bakı: Elm, 1994, 24 s.
**237.** Sayadov S. XX əsr: Azərbaycan və dünya. Bakı: Elm, 2006,186 s
**238.**Seyidzadə D. Azərbaycanı XX əsrin əvvəllərində müstəqilliyə aparan yollar. Bakı, 1998, 253 s.
**239.**Səlimbəyli Ş. Ə., Zamanov N. Z., Əliyev R. Y. Erməni terroru: Qarabağda müharibənin başlaması: hadisələr..., faktlar... / red. N. Abdulov. I kitab. Bakı: Avropa nəşriyyatı, 2008, 400 s.
**240.**Səmədov A. Prezident Ilham Əliyev. Birinci cild. «Dəyanət». Bakı: CBS, 2007, 483 s.
**241.** Səmədov A. Prezident Ilham Əliyev. İkinci cild. Inkişafın Azərbaycan yolu. «Narıncı» fəlakətdən qurtuluş. Bakı: CBS, 2007, 574 s.
**242.**Səmədzadə Z. Dağlıq Qarabağ: naməlum həqiqətlər. Bakı: Vətən, 1995, 83 s.
**243.**Səmyuel A. Uimz. Ermənistan-terrorçu «xristian» ölkənin gizlinləri. Ermənilərin böyük fırıldaq seriyaları. I cild. Bakı, 2004, 283 s.
**244.**Sərhəd anlaşmazlığının həlli məsələsində iki ölkə rəhbərliyi arasında danışıqlar hələ davam etməkdədir. Prime-News, Tiflis, 22 may 2001. PanArmenian News, Mediamax, Erivan, 12.01.2001.





**245.**Sofiyev M. Türkiyə-Azərbaycan əlaqələrində yeni mərhələ // Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş elmi konfransın materialları. BDU - 27-29 may. II cild, humanitar və sosial-siyasi elmlər. Bakı, 1998, 48 s.
**246.**Sultanov Z. Qarabağ gündəliyi. Bakı, 1991, 67 s.
**247.**Sultanov O. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995, 140 s.
**248.**Süleymanov M. Azərbaycan ordusu (1918-1920). Bakı: Hərbi nəşriyyat, 1998, 488 s.
**249.**Tariximizin faciəli səhifələri. Soyqırımı (Azərbaycan və ingilis dillərində). Bakı: MM, 2000, 146 s.
**250.**Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı: Elm, 2004, 180 s.
**251.**Veliçko V. Rus işi və tayfalararası məsələlər (tərcümə edən V.Quliyev) Bakı: Azərnəşr, 1995, 192 s.
**252.**Vəlili M. Azərbaycan (coğrafi-təbii, etnoqrafiq və iqtisadi mülahizat. Bakı: Azərnəşr, 1993, 208 s.
**253.** Vəliyev I. Deportasiya. // Dirçəliş - XXI əsr, 1998, №2, s.58-68.
**254.**Vəliyev A. İ. Azərbaycan-Avropa Şurası: demokratiya və insan hüquqları sahəsində əməkdaşlıq. Elmi red. Ə. M. Həsənov. Bakı: Elm, 2006, 236 s.
**255.**Yusifzadə S. XX əsrin əvvəllərində Orta Şərqdə Ingiltərə ilə Rusiya arasında rəqabət və Azərbaycan. // Dirçəliş - XXI əsr, 2003, № 69, s.124-132.
**256.**Zaqafqaziya seyminin müsəlman fraksiyası və Azərbaycan milli şurası iclaslarının protokolları. 1918-ci il. Bakı: Adiloğlu, 2006, 216 s.

## II. Türk dilində

**257.**Anadol C., Abbası N. 100 soruda ermeni meselesi. Istanbul: Çetin matbaçılıq, 2000, 416 s.
**258.**Atnur I. Muxtariyyat ərəfəsində Naxçıvan. Naxçıvan: NDU-Qeyrət, 1999, 442 s.

259.Attar A. Karabağ sorunu кapsamında ermeniler ve ermeni siyaseti. Anкara: Atatürк, 2005, 224 s.
260.Atilla I., Suat I. Türкlerin jeopoliti ve Avrasiyacılıк. Anкara, 2005, 223 s.
261.Aydın M. Ermenistanla ilişкiler.// Türк Dış Politiкası. Basкın Oranın redaкtəsi ilə, 3 cilddə, I cilt. Istanbul, 2001, s. 407.
262.Bal I. 21. yüzyılda Türк Dış Politiкası. Geliştirilmiş 2. Basкı. Anкara, 2004.
263.Cəfərsoy N. Müstəqilliyin onuncu ilində Azərbaycan-Rusiya əlaqələri (1991-2001). // Avrasiya dosyası (üç aylıq uluslararası ilişкiler ve stratejiк araştırmalar dergisi). Anкara, 2001, cild VII, №1. s.300.
264.Çiloğlu F. Rusiya Federasyonunda ve Transкavкasyada etniк çatışmalar. Istanbul, 1998.
265.Demir A. Türк Dış politiкası perspeкtifinden Güney Kavкasya. Anкara, 2003, 358 s.
266.Erməni iddiaları və tarihi gerçeкliкler. Dışişləri Baкanlığı. Stratejiк Araşdırmalar Merкezi, 1998, Anкara, 72 s.
267.Gediкli Y. Enver Paşa (nitqləri, məqalələri, bəzi bəyannamə və məкtubları). Istanbul, 2006.
268.Gömeк S. Türк Cümhuriyyetleri ve Topluluкları tarihi. Anкara, 1999.
269.Gürses E. Kafкasyada uluslararası reкabet.// Avrasiya dosyası (üç aylıq uluslararası ilişкiler ve stratejiк araştırmalar dergisi). Anкara, 2001, cild 7, sayı 1, s.250-273.
270.Gül N. Azərbaycan vətəndaşlığından Ermənistan dövlət başкanlığına: Robert Koçaryan.// Avrasiya dosyası (aylıq uluslararası ilişкiler ve stratejiк araştırmalar dergisi), Anкara, 11 mart 2000, cild 7, sayı 1.
271.Gül N. 21.Yüzyilin Başlanğıcında Haydat (ermənilərin davası).// Avrasiya dosyası (aylıq uluslararası ilişкiler ve stratejiк araştırmalar dergisi), Anкara, 2001, sayı 2, s.25-28.
272.Gül N., Eкici G. Azərbaycan və Türкiyə ilə bitməyən qan davası eкseninde Ermənistanın dış politiкası.// Avrasiya dosyası (üç aylıq uluslararası ilişкiler ve stratejiк araştırmalar dergisi), Anкara, 2001, cild 7, sayı 1, s.367-392.





273.Hüseyn N. Hatiralarım. Ermeni olaylarının iç yüzü. Istanbul: Selis кitablar, 2003, 320 s.
274.Kamal S. Ermənilərin soyqırım günü!!! //Məcəlleyi Ərdəm. Nəşriyeyi elmi, fərhəngi və ectemaiye daneşcuyane torкe Daneşqahe Tehran. Sale dovvom, №6, Xordad 1382, s.56-57.
275.Kalafat Y. Azərbaycan-Iran bağlamında Güney Kafкasiyada etno-sosyal yapı.// Avrasiya dosyası (üç aylıq uluslararası ilişкiler ve stratejiк araştırmalar dergisi), Anкara, 2001, cild 7, sayı 1, s.221-250.
276.Karabağ savaşı: siyasi-hukuki-ekonomik analiz / O. N. Aras [et al.]; ed. O. N. Aras. Bakü: Qafqaz Üniversitesi nəşri, 2008, 194 s.
277.Koçaş M. Tarixdə ermənilər və türк-erməni münasibətləri. Baкı: Azərbaycan ensiкlopediyası NPB, 1998, 160 s.
278.Kibaroğlu M. Rusiyanın Yeni Ulusal Konsepti ve Asкeri Doкtrini.// Avrasiya dosyası, Rusya Özel, кış 2001, cilt 6, sayı 4, s.96-106.
279.Libaridyan G. Ermənilərin dövlətləşmə imtahanı – müstəqilliкdən bu günə erməni siyasi düşüncəsi.// Iletişim yayınları, Istanbul, 2001, s.12.
280.Memmedova H.İ. Hocalı Hakkında Hemişe Düşünmeliyik // Degirmen. Aylık haber ve kültür dergisi Yıl: 2 sayı: 16 Mart: 2002, s. 33-34.
281.Memmedova H.İ. Qondarma Ermeni Genosidi ve XX Esrin Hocalı Faciesi. Aylık kültür ve haber dergisi Avrupa Yıl:1 sayı: 1 15 Eyül 2002, s. 27.
282.Memmedova H.İ. Hocalı tarihi -1. Aylık kültür ve haber dergisi Avrupa Yıl: 1 sayı: 5 Ekim 2003, s.40-41.
283.Memmedova H.İ. Dağlık Karabağ Çatışmasının Çözümlənme Sürecinde Haydar Aliyevin Diplomasi Yöntemi. Orta Asya ve Kafkasya araştırmaları. Ankara, 2009, Cilt: 4, № 7, Qrta Asya ve Kafkasya araştırmaları Dergisi, s.163-192.
284.Memmedova H.İ. Ermənıstan Saldırganlığı Karşısında Birleşmiş Milletlerin Tutumu. Akademik Bakış Cilt 2 sayı 4 Yaz 2009, June 2009, s.25-33.

**285.**Memmedova H.İ. Ermeni Propagandası ve ya Mültecive Dağlık Karabağ da Etnik Temizleme Politikası. Jeopolitik Eylül-2009 Yıl-8 sayı 68, s.46-52.

**286.**Muşovdağlı E. Iran Islam Cumhuriyyetinde ermeni sesi.// Avrasiya dosyası (aylıq uluslararası ilişкiler ve stratejiк araştırmalar dergisi), Anкara, 2000, sayı 7, s.62-65.

**287.**Oğan S. Azerbaycanın tanımlanamayan eкonomisi və Türкiyə ile eкonomiк ilişкileri.// Avrasiya dosyası (3 aylıq uluslararası ilişкiler ve stratejiк araştırmalar dergisi), Anкara, 2001, cild VII, №1, s.56-85.

**288.**Özçeliк I. Karabağ tarihi ve Karabağda ermәni olayları. Anкara: Bilge yayım evi, 2003, 115 s.

**289.**Rehimli E. Güney Azerbaycanlı yazardan ermenilere yetкin cevab.// Avrasiya dosyası (aylıq uluslararası ilişкiler ve stratejiк araştırmalar dergisi), Anкara, 2002, sayı 27, s.157-160.

**290.** Saray M. Ermenistan ve türк - ermeni ilişкileri. Anкara: Özgir ofset, 2005, 259 s.

**291.** Sarıəhmədoğlu N.K. Dağlıq Karabaк olaylarının perde arкası.// Cacasus: War And Peace: The new World Disorder and Caucasia, red. Mehmed tütünçü. Harlem: SOTA, 1998, s.202-203.

**292.** Selvi H. Türкiye-Ermenistan ilişкilerinin halhazir durumu ve geleceği.// Stratejiк Araştırmalar Dergisi № 2, Anкara, Eylül 2003, s.22.

**293.** TC Dış ticarət müsteşerligi Baкı Böyüк elçiligi, Böyüк müşavirligi verileri.

**294.** Uluslararası suçlar və Tarih. Anкara, 2 avqust 2006, 253 s.

**295.** Ülкü I. Bağımsızlıкtan sonra Azerbeycan. Istanbul, 2000.

### III. Rus dilində

**296.** Аббасбейли А., Аббасбейли Е. Гейдар Алиев и мировая политика. Баку: Азернешр, 1997.

**297.** Аббасбейли А., Гасанов А. Азербайджан в системе международных и региональных организаций / ред. И. Шукюров. Баку: Азернешр, 1999, 256 с.





**298.** Аббасзаде Ф. Функционирование механизмов ООН по предотвращению, управлению и разрешению споров и конфликтов. Автореф. дисс. канд. пол. наук. Баку, 2001, 26 с.

**299.** Агаян Ц. Победа советской власти и возрождение армянского народа. М.: Мысль, 1981, 224 с.

**300.** Азербайджан принят в семью Европейских стран. // Возрождение - XXI в, 2001, 3(37), с. 3-4.

**301.** Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Баку: Элм, 1998, 616 с.

**302.** Али К. Карабахский разговор (размышления вслух с Тофиком Зульфугаровым) // Зеркало, 3 июня 2000 г.

**303.** Алиев И. Лжеистория – попытка оправдать агрессию. Баку: Элм, 2003.

**304.** Алиев Г. Обращение к азербайджанскому народу в связи с восьмой годовщиной Ходжалинского геноцида // Бак.рабочий, 26 февраля 2000 г.

**305.** Алиев А. Армяно-азербайджанская война: пут к победе. // Зеркало, 12, 26 февраля; 12, 19 марта; 2 апреля 2005 г.

**306.** Алиев И. Каспийский нефть Азербайджана. М.: Известия, 2003, 712 с.

**307.** Алиев Дж., Будагов Б. Турки, азербайджанцы, армяне: «Геноцид» исторической правды. М., 2002, 52 с.

**308.** Алиев Н. Г. Вопросы международного права в Нагорно-Карабахском конфликте. Тбилиси: Универсал, 2009, 98 с.

**309.** Алиев Т. Ч. Внутренняя и внешняя политика Азербайджанской Республики на пути вступления в Совет Европы. Баку: QAPP-POLIQRAF NPK, 2002, 68 с.

**310.** Алиева С. Карабахский излом. // Мнение ежемесячный общественно – политический журнал, 1 ноябрь 1997, с. 4, 7.

**311.** Ансари Т. Опасные игры Еревана. // Регион плюс. Аналитический взгляд, №3 (3), 27 март 2006, с.9, 11.

**312.** Араслы Дж. «Дикие гуси» в полях Карабаха. // Мнение ежемесячный общественно – политический журнал, 2 (4) февраля 1998 г., с.14-18.

**313.** Аракелов Р. Нагорный Карабах. Виновники трагедии известны. Баку: «Шярг-Гярб», 1991, 92 с.

**314.** Армяно-русские отношения. Сб. документов. т. 3, Ереван: АН Армян. ССР, 1978, 409 с.

**315.** «Армянский геноцид»: миф и реальность. Справочник фактов и документов. Баку, 1992, 127 с.

**316.** Асадов С., Мамедов И. Терроризм: причина и следствие. Баку: Азернешр, 2001, 243 с.

**317.** Асадов С. Философия реваншизма или армянская кровожадность. Баку: Изд. Азербайджан, 2001, 216 с.

**318.** Ахари Р. Организация по опасности и сотрудничеству в Европе и конфликт Нагорного Карабаха. // Аму-Дарья, 2002, №11.

**319.** Ахундов Ф. Никакие фальсификации не помогут армянам уничтожить следы своей пришлости. // Регион плюс. Аналитический взгляд, №3 (3), 27 март 2006, с.7, 8.

**320.** Ахундов Ф. 50-миллионный народ сжимается в единый кулак (Итоги Сьезда азербайджанцев мира).// Регион плюс. Аналитический взгляд, №3 (3), 27 март 2006, с.4, 6.

**321.** Бабаева С. Хосров Султанов генерал-губернатор Карабаха // г. «Азербайджан», 28 мая 1993 г.

**322.** Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку: Элм, 1998, 280 с.

**323.** Бахрамов Дж. О чем говорится в справке прокурора Эчмиадзинского Синода А.Френкеля от 1907 года святейшему синоду русской православной церкви для передачи царю Николаю II // Азербайджан и азербайджанцы. 2005, № 1-6, с. 128-132.

**324.** Баяндурлу И. Минская группа не может решить Карабахскую проблему за Азербайджан и Армению, заявил ее новый сопредседатель Бернар Фасье. // Зеркало, 28 января 2005 г.

**325.** Баяндурлу И. Дашнаки опередили нацистов на четверт века. // Зеркало, 22 апреля 2006 г.

**326.** Беттлер А. Контуры мира в первой половине XXI века и чуть далее (теория). // Мировая Экономика и Международные Отношения, 2002, №1, с.73.





**327.** Бовин А. Мирное сосушествование: история, теория, политика. М.: Международные отношения, 1988.

**328.** Браунбек С. Преследуя стратегию Шелкового пути. Великий щелковый путь и Азербайджан. Баку: Университет Азербайджан, 1998, 130 с.

**329.** Бжезински З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. М.: Международные отношения, 2003, 256 с.

**330.** Величко В. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: Элм, 1990, 224 с.

**331.** Вестник Московского Университета. История.2002,№2, с.8.

**332.** Вердиева Х. Переселенческая политика Российской империи в Северном Азербайджане. Баку: Алтай, 1999, 300 с.

**333.** Вердиева Х., Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан. Баку: Элм, 2003, 168 с.

**334.** Венская Декларация и Программа действий, 25 июня 1993 года. Документ ООН А/ЖОНФ. 157 / 23.

**335.** Востриков С. Карабахский узел как конфликтогенный фактор Закавказии.// «Полис», 1997, №15. с.142-148.

**336.** Гадиров В. Территориальные притязания армян к Гарабагу (80-е годы XVIII - начало XIX века). АКД, Баку, 2007, 25 с.

**337.** Гаджиев А. Н. Россия и Азербайджан: богом избранное родство: сборник статей посвященных многовековой дружбе русского и азербайджанского народов / науч. ред. Р. Н. Иванов. Баку: Ганун, 2007, 296 с.

**338.** Гарабаг: Кюрекчайский договор – 200. Баку: Тахсил, 2005, 176 с.

**339.** Гасанлы Дж. От Куракчайского договора до решения Кавбюро // «Конфликт», 1999, №1, с.22-31.

**340.** Гасанов Т. Тяжелые социально – экономические последствия оккупации Арменией территорий Азербайджана. Баку: Чашыоглу, 2004, 122 с.

**341.** Галоян Г. Рабочее движение и национальный вопрос в Закавказье. Ереван, 1969, с.261.

**342.**Глинка С. Описание переселения армян азербайджанских в пределах России. Баку: Элм, 1990, 144 с.

**343.**Гулиев Дж.Б. К истории образования второй республики Азербайджана. Баку: Элм, 1997, 154 с.

**344.**Гусейнов Г. Армяно-Азербайджанский конфликт. //Возрождение - XXI век, 2001, №4, с.39-46

**345.**Гусейнов М. Оглашены принципы урегулирования карабахского конфликта // Зеркало, 24 июня 2006 г.

**346.**Гусейнова У. Азербайджан-США: перспективы сотрудничества (90-е годы). Баку: Нурлан, 2000, 176 с.

**347.**Гусейнова У. И. Азербайджанская Республика во внешнеполитических интересах США: автореферат дис. ... канд. полит. наук. Баку, 2003, 22 с

**348.**Гулиев Г. Смерть дипломата или к истокам конфликта в Карабахе. Баку: Эргюн, 1995, 135 с.

**349.**Гурко-Кряжин В. Армянский вопрос. Баку: Коммунист, 1990, 15 с.

**350.**Гюрюн К. Армянское досье. пер. Искендера Ахундова. Баку: Язычы, 1993, 374 с.

**351.**Дарабади П., Алиев Н. Геоистория Каспийского региона и геополитика современности. Баку: Элм, 2002, 192 с.

**352.**Дарбинян Р. Болшевизм и Армения. 1920, с.36.

**353.**Дашнаки (из материалов департамента полиции). Баку, 1990, 40 с.

**354.**Двухсотлетие Крабахской трагедии, или последствия договора у реки Курекчай.// Зеркало, 15 февраля 2005 г.

**355.**Дипломатия мира: об итогах визитов Президента Азербайджанской Республики Гейдара Алиева в зарубежные страны: 1993-1997 гг. / авт.-сост. И. Шукуров. Баку: Изд-во Азербайджан, 1997, 391 с.

**356.**Достижения Советского Нагорного Карабаха за 40 лет в цифрах. Степанакерт, 1963, 171 с.

**357.**Дополнительный Протокол 1 к Женевским конвенциям от 12 августа 1949 года, касающиеся защиты жертв международных вооруженных конфликтов, 8 июня 1977 года, статья 1





(4). Центр ООН по правам человека, Права человека: Сборник международных договоров, CT/ЩР/1/Рев.5, том I (Часть II), Нью-Йорк и Женева, ООН 1994, с. 1027-1118.

**358.**Доклад представителя Генерального секретаря ООН по перемещенным внутри страны лицам Фрэнсиса Денга «Анализ практики перемещения: Азербайджан». Документ ООН E/CH. 4/1999/79/Адд.1.

**359.**Джордж С. Квестер. Сосуществование этнических групп: оптимистические уроки прошлого. Этнополитические конфликты в Закавказье: их истоки и пути решения. Колледж Парк Мериленд., США, 1997, 599 с.

**360.**Евросоюз нам поможет.// Регион плюс. Аналитический взгляд, №5 (5), 29 апреля 2006, с.28, 31.

**361.** Если дипломаты молчат, могут заговорить пушки. // Регион плюс. Аналитический взгляд, №5 (5), 29 апреля 2006, с.24, 27.

**362.**Заманов И. От агрессии к агрессии или подлинное лицо армянского шовинизма. Баку, 2001, 762 с.

**363.**Заключительный Акт Совещания по безопасности и сотурудничеству в Европе. Хельсинки, 30 июля – 1 августа 1975 г. М.: Международные отношения, 1987, 96 с.

**364.**Заргаров А. Злой умысел, чуждые голоса. Конфликт в Нагорном Карабахе. Баку: Азернешр, 1990, 268 с.

**365.**Заседание Милли Меджилиса, посвященное обсуждению вопроса о процессе мирного урегулирования Армяно-Азербайджанского, Нагорно-Карабахского конфликта. // Возрождение - XXI век, март 2001, № 3 (37), с.9.

**366.**Зелинский С. Экономический быт государственных крестьян Зангезурского уезда Елизаветпольской губернии //Материалы для изучения экономического быта государственных крестьян Закавказьи. т.IV. Тифлис, 1886.

**367.**Имранлы К. Создание армянского государства на Кавказе: истоки и последствия. М.: Ладомир, 2006, 256 с.

**368.**Из отчета американской гуманитарной организации "World vision International" за ноябрь 1994 года.

**369.**Из писем И. Воронцова-Дашкова Николаю Романову // История Азербайджана по документам и изданиям. Баку, 1990, с.118-120.

**370.**Исторические факты о деяниях армян на азербайджанской земле. Баку: Нурлан, 2003, 358 с.

**371.**Исмайылов М. Правда об армянской агрессии. Баку: Азернешр, 1996, 105 с.

**372.**Исмайылова Х. «Модель Андорры» для Карабаха. // «Эхо», 16 мая 2001 г.

**373.**Исторические записки. М., 1938, с.79-107.

**374.**Исторический взгляд на Карабахскую провинцию // Кавказ, 1850, №100.

**375.**Казимиров В.Н. Мир Карабаху: посредничество России в урегулировании нагорно-карабахского конфликта. М.: Международные отношения, 2009, 456 с.

**376.**Карабахская проблема - взгляд из XXI век. //Зеркало, 20 ноября 2004 г., с.28-33.

**377.**Кариби. Красная книга. Тифлис, 1921.

**378.**Качазнуни О. Дашнакцутюн больше нечего делать. Баку: Элм, 1990, 89 с.

**379.**Кадымбеков З. Нейтрален ли 366-й полк в Степанакерте? // Правда, 24 февраля, 1992 г.

**380.**Кавказский календарь на 1917 год. Тифлис: Типография Канцелярии Наместника Е.И.В. на Кавказе, 1916.

**381.**Керимова Н. И. Сотрудничество Азербайджанской Республики с Европейским Союзом: автореферат дис. ... канд. полит. наук. Баку, 2004, 26 с.

**382.**К истории оброзования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. 1918-1925, (Документы и материалы). Баку: Азернешр, 1989, 334 с.

**383.**Коммюнике 7-ой чрезвычайной сессии Исламской Конференции министров иностранных дел, состоявшейся 7-9 сентября 1994 года в Исламабаде, Пакистан. EX-ICFM/-94/ FC.

**384.**Кто воюет против Азербайджана? //Мнение. Ежемесячный общественно – политический журнал, 2 (4) феврал 1998, с. 35.





**385.**Кто убил Поляничко? //Мнение. Ежемесячный общественно – политический журнал, 2 (4) феврал 1998, с. 47, 49.

**386.**Кулизаде В. Среди врагов и друзей (Статьи, интервью, выступления). Баку, 2002, 228 с.

**387.**Кулиева В. Предистория территориальных притязаний армян. // Азербайджан и азербайджанцы, 2002, № 9-10, с.43-57.

**388.**Лиссабонский документ 1996 года. Лиссабон, 1996.

**389.**Лозанская конференция. // Новый Восток, 1929, №3.

**390.**Маккарти Д., Маккарти К. Тюрки и армяне: Руководство по армянскому вопросу (перевод с анг.).Баку: Азернешр,1996,158 с

**391.** Мамедов И. Трилогия панарменизма (коварная стратегия чередующихся агрессий). Кн.1-3, Баку: Адильоглу, 2006, 136+168+176 с.

**392.**Мамедов Х. Компаративный анализ этнополитических конфликтов на международной арене на современном этапе // «Элм», 14 января 2002 г.

**393.**Мамедов Х. Б. Территориальный фактор в межгосударственных конфликтах с позиции новых аспектов принципа территориальной целостности и права наций на самоопределение на современном этапе. Баку: Элм и Тахсил, 2009, 384 с.

**394.**Мамедов И., Мусаев Т. Армяно–азербайджанский конфликт: история, право, посредничество. Баку, 2008, 196 с.

**395.**Мамедова Г. О походе В.Зубова в Азербайджан (1796 г.). Баку, 2003, 86 с.

**396.**Мамедова Х.И. Ходжалы: Шехиды и Шахиды (Армянский терроризм как составная частъ международного терроризма). Баку: Гаранфил, 2005, 247 с.

**397.**Мамедова Х.И. Армянский сепаратизм в Карабахской области Азербайджана в XX веке // Азербайджан и азербайджанцы, 2009, вып.103-104, №1-2, с.94-103.

**398.**Маммадяров Э. Путь к миру в Нагорно-Карабахском регионе Азербайджанской Республики: через реинтеграцию и сотрудничество, 17 Accord, 2005, с.18-19.

**399.**Меньшиков М. Национальная империя. М.: Политиздат, 2004, 465 с.

400.Мехтиев Э. Некоторые аспекты развития Армяно-Азербайджанского конфликта и усилия для его урегулирования. //Этнополитические конфликты в Закавказье: их истоки и пути решения. Колледж Парк Мериленд. США, 1997, с. 89-90.

401.Мехтиев Р. Межнациональные отношения на исходе XX столетия: проблемы теори и политики. Баку, 1995, 222 с.

402.Мехтиев Р. Реалии геноцида азербайджанцев. Баку: Азернешр, 2000, 203 с.

403.Микоян А. Дорогой борьбы. Кн.1, М., 1971, 242 с.

404.Моисеев Е. Международно – правовые основы сотрудничества стран СНГ. Учебное пособие. Под ред. К.А.Бекяшева. М.: Юрист, 1997, 272 с.

405.Мусаева Т., Мамедов А. Геноцид и террор – испытанные формы борьбы Армении против азербайджанского народа. //Азербайджан и азербайджанцы, 2002, № 15-16.- с.3-11.

406.Мусаев Т. Ф. Правовые аспекты Нагорно-Карабахского конфликта / ред. О. Аббасоглы. Баку: Шарг-Гарб, 2001, 72 с.

407.Мясникян А. Избранные произведения. Ереван, 1965, с.364.

408.Нагорный Карабах: разум победит. Документы и материалы. Баку: Азернешр, 1989, 444 с.

409.Наджафов Э. Западноевропейские подходы к обеспечению мира и стабильности на Южном Кавказе. Эволюция мирового порядка и внешне политическая стратегия России. М., 2003.

410.Наджафов Э. Южный Кавказ: Тернистый путь к безопасности. М., 2005, 266 с.

411.Наджафов М Н. Основные приоритеты дипломатии Азербайджанской Республики на современном этапе. автореферат дис. ... канд. полит. наук. Баку, 2004, 24 с.

412.Нурани. Армения выиграла войну и проиграла мир? // Мнение. Ежемесячный общественно – политический журнал, 2 (4) феврал 1998, с. 9, 12.

413.Новрузоглу Р. Карабах: "Черный рынок" для международного терроризма. / ред. А. Саилов. Баку: Араз, 2003, 245 с.





414.Оганесян Н. Нагорно-Карабахский конфликт и варианты его решения // Этнополитические конфликты в Закавказье: их истоки и пути решения. Колледж Парк, Мериленд., США, 1997,177 с.

415.От Хелсинки до Будапешта. История СБСЕ (ОБСЕ) в документах (1973-1994). т.II. М., 1996.

416.Орбели И. Избранные сочинения. т.1, М., 1963, 344 с.

417.Описание Карабахской провинции (составленное в 1823 году по распоряжению главноуправляющего в Грузии Ермолова). Тифлис, УНК, 1866 Повт. изд. Баку: Нурлан, 2003, 425 с.

418.Осканян В. Государства старые и новые: меняющиеся парадигмы и нелегкий путь к миру в Нагорно Карабахе, 17 Accord, 2005, с. 20-21.

419.О положении в Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР и мерах преодоления кризиса в межнациональных отношениях. // Изв. АН Азерб.ССР. Серия истории, философии и права, 1989, № 4, с.13-28.

420.От агрессии к агрессии или подлинное лицо армянского шовинизма / науч. ред. В. Арзуманлы; сост. И. Заманов. Баку: Гартал, 2001, 762 с.

421.Устав Организации Обьединенных Наций и статус Международного Суда. Департамент общественной информации ООН. Нью-Йорк, 1993.

422.Пакт о стабильности в Европе. Парис, 20-21 март 1995, с.9.

423.Парсамян В. История армянского народа 1801-1900 г. Кн.1, Ереван, 1997, с.88.

424.Первая сессия Верховного Совета Арм.ССР первого созыва. Бюллетень №2, Ереван, 1938, с.12.

425.Петрушевский И. О дохристианских верованиях крестьян Нагорного Карабаха. Тифлис, 1930.

426.Письмо постоянного представителя Азербайджана при Отделении ООН в Женеве от 9 апреля 1997 года в адрес Секретариата Комиссии ООН по правам человека. Приложение: «Информация о фактах грубых нарушений прав человека, совершенных в ходе агрессии Республики Армения против Азербайджанской Республики». Документ ООН E/CH. 4/1997/139.

427. Письмо Постоянного представителя Азербайджана при Отделении ООН в Женеве от 26 мая 1998 года в адрес Секретариата Подкомиссии ООН по предупреждению дискриминации и защите меньшинств. Приложение: Указ Президента Азербайджанской Республики «О геноциде азербайджанцев» от 26 марта 1998 года. Документ ООН Е/СН. 4/Суб.2/1998/26.

428. Письмо Постоянного представителя Азербайджана при Отделении ООН в Женеве от 26 мая 1998 года в адрес Секретариата Подкомиссии ООН по предупреждению дискриминации и защите меньшинств. Приложение: «Информация о массовой депортации азербайджанцев со своих исторических и этнических земель на территории Армянской ССР в 1948-1953 гг.». Документ ООН Е/СН. 4/Суб.2/1998/27.

429. Помпеев Ю. Кровавый омут Карабаха. Баку, 1992,130 с.

430. Полухов Э. Основные направления внешнеполитического курса Азербайджанской Республики на современном этапе. // Центральная Азия и Кавказ, 1999, №4(5).

431. Постановление Президиума Верховного Совета СССР «О решениях Верховным Советом Армянской ССР и Азербайджанской ССР по вопросу о Нагорном Карабахе», 18 июля 1988 года // Ведомости Верховного Совета СССР, 1988, №29, с.20-21.

432. Постановление Президиума Верховного Совета СССР «О несоответствии Конституции СССР актов по Нагорному Карабаху, принятых Верховным Советом Армянской ССР 1 декабря 1989 года и 9 января 1990 года», 10 января 1990 года // Ведомости Верховного Совета СССР, 1990, № 3, с. 38.

433. Права человека и судопроизводства. Собрание международных документов. Вена–Варшава, 1995.

434. Проект «Соглашения о прекращении нагорно-карабахского вооруженного конфликта» // «Бакинский рабочий», 21 февраля 2001 г.

435. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI вв.). Краткая хронологическая энциклопедия. Баку: Элм, 2002, 395 с.





436. Путь в никуда: в капкане иллюзий. Политика Армении в материалах популярного сайта. Day.Az. Баку: Day.az, 2009, 160 с.

437. Региональные новости. // Регион плюс. Аналитический взгляд, №5 (5), 29 апреля 2006, с.32-33.

438. Речь президента Азербайджанской Республики Гейдара Алиева на сессии Парламентской Ассамблеи Совета Европы. // Возрождение - XXI век, март 2001, № 3 (37), с.5-8.

439. Решение восьмой сессии Совета народных депутатов НКАО XX созыва «О провозглашении выхода Нагорно-Карабахской Автономной Области из состова Азербайджанской ССР», 12 июля 1988 года. // Ваан Арутюнян, События в Нагорном Карабахе: Хроника, часть 1, февраль 1988 г.-январь 1989 г. Ереван: Издательство АН Армянской ССР, 1990, с. 113-115.

440. Россия и Закавказье в современном мире. Под редакцией Р.М.Авакова, А.Г.Лисова, М.: Финстатинформ, 2002, 192 с.

441. Ротштейн. Ф. Международные отношения в конце XIX века. СПб. - М., 1910.

442. Рзаев К.Т. Правда и ложь о Карабахской войне. Баку: Боз огуз, 1997, 253 с.

443. Рзаев А. Армяно-Азербайджанский конфликт в российских средствах массовой информации.// Азербайджан и азербайджанцы, 2000, №1, с.43-52.

444. Решетов Ю. Проект конвенции о праве народов на самоопределение. //Московский журнал международного права. М., 2000, №3.

445. Садыхов Ф. Я. Россия далекая и близкая: взгляд из Азербайджана. Баку: Адильоглы, 2006, 466 с.

446. Салех Бей. Армянство. Баку: Элм, 1994, 440 с.

447. Саркисян М. Внешняя политика Армении. Ереван, 1998.

448. Сафранов Р. Турецкая внешняя политика и государства Центральной Азии и Кавказа. К итогам конференции в Гарварде. // Центральная Азия и Кавказ, 1998, №1.

449. Саядов О. Азербайджан на меридианах международных отношений. Баку, 1991.

450. Саядов С. Азербайджан: международные связи и взаимопонимания. Баку, 1991.

451. Саядов С. Азербайджан в международные деятельности Советского Союза (1971-1985 гг.). Баку, 1996.

452. Саядов С. Азербайджан на международных ярмарках и выставках (70-80-е гг.). Баку, 1985.

453. Свиетоховский Т. Русский Азербайджан 1905-1920. // «Хазар», 1990, №3, с.46.

454. Севдималиев Р. Международный терроризм – глобальная проблема современности. Баку: Элм, 2004, 312 с.

455. События вокруг НКАО в кривом зеркале фальсификаторов. (Сборник материалов). Баку: Элм, 1989, 92 с.

456. Султанов С. С меткой дявола. Баку, 2001, 315 с.

457. Султанов С. Последний удар Империи, Баку, 20 январ 1990. Баку: Нафта-Пресс, 2004, 765 с.

458. Султанов Ч. А. Нашествие. Кн. 1.- 2-е изд., доп. Баку: Нафта-Пресс, 2004, 596 с.

459. Султанов Ч. А. Нашествие. Кн. 2.- 2-е изд., доп. Баку: Нафта-Пресс, 2004, 562 с.

460. Султанов Ш. Региональные конфликты и глобальная безопасность. М.: Знание, 1990.

461. Станбульский документ 1999 года. Станбул, 1999.

462. Теория международных отношений. М.: Наука, 2002.

463. Тетчер М. Искусство управления государством (Стратегии для меняющегося мира). Пер. с анг. М.: Альпина паблишер, 2003.

464. Тер-Петросян Л. Откравения от Левона. // Мнение. Ежемесячный общественно – политический журнал, 1 (3) январ 1998, с.17, 23.

465. Трактат между Карабахским ханом и Российской империей о переходе Ханства под власть России от 14 мая 1805 года. Баку: Шярг-Гярб, 1992, 11 с.

466. Ханджян А. Основные задачи нашей идеологической борьбы. Ереван, 1933, 35 с.





467. Хельсинский документ 1992 года вызов времени перемен. Хельсинки, 1992.

468. Хронология Армяно-Азербайджанского конфликта (1991-1994 гг.) // Hərbi bilik, 1996, №3, с.98-101.

469. Чернявский С. И. Новый путь Азербайджана. М.: Азер-Медиа: Книга и бизнес, 2002, 352 с.

470. Церцвадзе Ф. Лицемерие и ложь армянской пропаганды. Баку: Чашыоглу, 2007, 105 с.

471. Шавров Н. Новая угроза русскому дело в Закавказье. СПб, 1911.

472. Шариф А. Чего стоит услуга, которая уже оплачена? // Зеркало, 27 мая – 10 июня, 2006 г.

473. Шопен И. Исторический памятник состояния армянской области в эпоху ее присоединения к Российской Империи. СПб.: Типография Императорской Академии Наук, 1852.

474. Шукуров И., Ибрагимов Н. Гейдар Алиев открывает мира Азербайджан. Баку, 1994, 173 с.

475. Шукуров И. Будапештский саммит. Баку: Азернешр, 1995, 28 с.

476. Шукуров И. ОИК Армения признана агрессором (Об итогах работы Президента Азербайджана Гейдара Алиева на 7-м Исламском Саммите в Касабланке 13-17 декабря 1994 (1415 хиджры). Баку: Азернешр, 1995, 16 с.

477. Шукуров И. Дипломатия мира. Баку: Азернешр, 1997, 92 с

478. Шукюров И. Армянский сепаратизм как фактор Кавказского кризиса. // Возраждение-XXI век. 2000, №7-8,с.127-133.

479. Шукюров К. Кюрекчайский договор: об основных положениях, претворения в жизнь и последствиях упразднения. // Гарабаг: Кюрекчайский договор – 200. Баку: 2005, с. 145-152.

480. Экологическая агрессия армян продолжается… // Зеркало, 27 мая 2006 г.

481. Эйвазов Дж. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики / науч. ред.: Э. М. Исмаилов. Баку: Нурлан, 2004, 352 с.

**482.** Яшароглу М. Конгрессмен призвал конгресс США признать Ходжалинский геноцид. // Зеркало, 22 февраля 2005 г.

**483.** Ямсков А. Традиционное землепользование кочевников исторического Карабаха и современный Армяно-Азербайджанский этнотерриториальный конфликт. М., 1998.

### IV. Ingilis dilində

**484.** Abdullayev E. I. The Nagorno-Karabakh problem in the light of international law / translated into eng. by: B. I. Hajiyev. Baku: Tahsil, 2005, 224 [20] p.

**485.** Azerbaijan: Seven years conflict in Naqorno-Karabakh-Human. Riichtf Watch / New York, 1994.

**486.** Azerbaijan International, California, Septamber, 1993.

**487.** Azerbaijan in the World : articles, interviews, chronology / Azerbaijan Diplomatic Academy. Vol. I : 2008 / P. Goble [et al.]. Baku: Chashioglu, 2009, 351 p.

**488.** Azerbaijan-USA New horizons of strategic partnership: Official Visit of Ilham Aliyev, President of the Republic of Azerbaijan to the United States of America. Washington, April 25-28, 2006. Baku, 2006, 109 p.

**489.** Azerbaijan-USA on the Road of Friendship and Partnership: Business Visit of the President of the Republic of Azerbaijan Heydar Aliyev to the United States of America, February 12-28, 2000 / The Secretariat of the President of the Republic of Azerbaijan. Baku: w. p., 2000, 182 p.

**490.** Adams.T. Oil and Geopolitical Strategy in The Caucasus, Asian Affairs, February 1999, p.18-19.

**491.** Bjezinski Z., Paige Sulivan (der.) Russia and The Commonwealth of independent States, 232 p.

**492.** Briztol War Diary. 14 august 1992, US 867.000/1540.

**493.** Danielyan E. Change of Leadership without political reform; Country Fles: Armenia: annual report 1998.





**494.** Documents on the Armenian Question: Karabakh La-Verne, CA: AAIC, University of La-Veme. 18 p.

**495.** Hovannissian R. The republik of Armenia. Los Anjelos. vol. 2, p.450.

**496.** Interim Report of the CSCS. Rapporteur Mission on the Situation in Nagorno Karabakh. United States Institute of Peace. Washington. D.C. 1992. p.22-31.

**497.** International Visions: the Armenia-Azerbaijan conflict over Karabakh: from History to Future Peace prospects. w. c.:w.p., 2007,160 p.

**498.** Quated by Itar-Tass Word Service, 21 iyul 1993-cü il. Transкafкazyada Petrol və Rus Emperiyalizmi.// Avrasiya Etüdleri, sayı 1, Ilкbahar 1996, s.17.

**499.** Global Horizons: President Aliyev's Visit to the USA / ed.: B. Blair, J. Garibova. USA: Azerbaijan International, 1997, 68 p.

**500.** Mammadova H.İ. Khodjaly: martyrs and witinesses (Armenian terrorism as an integral Parf of the international one). Bakı: Qərənfil, 2006, 247 s.

**501.** Mammadova H.İ. The Khodjaly genocide. Baku: Nurlan, 2009, 111 c.

**502.** Mammadova H.İ. Role of Turkey in settlement of Armenian-Azerbaijani Nagorno-Karabakh conflict // "Azerbaijan and Azerbaijanis", 2008, № 1-4, s.73- 79.

**503.** Mammadova H.İ. Territorial claims and ethnic cleaning policy of Armenia against Azerbaijan // Vol.98, N0.5-8, 2008, s.47-52.

**504.** Maresca C. Agony of indifference in Nagornı-Karabaкh. //The Christian Seience Monitor, 27 iyun 1999.

**505.** The Statistical Information about Refugees and internally Displaced Persons in Azerbaican.Baкu, 2000, p.2.

**506.** Together Towards the New Century: Official Visit of Heydar Aliyev, the President of the Republic of Azerbaijan to the United States of America: 27 july - 7 august 1997 / trans. by R. Huseinov. [s. l.], [s. a.], 411 p.

**507.** Tütünçü M. Turкeys Foreign policy in the Caucasus. // Caucasus and unholy alliance, 325-336, pp.333.

**508.** U.S. Hopes for Acceptance of Nagorno Karabaкh plan. //State Department Report.

**Internet materialları**

**509.** www. president.az/azerbaican/nк/conf3.htm
**510.** http.// archive. tol.cz/transitions/anewsec1.html
**511.** www.trt.net.tr
**512.** www.zaqafqaziya.orq
**513.** www.osce.orq / docs / russian / 1990-1999 / summits / buda 94 r. htm # cii>
**514.** www.osce.orq / documents / mcs / 1990 / 11 / 4045 / ru.pdf>
**515.** www.osce.orq / docs / russian / 1990-1999 / mcs / 9 buch. 01 r. pdf>
**516.** www.osce.orq / documents / mcs / 1992 / 03 / 4150 / ru.pdf>
**517.** www.osce.orq / docs / russian / 1990-1999 / summits / ista-dec 199 r. htm>
**518.** www. poli. vub. ac. de
**519.** www. zef.de/download/ethnic-conflict/volкan.pdf.





## MÜNDƏRİCAT

**Giriş**..........3

**I Fəsil. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan Respublikasının xarici siyasətinin ilk dövründə**..........27
1.1. Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri və mahiyyəti..........27
1.2. Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müstəqilliyin ilk dövründə..........55

**II Fəsil. Azərbaycan Respublikasının xarici siyasəti yeni mərhələdə. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi xarici siyasətin əsas istiqaməti kimi**..........69
2.1. Azərbaycan Respublikasının yeni xarici siyasət konsepsiyası: başlıca prioritet və perspektivləri..........69
2.2. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli müasir xarici siyasət xəttində: ənənə və varislik..........79

**III Fəsil. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional güc mərкəzləri ilə münasibətlərdə**..........114
3.1. Rusiya Federasiyası..........114
3.2. Türкiyə Respublikası..........140
3.3 İran İslam Respublikası..........177

**IV Fəsil. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq təşkilatlarda**..........196
4.1. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və BMT-nin mövqeyi..........196
4.2. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı....223
4.3. Avropa Şurası, Avropa Birliyi və İslam Konfransı Təşkilatı..........295
**Nəticə**..........307
**İstifadə olunmuş ədəbiyyat**..........321

HAVVA İSA qızı MƏMMƏDOVA

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ

| | |
|---|---|
| **Mətbəə müdiri:** | *Əvəz İdrisoğlu* |
| **Dizayner:** | *Vəfa Nağıyeva* |
| **Korrektor:** | *Dilbər Qələndərli* |
| **Texniki redaktor:** | *Şahin Abbasov* |
| **Operator:** | *Şahin Salmanov* |

*Yığılmağa verilib: 24.07.2009-cu il.*
*Çapa imzalanıb 10.09.2009-cu il.*
*Sayı 500. Həcmi 22,5 çap vərəqi.*
*Formatı 70x90 1/16. Ofset çapı.*

***AzTU-nun mətbəəsi. H.Cavid pr.25.***
***Tel: (+012) 439-14-52***
***E.mail: aztumetbee@yahoo.com***